**SEYYİD ƏLİƏKBƏR OCAQ NEJAD**

# QURANİ-KƏRİMDƏ XİTABLAR

**ALTINCI CİLD**

**Bakı – 2012**

**Seyyid Əliəkbər Ocaq Nejad,**
**Qurani-Kərimdə xitablar**

Bakı, "Qələm" nəşriyyatı, 2012. 520 səh.

**Tərtib edən: Mehrab Xəlilov**
**Redaktor: Seyid Əliəsgər Behbudlu**

Hörmətli oxucu!
Əlinizdə olan bu kitab Seyyid Əliəkbər Ocaq Nejadın "Qurani-kərimdə xitablar" mövzusunda söylədiyi moizələr əsasında hazırlanmışdır.

Azərbaycan Respublikasinin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin 01 iyul 2012-ci tarixli DK-360/B məktubuna əsasən çap olunmasına icazə verilmişdir

## QURANDA İMAN GƏTİRƏNLƏRƏ XİTABLAR
## (İkinci nümunə)

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ. اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلتَّقوى وَالْيَقِينِ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَنْبِياءِ وَالْمُرْسَلِيَنَ حَبِيبِنا وَحَبِيبِ اِلهِ الْعالَمِينَ اَبِي الْقاسِمِ مُحَمَّدٍ وَعَلى آلِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ وَلَعْنَةُ اللهِ عَلى أَعْدا ئِهِمْ أَجْمَعِينَ مِنَ الآنَ اِلى قِيامِ يَوْمِ الدِّينِ.

## ORUC TUTMAĞIN VACİBLİYİ

Ötən bəhslərimizdə müqəddəs Qurani-Kərimdə olan xitablar barədə lazımi qədər söhbətlərimiz oldu. Qeyd edildi ki, Allah Quranda müxtəlif növ xitablarla insanlara müraciət edir. Həmin xitablardan bəzisini isə nümunə olaraq sizin nəzərinizə çatdırdım. Bu nümunələri xatırlatmaqda məqsədimiz Allahın iman gətirənlərə olan müraciətləri bəhsinə yetişmək idi. Allah-təala Qurani-Kərimdə iman gətirənlərə xitab etməklə lazımi sözləri bəyan etmişdir. İman gətirənlərə ünvanlanan xitablardan nümunə olaraq "Nisa" surəsinin 136-cı ayəsi barədə müəyyən qədər söhbət etdik. Bu bəhsimizi isə həmin xitablarla davam etdirərək Allahın iman gətirənlərə etdiyi müraciətlərdən ikinci nümunə haqda söhbət açacağıq. Yəni bəhs edəcəyimiz həmin bu ayədə Allah-təala iman gətirənlərə xitab edərək oruc tutmağın vacibliyini bəyan edir. "Bəqərə" surəsinin 183-185-ci ayələrində oxuyuruq:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُتِبَ عَلَيْكُمُ الصِّيَامُ كَمَا كُتِبَ عَلَى الَّذِينَ مِن قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ

-Ey iman gətirənlər, sizdən əvvəlkilərə yazıldığı kimi, sizə (də) oruc yazıldı və qərara alındı, (ki,) bəlkə təqvalı olasınız (ruhunuz qüvvətlənsin və nəfsani istəklərdən çəkinəsiniz).

Allah-təala bu mübarək ayədə möminlərə xitab edərək oruc tutmağın zəruriliyi və faydası haqda söz açır. Ümumiyyətlə, Allah-təala insanı ona görə yaratmışdır ki, Onun qarşısında səcdə edərək təqvaya çatsınlar. Təqvaya çatmağın yollarından biri də orucluqdur ki, bu ayədə bəyan olunmuşdur. Bu ayədən sonra gələn ayələrdə də oruc tutmağın bir sıra hökmləri barədə söz açılmışdır. Həmin ayələri qeyd etməzdən öncə yuxarıdakı ayədə olan incə bir məqama diqqət yetirək. Ayədəki həmin məqam budur ki, Allah-təala çox gözəl bir şəkildə möminlərə xitab edərək orucluğun vacibliyini bəyan edir. Yəni bu mübarək ayədə son dərəcə vacib bir əməldən söz açılır. Ancaq insanı təqvaya çatdıran həmin əməli yerinə yetirmək o qədər də asan bir iş deyildir. Lakin Allah-təala onu elə incə və gözəl formada bəyan edir ki, sanki onun bütün çətinlik və ağırlığı insanın canından götürülür. Ayədə ilk növbədə iman gətirənlərə müraciət edilməklə vacib sayılan bu ibadətin ağırlığı müəyyən qədər aradan qaldırılır. Məsələn, insanlar arasında da belə bir düşüncə tərzi vardır ki, insan hər hansı bir məsələni başqalarına çatdırmaq istədikdə əvvəlcə elə sözlərdən istifadə edir ki, nəzərdə tutduğu həmin məsələ nə qədər ağır olmuş olsa da belə ürəklərə sanki yağ kimi yayılır. Yəni əsas fikri çatdırmazdan öncə həmin insanların qəlblərində bir məhəbbət hissi yaradır. Beləcə, insanların qəlblərində məhəbbət hissini yaratdıqdan sonra isə nəzədə tutulan mətləbi bəyan edir. Aydındır ki, belə

olan tərzdə həmin məsələ nə qədər ağır olmuş olsa da belə onun ağırlığı bir o qədər nəzərə çarpmır. Allah-təala da ilk növbədə iman gətirənlərə xitab etməklə onların imanlı olduqlarını bəyan edir və deyiləcək məsələnin ağırlığını yüngülləşdirir. Yəni Allah-təalanın mömin bir insana "ey iman gətirən" - deyə müraciət etməsi ona təsəlli və ürək-dirək verir. İmam Sadiq(ə) qeyd olunan bu mübarək ayəni şərh edərkən həmin incə məqama toxunaraq buyurur:

لَذَّةُ مَا فِي النِّداءِ أَزالَ تَعبَ العِبادةِ وَ العِناءِ

-(Allahın) "Ey iman gətirənlər" deyərək xitab etməsinin şirinliyi ibadətin (orucluğun) çətinliyini aradan qaldırır.[1]

Bundan əlavə, Allah-təala bu ayədə oruc tutmağın vacibliyini elə gözəl bir şəkildə bəyan edir ki, heç kimdə başqa bir fikir formalaşmır. Yəni ayədən belə nəticəyə gəlinir ki, siz elə təsəvvür etməyin ki, oruc tutmaq təkcə sizə vacib buyurulmuşdur. Sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, bu ibadət sizə də vacib oldu. Ayənin bu hissəsi də oruc tutmağın ağırlığını aradan qaldırır və hamı başa düşür ki, orucluq təkcə İslam ümmətinə deyil, keçmiş ümmətlərə də vacib olmuşdur. Allah-təala bu hökmü ümumi şəkildə bəyan edir. Bəllidir ki, bir hökm ümumi olduqda onun ağırlığı da azalır. Məsələn, ölüm barəsində olan ayələrə diqqət yetirdikdə biz "bütün canlılar ölümü dadacaqlar" cümləsinin şahidi oluruq. Ölüm ağır bir məsələ olduğundan Allah-təala onu hamıya, yəni bütün canlılara aid edir. Beləliklə heç bir

[1] Təfsiri nümunə, 1-ci cild, səh. 624.

kəs elə təsəvvür etmir ki, bu ağır məsələ yalnız ona aiddir.

Həmçinin "insan üzünü hansı tərəfə tutarsa, Allahın səmti oradadır" ayəsini oxuduqda başa düşülür ki, hətta ölüm anında belə Allah-təala insanladır. Allah bu və bu kimi digər məsələlərin ağırlıq və acılığını insanların üzərindən elə bir formada götürür ki, sanki O, insanlara toxtaqlıq verir. Orucluq məsələsi də həmin ağır ibadətlərdəndir ki, Allah-təala onun vacibliyini belə gözəl bir şəkildə bəyan etməklə bu ibadətin ağırlığını insanların üzərindən götürür. Sonra daha bir mətləbi də bəyan edərək buyurur ki, əgər oruc tutsanız onun xeyri də sizin özünüz üçündür. Bu fikri bəyan etməklə Allah-təala insanı başa salır ki, elə düşünməyin ki, sizin ac-susuz qalmaqla yerinə yetirdiyiniz bu ağır ibadətdən başqaları xeyir götürəcəkdir. Xeyr, bu ibadətin xeyri sizin özünüz üçündür. İnsanın bu dünyada Allaha xatir gördüyü bütün xeyirxah işlərin hamısı onun özü üçün qorunub saxlanılır və qiyamət günü artıqlaması ilə onun özünə qaytarılacaqdır. Oruc tutmaq da insanın özü üçün xeyirli olduğundan qiyamət günü onun bütün xeyirlərini görəcəkdir.

Sonrakı ayədə oruc tutmağın müddəti və bir sıra başqa hökmləri ilə bağlı məsələlərə işarə edilir. Yəni bu ayədə də Allah-təala insana toxtaqlıq verərək bildirir ki, elə güman etməyin ki, il boyu oruc tutmalısınız. Yaxud elə fikirləşməyin ki, harada və hansı halda olmağınızdan asılı olmayaraq oruc tutmaq mütləq sizə vacibdir.

أَيَّامًا مَّعْدُودَاتٍ فَمَن كَانَ مِنكُم مَّرِيضًا أَوْ عَلَى سَفَرٍ فَعِدَّةٌ مِّنْ أَيَّامٍ أُخَرَ وَعَلَى الَّذِينَ يُطِيقُونَهُ فِدْيَةٌ طَعَامُ مِسْكِينٍ فَمَن تَطَوَّعَ خَيْرًا فَهُوَ خَيْرٌ لَّهُ وَأَن تَصُومُواْ خَيْرٌ لَّكُمْ إِن كُنتُمْ تَعْلَمُونَ

-Bir neçə gün! Odur ki, sizdən kim xəstə, yaxud səfərdə olsa, bir neçə gün (tutmadığı günlərin sayı qədər) digər günlərdə (oruc tutsun). Və oruc tutmağın taqətsizləşdirdiyi kəslər (qocalar, azyaşlılar və ağır xəstələr oruc tutmaya bilərlər və onlar) üçün (oruc tutmadıqları hər günün müqabilində) bir yoxsula (bir "mudd", yəni yeddi yüz əlli qram) yemək vermək onun kəffarə və əvəzidir. Kim xeyirə artırsa (və iki "mudd" versə) onun üçün daha yaxşıdır. Oruc tutmaq (çətin və məşəqqətli olsa da), sizin üçün daha yaxşıdır, əgər bilsəniz!

Qeyd olunan ayələrdə oruc tutmağın vacibliyi, onun bir neçə gün olması və bir sıra başqa hökmləri bəyan edilir. Sonrakı ayədə isə orucluq ayı müəyyən edilərək belə buyurulur:

شَهْرُ رَمَضَانَ الَّذِيَ أُنزِلَ فِيهِ الْقُرْآنُ هُدًى لِّلنَّاسِ وَبَيِّنَاتٍ مِّنَ الْهُدَى وَالْفُرْقَانِ فَمَن شَهِدَ مِنكُمُ الشَّهْرَ فَلْيَصُمْهُ وَمَن كَانَ مَرِيضًا أَوْ عَلَى سَفَرٍ فَعِدَّةٌ مِّنْ أَيَّامٍ أُخَرَ يُرِيدُ اللّهُ بِكُمُ الْيُسْرَ وَلاَ يُرِيدُ بِكُمُ الْعُسْرَ وَلِتُكْمِلُواْ الْعِدَّةَ وَلِتُكَبِّرُواْ اللّهَ عَلَى مَا هَدَاكُمْ وَلَعَلَّكُمْ تَشْكُرُونَ

-Ramazan ayı insanların bələdçisi, aşkar hidayət dəlillərinə malik və (haqq ilə batili bir-birindən) ayıran Quranın nazil olduğu bir aydır. Buna görə də sizdən bu ayı görən (öz vətənində olan) kəs onu (o ayı) oruc

tutmalıdır. Xəstə, yaxud səfərdə olan şəxslər isə başqa günlərdə bir neçə gün (oruc tutmadıqları günlərin sayı qədər) oruc tutmalıdırlar. Allah sizin üçün asanlıq istəyir, sizin üçün çətinlik istəmir. Həmçinin (istəyir ki,) müəyyən olunmuş miqdarı (otuz günü) tamamlayasınız və sizi hidayət etməsinin şükrü olaraq "təkbir" deyərək Allahı əzəmətli sayasınız, bəlkə (Onun) şükrünü yerinə yetirə bildiniz.

Allah-təala bu ayədə ramazan ayının şərafətinə toxunaraq Quranın bu mübarək ayda nazil olmasına işarə edir və bildirir ki, hər bir kəs bu ayda mütləq oruc tutmalıdır. Həmçinin xəstə, yaxud səfərdə olan insanları da nəzərə alaraq bildirir ki, səfərdən qayıtdıqdan sonra, yaxud xəstəliyi və ya üzrü aradan qalxdıqdan sonra ramazan ayında tutmadığı orucları tutaraq müəyyən olunmuş müddəti tamamlamalıdır. Allah-təala bu kimi hökmləri bəyan etməklə məsələni bizim üçün asanlaşdırır və bizi edə bilməyəcəyimizdən artıq yükləmir.

قَالَ الصَّادِقُ(ع): مَا كَلَّفَ اللهُ العِبادَ إِلاّ مَا يُطِيقُون، وَ إِنَّما كَلَّفَهُم فِي اليَومِ وَاللَّيلةِ خَمسَ صَلَواتٍ... وَكَلَّفَهُم صِيامَ شَهرِ رَمَضَانَ فِي السَّنَة

-İmam Sadiq(ə) buyurur: "Allah-təala Öz bəndələrinə edə bilməyəcəkləri (bacara bilmədikləri) hökmləri vacib etməyib. Onlara hər gün (gecə və gündüz ərzində) beş dəfə namaz və (il ərzində bir ay) ramazan ayının orucunu vacib buyurmuşdur."[1]

[1] Allahın ayı,1-ci cild, səh. 92.

Bəzən bir sıra insanları görürük ki, namaz qılmamaq, yaxud oruc tutmamaq üçün müxtəlif bəhanələr gətirirlər. Allah-təala heç bir vaxt insanın bacara bilmədiyi hökmü onun üçün vacib etməyib. Əgər insan gün ərzində beş dəfə namaz qılmaq istəsə, qıla bilər. Sadəcə olaraq Allahdan uzaq düşdüyünə görə bu əməllərə əhəmiyyət vermir. Allah-təala insana vacib əməlləri yerinə yetirmək üçün qüdrət də vermişdir. Bəzən belə bəhanə gətirirlər ki, namaz qılmağa vaxtım olmur, yaxud işimlə uyğun gəlmir. Allah-təala insanı məhz ibadət və itaət üçün yaratmışdır. Əgər bir varlıq ibadət üçün yaradılmışdırsa, necə ola bilər ki, onu yerinə yetirməkdə vaxt tapa bilməsin? Məgər gün ərzində təxminən yarım saat vacib əməllərlə məşğul olmaq belə çətindirmi?

Namaz qılmaq istəməyən və ya müxtəlif bəhanələr gətirən insanlar həqiqətdə Allahı tanımamışlar. Əsl həqiqətdə onlar Allah-təalaya ibadət etmək fikrində deyillər. Əgər onlar Allahı yaxşı tanıya bilsələr, namaz qılmaq üçün heç bir çətinlik yaratmadığını da dərk edərlər. Necə ola bilər ki, insan gün ərzində müxtəlif əyləncələrlə məşğul olmağa, müxtəlif filmlərə baxmağa, gəzib-dolaşmağa vaxt tapır, amma namaz qılmağa beş-on dəqiqə vaxt tapa bilmir? Bütün bunların hamısı namaz qılmamaq üçün yersiz bəhanələrdir. Mərhum Ayətullah Behcətin və digər böyük alimlərin kitablarında insanların belə bəhanələr gətirmələrinə dair fikirlərə rast gəlmək mümkündür. Onlar demişlər: İnsanın bu dünyada vaxtı hara sərf olunur ki, ibadət etmək üçün vaxt tapa bilmir? Axı insan bu dünyaya ibadət etmək üçün gəlmişdir. Başqa işlərin hamısına vaxt tapa bilir, amma ibadət

etməyə gəldikdə isə vaxtı olmur? Məsələn, bir uşağı məktəbə dərs oxumağa göndərirlər. Uşaq məktəbə gedib-gəlir, amma dərslərini oxumur. Ondan "nə üçün dərs oxumursan" - deyə soruşduqda isə deyir: vaxtım olmur. Ondan soruşulur ki, sənin işin dərs oxumaqdan ibarət olduğu halda, bəs vaxtını harada keçirirsən ki, dərs oxumağa da vaxtın qalmır? Şagirdin vaxtı yalnız dərs oxumaq üçündür və ondan başqa o, nə işlə məşğul ola bilər? Əgər bir şagirdin işi-gücü dərs oxumaqdırsa, o zaman vaxtını dərsə sərf etməli və digər işlərlə məşğul olmamalıdır.

قَالَ الصَّادِقُ(ع): إِذَا جِئتَ بِالْخَمسِ الصَّلَوَات لَمْ تُسأَل عَنِ صَّلاةٍ، وَ إِذَا جِئتَ بِصومِ شَهرِ رَمَضَان لَمَ تُسأَل عَن صَومٍ

-İmam Sadiq(ə) buyurur: "Hər kəs gün ərzində beş dəfə namaz qılsa, (qiyamət günü) həmin şəxsdən namaz haqda soruşulmayacaq. Hər kəs ramazan ayında oruc tutsa, o, orucluq barədə sorğu-sual olunmayacaq."[1]

Quran ayələrindən əlavə bu hədislərdən də açıq-aydın başa düşülür ki, il ərzində oruc tutmağın vacib sayıldığı müddət mübarək ramazan ayıdır. Yəni hər bir müsəlman bu ayı bütünlüklə oruc tutmalıdır. Burada iki məsələyə də işarə etməyimiz yerinə düşər. Həmin məsələlərdən biri orucluq ayı barəsində, ikincisi isə orucluğun özü barəsində olan məsələdir.

## Ramazanın mənası

[1] Allahın ayı, 1-ci cild, səh. 92.

İndi isə ilk növbədə orucluq ayı, yəni mübarək ramazan ayı barəsində bir qədər söhbət açaq və bu ayın mənası ilə tanış olaq. Sual oluna bilər ki,bəs nə üçün bu ayın adı ramazandır? Həmçinin baxaq görək “ramazan” sözünün mənası nədir? Lüğət kitablarına diqqət yetirdikdə görürük ki, ərəb dilində iki şeyə ramazan deyilir.

Ramazan “rəməzə” sözündən götürülmüşdür. Birinci mənası payızın ilk yağışını ifadə edir. Bu o deməkdir ki, yaydan qalan bütün toz-torpağın hamısını yuyub təmizləyir. Ərəb dilində həmin bu yağışa “ramazan” deyilir. Yəni yayda təbiətdə əmələ gəlmiş bütün çirkab və toz-torpağı yuyub aradan aparır. İkinci mənası isə günəşin qızdırdığı daş mənasındadır. Yəni günəş şüaları daşın üzərinə o qədər istilik salır ki, həmin daşa əl vurduqda adamın əlini yandırır.

Əhli-sünnə alimlərindən biri olan Zəməxşəri “Əl-Kəşşaf” adlı təfsirində belə yazır: “Əgər məndən bu ayın adına nə üçün ramazan deyildiyini soruşsalar, belə cavab verərəm: Orucluq İslamdan əvvəlki ümmətlərə də vacib buyurulmuşdur. Payızın ilk yağışı yayda əmələ gəlmiş toz-torpağı yuyub aradan apardığı kimi, eləcə də bu ayda oruc tutmaq insanın günahlarını yuyub təmizləyir. Həmçinin günəşin qızdırdığı daş adamın əlini yandırdığı kimi, ramazan ayının orucu da eləcə insanın günahlarını yandırıb təmizləyir.

Hədis və rəvayətlərə diqqət yetirdikdə ramazan ayının nə üçün ramazan adlandırıldığını görmək olur. Bu barədə Peyğəmbər(s) və məsum imamlarımızdan bir sıra hədislər nəql olunmuşdur.

قَالَ رَسُولُ اللهِ(ص): اِنَّمَا سُمِّيَ رَمَضَان لِأَنَّهُ يُرمِضُ الذُّنُوب

-Həzrət Peyğəmbər(s) buyurur: “Ramazan günahları yandırdığına görə ramazan adlandırılmışdır.”[1]

قَالَ رَسُولُ اللهِ(ص): شَهرُ رَمَضانَ شَهرٌ فَرَضَ اللَّهُ عَلَيكُم صِيامَهُ؛ فَمَن صامَهُ إيماناً وَاحتِساباً خَرَجَ مِن ذُنوبِهِ كَيَومٍ وَلَدَتهُ اُمُّهُ

-Həzrət Peyğəmbər(s) buyurur: “Ramazan ayı elə bir aydır ki, Allah-təala bu ayda oruc tutmağı sizə vacib buyurmuşdur. Hər kəs (ramazan ayında) imanla oruc tutsa, anadan olduqda günahdan pak olduğu kimi, günahlardan pak olar.” [2]

## Mübarək ramazanın adları

Hədis və rəvayətlərə əsasən mübarək ramazan ayının təxminən otuzdan artıq adı nəql olunmuşdur. Hər bir adın isə öz məna və açıqlaması vardır. Yəni bu adların hər biri ramazan ayının bir cəhətinə işarə edir. Hər bir cəhət isə bu mübarək ayın əzəmətini bildirir. Nümunə üçün həmin adlardan bir neçəsini diqqətinizə çatdırıram.

### 1. Allahın ayı

Hədis və rəvayətlərdə mübarək ramazan ayının adlarından biri “Allahın ayı”dır. Həzrət Peyğəmbər(s) və eləcə də Həzrət Əli(ə) mübarək ramazan ayının gəlişi ilə əlaqədar olaraq oxuduğu xütbəsində buna işarə edərək belə buyurur:

---

[1] Allahın ayı,1-ci cild, səh. 14.
[2] Allahın ayı,1-ci cild, səh. 92.

قَد اَقبَلَ اِلَيكُم شَهرُ الله

-Allahın ayı sizə üz gətirmişdir. [1]

Xütbədə bu ayın adlarından birinə işarə edilərək bildirilir ki, ramazan ayı Allahın ayıdır. Yəni bu mübarək ay Allaha məxsusdur. Əgər bu ay Allahın ayıdırsa, deməli onun əzəmətli bir ay olmasına dəlildir. Ümumiyyətlə, bütün günlər, həftələr və aylar Allahındır. Amma ramazan ayının adını çəkməklə və onu Allaha aid etməklə bu ayın adı xüsusi qeyd edilərək digər aylarla müqayisədə bu ayın əzəmətinə işarə olunur. Necə ki, Həzrət Peyğəmbər(s) şəban ayının xütbəsində belə buyurmuşdur: "Şəban ayı mənim, ramazan ayı isə Allahın ayıdır."

**2. Allahın böyük ayı**

Hədislərə əsasən mübarək ramazan ayının ikinci adı "Allahın böyük ayı" adlanır. İmam Zeynül-abidin(ə) ramazan ayının axırında vidalaşaraq oxuduğu duada belə buyurur:

اَلسَّلامُ عَلَيكَ يَا شَهرَ اللهِ الأَكبَر

-Salam olsun sənə ey Allahın böyük ayı.[2]

---

[1] Yenə orada, səh. 34.
[2] Allahın ayı,1-ci cild, səh. 34.

### 3. İlahi ziyafət

İslam Peyğəmbəri(s) mübarək ramazan ayının gəlişi ilə əlaqədar olaraq buyurduğu xütbədə bu ayın adını “Allahın ziyafəti” adlandırmışdır.

قَالَ رَسُولُ اللهِ(ص): هُو شَهرٌ قَد دُعِيتُم فِيهِ اِلی ضِيَافَةِ الله

-Həzrət Peyğəmbər(s) buyurur: “Bu ay elə bir aydır ki, siz Allahın ziyafətinə dəvət olunmusunuz.”[1]

قَالَ رَسُولُ اللهِ(ص): إذا كانَ يَومُ القِيامَةِ يُنادِي المنادي: أينَ أضيافُ اللّه؟ فَيُؤتى بِالصّائِمينَ... فَيُحمَلونَ عَلى نُجُبٍ مِن نورٍ، و عَلى رُؤوسِهِم تاجُ الكَرامَةِ، و يُذهَبُ بِهِم إلَى الجَنَّةِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Qiyamət günü baş verən zaman bir carçı nida edib səslənər: Haradadır Allah qonaqları? Elə bu zaman oruc tutanları gətirərlər. Onları nurdan düzəldilmiş miniklərə mindirər, başlarına kəramət tacı qoyulmuş halda cənnətə apararlar.”[2]

Burada iki sual irəli sürülə bilər. Birinci sual budur ki, Allahın qonaqlığının mənası nədir? Yəni insanlar həmişə Allahın qonağıdır. Elə bir insan yoxdur ki, bu dünyada Allahın kəramətindən istifadə etməsin. İkinci sual yarızarafatyana da olsa bəzən insanlar bunu bir-birindən soruşurlar. Bu necə qonaqlıqdır ki, oraya dəvət olunanlar mütləq ac-susuz qalmalıdırlar? Adətən qonaqlıqda süfrə açılar və müxtəlif yeməklər yeyilər. Yəni qonaqlığın əsas şərtlərindən biri süfrə açmaqdır.

---

[1] Yenə orada, səh. 40.
[2] Yenə orada, səh. 40.

Amma ramazan ayında Allah-təalanın təşkil etdiyi bu qonaqlığın birinci şərti budur ki, insan yeyib-içməməlidir. Bu qonaqlığın mənası nədir?

Bu sualların cavabında deyilməsi zəruri olan iki mühüm məsələ vardır. Həmin məsələlərdən biri insanın həqiqət və mahiyyəti ilə tanış olmaqdır. Həm Quran ayələrində, həm hədislərdə və həm də böyük alimlərin mülahizələrində insan ayrı-ayrı tərkiblərdən təşkil olunmuş bir məxluqdur. Yəni insan təkcə maddi və fiziki varlıqlardan ibarət deyil. İnsan bir cisim və bir ruhdan təşkil olunmuşdur. İnsanın cismi bir müddət ruha lazımdır. Məsələn, bir nəfər səfərə çıxmalı olur. Onun bu səfər zamanı məqsədə çatması üçün bir miniyə ehtiyacı vardır. İnsan həmin miniyə minib səfərə çıxır və məqsədinə çatdıqdan sonra isə minikdən düşməli olur. İnsanın cismi onun ruhunun daşıyıcısıdır. Ruh məqsədə çatana qədər bu cisim ona lazımdır. Amma ruhun məqsədə çatmasından ötrü cismə müəyyən qədər maddi qidalar da gərəkdir. Cismin sağlam qalması və ruhu sağlam saxlaması üçün insana müəyyən yeməklər lazımdır. Eləcə də ruhun da qidaya ehtiyacı vardır, amma onun qidası maddi qida deyildir. Əsl həqiqətdə insan ruhunun qidası bəzi mənəvi yeməklərdir.

Bəli, "insan həmişə Allahın qonağıdır deyənlər" düz deyirlər. Amma hər gün və harada olmasından asılı olmayaraq insanın cismi Allahın qonağıdır. Yəni insanın cismi həmişə Allaha qonaqdır. Cisim üçün şəban, ramazan və yaxud başqa ayların heç bir fərqi yoxdur. İnsan istədiyi vaxt yeyir, içir və bütün nemətlərin hamısı onun ixtiyarına verilmişdir. Sədi deyir: "Yer üzü Allahın yaratdıqları üçün açdığı bir süfrədir. Bu süfrə kənarında

həm dost əyləşə bilir, həm də düşmən.” Əlbəttə, Sədinin söylədiyi bu fikir daha dəqiqliyi ilə Qurani-Kərimdə bəyan olunmuşdur. Deməli Sədi bu fikri Qurandan iqtibas edərək nəzmə çəkmişdir. Allah-təala “Zuxruf” surəsinin 33-35-ci ayələrində belə buyurur:

وَلَوْلَا أَن يَكُونَ النَّاسُ أُمَّةً وَاحِدَةً لَجَعَلْنَا لِمَن يَكْفُرُ بِالرَّحْمَنِ لِبُيُوتِهِمْ سُقُفًا مِّن فَضَّةٍ وَمَعَارِجَ عَلَيْهَا يَظْهَرُونَ. وَلِبُيُوتِهِمْ أَبْوَابًا وَسُرُرًا عَلَيْهَا يَتَّكِؤُونَ. وَزُخْرُفًا وَإِن كُلُّ ذَلِكَ لَمَّا مَتَاعُ الْحَيَاةِ الدُّنْيَا وَالْآخِرَةُ عِندَ رَبِّكَ لِلْمُتَّقِينَ

-Əgər insanların hamısının bir ümmət olması (hamısının küfr və şirk ətrafında birləşmələri) ehtimalı olmasaydı, həqiqətən Rəhman Allaha kafir olan kəslərin evləri üçün gümüşdən tavanlar və yuxarı çıxmaları üçün (gümüşdən) nərdivanlar düzəldərdik. Və evləri üçün (gümüş) qapılar və taxtlar (düzəldərdik) ki, onlara söykənsinlər. Həmçinin (evləri üçün) qızıl zinət və bəzəklər (verərdik). Lakin bunların hamısı (fani) dünya həyatından (azacıq) bəhrələnməkdən başqa bir şey deyildir. Və Rəbbinin yanında olan axirət təqvalılara məxsusdur.

Həmin ayədən açıq-aydın görürük ki, Allah-təala bu dünyanın bütün naz-nemətini insanların ixtiyarına vermişdir. Kimliyindən asılı olmayaraq insanlar Allahın bütün nemətlərindən bəhrələnə bilirlər. Amma axirətdə belə olmayacaq və axirət günü yalnız təqvalı və Allahın xalis bəndələrinə məxsus olacaqdır. Bu gün dünyada günahkarlarla təqvalılar birgə yaşayır və dünyadan bəhrələnirlər. Amma axirətdə günahkarların hamısı

ayrılacaq. Dünyada təqvalı olan insanlar axirət günü Allahın xüsusi mərhəməti ilə bəhrələnəcəklər. Bu dünyanın hamısı sadəcə olaraq insanların azacıq bəhrələnməsi üçündür və dünyanın Allah-təala yanında qiyməti yoxdur. Əgər bu dünyanın Allah-təala yanında azacıq qiyməti olsaydı, kafirlərə bircə qurtum da su verməzdi.

قَالَ رَسُولُ اللهِ(ص): لَوْ كَانَتِ الدُّنْيَا تَعْدِلُ عِنْدَ اللَّهِ جَنَاحَ بَعُوضَةٍ مَا سَقَى كَافِرًا والفَاجِرًا مِنْهَا شَرْبَةً مِن مَاءٍ

-Həzrət Peyğəmbər(s) buyurur: "Əgər bu dünyanın Allah yanında ağcaqanadın qanadı qədər qiyməti olsaydı, Allah-təala dünyanın bir qurtum suyunu belə kafir və facir insanlara nəsib etməzdi."[1]

Dünyanın Allah-təala yanında qiymət və dəyəri olmadığı üçün hamısını insanların ixtiyarına vermişdir. Kimliyindən asılı olmayaraq hər bir kəs bu dünyanın bütün nemətlərindən istifadə edir. Lakin axirət məsələsinə gəldikdə, o, hamı üçün deyil və axirət yalnız təqvalılara məxsusdur. Odur ki, axirətin nemətlərindən də yalnız təqvalı insanlar istifadə edə biləcəklər. Əgər axirətin nemətləri ilə dünyanın nemətlərini müqayisə etsək, bütün dünyanın hamısı cənnətin bircə qurtum suyuna belə dəyməz. Cənnətin naz-nemətlərindən yalnız möminlər istifadə edəcəklər. Bu dünyanın nemətləri isə şəriklidir. Kimliyindən asılı olmayaraq hər bir kəs bu dünyada Allah-təalanın qonağıdır. Yəni cismin qonaqlığı bu dünyadadır və insanların hamısı həmin qonaqlıqda

[1] Allahın ayı,1-ci cild, səh. 22.

iştirak edirlər. Amma ruh tamamilə başqa bir şeydir və orucluq ayında ruh Allahın qonağıdır. Necə ki, Allah-təala buyurur: “Orucluq mənə məxsus olduğu üçün onun qiymətini də Özüm verəcəyəm.”

Deməliyik ki, müəyyən ayə və hədislərdə bir çox əməllərin qiyməti və dəyəri bəyan olunmuşdur. Lakin bəzi əməllər vardır ki, onların savab və qiymətini Allahdan savayı başqa heç bir kəs bilmir. Onlardan biri gecənin nafilə namazı, digəri isə orucluqdur. Həmin əməllərin savab və qiymətinin nə qədər olması heç bir kəsin ağlına belə gəlmir. Adicə ramazan ayının birinci gününün duasına diqqət yetirdikdə ilk baxışdan adama elə gəlir ki, bir neçə cümlədən, yaxud az vaxt aparan dua və ibadətlərdən biridir. Bəzən insan həmin duanı oxuduqda fikri müxtəlif məsələlərə yönəlir. Ola bilsin bəziləri o duanı oxuduqda elə güman edirlər ki, adi bir duadır və onun nə qədər savabı olmasına bir o qədər də əhəmiyyət vermirlər. Amma bu duanın şərafətinə diqqət yetirdikdə və hədislərə nəzər saldıqda insanı heyrətə gətirdiyini görürük.

Hədislərdə nəql olunmuşdur ki, hər kim (ibadət niyyətilə) ramazan ayının birinci gününün duasını oxusa, Allah-təala onun ömrünün axırına qədər atdığı hər bir addımı üçün savab yazır. Bu, yalnız orucluq ayının birinci günündə oxunan duanın savabıdır. Ona görə də ibadət və dualarda diqqətli olmaq bizə tövsiyə olunmuşdur. Qiyamət günü insanın bütün ibadətlərinə nəzər yetirəcəklər. İnsan əlindən gəldikcə və bacardığı qədər bütün hərəkət və ibadətlərində diqqətli olmalıdır. Qiyamət günündən öncə hər bir günün əməlləri yazılıb aparılır. Mələklər həmin əməlləri qeydə alıb saxlayır və

insan dünyasını dəyişdikdən sonra, yaxud qiyamət günü ona təqdim edəcəklər. Buna görə də mübarək ramazan ayında insanın ruhu Allaha qonaqdır.

Allah-təala bu ayda insanın ruhunu qonaq çağırır. Ruh isə mənəvi dəyərlərlə bağlı olduğundan onun qidası da mənəvidir. Böyük alimlərdən birindən bu barədə soruşduqda belə cavab vermişdir: “Orucluqda insanın cismi deyil, ruhunu qonaq çağırmışlar.” Bunun dəlil və sübutu odur ki, insan başqa aylarda yediyi yeməkləri ramazan ayında da yeyir. Başqa aylar kimi ramazan ayında da eyni evdə yaşayır. Əgər başqa aylarda yeyilən yeməyi ramazan ayında da yeyirsə və başqa aylarda evdə yaşadığı kimi ramazan ayında da həmin evdə yaşayırsa, bunun nəyi qonaqlıq sayılır? Deməli, biz açıq-aydın şəkildə görürük ki, bu qonaqlığa insanın cismi yox, ruhu dəvət olunmuşdur. Bundan əlavə, ramazan ayındakı dəvət cənnətə dəvətdir. Ramazan ayının mənəvi qidası cənnətin yeməkləridir. Bunların hər ikisi qonaqlıqdır. Bu qonaqlığın adı ramazan, o birinin adı isə cənnətin nemətləridir. Bu aləm qeyb, ora isə müşahidə aləmidir. Əgər insan bu dünyada təsbih, zikr deyirsə, onların surəti cənnətin çeşmələri və bağlarıdır. Ramazan ayında oruc tutmaq, günahlardan çəkinmək, ibadətlə məşğul olmağın əsl surəti cənnətin nemətləridir və biz “Vaqiə” surəsində oxuyuruq:

بِأَكْوَابٍ وَأَبَارِيقَ وَكَأْسٍ مِّن مَّعِينٍ. لَا يُصَدَّعُونَ عَنْهَا وَلَا يُنزِفُونَ. وَفَاكِهَةٍ مِّمَّا يَتَخَيَّرُونَ. وَلَحْمِ طَيْرٍ مِّمَّا يَشْتَهُونَ. وَحُورٌ عِينٌ. كَأَمْثَالِ اللُّؤْلُؤِ الْمَكْنُونِ

-(Çeşmədən) axan şərab kuzələri, bardaqları və piyalələri ilə! Ondan (o şərabdan) nə başları ağrıyar, nə də ağıllarını itirərlər. Və seçdikləri meyvələrlə.
Və meyilləri çəkən quş əti ilə. Və (orada onlar üçün) ağdərili, irigözlü gözəl qadınlar (vardır). Sədəfdə gizlənmiş inci kimi (ki, nə rəngi dəyişib, nə də kiminsə əli toxunub onlara)!

Allah-təala Quranda cənnətin barəsində bu kimi ibarələrlə bizi məlumatlandırmışdır. Bəzən isə həmin nemətlərdən xüsusi insanlar üçün nazil etmişdir. Buna nümunə olaraq Həzrət Məryəmi(s.ə) və Fatimeyi Zəhranı(s.ə) misal çəkmək olar.

Bir gün Həzrət Peyğəmbər(s) qızı Fatimənin(s.ə) evinə qonaq gəlib soruşdu: "Qızım, yaman acmışam. Evdə yeməyə nəyin var. Xanım dedi: Atacan, heç nəyimiz yoxdur." Sonra Həzrət(s) çıxıb getdi. Fatimeyi Zəhra(s.ə) narahat olub səcdəyə getdi və Allaha yalvararaq dedi: "İlahi, Sən həmin Allahsan ki, Məryəmə cənnətdən yay vaxtı qış meyvələri, qış vaxtı yay meyvələri göndərirdin. Atam məndən yemək istədi, amma evdə onun qarşısına qoymağa bir şey tapmadım." Fatimeyi Zəhra(s.ə) səcdədən qalxmamış Həzrət Cəbrayıl(ə) əlində cənnət nemətləri ilə dolu bir qab içəri daxil oldu. Xanım Zəhra(s.ə) oğlu İmam Həsəni(ə) çağırıb buyurdu: "Oğlum, get babana de bizə gəlsin." İmam Həsən(s) qaça-qaça gedib babasını çağırdı. Peyğəmbər(s) evə daxil olduqda qeyri-adi yeməkləri görüb Zəkəriyyənin(ə) Həzrət Məryəmdən(s.ə) soruşduğu sözü soruşdu: "Qızım, bunlar sənin üçün haradandır?" Xanım Fatimə(s.ə) Həzrət Məryəmin(s.ə) verdiyi cavabı

verdi. Ərz etdi: “Atacan, bütün bunları Allah göndərmişdir. O, istədiyi kəsə hesabsız ruzi verəndir.”

Odur ki, cənnətin nemətləri zikr və ibadətlər sayəsində insana nəsib ola bilir. Həmin nemətləri bəzən Allah-təala yer üzünə də nazil etmişdir. İnsanın ruhu ramazan ayında da xüsusi olaraq qonaqlığa dəvət olunur. Hər kim bu qonaqlıqda layiqli şəkildə iştirak edə bilsə, cənnətdə həmin qonaqlığın surət və nəticəsinin şahidi olacaqdır.

قالَ عَلِيٌّ(ع): أيُّهَا الصّائِمُ... فَإنَّكَ في شَهرِكَ هذا ضَيفُ رَبِّكَ، أُنظُر كَيفَ تَكونُ في لَيلِكَ و نَهارِكَ؟ و كَيفَ تَحفَظُ جَوارِحَكَ عَن مَعاصي رَبِّكَ؟ أُنظُر ألاّ تَكونَ بِاللَّيلِ نائِما و بِالنَّهارِ غافِلاً؛ فَيَنقَضِيَ شَهرُكَ وقَد بَقِيَ عَلَيكَ وِزرُكَ ؛ فَتَكونَ عِندَ استيفاءِ الصّائِمينَ أُجورَهُم مِنَ الخاسِرينَ.

-Həzrət Əli(ə) buyurur: “Ey oruc tutan şəxs! Sən bu ayda (ramazan ayında) öz Rəbbinin qonağısan. Elə isə gecə və gündüz diqqətli ol. Bax gör öz əzalarını Allaha qarşı günah etməkdən necə saxlayırsan? Diqqətli ol! Məbada gecələri yuxuda, gündüzləri isə qəflətdə keçirəsən. Belə olmasın ki, bu ay (ramazan) qurtardıqdan sonra çiynində hələ də günahlar qalmış olsun. Belə olmasın ki, (qiyamət günü) oruc tutanlar öz savab və mükafatlarını alsınlar, sən isə ziyana uğramışlardan olasan.”[1]

---

[1] Allahın ayı,1-ci cild, səh. 16.

## 4. Quranın nazil olduğu ay

Mübarək ramazan ayının adlarından biri "Quranın nazil olduğu ay"dır. Ramazan ayının bu adına həm Quran ayələrində, həm də hədislərdə rast gəlmək mümkündür. Məsələn, "Bəqərə" surəsinin 185-ci ayəsində belə oxuyuruq:

شَهْرُ رَمَضَانَ الَّذِيَ أُنزِلَ فِيهِ الْقُرْآنُ هُدًى لِّلنَّاسِ وَبَيِّنَاتٍ مِّنَ الْهُدَى وَالْفُرْقَانِ

-Ramazan ayı insanların bələdçisi, aşkar hidayət dəlillərinə malik və (haqq ilə batili bir-birindən) ayıran Quranın nazil olduğu bir aydır.

Keçmiş bəhslərimizdə Quranın və ayələrin nazil olması barədə müəyyən qədər söz açmışıq. Bu bəhsimizə uyğun olaraq bir neçə mətləbi də əlavə edək. Quran ayələrinə diqqətlə nəzər yetirdikdə görürük ki, Allah-təala onun nazil olduğu ayın adını bəyan edir. Lakin onun hansı gündə nazil olması hədislərdə açıqlanmışdır. Əlbəttə, Quranda onun nazil olduğu gecənin mübarək bir gecə olması vurğulanmışdır, lakin hansı gecə olmasını açıq şəkildə bəyan etməmişdir. Yəni Quranda onun Qədr gecəsində nazil olması bəyan olmaqla yanaşı, Qədr gecəsinin hansı günə təsadüf etməsini açıqlamır. Ayələrdən bəlli olur ki, Quran ramazan ayında və Qədr gecəsində nazil olmuşdur. Qədr gecəsi də ramazan ayının gecələrindən biridir. Dəqiq hansı gecə olması isə sirli olaraq qalır. Buna görə də möminlər bir neçə günü əhya saxlamaqla Qədr gecəsinin feyzindən bəhrələnmək üçün çalışırlar.

Hər halda Quranın Qədr gecəsində nazil olması şübhəsizdir. Ayə və hədislərə əsaslanıb deyə bilərik ki,

Quran iki dəfə nazil olmuşdur. Bir dəfə bütövlükdə İslam Peyğəmbərinin(s) mübarək qəlbinə, bir dəfə isə iyirmi üç il ərzində ayə-ayə, surə-surə tədriclə nazil olmuşdur. Bəzi hədislərdə qeyd olunmuşdur ki, Quran mübarək ramazan ayında Beytül-məmura nazil olmuşdur. Beytül-məmur göyün dördüncü təbəqəsində yerləşir və Kəbə evinin üstündə qərar tutmuşdur.

قَالَ الصَّادِقُ(ع): نَزَلَ القُرآنُ جُملَةً واحِدَةً في شَهرِ رَمَضانَ إلَى البَيتِ المعمورِ، ثُمَّ نَزَلَ في طولِ عِشرينَ سَنَةً

-İmam Sadiq(ə) buyurur: "Quran bütövlükdə ramazan ayında Beytül-məmura nazil olmuş, sonra isə iyirmi üç il müddətində tədriclə endirilmişdir."[1]

Bəzi hədislərdə isə Quranın ramazan ayında Peyğəmbərin(s) mübarək qəlbinə nazil olduğu bəyan edilmişdir. Hər iki hədis öz yerində doğru və yetərlidir. Yəqin ki, bunların bir-biri ilə əlaqəsi vardır. Bu hədislər Quranın birdəfəyə nazil olmasına işarədir. Lakin iyirmi üç il ərzində müxtəlif hadislərdə ayə-ayə, surə-surə nazil olması da şəxsən Peyğəmbərin(s) dili ilə hədislərdə nəql olunmuşdur.

قَالَ رَسُولُ اللهِ(ص): أُنزِلَ القُرآنُ في ثَلاثٍ وعِشرينَ مِن شَهرِ رَمَضانَ

-Həzrət Peyğəmbər(s) buyurur: "Quran ramazan ayının iyirmi üçü nazil olmuşdur."[2]

---

[1] Allahın ayı,1-ci cild, səh. 31.
[2] Yenə orada, səh. 29.

Həzrət Peyğəmbərin(s) bu və bu kimi hədislərində Quranın ramazan ayının 23-cü gecəsi nazil olması ehtimal edilir. Qədr gecəsi ramazan ayının hansı gecəsi olduğu məlum olmadığından bu hədisdən Qədr gecəsinin ramazan ayının 23-cü gecəsinə təsadüf etdiyi ehtimal olunur. Digər hədislərdə də ramazan ayının 19-cu və 21-ci gecələrinin də Qədr gecəsi olması bəyan edilmişdir. Ümumilikdə həmin hədislərdə ramazan ayının bu üç gecəsindən birinin Qədr gecəsi olması dəqiqləşir. Lakin həmin üç gecənin hansı birinin dəqiq Qədr gecəsi olması yenə də bizim üçün sirli olaraq qalır. Buna görə də hər üç gecəni əhya saxlamaqla həmin gecənin əməllərini yerinə yetirərək Qədr gecəsinin feyzindən bəhrə aparırıq.

Deməli, Quran mübarək ramazan ayında nazil olduğu üçün bu ayın adına "Quranın nazil olduğu ay" deyilir.

**5. Quran oxunan ay**

Mübarək ramazan ayının adlarından biri "Quran oxunan ay"dır. Bir daha qeyd etməliyik ki, bütün bu adların hər biri ramazan ayının müəyyən bir cəhətinə işarə edir. Həzrət Peyğəmbər(s) mübarək ramazan ayı barədə söylədiyi xütbədə onun bu adına işarə edərək belə buyurur:

وَ هُوَ شَهرُ قِراءَةِ القُرآن

-Və o (ramazan), Quran oxunan aydır.[1]

Bir sıra hədislərə diqqət yetirdikdə mübarək ramazan ayında oxunan Quranın digər aylardan fərqli

[1] Allahın ayı, 1-ci cild, səh. 225.

olduğunu görmək mümkündür. Yəni savab baxımından ramazan ayında oxunan Quran ayələrinin savabı digər aylardan daha çoxdur.

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ تَلَا فِيهِ آيَةً مِنَ الْقُرْآنِ كَانَ لَهُ مِثْلُ أَجْرِ مَنْ خَتَمَ الْقُرْآنَ فِي غَيْرِهِ مِنَ الشُّهُورِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kim ramazan ayında Quranın bir ayəsini oxusa, onun üçün digər aylarda xətm olunmuş (bütöv bir Quranı oxumağın) savabı yazılar."[1]

Buna görə də hər bir müsəlman bu mübarək ayın feyzindən bəhrələnmək üçün Allahın kitabı ilə ünsiyyətdə olmalı və bacardığı qədər onun ayələrini çox oxumalıdır. Bəzi insanlar bu ay Quranı bir dəfə əvvəldən axıradək oxuyub başa çatdırırlar. Bəzi insanlar da vardır ki, mübarək ramazan ayında bu müqəddəs kitabı iki-üç dəfə əvvəldən axıradək oxuya bilirlər. Bir sıra möminlərə də rast gəlmək olur ki, ramazan ayında on dəfə Qurani-Kərimi sonadək oxuyub başa çatdırırlar. Buna görə də insan bu ay Quranı hər nə qədər çox oxuyarsa, bir o qədər də nəzərdə tutulmuş savabı əldə edəcəkdir. İşindən asılı olmayaraq hər bir müsəlman əzbərdən bildiyi ayələri təkrar oxumaqla ramazan ayında çoxlu savab əldə edə bilər. Məsələn, bir sürücü maşın sürə-sürə bildiyi "İxlas" – "Qul huvəllah" surəsini təkrar-təkrar oxuya bilər. Yəni xüsusilə bu ay insanlar iş yerlərində yadlarında saxladıqları ayə və surələrdən oxusalar, bir o qədər savab qazanmış olacaqlar.

---

[1] Yenə orada, səh. 218.

قَالَ رَسُولُ اللهِ(ص): فَسئَلُوا اللهَ رَبَّكُم بِنِيَّاتٍ صَادِقَة وَ قُلُوبٍ طَاهِرَة اَن يُوَفِّقَكُم لِصِيَامِهِ وَ تَلاوَةِ كِتَابِهِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Elə isə saf niyyət və təmiz qəlblə Allahdan istəyin ki, bu ayın orucunu tutmağı və Onun kitabını oxumağı sizə nəsib etsin.”[1]

Burada qeyd etmək lazımdır ki, insanın bəzi əməlləri onun müvəffəqiyyətsizliyinə səbəb olur. Yəni insanın bəzi günahlarına görə Allah-təala ona xeyir işlərdə müvəffəq etmir. Buna görə də insan saf niyyətlə və pak qəlblə Allahdan müvəffəqiyyət diləməlidir ki, bu ay oruc tutmağı və Quran oxumağı ona nəsib etsin. İnsan başına bir hadisə və çətinlik gəlməməsi üçün Allaha yalvarmalıdır ki, bu ayın feyzindən bəhrəsiz qalmasın. Çox yaxşı olar ki, insan bu ay hətta səfərə də çıxmasın. Düzdür, səfərə çıxmaqla insan heç bir günah iş görmür və səfərdən qayıtdıqdan sonra tutmadığı orucunun qəzasını digər aylarda da tuta bilər. Lakin ramazan ayının günlərində tutulan orucun savab və fəziləti digər aylarda insana verilmir. Həmçinin xəstəliyə səbəb ola biləcək işlərdən də uzaq durmalıdır ki, bu ayın orucuna heç bir xələl gəlməsin. Ramazan ayında oxunan Quranın bir ayəsinə görə verilən savab digər aylarda bütöv bir Quranı oxumağın savabı qədərdir. Hədislərə əsasən deyə bilərik ki, əgər insan başqa ayların bütün günlərini oruc tutarsa, yenə də ramazan ayının bircə gününün orucuna bərabər ola bilməz. Buna görə də insan diqqətli olmalı və Allaha

[1] Allahın ayı,1-ci cild, səh. 218.

yalvarmalıdır ki, həm bu ayın orucunu, həm də bu ay Quran oxumağı ona nəsib etsin.

Ümumiyyətlə, hər bir müsəlman bu müqəddəs kitabı oxumalı və öyrənməlidir. Quran oxumaq hər bir müsəlmanın borcudur. Çünki Allah-təala onu insanlara nazil etmişdir və odur ki, müsəlmanlar onu öyrənib oxumalıdırlar. Necə ola bilər ki, Qurana iman gətirmiş bir insan onun ayələrindən xəbərsiz olsun. Hər bir ayəni oxumağa görə Allah-təala insana nə qədər savab verir. Düzdür, ramazan ayında Quran oxumağın savabı daha çoxdur. Lakin digər aylar və günlərdə də Quran oxumağın savabı, fəziləti vardır. Ayə və hədislərdə Quran oxumaq bizə təkidlə bildirilmişdir. Məsələn, "Fatir" surəsinin 29-30-cu ayələrində oxuyuruq:

إِنَّ الَّذِينَ يَتْلُونَ كِتَابَ اللَّهِ وَأَقَامُوا الصَّلَاةَ وَأَنفَقُوا مِمَّا رَزَقْنَاهُمْ سِرًّا وَعَلَانِيَةً يَرْجُونَ تِجَارَةً لَّن تَبُورَ. لِيُوَفِّيَهُمْ أُجُورَهُمْ وَيَزِيدَهُم مِّن فَضْلِهِ إِنَّهُ غَفُورٌ شَكُورٌ

-Şübhəsiz, Allahın kitabını daim oxuyan və namaz qılan, ruzi olaraq onlara verdiklərimizdən (Allah yolunda) gizli və aşkar xərcləyənlər əsla kasadlığı və ziyanı olmayan bir ticarətə ümidvardırlar ki, Allah onların mükafatlarını mükəmməl şəkildə əta etsin və Öz lütfündən onlar(ın mükafatların)ı artırsın. Çünki O, çox bağışlayan, (qədir bilən) və təşəkkür (şükür) edəndir.

Allah-təala bu mübarək ayədə Quran oxumağı önə çəkməklə bir neçə əmələ işarə edərək bildirir ki, bu əməllər elə bir ticarətdir ki, onun bazarı heç bir vaxt kasad olmaz və hər kəs belə bir ticarətə qoşulsa, əsla ziyan görməz. Həmçinin belə bir sövdələşməyə girişənlər

Allah-təaladan mükəmməl şəkildə mükafatlarını alacaqlar.

Haris Əvər adlı bir nəfər Həzrət Əlinin(ə) hüzuruna gəlib ərz etdi: “Ya Əmirəlmöminin, biz sənin yanında olarkən və sənin sözlərinə qulaq asarkən imanımız güclənir. Lakin səndən ayrıldıqdan sonra bəzi insanlar siz Əhli-beytin vilayəti barədə elə sözlər danışırlar ki, imanımız zəifləyir. Belə olduqda biz nə edək?”

Həzrət Əli(ə) buyurdu: “Peyğəmbərdən(s) eşitdim ki, buyurur: Bir gün cənab Cəbrayıl(ə) yanıma gəlib mənə ümmətimin arasında tezliklə bir fitnənin baş verəcəyi haqda xəbər verdi.

يَا مُحَمَّد سَيَكُونُ فِى أُمَّتِكَ فِتنَةٌ. قُلتُ: فَمَا الْمَخرَج مِنهَا؟ فَقَالَ: كِتَابَ الله فِيهِ بَيَانُ مَا قَبلَكُم مِن خَبر وَ خَبَرُ مَا بَعدَكُم وَ حُكمُ مَا بَينَكُم

-Soruşdum: “Ümmətimin bu fitnədən çıxış yolu nədir? Cəbrayıl(ə) dedi: Allahın kitabı. O kitabda sizdən əvvəlkilər haqda söhbət açılmış, sizdən sonrakılar barədə xəbər verilmişdir. Həmçinin o kitab sizin aranızda hökm edəndir.”[1]

Buna görə də cəmiyyətdə baş verən fitnələrdən yeganə çıxış yolu Allahın kitabı olan Qurandır. Hər bir müsəlman iman gətirdiyi bu müqəddəs kitabı oxuyub öyrənməlidir. Necə ola bilər ki, bir müsəlman ona Allah tərəfindən nazil olmuş kitabı oxuyub öyrənməsin? Quranı öyrənməmək, Qurandan xəbərsiz olmaq bir müsəlman

[1] Mizanül-hikmə,10-cu cild, səh. 4804.

üçün ayıb və böyük nöqsandır. İnsanın hər nə qədər vacib işi olursa-olsun, bilməlidir ki, Quranla maraqlanmaq daha vacib işlərdəndir. İnsan başa düşməlidir ki, Allah-təala onu əbəs yerə yaratmayıb. Allah-təala insanı yalnız Ona ibadət edib Onu tanımaq üçün yaratmışdır. Qurani-Kərim Allahın insana göndərdiyi məktubudur. Hər bir insan uca Yaradanın kitabını açıb oxumalı və ona dəqiqliklə əməl etməlidir. Biz dünyaya məhz bu iş üçün gəlmişik. Çox təəssüflər olsun ki, bəzi insanlar nə üçün yaradıldıqlarını unudaraq dünyada hər bir işlə məşğul olurlar, amma əsas məqsədi isə yaddan çıxarırlar. Onlara Allaha ibadət et, Quran oxu dedikdə deyirlər ki, vaxtım yoxdur. Hər bir kəs bilməlidir ki, Allah-təala insanın fitnələrdən və çətinliklərdən çıxış yolunun məhz Quranda olduğunu qərar vermişdir. Quran insanlara doğru yolu göstərir və bundan əlavə, Quran elə bir kitabdır ki, insanın qəlbinin pasını təmizləyib aparır.

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ هَذِهِ الْقُلُوبُ تَصْدَأُ كَمِا يَصْدَءُ الْحَدِيْدُ

قِيْلَ: يَا رَسُولَ اللهِ وَمَا جَلاؤُهَا؟ قَالَ(ص): تَلاوَةُ الْقُرْآنِ

-Həzrət Peyğəmbər(s) buyurmuşdur: "Həqiqətən, bu qəlblər dəmir paslandığı kimi paslanar. Dedilər: Ya Rəsulallah, onun əlacı nədir? Həzrət(s) buyurdu: Quran oxumaq."[1]

قَالَ رَسُولُ اللهِ(ص): عَلَيكَ بِقِرَاءَةِ القُران فَإِنّ قِرَائَتَهُ كَفَّارَةٌ لِلذُّنُوب وَ سَترٌ فِى النَّار وَ اَمَانٌ مِنَ العَذاب

[1] Mizanül-hikmə, 10-cu cild, səh. 4804.

-Həzrət Peyğəmbər(s) buyurmuşdur: “Sənə Quran oxumağı tapşırıram. Çünki Quran oxumaq günahların kəffarəsi, cəhənnəm oduna örtük və qiyamət əzabından amanda qalmaq üçün bir vasitədir.”[1]

قَالَ رَسُولُ اللهِ(ص): خَيرُكُم مَن قَرَأَ القُرآن وَ أَقرَأَهُ

-Həzrət Peyğəmbər(s) buyurur: “Sizin ən xeyirliniz Quran oxuyan və oxudanınızdır(öyrədəninizdir).”[2]

Günlərin birində Həzrət Əli(ə) məscidin kənarından keçərkən öz dostlarının Quran oxuduqlarını eşitdi. Qulaq asdıqdan sonra belə buyurdu:

طُوبِى لِهَؤُلاءِ كَانُوا اَحَبَّ النّاس اِلَى رَسُولِ الله

-Xoş onların halına ki, onlar Peyğəmbərin(s) yanında hamıdan sevimli insanlardır.[3]

قَالَ رَسُولُ اللهِ(ص): اَلا مَن تَعَلَّمَ القُرآن وَ عَلَّمَهُ وَ عَمِلَ بِمَا فِيهِ فَاَنَا لَهُ سَائِقٌ اِلى الجْنَّة

-Həzrət Peyğəmbər(s) buyurur: “Sizin ən xeyirliniz Quran öyrənən, öyrədən və onda olanlara (ayələrə) əməl edəninizdir. Mən belə insanı cənnətə aparacağam.”[4]

Odur ki, mübarək ramazan ayının adlarından biri Quranın çox oxunduğu aydır. Çox yaxşı olar ki, hər bir müsəlmanın evində Quran kitabı olsun və hər bir

[1] Yenə orada, səh. 4804.
[2] Yenə orada, səh. 4804.
[3] Mizanül-hikmə,10-cu cild, səh. 4804.
[4] Yenə orada, səh. 4804.

fürsətdən istifadə edərək bacardığı qədər həmin kitabı açıb oxusun. Əlbəttə, qeyd etmək lazımdır ki, Quran təkcə ramazan ayında deyil, başqa günlərdə də oxunmalıdır. Sadəcə olaraq ramazan ayı Quranın nazil olduğu ay olduğundan və bu ayda onun ayələrini oxumağın savabı daha artıq olduğu üçün çox oxunur. Quran Allah-təalanın insanlara göndərdiyi müqəddəs bir kitabdır. Hər bir insan, xüsusilə hər bir müsəlman bu kitaba ehtiram göstərməli, onu açıb oxumalı və Allahın buyurduqlarına əməl etməlidir.

**6. Müvasat (həmdərdlik və köməklik) ayı**

Məsumların xüsusilə İslam Peyğəmbərindən(s) nəql etdikləri hədislərə əsasən mübarək ramazan ayının adlarından biri də "müvasat ayı"dır. İnsanlar arasında həmdərdlik və bir-birinə yardım etmələrinə müvasat deyilir.

قَالَ رَسُولُ اللهِ(ص): وَهُوَ شَهرُ الْمُوَاسَات

-Həzrət Peyğəmbər(s) buyurur: "Bu (Ramazan) ayı müvasat (həmdərdlik və köməklik) ayıdır."[1]

"Müvasat" ərəb sözü olub, həmdərdlik və insanların bir-birinə yardım etməsinə deyilir. Odur ki, müsəlmanlar hər bir vaxtda, xüsusilə mübarək ramazan ayında bir-birilərinin qeydinə qalmalı, imkansızlara əl tutmalı və bir-birinə həmdərd olmalıdırlar. Bu əməlin istər fərdi, istərsə də ictimai şəkildə olmasının heç bir fərqi yoxdur. Hər bir halda insanlar bu gözəl əmələ riayət etməlidirlər. Müvasat ən gözəl və fəzilətli əməllərdən biridir və Allah-təalanın yanında böyük savaba malikdir. Nümunə olaraq bu barədə olan hədislərdən bir neçəsinə nəzər yetirək.

قَالَ عَلِيٌّ(ع): الْمُوَاسَات اَفضَلُ الأَعمَال

-Həzrət Əli(ə) buyurur: "Müvasat ən üstün və fəzilətli əməldir."[2]

Bu gözəl əməlin xüsusiyyətlərindən biri odur ki, insanı Allaha yaxınlaşdırır. Hamı Allaha yaxın olmaq istəyir. Lakin Allaha yaxın olmağın yolları vardır və insanlar həmin yolları araşdırıb tapmalıdırlar. İnsanları

---

[1] Allahın ayı,1-ci cild, səh. 219.

[2] Mizanül-hikmə,14-cü cild, səh. 6796.

Allah-təalaya yaxın edən bir çox əməllər var ki, onlardan biri də müvasatdır.

قَالَ الصَّادِقُ(ع): تَقَرَّبوا اِلَى اللهِ تَعَالی بِمُوَاسَاة اِخوَانِكُم

-İmam Sadiq(ə) buyurur: “(Mömin) qardaşlarınıza müvasat etməklə (həmdərd olmaqla, əl tutmaqla) Allaha yaxınlaşın.”[1]

عَنْ زُرَارَةَ عَنْ حُسَيْنٍ الْبَزَّازِ قَالَ: قَالَ لِي أَبُو عَبْدِ اللَّهِ عليه السلام: أَ لَا أُحَدِّثُكَ بِأَشَدِّ مَا فَرَضَ اللَّهُ عَزَّ وَ جَلَّ عَلَى خَلْقِهِ؟ قُلْتُ: بَلَى. قَالَ(ع): إِنْصَافُ النَّاسِ مِنْ نَفْسِكَ، وَ مُوَاسَاتُكَ لِأَخِيكَ. وَ ذِكْرُ اللَّهِ فِي كُلِّ مَوْطِنٍ. أَمَا إِنِّي لَا أَقُولُ: سُبْحَانَ اللَّهِ وَ الْحَمْدُ لِلَّهِ وَ لَا إِلَهَ إِلَّا اللَّهُ وَ اللَّهُ أَكْبَرُ وَ، إِنْ كَانَ هَذَا مِنْ ذَاكَ وَ لَكِنْ ذِكْرُ اللَّهِ فِي كُلِّ مَوْطِنٍ إِذَا هَجَمْتَ عَلَى طَاعَتِهِ أَوْ مَعْصِيَتِهِ

-Zürarədən belə nəql olunmuşdur ki, Hüseyn Bəzzaz deyir: “İmam Sadiq(ə) mənə buyurdu: Bilmək istərdinmi ki, Allahın bəndələrinə vacib buyurduğu əməllərin ən çətini hansılardır? Ərz etdim: Bəli, bilmək istərdim. İmam(ə) buyurdu: Camaatla özün kimi (insafla) rəftar etmək. (Yəni özünə qarşı necə rəftar olunmasını istəyirsənsə, camaatla da elə rəftar et). Mömin qardaşınla həmdərd olmaq və ona kömək etmək. Bütün hallarda Allahı zikr edib xatırlamaq. Amma buna da diqqət yetir! Zikr etmək dedikdə məqsədim təkcə “Subhanəllah, vəlhəmdülillah, və la ilahə illəllah” zikrini

---

[1] Yenə orada, səh. 6796.

deməkdən ibarət deyil. Bu kəlmələr də zikrdir. Amma zikrdə əsas məqsəd budur ki, Allaha ibadət etmək məqamı gəldikdə Onu yad edib itaət etmək, günahla qarşılaşdıqda Allahı xatırlayıb həmin günahdan çəkinməkdir."[1]

İmam Sadiq(ə) bu hədisdə bizə öyrədir ki, həmin əmələ riayət etmək dildə danışmaq qədər asan bir iş deyil. Bəzən insan Allahın buyurduğu bir sıra əməllərdən söz açır. Lakin əmələ gəldikdə isə çox çətin olur. Buna görə də hər bir müsəlman özünü bunlara əməli surətdə riayət etməyə öyrəşdirməlidir. Əgər insan günahla qarşılaşırsa, məsələn, bircə yalan danışmağa görə əlinə külli miqdarda pul gələcəyini bilirsə, bu imtahandan çıxmağı bacarmalıdır. Əsas məsələ budur ki, insana dünyanın hamısını versələr də belə, gərək yalan danışmasın.Yəni nəfsani istəklərin, maddi maraqların, şəhvətlərin qarşısında Allahı xatırlayıb onlardan vaz keçsin. İmam Sadiq(ə) bu əməllərin çətinliklərini vurğulayaraq bəyan edir ki, günahla qarşılaşdıqda, yaxud ibadətin çətinliklərində Allahı yad edərək həmin günahdan çəkinmək və ibadətləri yerinə yetirmək böyük hünər və güclü iman istəyir. Digər hədislərdə şiələrin xüsusiyyətlərində də bu məsələlər vurğulanmışdır.

قَالَ الصَّادِقُ(ع):امتَحِنُوا شِيعَتَنَا عِنْدَ مَواقِيتِ الصَّلاة كَيْفَ مُحَافَظَتُهُمْ عليهَا وَإِلَى أَسْرَارِنَا كَيْفَ حِفْظُهُمْ لَهَا عِنْ عَدُوِّنَا، وَ إِلَى أَمْوَالِهِمْ كَيْفَ مُواساتُهُمْ لإِخْوَانِهِمْ فِيهَا

[1] Yenə orada, 4-cü cild, səh. 1856.

-İmam Sadiq(ə) buyurur: “Bizim şiələrimizi bu əməlləri ilə sınağa çəkin. Baxın görün onlar namaz vaxtlarına riayət edib namazlarını qoruyurlarmı? Baxın görün bizim sirlərimizi düşmənlərdən saxlayırlarmı? Baxın görün öz malları ilə mömin qardaşlarına yardım edirlərmi?”[1]

Bir nəfər deyir: “Günlərin birində İmam Sadiqin(ə) ziyarətinə getmişdim. İmam(ə) məndən yaşadığım məntəqənin möminlərinin vəziyyəti barədə maraqlandı. Mən yaşadığım məntəqədəki möminləri təriflməyə başladım. İmam(ə) soruşdu:

كَيفَ عِيَادةُ أَغنِيَائِهِم عَلَى فُقَرائِهِم؟ فَقَالَ قَلِيلَةٌ،

فَقَالَ(ع): وَكَيفَ مُشَاهَدَةُ أَغنِيَائِهِم لِفُقَرائِهِم؟

قَالَ: قَلِيلَةٌ

فَقَالَ(ع): فَكَيفَ صِلَةُ أَغنِيَائِهِم لِفُقَرائِهِم فِي ذَاتِ أَيدِيهِم؟ فَقَالَ:

إِنَّكَ تَذكُرُ أَخلاقًا قَلَّ مَا هِيَ فِيمَن عِندَنَا

قَال(ع): فَقَالَ: فَكَيفَ تَزعُمُ هَؤلاءِ أَنَّهُم شِيعَةٌ

-İmkanlılar kasıblardan hal-əhval tuturlarmı? Dedim: Çox az. İmam(ə) soruşdu: İmkanlı möminlər kasıbların vəziyyəti ilə maraqlanıb onlara baş çəkirlərmi? Dedim: Çox az. İmam(ə) soruşdu: İmkanlılar fəqir və kasıblara maddi yardım göstərirlərmi? Dedim: Ey Allahın höccəti, siz elə bir əxlaqi məsələlərə toxundunuz ki, bütün bunlar bizim aramızda çox nadir hallarda baş

---

[1] Mizanül-hikmə, 14-cü cild, səh. 6798.

verir. İmam(ə) buyurdu: Bəs onlar (sənin yaşadığın məntəqənin möminləri) özlərini necə şiə hesab edirlər?”[1]

Əbu İsmayıl deyir: “Bir gün İmam Baqirin(ə) hüzurunda əyləşmişdik. Ərz etdim: Ey Allahın höccəti, canım sənə qurban olsun. Bizim yaşadığımız yerdə sizin şiələriniz çoxdur. İmam(ə) mənə buyurdu:

هَل يَعطِفُ الغَنِيُّ عَلَى الفَقِيرُ، وَهَل يَتَجَاوَزُ الْمُحِسنُ عَنِ الْمُسِئ وَ يَتَواسَون؟

فَقُلتُ: لا

فَقالَ(ع): لَيسَ هَؤُلاءِ الشِّيعَةَ، اَلشِّيعَةُ مَن يَفعَل هكَذا

-Sizin aranızda imkanlı insanlar kasıblara əl tuturlarmı? Yaxşılıq edənlər yaxşılıq etdikləri insanlar onlara qarşı pislik edərkən onları bağışlaya bilirlərmi?

Dedim: Xeyr.

İmam(ə) buyurdu: Elə isə onlara şiə demək olmaz. Şiə o kəsdir ki, bunlara riayət etmiş olsun.” [2]

Günlərin birində İmam Baqir(ə) Vəssafi adlı bir şəxsə buyurdu: “Sizin aranızda əgər bir kəsin əbası (geyimi) olmasa, digəri öz əbasını (artıq geyimlərindən) ona verirmi?

Vəssafi dedi: Xeyr.

İmam(ə) buyurdu: Deməli, onlar (hələ dini) qardaş deyillər.”[1]

---

[1] Yenə orada, 6-cı cild, səh. 2932.
[2] Mizanül-hikmə, 6-cı cild, səh. 2934.

İmam Museyi Kazım(ə) Cəfər ibn Məhəmməd Asimidən soruşdu:

كَيفَ أَنتمُ فِي التَّواصُلِ وَالتَّواسِي؟! فَقَالَ: عَلى أَفْضَلَ مَا كانَ عليهِ أَحَدٌ. فَقَالَ(ع): أَيَأتِي أَحدُكُمْ إِلَى دُكَّانِ أَخِيهِ أَو مَنزِلِهِ عِندَ الضَّائِقَةِ فَيَستَخرِجُ كِيسَهُ وَ يَأخُذُ مَا يَحتَاجُ إِليهِ.. فَلا يُنكِرُ عَليهِ.. قَالَ: لا.. فَقَالَ(ع): فَلَسْتُمْ عَلى مَا أُحِبُّ فِي التَّواصل.

-Ey Asim, qarşılıqlı münasibət və bir-birinizin dərdinə şərik çıxmaqda nə vəziyyətdəsiniz? Dedim: Birinin ola biləcəyi ən yaxşı vəziyyətdə. Buyurdu: Olurmu ki, sizin biriniz kasıbçılıq vaxtı qardaşının dükanına, yaxud mənzilinə gedib onun daxılından ehtiyac duyduğu pulu götürsün və qardaşı da buna etiraz etməsin? Asim dedi: Xeyr. Həzrət(ə) buyurdu: Onda qarşılıqlı münasibətlərdə mən istəyən kimi deyilsiniz.”[2]

Günlərin birində İmam Sadiq(ə) insanın can verməsi barədə söhbət edirdi. Həzrət(ə) buyurdu: “Ölüm mələyi mömininin canını alarkən mömin bunu hiss etmir (və çox rahatlıqla can verir). Bu, Allahın sözüdür ki, “Fəcr” surəsinin 27-ci ayəsində buyurur: “Ey arxayın olmuş nəfs...” Bu, (rahat canını tapşırma) təqvalı və qardaşları ilə müvasat edən möminlərə aiddir. Amma əgər insan təqvalı və müvasat edən şəxs olmasa, ona deyilər: Sənə təqvalı olmağa və müvasat etməyə nə mane oldu? Halbuki sən dildə öz mömin qardaşını sevdiyini etiraf edirdin, amma əməllərin bunu təsdiq etmirdi.”

---

[1] Yenə orada,14-cü cild, səh. 6796.
[2] Yenə orada,14-cü cild, səh. 6796.

Sonra İmam(ə) buyurdu: “Belə bir insan Peyğəmbər(s) və Həzrət Əli(ə) ilə üz-üzə gəldikdə onlar həmin şəxsdən üz çevirəcəklər.”[1]

Digər bir hədisdə belə nəql olunur ki, bir gün İmam Sadiq(ə) möminin qardaşına münasibətdə öhdəsinə düşən vəzifələrindən söhbət edirdi. Söz müvasat, yəni həmdərdlik məsələsinə yetişdikdə bu məsələ İshaq ibn Əmmara ağır gəldi. Yəni İshaq bu məsələnin çox çətin olduğunu görüb narahatlığını büruzə verdi. İmam(ə) buyurdu: “On ikinci İmam(ə.c) zühur etdikdən sonra bu söylədiklərim hər bir müsəlmana vacib olacaq.”[2]

Allahın lütf və mərhəməti ilə on ikinci İmamımız(ə.c) zühur etdikdən sonra dünyada yalnız bir hökumət qurulacaq. Allahın əmri ilə hər bir iş öz qaydasına düşdükdən sonra müvasat etmək, bir-birinə həmdərd olmaq, insanların bir-birinə yardım göstərməsi vacib məsələlərdən olacaqdır. Ancaq indi belə düşünə bilmərik ki, həmin əməl vacib bir əməl kimi qarşıya qoyulduqdan sonra ona riayət edərik. Xeyr, bu əməl öz-özlüyündə müstəhəb və böyük savaba malik olan əməllərdəndir. Hər bir zamanda bu işi görmək lazımdır. Lakin çox təəssüflər olsun ki, hazırkı dövrdə həmin məsələyə riayət edənlər azdır. Peyğəmbərin(s) zamanında Həzrətə(s) yaxın olan insanlar müvasat əhli idilər. Onlar müvasat etməyi, möminlərin dərdinə şərik olmağı çox sevirdilər. O möminlərin malları, hətta canları belə Peyğəmbərin(s) ixtiyarında idi. Bu əməlin bariz

---

[1] Mizanül-hikmə,14-cü cild, səh. 6797.
[2] Yenə orada,14-cü cild, səh. 6798.

nümunəsi kimi Həzrət Əli ibn Əbu Talibi(ə) misal çəkmək mümkündür.

Təbuk müharibəsi İslam tarixində ən ağır və çətin döyüşlərdən biri idi. Bu müharibədə bir neçə şəxsdən başqa hamı Peyğəmbəri(s) tənha qoyub qaçmışdı. Peyğəmbər(s) ətrafına göz gəzdirdikdə Həzrət Əlini(ə) gördü. Əsəbi halda buyurdu: "Get, sən də Allahın Rəsulunu qoyub qaçanlara qoşul." Həzrət Əli(ə) ərz etdi: "Ya Rəsulallah, harada olsam da, sən mənə nümunəsən. Mən səni tək qoyub heç bir yerə getmərəm." Peyğəmbər(s) buyurdu: "Elə isə düşmənlərin şərini məndən uzaqlaşdır." Həzrət Əli(ə) bu sözü eşidən kimi düşmənə hücum etdi. Onun bu hücumu istisna hallardandır ki, şir kimi düşmənə həmlə edib onların sıralarını dağıtdı. Elə bu zaman cənab Cəbrayıl(ə) nazil olub Həzrət Əlinin(ə) düşmənə vurduğu zərbələrə baxaraq Peyğəmbərə(s) ərz etdi: "Budur əsl müvasat, ya Məhəmməd!" [1]

Odur ki, müsəlmanlar bacardıqları kimi və imkanları daxilində bir-birilərinə həmdərd olmalı, bir-birinə yardım göstərməlidirlər. Həmdərdlik insan cəmiyyətinin bir cəmiyyət kimi formalaşmasında mühüm rol oynayır. Hər bir insan cəmiyyətdə əlindən gələn qədər bu işi görməlidir. Böyük alimlərin həyatlarına diqqət yetirdikdə onların da əllərindən gələn qədər başqalarına həmdərdlik göstərdiklərinin şahidi oluruq.

Seyid Əli Qazi böyük alim və arif insanlardan biri idi. O, Ayətullah Behcət, Əllamə Təbatəbayi kimi böyük şəxsiyyətlərin ustadı olmuşdur. Onunla bağlı yazırlar ki,

---

[1] Mizanül-hikmə,14-cü cild, səh. 6798.

axşamçağı evə gələndə dəfələrlə bazarda bir göyərti satanın yanına gedər və ondan göyərti alardı. Özü də göyərti satana deyərdi ki, qoy mən seçim. Ən köhnə və saralmış göyərtiləri götürüb pulunu verər və evə gələrdi. Bir gün ondan soruşdular: "Nə üçün həmişə axşamçağı gəlib köhnə və saralmış göyərtiləri alırsan? Buyurdu: Mənim maddi imkanım bir o qədər də yaxşı deyil. Köməklik məqsədi ilə və gücüm çatan qədər həmin alverçidən göyərti alıram. O, yoxsul insan olduğu üçün ona birbaşa pul verməyə utanıram. Özüm axşamçağı gedirəm ki,  alverin axırlarına təsadüf etsin. Həm də köhnə göyərtiləri alıram ki, qoy ona ziyan dəyməsin. Əgər onun köhnəlmiş göyərtilərini mən almasam, heç bir kəs almayacaq və onları çölə atacaqdır."

### 7. Orucluq ayı

Ötən bəhslərimizdə mübarək ramazan ayı və oruc tutmaq barədə olan ayələri oxuduq. Bu mübarək ayələr iki əsas mətləbdən bəhs açır. Həmin mətləblərdən biri oruc tutmaq, digəri isə orucluq ayıdır. İslam aləmində həm orucluğun özü, həm də mübarək ramazan ayı, yəni orucun vacib olduğu ay möhtərəm sayılır. Yəni orucluq öz-özlüyündə ilahi bir hökm kimi riayət olunmalıdır. Bundan əlavə, orucluq vacib olunan ay, yəni ramazan ayının xüsusi fəzilət və şərafəti vardır. Əgər bir müsəlman Quran ayəsinə əməl edərək oruc tutursa, həmin şəxs Allahın məhzərində fəzilətə malik olan bir insandır. Amma əgər bir müsəlman ramazan ayında xəstəlik, yaxud müsafirlik və ya digər üzürlü səbəblərə görə oruc tutmursa, camaat arasında da yemək yeməyə icazəsi yoxdur. Onun orucluq zamanı yemək yeməyə

icazəsi olmasına baxmayaraq, ramazan ayının hörmətini saxlayıb açıq-aşkar camaat içində bu aya hörmətsizlik etməməlidir. Gedib evində, yaxud kənar bir yerdə yeyə bilər.

Əgər bir insan xəstədirsə, yaxud səfərdədirsə o zaman oruc tutmaq həmin şəxsə haramdır. Amma bundan istifadə edib camaat arasında və ya küçədə orucunu yeməyə icazəsi yoxdur. Çünki orucluq ayına hörmətsizlik etməyə haqqı yoxdur. Mübarək ramazan ayı orucluq ayıdır. Üzürlü səbəbi olmayan hər bir müsəlmana bu ay oruc tutmaq vacibdir. Xəstə, müsafir və ya digər üzürlü səbəbi olan insanların oruc tutmamasına icazə verilir. Amma həmin şəxs gərək bu ayın hörmətinə xatir cəmiyyət arasında yemək yeməsin. Əsas sözümüz bundadır ki, ramazan ayının adlarından biri də orucluq ayıdır. Peyğəmbər(s) və məsum imamların xütbə və hədislərində ramazan ayının bu adına rast gələ bilirik.

قَالَ رَسُولُ اللهِ(ص): وَهُوَ شَهرُ الْصِّيَام

-Həzrət Peyğəmbər(s) buyurur: “Bu (Ramazan) ayı orucluq ayıdır.”[1]

Bəzən öz danışığımızda da ramazan ayının bu adını dilimizə gətiririk. Onun adına bəzən ramazan ayı, bəzən də orucluq ayı deyirik. Deməli, bu ay başdan-başa oruc tutmaq üçün nəzərdə tutulub. Hər bir sağlam, səfərdə olmayan və digər üzürləri olmayan, eləcə də kişi və qadın olmasından asılı olmayaraq bütün həddi-büluğa çatmış hər bir insan bu ay mütləq oruc tutmalıdır. İndi əgər bir insan üzürlü səbəbə görə oruc tutmursa, bu zaman

[1] Allahın ayı, 1-ci cild, səh. 219.

ramazan ayının hörmətini saxlamalı və cəmiyyət arasında yeməməlidir. Bu onu sübut edir ki, ramazan ayının xüsusi hörməti vardır.

**8. Müsəlmançılıq ayı**

Hədis və rəvayətlərə diqqət yetirdikdə görürük ki, mübarək ramazan ayının adlarından biri də "müsəlmançılıq ayı"dır. İmam Səccadın(ə) xütbələrindən biri orucluq barədədir. Bu xütbə həqiqətən də çox gözəl xütbələrdən biridir. Həzrət(ə) belə buyurur:

وَالحَمدُ للّهِ الَّذي حَبانا بِدينِهِ، وَاختَصَّنا بِمِلَّتِهِ وسَبَّلَنا في سُبُلِ إحسانِهِ لِنَسلُكَها بِمَنِّهِ إلى رِضوانِهِ، حَمدا يَتَقَبَّلُهُ مِنّا، ويَرضى بِهِ عَنّا. وَالحَمدُ للّهِ الَّذي جَعَلَ مِن تِلكَ السُّبُلِ شَهرَهُ رَمَضانَ، شَهرَ الصِّيامِ، وشَهرَ الإسلامِ...

-Həmd olsun O Allaha ki, bizi Öz dini ilə tanış edib, İslam qanunlarını bizə məxsuslaşdırdı. Həmd olsun O Allaha ki, minnət qoyaraq rizvanına (razılığına) çatmaq üçün Özünün yaxşılıq yolunu bizə göstərdi. Ramazan ayı o yollardan biridir. Bu ay orucluq və İslam (müsəlmançılıq) ayıdır...[1]

İmam Səccad(ə) burada incə və mühüm məsələlərdən birinə işarə edərək buyurur ki, Allah-təala bizə Öz dinini göndərib, yaxşılıq və kəramət yolunu göstərməklə minnət qoyaraq rizvanına çatdırmaq istəyir. Yəni hər bir kəs Allahın dinini qəbul edərək göstərdiyi yolu tutub gedərsə, Onun razılığını qazanmış olur.

[1] Allahın ayı,1-ci cild, səh. 7.

Burada çox yaxşı olar ki, rizvan və razılığın mənası ilə tanış olaq.

Quran ayələrindən və hədislərdən istifadə olunur ki, "rizvan" sözünün bir mənası "cənnət", bir mənası isə "Allahın razılığı"dır. Deмək olar ki, hər iki mənada istifadə olunur. Odur ki, İmam Səccad(ə) buyurur: "Şükürlər olsun O Allaha ki, Öz minnəti ilə bizə rizvanına çatmaq üçün yol göstərdi." Buradan məlum olur ki, Allahın razılığı hər bir insan üçün çox mühümdür. Allah-təala yol göstərməklə, habelə dini nazil etməklə insanlara Onun razılığını əldə etməyi mərhəmət etmişdir. Sual oluna bilər ki, Allahın razılığı nə deməkdir? Bu sözün məna və məfhumunu açıqlamaq üçün ayə və hədislərə müraciət etdikdə daha aydın başa düşmək olur.

Həzrət Musa(ə) Allaha belə ərz etdi: "Ey Rəbbim! Mənə elə bir yol göstər ki, ona əməl etməklə Sənin razılığını qazana bilim." Allah-təala ona belə vəhy etdi: "Həqiqətən, Mənim razılığım, Mənim müqəddəratıma (qəza-qədərimə) razılığındadır."[1]

Bəziləri elə düşünməsinlər ki, sadəcə dildə "Allahdan çox razıyam" deməklə Allahın razılığını əldə etmişdir. Allahdan razı qalmaq odur ki, insan Onun bütün buyurduqlarına və hökmlərinə riayət etməyə razı olsun, insan üçün hər nə təqdir etmişsə onunla qənaətlənsin. Yəni Allahın hökm və buyurduqlarına etiraz etməsin. "Maidə" surəsinin 119-cu ayəsində oxuyuruq:

[1] Camiüs-səadat,3-cü cild, səh. 256.

قَالَ اللّهُ هَذَا يَوْمُ يَنفَعُ الصَّادِقِينَ صِدْقُهُمْ لَهُمْ جَنَّاتٌ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا أَبَدًا رَّضِيَ اللّهُ عَنْهُمْ وَرَضُواْ عَنْهُ ذَلِكَ الْفَوْزُ الْعَظِيمُ

-Allah buyurur: “Bu, (qiyamət) doğruçulara (əqidə, danışıq və əməldəki) düzlüklərinin fayda verdiyi bir gündür. Onlar üçün (ev və ağaclarının) altından çaylar axan cənnətlər vardır, orada əbədi qalacaqlar. Allah onlardan razıdır və onlar da Allahdan razıdırlar. Ən böyük uğur budur!”

Bu ayədən açıq-aydın görürük ki, insanın ən böyük uğur və xoşbəxtliyi bundadır ki, cənnətə daxil olmaqla yanaşı, Allah ondan, o da Allahdan razı qalsın. Deməli, cənnətin nemətləri içində ən böyük nemət Allahın rizayətidir. “Tövbə” surəsinin 72-ci ayəsində oxuyuruq:

وَعَدَ اللّهُ الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا وَمَسَاكِنَ طَيِّبَةً فِي جَنَّاتِ عَدْنٍ وَرِضْوَانٌ مِّنَ اللّهِ أَكْبَرُ ذَلِكَ هُوَ الْفَوْزُ الْعَظِيمُ

-Allah mömin kişilərə və qadınlara *(ev və ağaclarının)* altından çaylar axan əbədi qalacaqları cənnətlər vəd etmişdir. Həmçinin əbədi cənnətlərdə pak məskənlər! Allah tərəfindən olan razılıq *(isə bütün nemətlərdən)* böyükdür. Budur böyük uğur və qurtuluş!

Quran ayələrinə diqqət yetirdikdə görürük ki, Allah-taala cənnətin hurilər, qılmanlar, bağlar, müxtəlif meyvələr kimi bir çox nemətlərini bizim üçün bəyan etmişdir. Lakin Özünün rizvan və rizayətinin bunlardan daha böyük olduğunu önə çəkir. Çünki insanlar Allahın

rizvanını bundan artıq sözlə başa düşə bilmədikləri üçün cənnətin nemətlərini sadaladıqdan sonra Allahın razılığının bütün bunlardan daha böyük olmasını bəyan edir. Məsələn, kiçik bir uşağa nəyin məsləhət olub-olmamasını başa salmaq çətin olduğu kimi, Allah-təala da bizi elə başa salır. Çünki uşaq nəyin ona məsləhət olub-olmadığını bilmir. Uşaq bəzən xəstələndikdə ona iynə vurmaq lazım gəlir. Əgər iynəni ona vurmasalar, xəstəliyi daha da artar və acınacaqlı nəticəyə səbəb olar. Lakin uşaq bunu anlamır və iynənin vurulmasına heç cür razılıq vermir. Ağlayır, şıltaqlıq edir və iynənin vurulmasını istəmir. Axırda valideyn hirslənir və uşaqdan əl çəkir. Bir az keçdikdən sonra valideyn yenidən xəstəliyin övladına çox ziyan vura biləcəyini düşünür və yenə də onu dilə tutmağa çalışır. Buna görə də başını müxtəlif oyuncaq və şirniyyatlarla qataraq bir nəfər onun əl-qolunu tutur və nəhayət, iynəni vururlar. Yəni valideyn həkimin məsləhətini yerinə yetirmək üçün uşağı müxtəlif yollarla sakitləşdirir. Ancaq uşaq bu iynənin ona məsləhət və xeyirli olmasını anlamır.

Odur ki, cənnətin bütün nemətlərinin hamısı gözəldir. Allah-təala bütün bu nemətləri insanlar üçün yaratmışdır. Cənnətin hər bir neməti insan üçün xoşbəxtlikdir. Lakin Allahın rizvanının bütün bunlardan daha böyük olmasını insana heç cürə başa salmaq olmur. Məsələn, Həzrət Peyğəmbərdən(s) ədn cənnəti barədə soruşduqda, Həzrət(s) bir neçə kəlmə ilə ədn cənnətini tərif edir. Lakin bu tərif oranın necə bir yer olduğunu açıqlamır. Sadəcə olaraq kimlərin orada məskunlaşacağından xəbər verir. Həzrət(s) buyurur:

عَدن دَارُ اللهِ الَّتِي لَم تَرَهَا عَينٌ وَلَم يَخطُر عَلَى قَلبِ بَشَرٍ لا يَسكُنُهَا غَيرُ ثَلاثَةٍ: اَلنَّبِيِّين وَالصِّدِيقِين وَالشُّهَداء

-Ədn cənnəti Allahın heç bir gözün görmədiyi və heç bir kəsin təsəvvür etmədiyi bir evdir. Orada üç qrup insandan başqa heç bir kəs məskunlaşmayacaq. Peyğəmbərlər, sadiq insanlar (sədaqətlə iman gətirənlər) və şəhidlər.[1]

Həzrət Peyğəmbər(s) ədn cənnətini bundan artıq bizə başa sala bilmir. Çünki bizim tutumumuz və düşüncəmizin bundan artığına gücü çatmır. Buna görə də bir neçə kəlmə ilə oranı bizim üçün tərif etmişdir. Bir daha qeyd olunmalıdır ki, cənnətin bu dərəcəsi hər bir insana nəsib olmur. Həzrətin(s) buyurduğuna əsasən orada peyğəmbərlər, sədaqətli insanlar və şəhidlər məskunlaşacaq. Bəzi hədislərdə də belə deyilir ki, hər kim Peyğəmbərdən(s) sonra Həzrət Əli(ə) və onun övladlarını sevərək onların imamət və vilayətində sədaqətli olsalar, cənnətin bu məqamına nail ola biləcəklər.

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ سَرَّهُ اَنْ يَحْيا حَياتِي و يَمُوتُ مَمَاتِي ويَسكنَ جَنَّتِي الَّتِي وَعَدَنِ اللهُ رَبِّي جَنَّاتِ عَدنٍ...فَلِيُوالِ عَلِيَّ بنَ اَبِي طَالِب وَ ذُرِّيَتَهُ مِنْ بَعْدِى

-Həzrət Peyğəmbər(s) buyurur: “Hər kəs mənim kimi yaşamaq, mənim kimi dünyadan getmək və Allahın mənə vədə verdiyi ədn cənnətində mənimlə sakin olmaq

[1] Təfsiri-nümunə,8-ci cild, səh.38.

istəyirsə, məndən sonra Əli ibn Əbu Talibi və onun övladlarını (imamları) sevərək onların vilayətlərini qəbul etməlidir.”[1]

Deməli, bu hədis bizə yol göstərir. Ədn cənnətinə çatmaq istəyən şəxs Peyğəmbərdən(s) sonra Əli və onun övladlarından olan imamların vilayətini qəbul etməlidir. Həzrət Peyğəmbər(s) bu hədisdə ədn cənnətinin ünvanını bizə göstərir. Deməli, ədn cənnətində peyğəmbərlər, siddiqlər və şəhidlər məskunlaşacaq. Həzrət Peyğəmbəri(s) orada ziyarət etməyin ünvanı Əlinin(ə) və imamların məhəbbət və vilayətidir.

Odur ki, Allahın razılığını qazanmaq insan üçün çox mühümdür. Həzrət Peyğəmbər(s) Allahın razılığını qazanmağın yollarını bizə göstərmişdir. Həmin yollardan biri də Xanım Fatimeyi Zəhranın(ə) razılığıdır. Yəni Allah-təala Öz razılığını Fatimənin(s.ə) razılığında qərar vermişdir. Hər kəs Allahın razılığını qazanmaq istəyirsə, mütləq Fatimənin(s.ə) razılığını əldə etməlidir. Fatimə(s.ə) kimdən razıdırsa, Allah da həmin şəxsdən razıdır.

قَالَ رَسُولُ اللهِ(ص): اِنَّ اللهَ تَبَارَكَ وَ تَعَالى يَغْضِبُ لِغَضَبِ فَاطِمَة وَ يَرضَى لِرِضَاهَا

-Həzrət Peyğəmbər(s) buyurur: “Həqiqətən Allah-təala Öz qəzəbini Fatimənin qəzəbində, Öz razılığını onun razılığında qərar verib. (Fatimənin qəzəbləndiyi kəsə Allah qəzəblənmiş, onyn razı olduğu kəsdən Allah da razı olmuşdur.)”

---

[1] Təfsiri-nümunə,8-ci cild, səh.38.

Həzrət Peyğəmbər(s) qızı Fatiməyə(s.ə) buyurur:

يَا فَاطِمَة اِنَّاللهَ يَغْضِبُ بِغَضَبِكِ وَيَرضَى لِرِضَاكِ

-Ey Fatimə, sən qəzəbləndikdə Allah qəzəblənir. Hər bir işdə sənin razılığın varsa, Allahın da razılığı var.[1]

Deməli, Allahın qəzəbi Fatimənin(s.ə) qəzəbində, razılığı da onun razılığındadır. Fatimə(s.ə) kimə qəzəblənirsə, Allah da həmin şəxsə qəzəblənir. Fatimə(s.ə) kimdən razıdırsa, Allah da həmin şəxsdən razıdır. Fatimənin(s.ə) sevdiyi şəxsi Allah da sevir.

Deməli, Allahın rizayətini qazanmağın bir neçə yolu vardır ki, bəhsimizin əvvəlində qeyd olundu ki, həmin yollardan biri də mübarək ramazan ayıdır. Necə ki, İmam Səccad(ə) buyurur:

وَالحَمدُ للّهِ ِ الَّذي جَعَلَ مِن تِلكَ السُّبُلِ شَهرَهُ رَمَضانَ شَهرَ الصِّيامِ، وشَهرَ الإِسلامِ...

-Şükürlər olsun O Allaha ki, (bizə Onun rizvanına çatmaq üçün) ramazan ayını həmin yollardan biri qərar vermişdir. Ramazan ayı orucluq və müsəlmançılıq ayıdır...

Odur ki, insan bu mübarək ayda Allahın əmrlərini yerinə yetirməklə, oruc tutub ibadət etməklə Onun rizayətini əldə edir, həm də müsəlmançılığı möhkəmlənir. Bu mübarək ayda müsəlmanlar ibadətdə daha dəqiq olmaqla, savablara nail olur, məclislər qurur, dinin barəsində söhbətlər edir, camaat namazları təşkil

---

[1] Yənabiül-məvəddə, səh.173. Kənzül-ümmal, 13-cü cild, səh. 674. Möcəmi-kəbiri Təbərani, 1-ci cild, səh. 108. Müstədrək (Hakim Həskani), 3-cü cild, səh. 124.

edib İslamın qanunlarında diqqətli olmaqla dini daha da rövnəqləndirirlər. Buna görə də İslam belə bir ayda insanlar arasında qidalanaraq güclənib vüsət tapır.

**9. Saflıq ayı**

Hədis və rəvayətlərə əsasən mübarək ramazan ayının adlarından biri "saflıq və xalisləşdirmək ayı"dır.

قَالَ الإِمامُ السَّجَاد(ع): وَهُوَ شَهرُ الْتَمحِيص

-İmam Səccad(ə) buyurur: "Mübarək ramazan ayı saflaşdırmaq ayıdır."[1]

Yəni ramazan ayı insanın niyyətini təmizləyib paklaşdırır. Ərəb dilində bunun adına "təmhis" deyilir. "Təmhis" sözü hər cür nöqsanlardan təmizlənmək mənasını ifadə edir. Quran ayələrində bu barədə söz açılmışdır. Ühüd müharibəsi İslam tarixində ən ağır və qəribə döyüşlərdən biri idi. Bu döyüşdə müsəlmanların vəziyyəti gərginləşdi. Həmzənin və bir çox möminlərin şəhid olması, bəzilərinin də bu döyüşdən qaçması müsəlmanların əhval-ruhiyyəsini pozdu. Axşamçağı Həzrət Peyğəmbər(s) yaralı və yorğun halda döyüş meydanına daxil olub şəhidlərin cənazələri kənarında dayandı və onlar üçün ağladı. Bunu görən müsəlmanların əhval-ruhiyyəsi yavaş-yavaş yüksəlməyə başladı və onların qəm-qüssələri dağıldı. Belə bir vəziyyətdə Allah-təala "Ali-İmran" surəsinin 139-141-ci ayələrini nazil edərək möminlərə toxtaqlıq verdi:

[1] Allahın ayı,1-ci cild, səh.7.

وَلاَ تَهِنُوا وَلاَ تَحْزَنُوا وَأَنتُمُ الأَعْلَوْنَ إِن كُنتُم مُّؤْمِنِينَ. إِن يَمْسَسْكُمْ قَرْحٌ فَقَدْ مَسَّ الْقَوْمَ قَرْحٌ مِّثْلُهُ وَتِلْكَ الأيَّامُ نُدَاوِلُهَا بَيْنَ النَّاسِ وَلِيَعْلَمَ اللّهُ الَّذِينَ آمَنُواْ وَيَتَّخِذَ مِنكُمْ شُهَدَاء وَاللّهُ لاَ يُحِبُّ الظَّالِمِينَ. وَلِيُمَحِّصَ اللّهُ الَّذِينَ آمَنُواْ وَيَمْحَقَ الْكَافِرِينَ

-Heç vaxt (düşmən qarşısında) süstləşməyin və (düçar olduğunuz bəlalara görə) kədərlənməyin ki, əgər (həqiqi) mömin olsanız siz üstünsünüz. Əgər (Ühüd döyüşündə) sizə yara və zərər-ziyan dəydisə (Bədr döyüşündə də) o biri dəstəyə onun kimi yara və zərər-ziyan dəydi. Biz bu (qələbə və məğlubiyyət) günləri(ni) (daha kamil bir quruluşun xeyiri,) Allahın iman gətirənləri üzə çıxarması üçün, həmçinin sizin aranızdan (axirətdə insanların əməllərinə şahid durmaq üçün) şahidlər götürmək üçün insanların arasında növbə ilə dolandırırıq. Allah zalımları sevmir. Və həmçinin iman gətirənləri xalis etmək və saflaşdırmaq, kafirləri tədriclə məhv etmək üçün!

Bu ayələrdən görürük ki, Allah-təala həqiqi möminləri saflaşdırıb xalis etmək istəyir. Orucluq ayı da möminlərin saflaşması üçün mühüm rola malikdir. Yəni ramazan ayında kimin niyyətinin təmiz olub-olmaması sınağa çəkilir. Odur ki, hədislərdə oruc tutmaq təkidlə tövsiyə olunmuşdur. Bu, insanın niyyətinin saflaşması üçün əhəmiyyətlidir.

قَالَ رَسُولُ اللهِ(ص): عَليكَ بِالصَّوم فَإِنَّهُ مَحضٌ

-Həzrət Peyğəmbər(s) buyurur: “Sənə oruc tutmağı tövsiyə edirəm. Çünki o, xalis əməldir.”[1]

Burada sual oluna bilər ki, məgər namaz, həcc və s. ibadətlərdə xalislik yoxdurmu? Cavab olaraq deyə bilərik ki, heç bir ibadət oruc kimi xalis deyil. Yəni başqa ibadətlərdə riyakarlıq etmək olur. Məsələn, namaz qılan şəxs niyyətini qarışdıra bilər. Yəni özünü ibadət edən insan kimi kənardan baxanlara göstərə bilir. Amma oruc məsələsi belə deyil. Oruc tutmasa da tutduğunu iddia edə bilər. Yaxud bir nəfər oruc tutduğunu deyirsə, kim haradan bilər ki, o, evdə su içib, ya içməyib? Oruc digər ibadətlərdən fərqli olaraq gizli bir əməldir. Buna görə də oruc tutan şəxs kiminsə xəbəri olmadan Allahla özü arasında ibadət etmişdir.

قَالَ عَلِيٌّ(ع): الصَّوْمُ عِبَادَةٌ بَيْنَ الْعَبْدِ وَخَالِقِهِ، لاَ يَطَّلِعُ عَلَيْهَا غَيْرُهُ، وَكَذَلِكَ لاَ يُجَازِي عَنْهَا غَيْرُهُ

-Həzrət Əli(ə) buyurur: “Oruc elə bir ibadətdir ki, bəndə ilə Allahın arasında olan əməldir. Onun oruc olub-olmamasını Allah və həmin bəndədən başqa heç kəs bilmir. Buna görə də onun savab və mükafatının nə qədər olduğunu Allahdan başqa heç kəs bilməz.”[2]

قَالَ عَلِيٌّ(ع): فَرَضَ اللهُ الصِّيام اِبتِلاءً لِإخلاصِ الْخَلق

[1] Allahın ayı,1-ci cild, səh. 102.
[2] Allahın ayı, 1-ci cild, səh. 102.

-Həzrət Əli(ə) buyurur: “Allah-təala orucu insanların ixlasını yoxlamaq üçün vacib buyurmuşdur.”[1]

Oruc insanın niyyətini saflaşdırdığı kimi, şeytanın hücum yollarını da bağlayır. Həmçinin oruc şəhvətlərin qarşısını kəsən amillərdən biridir. Şəhvət şeytanın alət və vasitələrindən biri olduğu üçün oruc tutmaq onun əl-qolunu bağlayır. Buna görə də hədislərdə şeytanın yollarını bağlamaq üçün oruc tutmaq təkid olunmuşdur.

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ الشَّيْطَانَ يَجْرِي مِنَ ابْنِ آدَمَ مَجْرَى الدَّمِ، فَضَيِّقُوا مَجَارِيَهُ بِالْجُوعِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Həqiqətən şeytan adəm övladının damarlarında dövr edən qan kimi dövr edir. Ac qalmaqla (oruc tutmaqla) onun yollarını bağlayın.”[2]

[1] Yenə orada, 1-ci cild, səh. 102.
[2] Yenə orada, 1-ci cild, səh. 105.

**10. Paklıq ayı (paklaşdırıcı ay)**

Peyğəmbər(s) və məsum imamların hədislərinə əsasən mübarək ramazan ayının adlarından biri də "paklıq və paklaşdırıcı ay"dır. Bu ay özü pak olmaqla yanaşı, insanları da paklaşdırır.

قَالَ الإمام السَّجَّاد(ع): وَ هُوَ شَّهرُ الطَّهُور

-İmam Səccad(ə) buyurur: "(Mübarək ramazan ayı) paklaşdırıcı bir aydır."[1]

Burada qarşıya belə bir sual çıxır ki, əgər ramazan ayı paklaşdırıcı aydırsa, bəs nə üçün hamını paklaşdırmır? Dünyada nə qədər natəmiz, nanəcib, pozğun, günaha bulaşmış, kafir və facir insanlar yaşayır. Onlar da ramazan ayında yaşayırlar, amma bəs nə üçün bu ay onları paklaşdırmır? Bu sualın cavabı Quranın həmin ayəsinə qayıdır ki, Quran hidayət kitabıdır və insanları hidayət edir. Lakin hər insanı yox, yalnız təqvalıları doğru yola yönəldir. "Bəqərə" surəsinin 2-ci ayəsində belə buyurulur:

ذَلِكَ الْكِتَابُ لاَ رَيْبَ فِيهِ هُدًى لِّلْمُتَّقِينَ

-Barəsində heç bir şəkk-şübhə olmayan bu uca məqamlı kitab təqvalılar üçün hidayət mənbəyidir.

Deməli, hidayət olmağın qanunları olduğu üçün hər bir kəs bu qanunlara riayət və əməl edərsə, Quran həmin insanı hidayət edər. Əgər bu məsələni daha açıq bəyan etmək istəsək, xəstə və həkimi misal çəkə bilərik. Güclü, savadlı və sayılıb-seçilən həkim xəstəni müayinə edir və onun müalicəsi üçün müəyyən dərmanlar yazaraq, bəzi

---

[1] Yenə orada,1-ci cild, səh. 36.

yeməklərdən pəhriz saxlamağı tapşırır. Bir daha xəstədən təkidlə tələb edir ki, onun üçün yazdığı dərmanları vaxtlı-vaxtında qəbul etsin. Bəzi dərmanlar vardır ki, gündə üç dəfə yeməkdən sonra içilməlidir. Elə dərmanlar vardır ki, gündə bir dəfə yeməkdən əvvəl qəbul edilməlidir. Əgər xəstə yazdıqlarına riayət etsə, tezliklə sağalacaq. Xəstə həkimi dinlədikdən sonra onun yazdıqlarını götürüb gedir. Üstündən bir müddət keçdikdən sonra sağalmır və əksinə, vəziyyəti bir az da pisləşir. Çünk xəstə həkimin yazdığı dərmanları vaxtlı-vaxtında qəbul etməyib və onun göstərişlərinə məhəl qoymayıb. Əgər xəstə həkimin göstərişlərinə dəqiqliklə riayət etsəydi, o, mütləq sağalardı.

Quran da eynilə belədir. Quran o kəsi hidayət edib səadətə çatdırır ki, onun qaydalarına riayət etmiş olsun. Əgər Quran oruc tutmağı əmr edirsə, insan oruc tutmalıdır. Səfərdə olanda oruc tutmamağı əmr edirsə, buna riayət olunmalıdır. Hər gün vaxtlı-vaxtında on yeddi rükət namaz qılmağı əmr edirsə, dəqiqliklə yerinə yetirilməlidir. Həccə getməyi, Ərəfatda torpaq üstündə gecələməyi, digər şəriət məsələlərinin icrası ilə bağlı göstəriş verirsə, hidayət olmaq istəyən hər bir kəs bütün bunlara riayət etməlidir. Onu da bilmək lazımdır ki, insanın hidayət olması üçün yaşdan quruya qədər hər nə lazımdırsa Quranda göstərilmişdir. Bu müqəddəs kitabda elə bir şey yoxdur ki, insan onu bəhanə gətirsin. Lakin Quranın öz mütəxəssisi vardır ki, hər insan onu öz bildiyi kimi şərh edə bilməz. Onun ayələrini başa düşmək, məsələləri öyrənmək üçün mütəxəssisə müraciət olunmalıdır. Məsələn, hər bir insan dağların, torpaqların altından qızılı çıxara bilməz. Hamı bilir ki, qızıl və

gümüş üzüklər, bəzək-düzəklər göydən yerə tökülmür. Qızıl mədən və dəfinədir. Adi bir insan gedib ona baxdıqda sadəcə torpaq olduğunu görür. Lakin bu işin mütəxəssisi həmin torpağa baxdıqda onun neçə faizinin qızıl olduğunu bilir. Çünki onun işi bu sahə ilə bağlıdır. Sonra müxtəlif cihazların vasitəsilə qızılı torpaqdan ayırırlar.

Beləliklə Quran ayələrini də hər yerindən duran insan açıqlaya bilməz. Onun öz mütəxəssisi vardır ki, yalnız hökmləri həmin şəxs çıxarıb camaata söyləyə bilər. Yox, əgər bir insan mütəxəssisin sözünə inanmırsa, bu zaman özü zəhmət çəkməli, illərlə çalışıb oxumalı, Quran ayələri ilə yaxından tanış olmalı, onun elminə yiyələndikdən sonra hökmləri başa düşə bilər. Hansısa idarədə işləməklə, bazarda alver etməklə Qurandan hökm çıxarmaq olmaz. Bunun üçün hər hansı bir şəxs illərlə zəhmət çəkməli, bütün iş-gücünü  Qurana sərf etməli və mütəxəssis olmalıdır.

Quran Allah tərəfindən nazil olmuş müqəddəs bir kitabdır. Bu kitab elə bir qızıla bənzəyir ki, yalnız onun mütəxəssisinin sözlərinə inanıb ona əməl edirik. Quran insanları hidayət edir, lakin hər bir insanı deyil, onun hökmlərinə riayət edən təqvalı insanları doğru yola yönəldir. Hansı insan Qurana tam incəlikləri ilə riayət edib, lakin hidayət olunmayıb? Məgər Quranı oxuyub əməl edənlərə və sonda da hidayət olunanlara rast gəlmirikmi? Hər kim Quran ayələrini öyrənib ona Allah buyurduğu kimi əməl edibsə, Allah-təala da mərhəmət və hidayətini həmin şəxsə nazil edib. Qeyd olunan ayədə buyurulduğu kimi, ramazan ayı da eynilə belədir. Yəni mübarək ramazan ayı paklaşdırıcı bir aydır. Amma şərti

budur ki, bu ay o insanı paklaşdırar ki, onun qanunlarına riayət etmiş olsun. Hər kəs bu ayda oruc tutsa, nəfsi ilə mübarizə aparsa, özünü haramlardan qorusa, bütün ilahi qanunlara öz bildiyi kimi yox, Allah buyurduğu kimi əməl etsə, paklaşıb təmizliyə çıxacaq. Məsələn, bazarda gəzən insanların hamısı pul qazanırmı? Əgər bir insan gün ərzində yüz dəfə bazarın o baş, bu başına gedib-gəlsə, pul qazanarmı? Bazarda pul qazanmaq istəyən kəs ticarətlə məşğul olmalı, zəhmət çəkməlidir. Bazarda pul qazanmağın da şərtləri və qaydaları vardır. Yaxud universitetdə olanların hamısı professor ola bilirmi? Nə olsun ki, həmin universitetə gedib-gəlir? Bəlkə orada xadimə işləyir? Orada bütün həyatı boyu xadimə, yaxud qapıçı işləyən bir insan alimlik dərəcəsinə nail ola bilərmi? Əlbəttə ki, xeyr. Alim, akademik, professor olmaq istəyən şəxs universitetin qanunlarına riayət etməli və bu məqama çatmaq istəyirsə gecə-gündüz oxuyub çalışmalıdır.

Əgər bir insan orada pul verib yalançı ad qazanıbsa, onun işlədiyi həmin müddətdə aldığı pulların hamısı haramdır. Çünki layiq olmadığı bir yükü çiyninə götürmüş vəziyyətdən sui-istifadə edərək maaş almışdır. Əsl həqiqətdə müəllim olmadığı üçün aldığı pullar da ona haramdır. Odur ki, ramazan ayında gəzib-dolanan, heç bir qayda-qanuna riayət etməyən insan pak ola bilməz. Bu ay o kəslər paklaşa bilərlər ki, ramazan ayının qayda-qanunlarına riayət etsinlər.

## Zahiri və batini paklıq

İnsanlar arasında elələri vardır ki, ayından və günündən asılı olmayaraq daim paklıq axtarırlar. Yəni

onlar həqiqətən də paklığı sevir və həmişə paklığa səbəb olan işləri görürlər. Allah-təala da belə insanları sevir. Quran ayələrinə diqqət yetirdikdə "Tövbə" surəsinin 108-ci ayəsində bu məsələnin şahidi oluruq. Həzrət Peyğəmbər(s) Mədinə şəhərinə hicrət etdikdən sonra şəhərin girişində bir məscid tikdirdi. Onun adı Quba məscididir və həcc ziyarətinə gedənlər həmin məscidi ziyarət edirlər. Həzrət Peyğəmbər(s) həmin məscidi möminlərlə birgə bir neçə günə tikib başa çatdırdılar. Bu məscid təqva əsasında tikilib hazır edildi. Lakin münafiqlər bu məscidi nüfuzdan salmaq və özlərinə bir mərkəz yaratmaq üçün şəhərin digər tərəfində başqa bir məscid tikdilər. Münafiqlər həmişə bu cür hiylələrdən istifadə etməyə çalışmışlar. Adicə bir misalı nəzərinizə çatdırım. Uşağın əlindəki qiymətli şeyi onun əlindən almaq üçün yavaş-yavaş onunla şirin münasibət yaratmaq və oyuncaqla onun başını aldadıb həmin qiymətli əşyanı ondan alırlar. Heç bir vaxt uşağa deməzlər ki, əlində oynatdığın həmin əşya çox qiymətlidir. Uşağın başını hər hansı bir oyuncaqla qataraq həmin əşyanı onunla dəyişdirirlər.

Odur ki, münafiqlər həmin məscidi tikməklə oyun oynamaq istədilər. Xüsusilə Peyğəmbəri(s) ora dəvət etməkdə məqsədləri camaatın başını aldadıb onları həqiqi məscidlərdən uzaqlaşdırmaq idi. Allah-təala "Tövbə" surəsinin 108-ci ayəsini nazil etdi:

لاَ تَقُمْ فِيهِ أَبَدًا لَّمَسْجِدٌ أُسِّسَ عَلَى التَّقْوَى مِنْ أَوَّلِ يَوْمٍ أَحَقُّ أَن تَقُومَ فِيهِ

-Orada (həmin məsciddə) əsla (namaza) durma. Şübhəsiz, (bünövrəsi) ilk gündən təqva üzərində

qurulmuş məscid (Quba məscidi, Mədinə məscidi) sənin onda namaza durmağına daha layiqdir.

Münafiqlər özlərini və tikdikləri məscidi camaatın gözündə yüksəltmək istəyirdilər. Allah-təala Peyğəmbəri(s) onların bu hiylələrindən agah etdi. Həmçinin Peyğəmbərə(s) əmr etdi ki, namaz qılarkən öz məscidində, yaxud Quba məscidində qılsın. Çünki Mədinə və Quba məscidi təqva əsasında qurulmuşdur. Ayənin ardınca Allah-təala Mədinə məscidi barədə belə buyurur:

فِيهِ رِجَالٌ يُحِبُّونَ أَن يَتَطَهَّرُواْ وَاللّهُ يُحِبُّ الْمُطَّهِّرِينَ

-Orada paklaşmağı (zahiri və batini paklığı) sevən kişilər vardır. Allah pakları sevir.

Deməli, bu aləmdə paklığı axtaran insanlar vardır. Onlar həmişə paklıq ardınca düşmüş və özlərini paklaşdırmaq üçün çalışmışlar. Əhli-beytin(ə) barəsində nazil olmuş bu ayədə açıq-aydın görürük ki, Allah-təala bütün çirkinlikləri onlardan uzaqlaşdırıb pak-pakizə qərar vermişdir. "Əhzab" surəsinin 33-cü ayəsində oxuyuruq:

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيراً

-Həqiqətən, Allah siz Əhli-beytdən bütün çirkinliyi yox etmək və sizi tərtəmiz, pak-pakizə etmək istər.

**Zahiri paklıq nədir?**

Xacə Abdullah Ənsari əhli-sünnə alimlərindən biridir. O deyir: "Çirkinlik iki cürdür: zahiri və daxili çirkinlik. Zahiri çirkinliyin biri paltarın və bədənin murdarlanmasıdır ki, insan onu pak etməlidir. Əgər insanın paltarı və yaxud bədəni hər hansı bir murdar şeyə bulaşıbsa, şəriət hökmləri əsasında onu təmizləyib aradan

aparmalıdır. İkincisi isə bədənin mənəvi çirkinliyidir. Bu çirkinlik insanı qüslə salan və yaxud dəstəmazı pozan çirkinliklərdir. Həmin çirkinliklərdən paklaşmaq üçün insan qüsl və yaxud dəstəmaza riayət etməlidir.

Odur ki, hər bir kəs bədəninin həmişə pak olmasını istəyirsə, bədənində və paltarında olan çirkinlikləri təmizləməklə yanaşı, daim dəstəmaz və qüsl məsələlərinə də riayət etməlidir. Bir çox möminlər heç vaxt imkan vermirlər ki, qüsllü halla gəzib- dolansınlar, yaxud yatsınlar. Çünki bilirlər ki, mələklər onları gecə namazına, yaxud sübh namazına səsləyirlər. Əgər insan murdar halda yatarsa, mələklərin çağırışlarını eşidə bilməzlər. Mərhum Ayətullah Mirzə Cavad Təbrizi deyir: "Gecənin nafilə namazının vaxtında mələklər insanı səsləyərlər. Onların insanı səsləməsi də müxtəlif cür olur. Bəzən insanı kobud şəkildə çağırırlar. Sadəcə "Qalx, namazın vaxtıdır" - deyə səsləyərlər. Bəzən bir az mülayim şəkildə adını çəkərək "Filankəs, oyan! Namaz vaxtıdır" - deyə çağırırlar. Bəzən də daha ehtiramla "Cənab filankəs, namaz vaxtıdır. Oyan!" - deyə müraciət edib səsləyərlər. Bütün bu çağırışların səbəbi insanın gündüz etdiyi əməllərdən asılıdır. Əgər insan həmin gün günah iş görmüş olsa, sadəcə "Oyan!" -deyə səsləyirlər. Əgər insan həmin gün yaxşı işlər görsə və heç bir xətaya yol verməsə, çox böyük ehtiramla onu səsləyib oyadarlar.

Buna görə də paklıq axtaran hər bir insan batini paklığa çatmaq üçün ilk növbədə zahirinin paklığına diqqət yetirməlidir. Daim qüsl və dəstəmaz məsələlərinə diqqət yetirməlidir. Dəstəmaz almaq insanda nuraniyyət yaradır. Hətta dəstəmaz üzərindən dəstəmaz almaq belə

insanın nuraniyyətini daha da artırır. Bu barədə olan hədislərdən bir neçəsinə diqqət yetirək:

قَالَ الصَّادِقُ(ع): اَلوُضُوءُ نُورٌ. اَلوُضُوءُ عَلَى الوُضُوءِ نُورٌ عَلَى النُّور

-İmam Sadiq(ə) buyurur: "Dəstəmaz üstündən dəstəmaz, nur üstündən nurdur."

قَالَ الصَّادِقُ(ع): مَنْ تَوَضَّأَ فَذَكَرَ اسْمَ اللَّهِ، طَهُورَ جَمِيعُ جَسَدِهِ، كَانَ الوُضُوءُ اِلَى الوُضُوءِ كَفَّارَةً لِمَا بَينَهُمَا مِنَ الذُّنُوب

-İmam Sadiq(ə) buyurur: "Hər kəs dəstəmaz alarkən (Bismillah deyib) Allahın adını çəksə, bütün bədəni pak olur. Aldığı iki dəstəmazın arası onun etdiyi günahlarının kəffarəsidir."[1]

قَالَ الصَّادِقُ(ع): مَنْ جَدَّدَ وُضُوءَهُ لِغَيرِ صَلاةٍ جَدَّدَ اللهُ توبَتُهُ مِن غَيرِ اِستِغفَارٍ

-İmam Sadiq(ə) buyurur: "Kim dəstəmazı pozan bir iş görmədən (namazdan əlavə) yenidən dəstəmaz alsa, Allah istiğfar etmədən onun tövbəsini təzələyər."[2]

Burada çox incə bir mətləb vardır. Həmin mətləb budur ki, hər kəs dəstəmaz üstündən dəstəmaz alsa, Allah onun tövbəsini təzələyər. Bu tövbənin insanın Allahdan bağışlanma diləməsi ilə fərqi vardır. Fərq bundadır ki, burada Allah həmin şəxsin tövbəsini təzələməyi iradə etmişdir. Deməli, insanın bu tövbəsi mütləq şəkildə

[1] Səvabül-əmal. səh. 40.
[2] Yenə orada, səh. 46.

qəbuldur. Ola bilsin ki, insan digər vaxtlarda Allaha tövbə edib günahlarının bağışlanmasını diləsin, amma qəbul olub-olunmamasına yəqinlik yoxdur. Çünki heç bir kəs etdiyi istiğfarın nə dərəcədə qəbul olub-olmamasına arxayın deyil. Lakin dəstəmaz alarkən özündən asılı olmayaraq Allah həmin şəxsin tövbəsini təzələyirsə, deməli onun üçün iradə olunan istiğfar qəbuldur. Nəticədə ələ gələn budur ki, Allahın bir şeyə iradə etməsi kifayətdir. Yəni əgər Allah Özü həmin şəxsin dəstəmazına xatir tövbəsini təzələyirsə, onun qəbul olmasında heç bir şəkk-şübhə yarana bilməz.

قَالَ الصَّادِقُ(ع): مَنْ تَطَهَّرَ ثُمَّ اَوَى اِلَى فِرَاشِهِ بَاتَ وَ فِرَاشُهُ كَمَسجِدِه

-İmam Sadiq(ə) buyurur: "Hər kim dəstəmaz, yaxud (boynunda olan) qüsl alaraq yatağına girib yatarsa, yatdığı yer onun üçün məscid kimi olar. (Yəni səhərə qədər məsciddə ibadət edən insan kimidir.)"[1]

Beləliklə, paklıq və təharət axtaran insan ilk növbədə zahirinin təharətinə diqqət yetirməlidir. Bədənini çirkinliklərdən pak saxlayıb, qüsl və dəstəmaz kimi məsələlərə daim riayət etməlidir. Çünki əgər insanın bədəni pak olmasa, batininin pak olması mümkün olmayacaq. Bir sözlə desək, insanın zahiri paklığı olmasa, batini paklığa yaxınlaşa bilməyəcək. Quran qarelərinə və hafizlərinə diqqət yetirdikdə görürük ki, onlar daim dəstəmazlı halda olurlar. Onların işləri Quran əzbərləməkdən ibarət olduğu üçün dəstəmaz məsələsinə

[1] Səvabül-əmal, səh. 48.

və zahiri paklığa daim diqqət yetirirlər. Əgər insan zahirinin paklığına, qüsl və dəstəmaz məsələlərinə riayət etməsə, Quran əzbərləməkdə müvəffəqiyyət əldə edə bilməz. Hər bir müqəddəs və nuraniyyət yaradan əməllərin əvvəli insanın zahiri paklığında diqqətli olmasıdır. Başqa sözlə desək, hər kim qəlbində Allah məhəbbətinin yaranmasını istəyirsə, ilk növbədə zahiri paklıqdan başlamalıdır. Qızıla diqqət yetirdikdə görürük ki, ondan hazırlanmış hər hansı bir bəzək əşyası üçün gözəl qab düzəldilir. Çünki həmin qabın içinə o qızılı qoyacaqlar. Heç görünübmü ki, alüminium və yaxud adi dəmir parçası üçün elə gözəl qab düzəltsinlər? Qızıl çox bahalı bir şey olduğu üçün ondan düzəldilən bütün bəzək əşyalarının qabını da gözəl düzəldirlər. Buna görə də hər bir kəs qəlbinə Allah məhəbbətinin dolmasını istəyirsə, zahiri paklıqla yanaşı, qəlbini də bütün çirkinliklərdən təmizləməlidir. Heç vaxt murdar və çirkin qəlbə Allah məhəbbəti daxil ola bilməz. Hədislərdə belə nəql olunur ki, it olan evə mələklər daxil olmaz. Bəziləri bu hədisə irad tutaraq bildirmişlər ki, it murdar bir heyvandır. Lakin onun bir neçə xüsusiyyəti də vardır ki, məsələn, bəzi insanlar onu öz həyət-bacalarının qorunması məqsədilə saxlayırlar. Həm də Allah-təala bu heyvanı elə ona görə yaratmışdır ki, insanların mal-qarasını qorusun. Ayətullah Nəraqi bu hədisi gözəl surətdə açıqlayıb şərh etmişdir. O deyir: “Hədisdə ifadə olunan “ev” sözündə məqsəd insanın qəlbi, “it” sözündə məqsəd isə günahdır. Deməli, murdar və çirkin qəlbdə heç bir vaxt Allahın məhəbbəti qərar tuta bilməz.

**Batini (daxili) paklıq nədir?**

Yuxarıda qeyd olundu ki, paklıq və təharətli olmaq istəyən hər bir kəs iki mühüm məsələdə diqqətli olmalıdır. Həmin məsələlərdən biri qeyd olunduğu kimi, insanın zahiri paklığıdır. Zahiri paklıq mərhələsi insanın daxilinin pak olmasına səbəb olan amillərdən biri və önəmlisidir. Burada sual oluna bilər ki, batin və daxilin paklığı nədir? Yaxud qüsl, dəstəmaz insanın zahirini pak edir, bəs insanın daxilinin pak olması yolları hansıdır?

Bu sualların cavabında deyə bilərik ki, insanın daxili paklığının üç əsas mərhələsi vardır. Birincisi, fikir və əqidənin paklığı; ikinci, bədən üzvlərinin günahlardan pak olması; üçüncüsü, qəlbin və ruhun paklığıdır. Burada çox yaxşı olar ki, hər üç mərhələ barədə söz açıb onları izah edək.

**1. Fikir və əqidə paklığı**

Bəzi nəzəriyyələrə görə insanın daxili paklığının birinci mərhələsi fikir və əqidə paklığıdır. Əgər bir insanın əqidəsi, fikir və düşüncəsi pak olmasa, onun nə bədən üzvləri, nə də qəlbi pak olacaq. Buna görə də insan ilk növbədə öz əqidəsi üzərində işləməlidir. Yəni əqidəsini saflaşdırıb onu hər cür pis düşüncələrdən paklaşdırmalıdır. İslamı qəbul edən hər bir kəs ilk növbədə bir müsəlmanın nəyə əqidəsi olduğunu öyrənməlidir. Əqli dəlillər və məntiq əsasında tövhid, ədl, nübüvvət, imamət və məad barədə düşünməli və əqidəsini möhkəmləndirməlidir. Keçmişdə möminlər bir-birinə öz əqidələrini söyləməklə fikir və düşüncələrində olan çatışmazlıqları aradan qaldırar və əqidələrini daha da möhkəmləndirərdilər. Çox təəssüflər olsun ki, hazırkı

dövrdə möminlər arasında belə bir hal mövcud deyildir. Qədim zamanlarda hər hansı bir mömin alimlərdən birinin yanına gedər və əqidəsini ona söyləyərdi. Məsum imamlarımızın dövründə də möminlər imamların yanına gələr və öz imanlarının, əqidələrinin düz olub-olmamasını onlardan soruşardılar. İmamlar isə onların sözlərinə və düşüncələrinə qulaq asar, səhv olduqda səhvlərini düzəldərdilər.

Əbdüləzim Həsəni dahi alim, sədaqətli, imanlı və müqəddəs bir şəxsiyyət idi. Bundan əlavə, o, mübariz, canından keçən və fəal bir insan idi. İslam yolunda çox zəhmətlər və əziyyətlər çəkmişdi. Dəfələrlə imamların hüzurunda olmuşdur. Kitablarda yazırlar ki, görkəmli alim və əqidəsi saf, imanlı bir şəxs olmasına baxmayaraq, bir dəfə o, onuncu imamımız İmam Hadinin(ə) hüzuruna gəlib dedi: “Ey Allahın höccəti, öz əqidəmi sizə bəyan etmək istəyirəm. Bilmək istərdim ki, mən bu əqidəmdə hansısa yanlışlıqlara yol verməmişəmmi?” Sonra isə öz əqidəsini əvvəldən axıra qədər Həzrətə(ə) söylədi. Həzrət(ə) buyurdu: “Ey Əbəl-Qasim, mərhəba sənə, xoş gəlmisən. Sən həqiqətən də bizim dostumuzsan və sənin əqidəndə heç bir yanlışlıq yoxdur.” Onun İmamla(ə) bu söhbətindən bir cild kitab yazıb çap etmişlər. Məsum imamların onun barəsində bu kimi sözlər buyurması həqiqətən də onun böyük bir şəxsiyyət olmasından xəbər verir.

Odur ki, İslamı qəbul edən hər bir müsəlman öz əqidəsini mükəmməl şəkildə öyrənməli və möhkəmləndirməlidir. Belə olmamalıdır ki, hər yoldan ötənin sözü ilə, yaxud bəzi hadisələrin təsiri altında öz əqidəsindən dönsün. Yaxud belə olmamalıdır ki, bu gün

bir əqidədə, sabah başqa bir əqidədə olsun. İnsanın əqidə və təfəkkürü möhkəmləşdikdə onun fikri və düşüncəsi də mükəmməl olar. Bu, insanın daxilinin pak olmasının birinci mərhələsidir. Allah-təala Həzrət İbrahimin(ə) bu barədə etdiyi dualardan birini bizim üçün belə bəyan etmişdir. “Şüəra” surəsinin 87-89-cu ayələrində belə oxuyuruq:

وَلَا تُخْزِنِي يَوْمَ يُبْعَثُونَ. يَوْمَ لَا يَنفَعُ مَالٌ وَلَا بَنُونَ. إِلَّا مَنْ أَتَى اللَّهَ بِقَلْبٍ سَلِيمٍ

-Məni (insanların) dirildiləcəyi gün xar etmə. O gün ki, malın və oğulların bir faydası olmayacaq. Yalnız (fəsadlı əqidələrdən və əxlaqdan) salamat (sağlam) bir qəlblə Allahın hüzuruna gələn kimsədən başqa!

Bəziləri qəlbin təmizliyini öz bildikləri kimi başa düşürlər. Bu azmış kimi deyirlər: Namaz qılmaqla, oruc tutmaqla deyil. İnsanın gərək ürəyi təmiz olsun. Gündə bir naməhrəmlə görüşür, haram içkilərdən içir, başqalarının namusuna baxır, yalan danışır və s. günahlara əl atır sonra da deyir: Əsas odur ki, insanın ürəyi təmiz olsun.

Bütün bu sözlər çox yanlış düşüncələrdir. Ürəyi təmiz olan insan heç bir vaxt yalan danışmaz. Ürəyi təmiz olan insan heç bir vaxt başqalarının namusuna göz dikməz. Ürəyi təmiz olan insanın əməli də düz olar. Ürəyi təmiz olan insan haram yeməz və günah etməz. Ürəyi təmiz olan insan heç bir vaxt Allahın qoyduğu qanunları pozub cinayət törətməz.

Bir nəfər İslam Peyğəmbərindən(s) soruşdu: “Ya Rəsulallah, sağlam və təmiz qəlb nədir? Həzrət Peyğəmbər(s) buyurdu:

دِينٌ بِلَا شَكٍّ وَ هَوًى وَ عَمَلٌ بِلَا سُمْعَةٍ وَ رِيَاءٍ

-Şəksiz və həvayi nəfssiz olan dindarlıq, şəhvətsiz və riyasız əməl.”

**2. Əzaların paklığı**

Daxili paklığın ikinci mərhələsi bədən üzvlərinin günahlardan təmizlənməsidir. Yəni insan öz əzalarını günahlardan təmiz saxlamalı, haram işlərdən çəkinməli və vacib olan əməlləri yerinə yetirməlidir. Əgər insan bədən üzvlərini günahlardan qorumasa, qəlbi pak olmayacaq. Əl-üzünü nə qədər təmiz yusa, gözəl paltarlar geysə, zahiri təmizliyinə fikir versə belə, qəlb çirkin olarsa, bədən üzvlərinin təmizliyinin heç bir faydası olmayacaq. Həzrət İsa Peyğəmbər(ə) bu barədə bir cümlə buyurmuşdur. Əlbəttə, bu kimi cümlələr İslam Peyğəmbərinin(s) və məsum imamlarımızın kəlamlarında da görsənmişdir.

قَالَ الْمَسِيحُ(ع): لا يُغنِي عَنِ الْجَسَدِ أَن يَكُونَ ظَاهِرُهُ صَحِيحًا وَباطِنُهُ فَاسِداً... وَمَا يُغنِي عَنكُم أَن تُنَقُّوا جُلُودَكُم وَقُلُوبُكُم دَنِسَة

-Həzrət İsa(ə) buyurmuşdur: “Qəlb çirkin və napak olarsa, zahirin (bədən və paltarın) gözəl olmasının nə faydası var? Qəlb günah çirkabında ikən dərinin (zahirin) təmizliyindən nə fayda.”[1]

Bu hədisdən başa düşülür ki, insan zahiri gözəlliyinə və geyiminin təmizliyinə diqqət göstərdiyi kimi, daxilinin və qəlbinin təmizliyini də düşünməlidir.

---

[1] Mizanül-hikmə ,2425-ci баб.

Bahalı paltarlar geyinmək, bəzək-düzək əşyaları taxmaq heç də insanın daxilinin yaxşı olmasından xəbər vermir. Buna görə də insan qəlbini günahlardan təmizləməklə səadətə qovuşa bilər.

قَالَ عَلِيٌّ(ع): فَطَهِّرُوا مِن دَنَسِ العُيُوبِ وَ الذُّنُوب

-Həzrət Əli(ə) buyurmuşdur: "Özünüzü eyib və günahların murdarlıqlarından təmizləyib pak edin."[1]

Deməli, insanın əzalarının pak, yaxud murdar olması onun qəlbinin necəliyindən xəbər verir. Əgər qəlb napakdırsa ,insanın əzaları heç bir vaxt təmiz ola bilməz. Əgər bir insan günah edirsə, deməli, həmin şəxsin qəlbi çirkindir. Əgər başqalarının namusu birinin gözündə amanda deyilsə, deməli, həmin şəxsin qəlbi murdardır. Yəni əgər bir insanın gözü xalqın namusuna baxırsa, deməli, həmin şəxsin gözü xəyanət edir. O gözlərə heç bir kəs etibar etməz. Burada söhbət təkcə insanın gözündən getmir. Bütün bədən üzvləri belədir. Əgər bir insan əmanətə xəyanət edirsə, kim ona əmanət tapşırar? Əgər bir insanın dilindən yalan çıxırsa, kim onun sözlərinə inanar? İnsanın dəyər və qiyməti onun etibarındadır. Əgər insanın etibarı olmasa, onun qiyməti də olmaz. Deməli, insanın əzalarının paklığı onun günah etməməsindədir. Yəni hər kəs bədən üzvlərinin pak olmasını istəyirsə, günah etməməlidir. Əks- təqdirdə bədən üzvləri heç bir vaxt pak olmaz.

---

[1] Yenə orada.

### 3. Qəlbin paklığı

Batini paklığın üçüncü mərhələsi isə budur ki, insan ürəyində olan bütün pis xüsusiyyətləri çıxarıb atsın. İnsanın ruhu ağ kağıza bənzəyir ki, hər bir günah onu qaraldıb ləkələyir. Qəlbin təmizliyi və şəffaflığı günahların təsirindən qaralıb çirklənir. Allah-təala “Mutəffifin” surəsinin 14-cü ayəsində belə buyurur:

كَلَّا بَلْ رَانَ عَلَى قُلُوبِهِم مَّا كَانُوا يَكْسِبُونَ

-Xeyr, (belə deyildir). Əslində onların qəlblərini qazandıqları günahlar pasla örtmüşdür.

Bu ayə açıq-aydın şəkildə bizə başa salır ki, insanın qəlbi yalnız etdiyi günahlar nəticəsində paslanıb qaralır. Əgər insan günah etməsə, yaxud günah etdikdən sonra peşman olub tövbə edərək günahlarını təmizləsə, qəlbin paklığını qoruyub saxlaya bilər.

قَالَ الْبَاقِرُ(ع): ما عَبْدٌ إلا فِي قَلْبِهِ نُكْتَةٌ بَيْضَاءٌ فَإِذا أَذْنَبَ ذَنْبًا خَرَجَ فِي النُّكْتَةِ نُكْتَةٌ سَوْداءٌ فَإِنْ تَابَ ذَهَبَ ذَلِكَ السَّوادُ وَ إِنْ تَمَادَى فِي الذُّنُوبِ زَادَ ذَالِكَ السَّوَادُ حَتّى يغطى الْبَيَاضُ فَإِذا غُطَّى الْبَيَاضُ لَمْ يَرْجِعْ صَاحِبُهُ إِلَى خَيْرٍ أَبَدًا وَ هُوَ قَوْلُ اللهِ عَزَّ وَ جَلَّ: كَلَّا بَلْ رَانَ عَلَى قُلُوبِهِم مَّا كَانُوا يَكْسِبُونَ

-İmam Baqir(ə) buyurur: “Hər insanın qəlbində ağ bir nöqtə vardır. İnsan günah etdikdə həmin nöqtədən qara bir nöqtə əmələ gəlir. Əgər insan etdiyi günahdan tövbə edərsə, qəlbində yaranan qara nöqtə pozular. Əgər insan günaha davam edərsə, həmin qara nöqtə o qədər çoxalar ki, qəlbin bütün ağlığını örtər və onun qəlbi tamamilə qaralar. Qəlbin ağlığı aradan getdikdən və qəlb

tamamilə qaraldıqdan sonra həmin qəlbin sahibi bir daha xeyir və səadətə çatmaz.” Bu, Allahın sözüdür: “Xeyr, (belə deyildir). Əslində onların qəlblərini qazandıqları günahlar pasla örtmüşdür.”[1]

Qiyamət günü insanın ən çətin anlarından biridir. Biz qiyamət günü haqda yalnız Quran ayələrindən və hədislərdən öyrəndiyimiz qədər anlaya bilirik. Həmin günün necə dəhşətli bir gün olacağını Quran bizə xəbər vermişdir. Belə bir gün olacaq ki, ana öz balasından, qardaş qardaşından qaçacaq. Hər bir insan öz canının hayında olacaq. Lakin hədislərdə belə nəql olunur ki, bəzi insanlar Allahın ərşinin kölgəsində daldalanacaqlar.

Həzrət Musa Peyğəmbər(ə) Allahla minacat edərkən soruşdu: “İlahi! Kimdir, Sənin ərşindən qeyri heç bir kölgənin olmadığı gündə Sənin ərşinin kölgəsində olanlar?” Allah ona vəhy edərək buyurdu: “Ürəyi təmiz və pak olanlar.”[2]

قَالَ عَلِيٌّ(ع): قُلوبُ العِبَادِ الطَّاهِرَةِ مَواضِعُ نَظَرِ اللهِ سُبحَانَه، فَمَنْ طَهرَ قَلبُه نَظَرَ اللهُ إِلَيهِ

-Həzrət Əli(ə) buyurur: “Bəndələrin pak qəlbləri Sübhan Allahın baxdığı yerlərdir. Kim qəlbini paklaşdırarsa, Allah ona nəzər salar.”[3]

طَهِّرُوا أَنْفُسَكُم مِن دَنَسِ الشَّهَوات تُدْرِكُو رَفِيعَ الدَّرَجَات

---

[1] Mizanül-hikmə,3-cü cild, səh.465.
[2] Yenə orada,10-cu cild, səh.4992.
[3] Yenə orada,10-cu cild, səh.4992.

-Həzrət Əli(ə) buyurur: “Özünüzü bütün şəhvətlərin çirkinliklərindən təmizləyin ki, yüksək dərəcələrə nail olasınız.”[1]

Həzrət Əli(ə) bu hədisdə insanlara bütün şəhvətlərin çirkinliklərindən təmizlənməyi tövsiyə edir. Şəhvət dedikdə təkcə cinsi tələbat nəzərdə tutulmur. Şəhvətin cürbəcür növləri var və onlardan biri də cinsi şəhvətdir. Vəzifəpərəstlik, çox yatmaq, çox yemək və s. istəklər insanın şəhvətidir. Bir sözlə desək, insanın daxilində olan istək və tələbatlar şəhvətdir. Bəzi insanlar var ki, vəzifəpərəstlik şəhvətinə tutulurlar. Yemək, içmək onun üçün bir o qədər mühüm olmasa da, vəzifə eşqi ilə alovlanır. Belə insana əl çalıb tərifləmək onun üçün hər şeydən üstündür. O, öz tutduğu vəzifəsindən çox ləzzət alır. Bəzi insanlar yemək şəhvətinə aludə olurlar. Yeməyi hər şeydən çox sevirlər. Yemək şəhvəti, vəzifəpərəstlik şəhvəti və s. şəhvətlərlə insanın böyük dərəcələrə və yüksək məqamlara nail olması mümkün deyil. Allah-təala insanın daxili istəkləri üçün hədd müəyyən etmişdir. Buna görə də Allahın müəyyən etdiyi hədləri aşmaq olmaz. Həmçinin mənəviyyat aləmində yüksək məqamlara çatmaq üçün qəlbdə olan bütün əxlaqi çirkinlikləri təmizləmək lazımdır. Məsələn, qəlbin çirkinliklərindən biri kin-küdurətdir.

قَالَ عَلِيّ(ع): طَهِّرُوا قُلُوبَكُم مِنَ الْحِقْد فَإِنُّه دَاءٌ مُوبِئٌ

[1] Yenə orada,10-cu cild, səh.4992.

-Həzrət Əli(ə) buyurur: “Qəlblərinizi kin-küdurətdən təmizləyin. Həqiqətən, kin-küdurət yoluxucu xəstəlikdir.”[1]

Kin-küdurət qəlbin ən pis xəstəliklərindən biridir. Allah-təala hamını belə xəstəliklərdən uzaq etsin. Kin-küdurətin fitnə-fəsadı çox acınacaqlı olur. Kin-küdurət elə bir xəstəlikdir ki, əgər insan onu öz qəlbindən təmizləməsə, çox böyük faciələr törənə bilər. Tarixə nəzər yetirdikdə qəlbində kin-küdurət bəsləyən insanların törətdikləri cinayətlərə çox rast gəlmək olar. Buna misal olaraq İbn Salar kimi insanları göstərmək mümkündür.

İbn Salar altıncı əsrdə Misir vilayətində ordu başçılarından biri idi. Günlərin birində hansısa işinə görə ona külli miqdarda cərimə yazırlar. Göstərilən məbləği ödəyə bilmədiyini görüb maliyyə işləri ilə məşğul olan mühasibin yanına gəlir. Mühasib Əbu Kərəm adlı bir şəxs idi. İbn Salar başına gələn əhvalatı ona danışaraq kömək istəyir. Əbu Kərəm deyir: “Mən sənə heç bir köməklik göstərə bilmərəm. İbn Salar deyir: Səndən çox xahiş edirəm, bu işdə mənə yardımçı ol. Əbu Kərəm onun xahişini yerinə yetirə biləcəyi halda deyir: Mənim qulaqlarım eşitmir.”

İbn Salar əlacsız qalıb onun otağını tərk edir. Lakin Əbu Kərəmin ona qarşı belə bir hərəkət etməsi ürəyində ona qarşı kin-küdurət yaradır. Yaxşı deyiblər ki, dünyanın işini bilmək olmaz. İnsanın başına sabah nə gələcəyi bəlli deyil. Günlər keçir, ay dolanır və bu hadisənin üstündən bir müddət keçdikdən sonra dövran dəyişir. İbn Salar yüksək rütbə alıb böyük bir vəzifədə

[1] Mizanül-hikmə,10-cu cild, səh.4992.

yer tutur. Əbu Kərəm isə öz vəzifəsində, yəni mühasib olaraq qalmışdı. İbn Salar belə bir günün gəlib çatmasını səbirsizliklə gözləyirdi. O, çoxdan bu vəzifəyə çatmaq arzusunda idi. Günlərin birində Əbu Kərəmi yanına çağırıb dedi: “Bir zaman sənin qapına gəlməyim yadındadırmı? Əbu Kərəm dedi: Bəli, yaxşı yadımdadır. İbn Salar dedi: Yadındadırmı, səndən xahiş etdim ki, mənə kömək edəsən, sən də qulaqlarının eşitmədiyini söylədin? Əbu Kərəm dedi: Bəli, yadımdadır.”

İbn Salar göstəriş verdi ki, onu tutub əl-qolunu bağlasınlar. Sonra dedi ki, gözümün qarşısında mismarı onun qulağından elə vurun ki, o biri qulağından çıxsın. Cəlladlar Əbu Kərəmi tutub qulağına mismar vurmağa başladılar. Bu zaman Əbu Kərəm qışqıraraq İbn Salardan kömək istəyir. İbn Salar deyir: Mənim qulaqlarım eşitmir. Əbu Kərəm ondan hər nə qədər kömək istəyirsə o da deyir: Mənim qulaqlarım eşitmir.”[1]

İnsan nə qədər bağışlayan, əfv edən olsa da bəzilərinin qəlbi günahların nəticəsində qır kimi qapqaradır. Kin-küdurət elə pis xəstəlikdir ki, onu qəlbində bəsləyən insan bədbəxt olar. Xüsusilə Həzrət Əliyə(ə) qarşı kin bəsləmək insanın axirətini bərbad hala salar. Peyğəmbər(s) dəfələrlə buyurmuşdur ki, Əlini(ə) sevmək iman, ona qarşı kin-küdurət bəsləmək və düşmənçilik etmək küfrdür. Digər hədisdə Peyğəmbər(s) buyurmuşdur: “Ya Əli, mömindən başqası səni sevməz və münafiqdən başqası səninlə düşmənçilik etməz.”

Hədis və rəvayətlərdə belə nəql olunur ki, günlərin birində Həzrət Peyğəmbər(s) bir məclisdə əyləşmişdi. Elə

---

[1] Beş yüz dastan,1-ci cild, səh.455.

bu zaman Həzrət Əli(ə) içəri daxil oldu. Möminlər ona ehtiram göstərdilər. Həzrət Əli(ə) gəlib Peyğəmbərin(s) kənarında əyləşdi. Həzrət Peyğəmbər(s) məclisə göz gəzdirdikdə gördü ki, keçmiş münafiqlərdən ikisi bir-biri ilə pıçıldaşır. Onlar elə münafiqlərdən idilər ki, daim qəlblərində Əliyə(ə) qarşı kin-küdurət bəsləyirdilər. Onların qəlblərinə düşmüş bu xəstəlik sağalmırdı. Peyğəmbər(s) üzünü camaata sarı tutaraq buyurur: “And olsun Allaha, hər kəsin qəlbində mənim məhəbbətim olmasa, qiyamət günü cənnətin iyini belə hiss etməyəcək.” Sonra buyurdu: “Hər kəs qəlbində Əliyə (ə) qarşı düşmənçilik və ona qarşı qəlbində kin-küdurət olduğu halda məni sevdiyini iddia etsə yalançıdır.” Elə bu zaman Allah-təala “Mücadilə” surəsinin 9-cu ayəsini nazil etdi:

إِذَا تَنَاجَيْتُمْ فَلَا تَتَنَاجَوْا بِالْإِثْمِ وَالْعُدْوَانِ وَمَعْصِيَتِ الرَّسُولِ

وَتَنَاجَوْا بِالْبِرِّ

-Bir-birinizlə pıçıldaşdığınız, gizli söhbət etdiyiniz zaman (heç olmasa) günah, (hüquqlara) təcavüz və Bizim Rəsulumuza itaətsizlik barədə pıçıldaşmayın.[1]

Qəlbin xəstəliklərindən biri də həsəd və paxıllıqdır. Paxıllıq barədə Quran ayələrində və bir çox hədislərdə kifayət qədər rast gəlmək olur. Paxıllıq elə bir xəstəlikdir ki, onu daşıyan insanın qəlbini qaraltmaqdan əlavə, paxıl adama baxmaq belə insanın (onun üzünə baxanın) qəlbinə təsir göstərir.

---

[1] Beş yüz dastan,1-ci cild, səh.457.

قَالَ عَلِيّ(ع): طَهِّرُوا قُلُوبَكُم مِن الْحَسَدِ فَإِنَّهُ مُكْمِدٌ مُضنِي

-Həzrət Əli(ə) buyurur: “Qəlblərinizi paxıllıqdan təmizləyin. Həsəd qəlbləri xəstələndirib qaranlıqlaşdırar.”[1]

قَالَ عَلِيّ(ع): اَلنَّظَرُ اِلَى البَخِيلِ يُقَسِّى القَلبَ

-Həzrət Əli(ə) buyurur: “Paxıla baxmaq insanın qəlbinə daşürəklilik gətirər.”[2]

Beləliklə, bu bəhsimizin sonunda belə bir nəticəyə gəlirik ki, mübarək ramazan ayı paklıq və paklaşdırıcı aydır. Hər kəs bu ay özünü paklaşdırmaq istəyirsə, zahiri və batini paklığına diqqət yetirməli, qüsl və dəstəmaz məsələlərində diqqətli olmalı, bədən üzvlərini haramdan qorumalı və qəlbində olan çirkin xüsusiyyətləri çıxarmalıdır. Bir daha qeyd edilməlidir ki, ramazan ayının adlarından biri paklaşdırıcı aydır və bu ay o kəsləri paklaşdırır ki, zahiri və daxili paklığına diqqət yetirsin.

### 11. Məğfirət ayı

Hədis və rəvayətlərə əsasən mübarək ramazan ayının adlarından biri “məğfirət və bağışlanmaq ayı”dır. Hər kəs bu ayda özünü haramlardan qorusa, Allah-təala həmin şəxsin günahlarını bağışlayar. Bu ayda insana haram əməllərdən çəkinmək təkidlə tövsiyə olunmuşdur.

قَالَ رَسُولُ اللهِ(ص): وَهُوَ شَهرُ الْمَغفِرَة... اَلَا فَاجتَنِبُوا فِيهِ

---

[1] Mizanül-hikmə, 8-ci cild, səh.3322.
[2] Yenə orada, 8-ci cild, səh.4992.

كُلِّ حَرامٍ

Həzrət Peyğəmbər(s) ramazan ayının gəlişi ilə əlaqədar söylədiyi xütbənin bir hissəsində belə buyurur: “(Ramazan ayı) məğfirət ayıdır... (Xüsusilə) bu ayda bütün haramlardan çəkinin.”[1]

Burada qeyd olunmalıdır ki, ümumiyyətlə, insanların ən əsas problemləri günah və haramlardan irəli gəlir. Əgər insan özünü haramlardan qoruya bilsə, yaxud günahlardan çəkinə bilsə, demək olar ki, bir çox məsələlər öz həllini tapmış olar. Bəzən insan Allahla onun arasında olan səmimiyyəti, qəlbin nuraniyyət qapılarını günahlar vasitəsilə öz üzünə bağlayır. Günah insanı mənəviyyat aləminə pərvaz etməyə qoymur.

Hədislərdə belə nəql olunur ki, namaz mömininin meracıdır. Hər bir mömin namaza qalxırsa, deməli merac edir. Merac etmək, mənəviyyat aləmində pərvaz etmək istəyən bir insan özünü günahlarla bağlamamalıdır. Hər bir kəs öz ruhunu günahla bələsə çirkinləşəcək. Çirkin ruhla insan heç bir vaxt mənəviyyat məsələsində yüksələ bilməz. Məsələn, təyyarələrə diqqət yetirdikdə görürük ki, onların benzini ən təmiz benzindir. Əgər təyyarənin benzini qarışıq olsa, yaxud ona benzin əvəzinə dizel vursalar, heç yerindən belə tərpənməyəcək. Buna görə də mənəviyyat aləmini seyr etmək üçün insana tərtəmiz və pak ruh lazımdır. Sual oluna bilər ki, insan öz ruhunu hansı vasitələrlə təmizləyə bilər? Bu sualın cavabında ayə və hədislərə söykənərək demək olar ki, ruhu paklaşdıran amillərdən biri namazdır. Namaz insanın

[1] Allahın ayı, 1-ci cild, səh.174.

ruhunu paklaşdırır. Bəzi hədislərdə mömin insanı yağışın suyuna bənzətmişlər. Suların içində yağışın suyu ən təmiz və şəffaf su hesab olunur. Çünki ona heç bir şey qarışmamışdır. Mоləvi deyir: “Yağışın suyu göydən pak və təmiz bir halda yerə tökülərək yeri dirildir, lakin özü çirklənir. Onun yenidən təmizlənib pak olması üçün buxara dönüb göyə qalxması lazım gəlir. Əgər yağışın suyu yenidən buxar olub göyə qalxaraq bulud şəklinə düşərsə, təmizlənib pak olar. Həmin su paklaşıb təmiz olduqdan sonra yenidən yerə enərək bütün canlılara həyat bəxş edir.”

Bu böyük alim bu ibarə ilə demək istəyir ki, insana beş vaxt vacib olan namaz da onu ruhi çirkinliklərdən təmizləyir. Çünki insanın ruhu cəmiyyətdə tez-tez çirklənir. Ruhun təmizliyi üçün də insana beş vaxt namaz təyin olunmuşdur. Əgər insan ruhunu tez-tez təmizləməzsə, onun ruhu çirkinlik nəticəsində məhv olar. Məsələn, bir nəfər aşbazlıq sənətinə adət edir və onun peşəsi mətbəxdə müxtəlif yeməkləri bişirməkdən ibarətdir. O, yemək hazırlamaq üçün müxtəlif ərzaqlardan istifadə edir və hər bir ərzaq məhsulunu doğrayıb hazırladıqdan sonra əllərini tez-tez sabunla yuyur ki, əllərindən iy gəlməsin. Əgər əllərini tez-tez yumasa, o zaman doğradığı soğan, ət və s. ərzaq məhsullarının iyi əllərindən getməyəcək. İnsanın ruhu da tez-tez çirklənir və onun təmizlənməsi üçün də Allah-təala gündə beş dəfə namaz qılmağı əmr etmişdir. İnsan hər dəfə namaz qıldıqca göylərə qalxaraq təmizlənib yerə qayıdır. Odur ki, Həzrət Peyğəmbər(s) buyurmuşdur: “Namaz möminin meracıdır.”

Bundan əlavə, insanın ruhunun paklaşmasında əsas amillərdən biri də haramlardan çəkinməkdir. Əgər insan özünü haramlardan qorumasa, namazda necə merac edə bilər? Misalda qeyd etdiyimiz kimi, təyyarə çirkli benzinlə havaya qalxa bilərmi? Əgər insanın qarnı haramla dolsa, bədən üzvləri günah çirkabına bələnsə, bu insanın ruhu pərvaz edə bilərmi? Mübarək ramazan ayı ruhun paklaşması və günahların bağışlanması üçün ən gözəl vasitələrdən biridir. Həzrət Peyğəmbər(s) buyurur ki, bu ay məğfirət və bağışlanmaq ayıdır. Həzrət(s) buyurur: "Xüsusilə bu ay bütün haramlardan çəkinin."

Buradan belə bir nəticəyə gəlirik ki, hər bir kəs özünü haramlardan qoruya bilsə, Allah-təala bu ay həmin şəxsin günahlarını bağışlayacaq. Ötən bəhslərimizdə qeyd olundu ki, bu mübarək ayın adlarından biri ramazandır. Bu aya ona görə ramazan deyilir ki, payızın ilk yağışı təbiətdə yay fəslində əmələ gələn toz-torpağı yuyub apardığı kimi, insanın il ərzində gördüyü günahları eləcə yuyub təmizləyir. Allah-təala bu ayda insanın il ərzində etdiyi bütün günahlarını yuyub təmizləmək istəyir. Bəs insan necə? Günahlarının təmizlənməsini istəyirmi? Əgər istəyirsə, o zaman bu ayın feyzindən bəhrələnməli, Allahın əmrlərini yerinə yetirməklə, haramlardan çəkinməklə Allahın məğfirətinə qovuşa bilər.

قَالَ رَسُولُ اللهِ(ص): مَن لَمَ يُغفَر لَهُ في شَهرِ رَمَضانَ لَم يُغفَر إلى قابِلٍ؛ فَبادِروا بِالأَعمالِ الصّالِحاتِ الآنَ

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kəs ramazan ayında özünü bağışlatmasa, gələn ilə qədər bağışlada bilməyəcək. Elə isə bu andan etibarən xeyir və yaxşı

işlərlə məşğul olmağa tələsin. (Tövbə və günahlarınızın bağışlanması üçün Allaha dua edin ki, bu ayda tövbə qapıları açıq, dualar isə müstəcəbdir.)”[1]

**12. Rəhmət və mərhəmət ayı**

Mübarək ramazan ayının adlarından biri rəhmət və mərhəmət ayıdır. Bu mübarək ay elə bir aydır ki, başdan-başa Allahın rəhmətinin nazil olduğu bir aydır. Allah-təala bu ayda bütün rəhmət qapılarını bəndələrinin üzünə açmışdır. Bəndə də Allahın mərhəmətindən bəhrələnmək üçün bu qapılara üz tutmalıdır.

قَالَ رَسُولُ اللهِ(ص): وَهُوَ شَهرُ الرَّحْمَة

-Həzrət Peyğəmbər(s) buyurur: “(Ramazan ayı) rəhmət ayıdır.”[2]

**13. Tövbə ayı**

Mübarək ramazan ayının adlarından biri tövbə ayıdır ki, hər kim bu ayda Allaha üz tutub günahlarından tövbə etsə, Allah-təala həmin şəxsin tövbəsini qəbul edər. Çünki hədislərə əsasən Allah-təala bu ayda tövbə qapılarını da Öz bəndələrinin üzünə açmışdır.

قَالَ رَسُولُ اللهِ(ص): وَهُوَ شَهرُ التَّوبَة

-Həzrət Peyğəmbər(s) buyurur: “(Ramazan ayı) tövbə ayıdır.”[3]

---

[1] Allahın ayı, 1-ci cild, səh.174.
[2] Allahın ayı,1-ci cild, səh.174.
[3] Yenə orada,1-ci cild, səh.174.

قَالَ رَسُولُ اللهِ(ص): وَ بَابُ التَّوبَة مَفتُوحٌ... وَ تُوبُوا اِلَى اللهِ مِن ذُنُوبِكُم

-Həzrət Peyğəmbər(s) buyurur: "Tövbə qapıları açıqdr. Günahlarınızdan tövbə edib Allaha tərəf qayıdın."[1]

Mübarək ramazan ayı tövbə etmək üçün ən gözəl fürsətlərdən biridir. Çox heyif olar ki, insan bu fürsəti əlindən buraxsın. Bu ayda Allah-təala Özü insanları tövbə etməyə çağırır. Əgər Allah-təala çağırırsa, deməli mütləq bizim tövbələrimizi qəbul edər.

Tövbə odur ki, insan etdiyi günahlardan peşman olduqdan sonra hər dəfə həmin günahlar yadına düşdükdə xəcalət çəksin. Əgər bir insan tövbə etdikdən sonra keçmişdə etdiyi günahları yadına salıb xoşhal olursa, buna tövbə demək olmaz. Məsələn, bir şəxs digərinə qarşı çox kobud rəftar edir. Sonra ondan üzr istəyib onu bağışlamasını xahiş edir. O da onu bağışlayır. Lakin həmişə onu gördükdə ona qarşı etdiyi hərəkətinə görə xəcalət çəkir. Günahdan tövbə etmək də eynilə buna bənzəyir. İnsan etdiyi günahlara görə tövbə etdikdən sonra keçmişdəki günahlar yadına düşdükdə utanmalı və pis iş gördüyünü yadına salaraq xəcalət çəkməlidir.

Əlbəttə, Allah-təala hər bir zamanda insanın tövbəsini qəbul edir. Lakin ramazan ayında tövbə etməyin xüsusi yeri vardır. Çünki qeyd olunduğu kimi, Allah bu ayda tövbə qapılarını bəndələrinin üzünə açmışdır. İnsan da bu fürsətdən istifadə edib Ona tərəf qayıtmalı, tövbə edərək günahlardan təmizlənməlidir. Bir

[1] Yenə orada,1-ci cild, səh.174.

şərtlə ki, insan ürəkdən peşman olub, həqiqi tövbə etmiş olsun.

Əbu Bəsir İmam Sadiqin(ə) səhabələrindən biri idi. O deyir: "Kufədə mənim bir qonşum var idi. Çox pis bir insan idi. Hamı onun əlindən zara gəlmişdi. Nahaq işlər görər, camaatı incidər və camaatın haqqını qəsb edərək mərdimazarlıq edərdi. Onun evi pis əməllərin mərkəzinə dönmüşdü. Mən də bir qonşu kimi dəfələrlə onu görəndə öyüd-nəsihət verərdim. Lakin mənim sözlərim ona təsir etmirdi. Bir dəfə də onunla rastlaşdım. Yenə də onu başa saldım ki, pis işlərdən çəkinsin. Dedim ki, nə vaxta qədər bu işləri görəcəksən? Hamı sənin əlindən zara gəlib. Gəl bu işlərdən əl çək. O bilirdi ki, mən İmam Sadiqin(ə) yanına tez-tez gedib-gəlirəm. Buna görə də mənə dedi: Əbu Bəsir, sən İmamın(ə) yanına gedib-gələn adamsan. Bu dəfə onun yanına gedəndə de ki, mənim belə bir qonşum var. Vəziyyətimi də ona danış. Bilmək istəyirəm ki, İmam(ə) mənim barəmdə nə məsləhət verəcək? Əbu Bəsir deyir: Ona söz verdim ki, İmamın(ə) məhzərinə gedəndə sözünü Həzrətə(ə) çatdıraram. Belə oldu ki, bir neçə gündən sonra İmamın(ə) məhzərinə yollandım. Həzrət(ə) Mədinə şəhərində yaşayırdı. Onun məhzərinə getdim. Bir az söhbət etdikdən sonra həmin şəxs barədə Həzrətə(ə) məlumat verərək dedim: Ağa, mənim belə bir qonşum var, hamı onun əlindən zara gəlib. Çox pis bir adamdır. Mən də hər dəfə ona öyüd-nəsihət verirəm, amma faydası olmur. Axırıncı dəfə onu görəndə yenə də söhbət etdim. O da mənə dedi ki, sən İmamın(ə) yanına gedib-gələn adamsan. Mənim vəziyyətim barədə Həzrətə(ə) danış. Bilmək istəyirəm ki, İmam(ə) mənim barəmdə nə məsləhət verəcək? Həzrət(ə) mənə buyurdu:

Əbu Bəsir, qayıdandan sonra gedib bu cümləni olduğu kimi ona çatdırarsan. Ona deyərsən ki, olduğu vəziyyətini (halını) dəyişsin (haram əməllərdən çəkinib, vacibləri yerinə yetirsin), mən də onun cənnətə getməsinə zamin dayanacağam.

Əbu Bəsir deyir: İşlərimi görüb İmamla(ə) sağollaşandan sonra Kufəyə qayıtdım. İmamın(ə) yanından gəldiyimi xəbər tutanlar evimizə gəlirdilər. Həmin qonşu da gəldiyimi xəbər tutub bizə gəldi. Fürsət tapıb məndən soruşdu: Mənim vəziyyətim haqda İmama(ə) söylədinmi? Dedim: Əlbəttə, danışdım. Soruşdu: Bəs İmam(ə) nə buyurdu? Dedim: Ağa mənə belə buyurdu: Sözlərimi olduğu kimi ona deyərsən. Mən də İmamın(ə) sözlərini olduğu kimi sənə deyirəm. Ağa belə buyurdu: Ona deyərsən ki, olduğu vəziyyətini (halını) dəyişsin, mən də onun cənnətə getməsinə zamin dayanacağam.

Əbu Bəsir deyir: O, bu sözləri eşidəndən sonra bir az sükuta daldı. Baxıb gördüm ki, rəngi qızarıb. Mənə dedi: Əbu Bəsir, doğrudan deyirsən ki, ağa mənim barəmdə belə buyurdu? Dedim, əlbəttə. Bir az keçdi və bir daha soruşdu: Əbu Bəsir, ağa buyurdu ki, mən vəziyyətimi dəyişsəm, cənnətə getməyimə zamin dayanacaq? Dedim, bəli ağa buyurdu ki, əgər pis vəziyyətdən çıxıb yaxşılığa doğru dəyişsən, sənə cənnətə getmək üçün zamin dayanacağam. Sonra o, durub getdi.

Bir neçə gündən sonra həmin qonşu bir nəfərlə mənə xəbər göndərdi. Durub onun evinə getdim. Qapını döydüm. O, qapını azacıq aralayıb dedi: Əbu Bəsir, hər nəyim varsa hamısını öz əhlinə qaytardım. Kimin haqqını zorla əlindən almışdımsa, onları da qaytarmışam. Tövbə

etmişəm, Allahın buyurduqlarını yerinə yetirməklə məşğulam. Hətta əynimdəki paltarları da çıxarıb vermişəm. Əynimdə az paltar qalıb. Onunla sənin qarşına çıxmağa utandığım üçün qapını tam açmadım. Ona dedim: Sən bir az gözlə, mən indi gəlirəm. Evə qayıdıb yaxşı yemək, yaxşı pal-paltar toplayıb onun evinə yollandım. Yeməyi və paltarları ona verib dedim: Mən də bunları Allaha xatir sənə hədiyyə edirəm. Gətirdiklərimi qəbul edib mənim üçün dua etdi. Beləcə biz onunla dostlaşdıq. Az bir müddətdən sonra o, xəstələnib yorğan-döşəyə düşdü. Mən də hər gün gedib ona qulluq edirdim. Bir neçə gün beləcə davam etdi. Onun ömrünün son anları yetişdi. Onu üzü qibləyə uzadıb yanında əyləşmişdik. O, gözlərini yumub son nəfəslərini alırdı. Birdən gözlərini açıb dedi: Əbu Bəsir haradadır? Dedim, buradayam. Narahat olma. Ürəyin nə istəyir? Gülümsəyərək mənə dedi: Əbu Bəsir, sənə də hər şeyə görə təşəkkür edirəm. İmam Cəfər Sadiq(ə) mənə verdiyi vədəsinə əməl etdi. Bu sözləri deyib gözlərini yumaraq əbədi dünyaya qovuşdu. Onu aparıb dəfn etdik. Həmin il həcc ziyarəti mənə nəsib olmuşdu. İmam Sadiq(ə) Məkkədə idi. Həzrətin(ə) ziyarətinə yollandım. İmam(ə) məni görən kimi çağırıb öz yanında əyləşdirdi. Sonra qulağıma buyurdu: "Sənin qonşun barədə verdiyim sözə əməl etdim. Ərz etdim: Ağa, o da son anlarında gözlərini açıb bu sözləri mənə demişdi".

Tarixə azacıq diqqət yetirdikdə həqiqi tövbə edib Allahın mərhəmətini əldə etmiş bir çox insanların əhvalatı ilə rastlaşmaq olur. Onlar həqiqi, səmimi və təmiz ürəklə tövbə etmiş və Allahın rəhmət və mərhəmətinə qovuşmuşlar.

**14. Qayıdış ayı**

Hədis və rəvayətlərə əsasən mübarək ramazan ayının adlarından biri də "qayıdış ayı", "dönüş ayı"dır.

قَالَ رَسُولُ اللهِ(ص): وَهُوَ شَهرُ الإِنَابَة

-Həzrət Peyğəmbər(s) buyurur: "(Ramazan ayı) qayıdış ayıdır."[1]

"İnabə" ərəb sözü olub, "qayıdış" və "dönüş" mənasını ifadə edir. İnabə odur ki, insan yolu səhv getdiyini başa düşərək geri qayıtsın. Tövbə ilə inabənin fərqi budur ki, insan yolu səhv getdiyini başa düşsün və dayansın. O yolu geri və məqsədə doğru yola qayıtmağa isə "inabə" deyilir. Əgər Allah insanı hidayət edirsə, məhz bu əmələ görə hidayət edir. Yəni insan yolu səhv getdiyini başa düşüb olduğu yerdə qalsa, bu, onun hidayət olmağı üçün kifayət etmir. Əgər hidayət olmasını istəyirsə, mütləq getdiyi səhv yoldan qayıtmalıdır. Başqa sözlə desək, səhv yoldan əsl və həqiqi yola qayıtmaq fikrində olsa, Allah həmin şəxsi doğru yola yönəldər. "Rəd" surəsinin 27-29-cu ayələrində buyurulur:

وَيَقُولُ الَّذِينَ كَفَرُواْ لَوْلاَ أُنزِلَ عَلَيْهِ آيَةٌ مِّن رَّبِّهِ قُلْ إِنَّ اللّهَ يُضِلُّ مَن يَشَاءِ وَيَهْدِي إِلَيْهِ مَنْ أَنَابَ.

-Və küfr edən kəslər (məsxərə məqsədilə) "nə üçün ona Rəbbi tərəfindən (bizim ürəyimiz istəyən, yaxud Salehin dəvəsi, Musanın əsası və İsanın süfrəsi kimi) bir nişanə və möcüzə nazil olmamışdır?" - deyirlər. (Ya

[1] Allahın ayı, 1-ci cild, səh.174.

Peyğəmbər!) De: “Şübhəsiz, Allah (möcüzəni hikmət və məsləhət əsasında göndərir, buna görə də haqqı qəbul etməyənlərdən) istədiyi şəxsi azğınlıqda boşlayır və Ona tərəf qayıtmış şəxsi hidayət edir.”

Bu ayədə açıq-aydın görürük ki, əgər Allah-təala kimisə azğınlığa salmaq istəsə salar, həmçinin kimi hidayət etmək istəsə, hidayət edər. Kimsə elə düşünməsin ki, Allah insanları məcburi şəkildə azğınlığa, yaxud hidayətə yönəldir. İnsanların öz əməlləri nəticəsində Allah-təala bu işi görür. Ayənin axırına diqqət yetirdikdə bu məsələ bizim üçün daha da aydınlaşır. Buyurur ki, Allah Ona tərəf qayıdan insanları hidayət edir. Əgər bir insan Allaha tərəf qayıtmaq fikrində deyilsə, Allah onu doğru yola yönəltmir. Burada söhbət ondan getmir ki, insanı kimlər yoldan çıxarıb, yaxud neçə ildir ki, həqiqət yolundan uzaq düşüb. Bu, tamam başqa bir mövzudur. Əsas söhbət bundadır ki, Allah düz yoldan çıxan və peşman olaraq yenidən həmin yola qayıtmaq istəyənləri hidayət edir. Sonrakı ayədə bu insanların xüsusiyyətləri haqda belə buyurulur:

الَّذِينَ آمَنُواْ وَتَطْمَئِنُّ قُلُوبُهُم بِذِكْرِ اللّهِ

أَلاَ بِذِكْرِ اللّهِ تَطْمَئِنُّ الْقُلُوبُ.

-O kəsləri ki, iman gətiriblər və qəlbləri Allahı yada salmaqla rahatlıq tapır. Bilin! Qəlblər yalnız Allahı yada salmaqla rahatlıq tapır.

İnsan Allaha iman gətirdikdən və yolunun doğru olduğuna tam arxayın olduqdan sonra heç bir şey onu öz yolundan döndərə bilməz. Çünki Allah Ona tərəf qayıtmaq istəyən kəsi hidayət edir. Allahın hidayət etdiyi kəsi isə heç kim bu yoldan çıxara bilməz. Belə insanların

qəlbləri daim Allahı xatırlamaqla rahatlıq tapır. Əgər dünyanın hamısı bir tərəfdə, belə bir insan bir tərəfdə qalsa, heç bir vaxt narahat olmaz. Çünki artıq öz yolunu tapmış və bu yolda tam arxayınlıqla addımlayır. Hədislərdə belə nəql olunur ki, Peyğəmbər(s) bəzi səhabələrə buyurmuşdur: "Əgər dünyanın hamısının bir tərəfə, Əlinin(ə) digər tərəfə getdiyini görsəniz, ona qoşulun. Çünki Əli heç vaxt yoldan çıxmayacaq." Digər bir hədisdə isə belə buyurur: "Əli haqladır, haqq da Əli ilə. Əli hansı tərəfə dövr etsə, haqq da onunla birgə dövr edir."

Odur ki, insan haqq-həqiqəti tapdıqdan, ona tərəf qayıtdıqdan və bu yolun haqq olduğuna tam arxayın olduqdan sonra onu heç bir şey bu yoldan çıxara bilməz. Yəni hər əsən külək, kimlərinsə təzyiqi, tərifi, hədə-qorxusu onu haqq yoldan döndərə bilməz. Çünki artıq bu insanın qəlbi Allahın zikri ilə döyünür və rahatlıq tapır.

Tarixi mənbələrdə yazırlar ki, İsgəndər Yunanıstanda hakim olmaq üçün çox çalışırdı. Nəhayət, istəyinə nail olub hakim oldu. Adət üzrə yaltaq insanlar onun ətrafına toplaşdılar. İsgəndər kürsü başına keçdikdən sonra ölkədə olan nüfuzlu insanlara yol tapmağa çalışırdı. Həmin dövrdə Yunanıstanda Dyujen adlı bir alim, hikmət sahibi və arif insan yaşayırdı. O, tanınmış əxlaqı, elm və hikməti ilə seçilən bir şəxsiyyət idi. İsgəndərin kürsüdə əyləşməsi onun üçün heç bir maraq kəsb etmirdi. O, yaxşı bilirdi ki, dünyanın işi belədir. Hakimiyyət başına çox insanlar gəlib-getmişlər. İsgəndər çox istəyirdi ki, onunla bir münasibət yaratsın. Adətən kürsü başına keçən hakimlər camaat arasında daha çox nüfuz qazanmaq üçün belə insanlarla isti

münasibət qurmağa çalışırdılar. Lakin Dyujen ona əhəmiyyət vermirdi. İsgəndər onu belə gördükdə özü onunla görüşmək fikrinə düşdü.

Günlərin birində Dyujen yaşıl bir çəmənliyə çıxır və günəşin şüalarından istifadə etmək üçün bir yerdə əyləşir. Elə bu ərəfələrdə İsgəndər də öz adamları ilə onunla görüşə gəlir. Dyujenin çəmənlikdə əyləşdiyini görüb ona yaxınlaşır və onunla salamlaşır. Dyujenin ona əhəmiyyət vermədiyini görüb deyir: “Məndən bir istəyin varmı? Dyujen deyir: Çox sağ ol, səndən heç bir istəyim yoxdur. İsgəndər əl çəkməyib deyir: Bir şey istə məndən. Dyujen deyir: Mənə heç nə lazım deyil. İsgəndərin çox təkidindən sonra o deyir: İndi ki, səndən bir şey istəməyimi xahiş edirsən, qoy deyim sənə. Mən neçə vaxtdır ki, istirahət etmirəm. Bu gün havanın gözəl olduğunu görüb öz-özümə fikirləşdim ki, bu çəmənlikdə əyləşərək bədənimi günəş şüalarına verim. Elə bu vaxt sən də gəlib günün qabağında dayandın. Səndən istəyim budur ki, bir az o tərəfə keçəsən. Günün qabağında dayanıb mənə mane olma.”

Beləcə, biz görürük ki, Allaha səmimi qəlbdən iman gətirən insanlar daim Allahın zikri ilə rahatlıq tapırlar. Belə insanların ürəkləri həmişə aram və arxayındır. Sonrakı ayədə belə insanların xüsusiyyətlərindən bir neçəsinə də işarə edilərək buyurulur:

الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ طُوبَى لَهُمْ وَحُسْنُ مَآبٍ

-Şadlıq və sevinc, təmiz həyat, uca cənnət və tuba ağacı iman gətirən və yaxşı işlər görən kəslərə məxsusdur, onların gözəl bir dönüşləri vardır.

Deməli, bu ayələrə əsasən iman gətirib haqqa tərəf qayıtmağın nəticəsi budur ki, Allah həmin şəxsi hidayət

edər. Belə olduqda onların qəlbi Allahın zikri ilə rahatlıq tapır və şadlıq, sevinc, təmiz həyat, cənnət onların nəsibi olur.

Bu mövzuya aid olan ayələrdən biri də “Zumər” surəsinin 17-18-ci ayələridir. Allah-təala Ona tərəf qayıdanlar haqda söz açaraq onların burada da bir neçə xüsusiyyətini bəyan edir:

وَالَّذِينَ اجْتَنَبُوا الطَّاغُوتَ أَن يَعْبُدُوهَا وَأَنَابُوا إِلَى اللَّهِ لَهُمُ الْبُشْرَى فَبَشِّرْ عِبَادِ. الَّذِينَ يَسْتَمِعُونَ الْقَوْلَ فَيَتَّبِعُونَ أَحْسَنَهُ أُوْلَئِكَ الَّذِينَ هَدَاهُمُ اللَّهُ وَأُوْلَئِكَ هُمْ أُوْلُوا الأَلْبَابِ

-Hər bir tağutdan (itaətsiz batil qüvvədən) və Allahdan qeyri məbuddan ona ibadət etməmək üçün çəkinmiş və Allaha tərəf qayıtmış kəslərə müjdə olsun! Buna görə də müjdə ver Mənim bəndələrimə! Sözlərə qulaq asıb onların ən yaxşısına tabe olan kəslərə! Allahın hidayət etdiyi kəslər onlardır və onlardır əsl ağıl sahibləri!

Qeyd olunan ayələrdə sadalanmış xüsusiyyət və sifətlər o kəslərə aiddir ki, tağutlardan, səhv yoldan haqqa, Allaha tərəf qayıtmış olsunlar. Ramazan ayının adlarından biri də “qayıdış ayı”dır. Yəni bu ayda insan daha tez haqq-həqiqət yoluna qayıda bilər. Başqa sözlə desək, ramazan ayı qayıdış üçün daha münasib bir aydır. İnsan bu ayda öz daxilinə baxaraq əqidə və əməllərini araşdıra, xəta və səhvlərini gördükdə tövbə edərək əsl həqiqətə qayıda bilər. Ramazan ayı bu iş üçün ən münasib fürsətlərdəndir. İnabə və haqqa qayıdış nuraniyyətin əlamətidir. İnsanın qəlbi nuraniyyətlə

dolduqda həmin şəxs üçün bir çox məsələlər öz həllini tapır.

قَالَ رَسُولُ اللهِ(ص): يَا أَبَاذَرٍّ إِذَا دَخَلَ النُّوْرُ الْقَلْبَ اِنْفَسَحَ الْقَلْبِ وَ اتَّسَعَ. قُلْتُ: فَمَا عَلاَمَةُ ذَلِكَ بِأَبِيْ أَنْتَ وَ أُمِّيَ يَا رَسُوْلَ اللَّهِ؟ قَالَ(ص): الْإِنَابَةَ إِلَى دَارِ الْخُلُوْدِ وَ التَّجَافِيَ عَنْ دَارِ الْغُرُوْرِ وَ الْاسْتِعْدَادِ لِلْمَوْتِ قَبْلَ نُزُوْلِهِ

-Həzrət Peyğəmbər(s) Abuzərə vəsiyyət edərkən buyurdu: "Ey Abuzər, insanın qəlbinə iman nuru daxil olduqda həmin qəlb dözümlü və geniş olar. Abuzər soruşdu: Ata-anam sənə qurban olsun ya Rəsulallah, bunun (nurun qəlbə daxil olmasının) əlaməti nədir? Peyğəmbər(s) buyurdu: Əbədiyyətə doğru qayıtmaq, qürurlu və aldadıcı dünyadan üz çevirmək və ölüm yetişməzdən əvvəl hazırlıq işləri görmək."

Burada yaxşı olar ki, Həzrət Peyğəmbərin(s) buyurduğu bu hədisi azacıq izah edək. Həzrət Peyğəmbərin(s) buyurduğu bu kəlamda deyilir ki, insanın qəlbinə iman nuru daxil olduqda həmin qəlb dözümlü və geniş olar. İman nurunun qəlbə daxil olması üçün insan üç əsas işi görməlidir. Əks-təqdirdə nəzərdə tutulmuş nəticəni əldə edə bilməyəcək. Abuzər Peyğəmbərdən(s) qəlbin nurani olmasını soruşduqda Həzrət(s) üç əsas məsələni önə çəkir və qəlbində iman nurunun yaranmasını istəyən kəslərə həmin üç məsələdə diqqətli olmağı tövsiyə edir.

1. Əbədiyyətə doğru qayıtmaq

İnsanın qəlbində nurun yaranmasının əlamətlərindən biri qayıdışdır. Yəni əgər insan əbədiyyətə, haqq-həqiqətə doğru qayıtmasa, qəlbində nuraniyyət yarada bilməz. Yəni insan Allahın vədə verdiyi əbədiyyəti tapmalı və özünü ona yetirməlidir. Hər kəs bu əbədiyyəti tapa bilsə, həmin şəxsin qəlbi nurani olar. Yəni insan başa düşməlidir ki, yaşadığı bu dünya həyatı məcazi və müvəqqətidir. Bilməlidir ki, bu dünyada əlində olan hər bir şey bir gün ondan alınacaq. Ona verilən gözəllik, əldə etdiyi pul, vəzifə və s. şeylərin hamısı ondan geri götürüləcək. İnsan bu dünyada elə bir şeyə söykənməlidir ki, həmin şey möhkəm olsun. Əgər insan pula, mal-dövlətə söykənərsə, əvvəl-axır yıxılacaqdır. Gözəlliyinə söykənərsə, illər keçdikcə gözəlliyini əldən verəcək. Vəzifəsinə söykənərsə, bir gün həmin vəzifəni onun əlindən alacaqlar. Odur ki, insanın söykənəcək yeri yalnız Allahdır. Hər kim Allaha söykənsə, o, əbədiyyəti tapmışdır. İmanı möhkəm olan insan Allahdan başqa heç bir şeyə söykənməz. Hər kim Allaha söykənirsə, deməli Ona tərəf qayıtmışdır. Allah əbədi olduğu üçün ona söykənib arxalananlar əbədiyyətə qovuşmuş olurlar.

## 2. Aldadıcı dünyaya etibar etməmək

Qəlbdə iman nurunun yaranmasının əlamətlərindən ikincisi dünyaya etibar etməməkdir. Yəni Allaha səmimi qəlbdən inanan insan həmişə başa düşür ki, yaşadığı bu dünyanın etibarı yoxdur.

Tanıdığım yaşlı bir kişinin bircə oğlu var idi. Bu kişinin yaxşı bir evi var idi və oğlu ilə birgə həmin evdə yaşayırdılar. Günlərin birində oğlu ona deyir: “Atacan, bu evin sənədləri sənin adınadır. Gedək bütün bu

sənədləri mənim adıma keçirək. Onsuz da məndən başqa övladın yoxdur. Atası deyir: Oğul, evdir də, yaşayırıq. Mən öləndən sonra onsuz da bu ev sənə qalacaq. Oğul nə qədər israr etdisə, atası razılaşmır. Sonradan o kişidən soruşurlar ki, nə üçün sən razılaşıb evi oğlunun adına keçirmirsən? Əvvəl-axır bu ev ona qalacaq. Həmin kişi deyir: Mən bilmirəm nə qədər ömrüm qalıb. Əgər evi onun adına keçirsəm, sabah başıma nə iş gələcəyini bilmirəm. Evin sənədlərini onun adına keçirtdikdən sonra bəlkə məni aparıb qocalar evinə qoyacaq. Buna görə də etibar etmirəm. Nə vaxt ölərəm, evi öz adına keçirər."

Deməli, insan bu dünyada hər nəyə etibar etmirsə, ipdən möhkəm yapışır. Yəni həmişə diqqətli olur ki, bu dünyaya aldanmasın. Ayıq insan da məhz o kəsdir ki, bu dünyanın heç bir şeyinə etibar etmir. Hətta malik olduğu səltənət və hakimiyyətə belə etibar etmir.

Əməvilərin axırıncı xəlifəsi Mərvan ibn Məhəmməd idi və o, Himar Mərvan ləqəbi ilə tanınmışdı. Onun xəlifəliyi hicri qəməri tarixinin 132-ci ilinə təsadüf edirdi. O, 5 il iki ay xilafət kürsüsündə əyləşdi. Abbasilərin qoşunu əməvilərə qarşı hücuma keçdi. Mərvan həmin zaman yemək yeməklə məşğul idi. Amir ibn İsmayıl Mərvanın başını kəsdikdən sonra eləcə onun oturduğu yerdə əyləşib onun yeməyini yeməyə başladı. Yemək yedikdən sonra isə Mərvanın böyük qızı ilə əylənmək üçün onu yanına çağırdı. Mərvanın qızı ona dedi: "Ey Amir, ruzigarın belə bir anından ibrət götür. Mərvanın başını kəsib xalçasının üstündə oturdun. Onun yeməyini yedin. İndi də xəyanət etmək istəyirsən? Utan əməlindən və qəflət yuxusundan oyan. Ruzigarın

vəfasızlığına bel bağlama. Ola bilsin ki, etdiyin bu əməllər bir gün sənin də başına gəlsin.”

Dünyada bu kimi hadisələr çox görünmüşdür. Əgər bir insan taxt-tac sahibidirsə, sabah başına nə iş gələcəyini bilmir. Elə bir hadisə olur ki, əlində olan bütün səltənəti ondan alırlar. Tarixdə elə imkanlı və dövlətli insanlar olmuşdur ki, bircə günün içində bütün var-dövləti əlindən çıxmışdır.

### 3. Ölümə hazır olmaq

Qəlbdə iman nurunun yaranmasının əlamətlərindən üçüncüsü isə həmişə ölümə hazır olmaqdır. Bu o demək deyil ki, insan əyləşib hər an ölümünün gələcəyini gözləməlidir. Gözləmək başqa, ölümə hazırlıq başqa. İnsan gözləsə də, gözləməsə də onsuz da ölüm onu yaxalayacaq. Əsas budur ki, insan özünü ölümə hazır vəziyyətdə saxlasın. Yəni etdiyi günahlardan tövbə etsin. Allahın vacib buyurduğu əməlləri yerinə yetirsin. Əgər qəza namazları və qəza orucları qalıbsa, onları tamamlasın. Əgər boynunda həcc, xüms, zəkat və digər şəriət məsələləri varsa, onları yerinə yetirsin. Boynunda kiminsə haqqı qalıbsa, aparıb onun haqqını versin. Halallaşmalı olduğu insanlarla halallaşsın ki, qiyamət günü çətin vəziyyətə düşməsin.

## 15. İstiğfar ayı

Hədis və rəvayətlərə əsasən mübarək ramazan ayının adlarından biri “istiğfar ayı”dır. Yəni insan bu ayda Allahdan günahlarının bağışlanmasını nə qədər çox istəsə, bir o qədər yaxşıdır. Allah-təala bu ayda rəhmət qapılarını bəndələrinin üzünə açmışdır. Buna görə də

insan istiğfar edərək günahlarının bağışlanmasını diləməlidir. Yəni bu ay günahların bağışlanması üçün ən münasib fürsətdir.

قَالَ رَسُولُ اللهِ(ص): وَهُوَ شَهرُ الإِستِغفَار

-Həzrət Peyğəmbər(s) buyurur: "(Ramazan ayı) istiğfar ayıdır."[1]

قَالَ رَسُولُ اللهِ(ص): اَيُّهَا النَّاس! اِنَّ اَنْفُسَكُمْ مَرْهُونَةٌ بِاَعْمالِكُمْ فَفَكُّوها بِاسْتِغْفارِكُمَ.

-Həzrət Peyğəmbər(s) buyurur: "Camaat, həqiqətən sizin nəfsləriniz (canınız) əməllərinizin girovundadır. Elə isə istiğfar etməklə özünüzü (günahlardan) azad edin."[2]

---

[1] Allahın ayı, 1-ci cild, səh.162.
[2] Allahın ayı, 1-ci cild, səh.162.

### 16. Dua ayı

Mübarək ramazan ayının adlarından biri “dua ayı”dır. Yəni hər kəs bu ayda dua edərsə, Allah-təala həmin şəxsin dualarını qəbul edər. Bu da Allahın ramazan ayına verdiyi şərafət və fəzilətlərdən biridir.

قَالَ رَسُولُ اللهِ(ص): وَهُوَ شَهرُ الدُّعَاء

-Həzrət Peyğəmbər(s) buyurur: “(Ramazan ayı) dua ayıdır.”[1]

Çox yaxşı olardı ki, möminlər bu ayda dua etməyi öz gündəlik proqramlarına salsınlar. Hər bir dildə Allaha dua etmək insan üçün ibadət sayılır. Əlbəttə, qeyd etmək lazımdır ki, dinin bəzi qanunlarına toxunmaq olmaz. Həmin qanunlar necə buyurulubsa, eləcə də ona riayət olunmalıdır. Məsələn, həmin qanunlardan biri budur ki, hər bir müsəlman gün ərzində on yeddi rükət namaz qılmalıdır. İslam Peyğəmbəri(s) bu namazları bizə necə öyrətmişsə, eləcə də qılınmalıdır. Hər kəs bu namazları öz dilinə tərcümə edərək qılsa, qıldığı namazlar batildir. Çünki namazı ərəb dilindən savayı başqa bir dildə qılmağa icazə verilmir. Bütün dünya müsəlmanlarının həmrəng və həmsəda olması üçün namazlar mütləq ərəb dilində qılınmalıdır. Yalnız müstəhəb namazların qunutunda hər kəsə öz dilində dua etməyə icazə verilmişdir. Vacib namazların qunutları müstəhəbdir. Lakin bu qunutlar vacib namazların arasında olduğu üçün onun sözləri də ərəb dilində oxunmalıdır. Dilindən asılı olmayaraq hər bir müsəlman namazları ərəb dinində qılmalıdır. Məsələn, Kəbənin ətrafında müsəlmanlar

---

[1] Yenə orada, 1-ci cild, səh.174.

camaat namazı qılmağa hazırlaşırlar. Pişnamazın dili ərəb və yaxud başqa dil olmasından asılı olmayaraq, namazı ərəb dilində qılmalıdır. Bu, Allahın qanunudur və heç bir kəsin bu qanunu pozmağa ixtiyarı yoxdur. Namaz qırtardıqdan sonra hər kəs öz dilində dua edib Allahdan hacətlərini diləyə bilər. İstər orucluq günlərində, istərsə də başqa günlərdə hər kəs əllərini qaldırıb öz dilində Allahla minacat edə bilər. Dua etmək insan üçün ibadət sayılır.

قَالَ رَسُولُ اللهِ(ص): وَرْفَعُوا إِلَيْه أَيْدِيَكُمْ بالدُّعَاء فِي أَوْقَات صَلاتكُمْ؛ فَإِنَّهَا أَفْضَلُ السَّاعَات، يَنْظُرُ اللَّهُ عَزَّ وجَلَّ فيهَا بالرَّحْمَة إِلَى عبَاده يُجيبُهُمْ إِذَا نَاجَوْهُ ويُلَبِّيهمْ إِذَا نَادَوْهُ ويُعْطيهمْ إِذَا سَأَلُوهُ ويَسْتَجيبُ لَهُمْ إِذَا دَعَوْهُ

-Həzrət Peyğəmbər(s) buyurur: "Əllərinizi dua etmək üçün namaz vaxtlarında göylərə qaldırın. Çünki namaz vaxtları ən gözəl anlardır. Bu anlarda Allah-təala Öz bəndələrinə rəhmət nəzərilə baxıb Onu çağırarkən onları cavablayır, Onu səslərkən ləbbeyk deyir və dua edərkən müstəcab edir."[1]

Namaz vaxtları dua etmək üçün ən münasib anlardır. Buna görə də çox yaxşı olardı ki, insan tək olsa da belə namazı qılıb qurtardıqdan sonra əllərini yuxarı qaldırıb dua etsin. Hədislərə əsasən vacib namazdan sonra ən müstəhəb əməl Fatimeyi Zəhranın(s.ə) təsbihatıdır. Sonra "Əhzab" surəsinin 56-cı ayəsini oxuyub Peyğəmbər(s) və Əhli-beytinə(ə) salam-salavat

---

[1] Allahın ayı, 1-ci cild, səh. 162

göndərsin. Habelə əllərini Allahın dərgahına qaldırıb dua etsin. Mübarək ramazan ayının hər bir günü, hər bir saatı, hər bir dəqiqəsi ilin digər günlərindən və anlarından fəzilətlidir. Gündəlik vacib namazlarının vaxtı xüsusilə ramazan ayında daha böyük fəzilətə və üstünlüyə malikdir. Bu vaxtlar elə anlardır ki, Allah-təala öz bəndələrinə rəhmət və mərhəmət nəzəri ilə baxır. Belə olduqda bəndə dua edərsə, Allah-təala onun dualarını müstəcab edər. Elə olmamalıdır ki, insan namazı qılıb qurtaran kimi dua etmədən durub getsin. İnsan belə anları qənimət bilməli, Allaha yalvarıb-yaxarmalı, əllərini Onun dərgahına qaldırmaqla dünya və axirət istəklərini diləməlidir. Hədislərdə nəql olunur ki, hər bir kəs namazı qılıb qurtaran kimi dua etmədən çıxıb getsə, mələklər ona baxıb çox təəccüblənər və deyərlər: "Görəsən bu bəndə nə üçün belə edir? Allah onun dualarını qəbul etmək istəyir, lakin o, qaçıb getdi. Görəsən, onun Allaha dua etməkdən də vacib işi vardır? Görəsən, Allahın onun dualarını qəbul etməsindən daha önəmli hansı mənfəəti əldə edəcəkdi?"

Odur ki, insan namaz qıldıqdan sonra əllərini Allah dərgahına uzadıb dua etsin. Peyğəmbər(s) hədisin sonunda buyurur: "Bəndələr dua edərkən Allah da onları cavablayır, Onu səslərkən ləbbeyk deyir və dua edərkən müstəcab edir." Belə bir fürsətdən istifadə edib faydalanmaq lazımdır. Bizdən istəmək, Allahdan isə çağırışlarımıza cavab verməkdir. Ola bilsin ki, Allah-təala bizim bəzi istəklərimizi verməsin, amma onları axirət azuqəsi olaraq bizim hesabımıza yazsın. Yəni bəzi hallarda istəklərimizi verir, bəzi hallarda isə Öz məsləhəti üzrə axirətimiz üçün saxlayır. Allah-təala hər

bir bəndəsinin məsləhətini onların özlərindən daha yaxşı bilir. Hər bir halda etdiyimiz duaların heç biri hədər getmir. Bəzi istəklərimizi bu dünyada verir, bəzilərini isə axirət azuqəsi kimi hesabımızda saxlayır. Buna görə də müsəlmanlar namaz vaxtlarında, xüsusilə mübarək ramazan ayında dua etməkdə səhlənkarlıq etməməlidirlər. Allahın geniş olan mərhəmətindən hər an, xüsusilə bu mübarək ayda istifadə edib bəhrələnməlidirlər. Digər bir hədisdə Həzrət Peyğəmbər(s) bu ay üçün ən mühüm duaları bizə öyrədir. Həzrət Peyğəmbər(s) ramazan ayının gəlişi ilə əlaqədar olaraq söylədiyi xütbədə üzünü camaata tutaraq belə buyurur:

أيُّهَا النّاس! إِنَّ أَبوابَ الجَنانِ فِي هَذا الشَّهرِ مُفَتَّحَةٌ فَسئَلُوا رَبَّكُمُ أَنْ لا يُغْلِقَها عَلَيكُم، وَ أَبوَابَ النّيرانِ مُغَلَّقَةٌ فَسئَلُوا ربَّكُم أَنْ لا يَفتَحَها عَلَيكُم، وَالشّياطِينَ مَغلُولةٌ فَسئَلُوا رَبَّكُم أَن لا يُسلِّطَهَا عَليكُم.

-Ay camaat! Həqiqətən bu ayda cənnət qapıları üzünüzə açılmışdır. Allahdan istəyin ki, onları üzünüzə bağlamasın. Cəhənnəm qapıları isə üzünüzə bağlanmışdır, odur ki, Allahdan onları üzünüzə açmamasını istəyin. Bu ayda şeytanlar zəncirlənmişlər, Allahdan istəyin ki, onları sizə hakim etməsin.[1]

Sonra Həzrət(s) dua etməyin iki əsas şərtini önə çəkərək buyurur:

---

[1] Allahın ayı, 1-ci cild, səh .162.

فَسئَلُوا اللهَ رَبَّکُم بِنِيَّاتٍ صَادِقَة وَ قُلُوبٍ طَاهِرة

-Dua edərkən Rəbbiniz olan Allahdan saf niyyət və pak qəlblə istəyin.[1]

Qeyd etmək lazımdır ki, dua etmək təkcə bu iki şərtlə bitmir. Təmiz niyyət və pak qəlblə dua etmək duanın şərtlərindəndir. Dua bəhsində duanın bir sıra şərtləri və ədəb-ərkanı vardır ki, insan onlara riayət etməlidir. Qısaca olaraq onları diqqətinizə çatdırıram. Həmin şərtlərdən biri mərifətlə dua etməkdir. Yəni insan bilməlidir ki, kimin hüzurunda əyləşib və kiminlə söhbət edir. Bundan əlavə insan qazancına və yeməyinə fikir verməlidir. Yəni haram qazanc və haram yemək insanın duasının qəbul olunmasına maneçilik yaradır. Həmin şərtlərdən biri də qeyd olunduğu kimi, saf niyyət, pak qəlb və diqqətdir.

## Dua etməyin ədəb-ərkanı

Çox yaxşı olar ki, insan dua edərkən duanın ədəb-ərkanına riayət etsin. Çünki duaların qəbul olunmasında ədəb normalarına riayət etməyin çox böyük təsiri vardır. Həmin şərtlər bunlardır:

1. Dua edərkən dəstəmazlı olmaq və duaya başladıqda "Bismillahir-Rəhmanir-Rəhim" deyilməlidir;

2. Allahın adlarını dilə gətirib Onu çağırmaq. Yəni duanın əvvəlində Allahın rəhmətini, əzəmətini, kəramətini və s. adlarını yad edib duaya başlanılmalıdır;

3. Peyğəmbərə(s) və Əhli-beytinə(ə) salam və salavat göndərmək. Həzrət Əli(ə) buyurur: "Dua edərkən

---

[1] Allahın ayı, 1-ci cild, səh .162.

duaların əvvəlində və axırında Peyğəmbər(s) və onun Əhli-beytinə(ə) salavat göndərdikdə Allah-təala həmin duaları mütləq qəbul edər. Çünki hər kim Peyğəmbər(s) və onun Əhli-beytinə(ə) salavat göndərsə, mümkün deyil ki, Allah-təala o salavatı və duaları qəbul etməsin. Ola bilməz ki, Allah duaların əvvəlini və axırını qəbul edib ortalarını qəbul etməsin”;

4. Dualarda Allaha “şəfi” gətirmək, yəni Allaha vasitə ilə yaxınlaşmaq, Peyğəmbər(s) və Əhli-beytinə(ə) and verib dua edilməlidir;

5. Dua edərkən insan öz günahlarını Allah qarşısında dilinə gətirib bağışlanmasını diləməlidir. İnsanın Allah qarşısında günahını dilinə gətirməsindən onun xoşu gəlir. Belə olduqda həmin şəxsi bağışlayır;

6. Dua etməyə başlamazdan öncə insan heç olmasa iki rükət namaz qılmalıdır;

7. Sızıltı ilə və yalvara-yalvara dua etmək. Çox yaxşı olar ki, insan Allah qarşısında sızıltı ilə acizanə dua etsin. İmam Hüseyn(ə) buyurur: “Cəddim Peyğəmbər(s) dua edərkən ac dilənçinin kimdənsə yalvara-yalvara çörək istədiyi kimi, Allah qarşısında dua edib yalvarırdı”;

8. Hamıya dua etmək. Dua etməyin ədəblərindən biri budur ki, insan dua edərkən hamıya dua etsin. Təkcə özünə dua etməklə kifayətlənməsin. Çox yaxşı olar ki, insan bütün müsəlmanlara, valideynlərinə, qonşularına, rəhmətə gedənlərə və qohum-əqrəbasına da dua etsin;

9. Gizlicə dua etmək. Yəni insan duanı yanındakıların eşidəcəyi qədər ucadan deməməlidir. Allahdan nə istədiyini kimsə eşitməməli, istəklərini dilinə gətirib elə deməlidir ki, yanında əyləşənlər eşitməsinlər;

10. Dua etməyin ədəblərindən biri budur ki, cəmiyyətdə dua edilsin. Yəni bir yerə cəmləşib dua etmək çox yaxşıdır. İmam Sadiq(ə) buyurur: “Atam hər hansı bir çətinliklə qarşılaşdıqda ailə üzvlərini çağırardı və bir yerdə əyləşib dua etdikdən sonra buyurardı: Allahın xoşu gəlir ki, insan cəm halda dua etsin”;

11. Duaya xoş münasibət bəslənilməlidir. Dua edərkən insan bədbin olmamalıdır. Yəni insan dua edərkən duasının qəbul olunacağına arxayınlıq hiss etməlidir. Ümid etməlidir ki, inşallah duaları qəbul olar. Belə bir hissin duaların qəbul olunmasında çox böyük təsiri vardır. Həzrət Peyğəmbər(s) buyurur: “Allahı çağırın və dualarınızın qəbul olunmasına yəqinlik hasil edin”;

12. Dua edərkən israrlı olmaq. Yəni insan bir dəfə dua etməklə kifayətlənməməlidir;

13. Gözəl və müqəddəs məkanda və zamanda dua etmək. Çox yaxşı olar ki, insan dua edərkən yaxşı məkanlarda və zamanlarda dua etsin. Məscidlərdə, hüseyniyyələrdə, bir sözlə, müqəddəs və pak məkanlarda, həmçinin gecəyarı, Qədr gecələri, bayram günlərində, cümə axşamları, cümə günlərində dua etməyin çox böyük təsiri vardır;

14. Hamını bağışlamaq. Çox yaxşı olar ki, insan duaya başlamazdan öncə boynunda kimin haqqı varsa, onları bağışlasın. Əgər kimsə sənə bir pislik edibsə, incidib və ya narahat edibsə, onu bağışlayıb dua etməyə başla. Belə olduqda Allah da səni bağışlayıb dualarını qəbul edər.

## 17. İbadət və itaət ayı

Mübarək ramazan ayının adlarından biri də “ibadət və itaət ayı”dır. İtaət odur ki, insan Allahın buyurduqlarına öz bildiyi kimi deyil, Allahın istədiyi kimi riayət etsin.

قَالَ رَسُولُ اللهِ(ص): وَهُوَ شَهرُ العِبَادَة وَ هُوَ شَهرُ الطَّاعَة

-Həzrət Peyğəmbər(s) buyurur: “(Ramazan ayı) ibadət və itaət ayıdır.”[1]

Allaha ibadət və itaət etmək hər bir zamanda və hər bir bəndənin borcudur. Lakin mübarək ramazan ayında olunan ibadətlərin savab və fəziləti digər aylara nisbətən daha çoxdur. Hər kəs bu ayda Allaha ibadət edib uzun-uzadı səcdələr etməklə üst-üstə yığılmış günahlarının ağırlığından qurtara bilər. Həmçinin Allah- təala xüsusilə bu ayda ibadət edənləri cəhənnəm odundan qoruyar.

قَالَ رَسُولُ اللهِ(ص): اَيُّهَا النَّاس... وَ اِنَّ ظُهُورَكُمْ ثَقِيلَةٌ مِنْ أَوْزَارِكُمْ فَخَفِّفُوا عَنْهَا بِطُولِ سُجُودِكُمْ وَ اعْلَمُوا أَنَّ اللَّهَ أَقْسَمَ بِعِزَّتِهِ أَنْ لَا يُعَذِّبَ الْمُصَلِّينَ وَ السَّاجِدِينَ وَ أَنْ لَا يُرَوِّعَهُمْ بِالنَّارِ يَوْمَ يَقُومُ النَّاسُ لِرَبِّ الْعَالَمِينَ

-Həzrət Peyğəmbər(s) buyurur: “Camaat, boynunuzda ağır günah məsuliyyəti var (az qalıb ki, günahların ağırlığı belinizi sındırsın). Uzun-uzadı səcdələr etməklə özünüzü günahlardan yüngülləşdirin. Bilin ki, Allah-təala Öz izzətinə and içib ki, bu ayda namaz qılıb səcdə edənlərə əzab verməyəcək və qiyamət

---

[1] Allahın ayı, 1-ci cild, səh.172.

günü, insanların (qəbirlərdən) qalxdığı gün onları cəhənnəm odu ilə qorxutmayacaq.”[1]

Səcdə etmək bəndənin Allaha ən yaxın olan halıdır. Allah qarşısında səcdə etmək şeytanın belini sındırır. Allahın Ona səcdə edən bəndəsindən xoşu gəlir. Şeytanın isə ən acığı gəldiyi insan Allaha səcdə edən bəndədir. Çünki şeytan səcdə etmədiyinə görə Allah dərgahından qovulmuşdur. Allah Adəmi(ə) yaratdıqdan sonra bütün mələklərə əmr etdi ki, ona səcdə etsinlər. Hamı səcdə etdi, lakin iblis bu əmrdən boyun qaçırdı. Belə olduqda Allah-təala onu dərgahından qovdu. Günlərin birində peyğəmbərlərdən birinin yanına gəlib dedi: “Mən neçə illərdir ki, Allahdan bağışlanmağımı diləyirəm. Amma O, məni bağışlamır. Görəsən, hansı əməli yerinə yetirsəm, məni bağışlayar?” Həmin peyğəmbər Allahdan bunun sirrini soruşduqda Allah-təala buyurdu: “Əgər şeytan doğrudan da bağışlanmasını istəyirsə, ona de ki, gedib Adəmin qəbrini tapsın və ona səcdə etsin. Əgər Adəmin qəbrinə səcdə etsə, Mən onu bağışlayaram.” Peyğəmbər(s) Allahın bu sözlərini şeytana çatdırdı. Şeytan bir az düşünüb dedi: “Mən Adəmin sağlığında ona səcdə etməmişəm. Deyirsən ki, indi gedib onun qəbrinə səcdə edim? Yox, mən heç bir vaxt bu işi görməyəcəyəm.”

Odur ki, şeytan özü Allahın əmrinə əsasən Adəmə səcdə etmədiyinə görə qovuldu. Əsl həqiqətdə bu səcdə Allaha səcdə etmək idi. O, təkəbbürlülük göstərib bu əmrdən boyun qaçırdı. Buna görə də onun Allaha səcdə

[1] Allahın ayı, 1-ci cild, səh.162.

edənlərdən acığı gəlir. Hər kəs uzun-uzadı səcdə edərsə, şeytanın belini sındırmış olur.”

Üveys Qərani Peyğəmbərin(s) ən yaxın dostlarından biri idi. O, Peyğəmbərlə(s) bir zamanda yaşamış, amma Həzrətin(s) üzünü görməmişdi. Onun ən əsas ibadətlərindən biri uzun-uzadı səcdələr etmək idi. Bəzi vaxtlarda gecəni səhərə qədər səcdədə qalırdı. Bəzən o qədər uzun-uzadı səcdə edərdi ki, quşlar onu daş hesab edib üstünə qonardılar.

Odur ki, Həzrət Peyğəmbər(s) buyurur: “Boynunuzda ağır günah məsuliyyəti var (az qalıb ki, günahların ağırlığı belinizi sındırsın). Uzun-uzadı səcdələr etməklə özünüzü günahlardan yüngülləşdirin. Bilin ki, Allah-təala Öz izzətinə and içib ki, bu ayda namaz qılıb səcdə edənlərə əzab verməyəcək və qiyamət günü, insanların (qəbrlərdən) qalxdığı gün onları cəhənnəm odu ilə qorxutmayacaq.”

**18. Allah dostlarının bayramı**

Hədislərə əsasən mübarək ramazan ayının adlarından biri “Allah dostlarının bayramı” adlanır. Yəni mübarək ramazan ayı bayramdır, amma hər kəs üçün yox.

اِمَام زَينُ العَابِدِين: مِن دُعَائِه عِندَ وِدَاعِ شَهر رَمَضان: اَلسَّلامُ عَلَيكَ يَا شَهرَ اللهِ الاَكبَر وَ يَا عِيدَ اَولِيَائِه

-İmam Zeynəl-Abidin(ə) ramazan ayının axırlarında dua edərkən belə buyurur: "Salam olsun sənə ey Allahın ən böyük ayı və Allah dostlarının bayramı."[1]

Ramazan ayının bu adı bəzi insanların təəccübünə səbəb ola bilər. Amma mömin və Allahı tanıyan insanlar üçün burada təəccüblü heç bir şey yoxdur. Burada qarşıya belə bir sual çıxır ki, görəsən bu ay necə bir bayramdır? Bu sualı cavablandırmazdan öncə kimlərin övliyaullah, yəni Allah dostları olduğunu bilək. Yəni övliyaullah hansı kəslərdir ki, mübarək ramazan ayı onlar üçün bayramdır? Bəzi hədislərdə belə nəql olunur ki, bu ay bəzi insanlar üçün əzab və dərddir. Ramazan ayının adlarından birinin "Allah dostlarının bayramı" olması bunu göstərir ki, bu ay hər bir kəs üçün bayram hesab olunmaz. "Bəqərə" surəsinin 165-ci ayəsində belə oxuyuruq:

وَمِنَ النَّاسِ مَن يَتَّخِذُ مِن دُونِ اللّهِ أَندَاداً يُحِبُّونَهُمْ كَحُبِّ اللّهِ
وَالَّذِينَ آمَنُواْ أَشَدُّ حُبًّا لِّلّهِ

-İnsanların bəziləri Allahın yerinə (bütlərdən və s. kimi şeylərdən) şəriklər seçərək onları Allahı sevməli olduqları kimi sevərlər. Lakin iman gətirənlərin Allaha olan məhəbbətləri (onların öz məbudlarına olan məhəbbətlərindən) daha çoxdur.

Bu ayədə görürük ki, Allaha həqiqi, səmimi qəlbdən iman gətirənlər Allahı daha çox sevirlər. Belə ki, qəlbləri bütünlüklə Allahın məhəbbəti ilə dolmuşdur. Bu insanlar heç bir vaxt imkan verməzlər ki, ürəklərinə Allahdan

---

[1] Allahın ayı, 1-ci cild, səh.36.

başqa bir şey daxil olsun. Allah-təala insanları Ona ibadət etmək üçün yaratmışdır. Buna görə də hər bir insan Onun qarşısında öz bəndəliyini göstərməli və ibadət etməlidir. Peyğəmbər(s) və məsum imamların hədislərinə diqqət yetirdikdə görürük ki, Allaha ibadət edən insanları bir neçə dəstəyə ayırmışlar.

قَالَ الصَّادِقُ(ع): اَلْعِبَادُ ثَلاَثَةٌ قَوْمٌ عَبَدُوا اللهَ عَزَّ وَجَلَّ خَوْفاً، فَتِلْكَ عِبَادَةُ الْعَبِيدِ، وَقَوْمٌ عَبَدُوا اللّهَ تَبَارَكَ وَتَعَالی طَلَبَ الثَّوَابِ، فَتِلْكَ عِبَادَةُ الأُجَرَاءِ، وَقَوْمٌ عَبَدُوا اللّهَ عَزَّ وَجَلَّ حُبًّا لَهُ، فَتِلْكَ عِبَادَةُ الأَحْرَارِ وَهِيَ أَفْضَلُ الْعِبَادَةَ

-İmam Sadiq(ə) buyurur: "İbadət edənlər üç dəstədir. Bir dəstə Allaha qorxudan ibadət edər ki, bu, qulların ibadətidir. Bir dəstə Allah-təalaya savab üçün ibadət edər ki, bu, muzd alanların ibadətidir. Bir dəstə isə eşq və məhəbbətə görə Allaha ibadət edər ki, bu da azad insanların ibadəti və ən üstün ibadətdir."[1]

Hədisdə göstərilmiş hər üç dəstənin ibadəti düzgün və məqbuldur. Qəbirin əzabından, qiyamət səhnəsinin vəhşətindən və cəhənnəm odundan qorxaraq Allaha ibadət etmək pis deyil. Bəziləri elə düşünürlər ki, əgər insan cəhənnəmin qorxusuna görə Allaha ibadət edirsə, bu, pis haldır. Xeyr, bu, insan üçün yaxşıdır. Əsl həqiqətdə Allaha ibadət edir, lakin onun bu ibadəti cəhənnəmə düşməmək üçündür. Başqa bir ibarə ilə desək, qorxudan sözə qulaq asıb əməl etmək insan üçün yaxşıdır. Bu cür insanların ibadəti qulların ibadətinə

---

[1] Mizanül-hikmə, 7-ci cild.

bənzəyir ki, Öz ağalarının əzabına düçar olmamaq üçün ona itaət edirlər. İkinci qrup insanlar isə Allaha ibadət edirlər ki, savaba nail olub cənnətə düşsünlər. Bu insanların ibadəti tacirlərin ibadətinə bənzəyir. Əgər bir insan muzd, mükafat almaq üçün Allaha ibadət edirsə, bu da yaxşıdır. Məsələn, bir işçi çalışdığı yerdə daha yaxşı işləyir ki, onun muzdunu layiqincə versinlər. Yaxud bir nəfər öz həyətində işlətmək üçün  fəhlə gətirir. Ona bildirir ki, həyətdə filan işləri görsən, sənə filan məbləğdə pul verəcəyəm. Həmin fəhlə də razılaşıb onun göstərdiyi işləri görür ki, axşam ona vədə verdiyi muzdu ala bilsin. Allah-təala Ona ibadət edən bəndələrə cənnətin nemətlərini vəd etmişdir. Əgər bir bəndə Allaha cənnətin nemətləri üçün bəndəlik edirsə, bu da yaxşı haldır. Lakin üçüncü qrup insanlar heç bir qorxunu və muzdu nəzərə almadan, yəni sırf Allaha olan məhəbbətə görə ibadət edirlər. Bu qəbil insanlar Allaha aşiq olduqları üçün bəndəlik edirlər. Belə insanlar azad insanlardır. İbadətlərin ən üstün və fəzilətlisi də azad insanların ibadətləridir. Yəni bu üç dəstə insanın ibadəti bəyənilir, lakin ən üstünü üçüncü qisim insanların ibadətidir ki, nə cəhənnəmin qorxusundan, nə də cənnətin tamahına görə ibadət etmirlər. Yalnız Allahı tanıyıb sevdikləri üçün Ona bəndəlik edirlər. Peyğəmbər(s) və məsum imamlar bizə Allahı sevərək ibadət etməyi tövsiyə etmişlər. Əgər insan Allahı sevərək ibadət etsə, Allah həmin şəxsi həm cəhənnəm odundan qoruyar, həm də cənnətin ən yüksək dərəcəsi ilə mükafatlandırar.

قَالَ رَسُولُ اللهِ(ص): أَحَبُّوا الله مِن كُلِّ قُلُوبِكُم

-Həzrət Peyğəmbər(s) buyurur: “Allahı bütün qəlbinizlə sevin.”[1]

Rəvayətlərə görə bir Allah bəndəsi həcc ziyarətinə getməyə hazırlaşır. Oğlu ondan soruşur: “Ata can, hara gedirsən? Atası deyir: Allahın evini ziyarət etməyə.

Oğlan öz-özünə fikirləşir ki, əgər atam Allahın evinə gedirsə, deməli, Allah oradadır. Allahı sevdiyi üçün atasından onu da aparmağı xahiş edir. Atası əvvəlcə razılaşmır, lakin oğlunun israrlı olduğunu görüb onu da özü ilə aparır. Məkkəyə gəlib ehram bağladıqdan sonra Məscidül-hərama daxil olurlar. Uşaq Kəbəni gördükdə atasından soruşur: Ata can, bəs Allah haradadır? Atası uşağın cavabında deyir: Göylərdə. Uşaq Allahı görmək eşqi ilə gəldiyi üçün ağlayıb ah-nalə etməyə başlayır. O qədər ağlayır ki, canını tapşırır. Atası bu vəziyyəti görüb fəryad qoparır. Bəzi arif insanlar ona təsəlli verərək başa salırlar ki, sən Allahın evini ziyarət etmək məqsədi ilə gəlmişdin. Məqsədinə çatdın. Lakin sənin oğlun Allahın özünü ziyarət etmək üçün gəlmişdi. O da öz məqsədinə çatdı.”

Odur ki, eşq və məhəbbət elə bir şeydir ki, istər-istəməz aşiqi öz məşuquna tərəf çəkir. Hər bir kəs aşiq olsa, fikri-zikri məşuqunun yanında olar. Daim öz məşuqunu xatırlamaqla rahatlıq tapar. Bu zaman həyat onun üçün məşuqundan savayı başqa bir şey ola bilməz. Kitablarda Leyli və Məcnun haqda çox sözlər yazmışlar. Həmin sözlərin bəzisində səhih sənədlərə istinad olunmuşdur. Bundan əlavə, bəzi şair və yazıçılar da onların barəsində öz təxəyyülləri əsasında şeir və əsərlər

---

[1] Mizanül-hikmə, 6-cı cild, hədis -3086.

yazmışlar. Məcnunun Leyliyə olan məhəbbəti və onların əhvalatı haqda demək olar ki, hamının az-çox məlumatı var. Mövlana Cəlaləddin Rumi həmin əhvalatlardan birini belə yazır:

-Günlərin birində Məcnun Leylinin görüşünə getmək istəyir. Tövlədən yenicə doğmuş dəvəni çölə çıxarıb cilovlayaraq üstünə minir. Dəvənin balası körpə olduğu üçün anasının ardınca gələ bilmir. Yolda Leylinin xəyalı Məcnunu aparır və dəvənin cilovu onun əlindən çıxır. Dəvə də bu fürsətdən istifadə edib balasının yanına qayıdır. Məcnun xəyaldan ayıldıqda görür ki, dəvə balasının yanına qayıdıb. Yenidən cilovu möhkəm tutur və yola düzəlir. Bir az yol getdikdən sonra yenə də Leylini düşünərək xəyallara dalır və dəvənin cilovu yenə də əlindən çıxır. Dəvə bu dəfə də fürsətdən istifadə edərək balasının yanına qayıdır. Bu hal bir neçə dəfə təkrar olunduqdan sonra Məcnun deyir: “Ey dəvə, biz heç bir vaxt səninlə bir yolu gedə bilmərik. Çünki hər birimiz öz məşuqumuzun yanına can atırıq. Bizim yoldaşlığımız baş tutmayacaq.” Mövlana bu məsələni nəzmə çəkir və sonda gözəl bir cümlə ilə belə tamamlayır.

ای ناقه چو هر دو عاشیقیم          ما دو ضد بس همرهِ نالایقیم

این عشق مجنون است به لیلی

عشق مولی کی کم از لیلی استی     بنده بودی بهَر او اولاستی

-Ey dəvə, hər ikimiz (mən Leyliyə, sənsə öz balana) aşiqik. Bir-birimizə zidd olduğumuz üçün yoldaşlıq etməyə layiq deyilik.

Bu, Məcnunun Leyliyə olan eşqidir. Lakin Mövlananın (Allaha) məhəbbəti Leylinin məhəbbətindən heç də az deyil. Onun bəndəsi olsaydın.[1]

Mövlana bununla demək istəyir ki, Məcnunla Leylinin məhəbbəti hara, bəndə ilə Allahın məhəbbəti hara? Əgər bəndə öz mövlasını (Allahı) tanıya bilsə, eşq və məhəbbəti ondan daha möhkəm olar.

Odur ki, hər bir insan Allahı olduğu kimi tanıyıb sevə bilsə, heç bir vaxt başqa məhəbbətləri yaxına buraxmaz. Tarixdən misal çəkməli olsaq, Züleyxanın məhəbbətini nümunə kimi qeyd edə bilərik. Züleyxa Yusifin eşqindən dəli-divanə olmuşdu. Hər bir şeyini Yusifin eşqinə qurban verdi. O, bütpərəst bir insan idi. Neçə illər Yusifin eşqi ilə yaşayırdı. Yusif isə ondan tamamilə uzaq gəzirdi. Lakin bir zaman öz bütünü qarşısına qoyub balta ilə sındırdı və Allaha qəlbən iman gətirdi. Bütpərəst olduğu vaxtlarda Yusifin aşiqi idi. Lakin Allaha iman gətirib onu tanıdıqdan sonra məhəbbəti Allaha sarı yönəldi. Allahın izni ilə Yusiflə ailə qurdu. Yusif(ə) gördü ki, bu, həmin Züleyxa deyil. Günlərin birində soruşdu: "Sənin əvvəl mənə olan eşqindən əsər-əlamət qalıbmı? Züleyxa dedi: Ey Allahın peyğəmbəri, mən səni elə bir vaxtda sevirdim ki, o zaman sənin Allahını tanımırdım. Amma indi mən Onun özünü tanımışam. Buna görə də qəlbimdə olan məhəbbətlərin hamısını Onun məhəbbətinə qurban

[1] Qırx mövzu, səh.63.

vermişəm. Onun məhəbbətindən başqa bütün digər məhəbbətləri qəlbimdən çıxarmışam.”[1]

Tarixi vərəqlədikcə o qədər belə insanların şahidi oluruq ki, Allahı tanıdıqdan sonra qəlblərinə Onun məhəbbətindən savayı başqa heç bir məhəbbətin daxil olmasına imkan verməmişlər.

**Allah öz dostlarına nə bəxş edəcək?**

İndi isə baxaq görək ki, əgər bir insan Allahı bütün qəlbi ilə sevərsə, Allahın həmin şəxsə cavabı necə olacaq? Görəsən, bu məhəbbət qarşılıqlıdırmı? Həmin sualların cavabını bilmək üçün hədislərdə nəql olunmuş Allahın kəlamlarına diqqət yetirək:

قَالَ اللهُ تَعَالَى: طُوبَى لِقَومٍ عَبَدُونِي حبّاً، وَاتَّخَذُونِي إِلهاً وَربّاً، سَهَرُوا اللَّيل و دَأَبُوا النَّهار طَلَباً لِوَجهِي، مِن غَيرِ رَهبَةٍ وَلا رَغبَةٍ، وَلا لِنَارٍ وَلا جَنَّةٍ، بَل لِلمَحَبَّةِ الصَّحِيحَة، وَالإِرَادةِ الصَّرِيحَة وَالإِنقِطَاعِ عَن الكلِّ إِلَيّ...

-Allah-təala buyurur: “Xoş o kəslərin halına ki, Məni sevərək ibadət edir və Məni özlərinə məbud və pərvərdigar qərar veriblər. Mənə xatir gecələr oyaq qalar, gündüzlər isə çalışarlar. Onların mənə olan sevgiləri nə rəğbət, nə də həvəsə görə deyil. Onların sevgisi cəhənnəm qorxusu, yaxud cənnətə tamah salmaları ilə də bağlı deyil. Onlar Mənə qarşı məhəbbətlərində saf və

---

[1] Yenə orada, səh.164.

sədaqətli olduqlarına görə hər şeyi ürəklərindən çıxarmış və yalnız Məni sevmişlər.”[1]

Buradan da belə məlum olur ki, Allahın həqiqi dostları Onu cənnətə olan tamahlarına, yaxud cəhənnəmin qorxusuna görə deyil, yalnız Onun özünə görə ibadət edir və sevirlər. Digər bir hədisdə belə nəql olunur ki, Allah-təala öz dostlarına xüsusi inayət edəcək. Hədis belədir:

قَالَ اللهُ تَعَالی:...إِنَّ لِي عِباداً مِن عِبادِي يُحِبُّونِّي وأُحِبُّهُم، ويَشتَاقُونَ إِلَيَّ وَ أَشتَاقُ إِلَيهِم، ويَذكُرُونِي وَ أَذكُرُهُم...

أَقَلَّ مَا أُعطِيهِم ثَلاثًا: اَلاَوَّلُ: أَقذِفُ مِن نُورِي فِي قُلُوبِهِم، فَيُخبِرُونِ عَنِّي كَمَا أُخبِرُ عَنهُم، وَالثَّانِي: لَو كَانَتِ السَّمَاوَاتُ وَالاَرَضُون وَمَا فِيهِمَا فِي مَوازِينِهِم لاَستَقَلَّتُهَا لَهُم، وَالثَّالِثُ: أُقبِلُ بِوَجهِي عَلَيهِم، أَفتَرَی مَن أَقبَلتُ عَليهِ بِوَجهِي يَعلَم أَحَدٌ مَا أُرِيدُ أَن أُعطِيَه

-Həzrət Peyğəmbər(s) buyurur: “Allah buyurur: Mənim bəndələrimin içərisində elə bəndələrim var ki, onlar məni sevir və mən də onları sevirəm. Onların Mənə şövqləri var, Mənim də onlara. Onlar məni xatırlayıb yad edər və mən də onları xatırlayaram. Onlara ən azından üç şey verərəm:

Birinci: Onların qəlblərini Öz nurumla elə işıqlandıracağam ki, Mən onların sirlərindən xəbərdar olduğum kimi, onlar da Mənim sirlərimdən agah olarlar;

---

[1]Mizanül-hikmə,2-ci cild, hədis-3132.

İkinci: Əgər göyləri və yerləri, eləcə də onların arasında olanların hamısı tərəzinin bir gözündə, onlar isə tərəzinin digər gözündə olsalar, onların qiyməti daha çox olacaq (yaxşı əməllərini ağırlaşdıraram);

Üçüncü: Onlara üz tutub baxacağam. Onda biləcəksiniz ki, mən birinə üz tutduqda (nəzər yetirdikdə) ona nə əta etmiş olaram.[1]

قَالَ الإِمَامُ الْمَهدِيّ عَلَيهِ السَّلام: إِنَّ مُوسى نَاجَى رَبَّهُ بِالوادِ المقَدَّسِ، فَقالَ: يا رَبِّ، إِنِّ قَد أَخلَصتُ لَكَ المحَبَّةَ مِنّي، وَغَسَلتُ قَلبي عَمَّن سِواكَ. (وَكانَ شَديدَ الحُبِّ لِأَهلِهِ) فَقالَ اللهُ تَعالى: إخْلَعْ نَعْلَيْكَ. أي: انزَع حُبَّ أهلِكَ مِن قَلبِكَ إِن كَانَت مَحَبَّتُكَ لِي خالِصَةً وقَلبُكَ مِنَ الميلِ إلى مَن سِوايَ مَغسولاً

-Həzrət İmam Mehdi(ə.c) buyurur: "Musa(ə) müqəddəs vadiyə yetişdikdə belə dedi: İlahi, sənə olan məhəbbətimi xalis etdim, səndən başqa qəlbimdə olanların hamısını çıxardım. (Halbuki Musa(ə) öz ailəsini çox sevirdi.) Allah- təala buyurdu: Çarıqlarını çıxar."

İmam əleyhissalam bu ayənin mənasında buyurur: "(Allah Musaya buyurdu): Əgər Mənə qarşı olan məhəbbətini xalis etmək istəyirsənsə, qəlbindən əhli-əyalının məhəbbətini də çıxar. Qəlbində Məndən başqa heç bir şeyə yer vermə."[2]

---

[1] Mizanül-hikmə, 6-cı cild, hədis-3160.
[2] Yenə orada, 2-ci cild, hədis-3087.

**Allah məhəbbətinin əlamət və nişanəsi**

Allahın məhəbbətini qazanmaq üçün insan daim Onun zikrində olmalı, qəlbində ondan başqasına yer verməməlidir. Allahın məhəbbəti elə bir oddur ki, insanı yandırıb kül edər. Bu məhəbbət elə bir nurdur ki, yanından keçən hər bir şeyi işıqlandırar. Hər kəsin qəlbində Allaha məhəbbət olsa, bu məhəbbət onu yatmağa qoymaz. Gecələri səhərə qədər ibadət edər və bu məhəbbətin şirinliyi onu acılar çəkməyə qoymaz.

قَالَ عَلِيٌّ(ع): حبُّ اللهِ نارٌ لا يَمُرُّ علي شيٍ الّا احْتَرَقُ و نور اللهِ لا يَطَّلِعُ علي شيٍ الاّ اضاءَ.

-Həzrət Əli(ə) buyurur: "Allaha olan məhəbbət elə bir oddur ki, yanından keçdiyi hər bir şeyi yandırıb kül edər. Allahın nuru hər nəyə saçarsa, onu işıqlandırar." [1]

قَالَ الإِمَامُ الصَّادِقُ(ع): فِيمَا اَوحَي الله تَعَالَى اِلى موسي عليه السّلام: كَذِبَ مَنْ زَعَم انّهُ يُحِبُّنِي فَإِذَا جَنَّهُ اللَّيلُ نام عَنّي، اَلَيسَ كلُّ محبٍّ يُحبُّ خلوَةَ حبيبِهِ؟.

İmam Sadiq(ə) buyurur: "Allah-təala Musa Peyğəmbərə(s) vəhy edərək buyurdu: Ey Musa, Məni sevdiyini iddia edən kəs gecələr yatırsa, yalan demişdir. Məgər aşiqlər öz məşuqları ilə (gecələr) xəlvət (söhbət) etməyi istəməzlərmi?"[2]

---

[1] Mizanül-hikmə, 2-ci cild, hədis-3154.

[2] Yenə orada, 2-ci cild, hədis-3152.

Allahın məhəbbəti kimin qəlbinə düşsə, o şəxsi yandırıb kül edər. Pərvanə həmişə şamın ətrafına dolanır. Çünki o, şamın aşiqidir. O qədər şamın ətrafına dolanır ki, axırda şamın alovu onu yandırıb kül edir. Odur ki, Allaha mərifət gətirən, onu tanıyan və aşiq olan insanlar heç bir vaxt Onun xoşu gəlmədiyi bir işi görməzlər. Çünki aşiq insan heç vaxt məşuqunun acığı gələn işi görməz. Həmişə axtarıb arayar və məşuqunun xoşladığı işləri görməyə çalışar. Əgər bir insan Allah qarşısında günah edirsə və Onun acığı gəldiyi işləri görürsə, bu insan Allaha aşiq deyil. Aşiq odur ki, öz məşuqunun adı ilə nəfəs alsın. Günlərlə məşuqunu düşündükcə aclıq və susuzluğun nə olduğunu hiss etməyəcək.

Günlərin birində Məcnun Leylinin adının divara yazıldığını görür. Əyləşib saatlarla onun adına tamaşa etməyə başlayır. O qədər heyranlıq və məhəbbətlə baxır ki, bəziləri üç, bəziləri isə yeddi günün beləcə keçdiyini yazırlar. Ona deyirlər: "Necə ola bilər ki, sən bu neçə günü ac-susuz burada əyləşmisən? Məcnun onların cavabında belə deyir: Ey biçarələr, hər kəs öz məşuqunun adı ilə yaşayırsa, aclıq və susuzluğu hiss edərmi? Mən Leylinin adına baxıb yox oluram. Belə olduqda yemək, içmək yadıma düşmür."

Odur ki, mübarək ramazan ayı Allah dostlarının bayramıdır. Çünki onlar Allahı bütün qəlbləri ilə sevdikləri üçün və Onunla səmimi dost olduqları üçün bu ayda nə qazandıqlarını yaxşı bilirlər. Buna görə də onlar bu ayda bir-birilərini təbrik edirlər. Onlar bu ayda Allahın lütf və mərhəməti, razılığını əldə etdikləri üçün bir-birilərinə təbrik ərz edirlər. Lakin kənardan baxanlar onların nə üçün bir-birini təbrik etdiklərini dərk edə

bilmirlər. Bu məsələni daha aydın başa düşmək üçün keçmiş illərdə baş vermiş bir hadisəni misal olaraq nəzərinizə çatdırıram.

O zaman İranda hələ İslam inqilabı baş verməmişdi. Şah rejimi zamanında iki maşın bir-biri ilə toqquşmuş və yol qəzası baş vermişdi. Maşın sahiblərindən biri varlı və imkanlı, digəri isə kasıb və fağır bir insan idi. Bu qəzanın baş verməsində də günahkar şəxs həmin imkanlı adam idi. Onların hər ikisini qəzanın baş verdiyi rayonun polis bölməsinə apardılar. Müstəntiq onların hər birini dindirib məsələni öyrənir və qeydiyyat aparırdı. İmkanlı şəxsi digər rayonun polisləri də tanıdıqları üçün həmin rayonun polis işçilərini təbrik edirdilər. Ola bilsin ki, kənar adamlar onların bir-birini nə üçün təbrik etdiklərini başa düşməsinlər. Lakin polislər varlı bir şəxsin idarəyə aparılmasının nə ilə nəticələnəcəyini çox gözəl başa düşürdülər. Bilirdilər ki, həmin rayonun polis idarəsində işləyənlər bu varlı şəxsin imkanlarından yaxşıca bəhrələnəcəklər. Həmçinin bunun müqabilində onun günahkar olduğunu bilə-bilə günahsız olduğunu ortaya qoyacaqlar.

Mübarək ramazan ayı da Allah dostlarının bayramı olduğu üçün onlar bir-birini təbrik edirlər, lakin biz onların bu təbriklərini başa düşmürük. Biz də bu ay sadəcə olaraq bir-birimizi təbrik edərək özümüzü onlara oxşatmaq istəyirik. Necə ki, uşaq atasının maşınına minir və sükandan yapışaraq guya maşın sürürmüş kimi özünü atasına oxşadır. Biz də orucluq ayında bir-birimizi təbrik etməklə onları yamsılayırıq. Allah dostları da bir-birini təbrik edir, biz də təbrik edirik. Lakin onlar bu təbrikin mahiyyətini daha dərindən başa düşür, biz isə onları

yamsılayaraq özümüzü Allahın dostlarına bənzətmək istəyirik.

**19. Səbir ayı**

Qeyd olundu ki, Peyğəmbər(s) və məsum imamlarımızın buyurduqlarına əsasən mübarək ramazan ayının müxtəlif adları vardır. Həmin adların hər biri bu mübarək ayın əzəmətinə, böyüklüyünə dəlalət edir.

Mübarək ramazan ayının adlarından biri də səbir ayıdır.

قَالَ رَسُولُ اللهِ(ص): وَهُوَ شَهرُ الصَّبر وَ إِنَّ الصَبرَ ثَوابُهُ الجَنَّة

-Həzrət Peyğəmbər(s) buyurur: “(Ramazan ayı) səbir ayıdır. Həqiqətən səbrin savabı cənnətdir.”[1]

Mübarək ramazan ayında insan nəfsinin istəkləri qarşısında səbir edir və nəfsin xoşuna gəlmədiyi işləri səbirlə yerinə yetirir. Yəni insan Allahın əmrlərin səbirlə yerinə yetirir və Onun qadağan etdiyi işlərdən səbirlə çəkinir. Belə olduqda bu səbrin savab və mükafatı cənnətdir.

Səbrin mənasına gəldikdə isə bəzi kitablarda onun mənasını düzgün ifadə etməmişlər. Təkcə səbir məsələsi deyil, bir sıra məsələlər vardır ki, onların da mənasını bəzi kitablarda doğru-düzgün şərh etməmişlər. Bu işləri görənlərin bəzisi elmlərinin kifayət qədər olmadığından səhv yazmışlar. Bəziləri isə bilərəkdən mətləbi öz mənasından çıxararaq başqa səmtə yönəltmək məqsədilə səhv mənalandırmışlar. Ümumiyyətlə, bu, geniş bir mövzu olduğundan əsas bəhsimizdən kənar düşməmək

---

[1] Allahın ayı, 1-ci cild, səh.166.

üçün bununla da kifayətlənirəm. Yəni birisinin İslamı camaatın nəzərində olduğu haldan çıxarıb başqa səmtə yönəltməsi, yaxud dinin olduğu kimi camaata çatmasına maneə törətməsi üçün ən yaxşı yol budur ki, onun terminlərini düzgün mənalandırmasın. Tarix boyu belə hallar çox görünmüşdür. Buna misal çəkmək istəsək, bu barədə çox söhbətlər etmək olar. Lakin səbir məsələsi də həmin məsələlərdən biridir ki, bir sıra kitablarda onun mənasını dəyişib başqa səmtə yönəltmək istəmişlər. Məsələn, təhrif olunmuş İncildə səbri belə mənalandırmışlar: "Əgər birisi gəlib sənin üzünə sillə vuraraq çörəyini əlindən alsa, səbir edərək o biri üzünü də ona tərəf tut ki, birini də vursun."

Səbir barədə yazılmış belə bir tərif oyunbazlıq və insanları həqiqi yoldan azdırmaqdan savayı başqa bir şey deyil. Səbir barəsində belə bir açıqlama vermək dini onun özündən ayırmaq deməkdir. İslam dini səbir barəsində belə bir fikir irəli sürməmişdir. Əsl həqiqətdə İncilin özündə də belə bir ifadə yoxdur. Həzrət İsa Məsihin(ə) özü də səbir barədə belə bir şərh verməmişdir. Həzrət İsadan(ə) sonra onun buyurduğu kəlamları, gətirdiyi müqəddəs kitabı təhrif edərək mətləbləri dəyişmiş və öz düşündükləri, yaxud özlərinə sərf etdiyi kimi mənalandırmışlar.

İslam dinində səbrin mənası belədir: "İnsanın qarşısına qoyduğu məqsədə çatmasından ötrü önünə çıxan bütün maneələri aşıb keçməsinə səbir deyilir." Başqa sözlə desək, səbir odur ki, insan qarşısına qoyduğu məqsədə çatmaq üçün zəhmət çəkməli və müqavimət göstərib dözərək bu yolda olan bütün maneələri adlamalıdır. Yəni məqsədə çatmaq üçün qarşısına çıxan

bütün çətinliklərə və əziyyətlərə qatlaşaraq özünü son hədəfə çatdıran şəxsə səbirli şəxs deyilir.

Bəzi alimlər buna misal olaraq uca və mənzərəli dağlara səyahət edən insanları misal çəkmişlər. Məsələn, əgər bir insan  Savalan dağı kimi bir dağın üstünə çıxmaq istəyirsə, təbiidir ki, bu yolda qarşısına çıxan bütün çətinliklərə dözməli və maneələri aşmalıdır. Savalan dağı Ərdəbildə yerləşən və gözəl mənzərəyə malik olan bir dağdır. Onun üstündə bir göl də vardır. Hətta yayın ən qızmar vaxtında belə Savalan dağının başında qar olur. Onun zirvəsində hava o qədər soyuq olur ki, hətta nefti yandırmaq belə mümkün olmur. Adətən ora çıxanlar özləri ilə benzin götürürlər.

Mənzərəli və gözəl bir məkan olduğu üçün dünyanın çox yerindən bura səyahət edənlər olur. Bu dağa gedən yolda müxtəlif yerlərdə mənzillər vardır. Bəzi insanlar bu dağa çıxdıqca yolda olan həmin mənzillərdə dayanır və ondan artıq qalxa bilmədikləri üçün bir az istirahət edib geri qayıdırlar. Bəzi səyyahlar elə dağın ətəyindəcə əyləşib istirahət edirlər. Lakin bəzi insanlar isə bütün bu çətinliklərə baxmayaraq, həmin dağın zirvəsinə qədər qalxacaqlarını qarşılarına məqsəd qoyur, yolda olan bütün maneələrə baxmayaraq, dağın başına çıxır və oradakı göldə əl-üzlərini belə yuyurlar. Buna görə də belə bir dağın zirvəsinə çıxmaq istəyən insan özünü hazırlamalı, yolun üzərində olan bütün maneə və çətinliklər qarşısında müqavimət göstərib dözməlidir.

Odur ki, əgər bir insan öz məqsədi uğrunda bütün maneələri aradan qaldıra bilsə, eləcə də bu yolda olan

bütün çətinliklərə dözsə, belə bir dözüm və müqavimətə səbir deyilir.

Bir nəfər İslam Peyğəmbərindən(s) soruşur: “Ya Rəsulallah, iman nədir? Həzrət(s) buyurur: Səbir.”

Peyğəmbərin(s) bu cavabından açıq-aydın şəkildə başa düşmək olur ki, əgər bir insanda səbir olmasa, imanını başa çatdıra bilməyəcək. Çünki imanı başa çatdırmaq üçün insanın qarşısına müxtəlif maneələr çıxa bilər. Elə də düşünmək lazım deyil ki, iman gətirmək sadə bir işdir. İnsan iman gətirdikdən sonra onu başa çatdırmalıdır. İnsan bir dağın zirvəsinə çıxarkən yolda qarşısına çıxan bütün maneələrə müqavimət göstərdiyi kimi, imanı başa çatdırmaq üçün də bu yolda olan çətinliklərə dözməli və səbir etməlidir.

قَالَ عَلِيٌّ(ع): بِالصَّبرِ تُدرَكُ الرَّغائِب

-Həzrət Əli(ə) buyurur: “Ali məqamlara (arzu və istəklərə) səbirlə çatmaq olar.”[1]

Əgər bir insan akademik olmaq istəyirsə, elə düşünməməlidir ki, gecələri səhərə qədər yatmaqla ona bu məqamı verəcəklər. Akademik olmaq üçün insan gecə-gündüz çalışmalı, oxumalı, aclığa və susuzluğa dözməli, bütün çətinliklərə müqavimət göstərməlidir. Əgər bir insan müctəhid olmaq istəyirsə, elə düşünməsin ki, yatıb durmaqla ona müctəhidlik dərəcəsi veriləcək. Müctəhid olmaq üçün insana bir ömür zəhmət çəkmək lazımdır. İlk növbədə elmin şərtlərinə riayət etməli, bu yolda ac qalmalı, gecələr yuxusundan kəsib vaxtını elmə sərf etməlidir. Bundan əlavə, halal-harama tam incəlikləri

[1] Mizanül-hikmə, 6-cı cild, hədis-00058.

ilə riayət etməlidir. Çünki insan haram yeməklə nuraniyyətə çata bilməz. Bir sözlə desək, insan hər bir məqama, arzu və istəyinə çatması üçün bu yolda olan bütün çətinliklərə dözüb səbir etməlidir. Xüsusilə iman məsələsində səbir çox mühüm rol oynayır. Əgər səbir olmasa, insan imanını başa çatdıra bilməyəcək.

قَالَ الإِمَامُ الصَّادِقُ(ع): الصَّبْرُ مِنَ الإِيمَانِ بِمَنْزِلَةِ الرَّاسِ مِنَ الْجَسَدِ، فَإِذَا ذَهَبَ الرَّاس ذَهَبَ الْجَسَدِ، كذلك إِذَا ذَهَبَ الصَّبْرُ ذَهَبَ الإِيمَان

-İmam Sadiq(ə) buyurur: "İman üçün səbir bədəndə olan baş kimidir. Baş aradan gedərsə, bədən də aradan gedəcək. Eləcə də səbir gedərsə, iman da gedər."[1]

[1] Yenə orada, 6-cı cild, hədis-00066.

## Allahın salamı və rəhməti səbir edənlərədir

Səbir insan üçün uca və yüksək məqamlardan biridir. Quran oxuduqda səbir barədə olan bir çox ayələrə rast gəlirik. O cümlədən Allah-təala "Bəqərə" surəsinin 155-ci ayəsində belə buyurur:

وَلَنَبْلُوَنَّكُمْ بِشَيْءٍ مِّنَ الْخَوفْ وَالْجُوعِ وَنَقْصٍ مِّنَ الأَمَوَالِ وَالأنفُسِ وَالثَّمَرَاتِ وَبَشِّرِ الصَّابِرِينَ. الَّذِينَ إِذَا أَصَابَتْهُم مُّصِيبَةٌ قَالُواْ إِنَّا لِلّهِ وَإِنَّا إِلَيْهِ رَاجِعونَ. أُولَئِكَ عَلَيْهِمْ صَلَوَاتٌ مِّن رَّبِّهِمْ وَرَحْمَةٌ وَأُولَئِكَ هُمُ الْمُهْتَدُونَ

-Sizi mütləq bir az qorxu və aclıqla, eləcə də mal, can və (ağac) məhsulların(ın, yaxud arvad-uşaq kimi həyat səmərələrinin) azlığı ilə imtahan edəcəyik. Səbir edənlərə müjdə ver. O kəslərə ki, onlara hər hansı bir müsibət gəldikdə "həqiqətən, biz Allahınıq və həqiqətən Ona tərəf qayıdacağıq" - deyərlər. Onlar Rəbbləri tərəfindən salam və rəhmət yetişən kəslərdir və hidayət olunmuşlar onlardır!

## Səbrin qisimləri

Burada qarşıya belə bir sual çıxır ki, insan əsasən hansı işlərin qarşısında səbirli olmalıdır? Bu sualın cavabında Peyğəmbər(s) və məsum imamlardan dolğun cavablar nəql olunmuşdur. Onlar səbir etməyi bir neçə qismə bölərək bizim üçün ətraflı şəkildə izah etmişlər.

قَالَ عَلِيٌّ(ع): اَلصَّبرُ صَبرَان: صَبرٌ عَلى مَا تُكرِه وَ صَبرٌ عَمَّا تُحِبُّ

-Həzrət Əli(ə) buyurur: "Səbir iki növdür: Sənin xoşuna gəlməyən şeylərə səbir etmək və sevdiyin

şeylərin müqabilində səbir edib özünü saxlamaq (məsələn, haram ləzzətlərdən).”[1]

Həzrət Əli(ə) bu hədisdə səbir etməyi ümumilikdə iki hissəyə bölmüşdür. Onlardan biri insanın xoşuna gəlmədiyi, yəni insan üçün ağır olan əməllərin qarşısında səbir etməkdir. Məsələn, mübarək ramazan ayı yay günlərinə təsadüf edərkən oruc tutmaq bir qədər çətinləşir. Kim istəyər ki, isti yay günlərində ac-susuz qalsın? Kim istəyər ki, orucluqda ürəyi istədiyi işlərdən uzaq dursun? Sübh tezdən yuxunun şirin vaxtında oyanıb namaz qılmaq da çətindir. Bütün bunlar Allahın əmri olduğundan onları yerinə yetirmək üçün insana səbir lazımdır. İkinci qisimdə isə insanın sevdiyi və xoşladığı işlərin müqabilində səbrli olmasıdır. Məsələn, orucluqda insanın ürəyi su içmək, yaxud yemək istəyir. Təkcə olucluqda deyil, başqa günlərdə belə insan nəfsi haram yeməklər, haram işlər görmək istəyir. Göz haramlara baxmağı, qulaq eşitməyi, daxili meyllər bir çox digər günahları etmək istəyir. Lakin bütün bunların qarşısında dayanmaq üçün insana səbir lazımdır. Əgər səbir olmasa, insan özünü günahlardan saxlaya bilməz. Bir sözlə desək, insan səbir edərək Allahın istəklərini öz istəklərindən üstün tutur.

قَالَ رَسُولُ اللهِ(ص): اَلصَّبْرُ ثلاثة: صَبرٌ عِندَ الْمُصِيبَةِ. وَصَبرٌ عَلى الطَّاعَةِ. وَ صَبرٌ عَنِ الْمَصِيبَةِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Səbir üç qisimdir: Müsibət və çətinliklərin qarşısında səbir etmək; (Allaha)

[1] Mizanül-hikmə, 6-cı cild, hədis-00099.

itaət etməkdə səbirli olmaq; Günahların qarşısında səbir etmək."[1]

Burada çox yaxşı olar ki, Peyğəmbərin(s) bu hədisinə azacıq şərh verək. Həzrətin(s) bu mübarək kəlamında səbir etmək üç qismə bölünür. Hər bir qisim barədə kifayət qədər danışmaq olar. Lakin istərdik ki, indi bu qisimlər barədə yığcam şəkildə açıqlama verək:

## 1. Müsibət və çətinliklər qarşısında səbir etmək

Həyatda hər bir insan bir çox çətinliklər və gərgin hadisələrlə qarşılaşır. Yəni insanlar yaşadıqları müddətdə bir çox müsibətlərlə üzləşə bilirlər. Məhz bütün bunlarn qarşısında müqavimət göstərmək üçün insana səbir lazımdır. Mərhum Şəhid Sani İslam dünyasında tanınmış böyük alimlərdən biri olmuşdur. Onun əsl adı Zeynuddin, ləqəbi isə "İkinci şəhid"dir ki, Şəhid Sani kimi tanınmışdır. Böyük alim və dərin bir insan olduğundan onun yazdığı kitab hər bir müctəhidin masaüstü kitabına çevrilmişdir. Günlərin birində o, əyləşib yazı yazmaqla məşğul idi. Elə bu zaman oğlunun ölüm xəbərini ona çatdırdılar. Oğlunun ölüm xəbərini ona çatdırdıqdan sonra onun bu məsələyə necə reaksiya verəcəyini gözlədilər. Bir neçə dəqiqədən sonra gördülər ki, təzə paltarlarını geyinib evdən çıxdı. Bu hadisədə iştirak edən şəxslərdən biri deyir: "Biz oğlunun ölüm xəbərini ona çatdırdıqda onun bu cür reaksiya verəcəyini heç ağlımıza belə gətirməzdik. Öz-özümüzə çox təəccübləndik ki, görəsən bu böyüklükdə, əzəmətdə olan bir alim nə üçün təzə paltarlarını geyinib və heç bir hadisə baş verməmiş

[1] Mizanül-hikmə, 6-cı cild, hədis-10100.

kimi evdən çıxır? Özümdə cəsarət tapıb bunun səbəbini ondan soruşdum. Şəhid Sani mənim sualımın cavabında buyurdu: Məgər siz Quranda oxumamısınızmı ki, hər kəs ona üz gətirən müsibətlərə səbir etsə, Allah-təala həmin şəxsə üç böyük nemət bəxş edər? Soruşduq: Bu hansı ayədədir? O, bizim üçün "Bəqərə" surəsinin 155-ci ayəsini oxudu:

وَلَنَبْلُوَنَّكُمْ بِشَيْءٍ مِّنَ الْخَوفْ وَالْجُوعِ وَنَقْصٍ مِّنَ الأَمَوَالِ وَالأنفُسِ وَالثَّمَرَاتِ وَبَشِّرِ الصَّابِرِينَ. الَّذِينَ إِذَا أَصَابَتْهُم مُّصِيبَةٌ قَالُواْ إِنَّا لِلّهِ وَإِنَّا إِلَيْهِ رَاجِعونَ. أُولَئِكَ عَلَيْهِمْ صَلَوَاتٌ مِّن رَّبِّهِمْ وَرَحْمَةٌ وَأُولَئِكَ هُمُ الْمُهْتَدُونَ

-Sizi mütləq bir az qorxu və aclıqla, eləcə də mal, can və (ağac) məhsulların(ın, yaxud arvad-uşaq kimi həyat səmərələrinin) azlığı ilə imtahan edəcəyik. Səbir edənlərə müjdə ver. O kəslərə ki, onlara hər hansı bir müsibət gəldikdə "həqiqətən, biz Allahınıq və həqiqətən Ona tərəf qayıdacağıq" - deyərlər. Onlar Rəbbləri tərəfindən salam və rəhmət yetişən kəslərdir və hidayət olunmuşlar onlardır!

Bu ayədə bəyan olunur ki, müsibətlərin qarşısında səbir edənlərə Allahın salamı, rəhməti və hidayəti vardır. Lakin hər bir insan bunu dərk edə bilmir. Bunu başa düşmək üçün insan Allahın rəhməti, salamı və hidayətinin nə olduğunu bilməlidir. Əgər insan Allahın salamının nə olduğunu anlaya bilsə, dünyada başına gələn bütün müsibətlər onun üçün çox asan olar.

Əyyub Peyğəmbər(ə) öz səbri ilə tanınmış peyğəmbərlərdən idi. Yetmiş yaşında Allah-təala onu

sınağa çəkərək canına xəstəlik saldı. Çox ağır bir xəstəliyə düçar olmasına baxmayaraq, səbir edib Allaha şükrünü daha da artırdı. Həyat yoldaşı ona dedi: “Ey Allahın peyğəmbəri, bir çox xəstələr sənin yanına gələrək onlar üçün Allaha dua etmələrini xahiş edirlər. Sən də Allahdan onlar üçün şəfa diləyirsən və şəfa tapırlar. Duaların qəbul olunduğu halda bəs nə üçün Allahdan özünə də şəfa diləmirsən? Əyyub Peyğəmbər(ə) buyurdu: Biz yetmiş il naz-nemət içində yaşamışıq. Bu müddət ərzində həmişə sağlam olmuşam. İndi Allahın məsləhəti mənim xəstələnməyimdədir. Buna görə də gərək bu xəstəliyə dözüb səbir edəm, ondan sonra bir şey fikirləşərik.”

2. Allaha itaət qarşısında səbir etmək

Səbrin ikinci qismi Allaha itaət qarşısında olan səbirdir. Yəni insan Allaha itaət etmək üçün səbir etməlidir. Namaz qılmaq, oruc tutmaq, Allah yolunda mübarizə aparmaq, döyüşmək və s. kimi itaətlər səbir tələb edir. Əgər səbir olmasa, insan işlərini görə bilməz.

قَالَ رَسُولُ اللهِ(ص): يَا أَبَا ذَرٍّ إِنَّ رَبَّكَ عَزَّ وَ جَلَّ يُبَاهِيْ الْمَلَائِكَةُ بِثَلَاثَةِ نَفَرَ:... وَ رَجُلٌ فِيْ زَحفٍ فَرَّ أَصْحَابُهُ وَ ثَبَتَ هُوَ يُقَاتِلُ حَتَّىَ يُقْتَلَ

-Həzrət Peyğəmbər(s) Abuzərə nəsihət edərkən buyurdu: “Ey Abuzər, Allah- təala üç nəfərə görə mələklərin içində fəxr edir: ...Onlardan biri də o kəsdir ki, (Allah yolunda) döyüş meydanında bütün dostlarının

qaçdığını görür, amma o, döyüşdən əl çəkmir. Ölənə qədər döyüşür və axırda şəhid olur.”[1]

Odur ki, Allaha itaət etməkdə də insana səbir lazımdır. Şəhidlik məqamı insan üçün uca məqamlardan biridir. Əgər insanın səbri olmasa, mənəviyyat aləmində uca məqamları əldə etmək mümkün olmaz. Allaha itaət çətin də olsa, yaxud asan da olsa səbir etmək lazımdır. Məsələn, həcc ziyarətinə gedən möminlərə bir sıra əməllər vacib olur. Həmin əməllərdən biri də Ərəfatda qalmaqdır. Bəziləri orada oruc da tuturlar. Ərəfə çölündə qalmaq elə vacib əməllərdəndir ki, onun alternativ əməli yoxdur. Yəni bu əməl mütləq icra olunmalıdır. Hər kəs günorta azanından şam azanına qədər Ərəfatda qalmasa, həcci batildir. Lakin əgər bir insan Minada gecələyə bilməsə, iki iş görməlidir. Əlbəttə ki, Minada qalmaq da vacib əməllərdəndir. Lakin hər kəs orada gecələməsə iki iş görməlidir. Ya kəffarə olaraq bir qoyun kəsməli, ya da gecəni səhərə qədər Məscidül-həramda yalnız ibadətlə məşğul olmalıdır. Amma Minada gecənin yarısına qədər yatmaq səhərə qədər Məcsidül-həramda ibadət etməkdən üstün sayılır. Yay vaxtı Minada gecələmək elə də asan iş deyil. Elə vaxtlar olur ki, orada 50-52 dərəcə isti olur. İnsan başını hara qoyub yatmaq istəyirsə, tərləməkdən həmin yer yaş olur. Bəziləri bu hala dözə bilməyib Məscidül-həramda ibadətlə məşğul olmaq istəyirlər. Elə başa düşürlər ki, səhərə qədər orada ibadət etsələr, bu, Minada qalmaqdan daha yaxşı olacaq. Sonra neçə gün yorğun olduğunu düşünür və bilir ki, Məscidül-harama getsə, səhərə qədər ibadət edə bilməyəcək. Bunlara dözə

---

[1]Biharül-ənvar, 77-ci cild, səh.83.

bilmədikdə isə çarəsi kəffarə olaraq bir qurban kəsməyə qalır.

Beləcə, görürük ki, Allaha itaət etmək üçün insana səbir, dözüm və müqavimət lazımdır. İnsan yorğun da olsa, xəstə də olsa, hava isti və yaxud soyuq da olsa, habelə çətin də olsa Allaha itaət etmək üçün səbirli olmalıdır. Bir sözlə desək, hər bir şəraitdə Allaha itaət etmək üçün insana səbir lazımdır.

### 3. Günahlar qarşısında səbir etmək

Səbir etməyin üçüncü qismi insanın günahlardan çəkinməsidir. Yəni qarşıya çıxan günahlardan çəkinmək üçün insana mütləq səbir lazımdır. Əgər insan nəfsani istəklərinin və önünə çıxan günahların qarşısında səbir edib çəkinə bilsə, böyük cihad etmişdir.

Həzrət Peyğəmbər(s) bir dəstə döyüşçünü müharibəyə göndərdi. Qoşun qələbə çaldıqdan sonra geri qayıtdı. Onların gəlişini Peyğəmbərə(s) xəbər verdilər. Peyğəmbər(s) onları qarşılamağa çıxdı. İsti havada qılınclarından qan daman, bəzisi yaralı, bəzisi yorğun və tər-qan içərisində olan mücahidlər şəhərə qayıdanda elə şəhərin girəcəyində Peyğəmbəri(s) görüb sevindilər. Həzrət(s) onlarla görüşdükdən sonra buyurdu: “Mərhəba olsun kiçik cihadı qələbə ilə başa vuranlara. Ümid edirəm ki, yaxın gələcəkdə bir qrup insan böyük cihadı da qələbə ilə başa vuracaqlar.” Onlar Peyğəmbərin(s) bu sözündən təəccüblənib soruşdular: “Ya Rəsulallah, böyük cihad nədir? Həzrət(s) buyurdu: “Nəfslə mübarizə.”

Əgər insan haram və günahlarla qarşılaşdıqda səbir edib onlardan Allaha xatir vaz keçə bilsə, bu, böyük cihaddır. Naməhrəmlə üz-üzə gəldikdə ona baxmadan

ötüb keçsə, bu, həmin şəxs üçün böyük cihaddır. Əgər insan aşkarda və gizlində günahla üzləşərkən Allaha xatir səbir edib həmin günahlardan çəkinərsə, Allah-təala belə bir şəxsin üzünə rəhmət qapılarını açar, arzu və istəklərini verər və dualarını qəbul edər.

Günlərin birində Həzrət Peyğəmbər(s) bir ağacın altında əyləşmişdi. Hava çox isti və yandırıcı idi. Peyğəmbər(s) ətrafa göz gəzdirdikdə gördü ki, bir nəfər qızmar günün altında paltarlarını çıxarıb çılpaq bədənini daşlara sürtür. Sinəsini daşlara sürtərək öz-özünə belə deyirdi: "Dad bu dünyanın əzabını. Bil ki, cəhənnəmin əzabı bundan daha şiddətlidir." Peyğəmbər(s) onu yanına çağırıb soruşdu: "Sən nə edirsən belə? Həmin şəxs dedi: Ya Rəsulallah, nəfsim məni aldatmışdı. (Bir günaha düşmüşdüm. Bu hərəkəti etməklə özümü cəzalandırmaq istəyirəm.) Özümü cəzalandırmaq üçün bundan başqa bir çarə tapa bilmədim.

Peyğəmbər(s) buyurdu: Göyün rəhmət qapıları sənin üzünə açıldı. Allah-təala mələklərin arasında səninlə fəxr edir. Sonra üzünü səhabələrə tutub buyurdu: Gedin qardaşınızdan azuqə toplayın. (Nəfsinizlə mübarizə etməyi öyrənin)." Səhabələr onun yanına gəlib dedilər: "Bizə dua et." Həmin şəxs Allaha belə dua etdi: "İlahi, bizim hamımızı hidayət et. Təqvanı bizim axirət azuqəmiz qərar ver. Aqibətimizi cənnətlə tamamla." Hamı onun bu dualarına amin dedi.[1]

Mərhum Ayətullah Şəhid Mədəni Təbriz şəhərinin dini xadimi idi. O, çox əzəmətli, elmli və təqvalı bir şəxsiyyət idi. Şəxsən mən özüm on beş gün onun evində

[1] Mizanül-hikmə, 5-ci cild, səh. 2126. Hədis-7439.

qonaq qalmışam. O, tələbəlik çağlarında bir müddət Ayətullah Meşkini ilə qalmışdı. Yəni tələbəlik çağlarında hər ikisi bir mənzildə elmlə məşğul olmuşlar. Ayətullah Meşkini deyir: “Hər ikimiz tələbələrə dərs deməklə məşğul idik. Sübh tezdən çıxıb günorta qayıdardıq. Günortaya qədər beş-altı dərs dedikdən sonra ağzımız qupquru quruyurdu. Mənim dərs proqramım belə idi ki, ondan yarım saat tez evə gəlirdim. O, həm yaşca məndən bir neçə il böyük idi, həm də peyğəmbər övladı (seyid) idi. Onun evə yorğun gələcəyini bildiyim üçün çay dəmləyib hazırlayırdım ki, o da gələndə bir yerdə içək. Günlərin birində mən təzə çay dəmləmişdim. Ayətullah Mədəni də gəlib çıxdı. Əyləşən kimi onun üçün bir fincan çay süzdüm. O qədər susamışdı ki, tələsik fincanı götürüb dodaqlarına yaxınlaşdırdı. Çay çox qaynar olduğundan onun dodağını yandırdı. Tez fincanı yerə qoyub hönkürtü ilə ağlamağa başladı. Gözünün yaşı yerə tökülürdü. Öz-özünə deyirdi: “Əstəğfirullahə Rəbbi və ətubu ileyh. Əuzu billahi minəş-şeytanir rəcim.” Ondan soruşdum: “Sənə nə oldu belə? Dedi: Çox susuz idim. Fincanı tələsik götürüb içmək istədim, amma dodaqlarım yandı. Bunu gördükdə cəhənnəm odunu xatırladım. Məni ağladan cəhənnəm atəşinin qorxusudur.”

Ayətullah Mədəni elə bir şəxsiyyət idi ki, imanın nə olduğunu dərk etmişdi. Onun bu məqama çatması onun səbirli olması idi. O qədər diqqətli insan idi ki, hər incə bir məsələyə də çox diqqətlə yanaşırdı. Özündə kiçik bir xəta görsəydi, dərhal başa düşüb ondan çəkinərdi. Odur ki, insanın mənəviyyat aləmində ucalması və yüksək məqamlara çatması üçün səbir lazımdır. İnsan hər qarşısına çıxan haramı görüb səbirdən çıxsa, naməhrəmlə

üzləşdikdə səbirsizlik göstərib özünü günaha batırsa, müxtəlif hadisələrdə dözümsüz olsa, imanda yüksələ bilməyəcək. Günahlar qarşısında səbirsizlik edib onlardan çəkinməyən insan qəlbinə dərindən baxsa görər ki, orada olan iman onu cəhənnəm odundan qurtara bilməz. Deməli, insanın imanı onun səbrindən asılıdır. Allah-təala "Ali-İmran" surəsinin 200-cü ayəsində belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اصْبِرُواْ وَصَابِرُواْ وَرَابِطُواْ

-Ey iman gətirənlər! Səbir edin, dözün və əlaqə yaradın.

İmam Sadiq(ə) bu ayənin şərhində belə buyurur:

اصْبِرُواْ على الفَرَائِض وَصَابِرُواْ عَلى الْمَصائِب وَرَابِطُواْ عَلَى الأَئِمَّة

-Vacib əməlləri yerinə yetirməkdə səbirli olun. Müsibət və çətinliklərin müqabilində dözün. Və məsum imamlarla əlaqə yaradın.[1]

---

[1] Üsuli-kafi, 3-cü cild, səh. 127.

**20. Bərəkət ayı**

Hədis və rəvayətlərə əsasən mübarək ramazan ayının adlarından biri "bərəkət ayı"dır. Əziz İslam Peyğəmbəri(s) möminlərə bu ay barəsində danışarkən belə buyurmuşdur:

قَالَ رَسُولُ اللهِ(ص): اَتَاكُم رَمَضان شَهرُ بَرَكَةٍ. وَ هُوَ شَهرُ البَرَكَة

-Bərəkət ayı olan ramazan sizə üz gətirib. (Ramazan ayı) bərəkət ayıdır.[1]

**21. Bərəkətli ay**

Mübarək ramazan ayının adlarından biri bərəkət ayı olmaqla yanaşı, həm də bərəkətli aydır. Yəni bu ayın özü həm bərəkətdir, həm də bərəkətlidir.

قَالَ رَسُولُ اللهِ(ص): جَائَكُم رَمَضان جَائَكُم شَهرٌ مُبارَكٌ

-Həzrət Peyğəmbər(s) buyurur: "Sizin üçün ramazan ayı - bərəkətli bir ay gəlmişdir."[2]

Bərəkət və mübarək sözləri eyni kökdən götürülmüşdür. Bu sözün mənası isə hər bir işin davamlı, həmişəyaşar və əbədi olmasıdır. Məsələn, bəzi işlərə diqqət yetirdikdə həmin işlər böyük hay-küy və səs-səda ilə başlanmasına baxmayaraq, bərəkəti olmadığı üçün az bir zaman müddətindən sonra yaddaşlardan tamam silinir. Amma bəzi işlər isə başlandığı gündən bərəkətli olduğu üçün davamlı və əbədi olaraq qalır. Məsələn, dünyada müxtəlif kitablara rast gələ bilirik. Bəzi kitablar vardır ki, müəllif dünyadan getdikdən sonra yazdığı kitab

---

[1] Allahın ayı, 1-ci cild, hədis -223,225.
[2] Yenə orada, 1-ci cild, hədis -59.

da onunla birgə aradan gedir. Çünki yazdığı kitabları özü təbliğ edir və tanıtdırırdı. Yəni bu kitabda onu saxlaya və təbliğ edə biləcək bir mətləbə rast gəlinmədiyi üçün onunla maraqlanan da olmurdu. Kitab müəllifi olması üçün boş-boş sözlər, nağıllar və lazımsız şeirlər yazıb çap etdirirdi. Onunla eyni səviyyədə olan bəzi adamlar da onu təbrik edirdilər. Bəzi kitablar da vardır ki, elmi baxımdan üzərində zəhmət çəkilməsinə, gözəl mətləblərə toxunmasına və lazımi mövzulara toxunul-masına baxmayaraq, tarixdə unudulub yaddaşlardan silinir. Bu onu göstərir ki, həmin kitabın bərəkəti yoxdur. Lakin bəzi elmi kitablara diqqət yetirdikdə görürük ki, uzun illər bundan öncə yazılmasına baxmayaraq, hələ də yaşayır və oxucuların əlindən düşmür. Buradan məlum olur ki, bu kitabın bərəkəti vardır. Deməli, bu kitabı yaşadan bir cəhət və xüsusiyyət vardır. Təfsir, fiqh və s. kitablar da eynilə belədir. Burada söhbət təkcə kitablardan getmir. Bütün sahələrə diqqət yetirdikdə bunun şahidi ola bilirik. Mal-dövlət də eynilə belədir ki, çox olmasına baxmayaraq bəzən bərəkətsiz olur və yaxud az olmasına baxmayaraq çox bərəkətli ola bilir. Məsələn, elə adam vardır ki, çoxlu mal-dövləti, ev-eşiyi və yaxşı şəraiti vardır. Allah-təala da onun mal-dövlətinə bərəkət vermişdir. Lakin bəzi adamlar da vardır ki, mal-dövləti ondan qat-qat çox olmasına baxmayaraq, heç bir bərəkəti yoxdur. Quran ayələrinə diqqət yetirdikdə bu barədə olan mətləblərə çox rast gəlirik. Məsələn, mal-dövlət baxımından Allah-təala Qarunu misal çəkir. Qarun Musanın(ə) xalası, yaxud əmisi oğlu idi. O, Musa Peyğəmbərə(ə) iman gətirmişdi. Əvvəllər yaxşı bir insan

idi, lakin sonradan yoldan çıxdı və əzaba düçar oldu. “Qəsəs” surəsinin 76-77-ci ayələrində oxuyuruq:

إِنَّ قَارُونَ كَانَ مِن قَوْمِ مُوسَى فَبَغَى عَلَيْهِمْ وَآتَيْنَاهُ مِنَ الْكُنُوزِ مَا إِنَّ مَفَاتِحَهُ لَتَنُوءُ بِالْعُصْبَةِ أُولِي الْقُوَّةِ إِذْ قَالَ لَهُ قَوْمُهُ لَا تَفْرَحْ إِنَّ اللَّهَ لَا يُحِبُّ الْفَرِحِينَ. وَابْتَغِ فِيمَا آتَاكَ اللَّهُ الدَّارَ الْآخِرَةَ

-Həqiqətən, Qarun Musanın qövmündən idi. (O) onlara qarşı həddini aşdı və zülm etdi. Ona o qədər xəzinələr vermişdik ki, onların açarları güclü bir dəstəyə ağırlıq edirdi. (Yada sal,) o zamanı ki, qövmü ona dedi: “(Malına qürrələnib) sevinmə. Çünki Allah (malına qürrələnib) sevinənləri sevməz.” “Və Allahın sənə vermiş olduğundan axirət evini qazan, dünyadakı (ömür və maldan olan) nəsibini də unutma.”

Odur ki, insan heç bir vaxt unutmamalıdır ki, Allahın ona nəsib etdiyi mal-dövlətlə axirətini qazana bilsə, bu mal-dövlət onun üçün bərəkətli olacaq. Əgər insan əlində olan mal-dövləti ilə izzət, xoşbəxtlik və axirət qazana bilmirsə, onun mal- dövlətinin çay daşları, yaxud dəniz qumları ilə heç bir fərqi yoxdur. Mal-dövlət yığmaqla insan axirət qazanmır. İnsan malını Allah yolunda xərcləməklə axirəti əldə edə bilir. İnsanın əlində nə qədər çox mal-dövlət olmasına baxmayaraq, bu dünyada bir adam qədər yeyir, bir adam qədər yatır, bir adam qədər geyir, bir adam qədər daldalanır. Fərz edək ki, belə bir insan üç adamın yediyi qədər yeyir, yaxud beş adamın geydiyi qədər geyinir. Bəs qalan malını neyləyəcək? Əgər bu mal-dövlət qalıb heç bir dərdə dəyməyəcəksə, onun nə faydası var? Bu ona bənzəyir ki, bir insan deyir: “Göydəki bütün quşlar mənimdir.” Bu

sözü deməyin insana nə faydası var? Mal-dövlət insanın dərdinə o vaxt dəyər ki, onun həm maddi, həm də mənəvi faydası olmuş olsun. Əgər mal-dövlətin insana mənəvi faydası olmayacaqsa, maddi faydasından sadəcə bir insanın faydalanacağı qədər bəhrələnə biləcək. Ondan qalanı başqaları üçün qazanılmış olur. Buna görə də insan bütün fürsətlərdən istifadə edib axirətini qazanmalıdır.

Günlərin birində Həzrət Peyğəmbər(s) səhabələri ilə səfərə çıxmışdı. Uzun müddət yol getdiklərinə görə bərk acmış və yorulmuşdular. Bir qəsəbəyə yetişdikdə Həzrət(s) göstəriş verdi ki, gedib bir qoyun alsınlar və bişirib bir yerdə yesinlər. Səhabələrdən bir neçəsi gedib bir qoyun aldılar. Qoyunu kəsib dərisini soyduqdan sonra Həzrət(s) buyurdu: "Bunun başını və ayaqlarını aparıb filan evdə yaşayan kasıblara verin. Ciyərini filan yerdəki fəqirlərə, dərisini filankəsə, bir budunu filan evdə yaşayana, digər budunu isə filan fəqirlərə verin." Beləcə, qoyunun bütün hissələrini payladılar. Yalnız qoyunun bir budu qaldı. Peyğəmbər(s) buyurdu: "İndi isə bu budu doğrayın və bişirin yeyək." Qalmış budu doğrayıb bişirdilər. Səhabələrdən biri dedi: "Ya Rəsulallah, qoyunun hamısı getdi, bizə qalan yalnız bircə bud oldu. Peyğəmbər(s) buyurdu: Xeyr, bizə qalan payladıqlarımız oldu. Bizdən gedən isə yediyimiz bud."

Elm də eynilə belədir ki, əgər insan kəsb etdiyi elmin vasitəsilə axirətini qazanmış olsa, həmin elm ona fayda verəcək. Yəni elmin bərəkətli olması bundadır ki, insana faydası olsun. Əks-təqdirdə bu elmin bərəkət və faydası olmayacaqdır.

Vəlid ibn Müğeyrə Məkkədə tanınmış fəsahətli və bəlağətli bir şəxs idi. O, Qüreyş tayfasının içində ərəb ədəbiyyatını çox gözəl bilən bir şəxs idi. Camaat onu "Reyhanətül-ədəb" - "Ədəbiyyatın gülü" deyə çağırırdılar. Vəlid ibn Müğeyrə elə bir insan idi ki, onun qələmindən və dilindən yeni-yeni ədəbi nümunələr yaranırdı. Onun elmlə yanaşı, çoxlu mal-dövləti, mülkləri və övladları var idi.

Günlərin birində Məscidül-həramda "Səcdə" surəsi nazil olarkən Həzrət Peyğəmbər(s) həmin surəni camaata oxudu. Vəlid ədəbiyyatşünas olduğundan bu surəni eşitdikdə ondan çox böyük zövq aldı. Darün-nədvəyə - öz qövmünün yanına gəlib dedi:

وَاللّهِ لَقَدْ سَمِعْتُ مِنْ مُحَمَّدٍ كَلامًا ما هُوَ مِنْ كَلامِ الْإِنْسِ، وَلا مِنْ كَلامِ الْجِنِّ! وَإِنَّ لَه لَحَلاوَةً، وَإِنَّ عَلَيْهِ لَطَلاوَةً، وَإِنَّ أَعْلاهُ لَمُثْمِرٌ، وَإِنَّ أَسْفَلَه لَمُغْدِقٌ، وَإِنَّه لَيَعْلو وَما يُعْلى

-And olsun Allaha ki, Məhəmməddən(s) eşitdiyim sözlər nə insanların, nə də cinlərin sözünə oxşamır. İndiyə qədər belə sözlər eşitməmişdim. Onun sözlərinin xüsusi şirinliyi və ürəyəyatan gözəlliyi vardır. Onun sözlərinin meyvəli budaqları və möhkəm kökləri var. Onun sözləri bütün insanların sözlərindən üstün və dəyərlidir. O sözlər bütün sözlərdən üstündür. Heç bir söz bu sözlərdən üstün ola bilməz.

Vəlid bu sözləri deyəndən sonra öz evinə qayıtdı. Onun tayfasındakı adamlar bir-birinin üzünə baxıb dedilər: "Deyəsən, Məhəmmədin sözləri Vəlidin qəlbinə təsir göstərib. Əgər Vəlid ona tabe olarsa, biz məğlub olacağıq." Əbu Cəhl Vəlidin qardaşı oğlu idi. Onun əsl

adı Əmr ibn Hüşam ibn Müğeyrə idi. O da böyük alim və hikmətli bir insan idi. Camaat arasında kiçik adam deyildi. Hikmətli insan olduğu üçün ona "Əbul-hikəm - Hikmətlər atası" ləqəbi vermişdilər. Lakin o qədər cahillik və nadanlıq göstərdi ki, ona "Əbu Cəhl - Nadanlıq atası" ləqəbini verdilər. Allahın dini ilə müxalifətçilik etdiyinə görə onun elm və hikmətindən heç bir bərəkət və əsər qalmayıb. O, Vəlidi yola gətirməyi boynuna götürdü və dedi: "Mən buna bir əlac edərəm." O, bu sözləri deyib Vəlidin evinə gəldi və özünü ona çox narahat göstərdi. Vəlid onun nə üçün belə narahat olduğunu soruşduqda Əbu Cəhl dedi: "Mənim narahatlığım budur ki, camaat sənin barəndə bəzi sözlər danışır. Biz də camaatın sənin barəndə dediyi sözlərdən çox narahat oluruq." Vəlid soruşdu: "Camaat mənim barəmdə hansı sözləri danışır?" Əbu Cəhl dedi: "Camaat arasında belə bir söz gəzir ki, Vəlid qoca bir adamdır və Abdullahın oğlu ona bir vəzifə, şan-şöhrət versin deyə İslamı qəbul etmək istəyir." Əbu Cəhl bu kimi sözlərlə Vəlidə təsir göstərmək istəyirdi. O, bu sözləri deyib çıxdıqdan sonra Vəlidin daxilindəki nəfsani qüvvələr baş qaldırıb tüğyan etdi. Onda belə bir hal yarandıqda öz fikrindən dönərək gəlib qəzəblə dedi: "Siz Məhəmmədin dəli olduğunu güman edirsiniz?! Dedilər: Xeyr. Vəlid dedi: Siz güman edirsiniz ki, Məhəmməd kahindir?! Dedilər: Xeyr. Vəlid dedi: Siz Məhəmmədin şair olduğunu güman edirsiniz?! Dedilər: Xeyr. Vəlid dedi: Siz elə bilirsiniz ki, Məhəmməd yalançıdır?! Dedilər: Xeyr. Əgər belədirsə, onda sən özün onun barəsində nə fikirləşirsən? Vəlid bir az fikirləşdikdən sonra üzünü turşudaraq qəzəblə dedi: Mənə belə gəlir ki, Məhəmməd

yalnız bir cadugərdir. Çünki o, bütün ailələr arasında ayrılıq salıb.”

Bu hadisədən sonra Allah-təala onun barəsində “Müddəssir” surəsinin 11-26-cı ayələrini nazil etdi.

ذَرْنِي وَمَنْ خَلَقْتُ وَحِيدًا. وَجَعَلْتُ لَهُ مَالًا مَّمْدُودًا. وَبَنِينَ شُهُودًا. وَمَهَّدتُّ لَهُ تَمْهِيدًا. ثُمَّ يَطْمَعُ أَنْ أَزِيدَ. كَلَّا إِنَّهُ كَانَ لِآيَاتِنَا عَنِيدًا. سَأُرْهِقُهُ صَعُودًا. إِنَّهُ فَكَّرَ وَقَدَّرَ. فَقُتِلَ كَيْفَ قَدَّرَ. ثُمَّ قُتِلَ كَيْفَ قَدَّرَ. ثُمَّ نَظَرَ. ثُمَّ عَبَسَ وَبَسَرَ. ثُمَّ أَدْبَرَ وَاسْتَكْبَرَ. فَقَالَ إِنْ هَذَا إِلَّا سِحْرٌ يُؤْثَرُ. إِنْ هَذَا إِلَّا قَوْلُ الْبَشَرِ. سَأُصْلِيهِ سَقَرَ.

-(Ya Peyğəmbər!) Məni Öz yaratdığım kimsə ilə tək burax! (Vəlid ibn Müğeyrə kimi kafirin cəzası yalnız Mənim öhdəmdədir!). Mən ona bolluca mal-dövlət əta etdim; Yanında hazır duran oğullar (verdim); Ona hər şeyi artıqlaması ilə müyəssər etdim (sərvət və mənsəbi ayağının altına döşədim). (Bütün bunlardan) sonra yenə də (var-dövlətini) artırmağımı istəyir. Xeyr (bu ola bilməz). Çünki o, ayələrimizə qarşı inadkar oldu. Mən onu məşəqqətli bir əzaba düçar edəcəyəm! O (Quran barəsində) fikirləşdi və (orada deyilənləri öz fikrində) ölçdü-biçdi. Ölüm olsun ona! Necə ölçdü-biçdi? Bir də ölüm olsun! Necə ölçdü-biçdi? Sonra (qövmünün üzünə) baxdı. Sonra üz-gözünü turşutdu, qaş-qabağını tökdü. Sonra da (imandan) üz çevirdi. (Peyğəmbərə tabe olmağa) təkəbbür göstərdi. Və dedi: Bu (sehrbazlardan) öyrənilən sehrdən başqa bir şey deyildir! Bu yalnız bəşər sözüdür! Biz onu Səqərə atacağıq (orada yandıracağıq).

Mal-dövlət, elm və digər şeylərin çoxluğundan asılı olmayaraq insanı məqsədə çatdıra bilmirsə, onların nə faydası var? Bu onu göstərir ki, çoxluğundan asılı olmayaraq, bir şeyin bərəkəti olmasa insanı məqsədə çatdıra bilməyəcək. Yaxud belə deyək ki, əgər insan elm və mal-dövlətin çoxluğundan asılı olmayaraq onunla iman və axirət əldə edə bilməsə, onların heç bir bərəkəti yoxdur.

## Mübarək adlanan mövcudat, yerlər və şəxslər

Quran ayələrinə və hədislərə diqqət yetirdikdə dəfələrlə mübarək və bərəkət kəlməsinə rast gələ bilirik. Allah-təala müəyyən mövcudat və məkanları, hətta bəzi zamanları mübarək adlandırmışdır. Nümunə üçün bəzi ayələrə diqqət yetirək.

### Quran

Quranın öz ayələrində bu müqəddəs kitabın bərəkətli olduğunun şahidi oluruq. “Ənam” surəsinin 92-ci ayəsində oxuyuruq:

وَهَـٰذَا كِتَابٌ أَنزَلْنَاهُ مُبَارَكٌ

-Bu, Bizim nazil etdiyimiz mübarək bir kitabdır.

Allah-təala bu ayədə Qurani-Kərimə işarə edərək onu mübarək adlandırır. İnsanlar bu kitab vasitəsilə Allaha yaxın olur, haqq-həqiqəti tapır və cənnəti əldə edə bilirlər. İnsanlar bu kitab vasitəsilə hidayət olur və hidayət olan insanlar bu kitabdan hər cür istifadə edərək bəhrə apara bilirlər. Yəni insan bu kitab vasitəsilə həm hidayət ola bilir, həm cənnət qazana bilir, həm də Allaha mərifəti artır və s. kimi istifadə edə bilir. Lakin Qurandan bütün bu bəhrələri yalnız ona iman gətirən və hidayət

olan insanlar apara bilir. “İsra” surəsinin 82-ci ayəsində buyurulur:

وَنُنَزِّلُ مِنَ الْقُرْآنِ مَا هُوَ شِفَاءٌ وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ وَلاَ يَزِيدُ الظَّالِمِينَ إَلاَّ خَسَارًا

-Biz, Qurandan möminlər üçün şəfa və rəhmət olan şeyi nazil edirik və o, zalımlara ziyandan başqa bir şey artırmır.

Bu ayədə açıq-aydın şəkildə görürük ki, Quran yalnız ona iman gətirən insanlar üçün faydalıdır. Zalımlara və iman gətirməyənlərə isə ziyandan savayı başqa bir şey vermir. Bir sözlə desək, Quran möminlər üçün mübarək, zalımlar üçün ziyan və namübarəkdir. Hər kəs Allahı və Quranı nə qədər çox dərk etsə, Qurandan bir o qədər çox bəhrələnə bilər. Məsələn, Qurandan ən sadə istifadə istixarə məsələsidir ki, bir çox möminlər iki işin ortasında çaşqın vəziyyətdə qalarkən istixarə etməklə öz məsələlərinin həlli yolunu tapırlar. Yəni insan bir məsələdə çaşqın vəziyyətə düşərkən öz ağlı ilə, yaxud ağsaqqalların məsləhəti ilə vəziyyətdən çıxış yolunu tapa bilmədikdə ona istixarə etməyə icazə verilir. İstixarə - insanın Allahdan bu kitab vasitəsilə xeyir diləyib düşdüyü vəziyyətdən çıxış yolunu tapması deməkdir. Lakin Quranla istixarə edənlərin hamısı eyni dərəcədə olmurlar. Bəziləri sadəcə ayənin məzmununa uyğun məsləhət alırlar. Bəziləri istixarə edərək yalnız “hə”, yaxud “xeyr” deyə bilirlər. Bəzi insanlar da vardır ki, Quranı açaraq istixarə edib məsləhət alan insanın görəcəyi bütün işi ona söyləyir və nəticəsini də bildirirlər. Deməli, hər kəsin nuraniyyəti, elm və mərifəti çoxdursa, istixarə etməsi də daha dəqiqdir. Həyatda belə

insanlara çox rast gəlmək olur. İstixarə etməklə məsləhət alanın ürəyindən keçən bütün halları danışır və Quranın məsləhətini də söyləyir.

Qum şəhərində yaşayan alimlərdən biri mərhum Ayətullah Möhsini Məlayiri haqda belə deyir: “Günlərin birində Ayətullah Möhsini bizə gəlmişdi. Elə bu ərəfələrdə bir nəfər istixarə etmək üçün mənim yanıma gəldi. Mən hörmət əlaməti olaraq Ayətullah Möhsinini göstərib dedim. O ağadan xahiş edərik, sənin üçün istixarə etsin. Ayətullah Möhsini Quranı götürüb açdı və azacıq baxdıqdan sonra bağlayıb dedi: Sən öz oğlun üçün bir qıza elçi getmisən?

Dedi: Bəli.

Ayətullah Möhsini dedi: Orada elçi getdiyiniz haqda bir az da söhbət açmısınız?

Dedi: Bəli.

Ayətullah Möhsini dedi: Əgər sabah günortaya qədər bu məsələni həll etməsəniz, başqa bir elçi həmin qızı aparacaq.”

Həmin şəxs məsələnin nə yerdə olduğunu bildikdən sonra çıxıb getdi. Bu əhvalatın üstündən bir müddət keçmişdi və biz Ayətullah Möhsini ilə bir yerdə əyləşmişdik. Bir nəfər gəlib onun üçün istixarə etməsini xahiş etdi. Ayətullah Möhsini Quranı götürüb istixarə etdi. Quranı açdıqda yenə də bizim evdə açdığı istixarənin ayəsi gəldi. Sonra üzünü həmin şəxsə tutub dedi: “Bu işi görmə. Əgər bu işə baş qoşsan, dərin bir quyuya düşərsən və oradan çıxa bilməzsən.

Mən bu hadisəyə çox təəccüblənib dedim: Ağa, olarmı sizdən bir söz soruşum?

O dedi: Nə soruşacağını bilirəm. Soruşmaq istəyirsən ki, sizdə olarkən istixarədə bu ayə gəlmişdi. Orada başqa cür demişdim, amma burada başqa söz deyirəm.

Dedim: Bəli ağa, bunu soruşmaq istəyirdim. Görəsən bunun sirri nədir?

O dedi: Mən sənə bəzi sözləri deyərəm. Amma söz ver ki, mənim sağlığımda bunu heç bir kəsə danışmayacaqsan.

Mən ona söz verdikdən sonra buyurdu: Mən istixarə edərkən Quranı açdıqda mənim qulağıma nə baş verəcəyini və nə deyəcəyimi söyləyirlər. Bunun ixtiyarı mənim əlimdə deyil. İstixarə edərkən mənə nə desələr, mən də onu deyirəm."

Bu əhvalatı danışmaqda məqsədim odur ki, Quranla istixarə edənlərin hamısı eyni dərəcəli insanlar deyillər. Hər kəsin mərifət və nuraniyyəti nə qədər çox olarsa, bir o qədər də Qurandan bəhrələnə bilər. Odur ki, Allahın nazil etdiyi bu müqəddəs kitab bərəkətlidir. Bu kitabda mərifət, elm, nuraniyyət və hidayət vardır.

**Zikr**

Quranda mübarək adlanan hallardan biri Quranın ayələridir ki, onları zikr adlandıraraq mübarək sayırlar. "Ənbiya" surəsinin 50-ci ayəsində belə buyurulur:

وَهَٰذَا ذِكْرٌ مُّبَارَكٌ أَنزَلْنَاهُ

-Nazil etdiyimiz bu (Quran bəşər cəmiyyəti üçün dünya və axirət baxımından) çox bərəkətli bir zikrdir (öyüd-nəsihətdir).

Bu ayədən məlum olur ki, Quranın hər bir ayəsi bərəkətlidir. Müxtəlif ayələrin insana müxtəlif təsir və

faydaları vardır. Yəni insan Quran ayələrinin bərəkətindən hər cür istifadə edib bəhrələnə bilər. Bəzi surələr vardır ki, insan onları oxumaqla cəhənnəm odundan nicat tapır. Bəzi surələri oxumaqla insan cənnəti qazana bilir. Bəzi ayə və surələri oxuduqda insanın nuraniyyəti çoxalır və ilahi bir şəxsiyyətə çevrilir. Hətta bəzi ayə və surələr də vardır ki, onları xəstə insan üçün oxuduqda şəfa tapır. Hər bir surə özünəməxsus xüsusiyyətlərə malikdir. Məsələn, bəzi surələri vacib namazlarda oxuduqda bir təsiri, bəzi surələri müstəhəb namazlarda oxuduqda başqa bir təsiri vardır. Odur ki, Quranın ayələri insan üçün zikrdir və hər bir zikrin özünəməxsus xüsusiyyəti vardır.

**Kəbə**

Quranda mübarək adlanan yerlərdən biri Kəbə evidir. "Ali-İmran" surəsinin 96-cı ayəsində belə buyurulur:

إِنَّ أَوَّلَ بَيْتٍ وُضِعَ لِلنَّاسِ لَلَّذِي بِبَكَّةَ مُبَارَكًا وَهُدًى لِّلْعَالَمِينَ

-Şübhəsiz, insanlar(ın ibadəti) üçün (təməli) qoyulmuş ilk ev həmin Bəkkədəkidir (müqəddəs Məkkə şəhərindəkidir) ki, (o,) xeyir və bərəkət dolu və aləmdəkilər üçün hidayət vasitəsidir.

**Qüds məscidi**

Quranın mübarək adlandırdığı yerlərdən biri də Qüds məscididir ki, Yerusəlimdə yerləşir. Allah-təala həm o məscidin özünü, həm də ətrafını mübarək adlandırmışdır. Allah-təala orada həm maddi, həm də mənəvi bərəkətlər qərar vermişdir. "İsra" surəsinin 1-ci ayəsində belə buyurulur:

سُبْحَانَ الَّذِي أَسْرَى بِعَبْدِهِ لَيْلاً مِّنَ الْمَسْجِدِ الْحَرَامِ إِلَى الْمَسْجِدِ الأَقْصَى الَّذِي بَارَكْنَا حَوْلَهُ

-Öz bəndəsini (Məhəmmədi–səlləllahu əleyhi və alihi və səlləm) Özümüzün bəzi nişanələrimizi ona göstərmək üçün bir gecə Məscidül-həramdan ətrafını mübarək (bərəkətli) etdiyimiz Məscidül-Əqsaya aparan Allah (hər bir eyibdən) pak və nöqsansızdır.

**Kamil insan (peyğəmbərlər)**

Quranda mübarək adlanan şəxsiyyətlər peyğəmbərlərdir. Allah-təala peyğəmbərlərin vücudunu bərəkətli qərar vermişdir. "Məryəm" surəsinin 31-ci ayəsində Həzrət İsanın(ə) dili ilə belə oxuyuruq:

قَالَ إِنِّي عَبْدُ اللَّهِ آتَانِيَ الْكِتَابَ وَجَعَلَنِي نَبِيًّا. وَجَعَلَنِي مُبَارَكًا أَيْنَ مَا كُنتُ...

-(Həmin körpə dilə gəlib) dedi: Həqiqətən, mən Allahın bəndəsiyəm. O, mənə kitab (İncil) verib və məni (bu yaşda) peyğəmbər edib. Və məni harada olsam, bərəkətli bir vücud edib...

Peyğəmbərlər harada olsalar onların həm özləri, həm də onların olduqları yer mübarək və bərəkətlidir. Çünki insanlar onların vasitəsilə Allaha yaxınlaşır, mənəviyyatları artır və cənnəti qazanaraq əbədiləşirlər. Ötən bəhslərdə qeyd olundu ki, insanı əbədiyyətə yaxınlaşdıran və əbədiyyəti çox olan hər bir şey bərəkətlidir. Peyğəmbərlər də həm əbədi olduqlarına, həm də insanları əbədiyyətə yaxınlaşdırdıqlarına görə bərəkətli sayılırlar. Xüsusilə İslam Peyğəmbəri(s) həm

bütün peyğəmbərlərin ağasıdır, həm də bərəkətin açarıdır. İmam Səccad(ə) dua edərkən İslam Peyğəmbəri(s) barədə belə buyurur:

لَلّٰهُمَّ فَصَلِّ عَلَى مُحَمَّدٍ أَمِينِكَ عَلَى وَحْيِكَ، وَ نَجِيبِكَ مِنْ خَلْقِكَ، وَ صَفِيِّكَ مِنْ عِبَادِكَ ، إِمَامِ الرَّحْمَةِ، وَ قَائِدِ الْخَيْرِ، وَ مِفْتَاحِ الْبَرَكَةِ.

-Pərvərdigara! Belə isə salavat göndər o Məhəmmədə ki, sənin vəhyinin əmini, sənin bütün məxluqatından üstün, Sənin qullarının içərisində ən üstün bəndə, rəhmət rəhbəri, yaxşılıqlar sərkərdəsi və bərəkət açarıdır.[1]

Allah-təala İslam Peyğəmbərini(s) nəinki bərəkətli etmiş, hətta bütün bərəkətlərin açarı qərar vermişdir. Yəni hər bir bərəkət onun əlindədir. Hər hansı bir bərəkətin mənbəyi bağlı olsa da belə onun açarı İslam Peyğəmbəridir(s). İnsanlar onun vasitəsilə hidayət olub doğru yola gəlirlər. Allah-təala yeri-göyü onun vücuduna görə yaratmışdır. Bütün peyğəmbərlər onun vücudunun sayəsində xəlq olunmuşlar. Hədislərdə belə nəql olunur ki, qiyamət günü elə bir insan olmayacaq ki, İslam Peyğəmbərinin(s) şəfaətinə möhtac olmasın. Yəni bütün ümmətlərin hamısı İslam Peyğəmbərinin(s) şəfaətindən bəhrə aparacaqlar.

### Çörək

Çörək haqqında bir çox hədis və rəvayətlər nəql olunmuşdur. Çörək elə bir nemətdir ki, ondan istifadə etməyən bir insan tapılmaz. Yəni çörək başqa ərzaq

---

[1] İmam Səccadın(ə) səhifəsi, 2-ci dua.

məhsullarından fərqli olaraq hamının istifadə etdiyi bir nemətdir. İslam Peyğəmbəri(s) çörəyə ehtiram göstərməyi bizə vacib buyurmuş və onun bərəkət olduğunu bəyan etmişdir. Həzrət(s) çörək barəsində belə buyurur:

أَكرِمُوا الْخُبز، فَإِنَّ اللهَ عَزَّ وَجَلّ أَنزَلَهُ مِن بَرَكَاتِ السَّماءِ وَ أَخرَجَهُ مِن بَرَكاتِ الأَرض

-Çörəyə hörmət edin. Çünki Allah-təala onu göyün bərəkətlərindən (yağışın suyundan) endirib, yerin bərəkətlərindən çıxartmışdır.[1]

Günlərin birində İmam Baqir(ə) yerə düşmüş bir parça çörək gördü. Onu götürüb nökərinə verdi və buyurdu: "Bu çörəyi saxla, mən indi gəlirəm. Qayıtdıqdan sonra nökərdən soruşdu: Sənə verdiyim çörək parasını neylədin? Nökər ərz etdi: Ey Allahın höccəti, gördüm ki, siz onu yerdən tapdınız. Buna görə də onun toz-torpağını təmizləyib yedim. İmam(ə) həmin nökəri azad etdi. Soruşdular: Onu nə üçün azad etdiniz? İmam(ə) buyurdu: O, çörəyə ehtiram göstərdiyi üçün cənnət ona vacib oldu. Cənnət vacib olunmuş insanı isə mən qul kimi saxlaya bilmərəm."[2]

**Qədr gecəsi**

Allah-təala Qədr gecəsini mübarək və bərəkətli gecə qərar vermişdir. Əlbəttə, Qədr gecəsinin nə qədər fəzilətli və bərəkətli olduğu haqda yetərincə bəhs olunub. Bu

---

[1] Rəvayətlər və hekayətlər, səh.176.
[2] Rəvayətlər və hekayətlər, səh.176.

bəhsimiz sadəcə olaraq bərəkətli mövcudat, şəxslər, məkanlar və zamanlar haqda olduğundan bunların hər biri haqda qısaca söz açırıq. Allah-təala “Duxan” surəsinin 3-cü ayəsində buyurur:

إِنّا أَنْزَلْناهُ فِى لَيلَةٍ مُبارَكَةٍ

-Biz Quranı mübarək bir gecədə (Qədr gecəsində) nazil etdik.

Bu ayədən açıq-aydın görünür ki, Allah-təala Qədr gecəsini mübarək və bərəkətli qərar vermişdir. Həmçinin mübarək olan Qurani-Kərim də bu mübarək gecədə nazil olmuşdur.

**Ramazan ayı**

Allah-təala orucluq ayını başdan-başa bərəkətli ay kimi qərar vermişdir. Ötən bəhslərimizdə bu ay barəsində lazımi qədər söz açmışıq. Bu mübarək ayın hər bir günü çox bərəkətlidir. Çünki bu ay Allah insanları bağışlayır, rəhmət qapılarını onların üzünə açır, onları hidayət edir. İnsanlar bu ay vasitəsilə cənnəti qazanıb əbədiyyətə qovuşa bilirlər.

قَالَ رَسُولُ اللهِ(ص): جَائَكُم رَمَضان جَائَكُم شَهرٌ مُبارَكٌ

-Həzrət Peyğəmbər(s) buyurur: “Sizin üçün ramazan ayı gəlmişdir. Mübarək bir ay gəlmişdir.”[1]

**22. Namaz ayı**

Yuxarıda qeyd olundu ki, mübarək ramazan ayı bərəkətli bir aydır. Həmçinin bərəkətin nə olduğu barədə

[1] Allahın ayı, 1-ci cild, hədis - 59.

və hansı şeylərin bərəkətli olduğu haqda qısaca da olsa söz açdıq. Bu bəhsimizdə yaxşı olar ki, bərəkətin hasil olmasına səbəb olan amillərdən biri barədə danışaq. Bir sıra amillər vardır ki, bəzən insanın malını, bəzən ömrünü, bəzən elmini, bəzən ağlını və bəzən də nəslini bərəkətli edər. Burada həmin amillərə deyil, sadəcə olaraq onlardan birinə toxunacağam. İnsanın malına, ömrünə, nəslinə və ağlına bərəkət verən əsas amillərdən biri namazdır. Bundan əlavə, ramazan ayının adlarından biri də "namaz ayı"dır.

قَالَ الإِمَام زَينُ العَابِدِين(ع): وَهُوَ شَهرُ الصَلاة

-İmam Səccad(ə) buyurur: "(Ramazan ayı) namaz ayıdır." [1]

Ramazan ayı orucluq ayı olduğu kimi, hədislərdə bir adı da "namaz ayı" kimi qeyd olunmuşdur. Namaz insanda bərəkət yaradan əsas amillərdəndir. Namaz qılan insana Allah-təala bir neçə xüsusiyyət bəxş edir.

قَالَ رَسُولُ اللهِ(ص): وَ لِلْمُصَلّى حُبُّ الْمَلائِكَةِ وَ هُدىً و ايمانٌ وَ نورُ الْمَعْرِفَةِ وَ بَرَكَةٌ فِى الرِّزْقِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Namaz qılan şəxsi mələklər sevir. Namaz insanın hidayət olunmasına, imanının çoxalmasına, qəlbində mərifət nurunun yaranmasına və ruzisinin bərəkətli olmasına səbəb olur."[2]

Bu hədisdən başa düşürük ki, namaz qılan insanı mələklər də sevir. Bəzən insanın taleyində mələklərin də

---

[1] Allahın ayı, 1-ci cild, səh.36.
[2] Xisal, səh. 522.

rolu vardır. Buna görə də insan üçün mələklərin sevgisini qazanmaq da mühüm məsələdir. Həmçinin namaz qılan insan hidayət olur və imanı çoxalır. Bundan əlavə, namaz insanda mərifət nurunu artırar və ruzisinə bərəkət verər. Bütün bunlar namazın xüsusiyyətləridir.

Burada qeyd olunmalıdır ki, insanın nuraniyyətinin daha da artması üçün gündəlik vacib namazlardan əlavə, müstəhəb namazlar da vardır. Gündəlik vacib namazlar mütləq şəkildə qılınmalıdır. İnsan hər nə qədər namazlarını daha da gözəlləşdirməyə çalışsa mümkündür. Yəni namaz belə bir əməldir ki, hər nə qədər mükəmməl və gözəl tərzdə qılınsa, yeri vardır. Çox yaxşı olardı ki, insan dəstəmazını gözəl şəkildə alsın, namaz vaxtı çatmazdan bir neçə dəqiqə öncə canamazını sərib əyləşsin və namazın vaxtını gözləsin. Namaz vaxtı çatdıqda azan və iqaməni aramla deyib namaza başlasın. Namazdan sonra Fatimeyi Zəhranın(s.ə) təsbihini demək, Peyğəmbər(s) və Onun Əhli-beytinə(ə) salam-salavat göndərmək çox yaxşı əməllərdəndir. İmkan daxilində vacib namazların camaatla qılınmasına çox təkid olunmuşdur. Bütün bu əməllər insanın namazının gözəlliyinin əlamətləridir. Xüsusilə mübarək ramazan ayında vacib namazlardan əlavə, bir sıra ümumi və xüsusi müstəhəb namazlar da vardır. İnsan həmin müstəhəb namazlardan hansı birini qılmaq istəsə qıla bilər və savabını da aparacaqdır. Məsələn, ramazan ayının namazlarından biri hər gecə üçün iki rükət namaz qılmaqdır. İnsan bu namazı ramazan ayının hər gecəsinin əvvəlindən axırına qədər qıla bilər. Yəni bu namazın vaxtı gecənin əvvəlindən sübh namazına qədərdir. Bu müddət ərzində insan nə vaxt imkan tapsa həmin namazı

qıla bilər. Bu namazın qılınma qaydası belədir: Eynilə sübh namazı kimi iki rükət qılınır. Təkcə fərqi bundadır ki, hər rükətdə “Fatihə” (həmd) surəsindən sonra üç dəfə “İxlas” (Qul huvəllah) surəsi oxunur.

Həzrət Peyğəmbər(s) buyurur: “Hər kəs mübarək ramazan ayının bütün gecələrində bu namazı qılsa, Allah-təala onun qıldığı hər bir rükətə görə yüz min mələk yaradar ki, Allahın izni ilə həmin mələklər bu şəxsin günahlarını pozar və onun üçün yaxşılıqlar yazarlar. Bundan əlavə, həmin mələklər onun məqam və dərəcəsini yüksəldərlər. Həmçinin Allah-təala həmin şəxsə yetmiş qul alıb azad edən insanın savabını verər.”[1]

Bu ay iki rükət namaza görə bu qədər savab veriləcəyinə kimsə təəccüblənməsin. Çünki Allah-təala bu ayın özünü mübarək qərar vermişdir. Allah-təala bu ayda insanları qonaqlığa dəvət edir. Hər bir kəs bu dəvəti qəbul edirsə sadalanan və digər savabların verilməsində təəccüblü heç bir şey yoxdur. Allah istəyir ki, ramazan ayında bəndələrinə savab versin.

Qeyd olunan namazdan əlavə mübarək ramazan ayının hər gecəsinin ayrı- ayrılıqda müxtəlif surətlərdə namazları vardır. Birinci gecənin, ikinci gecənin və axıra qədər bütün gecələrin xüsusi namazları vardır. Bəzi gecənin namazı bir az ağır, bəzi gecənin namazı isə bir az yüngüldür. Hər gecənin namazının müxtəlif savab və dərəcələri vardır ki, ramazan ayının hər gecəsinin bu namazlarının savabı barədə danışsaq, əsas bəhsimizdən çox uzaqlaşmış olarıq. Sadəcə olaraq nümunə üçün bir gecənin namazının qılınma qaydası və onun savabı haqda

[1] Allahın ayı, 2-ci cild, səh.260.

olan hədisi nəzərinizə çatdırıram. Məsələn, mübarək ramazan ayının 16-cı gecəsinin namazı belədir: Bu namaz 12 rükətdən ibarət olub sübh namazı kimi iki rükət-iki rükət qılınır. Hər rükətdə 1 dəfə "Fatihə" (həmd) surəsi və 12 dəfə "Təkasur" (əlhakumut-təkasur) surəsi oxunur. Sübh namazı kimi qılınıb təşəhhüd və salamlar deyilir və namaz tamamlanır.

Ramazan ayının 16-cı gecəsi bu namazı qılan şəxsin savab və xüsusiyyətinə gəldikdə isə hədislərdə belə buyurulur: Hər kəs ramazan ayının 16-cı gecəsi (15-dən 16-na keçən gecə) bu namazı qılsa;

خَرَجَ مِن قَبرِهِ وَهُوَ رَيَّانٌ يُنَادِي بِشَهَادَةِ أَن لا إِله إِلّا الله حَتّى يَرِدَ القِيَامَة فَيُؤمَرُ بِهِ إِلَى الجَنَّةِ بِغَيرِ حِسَابٍ،

-Qəbirdən qalxarkən sirab halda, "La ilahə illəllah" səsləyə-səsləyə qiyamət səhnəsinə gələr. Onu elə oradan hesab-kitabsız cənnətə aparárlar.

Bu namazlardan əlavə, orucluq ayı üçün ay ərzində 1000 rükət namaz qərar verilmişdir. Həmçinin ramazan ayının hər gecəsi üçün də 1000 rükət namaz müəyyən olunmuşdur. Qədr gecəsi xüsusi bir gecə olduğundan həmin gecənin də özünəməxsus namazları vardır. Bu namazların da xüsusi qılınma qaydaları vardır ki, kitablarda ətraflı şəkildə izah olunmuşdur. Qeyd olunan bütün bu namazlar müstəhəb və böyük savaba malik olan namazlardır. Hər kim bu namazların hansı birini qılmaq istəsə, qıla bilər. Hər birinin özünəməxsus savabı vardır.

Qeyd olunan namazlar elə ibadətlərdir ki, insanda iman nurunu çoxaldır. Qiyamət günü insana bu kimi ibadətlər lazım olacaq və bu ibadətlər insanın çox dərdinə dəyəcək.

İbn Cüneyd üçüncü əsrin böyük ariflərindən biri idi. O, həm arif, həm böyük ustad, həm də natiq bir insan idi. O dövrün alimlərindən biri də Cəfər Xalidi idi. İbn Cüneyd dünyasını dəyişdikdən sonra gecələrin birində Cəfər Xalidi onu yuxuda görür. Ondan soruşur ki, dünyadan köçəndən sonra orada hansı əməllərinin xeyrini gördün. İbn Cüneyd bir kəlmə ilə onun sualını cavablandıraraq deyir: "Burada bizim dərdimizə yalnız səhərlər (sübh namazından əvvəl) qıldığımız (müstəhəb) namazlar dəydi. Burada dünyada səhərə yaxın qıldığım gecənin nafilə namazlarının faydasını gördüm."[1]

Əlbəttə, burada qeyd olunmalıdır ki, müstəhəb namazlar təkcə ramazan ayı üçün müəyyən edilməyib. Ramazan ayından savayı başqa aylarda və günlərdə də müstəhəb və nafilə namazları vardır. Həmin müstəhəb namazlardan biri və ən mühüm olanı gecənin nafilə namazıdır. Bu namaz insanın ruhunda, mənəviyyatında və kamala çatmasında mühüm rol oynayır. Əgər insan bu namaza əhəmiyyət versə və gecələr yuxusu gəlməsinə və yorğun olmasına baxmayaraq, gecənin nafilə namazlarını qıla bilsə, uca məqamlara nail ola bilər.

Mərhum Müqəddəs Əhməd Ərdəbili İslam dünyasında çox tanınmış alimlərdən biri olmuşdur. O, Ərdəbilin Niyar kəndində dünyaya göz açmışdı. Təqribən 500 il bundan əvvəl yaşamışdır. Müqəddəs Ərdəbili o şəxsiyyətlərdəndir ki, müctəhid, alim olmasına və kitablar yazmasına baxmayaraq, hər hansı bir məsələdə çətinliyi olsaydı, gedib Kufə məscidində Həzrət Əlinin(ə) özündən soruşarmış. Dəfələrlə on ikinci imamımız

---

[1] Gəncineyi məaref, səh.741.

Həzrət Mehdinin(ə.c) ziyarətinə nail olmuş-dur. O, belə bir kəramət və fəzilətə malik bir insan idi. Hansı səbəbə görə Allah-təala ona bu şərafəti inayət etmişdi? Onun rəhmətlik anası deyir: "O, dünyaya gələndə iki il ona süd vermişəm. Amma yadıma gəlmir ki, bircə dəfə də olsa ona dəstəmazsız süd verim. Heç bir vaxt mən Əhmədə dəstəmazsız süd verməmişəm".

Bundan əlavə, bir çox zəhmət və ibadətlərin nəticəsində Allah-təala onu belə bir məqama ucaltmışdı. O, gənc yaşlarında təhsil almaq üçün Nəcəfə yollanır. Mədrəsədə bir nəfərlə dostlaşıb onunla otaq yoldaşı olur. Bir yerdə dərsə gedib-gəlir və bir yerdə də yemək yeyirdilər. Lakin o zaman çox çətinliklə dərs oxuyurdular. Çünki maddi durumları çox acınacaqlı vəziyyətdə idi. Günlərin birində Müqəddəs Ərdəbili öz dostuna deyir: "Səndən bir xahişim var. Vəziyyətimiz nə qədər ağır olsa da gəl bundan sonra heç bir kəsə öz dərdimizi danışmayaq." Dostu onunla razılaşır. Bu söhbətin üstündən bir neçə gün keçir və onların bütün pulları qurtarır. Belə olur ki, günlərlə yeməyə bir şey tapmırlar.

Bir gün Müqəddəs Ərdəbili dərsə gedir və dostu mədrəsədə qalır. Bir nəfər mədrəsədə onun dostunun rənginin saraldığını və halsız olduğunu görür. Soruşur ki, sənə nə olub belə? Dostu deyir: Heç nə. Həmin şəxs soruşur: Axı sənin halın çox pisdir. De görüm, sənə nə olub? Dostu cavab verməkdən imtina edir. Həmin şəxs o qədər israr edir ki, axırda o, vəziyyəti ona danışır. Həmin şəxs gedir və yaxşı bazarlıq edib onlara gətirir. Üstündə də iki paçka pul verib deyir: "Biri sənin olsun, o birini də dostuna verərsən."

Əhməd dərsdən gəlib otağa girəndə görür ki, müxtəlif ərzaq məhsulları var. Dostundan soruşur: “Bu nədir belə? Dostu deyir: Bir nəfər mədrəsəyə gəlmişdi. Mənim halımı görüb nə olduğunu soruşdu. Mən ona cavab vermədim. O, çox israr etdi və məndən əl çəkmədi. Mən də ona vəziyyəti danışdım. O da gedib bizim üçün bazarlıq etdi və iki paçka pul verdi.” Beləcə, hər kəs öz payını götürüb yemək yeyir və yenidən dərs oxumaqla məşğul olurlar. Gecə yarısı sübh azanına bir saat qalmış Əhməd yuxudan ayılıb görür ki, boynuna qüsl düşüb. Ayağa qalxıb qaça-qaça hamama gedir. Görür ki, hamamçı gəlib, amma hamamı hələ açmayıb. Hamamçıya deyir: “Olarmı hamamı açasan, mən içəri keçim? Hamamçı deyir: Xeyr, biz həmişə hamamı sübh azanında açırıq. Əhməd deyir: Bilirəm, hamam sübh namazı vaxtı açılır, amma xahiş edirəm, mənə içəri keçməyə icazə verəsən. Hamamçı deyir: Olmaz, çünki hamamın yiyəsi mənə namazdan tez hamamı açmağa icazə vermir. Əhməd deyir: Səhər mən özüm də hamamın yiyəsi ilə danışaram və sənə iki-üç dəfə artıq pul verərəm. Hamamçı yenə də razı olmur. Əhməd deyir: Mən sənə bir paçka pul verməyə razıyam, amma xahiş edirəm hamamı açasan. Çünki sübh namazından qabaq mənim gecə müstəhəb namazım var. İstəmirəm ki, gecə namazını əldən buraxım.” Hamamçı pulu ondan alıb içəri buraxır. Əhməd paçkada nə qədər pul olduğunu saymamışdı. Çünki onun üçün pul maraqlı deyildi. Ən əsası odur ki, gecə namazı əlindən çıxmasın. Buna görə də pulun hamısını hamamçıya verib içəri keçdi və qüslünü verib gecə namazını qıldı.

Müqəddəs Ərdəbili elə həmin gecədən Allahın lütfünə qovuşub uca məqamlara nail oldu. Bircə gecə nafilə namazını əldən verməmək üçün əlində olan bütün pullarını verdi. Amma qoymadı ki, o gecənin nafilə namazı əlindən çıxsın. Bu imtahandan üzüağ çıxdığına görə Allah-təala onun nuraniyyətini artırıb məqamını ucaltdı.

Odur ki, Allah-təala namazı bərəkətli etmişdir. Hər bir mömin namazın qədir-qiymətini bilməlidir. Namaz insan üçün Allah tərəfindən ən böyük nemət, mərhəmət və inayətdir. Əgər insan qıldığı namaza görə ona nə veriləcəyini bilsə, heç bir vaxt namazdan ayrılmaz. Bu barədə olan hədislərdən bir neçəsinə diqqət yetirək.

قَالَ عَلِيٌّ(ع): لَوْ يعْلَمُ الْمُصَلِّي مَا يغْشَاهُ مِنْ جَلَالِ اللَّهِ مَا سَرَّهُ أَنْ يرْفَعَ رَأْسَهُ مِنْ سُجُودِهِ

-Həzrət Əli(ə) buyurur: "Əgər namaz qılan Allahın cəlalından hansı tacın onu əhatə etdiyini bilsəydi, başını səcdədən qaldırmaq istəməzdi."[1]

قَالَ رَسُولُ اللهِ(ص): مَا مِن مُؤمِن يَقُومُ إِلَى الصَّلاةِ إِلّا تَنَاثَرَ عَلَيهِ البِرُّ مَا بَينَهُ وَبَينَ العَرش، وَ وُكِّلَ بِهِ مَلكٌ يُنَادي: يَا بنَ آدَم لَو تَعلَم مَا لَكَ فِي صَلاتِكَ وَمَن تُنَاجِي مَا سَئِمتَ وَ ما التَفَتَّ.

-Həzrət Peyğəmbər(s) buyurur: "Elə bir mömin yoxdur ki, namaza başladığı zaman olunla ərşin arasında Allahın bərəkəti nazil olmasın. Allah-təala bir mələyi ona vəkil edər. Həmin mələk onu səsləyərək deyər: Ey Adəm

[1] Mizanül-hikmə, 7-ci cild, hədis-10578.

övladı, əgər qıldığın namaza görə sənə nə veriləcəyini və kiminlə minacat (söhbət) etdiyini bilsən, heç vaxt yorulmaz və namazdan əl çəkməzsən."[1]

قَالَ عَلِيٌّ(ع): إِنَّ الإِنسانَ إِذَا كَانَ فِي الصَّلاةِ، فَإِنَّ جَسَدَهُ وَ ثِيَابَهُ وَكُلَّ شَيءٍ حَولَهُ يُسَبِّح

-Həzrət Əli(ə) buyurur: "İnsan namaz qıldığı zaman onun bədəni, paltarları və ətrafında olan bütün əşyalar da Allaha təsbeh və zikr edirlər."[2]

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ الرَّجُلَينِ مِن أُمَّتِي يَقومَانِ فِي الصَّلاةِ وَ رُكُوعُهُما وَ سُجُودُهُما واحِدٌ وَ إِنَّ ما بَينَ صَلاتِهِما مثل ما بَينَ السَّماءِ وَ الأَرضِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Ümmətimdən eyni şəkildə rüku və səcdə edən iki nəfər namaz qılır, amma onların namazları arasında yerlə göy qədər fərq var."[3]

Həzrət Peyğəmbərin(s) bu kəlamından başa düşürük ki, namaz qılanların hamısı eyni dərəcədə olmurlar. Hər kəsin namazı onun mərifətindən, niyyətin-dən, təmizliyindən və ruhunun paklığından asılıdır. Bəziləri bunların qiymətini bilir, bəziləri isə bilmir. Hər kəs bunların qiymətini bilirsə, namazı da gözəl olur. Elə insan vardır ki, vacib namazlar öz yerində olmaqla yanaşı, hətta bircə dəfə də olsun gecənin müstəhəb

---

[1] Yenə orada, hədis-10582.
[2] Yenə orada, hədis-10585.
[3] Yenə orada, hədis-10590.

namazını əldən verməyə razı olmur. Eləsi də var ki, namazı günlərlə qəzaya gedir.

Bir nəfər İmam Sadiqin(ə) hüzuruna gəlib istixarə etməsini xahiş etdi. İmam Sadiq(ə) onun üçün istixarə etdikdən sonra buyurdu: “Bu iş xeyirli deyil. Həmin şəxs sağollaşıb getdi. Üstündən bir neçə müddət keçdikdən sonra yenə də İmamın(ə) hüzuruna gəlib dedi: Ey Allahın höccəti, bir gün sizin yanınıza istixarə üçün gəlməyim yadınızdadırmı? Mən ticarət səfərinə getməyə hazırlaşırdım.

İmam(ə) buyurdu: Bəli, yadımdadır.

Həmin şəxs dedi: Siz istixarə edib buyurdunuz ki, yaxşı deyil və mən bu işi görməməliyəm.

İmam(ə) buyurdu: Bəli, elədir.

Həmin şəxs dedi: Amma mən həmin işi gördüm və çoxlu mənfəət əldə etdim. Bu səfərimdə o qədər qazanc əldə etdim ki, heç bir vaxt belə gəlirim olmamışdı. Amma siz istixarə edib bu işin yaxşı olmadığını demişdiniz.

İmam(ə) ətrafına göz gəzdirib heç bir kəsin olmadığını gördükdən sonra ona buyurdu: Getdiyin bu səfərdə filan yerdə gecələməyin yadındadırmı?

Həmin şəxs İmamın(ə) xəbərdar olduğunu görüb təəccüblə dedi: Bəli, yadımdadır.

İmam(ə) buyurdu: Həmin gün sənin çox yorğun olmağın yadına gəlirmi?

Həmin şəxs dedi: Bəli.

İmam(ə) buyurdu: Yorğunluğun şiddətindən möhkəm yatmağın, yuxudan ayıldıqda günün çıxması və sübh namazının qəzaya getməsi yadına gəlirmi?

Həmin şəxs başını aşağı salıb dedi: Bəli, yadımdadır.

İmam(ə) buyurdu: Bütün qazandıqlarının hamısını versən belə qəzaya getmiş həmin sübh namazının savabını əldə edə bilməyəcəksən. Buna görə də istixarə edib sənə dedim ki, bu səfərin yaxşı alınmayacaq.”

Mərhum Ayətullah Şeyx Həsənəli İslam aləmində tanınmış böyük bir şəxsiyyət idi. Onun qəbri Məşhəd şəhərində İmam Rzanın(ə) hərəminin həyətindədir. O, həm dahi şəxsiyyət, həm də arif bir insan idi. Onunla bağlı əhvalatda yazırlar ki, ömründə bircə dəfə sübh namazını qəzaya vermişdi. Həmin gün axşam onun cavan oğlu dünyasını dəyişdi. Səhərisi gün sübh namazında ona agah oldu ki, oğlunun dünyadan getməsi qəzaya verdiyi sübh namazının cəzası idi. Ona deyildi ki, sənin həmin sübh namazını qəzaya verməyinin cəzasını bu dünyada belə verdik ki, qoy qiyamətə qalmasın.

Odur ki, namaz insanın mənəviyyatında, ruhunda, mərifətində və axirətində böyük rola malikdir. Namaz insanın insaniyyətini gözəlləşdirir. Mübarək ramazan ayına ona görə namaz ayı deyilmişdir ki, bu ayın hər bir günü üçün xüsusi və ümumi müstəhəb namazlar qərar verilmişdir. Bu da insanın daha çox saflaşması, ruhunun təmizlənməsi və kamilləşməsi üçün böyük amillərdəndir.

### 23. Ayların sultanı

Hədis və rəvayətlərə əsasən mübarək ramazan ayının adlarından biri “ayların sultanı”dır.

قَالَ رَسُولُ اللهِ(ص): شَهرُ رَمَضَان سَيِّدُ الشُهُور

-Həzrət Peyğəmbər(s) buyurur: “Ramazan ayı ayların ağasıdır.”[1]

Burada bir mətləbə diqqət yetirmək lazımdır ki, insan üçün ibadət müəyyən olunan aylar hicri qəməri təqvimi ilə təyin olunmuşdur. Əgər biz ibadət ediriksə, bu ibadətlərimizi hicri qəməri təqviminin ayları və günlərinə uyğun hərəkət edirik. Əgər şəban ayında müstəhəb oruc tuturuqsa, bu ay tutduğumuz orucun fəzilət və üstünlüyünü bildirir. İslam aləmində hökmlər bu ayların üzərində həyata keçirilir. O cümlədən mübarək ramazan ayı hicri qəməri təqvimində ən şərafətli və fəzilətli ay hesab olunur. Bu aylar Allahın ehkamı olduğu üçün qiyamət günü Allah-təala onların həqiqi simasını hamıya göstərəcəkdir. Qiyamət günü mübarək ramazan ayı xüsusi olaraq bütün aylardan seçilərək məhşər səhnəsinə gələcək. Belə ki, digər ayların içində göydə Ayın ulduzlar arasında seçildiyi kimi seçiləcək. Bu barədə olan hədisə diqqət yetirək:

قَالَ الإِمَامُ الرِّضَا(ع): إذا كانَ يَومُ القِيامَةِ زُفَّتِ الشُّهورُ إلَى الحَشرِ يَقدُمُها شَهرُ رَمَضانَ عَلَيهِ مِن كُلِّ زينَةٍ حَسَنَةٍ، فَهُوَ بَينَ الشُّهورِ يَومَئِذٍ كَالقَمَرِ بَينَ الكَواكِبِ، فَيَقولُ أهلُ الجَمعِ بَعضُهُم لِبَعضٍ: وَدِدنا لَو عَرَفنا هذِهِ الصُّوَرَ! فَيُنادي مُنادٍ مِن عِندِ اللّه . جَلَّ جَلالُهُ . : «يا مَعشَرَ الخَلائِقِ ، هذِهِ صُوَرُ الشُّهورِ الَّتي عِدَّتُها عِندَ اللّهِ اثنا عَشَرَ شَهرا في كِتابِ اللّهِ يَومَ خَلَقَ السَّماواتِ وَالأَرضَ،

[1]Allahın ayı,1-ci cild, səh.42.

سَيِّدُها وأفضَلُها شَهرُ رَمَضانَ ، أبرَزتُها لِتَعرِفوا فَضلَ شَهري عَلى سائِرِ الشُّهورِ، و لِيَشفَعَ لِلصّائِمينَ مِن عِبادي وإمائي وأُشَفِّعَهُ فيهِم

İmam Rza(ə) buyurur: “Qiyamət günü baş verdikdə bütün ayları həqiqi simalarında məhşər səhnəsinə gətirəcəklər. Ramazan ayı həmin ayların içində Ay göydəki ulduzlar arasında seçildiyi və nur saçdığı kimi nur saçacaq. Oraya yığışan insanlar bir-birinə deyəcəklər: “Çox yaxşı olardı ki, bu simaları tanıya biləydik.” Allah tərəfindən bir carçı səslənib onların cavabında belə deyəcək: “Ey insanlar, gördüyünüz bu simalar on iki ayın həqiqi surətidir. Onların ağası və ən fəzilətlisi ramazan ayıdır. (Allah-təala buyurar:) Onu sizin üçün belə aşkara çıxardım ki, Mənim ayımın (ramazanın) başqa aylardan üstün və şərafətli olduğunu biləsiniz. Bunu ona görə etdim ki, Mənim kişi və qadın bəndələrimə şəfaət etsin və Mən də onun şəfaətini (həmin bəndələrimin barəsində) qəbul edim.”[1]

Bu hədisdə olan əsas məsələlərdən biri şəfaət məsələsidir ki, Allah-təala qiyamət günü ramazan ayına şəfaət etmək icazəsi verəcək. Yəni qiyamət günü ramazan ayı oruc tutan bəndələrə şəfaət edəcək.

Quran və hədislərdə şəfaət məsələsi ilə çox rastlaşırıq. Təkcə ramazan ayı deyil, bir sıra insanlar da Allahın izni ilə qiyamət günü şəfaət etməyə icazəli olacaqlar. Şəfaət məsələsi Quranda əsas məsələlərdən

[1] Allahın ayı, 1-ci cild, səh.42.

sayılır. Ola bilsin ki, bəzi firqələr şəfaət məsələsini özləri üçün hələ aydınlaşdırmayıblar. Mümkündür ki, dinin bəzi məsələləri bəzi insanlara aydın olsun, bəziləri üçün də qaranlıq bir məsələ kimi qalmış olsun. Dinin məsələlərini hamı eyni dərəcədə bilmir. Kimisi çox oxuyub öyrənir və onun üçün aydınlaşır. Kimisi isə məlumatsızlıq ucbatından bir çox məsələləri başa düşməkdə çətinlik çəkir. Təkcə dini məsələlər deyil, digər elmi sahələr də belədir. Məsələn, həkimlərə diqqət yetirdikdə görürük ki, onların bir qismi bəzi xəstəliklərdən baş çıxarır, amma digər həkimlər həmin xəstəlik barədə heç bir qənaətə gələ bilmirlər. Əgər bir insan bir məsələdə nəticəyə gəlib çıxa bilmirsə, onu qınamaq, yaxud onun barəsində bir söz demək də düzgün çıxmaz. Odur ki, əgər bir insan Quranı oxuduqdan sonra qiyamət günü şəfaətin olacağına inanmırsa, həmin gün ona şəfaət olunmayacaq. Çünki bu insan qiyamət günü şəfaətçilərin Allahın izni ilə şəfaət etməsinə inanmırdı.

Quranda bir neçə yerdə şəfaət məsələsinə rəst gəlirik. O cümlədən "Zumər" surəsinin 44-cü ayəsində oxuyuruq:

قُل لِّلَّهِ الشَّفَاعَةُ جَمِيعًا لَّهُ مُلْكُ السَّمَاوَاتِ وَالْأَرْضِ ثُمَّ إِلَيْهِ تُرْجَعُونَ

-De: "Şəfaət bütünlüklə Allaha məxsusdur. (Çünki) həqiqi mülkiyyət və göylərin və yerin hakimiyyəti Ona məxsusdur. Sonra sizin hamınız Ona tərəf qaytarılacaqsınız."

"Ənam" surəsinin 51-ci ayəsində belə buyurulur:

وَأَنذِرْ بِهِ الَّذِينَ يَخَافُونَ أَن يُحْشَرُواْ إِلَى رَبِّهِمْ لَيْسَ لَهُم مِّن دُونِهِ وَلِيٌّ
وَلاَ شَفِيعٌ لَّعَلَّهُمْ يَتَّقُونَ

-Bununla (bu Quran vasitəsilə) özlərinin Rəbbinə tərəf toplanacaqlarından qorxan kəsləri qorxut – (çün)ki, (həmin gün) onların Allahdan başqa heç bir başçı, yardımçı və şəfaətçiləri olmayacaqdır – bəlkə çəkindilər.

Bu ayələrdə açıq-aydın göstərilir ki, şəfaət bütünlüklə Allaha məxsusdur. Qiyamət günü Allahdan başqa heç bir kəsin şəfaət etməyəcəyini iddia edənlər bu kimi ayələrə söykənirlər. Bəli, hamı yekdilliklə qəbul edir ki, külli-aləm, bütün yaradılışın hamısı Allaha məxsusdur. Allah qiyamət gününün və hər bir şeyin sahibidir. İnsanın özü və ona verilən bütün nemətlərin hamısı Allaha məxsusdur. Hətta alınan və buraxılan nəfəslər də Onundur. Yəni nəfəs almaq Allahın bir neməti, nəfəsi buraxmaq da başqa bir nemətidir. Əgər insan Ömrü boyu Allahın ona verdiyi nemətlərə şükür etsə belə, yenə də Onun şükrünü çatdıra bilməyəcək. Həm dünyada, həm də axirətdə mülkiyyət sahibi və hakimlik Allahındır. Hətta bu dünyada belə heç bir insanın digər insana hökmranlıq etməyə ixtiyarı yoxdur. Burada qarşıya bir sual çıxır. Həmin sual belədir ki, əgər Allah-təala bu hakimiyyətin bir qədərini kiməsə icazə versə necə olar? Allah bu ixtiyarı kiməsə veribmi? Cavab olaraq deyə bilərik ki, bəli, Allah istədiyi şəxsə bu ixtiyarı verə bilər. Çünki hakimiyyət, mülkiyyət Onun Özünə məxsus olduğu üçün bu ixtiyarı istədiyi kəsə verə bilər.

Bunu daha açıq şəkildə başa düşmək üçün bir idarəni misal çəkmək olar. Məsələn, bir idarənin müdiri deyir: "Mən bu idarənin müdiriyəm və mənim idarə işlərimə qarışmağa heç bir kəsin ixtiyarı yoxdur." Əgər müdir bir nəfərə bəzi işləri tapşırıb müəyyən qədər ona

səlahiyyət versə, kim ona bir söz deyə və yaxud etiraz edə bilər? İdarə onundur və kimə nə qədər icazə və ixtiyar verməsi də onun öz əlindədir. Hamının qəbul etdiyi digər sadə bir misalı da çəkmək olar. Ölünü diriltmək və şəfa vermək Allaha məxsusdur. Allahdan başqa heç bir kəs ölünü dirildə bilməz. Amma Allah İsa Peyğəmbərə(ə) bu icazəni vermişdi. Günəş, Ay və digər planetlərin hamısı Allahın əmri ilə hərəkət edir. Heç bir kəs onların hərəkətinə müdaxilə edə bilməz. Amma Ayı iki yerə bölmək ixtiyarını İslam Peyğəmbərinə(s) vermişdir. Allah-təala da bütün aləmlərin sahibi və hakimidir. Dünyada insanlara hakimlik etmək ixtiyarını və icazəsini isə İslam Peyğəmbərinə(s) vermişdir. Məgər İslam Peyğəmbəri(s) İslam hökuməti təşkil etmədimi? Peyğəmbərə(s) bu icazəni kim vermişdi? Əlbəttə ki, o, Allahın izni ilə hökumət qurdu və insanlara hakimlik etdi. Allah-təala bu icazə və ixtiyarı ona vermişdi. Deməli, əgər Allah bu dünyada hakimiyyət ixtiyarını kiməsə verirsə və bu işə kimsənin etiraz etməyə ixtiyarı olmadığı kimi, qiyamət günü də ona şəfaət etməyə icazə verdikdə Allaha kim etiraz edə bilər?

Şəfaət məsələsi də hakimiyyət məsələsi kimi Allaha məxsus olduğundan Allah onun icazəsini kimə istəsə verə bilər. Bu, Allahın Özünə aiddir və kiməsə aidiyyəti yoxdur. Kim deyə bilər ki, Allah bu icazəni Peyğəmbərə(s) verməz. Kim deyə bilər ki, Peyğəmbər(s) qiyamət günü şəfaət edə bilməz? Allah bu icazəni Həzrətə(s) verdikdən sonra kim neyləyə bilər? Sadəcə soruşa bilərik ki, Allah qiyamət günü Peyğəmbərə(s) şəfaət etmək icazəsi verir, ya yox? Amma demək olmaz ki, Allah heç bir kəsə şəfaət etmək icazəsi verməz. Bunu

bilmək üçün Onun nazil etdiyi kitaba baxmalıyıq. Həmçinin belə də ola bilməz ki, kimsə bir ayəni oxuyub, digər ayələrə əhəmiyyət verməməklə Quranın adından danışsın. Əgər Quranda bir məsələ barədə bir neçə ayə varsa, onların hamısını bir-birinin yanına qoyub mənalandırmaq lazımdır. Belə ola bilməz ki, həmin ayələrdən birini oxuyaraq, digər ayələrə əhəmiyyət verilməsin. Əgər Allah-təala "Zumər" surəsinin 44-cü ayəsində şəfaətin bütünlüklə Allaha məxsus olduğunu bəyan edirsə, digər ayələrdə bu işə icazə də vermişdir. Məsələn, "Bəqərə" surəsinin 255-ci ayəsində belə buyurulur:

مَن ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ إِلاَّ بِإِذْنِهِ

-İzni olmadan Onun hüzurunda kim vasitəçilik və şəfaət edə bilər?!

Bu ayədən açıq-aydın görürük ki, heç bir kəs icazəsi olmadan şəfaət edə bilməz. Yəni Allah kimə icazə verəcəksə, həmin şəxs də şəfaət edəcək. "Yunis" surəsinin 3-cü ayəsində belə buyurulur:

مَا مِن شَفِيعٍ إِلاَّ مِن بَعْدِ إِذْنِهِ

-Onun izni olmadan heç bir şəfaətedici yoxdur.

Bu ayədə də şəfaətin izni barədə söz açılmış və Allah kimə izn verdikdən sonra həmin şəxsin şəfaət edə biləcəyini bəyan etmişdir. Yəni qiyamət günü Allahın kimə şəfaət izni verməsindən sonra həmin şəxs şəfaət edə biləcək. Peyğəmbər(s) qiyamət günü Allahın izni ilə ümmətinə şəfaət edəcək. Necə ki, dünyada Həzrət Peyğəmbər(s) də Allahın izni olmadan heç bir iş görmürdü. Yəni hər bir şey Allahın icazə və izni ilə olur.

Allah-təala “Taha” surəsinin 109-cu ayəsində bu məsələni daha açıq şəkildə bəyan edərək buyurur:

يَوْمَئِذٍ لَّا تَنفَعُ الشَّفَاعَةُ إِلَّا مَنْ أَذِنَ لَهُ الرَّحْمَنُ وَرَضِيَ لَهُ قَوْلًا

-Həmin gün Rəhman Allahın icazə verdiyi və danışığını bəyəndiyi kəslərdən savayı başqa heç bir kəsin şəfaətinin xeyri olmaz.

Quranda şəfaət barədə olan ayələrə çox rast gəlmək mümkündür. Əgər bir insan Quranda şəfaət məsələsi ilə maraqlanmaq istəyirsə, gərək bu ayələri bir-birinin yanına qoyaraq mənalandırsın. Belə olduqda görürük ki, hər bir şey Allaha məxsus olduğu kimi şəfaət məsələsi də Ona məxsusdur. Bundan sonra Allah-təala kimə şəfaət etmək icazəsini verirsə, həmin şəxs də qiyamət günü şəfaətçi olacaqdır. Qiyamət günü Allah bir qrup müqəddəs insanlara şəfaətçi olmağa icazə verəcək. Həmin insanlardan ən birincisi İslam Peyğəmbəridir(s). Həzrət(s) məxluqatın əşrəfi, bütün peyğəmbərlərin ağasıdır. Şəfaət məsələsi barədə İslam Peyğəmbərindən(s) bir çox hədis və rəvayətlər nəql olunmuşdur.

قَالَ رَسُولُ اللهِ(ص): لِكُلِّ نَبِيٍّ دَعوةٌ قَد دَعَا بِهَا وَ قَد سَأَلَ سُؤلاً فَاستَجِيب، و قد خَبَأتُ دَعوَتِي لِشَفاعَتِي لِأُمَّتِي يَومَ القِيَامَة. إنَّ اللهَ أَعطَانِي مَسألَةً، فَأخَّرتُ مَسْأَلَتِي لِشَفاعَةِ الْمُؤمِنينَ مِنْ أُمَّتي يَومَ القِيَامَةِ، فَفَعَل ذَلِك

-Həzrət Peyğəmbər(s) buyurur: “Hər bir peyğəmbər Allah dərgahına dua etmiş və Ondan bir şey istəmişdir. Allah da onların istəyini yerinə yetirmişdir. Amma mən

(Allahdan) öz xahişimi qiyamət günü ümmətimə şəfaət etmək üçün saxlamışam. Allah-təala mənə Ondan bir şey istəməyi əta etdi, mən isə bunu (qiyamət günü) möminlərə şəfaət etmək üçün təxirə saldım. Allah da bunu məndən qəbul etdi."[1]

قَالَ رَسُول اللهِ(ص) مَن لَمْ يُؤمِن بِشَفاعَتِي فَلا اَنَا لَهُ الله شَفَاعَتِي

Digər bir hədisdə Həzrət(s) belə buyurur: "Kimin mənim şəfaət etməyimə imanı yoxdursa, qiyamət günü Allah-təala mənim şəfaətimi ona çatdırmayacaq."[2]

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ النَّاسَ يَصِيرُونَ يَوْمَ الْقِيَامَةِ جُثًا كُلُّ أُمَّةٍ تَتْبَعُ نَبِيَّهَا يَقُولُونَ يَا فُلَانُ اشْفَعْ يَا فُلَانُ اشْفَعْ حَتَّى تَنْتَهِيَ الشَّفَاعَةُ إِلَى مُحَمَّد صَلَّى اللَّهُ عَلَيْهِ وَآله سَلَّمَ فَذَلِكَ يَوْمَ يَبْعَثُهُ اللَّهُ الْمَقَامَ الْمَحْمُودَ

-Həzrət Peyğəmbər(s) buyurur: "Qiyamət günü bütün ümmətlərin insanları diz üstə yerə çöküb öz peyğəmbərlərindən şəfaət istəyəcəklər. Belə olduqda (bir-bir peyğəmbərlərə) deyiləcək: Ey filankəs, qalx, öz ümmətinə şəfaət et. Sonra növbə mənə çatacaq. Bu, Allahın məni bəyənilmiş (şəfaət) dərəcəyə çatdıracağına vədə verdiyi həmin gündür."[3]

---

[1] Mizanül-hikmə,6-cı cild,səh.9480.
[2] Mizanül-hikmə,6-cı cild, səh. 9487.
[3] Kənzül-ümmal, hədis-39042.

Allah-təala "İsra" surəsinin 79-cu ayəsində İslam Peyğəmbərini(s) şəfaət məqamına yüksəldəcəyini bəyan edərək buyurur:

وَمِنَ اللَّيْلِ فَتَهَجَّدْ بِهِ نَافِلَةً لَّكَ عَسَى أَن يَبْعَثَكَ رَبُّكَ مَقَامًا مَّحْمُودًا

-Və gecənin bir hissəsini onun üçün – (yalnız) sənə əlavə bir vəzifə olan (Quran oxumaq və gecə nafiləsini qılmaq) üçün oyaq qal ki, bəlkə Rəbbin səni tərifəlayiq bir məqama (şəfaət məqamına) qaldırsın.

قَالَ الصَّادِقُ(ع): مَا أَحدٌ مِنَ الأَوَّلِينَ وَالآخَرِين إِلّا وَهُوَ يَحتَاجُ إِلَى شَفاعَةِ مُحَمَّد(ص) يَومَ القِيَامَة

-İmam Sadiq(ə) buyurur: "İlk insanlardan sonuncuyadək elə bir şəxs yoxdur ki, qiyamət günü Məhəmmədin (s) şəfaətinə möhtac olmasın."[1]

## Qiyamət günü kimlər şəfaət edəcək?

### Peyğəmbər(s) və Əhli-beytin(ə) şəfaəti

Qeyd olunan ayə və hədislərdən açıq-aydın görürük ki, Allah-təala Peyğəmbərə(s) şəfaət etməyə icazə verəcəkdir. Əlbəttə, bunu da qeyd etməliyik ki, təkcə Peyğəmbər(s) deyil, qiyamət günü onun Əhli-beyti(ə) də şəfaətçi olacaqlar. Bu barədə də bir çox hədislər nəql olunmuşdur ki, onlardan biri belədir:

[1] Mizanül-hikmə,6-cı cild, hədis-9498.

قَالَ رَسُولُ اللهِ(ص): إِنِّي اَشْفَعُ يَوْمَ القِيَامَةِ فَأُشَفَّعُ؛ وَيَشْفَعُ عَلِيٌّ فَيُشَفَّعُ؛ وَيَشْفَعُ أَهْلُ بَيْتِي فَيُشَفَّعُونَ

-Həzrət Peyğəmbər(s) buyurur: "Qiyamət günü mən şəfaət edəcəyəm, mənim bu şəfaətim qəbul olunacaq. Həmin gün Əli(ə) də şəfaət edəcək və onun şəfaəti də qəbul olunacaq. Həmçinin mənim Əhli-beytim(ə) də şəfaət edəcək və onların da şəfaəti qəbul olunacaq."[1]

Bu hədisi o kəs deyir ki, Allah Quranı onun vasitəsilə insanlara çatdırıb. Bu hədisi o kəs deyir ki, Quran onu bütün məxluqatın əşrəfi adlandırır. Bu sözləri o kəs deyir ki, Allah onu bəyənilmiş bir məqama çatdırıb. O, buyurur ki, qiyamət günü həm mən, həm Əli(ə), həm də Əhli-beytim(ə) şəfaət edəcəklər. Buna görə kimsə nə üçün narahat olmalıdır? Burada kiməsə xeyirdən başqa bir şey varmı? Bu elə bir məsələ deyil ki, kiməsə ən azı maddi ziyanı dəymiş olsun. Bəzi hökmlər vardır ki, ola bilər insan üçün çətin və ağır olsun. Amma Peyğəmbərin(s) qiyamət günü şəfaət etməsi xeyirdən başqa insana nə verir ki, insan bu məsələni qəbul etmək istəməsin? Həzrət Peyğəmbər(s) və Əhli-beyti(ə) iman gətirənlərə, onun şəfaətini qəbul edənlərə qiyamət günü şəfaət edəcəklər. Hər kim onların şəfaətini qəbul etmirsə, qiyamət günü həmin şəxs şəfaət olunmayacaq.

Hədislərdə belə nəql olunur ki, günlərin birində Həzrət Peyğəmbər(s) qızının evinə gəlir. İçəri daxil olanda görür ki, qızı əyləşib, Həsən(ə) və Hüseyn(ə) də onun kənarındadırlar. Peyğəmbər(s) bu halı görüb qızına

[1] Mizanül-hikmə,6-cı cild, hədis- 9505.

buyurur: “Sizə baxdıqda sanki bir tərəzi görürəm. Belə ki, tərəzinin gözləri Həsən və Hüseyndir. Tərəzinin ölçüsünü göstərən isə sənsən. Tərəzinin gözləri və ölçüsünü göstərən bir-birinə bağlıdır. Sonra Həsən və Hüseynə baxıb buyurdu: Hər ikiniz imamsınız, ananız isə qiyamət gününün şəfaət məqamında olacaq.”[1]

## Alimlərin şəfaəti

Ötən bəhslərimizdə qeyd olundu ki, qiyamət günü Allah-təalanın izni ilə Peyğəmbər(s), Əli(ə) və Əhli-beyt(ə) ümmətə şəfaət edəcəklər. Allah-təala bu ixtiyarı onlara verəcək. Allah-təala bu dünyada Peyğəmbərə(s) bir sıra ixtiyarları verdiyi kimi, qiyamət günündə də şəfaət ixtiyarını verəcəkdir. Hədis və rəvayətlərə əsasən qiyamət günü digər şəfaətçilər də olacaqlar ki, Allahın izni ilə onlar da şəfaət edəcəklər. Həmin şəfaətçilərdən biri alimlərdir ki, onların barəsində də hədis və rəvayətlər nəql olunmuşdur.

قَالَ رَسُولُ اللهِ(ص): ثَلاثَةٌ يَشفَعُونَ اِلَى اللهِ عَزَّوَجَلّ فَيُشفَّعُون: اَلاَنبِيَاء ثُمَّ العُلَمَاء ثُمَّ الشُّهَدَاء

-Həzrət Peyğəmbər(s) buyurur: “Allah yanında üç dəstə şəfaət edər və səfaətləri qəbul olunar: Peyğəmbərlər, alimlər və şəhidlər.”[2]

---

[1] Beş yüz дастаn,2-ci cild, səh. 347.
[2] Mizanül-hikmə,6-cı cild, hədis-950٢.

قَالَ الصَّادِقُ(ع): إِذَا كَانَ يَوْمُ الْقِيَامَةِ... قِيلَ لِلْعَابِدِ: إِنْطَلِقْ إِلى الْجَنَّةِ وَ قِيلَ لِلْعَالِمِ: قِفْ، تَشْفَعُ لِلنَّاسِ بِحُسْنِ تَأْدِيبِكَ لَهُمْ

-İmam Sadiq(ə) buyurur: "Qiyamət baş verən zaman abidlərə deyilər: Daxil olun cənnətə. Alimlərə isə deyilər: Dayanın! (dünyada) gözəl tərbiyə edib doğru yola yönəltdiyiniz insanlara şəfaət edin."[1]

Burada sual oluna bilər ki, qiyamət günü hər bir alim şəfaət edə biləcəkmi? Hədislərə əsasən deyə bilərik ki, hər bir alimə şəfaət etmək məqamı nəsib olmaz. Qiyamət günü o alimlərə bu məqam veriləcək ki, dünyada təqvalı yaşayıb nuraniyyətlə həyat sürmüşlər. Qiyamət günü ümmətinə (hidayət və tərbiyə etdiyi insanlara) şəfaət etmək üçün nuraniyyəti onları ardınca apara biləcəyi qədər çox və qüdrəti olmalıdır. Burada gözəl danışığı olan, çoxlu kitab oxuyan alimlərdən söhbət getmir. Bütün bunlarla yanaşı, güclü təqva və nuraniyyəti olan və elmlərinə əməl edən alimlər şəfaət edəcəklər. Tarixi vərəqlədikcə belə alimlərə çox rast gələ bilirik. Nümunə üçün həmin şəxslərin bir neçəsinin həyatından qısa əhvalatlara diqqət yetirək.

## Ayətullah Şeyx Abbas Qumi

Həmin alimlərdən biri mərhum Şeyx Abbas Qumidir. Hamı onun yazdığı "Məfatihul-cinan" kitabı ilə tanışdır. Bundan başqa onun müəllifi olduğu bir çox kitablar da vardır. Həmin kitablardan biz nümunə olaraq "Mənazilul-axirət" ("Axirət mənzilləri") adlı kitabın

---

[1] Yenə orada,6-cı cild, hədis-9506.

adını qeyd edə bilərik. Bu kiçik bir kitabdır ki, hətta onu cibdə də gəzdirmək olar. Həmin kitabda axirət barədə hədislər toplanmışdır. Onun atası avam və mömin bir kişi idi. Şeyx Abbas atası ilə bir evdə yaşayır və kitab yazmaqla məşğul olurdu. Atası hər axşam namazı məsciddə camaatla qılırdı. Pişnamaz namazdan sonra Şeyx Abbasın həmin kitabını götürür və oradan camaat üçün bir hədis oxuyurdu. Bir gün namazdan sonra evə gəlib oğlunu danlayaraq deyir: "Səhərdən axşama kimi oturub yazıb pozursan. Hər gün bizim məhəllənin mollası məsciddə gözəl söhbətlər edir. Hər axşam bir kitab gətirib ondan adamın ürəyinə yatan hədislər oxuyur. Gəl, sən də qulaq as."

Şeyx Abbas Qumi atası dünyadan gedənə qədər ona demədi ki, həmin kitabı mən yazmışam.

## Şeyx Ənsari və Həzrət Əlinin(ə) zəvvarı

Mərhum Şeyx Ənsarinin zamanında bir nəfər Nəcəf şəhərinə yollanır. Orada bir mənzili kirayəyə götürür. Bir neçə gün orada qalıb Həzrət Əlinin(ə) hərəmini ziyarət edir. Belə olur ki, pulu qurtarır. Həzrət Əlinin(ə) qəbri kənarına gəlib deyir: "Ya Əli(ə), mən sənə qonaq gəlmişəm. Burada qərib adamam, səndən başqa kimin qapısını tanıyıram ki, ora da gedim? İndi mənim pulum da qurtarıb. Məni bu çətin vəziyyətdən çıxar."

O deyir: "Hərəmdən çıxarkən ürəyimdə öz-özümə dedim: Ya Əli(ə), əgər mənim çətinliyimi həll etməsən, hərəmin qızıllarından oğurlayıb aparacağam. Mənzilə gəlib ac-susuz yatdım. Sübh namazından sonra bir az istirahət etdim. Birdən qapı döyüldü. Qapını açdıqda yaşlı və nurani bir kişinin qapının önündə dayandığını gördüm. Ondan kim olduğunu soruşduqda belə cavab verdi: Adım Rəhmətullahdır. Ayətullah Şeyx Ənsarinin evində çayçı işləyirəm.

Soruşdum: Mənə görə nə qulluğunuz var? Dedi: Ağa məni sənin dalınca göndərib. Səninlə işi var.

Öz-özümə təəccüblə dedim: Görəsən, Ayətullah Şeyx Ənsarinin mənimlə nə işi var? Hamı kimi mən də onun böyük bir müctəhid olduğunu bilirəm. Amma onun məni haradan tanıması mənə hələ də qaranlıq və çox maraqlı idi. Nigaran və həyəcanla onun evinə yollandıq. İçəri daxil olub Şeyxlə salamlaşdım. Şeyx mənimlə hal-əhval tutduqdan sonra çıxarıb mənə bir miqdar pul verdi və buyurdu: Bilirəm ki, pula ehtiyacın var. Bu pulu xərcləyərsən. Mən gördüm ki, bu pul mənim ehtiyaclarımı ödəməyə bəs edər. Pulu aldıqdan sonra ona təşəkkür edib getmək üçün icazə istədim. Qapıdan

çıxarkən Şeyx məni səsləyib təbəssümlə buyurdu: Daha Həzrətin(ə) qızılları ilə işin olmasın."

## Ayətullah Mirzə Qumi və Şeyx Nurinin əhvalatı

Ayətullah Mirzə Qumi İslam aləmində tanınmış böyük şəxsiyyətlərdən biri idi. Uzun illər Nəcəf şəhərində yaşamış və böyük şəxsiyyətlər yetişdirmişdir. Şeyx Nuri də o dövrün alimlərindən biri idi. O, Kufədə yaşayırdı. Həmişə bir tələbə kimi Ayətullah Quminin dərslərində iştirak edərdi.

Şeyx Nuri deyir: "Mənim yaşadığım məhəllədə bir mağaza var idi. İmkanım olmayanda hərdən oradan nisyə ərzaq götürərdim. Əlimə imkan düşən kimi aparıb qaytarırdım. Günlərin birində dükançı mənə dedi: Şeyx, çoxdandır borclarından vermirsən. Sənin borcun 60 lirə çatıb. Mən dedim: İnşallah, iki günə gətirib borcumu verərəm. Sonra öz-özümə dedim: Nə üçün iki gün dedim? Mən iki günə o qədər pulu haradan tapacağam? Əgər iki gündən sonra o, pulunu istəsə, mən ona nə deyəcəyəm? Çox narahat halda bu fikirlə gecə evə gəlib yatdım. Yuxuda bir otaqda Həzrət Əlinin(ə) əyləşdiyini gördüm. O, məni yanına çağırdı. Onun hüzuruna gedib oturdum. Həzrət(ə) çıxarıb mənə altmış lir pul verib buyurdu: Bu pulu al və borcunu qaytar. Sonra altmış lir də verdi və buyurdu: Bunu da özün üçün xərcləyərsən.

Yuxudan ayıldıqda gördüm ki, bütün bunlar sadəcə bir yuxu imiş. Öz-özümə dedim ki, inşallah, bu yuxuda bir xeyir var. Səhər evdən çıxıb dərslərimlə məşğul olmağa başladım. Ertəsi gün bir nəfər qapıya gəlib dedi: Ayətullah Mirzə Qumi səni çağırır. Onunla birgə

Ayətullah Quminin evinə getdim. İçəri daxil olduqda gördüm ki, o, Həzrət Əlinin(ə) əyləşdiyi kimi əyləşib. Məni yanına çağırıb altmış lir pul verdi. Orada həmin yuxu yadıma düşdü ki, Həzrət Əli(ə) də belə əyləşmiş və mənə altmış lir pul vermişdi. Sonra yadıma düşdü ki, Həzrət(ə) mənə əlavə olaraq altmış lir də vermişdi. Beynimdən bu fikir keçib qurtarmamış Ayətullah Qumi çıxarıb mənə daha altmış lir də verərək buyurdu: Bunu da al, özün üçün xərclə. Bunlar Həzrət Əlinin(ə) sənə həvaləsidir."

## Ayətullah Mərəşi Nəcəfi

Mərhum Ayətullah Mərəşi Nəcəfi görkəmli alim və müctəhidlərdən biri idi. Uzun illər Qum şəhərində Xanım Məsumənin(s.ə) hərəmində imam camaat olmuşdu. Xüsusilə sübh namazından bir saat əvvəl gəlib mehrabda əyləşər, ibadət və dua ilə məşğul olardı. Mən də uzun illər onun arxasında dayanıb camaat namazında iştirak edərdim. O, çox nəcib, müqəddəs və şərafətli bir insan idi. Evi hərəmə yaxın olduğundan çox vaxt piyada gəlib-gedirdi.

Bir nəfər polis işçisi başına gələn əhvalatı danışaraq deyir: "Mən Qum şəhərində Xanım Məsumənin(s.ə) hərəminin kənarında yolda nəzarətçi işləyirdim. O zamanlar İsfahan maşınları gəlib hərəmin kənarında dayanardı. Bəzi yerlərdə maşın saxlamağa icazə verilmirdi. Mən həmin icazə verilməyən yerlərdə maşınlardan rüşvət olaraq pul alır və onları ora buraxırdım. Gecələrin birində boynuma qüsl düşmüşdü. Öz-özümə fikirləşdim ki, sübh azanında hamam açılan kimi gedib qüsl verərəm. Elə həmin vaxt bir maşın gəldi.

Mən onu yerbəyer etdikdən sonra mənə beş qran pul verdi. Pulu cibimə qoyub fikirləşdim ki, elə yaxşı oldu, bu pulu hamamçıya verərəm. Sübh azanına yaxın gördüm ki, Ayətullah Nəcəfi tindən çıxıb hərəmə sarı gəlir. Mən yolun o biri tayında idim. Həmişə yolun kənarı ilə gəlib hərəmə daxil olardı. Bu dəfə isə gördüm ki, yolu keçib mənə sarı gəlir. Hiss etdim ki, mənə yaxınlaşır. Mən də hörmət əlaməti olaraq ona sarı gedib görüşüb salamlaşdım. O, salamımın cavabını aldıqdan sonra cibindən bir tümən çıxarıb mənə verdi və buyurdu: "O pulla yox, bu pulla qüsl verərsən." Mən başa düşdüm ki, Ayətullah Nəcəfi mənim boynumda qüsl olmasından və gecə sürücülərdən pul almağımdan belə xəbərdardır. Həmin gündən bütün çirkin əməllərimə tövbə etdim və bir daha heç bir kəsdən rüşvət almadım."

Bizim bu bəhsimizdə söhbət adlarını çəkdiyimiz kimi təqvalı, nurani və imanlı alimlərdən gedir. Belə alimlərə qiyamət günü şəfaət etmək izni veriləcək.

## Şəhidlərin şəfaəti

Allah-təala alimlərdən sonra qiyamət günü şəhidlərə də şəfaət məqamını nəsib edəcək. Həzrət Əli(ə) ordunu Siffeyn müharibəsinə hazırlamaq üçün bir xütbə oxuyaraq camaatı döyüşə həvəsləndirirdi. Xütbədən sonra bir nəfər cavan oğlan ayağa qalxıb Həzrətdən(ə) Allah yolunda cihad edən və şəhid olanın fəzilətləri barədə soruşdu. Həzrət Əli(ə) buyurdu: "Biz Peyğəmbərin(s) hüzurunda olarkən bir nəfər də bu sualı vermişdi. Həzrət Peyğəmbər(s) onun cavabında belə buyurdu:

...وَإِذَا كَانَ يَومُ القِيَامَة، يَخرُجُ مِن قَبرِهِ شَاهِراً سَيفَه وَ تَشخَبُ أَودَاجُهُ دَماً، وَاللَّونُ لَونُ الدَّم، وَالرَّائِحَةُ رَائِحَةُ الْمِسك... فَوَالَّذِي نَفسِي بِيَدِهِ، لَوكَانَ الأَنبِيَاءُ عَلى طَرِيقِهِم لَتُرَجِّلُوا لِمَا يَرَونَ مِن بَهَائِهِم... وَيَشفَعُ الرَّجُل مِنهُم سَبعِينَ أَلفاً مِن أَهلِ بَيتِهِ وَجِيرَتِهِ، أَنَّ الْجَارِينَ يَختَصِمَانِ أَيُّهُمَا أَقرَب، فَيقعُدُونَ مَعهُ وَمَعَ إِبرَاهِيم عَلَى مَائِدَةِ الْخُلدِ، فَيَنظُرُون إِلَى اللهِ تَعَالَى بُكرَةٍ وَعَشِيّةٍ

-Qiyamət baş verən zaman (şəhid) qılıncı əlində yaralarından qan axdığı halda qəbirdən çıxar. Onun yaralarından axdığı qanın rəngi qırmızı olmasına baxmayaraq, ondan müşk ətri ətrafa yayılar... And olsun canım əlində olan Allaha, o (şəhid) cənnətə getdiyi yolda hər hansı bir peyğəmbərlə qarşılaşdıqda həmin peyğəmbər öz miniyindən enib ona ehtiram göstərər. Hər bir şəhidə öz ailəsindən və qonşularından yetmiş min nəfərə şəfaət etməyə icazə veriləcək. Orada onun dünyadakı qonşuları hansının ona yaxın qonşu olması barədə bir-biri ilə höccət edəcəklər. Beləliklə, həmin şəhid şəfaət etdiyi yetmiş min nəfərlə və Həzrət İbrahim Peyğəmbərlə(ə) birgə əbədiyyət süfrəsinin kənarında əyləşəcəklər. Onlar hər sübh və axşam Allahın əzəmətini görəcəklər.[1]

[1] Məcməül-bəyan, 2-ci cild, səh. 538.

## Quranın şəfaəti

Həzrət Peyğəmbərin(s) və məsum imamların hədislərində belə nəql olunmuşdur ki, qiyamət gününün şəfaətçilərindən biri Qurandır. Yəni qiyamət günü Quran da öz şəfaətini verəcəkdir.

قَالَ رَسُولُ اللهِ(ص): الشُّفعاء خَمسَةٌ:...القرآن

-Həzrət Peyğəmbər(s) buyurur: "Şəfaət edənlər beşdir: ...Onlardan biri də Qurandır."[1]

Quran hər bir insanın həyat proqramıdır. Quran insana bu dünyada doğru yolu göstərməklə yanaşı, qiyamət günü də şəfaət edəcəkdir. Buna görə də İslam Peyğəmbəri(s) hər bir müsəlmana Quranı öyrənməyi təkid etmişdir.

قَالَ رَسُولُ اللهِ(ص): تَعلَّمُ القرآن فَإِنَّهُ شَافِعٌ يَومَ القِيَامَة

-Həzrət Peyğəmbər(s) buyurur: "Quranı öyrənin. Çünki Quran qiyamət günü şəfaətçidir."[2]

## Möminlərin və mələklərin şəfaəti

Hədislərdə belə nəql olunur ki, qiyamət gününün şəfaətçilərindən biri möminlər, biri də mələklər olacaqdır.

قَالَ رَسُولُ اللهِ(ص): اَلشَّفَاعَةُ لِلأَنبِيَاءِ وَ الأَوصِيَاءِ وَلْمُؤمِنِين وَ الْمَلائِكَة

[1] Mizanül-hikmə,6-cı cild, hədis-9508.
[2] Mizanül-hikmə,6-cı cild, hədis- 9509.

-Həzrət Peyğəmbər(s) buyurur: “Şəfaət etmək (Allahın izni ilə) peyğəmbərlərə, vəsilərə, möminlərə və mələklərə məxsusdur.” [1]

İmam Səccadın(ə) Əbu Əymən adlı bir qulamı var idi. İmam Səccad(ə) şəhid olduqdan sonra Əbu Əymən bir gün İmam Baqirdən(ə) soruşdu: “Siz hey Məhəmmədin(s) şəfaəti, Məhəmmədin(s) şəfaəti deyirsiniz. Bu şəfaət nə olan şeydir belə?”

İmam Baqir(ə) buyurdu: “Vay olsun sənə! Qarnın və şəhvətin səni o qədər aldadıb ki, belə sözlər danışırsan. Əgər qiyamətin o çətinliklərini görə bilsəydin, şəfaətə necə möhtac olduğunu başa düşərdin. Qiyamət günü hamı Peyğəmbərin(s) şəfaətinə möhtac olacaq. Məhəmməd Peyğəmbər(s) öz ümmətinə, biz şiələrimizə, şiələrimiz də öz ailələrinə şəfaət edəcəklər.”[2]

Burada bir məsələni də qeyd etmək lazımdır ki, şəfaətin şərtləri vardır. Yəni həm şəfaət edən kəs, həm də şəfaət olunan kəs bu şərtlərə riayət etməlidir. Çünki qiyamət günü şəfaət etməyə layiq olmayan insanlar nə şəfaət edə bilər, nə də şəfaətə layiq olmayanlara şəfaət göstərilə bilər.

## Orucun şəfaəti

Bu bəhsimizin əvvəlində qeyd olundu ki, mübarək ramazan ayının adlarından biri ayların ağasıdır. Bununla yanaşı, Allah-təala orucun özünə şəfaət etmək məqamını bəxş edəcək. Yəni oruc dünyada oruc tutanlara qiyamət günü şəfaətçi olacaqdır.

---

[1] Yenə orada,6-cı cild, hədis-9503.

[2] Beş yüz dastan, 2-ci cild, səh. 347.

قَالَ رَسُولُ اللهِ(ص): اَلصِّيَامُ وَ القُرآنُ يَشفَعَان لِلعَبدِ يَومَ القِيَامَة
يَقولُ الصِّيامُ: أي رَبِّ، مَنَعتُهُ الطَّعامَ وَالشَّهَواتِ بِالنَّهارِ؛ فَشَفِّعني
فيهِ، وَيقولُ القُرآنُ: مَنَعتُهُ النَّومَ بِاللَّيلِ؛ فَشَفِّعني فيهِ . قالَ . :
فَيُشَفَّعانِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Qiyamət günü oruc və Quran bəndəyə şəfaətçi olacaqlar. Oruc deyəcək: İlahi, mən bu bəndəni yeməklərdən və ürəyinin istəklərindən saxladım. Mənim şəfaətimi onun barəsində qəbul et.

Quran deyəcək: İlahi, mən onu gecə yuxusundan saxladım. Mənim şəfaətimi onun barəsində qəbul et.

Belə isə onların hər ikisinin şəfaəti qəbul olunacaq."[1]

Burada bir mətləbi də əlavə olaraq nəzərinizə çatdırmaq istərdim. Həmin mətləb budur ki, orucluqda Allah-təala möminlərə iki imtiyaz verir. Həmin imtiyazlardan biri budur ki, insan ramazan ayında özünü elə bir dərəcəyə çatdıra bilər ki, qiyamət günü tutduğu oruc ona şəfaət edər. Yəni yaxşı oruc tutmaqla, özünü haramlardan qorumaqla bu imtiyazı qazana bilər. İkincisi isə Allah-təala Qədr gecəsində hər bir mömin̈ə qiyamət günü bəzilərinə şəfaət etmək imtiyazı verir.

[1] Mizanül-hikmə, 6-cı cild, hədis-95١١.

قَالَ رَسُولُ اللهِ(ص): يَأمُرُ اللّهُ مَلَكا يُنادي في كُلِّ يَومٍ مِن شَهرِ رَمَضانَ فِي الهَواءِ : أبشِروا عِبادي! فَقَد وَهَبتُ لَكُم ذُنوبَكُمُ السّالِفَة ، وشَفَّعتُ بَعضَهُم في بَعضٍ في لَيلَةِ القَدرِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Allah-təala bir mələyə əmr verir ki, ramazan ayının hər günü car çəkib səsləsin: Ey mənim bəndələrim, müjdə! Sizin keçmiş günahlarınızı bağışladım və Qədr gecəsində sizin bir-birinizə olan şəfaətinizi qəbul etdim."[1]

**24. Quranın baharı**

Mübarək ramazan ayının adlarından biri "Quranın baharı"dır.

قَالَ البَاقِرُ(ع): لِكُلِّ شَيءٍ رَبيعٌ، ورَبيعُ القُرآنِ شَهرُ رَمَضانَ

-İmam Baqir(ə) buyurur: "Hər bir şeyin baharı vardır. Quranın baharı isə ramazandır."[2]

**25. Fəqirlərin baharı**

Hədislərə əsasən ramazan ayının bir adı "fəqir və yoxsulların baharı"dır.

قَالَ رَسُولُ اللهِ(ص): رَمَضانُ شَهرُ اللّهِ، وهُوَ رَبيعُ الفُقَراءِ

-Həzrət Peyğəmbər(ə) buyurur: "Ramazan Allahın ayı və fəqirlərin baharıdır."[3]

---

[1] Allahın ayı, 1-ci cild, səh.54.
[2] Allahın ayı, 1-ci cild, səh.328.
[3] Yenə orada, 1-ci cild, səh.38.

قَالَ رَسُولُ اللهِ(ص): رَمَضانُ شَهرُ اللّهِ تَبارَكَ وتَعالى اِستَكثِروا فيهِ مِنَ التَّهليلِ وَالتَّكبيرِ وَالتَّحميدِ وَالتَّمجيدِ وَالتَّسبيحِ، وهُوَ رَبيعُ الفُقَراءِ، وإنَّما جَعَلَ اللّهُ الأَضحى لِتَشبَعَ المِساكينُ مِنَ اللَّحمِ ، فَأَظهِروا مِن فَضلِ ما أنعَمَ اللّهُ بِهِ عَلَيكُم عَلى عِيالاتِكُم وجيرانِكُم، وأحسِنوا جِوارَ نِعَمِ اللّهِ عَلَيكُم، وواصِلوا إخوانَكُم، وأطعِمُوا الفُقَراءَ وَالمِساكينَ مِن إخوانَكُم؛ فَإِنَّهُ مَن فَطَّرَ صائِما فَلَهُ مِثلُ أجرِهِ مِن غَيرِ أن يَنقُصَ مِن أجرِهِ شَيئا...

-Həzrət Peyğəmbər(s) buyurur: "Ramazan ayı Allah-təalanın ayıdır. Bu ayda daha çox "La ilahə illəllah", təkbir deyib çoxlu həmd və zikr edin. Bu ay yoxsulların baharıdır. Allah-təala Qurban bayramını qərar verdi ki, imkansızlar o gün kəsilən qurbanların ətindən yeyib doysunlar. Allahın sizə verdiyi fəzl və nemətlərindən öz ailənizdə və qonşularınızda aşkara çıxarın. Allahın verdiyi nemətlərlə qonşularınıza ehsan və yaxşılıq edin. Mömin qardaşlarınızla əlaqələr yaradın. Əlacsız və yoxsul qardaşlarınızı doyuzdurun. Həqiqətən, hər kəs bir oruc tutana iftar versə, onun üçün də o (oruc tutan) qədər savab yazılar. Belə ki, oruc tutanın savabından belə azalmaz."[1]

Bu bəhsimiz mübarək ramazan ayının adları ilə bağlı olduğundan nümunə olaraq bir neçəsinin adını nəzərinizə çatdırdım. Əlbəttə, burada qeyd etmək

[1] Yenə orada, 1-ci cild, səh.352.

lazımdır ki, hədis və rəvayətlərə əsasən saydığımız adlardan başqa mübarək ramazan ayının "Möminlərin baharı", "Müsabiqə və yarış ayı", "Allahın möminlərin ruzisini artırdığı ay", "Ruzili ay" və "Azadlıq ayı" kimi adları da vardır.

## Mübarək ramazan ayının fəzilətləri

Ötən bəhslərimizdə orucun və mübarək ramazan ayının barəsində lazımi qədər söhbət etdik. Həmçinin nümunə olaraq bu ayın müxtəlif adları ilə tanış olduq. Bu bəhsimizdə isə mübarək ramazan ayının fəzilət və üstünlükləri barədə söz açmaq istərdim. Əlbəttə, ramazan ayının fəzilətləri haqda çox hədis və rəvayətlər nəql olunmuşdur ki, orucluq barədə olan bu bəhsimizi Cabir ibn Abdullah Ənsarinin İslam Peyğəmbərindən(s) nəql etdiyi bir hədislə başlayıb yekunlaşdıraq.

عن جابر بن عبد اللّه عن رسول اللّه(ص): أُعطِيَت أُمَّتي في شَهرِ رَمَضانَ خَمسا لَم يُعطَهُنَّ أُمَّةُ نَبِيٍّ قَبلي:

أمّا واحِدَةٌ: فَإِذا كانَ أَوَّلُ لَيلَةٍ مِن شَهرِ رَمَضانَ نَظَرَ اللّهُ عَزَّ وَ جَلّ إِلَيهِم، ومَن نَظَرَ اللّهُ إِلَيهِ لَم يُعَذِّبهُ أَبَدا .

-Cabir ibn Abdullah Ənsari İslam Peyğəmbərindən(s) ramazan ayının barəsində belə bir hədis nəql edir: Mənim ümmətimə ramazan ayında beş nemət və üstünlük verilmişdir ki, məndən qabaqkı heç bir peyğəmbərin ümmətinə verilməyib.[1]

[1] Allahın ayı, 1-ci cild, səh.68.

Onlardan birincisi budur ki, ramazan ayının ilk gecəsi Allah-təala onlara (mənim ümmətimə lütf və mərhəmətlə) nəzər edəcək. Bu, Allahın elə bir nəzəridir ki, hər kəsə belə nəzər etsə, heç bir vaxt insanı əzaba düçar etməz.

وأمّا الثّانِيَةُ: فَإِنَّ خُلوفَ أفواهِهِم –حينَ يمسونَ– عِندَ اللّهِ عز و جل أطيَبُ مِن ريحِ المِسكِ .

-(Allahın mənim ümmətimə bəxş etdiyi) ikinci nemət budur ki, oruc tutan insanın axşama yaxın ağzından gələn xoşagəlməz iy Allah yanında müşk iyindən gözəl hesab olunar.

قالَ الصّادِقُ(ع): أوحَى اللّهُ إلى موسى عليه السلام : «ما يمنَعُكَ مِن مُناجاتي؟» فَقالَ : يا رَبِّ، أُجِلُّكَ عَنِ المناجاةِ لِخُلوفِ فَمِ الصّائِمِ. فَأَوحَى اللّهُ عز و جل إلَيهِ: «يا موسى، لَخُلوفُ فَمِ الصّائِمِ أطيَبُ عِنديمِن ريحِ المِسكِ

-İmam Sadiq(ə) buyurur: "Allah-təala Həzrət Musaya(ə) vəhy etdi: Mənimlə minacat etməyinə mane olan nədir? Musa(ə) ərz etdi: İlahi, oruc tutarkən ağzımdan xoşagəlməz iy gəldiyi üçün məni bu işdən saxlayıb. Allah-təala buyurdu: Ey Musa, oruc tutan insanın ağzından gələn iy mənim yanımda müşk ətrindən daha ətirlidir."[1]

وأمّا الثّالِثَةُ : فَإِنَّ المَلائِكَةَ يَستَغفِرونَ لَهُم في لَيلِهِم ونَهارِهِم .

---

[1] Allahın ayı, 1-ci cild, səh.116.

-(Allahın mənim ümmətimə bəxş etdiyi) üçüncü nemət budur ki, orucluq günlərinin hər gecə və gündüzündə mələklər onlar üçün Allahdan məğfirət və bağışlanmaq diləyərlər.

قَالَ رَسُولُ اللهِ(ص): ومَن شَهِدَ رَمَضانَ استَغفَرَ لَهُ كُلَّ يومٍ سَبعونَ ألفَ مَلَكٍ مِن صَلاةِ الغَداةِ إلى أن تَوارى بِالحِجابِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kəs ramazan ayına çatsa (oruc tutsa) hər gün yetmiş min mələk sübh namazından gün batana qədər həmin şəxs üçün Allahdan bağışlanma diləyər."[1]

قَالَ الصَّادِقُ(ع): مَن صامَ لِلّهِ عَزَّ وَ جَلَّ يوماً فِي شِدَّةِ الحَرِّ فَأَصابَهُ ظَمَأٌ، وَكَّلَ اللّهُ بِهِ أَلفَ مَلَكٍ يَمسَحونَ وَجهَهُ ويُبَشِّرونَهُ، حَتّى إِذَا أَفطَرَ. قَالَ اللّهُ عَزَّ وَ جَلّ لَهُ: «مَا أطيَبَ رِيحَكَ ورَوحَكَ! مَلائِكَتِي، اِشهَدوا أَنّي قَد غَفَرتُ لَهُ

-İmam Sadiq(ə) buyurur: "Hər kəs isti günlərdə Allaha xatir oruc tutsa və istinin şiddətindən susasa, Allah-təala min mələyə iftara qədər onun üzünə əl çəkmək və onu müjdələmək əmrini verər. (İftar zamanı) Allah-təala həmin şəxsə buyurar: Sənin ruhundan necə də gözəl qoxu gəlir. (Sonra mələklərə buyurar) Mənim mələklərim, şahid olun ki, Mən onu bağışladım."[2]

---

[1] Yenə orada, 1-ci cild, səh.68.
[2] Yenə orada, 1-ci cild, səh.116.

قَالَ رَسُولُ اللهُ(ص): ما مِن صائِمٍ يَحضُرُ قَوما يَطعَمونَ إلاّ سَبَّحَت لَهُ أَعضَاؤُهُ، وَكانَت صَلاةُ المَلائِكَةِ عَلَيهِ، وَكانَت صَلاتُهُم اِستِغفَارا

-Həzrət Peyğəmbər(s) buyurur: “Yemək yeyənlərin arasında oruc tutan elə bir kəs yoxdur ki, bədən üzvləri zikr deməsin və mələklər ona salam göndərməsin. Mələklərin salamı o insan üçün Allahdan elə həmin bağışlanma diləməkdir.”[1]

Burada bir mətləbi də nəzərinizə çatdırım ki, bu məsələ istər oruc ramazan ayı kimi vacib olan günlərdə olsun, istərsə də müstəhəb orucu olmuş olsun. Yəni bir nəfər elə bir yerdədir ki, ramazan ayında ondan başqa heç bir kəs oruc tutmayıb. Hamı yeyir, amma bu insan Allaha xatir orucunu tutur. Həmçinin adi günlərdə müstəhəb oruc tutur və öz işi ilə məşğul olur. İşlədiyi yerdə isə hamının nahar yeyib çay içməsinə baxmayaraq, bu insan orucunu sındırmır. Yaxud bir qadın evdə oruc tutur, amma evdə xəstəsi və yaxud uşaqları vardır. Onlar üçün yemək hazırlayıb yedizdirməsinə baxmayaraq, öz orucunu sındırmır. Belə olduqda hədisdə buyurulduğu kimi, bütün bədən üzvləri Allaha zikr edir və mələklər onu salamlayırlar.

Günlərin birində Həzrət Peyğəmbər(s) səhabələrlə əyləşib səhər yeməyi yeyirdi. Elə bu zaman Bilal içəri daxil oldu. Peyğəmbər(s) ona buyurdu: “Gəl, səhər yeməyi ye. Bilal dedi: Ya Rəsulallah, mən oruc tutmuşam. Həzrət Peyğəmbər(s) buyurdu:

[1] Yenə orada, 1-ci cild, səh.118.

نَأكُلُ أرزاقَنا وفَضلُ رِزقِ بِلالٍ فِي الجَنَّةِ . أشَعَرتَ يا بِلالُ أنَّ الصّائِمَ تُسَبِّحُ عِظامُهُ وتَستَغفِرُ لَهُ المَلائِكَةُ ما أُكِلَ عِندَهُ

-Biz öz ruzimizi yeyirik, Bilalın ruzisi isə cənnətdədir. Ey Bilal, bilirsənmi? Yemək yeyənlərin içində olub oruc tutan şəxsin hətta sümükləri belə Allaha təsbih deyir və mələklər onun üçün Allahdan bağışlanma diləyirlər.”[1]

وأمَّا الرّابِعَةُ: فَإِنَّ اللّهَ يَأمُرُ جَنَّتَهُ أنِ استَغفِري وتَزَيَّني لِعِبادي، فَيوشِكُ أن يَذهَبَ عَنهُم نَصَبُ الدُّنيا وأذاها ويَصيروا إلى جَنَّتي وكَرامَتي .

-Əvvəl qeyd etdiyimiz hədisdə Həzrət Peyğəmbər(s) buyurur: “(Allahın mənim ümmətimə bəxş etdiyi) dördüncü nemət budur ki, Allah-təala cənnətə əmr verər ki, bəndələrim üçün istiğfar et və özünü bəzə. Çox az qalıb ki, onlar dünyanın əzab- əziyyətlərindən qurtarıb Mənim cənnətimə və kəramətimə üz tutsunlar.”

Burada qarşıya belə bir sual çıxır ki, cənnətin istiğfar etməsi nə deməkdir? Cavab olaraq deyə bilərik ki, cənnətin həmin bəndələr üçün bəzənməsi və şövqü onun istiğfarıdır. Hamının cənnətə şövq və meyli vardır, amma cənnətin hər adama şövqü yoxdur. O, bəzi insanlardır ki, cənnət onların müştağıdır. Biri var ki, insan cənnəti gözləsin, biri də var ki, cənnət onları gözləsin. İnsanlardan elələri vardır ki, onların məqamı Allah yanında tamamilə başqa cürdür. Cənnət də məhz

---

[1] Allahın ayı, 1-ci cild, səh.120.

belə insanların şövqündədir. “Zumər” surəsinin 73-74-cü ayələrində oxuyuruq:

وَسِيقَ الَّذِينَ اتَّقَوْا رَبَّهُمْ إِلَى الْجَنَّةِ زُمَرًا حَتَّى إِذَا جَاؤُوهَا وَفُتِحَتْ أَبْوَابُهَا وَقَالَ لَهُمْ خَزَنَتُهَا سَلَامٌ عَلَيْكُمْ طِبْتُمْ فَادْخُلُوهَا خَالِدِينَ. وَقَالُوا الْحَمْدُ لِلَّهِ الَّذِي صَدَقَنَا وَعْدَهُ وَأَوْرَثَنَا الْأَرْضَ نَتَبَوَّأُ مِنَ الْجَنَّةِ حَيْثُ نَشَاء فَنِعْمَ أَجْرُ الْعَامِلِينَ

-Rəbblərindən qorxanlar (isə) dəstə-dəstə cənnətə tərəf aparılarlar. Nəhayət, ora çatanda onun qapıları (daxil olmaq üçün onların üzünə) açılar. Onun gözətçiləri onlara deyərlər: “Salam olsun sizə! (Həm cisim, həm də ruh baxımından) pak oldunuz. Buna görə də əbədi məskunlaşmaq üçün ora daxil olun!”

(Orada məskunlaşdıqdan sonra) deyərlər: “Şükür bizim barəmizdəki vədini gerçəkləşdirən və cənnət yerini irsi olaraq bizə verən Allaha məxsusdur ki, cənnətin istədiyimiz yerində məskən seçirik. Əməl edənlərin mükafatı gözəldir!”

İnsan dünyaya gələn gündən ölənə qədər bu dərəcə və məqamın arzusu ilə yaşayır. Oraya yetişdikdən, yəni cənnətdə məskunlaşdıqdan sonra Allaha şükür edəcəklər. Belə olduqda mələklər onları salamlayıb təbrik edəcəklər. “Rəd” surəsinin 23-24-cü ayəsində oxuyuruq:

وَالمَلاَئِكَةُ يَدْخُلُونَ عَلَيْهِم مِّن كُلِّ بَابٍ. سَلاَمٌ عَلَيْكُم بِمَا صَبَرْتُمْ فَنِعْمَ عُقْبَى الدَّارِ

-Və mələklər hər bir qapıdan onların yanına daxil olarlar. (Və deyərlər:) “Səbir və dözümlülüyünüzün

müqabilində salam olsun sizə! O dünyanın sonu (olaraq bura) nə gözəldir!”

Mələklərin bu sözlərini eşitmək üçün arif, abid və təqvalı insanlar yetmiş, səksən il ibadət edirlər. Cənnəti insana elə belə verməzlər. Cənnəti qazanmaq üçün bir ömür zəhmət lazımdır.Cənnəti qazanmaq üçün insan bür ömür günahlar qarşısında səbir edərək onlardan çəkinməlidir. Belə olduqda Allah-təala həmin insana cənnəti bəxş edəcək.

Həzrət Əi(ə) buyurur: “Cənnət əhli ora girməzdən öncə cənnətin qapısının kənarında bir ağac görəcəklər ki, altından iki bulaq axır. O çeşmələrin birində yuyunduqda bədənlərinin bütün qüsur və nöqsanları aradan gedəcək. İkinci çeşmədə yuyunduqda isə daxili eyib və nöqsanları təmizlənəcək.”

“Hicr” surəsinin 45-47-ci ayələrində oxuyuruq:

إِنَّ الْمُتَّقِينَ فِي جَنَّاتٍ وَعُيُونٍ. ادْخُلُوهَا بِسَلاَمٍ آمِنِينَ. وَنَزَعْنَا مَا فِي صُدُورِهِم مِّنْ غِلٍّ إِخْوَانًا عَلَى سُرُرٍ مُّتَقَابِلِينَ

-Və həqiqətən pəhrizkarlar bağlarda və bulaqlar(ın başın)da olacaqlar. (Daxil olan zaman onlara) “(Allah və mələklər tərəfindən olan) salamla oraya daxil olun ki, amanda olacaqsanız.” Və onların qəlblərində olan kin-küdurəti (batil düşüncələr və xarab xislətləri) elə çıxarıb atdıq ki, taxtlar üzərində qardaşcasına bir-birilərinin qarşısında əyləşərlər.

Deməli, cənnət əhli cənnətə daxil olmazdan öncə orada olan iki bulaqda yuyunacaqlar. Bulaqların birində yuyunarkən korluq, şikəstlik və bu kimi cismani qüsurları aradan gedəcək. İkinci çeşmədə yuyunduqda isə ürəklərində olan xırda kin, paxıllıq, qaralıq və s. kimi

digər ruhani çirkinlikləri də təmizlənəcək. Cismani və ruhi nöqsanlar təmizləndikdən sonra cənnətə daxil olacaqlar.

Həzrət Peyğəmbər(s) buyurur: "Cənnət əhli oranın böyük qapısına çatdıqda mələklər qapının halqasını çalarlar. Halqanın zəngi o qədər ürəyəyatan olar ki, onun səsini hurilər də eşidər. Onlar bir-birinə deyərlər ki, Allah dostları gəldilər. Sonra cənnətin qapısını onların üzünə açarlar. Cənnətdə məskunlaşdıqdan sonra hurilər gəlib onlara belə deyər: Xoş gəlmisiniz. Bizim sizin görüşünüzə sizdən daha çox şövqümüz vardır."

Hətta hədis və rəvayətlərdə belə nəql olunur ki, cənnətə gedən qocalar ilk növbədə cavanlaşıb sonra gedəcəklər. Səfiyyə Həzrət Peyğəmbərin(s) bibisi idi. Bir gün Peyğəmbərin(s) hüzuruna gəlib dedi: "Ya Rəsulallah, dua elə, cənnətə gedim. Peyğəmbər(s) zarafatyana buyurdu: Qocalar cənnətə getməyəcək. Səfiyyə qoca qarı olduğu üçün bu sözü eşitdikdə ağlaya-ağlaya getdi. Peyğəmbər(s) təbəssümlə buyurdu: Gedin, ona deyin ki, əvvəl cavanlaşacaq, sonra cənnətə gedəcək."

Peyğəmbər(s) Ümmi-Sələməyə buyurdu: "Allah-təala saçları ağarmış qoca qadınları cavanlaşdırıb gözəl və cavan qız surətinə salaraq cənnətə daxil edəcək." [1]

قَالَ رَسُولُ اللهِ(ص): اَلْحَسَنُ وَ الْحُسَين سَيِّدَا شَبابِ اَهلِ الْجَنّة

-Həzrət Peyğəmbər(s) buyurur: "Həsən və Hüseyn cənnət cavanlarının ağasıdır."[1]

[1] Təfsiri-nur, 11-ci cild, səh.71.

Bəziləri elə güman edirlər ki, cənnətdə qocaların ağası başqaları və cavanların ağası isə İmam Həsən və İmam Hüseyn(ə) olacaqlar. Xeyr, hədislərdə belə bir söhbət yoxdur. Orada qoca olmayacaq ki, onun üçün də bir ağa təyin etsinlər. Peyğəmbər(s) buyurur ki, qocalar cavanlaşıb cənnətə daxil olacaqlar, İmam Həsən(ə) və İmam Hüseyn(ə) də onların ağası olacaqlar.

Möminlər Peyğəmbərin(s) dilindən cənnətin adını və nemətlərini eşidərkən qəlblərində cənnətə şövq və meyl yaranırdı. Peyğəmbər(s) cənnətdən danışarkən şövqdən möminlərin az qalırdı ki, bağrı yarılsın. Günlərin birində qaradərili bir mömin Peyğəmbərin(s) hüzuruna gəlib ərz etdi: "Ya Rəsulallah, sizə zikr və təsbih etmək barədə suallarım var." O, bir neçə sual verdikdən sonra Ömər ibn Xəttab onun üstünə bozarıb dedi: "Suallarınla Peyğəmbəri(s) yorma." Peyğəmbər(s) Ömərə buyurdu: "Sakit ol. Qoy suallarını soruşsun." Bundan sonra "İnsan" surəsinin 1-21-ci ayələri nazil oldu. Peyğəmbər(s) həmin ayələri oradaca oxumağa başladı. Elə bu zaman həmin qaradərili mömin dərindən ah çəkib dünyasını dəyişdi. Peyğəmbər(s) buyurdu: "Bu mömin cənnətin şövqündən canını tapşırdı."

Yuxarıda qeyd olunan ayə və hədislərdən görürük ki, bəzi insanlar cənnətin şövqü ilə yaşayır və Allahdan oraya getmələrini arzulayırlar. Lakin bəzi insanlar da vardır ki, cənnət onların arzusundadır. Bu barədə də bir çox hədislər nəql olunmuşdur ki, onlardan biri belədir.

Ənəs ibn Malik deyir: "Günlərin birində Həzrət Peyğəmbər(s) buyurdu: Cənnət dörd nəfərin

---

[1] İmam Hüseynin xüsusiyyətləri, səh.71. Səhihi-Tirmizi, 2-ci cild, səh.191. Müsnədi Əhməd ibn Hənbəl, 3-cü cild, səh.43.

arzusundadır.” Peyğəmbərin(s) əzəməti məni bürüdüyü üçün həmin dörd nəfərin adını soruşmağa cürət edə bilmədim. Həzrətdən(s) ayrılıb getdim. Amma həmin dörd nəfərin kim olduğunu bilmək mənim üçün çox maraqlı idi. Əbu Bəkrin yanına gedib Peyğəmbərin(s) buyurduğu hədisi ona danışdım və dedim: Mən həmin dörd nəfərin adını Peyğəmbərdən(s) soruşmağa utandım. Bəlkə sən onların adını soruşasan. Çox istərdim ki, onların adını öyrənim. Əbu Bəkr bir az fikirləşib dedi: Sözün düzü, mən Peyğəmbərdən(s) onların adını soruşmaq istəmirəm. Ənəs soruşdu: Səbəbi nədir? Əbu Bəkr dedi: Birdən mən həmin dörd nəfərin içərisində olmasam, Bənu-Təmim qəbiləsi arasında biabır olaram. (Əbu Bəkr siyasi baxımdan bunu düz fikirləşmişdi.) Sonra Ənəs Öმərin yanına gəlib dedi: Peyğəmbərdən(s) həmin dörd nəfərin adını soruşa bilərsənmi? Mən Əbu Bəkrə dedim, o, imtina edərək söylədi ki, əgər birdən mənim adım həmin dörd nəfərin arasında olmasa, öz qəbiləmin içərisində biabır olaram. Ömər də bir qədər fikirləşib Əbu Bəkrin söylədiyini təsdiqləyərək dedi: Əgər birdən mən də həmin dörd nəfərdən biri olmasam, Bəni-Ədi qəbiləsi məni məzəmmət edəcək. Mən də soruşa bilmərəm.”

Ənəs ibn Malik deyir: “Sonra Osmanın yanına gedib məsələni ona danışdım. Osman da Peyğəmbərdən(s) həmin dörd nəfərin adını soruşmaqdan imtina edib dedi: Əgər mən də o dörd nəfərdən biri olmasam, qorxuram ki, Bəni-Üməyyə tayfasının arasında abrım getsin. Bu söhbətdən bir neçə gün keçdikdən sonra Həzrət Əlinin(ə) yanına getdim. Həzrət Əli(ə) öz bağında quyudan su çəkib ağacları suvarırdı. Peyğəmbərin(s) hədisini ona

söylədikdən sonra xahiş etdim ki, Peyğəmbərdən(s) həmin dörd nəfərin adını soruşsun. Həzrət Əli(ə) razılıq verərək buyurdu: "Elə isə dur gedək və soruşaq. Əgər mənim adım həmin dörd nəfərin içərisində olsa, Allahıma şükür edərəm. Yox, əgər olmasa, dua edib Allahdan istəyərəm ki, mənim də adımı onların cərgəsinə yazsın."

Ənəs deyir: "Həzrət Əli(ə) ilə birgə Peyğəmbərin(s) evinə gəldik. İçəri girəndə gördük ki, Dehyi Kəlbi[1] əyləşib və Peyğəmbərin(s) başı onun dizinin üstündədir. Dehyi Kəlbi Həzrət Əlini(ə) görən kimi ayağa qalxıb dedi: Ey Əmirəlmöminin, gəl və əmin oğlunun başını sən dizinin üstünə qoy. Çünki sən buna məndən daha layiqsən. Həzrət Əli(ə) Peyğəmbərin(s) yanında əyləşib Həzrətin(s) mübarək başını dizinin üstünə qoydu. O anlar elə anlar idi ki, Peyğəmbərə(s) Quran ayələri nazil olurdu. Bu hallarda Peyğəmbərin(s) halı çox dəyişərdi. Peyğəmbərə(s) ayə nazil olan vaxtlarda başını Həzrət Əlinin(ə) dizi üstünə qoyardı. İndi də həmin hallardan biri idi. Dehyi Kəlbi getdikdən sonra Peyğəmbər(s) gözlərini açıb Əlinin(ə) üzünə baxaraq buyurdu: "Ya Əli, elə bil nə isə soruşmaq üçün gəlmisən." Həzrət Əli(ə) dedi: Bəli, ya Rəsulallah. Peyğəmbər(s) buyurdu: Ya Əli, o qoca kişini tanıdınmı? Həzrət Əli(ə) dedi: Ya Rəsulallah, o kim idi? Peyğəmbər(s) buyurdu: O, cənab Cəbrayıl(ə) idi. Səni ilk dəfə "Əmirəlmöminin"- deyə çağıran kəs odur. Sonra Həzrət Əli(ə) soruşdu: Ya Rəsulallah, cənnətin arzu etdiyi dörd nəfər kimlərdir? Həzrət(s) buyurdu: Əli can, and olsun Allaha ki, onların

---

[1] Peyğəmbərin(s) nurani və qoca səhabələrindən biri idi. Həzrət Cəbrayıl(ə) çox vaxt onun surətində Peyğəmbərin(s) yanına gələrdi.

birincisi sənsən. Həzrət Əli(ə) Allaha şükür etdikdən sonra ərz etdi: Ya Rəsulallah, bəs qalan üç nəfər kimdir? Peyğəmbər(s) buyurdu: Miqdad, Salman və Abuzər."[1]

Hədis və rəvayətlərə əsasən cənnətin müxtəlif qapıları vardır. Həmin qapılardan biri oruc qapısıdır. Yəni o qapıdan içəri keçməyə yalnız oruc tutanlara icazə veriləcək. Həzrət Peyğəmbər(s) buyurur:

إِنَّ لِلْجَنَّةِ بَابًا يُدْعَى الرَّيَّانَ لا يَدْخُلُ مِنْهُ إِلا الصَّائِمُونَ

-Cənnətin Rəyyan adlı bir qapısı vardır ki, oruc tutanlardan savayı başqa heç bir kəs o qapıdan içəri keçə bilməz.

Cənnətin qapılarından birinin adı da "Rəhmətəllahil-vasiə" adlanır ki, bu qapı İmam Hüseynin(ə) qapısıdır. Həzrət Peyğəmbər(ə) buyurmuşdur:

اَلاَ و اَنَّ الحُسَيْنَ بَابٌ مِنْ اَبْوَابِ الجَنَّة، مَنْ عَادَاهُ حَرَّمَ الله عَلَيْهِ رَائِحَةَ الجَنَّةِ

-Həqiqətən, Hüseyn(ə) cənnət qapılarından biridir. Hər kəs onunla düşmənçilik etsə, Allah cənnətin ətrini ona haram edər.

وأَمَّا الخامِسَةُ: فَإِذا كانَ آخِرُ لَيلَةٍ غُفِرَ لَهُم جَميعا. فَقالَ رَجُلٌ: في لَيلَةِ القَدرِ يا رَسولَ اللّه ؟ فَقالَ : أ لَم تَرَ إلَى العُمّالِ إذا فَرَغوا مِن أعمالِهِم وُفّوا؟

[1] Miqdad, səh.54. Gəncineyi məarif, səh.195. ("Məvaizül ədədiyyə" kitabına istinadən)

-Ramazan ayının fəzilətləri barədə bəhsin əvvəlində qeyd olunan hədisdə Həzrət Peyğəmbər(s) buyurur: “(Allahın mənim ümmətimə bəxş etdiyi) beşinci nemət budur ki, ramazan ayının axırıncı gecəsi olan zaman onların (ümmətimdən oruc tutanların hamısının) günahları bağışlanar.”

Söhbətin bu yerində bir nəfər soruşdu: “Ya Rəsulallah, Qədr gecəsində? Peyğəmbər(s) buyurdu: Məgər görməmisənmi ki, bir işçiyə (fəhləyə) işi başa çatdırdıqdan sonra onun muzdunu(n hamısını) verirlər?”

## QURANDA İMAN GƏTİRƏNLƏRƏ XİTABLAR
## (Üçüncü nümunə)

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلتَّقوى وَالْيَقِينِ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَنْبِياءِ وَالْمُرْسَلِيَنَ حَبِيبِنا وَحَبِيبِ اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلى آلِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ وَلَعْنَةُ اللهِ عَلى أَعْدا ئِهِمْ أَجْمَعِينَ مِنَ الآنَ اِلى قِيامِ يَوْمِ الدِّينِ.

### TƏQVA

Ötən bəhslərimizdə Qurani-Kərimdə Allahın iman gətirənlərə etdiyi xitablardan ikinci nümunəni oxuduq. Bu bəhsimizdə də həmin nümunələrdən birini əziz möminlərin nəzərinə ərz edirəm. Allah-təala “Ali-İmran” surəsinin 102-ci ayəsində buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اتَّقُواْ اللّهَ حَقَّ تُقَاتِهِ وَلاَ تَمُوتُنَّ إِلاَّ وَأَنتُم مُّسْلِمُونَ

-Ey iman gətirənlər, Allahdan Ona layiq olan tərzdə qorxun (təqvalı olun) və yalnız müsəlman olaraq ölün.

Allah-təala bu mübarək ayədə möminlərə xitab edərək təqvalı olmalarını təkid edir. Yəni təqvanın haqqına riayət etməklə təqvalı olun. Həmçinin bəyan edir ki, ömrünüzün sonuna qədər imanlı olun və müsəlman kimi ölün. Qeyd olunmalıdır ki, insanın dünyadan iman və yaxud imansız getməsinin səbəblərindən biri keçmişdə etdiyi əməllərdən asılıdır. İnsanın dildə iman gətirməsi mühüm deyil. Tarix boyu o qədər insanların şahidi olmuşuq ki, dildə iman gətirib və kiçik hadisələrin

təsirindən imandan çıxmışlar. İnsan üçün ən mühüm məsələ odur ki, iman gətirib həmin imanla yaşasın və o imanla da dünyadan getsin. Əgər bu barədə və tarixdə iman gətirmiş və sonradan imandan çıxmış insanlardan danışası olsaq, əsas mövzumuz kənarda qalacaq. Sadəcə olaraq bu barədə bir neçə cümlə ilə kifayətlənirəm.

Tarixdə elə insanlar olmuşdur ki, iman gətirdikdən sonra həmişə Peyğəmbərin(s), Həzrət Əlinin(ə) hüzurunda olmasına, müharibələrdə cihad etməsinə baxmayaraq, axırda pozğun adamlar kimi dünyadan getmişlər. O insanların biri Şimrdir ki, hamı onun kim olduğunu bilir. Şimr o kəs idi ki, Siffeyn müharibəsində Həzrət Əlinin(ə) qoşununda İmam Həsən(ə), İmam Hüseyn(ə), Həzrət Əbülfəzllə(ə) birgə düşmən qoşununa tərəf hərəkət edirdi. O, Həzrət Əlini(ə) özünə imam bilirdi. Amma sonunun necə qurtardığı hamıya aydındır. Əgər burada onun hansı səbəblərə görə yoldan çıxdığını və dünyadan imansız getdiyini açıqlasaq bu, uzun söhbətdir. Bunun səbəbini bilmək üçün qısaca bu kəlmə ilə kifayətlənirəm ki, insan ilk növbədə Quran ayələri və hədislərə əsaslanaraq öyrənməlidir ki, müxtəlif hadisələrdə hansı amillər insanı haqq yoldan sapındırar. Həmçinin insanın imanını və təqvasını gücləndirən amilləri bilməlidir. Hər kəs bu amillərlə tanış olsa, o zaman haqdan uzaqlaşmış insanların nə üçün imansız öldüklərini başa düşə bilər.

Tarixdə bəzi insanları da görürük ki, hadisələrdən uzaq gəzmələrinə baxmayaraq, sonda aqibətləri xeyirlə qurtardı. O insanlardan biri də Hürr ibn Riyahi idi. O, əvvəlcə Ömər Sədin qoşununda idi. Məntəqələrdən birində İmamın(ə) qarşısını kəsib Kufəyə getməyə

qoymadı. İmam Kərbəlaya getdikdən sonra aşura günü Hürr etdiyi işlərdən peşman olub tövbə etdi. Sonra isə İmam Hüseynin(ə) dəstəsinə qoşuldu və şəhid olaraq aqibəti xeyirlə sona çatdı.

Əlbəttə, qeyd etmək lazımdır ki, belə mənfi və müsbət insanlara təkcə tarixin səhifələrində bir tarix kimi deyil, yaşadığımız hər bir dövrdə rast gələ bilirik. Dəfələrlə elə insanlar görmüşük ki, əlli-altmış il ibadətlə məşğul olmalarına baxmayaraq, sonda pozğun adam kimi dünyadan köçmüşlər. Bəzi adamları da görmüşük ki, gecə-gündüz əyyaşlıqla və nadürüst əməllərlə məşğul olmuş və sonda etdikləri bütün çirkin işlərdən peşman olaraq imanla dünyalarını dəyişmişlər. Bütün bunların səbəbləri vardır. Ola bilsin ki, həmin səbəblər insanın öz əməllərindən asılı olsun, ola bilsin ki, insanın nəsil və ata-babalarından asılı olmuş olsun. Hər birinin insanın aqibətinə təsiri vardır. Bir daha qeyd edim ki, əgər bu barədə söhbət etməli olsaq, əsas mövzudan çox uzaqlaşarıq. Buna görə də əsas mətləbə giriş olaraq bu qədər kifayət edər.

### Təqvanın mənası

Qeyd olunan ayədə Allah-təala iman gətirənlərə xitab edərək təqvanın haqqına riayət etməklə yanaşı, təqvalı olmağı da təkid edir. Burada çox yaxşı olar ki, ilk növbədə təqvanın mənası ilə tanış olaq. Alimlər təqvanın ümumi mənası haqda belə buyurmuşlar: "Təqva" - lüğətdə "qarşısını almaq", "saxlamaq" mənalarını ifadə edir. Digər mənada saxlamağın son həddinə də təqva deyilir. Əxlaq elmində isə təqvanı belə izah etmişlər: "Nəfsi insanın axirəti üçün faydalı olan və ona nicat

verən şeylərə vadar etmək.” Hədislərə diqqət etdikdə Peyğəmbər(s) və məsum imamlar da təqvanın mənasını bizim üçün bəyan etmişlər. O cümlədən İmam Sadiqdən(ə) təqvanın mənasını soruşduqda Həzrət(ə) belə cavab verərək buyurmuşdur:

قَالَ الصَّادِقُ(ع): أَنْ لا يَفْقُدَكَ اللهُ حَيْثُ أَمَرَكَ وَ لا يَرَاكَ حَيْثُ نَهَاكَ

-Təqva odur ki, Allah sənin harada olmağını əmr etdikdə səni orada itirməsin və harada olmaqdan çəkindiribsə, səni orada görməsin.

## Təqvanın mərhələləri

Təqvanın mənasını bildikdən sonra onun mərhələləri ilə də tanış olaq. Təqvanın əsas üç mərhələsi vardır. Hər kəs bu mərhələləri adlasa, həmin şəxsə təqvalı insan deyilə bilər:

1.Zahiri (bədən və paltarını) murdar şeylərdən təmizləmək;

2. Pis və rəzil sifətləri özündən uzaqlaşdırmaq. Yəni günahlardan uzaq durmaq;

3.Qəlbi təmizləmək. Yəni qəlbdə Allahdan başqasına yol verməmək. Çünki qəlbin əsl sahibi (ev yiyəsi) Odur.

## Təqvanın haqqı nədir?

Qeyd etdiyimiz ayədə Allah-təala möminlərə xitab edərək bildirir ki, təqvanın haqqını ödəməklə təqvalı olun. Sual oluna bilər ki, təqvanın haqqı nədir? Yəni onun haqqını necə ödəmək olar? Təfsir kitablarında bu

sualın cavabında və təqvanın haqqı barədə belə yazmışlar:

اَن يُطاعَ فَلا يُعصَى وَ يُذكَر فَلا يُنسَى وَ يُشكَر فَلا يُكفَر

-Təqvanın haqqı Allaha itaət etmək və günahlardan uzaq durmaq, Allahı xatırlayıb heç vaxt unutmamaq, Onun nemətlərinə şükür etmək və küfrdən uzaq durmaqdır.[1]

Hər kəs buna riayət etsə, təqvanın haqqını ödəmişdir. Əgər insan Allaha itaət etmirsə və günahlardan çəkinmirsə, deməli, təqvanın haqqını ödəməmişdir. Günah elə bir şeydir ki, insanın mənəviyyatını pozub dağıdır. Əgər insan bircə gün günah etməsə, onun üçün bayram hesab olunar. Bəziləri elə başa düşməsinlər ki, təzə paltarlar geyməklə, gözəl süfrə açmaqla, deyib-gülməklə bayram etmiş olurlar. Həzrət Əli(ə) həqiqi bayramın nə olduğunu bir cümlə ilə bizə öyrətmişdir:

قَالَ عَلِيٌ(ع): كُلُّ يَوْمٍ لا يُعْصَى اللهُ فِيهِ فَهُوَ عِيْدٌ

-İmam Əli(ə) buyurur: “Hansı gün insan günah etmirsə, o gün onun bayramıdır.”[2]

Həmçinin insan günahlardan çəkinməklə yanaşı, daim Allahı xatırlamalı və unutqanlığa yol verməməlidir. Bəzən insan Allahı yaddan çıxarır və sonradan yenə yadına düşür. Yadına düşdükdə unutqanlığına görə peşman olur.

---

[1] Təfsiri-nümunə,3-cü cild, səh.24.
[2] Nəhcül-bəlağədən.

Bundan əlavə, insan həmişə Allahın şükründə olmalı və heç bir vaxt küfrə yol verməməlidir. Bu məsələ elə də asan iş deyil. Bəzən insanın istək və arzuları gecikib yubandıqda uşaqlar kimi Allaha etiraz edir və qərarsız olur.

Odur ki, əgər bir insan Allaha itaət edib günahlardan çəkinsə, həmişə Allahı yad edib unutmasa və həmişə şükür edib Ona qarşı küfr etməsə, təqvanın haqqına riayət etmişdir. Əlbəttə, burada qeyd etmək lazımdır ki, təqvanın haqqına riayət etməyin şərti vardır. Həmin şərt insanın güc və qüdrətidir. Yəni insan gücü çatdığı qədər təqvalı olmağa çalışmalıdır. Hər bir təklifdə qüdrət məsələsi əsas şərtdir. Məsələn, oruc tutmaq vacib əməllərdən biridir. Orucun vacib olma şərtlərindən birincisi həddi-büluğ məsələsidir. İnsan həddi-büluğa çatmayana qədər oruc tutmaq və s. kimi təkliflər də ona vacib olmaz. Həmçinin bir insanın (xəstəlik, hamiləlik və yaxud qocalıq kimi səbəblərdən) oruc tutmağa qüdrəti çatmırsa, oruc həmin şəxsə vacib deyil. O cümlədən bir insan orucun vacib olması bir tərəfə, onun adını belə heç eşitməyibsə, bu adama da təklif edilə bilməz. Çünki o, orucluq haqqında heç bir şey eşitməyib. Buna görə də elm və məlumata malik olmaq belə təkliflərdə əsas şərtdir. Bu kimi şərtlərlə yanaşı, insanın qüdrət və bacarığı da olmalıdır. Məsələn, həccə getmək vacib əməllərdən biridir. Amma onun da şərtləri vardır. Bu şərtlər qaydasında olmayana qədər həccə getmək insanın boynuna gəlmir. Həmin şərtlərdən biri də qüdrətdir. Əgər bir insanın həccə getməyə qüdrəti çatmırsa, ona həcc vacib deyil. Təqva məsələsi də eynilə belədir. “Nisa” surəsinin 131-ci ayəsində oxuyuruq:

وَلَقَدْ وَصَّيْنَا الَّذِينَ أُوتُواْ الْكِتَابَ مِن قَبْلِكُمْ وَإِيَّاكُمْ أَنِ اتَّقُواْ اللّهَ

-Həqiqətən, Biz sizdən əvvəl (səmavi) kitab verilmiş kəslərə, eləcə də sizə vəsiyyət (tövsiyə) etdik ki, Allahdan qorxun (təqvalı olun).

Allah-təala bu ayədə insanlara təqvalı olmağı vacib edir. Əgər bir insan təqvanın haqqına riayət etmək istəyirsə, yuxarıda qeyd olunan şərtlərə riayət etməlidir.

## Təqvanın faydaları

Təqva insanın dünya və axirət həyatı üçün ən mühüm məsələdir. Təqvasız insan heç bir vaxt səadətə çata bilməz. Arif insanlardan biri təqva barədə belə yazır:

اِنَّ خَيْرَ الدُّنْيا وَالآخِرَة جُمِعَت تَحْتَ كَلِمَةٍ واحِدَة وَ هِىَ: التَّقْوَى

- Dünya və axirətin xeyri bir kəlmənin altında cəmləşərək qərar tutmuşdur. Həmin kəlmə isə təqvadır.

Təqva elə bir şeydir ki, insanın hədəfini müəyyənləşdirir. Quran ayələrinə diqqət yetirdikdə açıq-aydın bu məsələnin şahidi ola bilirik. Allah-təala “Tövbə” surəsinin 109-cu ayəsində belə buyurur:

أَفَمَنْ أَسَّسَ بُنْيَانَهُ عَلَى تَقْوَى مِنَ اللّهِ وَرِضْوَانٍ خَيْرٌ أَم مَّنْ أَسَّسَ بُنْيَانَهُ عَلَىَ شَفَا جُرُفٍ هَارٍ فَانْهَارَ بِهِ فِي نَارِ جَهَنَّمَ

-Buna görə də öz (dininin) təməlini ilahi təqva və Onun razılığı əsasında quran şəxs yaxşıdır, yoxsa öz təməlini süst və uçmaq ərəfəsində olan bir uçurumun kənarında qurmuş və o binanı cəhənnəm oduna yuvarlandıracaq şəxs?!

İşlərini təqva üzərində qurmuş insanların hədəfləri möhkəm olar. Belə insanları hər deyilən sözlə

yerlərindən tərpətmək olmaz. Çünki onlar öz proqramlarını təqva əsasında qurmuşlar. Cahil insanların qınağına və məlamətinə  də etina etməzlər. Onlara salam verərək öz işlərinə davam edirlər. Quranda “Furqan” surəsinin 63-cü ayəsində oxuyuruq:

وَعِبَادُ الرَّحْمَنِ الَّذِينَ يَمْشُونَ عَلَى الْأَرْضِ هَوْنًا وَإِذَا خَاطَبَهُمُ الْجَاهِلُونَ قَالُوا سَلَامًا

-Rəhman (olan Allah)ın (həqiqi) bəndələri yer (üzün)də sakit və təvazökarlıqla yol gedərlər. Və nadanlar (xoşagəlməz sözlərlə) onlara xitab edən zaman “salam” deyərlər.

Bəni-Üməyyədən sonra Mehdi Abbasi Abbasilərin üçüncü xəlifələrindən idi. Onun İbrahim adlı bir oğlu da var idi. İbrahim nadan, dar düşüncəli və təqvasız bir insan idi. Tarixi mənbələrdə yazırlar ki, o, Məmunun zamanında onun yanına gələrək deyir: “Gecə çox qəribə bir yuxu gördüm. Yuxuda görürəm ki, İmam Əli(ə) ilə birgə yol gedirəm. Hər hansı qapıdan və hansı körpüdən keçərkən o, məni özündən qabaq keçirdir. Mən ona dedim ki, siz deyirsiniz yer üzündə ən fəzilətli insanlar və Allahın höccətisiniz. Sənin məni qabaqda keçirməyindən görürəm ki, dünyada xilafət məsələsinə biz sizdən daha layiqik.

Məmun soruşdu: Bəs o nə dedi?

İbrahim dedi: O, mənə heç bir söz söyləmədi. Sadəcə iki dəfə mənə salam verdi.

Məmun dedi: Həzrət Əli(ə) sənə çox yaxşı cavab verib. Amma sən onu başa düşməmisən. Məgər Quranda Allahın bu ayəsini oxumamısanmı?

وَإِذَا خَاطَبَهُمُ الْجَاهِلُونَ قَالُوا سَلَامًا

-Və nadanlar (xoşagəlməz sözlərlə) onlara xitab edən zaman onlar da (həmin nadanlara) "salam" deyərlər."

Odur ki, əgər insan bütün işlərini təqva əsasında qura bilsə, məqsəd və hədəfinə çatacaq. Bu yolda onu başa düşməyənlər, ələ salanlar, söz atanlar, istəməyənlər, ona etiraz edənlər çox ola bilər. Lakin öz işlərini təqva üzərində qurduğu üçün bütün acı sözlərə, məlamətlərə, qınaq və danlaqlara məhəl qoymayacaq. Buna görə də təqvanın insana faydalarından biri budur ki, insanın məqsədini möhkəmlədir.

## Təqva insanın kamilliyinə səbəb olur

Bəhsimiz təqva mövzusuna aid olduğu üçün bu haqda iki mətləbi də diqqətinizə çatdırmaq istərdim. Həmin mətləblərdən biri budur ki, təqva insanın kamil olması üçün müqəddimədir. İnsanın həmişə axtardığı təkamül və kamala çatmağın təqvadan başqa yolu yoxdur. Demək olar ki, dünya alimlərinin hamısı insanın daim və fitrətən kamilliyə can atdıqlarını qəbul etmişlər. Yəni insan yaradılan gündən onun fitrətində kamillik tələbetmə istəyi qoyulmuşdur. Heç bir insan istəmir ki, bu günü dünənindən pis olsun. Hamının istəyi budur ki, bu günü dünənindən və sabahı bu günündən daha yaxşı və kamil olsun. Bu xislət bütün insanların fitrətinə qoyulmuşdur. Belə olduqda insana kamilliyin yolu da aydınlaşmalıdır. Əgər insan kamala çatmağın yolunu tapa bilməsə, məqsədə çata bilməyəcək.

Ümumiyyətlə, insan qarşısına qoyduğu hər bir hədəfə çatmaq üçün ilk növbədə çalışıb onun yolunu

tapmalıdır. Məsələn, Savalan dağının üstünə çıxmaq istəyən hər bir kəs əvvəlcə ora çıxmağın yollarını tapmalı və sonra isə çıxmalıdır. Əks-təqdirdə ora çıxa biləcəyi mümkün deyil. Həmçinin kamala çatmaq istəyən bir kəs ilk növbədə onun yolunu tapmalıdır. Buna görə də hər bir kəs buna nail olmaq üçün öz düşüncəsi, imanı, ağlı və əqidəsi daxilində axtarıb bir yol tapır. Amma insan bütün bu yolları qarşısına qoyub araşdırmaqla, həmin yolların hər birini gedib-gələnləri danışdırmaqla və məlumat əldə etməklə düzgün yolu tapmalıdır. Hər şey belə sadə deyil ki, hər bir kəs Şamaxı yolu kimi digər yolları da asanca tanımış olsun. Çox adam Şamaxı yolunu əlinin içi kimi tanıyır. Amma bütün yollar Şamaxı yolu deyildir ki, hamı onu rahat tanıya bilsin.

Həyatda elə məqsədlər vardır ki, onun müxtəlif yolları və variyantları mövcuddur. Buna görə də insan bütün yolları araşdırıb düzgün yolu tapmalıdır. Bəzi məqsədlər var ki, onların yolunu tapmaq sadə və asan deyil. Həmçinin hər adam da onun yolunu tapa bilməz. Şərait həmişə insan üçün asan olmur. Əgər bir insan qarşısına ciddi məqsəd qoyub ona çatmaq istəyirsə, mütləq bütün yolları araşdırıb məqsədinə gedən yolu tapmalıdır. Bunun üçün zəhmət çəkməli, yuxusundan kəsməli, rahatlığından keçməli və onu məqsədə çatdıran yolu taparaq getməlidir. Kamilliyə çatmaq üçün müxtəlif yollar və versiyalar irəli sürənlər çox olub. Həmçinin bu yolları gedib-gələnlər də olmuşdur. Məsələn, Lenin öz düşüncələrinə uyğun kamillik yolu seçmişdi. Hər kəs dinin adını dilinə gətirsəydi, onun dilini kəsərdi. Qabağa düşüb milləti kamala çatdırmaq istəyirdi. Yetmiş il bu yoldan istifadə etdikdən sonra axırda dalana dirəndilər.

Onlar bu yolu təcrübə etdikdən sonra geri qayıtmaqdan başqa heç bir çarələri qalmadı. Həmin yetmiş ildə milyonlarla insanı öz təcrübələrinin qurbanı edərək cəhənnəmlik etdilər. İndi kamilliyə çatmaq istəyən insan həmin yolları gedib qayıdanlarla söhbət etməməlidirmi? Əgər məqsəd ciddi olsa, hər kəsin öz düşüncəsi çərçivəsində kamilliyə doğru axtarıb tapdığı yol barədə məlumatlı olmalıdır.

Bəzi insanlar kamilliyin yolunu bu dünyada yeyib-içib kef etməkdə və deyib- gülməkdə görürlər. Yetmiş beş ildən sonra isə əli hər bir şeydən üzülərək və səhv yolda olduğunu başa düşərək ah çəkib Allahı çağırır. Yetmiş beş il yolu səhv getdikdən sonra başa düşürsə, o zaman zəhmət çəkib (on beş il həddi-büluğa qədər olan müddəti çıxmaqla) altmış ilin namazını qılmalı və bu müddət ərzində boynunda olan vacibləri ödəməlidir. Vaxtında yolu səhv getdiyini ona demişdilər, amma o, qulaq asmaq istəmir və öz bildiyi kimi hərəkət edirdi.

Bəziləri elə düşünürlər ki, qüdrət və mənsəbə çatmaq, sərvətli olmaq insanın öz kamalı ilə bağlıdır. Lakin illər keçdikdən sonra başa düşürlər ki, kamillik bu yolda deyil. İnsanın qarşısına qoyduğu kamilliyin bircə yolu varsa, o da təqvadır. Odur ki, hər bir insanın təkamülü onun Allaha yaxınlaşmasındıdar. Hər kəs bundan başqa yolu tutub getsə, sonu peşmançılıqdan savayı bir şey olmayacaqdır. Tarixə diqqət yetirdikdə bütün bunların şahidi oluruq. Tarixin xülasəsi və güzgüsü Qurandadır. Quranda Firon, Nəmrud, Qanun və Şəddad kimiləri bizə göstərilmişdir. Həzrət Əli(ə) Quran barədə belə buyurur: “Keçmişdəkilərin xəbəri, gələcəyin

məlumatı və hazırkı zamanın hökmlərinin hamısı Qurandadır.”

Buna görə də hədislərdə insanın Qurandan möhkəm yapışması təkid olunmuşdur. Çünki ondan başqa hər hansı bir yolu gedən insanlar uzun illərdən sonra səhv etdiklərini başa düşmüşlər. Lakin iş-işdən keçdikdən sonra belə bir peşmançılığın nə faydası vardır?

Odur ki, insan təqvalı olduqda Allaha yaxınlaşır. Kamilliyin kökü Allahda olduğu üçün kamilliyə doğru hərəkət edir. Aləmdə qüdrətlər çoxdur, amma bütün qüdrətlərin ən qüdrətlisi və böyüyü Allahdır. Hər bir şey onun ixtiyarında və qüdrətindədir. Buna görə də insan böyük qüdrətə nə qədər yaxın olsa, bir o qədər də izzəti çoxalacaq. Hər kim Allahdan başqasına söykənsə, gec-tez yıxılacaq. Dünyada olan var-dövlət, övlad, gözəllik, məqam və vəzifələrin hamısı oyun-oyuncaqdır. Bunların heç birinə arxalanmaq olmaz. Bütün bunlar bir gün insana verilir, bir gün də geri alınacaqdır. Əgər insan cavanlıqda gözəlliyinə arxalanırdısa, iyirmi ildən sonra baxıb görür ki, həmin gözəllikdən heç bir əsər-əlamət qalmayıb. Belə olduqda bu insan nəyə arxalanacaq? Cavanlıqda gözəlliyi ilə fəxr edib ona söykənirdisə, yaşlaşandan sonra nə ilə fəxr edəcək və nəyə arxalanacaq? İnsan hər bir şeyə söykənmək istəyirsə, ilk növbədə yoxlamalıdır ki, görəsən arxalandığı və söykəndiyi həmin şey möhkəmdir, ya yox? Odur ki, hər kəs Allahdan başqa hər nəyə söykənsə, gec-tez mütləq yıxılacaq. Çünki bütün qüdrətlərin hamısından davamlı olan qüdrət əbədi və əzəli olan Allahın qüdrətidir. Dünya həyatı oyun-oyuncaq olduğu üçün ona bel bağlamaq

olmaz. Allah-təala “Məhəmməd” surəsinin 36-cı ayəsində belə buyurur:

إِنَّمَا الْحَيَاةُ الدُّنْيَا لَعِبٌ وَلَهْوٌ وَإِن تُؤْمِنُوا وَتَتَّقُوا يُؤْتِكُمْ أُجُورَكُمْ

-Bu dünya həyatı oyun və əyləncədən başqa bir şey deyildir. Əgər iman gətirsəniz və təqvalı olsanız, O, sizin (dünya və axirət) mükafatlarınızı verəcəkdir.

Bu ayədən açıq-aydın şəkildə başa düşülür ki, insan iman gətirməklə yanaşı, həm də təqvalı olmalıdır. Belə olduqda həm dünya, həm də axirət mükafatına nail olacaq. Dünya və axirətin mükafatı insanın çatmaq istədiyi həmin kamillikdir. Yəni insan təqva vasitəsilə kamilliyin zirvəsini fəth edə bilər. Təqva elə bir şeydir ki, istənilən hər bir halda insana lazımdır. Pişnamaz, qazi, imam cümə, müctəhid və şahid olmasından asılı olmayaraq təqva hər bir kəsə gərəkdir. Onların hər birində təqva əsas şərt və əsas rol oynayır.

Pişnamazın əsas şərti onun təqvalı olmasıdır. Camaat namazında imamlıq edən şəxs adil olmalıdır. Həmçinin məhkəmədə qazinin hakimlik etməsi üçün ona təqva lazımdır. Ədalətsiz insandan qazi olmaz. Çünki ədalətsiz qazinin verdiyi hökmlərin heç bir qiyməti yoxdur. O cümlədən insanların təqlid etdiyi müctəhidin şərtlərindən biri onun adil olmasıdır. Müctəhidin elmi nə qədər çox olursa-olsun, əgər adil olmasa, əgər onun təqvası olmasa, yaxud dünya malı onu yoldan çıxarırsa, belə bir insanı təqlid etmək olmaz.

Şahid duran kəsin təqvası olmasa, onun şahidliyinin heç bir faydası yoxdur. İstər məhkəmədə, istərsə də ayın sübut olunmasında təqvasız şahidin şahidliyi qəbul deyil. Əgər təqvasız bir adam orucluqda ayı gördüyünü desə, onun sözünə inanmaq olmaz. Təqvalı insan odur ki,

dediyi sözə şübhə edilməsin. Yəni o qədər təqvalı adamdır ki, dediyi sözlərə və şahidliyinə inanmaq olar. Şahidlikdə də şahid duran insan üçün təqva əsas rol oynayır. Həmçinin cümə namazının xətibi təqvalı olmalıdır. Ən azından xütbələrin birində həm özünü, həm də camaatı təqvaya tövsiyə etməlidir. Deməli, hər bir işdə təqva ən mühüm rola malikdir. Çünki təqva insanı məqsədə, kamilliyə çatdıran yeganə yoldur.

## Təqva ilə səbir bir-birinə bağlıdır

Bu bəhsimizə aid olan ikinci mətləb isə budur ki, təqva ilə səbrin bir-birinə sıx bağlılığı vardır. Səbirsiz təqvanın hasil olması mümkün deyil. Təqva əldə etmək istəyən insanın hər bir şey qarşısında səbir və dözümü olmalıdır. "Ali-İmran" surəsinin 120-ci ayəsində buyurulur:

وَإِن تَصْبِرُواْ وَتَتَّقُواْ لاَ يَضُرُّكُمْ كَيْدُهُمْ شَيْئًا

-Əgər səbir etsəniz və təqvalı olsanız, onların (düşmənlərin) hiylələri sizə heç bir ziyan yetirə bilməz.

Bu ayədə səbirlə təqva birgə qeyd edilir və başa salınır ki, əgər insanda bunların hər ikisi olsa, daxili və xarici düşmənlər tərəfindən heç bir ziyana məruz qalmaz. "Ali-İmran" surəsinin 186-ci ayəsində Peyğəmbər(s) və səhabələr barəsində belə oxuyuruq:

لَتُبْلَوُنَّ فِي أَمْوَالِكُمْ وَأَنفُسِكُمْ وَلَتَسْمَعُنَّ مِنَ الَّذِينَ أُوتُواْ الْكِتَابَ مِن قَبْلِكُمْ وَمِنَ الَّذِينَ أَشْرَكُواْ أَذًى كَثِيرًا وَإِن تَصْبِرُواْ وَتَتَّقُواْ فَإِنَّ ذَلِكَ مِنْ عَزْمِ الأُمُورِ

-Mallarınız və canlarınız barədə mütləq imtahan ediləcəksiniz və mütləq sizdən əvvəl (səmavi) kitab

verilmiş şəxslərdən və həmçinin müşriklərdən (dinin və Peyğəmbərin inkarı və istehza olunması, eləcə də insanların İslam əleyhinə təhrik olunmaları barəsində) çoxlu cansıxıcı sözlər eşidəcəksiniz. Əgər səbir və təqvaya yiyələnsəniz, bu, həqiqətən, böyük və əhəmiyyətli işlərdəndir.

Bu ayənin nazilolma səbəbi belədir: Müsəlmanlar Məkkədən Mədinəyə hicrət edən zaman evlərini və mallarını qoyub çıxmışdılar. Müşriklər gəlib onların evlərini və mallarını qəsb etdilər. Bununla yanaşı, müsəlmanları pis sözlərlə təhqir etməyə başladılar. Müsəlmanlar Mədinəyə gəldikdən sonra orada da yəhudilərin söyüşlərinə, acı sözlərinə və təhqirə məruz qaldılar. Allah-təala bu ayəni nazil edib, müsəlmanlara təsəlli verərək çıxış yolunu göstərdi. Ayənin axırında belə buyurulur: “Əgər səbir və təqvaya yiyələnsəniz, bu, həqiqətən, böyük və əhəmiyyətli işlərdəndir.”

İnsan Allaha iman gətirdikdən sonra təqva əldə etmək üçün səbirli olmalıdır. Çünki bu yolda insana çox sözlər deyərlər, acılayar və hətta onu döyə bilərlər. Bu yolda insanın başına hər cür bəlalar gələ bilər. Amma kiçik bir hədə və yaxud acı sözlə təqvadan çıxmaq insan üçün yaxşı hal deyil. Təqvanı əldə saxlamaq üçün insana səbir lazımdır. Bəzən insana elə müsibət üz verir ki, dözə bilmir. Bəzi insanlar isə bu kimi müsibətləri rahatlıqla həzm edə bilirlər. Mərhum Ayətullah Qolpayeqani böyük müctəhidlərdən biri idi. Onun Seyid Mehdi adlı yaraşıqlı bir oğlu var idi. Təxminən otuz yaşında yol qəzasına düşüb dünyasını dəyişdi. Ayətullah Qolpayeqani onun cənazə namazını özü qıldı. Tehran bazarında işləyən mötəbər möminlər deyirlər ki, biz ona başsağlığı

verməyə getmişdik. Ona təsəlli vermək üçün dedik: “Ağa, biz rəhmətlik Ayətullah Mirzə Əlinin barəsində bir əhvalat eşitmişik. Onun oğlu rəhmətə gedəndə dost-tanışlarına belə deyirdi: Dua edin ki, Allah oğlumun məhəbbətini ürəyimdən çıxarsın. İndi siz özünüz də dua edin, biz də dua edərik ki, Allah Seyid Mehdinin məhəbbətini ürəyinizdən çıxarsın.” Ayətullah Qolpayeqani bizi dinlədikdən sonra buyurdu: “Mən elə deməzdim. Mən deyərdim ki, siz də dua edin, mən də dua edim ki, Allah onun məhəbbətini qəlbimdə daha da çoxaltsın. Bununla o uşaq yadıma düşəndə qəlbim daha çox yansın və bununla Allah mənə daha çox savab versin.”

İnsanın ruhu böyüdükcə müsibətlər onun gözündə kiçilir. İnsanın ruhu əzəmətli olduqca baş verən müsibətlər onun üçün mühüm sayılmır. Ruhun böyük olması bədənin böyüklüyü, yaxud qüdrət və gücün çox olması deyil. Ruhun böyüklüyü təqva, səbir və ibadətlə hasil olar. Sədi deyir: “Bir arif küçə ilə gedərkən camaatın bir yerə toplaşdığını görür. Yaxınlaşanda görür ki, bir pəhləvan hirslənib qışqırır və hirsindən ağzı köpüklənib. Bir nəfərdən soruşur: Buna nə olub belə? Həmin şəxs deyir: Kiminsə onu söydüyü qulağına çatıb və belə qəzəblənib. Arif deyir: Bu nadan insan neçə yüz kiloqram daşları götürə bilir, amma bircə kəlmə sözü götürə bilmir? Bu, necə pəhləvandır?”

İnsanın böyüklüyü onun ağır daşları qaldırmasında, bədəninin qüvvətli olmasında deyil. İnsanın böyüklüyü onun səbrində, təqvasında və ruhunun əzəmətli olmasındadır. İnsan təqva və imanının yolunda səbir etməyi bacarmalıdır. Əgər insan səbirsiz olsa, kiçik bir

müsibət, hədə-qorxu onu təqvadan tez çıxarar. İslam tarixinə nəzər saldıqda görürük ki, ən dəhşətli işgəncələri Bilal Həbəşiyə vermişdilər. O, müşriklərin qara bir qulu idi. Peyğəmbərə(s) iman gətirdiyi üçün onu ən ağır işgəncələrə məruz qoydular. Bədəninə bal sürtüb arıları onun canına salırdılar. Dəmirdən paltar geyindirib günün isti şüalarının altında saxlayırdılar. Allahı və Peyğəmbəri(s) danması üçün yerə yıxıb sinəsinin üstünə qızmar və ağır daşlar qoyurdular. Bilal bütün bu işgəncələrə dözüb hey Allahı çağırır, Əhəd, Əhəd və Səməd, Səməd deyirdi. Hamı onun belə səbirli olmasını görüb təəccüb edirdi. Öz-özlərinə deyirdilər: “İnsanda da bu qədər dözüm olar?”

Peyğəmbər(s) Bilala belə işgəncələr verildiyini eşitdikdə Əbu Bəkrə dedi: “Pulum olsaydı, Bilalı alıb azad edərdim.” Əbu Bəkr Peyğəmbərin(s) bu sözlərini Abbas ibn Əbdülmüttəlibə danışdı. Abbas həmin sözləri eşidən kimi dedi: “Mən gedib onun sahibi ilə danışaram.” Sonra axtarıb Bilalın sahibini tapdı. Bilal müşrik bir qadının qulu idi. Abbas ona dedi: “Bu qulu səndən almaq istəyirəm. Qadın dedi: Mən onu satmıram.” Çox söz-söhbətdən sonra Abbas qadına çoxlu pul verib Bilalı aldı. Bilalın xətrini hamı çox istəyirdi. Onun Həzrət Əli(ə) ilə xüsusi bir dostluğu var idi. Həzrət Əliyə(ə) böyük hörmət bəsləyər və həmişə onunla birlikdə olardı. Bir gün ona dedilər: “Səni Əbu Bəkr azad edib, amma sən həmişə Əli(ə) ilə birgəsən və ona daha çox hörmət bəsləyirsən. Bilal dedi: Doğrudur, mənim azad olunmağımda Əbu Bəkrin də əli var. Əbu Bəkr məni dünya əzabından azad etdi, amma Əli(ə) məni axirətin əzabından azad edib. Əliyə(ə) hörmət etmək və məhəbbət bəsləmək məni

cənnətə aparacaq. Buna görə də onları müqayisə etmək olmaz.”

Bilal elə bir məqama yüksəlmişdi ki, dilinin pəltək olmasına baxmayaraq, Peyğəmbər(s) onu öz azançısı təyin etmişdi. Bilal elə bir dərəcəyə ucalmışdı ki, Xanım Fatimeyi Zəhra(s.ə) ondan azan səsini eşitməyi xahiş edirdi. Bilala belə bir məqam və əzəmət onun səbir və imanına görə verilmişdi.

## Bəla və müsibətlərə dözməyin dərəcəsi şəhidlərin dərəcəsindən üstündür

Hədislərdə belə nəql olunur ki, qiyamət günü şəhidləri cənnətə apararkən onlar baxıb görəcəklər ki, cənnətə onlardan qabaq gələnlər də vardır. Şəhidlərin məqamı hamıdan üstün olduğu üçün onlar bu hala təəccüb edərək deyəcəklər: “İlahi, biz Sənin yolunda əhli-əyalımızdan, övladlarımızdan, malımızdan və canımızdan keçib şəhid olduq. Bunlar kimlərdir ki, bizdən əvvəl cənnətə daxil olublar?”

Allah-təala onların cavabında buyurar: “Onlar Ali-Məhəmmədin fəqirləridir. Siz ömrünüzdə bircə qılınc zərbəsi görüb şəhid olmusunuz. Amma bunlar gündə yüz dəfə bəla və imtahan qılıncı ilə şəhid olublar. (Düşmənlərin təhqirləri, işgəncələri, acı sözləri ilə hər gün qarşılaşırdılar.) Buna görə də onların məqamı üstündür.”

Bəla və çətinliklərə dözməyin dərəcəsi şəhid olmaqdan üstün sayılır. İnsan üçün qarşısına çıxan müxtəlif can, mal, söz yarasına, təhqir və söyüşlərə, habelə bu kimi digər bəla və müsibətlərə dözmək şəhid

olmaqdan üstündür. Buna görə də təqva ilə səbrin bir-birilə sıx bağlılığı vardır.

## Təqvalı insanın sifət və xüsusiyyətləri

### Düz söz danışmaq və sözün düzünü qəbul etmək

Ötən bəhslərimizdə təqva barədə müəyyən qədər söhbət etdik. Burada çox yaxşı olar ki, təqvalı insanların ayə və hədislərdə bəyan olunmuş xüsusiyyətləri ilə tanış olaq. Sözdə hər bir kəs özünü təqvalı hesab edir. Lakin qiyamət günü Allah-təala heç bir kəsin iddiası və sözü ilə onlar barəsində hökm verməyəcək. Hədislərdə qeyd olunur ki, Allah sizin üzünüzə və zahiri gözəlliyinizə baxmır. Allah sizin qəlblərinizə baxır. Qiyamət günü Allah-təala hər bir kəsin qəlbinə və təqvasına görə hökm çıxaracaq. "Yasin" surəsində oxuyuruq ki, Allah-təala qiyamət günü onların ağızlarını bağlayacaq və (onların) əlləri ilə danışacaq. Gördüyü işlər haqda ayaqları şəhadət verəcəkdir. O, bu dünyadır ki, insan özü haqda yaxşı sözlər danışır, özünü tərifləyir və özünü təqvalılar kimi göstərir. Amma Quran və hədislərdə təqvalı insanın sifət və xüsusiyyətləri açıq-aydın şəkildə bəyan olunmuşdur. "Zumər" surəsinin 33-cü ayəsində belə buyurulur:

وَالَّذِي جَاء بِالصِّدْقِ وَصَدَّقَ بِهِ أُوْلَئِكَ هُمُ الْمُتَّقُونَ

-Həqiqəti (düz sözlər) gətirən və onu təsdiq edən kəs əsl təqvalıdır.

Bu ayədə təqvalıların iki sifət və xüsusiyyətindən söz açılır. Biri danışarkən düz sözlər deyir, ikincisi isə sözlərin düzünü və doğrusunu təsdiq edir. Məgər

həyatımızda yalan danışanlar və onların yalan danışdıqlarını bildikləri halda təsdiqləyən kəsləri azmı görürük? Təqvalı insanın xüsusiyyətlərindən biri odur ki, həm camaata düz sözü çatdırır, həm də yanında danışılan sözlərin düzünü təsdiq edir.

Qeyd olunan ayə haqda birinci təfsir Peyğəmbərin(s) barəsindədir. Ayədə işlənmiş "düz sözlər gətirən" İslam Peyğəmbəridir(s). "Onu təsdiq edən" kəs isə Həzrət Əlidir(ə).

Digər təfsirdə yazırlar ki, "düz sözlər gətirən" peyğəmbərlərin hamısıdır. "Onu təsdiq edən" isə həmin peyğəmbərlərin həqiqi tərəfdarlarıdır.

Bu ayə barədə yazılmış üçüncü təfsir isə İslamın həqiqi təbliğatçıları barədədir. Yəni hər bir insan camaata din barəsində düz sözlər danışırsa, özü də söz eşitdikdə həqiqəti və sözlərin düzünü qəbul edir.

## İlahi əmrləri dəqiqliklə yerinə yetirmək

"Zariyat" surəsinin 16-19-cu ayələrində təqvalı insanların xüsusiyyətlərinə işarə edilərək belə buyurulur:

إِنَّ الْمُتَّقِينَ فِي جَنَّاتٍ وَعُيُونٍ. آخِذِينَ مَا آتَاهُمْ رَبُّهُمْ إِنَّهُمْ كَانُوا قَبْلَ ذَلِكَ مُحْسِنِينَ. كَانُوا قَلِيلًا مِّنَ اللَّيْلِ مَا يَهْجَعُونَ. وَبِالْأَسْحَارِ هُمْ يَسْتَغْفِرُونَ. وَفِي أَمْوَالِهِمْ حَقٌّ لِّلسَّائِلِ وَالْمَحْرُومِ

-Şübhəsiz, təqvalılar bağlarda və bulaqların başındadırlar. Rəbblərinin onlara əta etdiyini alarlar. Çünki onlar bundan öncə (dünyada) yaxşı idilər və yaxşı işlər görürdülər. Onlar gecənin az bir hissəsini yatırdılar. Və səhərlər (Allahdan) bağışlanma diləyirdilər. Və onların mallarına əl açanlar və məhrumlar üçün (Allahın

bəyəndiyi və özləri tərəfindən müəyyənləşdirilmiş) bir haqq var idi.

Bu mübarək ayələrdə təqvalı insanların bir neçə xüsusiyyəti bəyan edilir. Onlardan biri budur ki, Allahın nazil etdiyi əmrləri ürəkdən qəbul edərlər. Həzrət Peyğəmbər(s) vida həccində camaata belə bir xütbə oxudu:

أَيُّهَا النَّاسُ وَ اللَّهِ مَا مِنْ شَيْءٍ يُقَرِّبُكُمْ مِنَ الْجَنَّةِ وَ يُبَاعِدُكُمْ مِنَ النَّارِ إِلَّا وَ قَدْ أَمَرْتُكُمْ بِهِ وَ مَا مِنْ شَيْءٍ يُقَرِّبُكُمْ مِنَ النَّارِ وَ يُبَاعِدُكُمْ مِنَ الْجَنَّةِ إِلَّا وَ قَدْ نَهَيْتُكُمْ عَنْهُ أَلَا وَ إِنَّ الرُّوحَ الْأَمِينَ نَفَثَ فِي رُوعِي أَنَّهُ لَنْ تَمُوتَ نَفْسٌ حَتَّى تَسْتَكْمِلَ رِزْقَهَا فَاتَّقُوا اللَّهَ وَ أَجْمِلُوا فِي الطَّلَبِ

-Camaat, and olsun Allaha ki, sizi cənnətə yaxınlaşdıran və cəhənnəmdən uzaqlaşdıran hər bir işi (vacibləri) sizə əmr etmişəm. Həmçinin sizi cəhənnəmə yaxınlaşdıran və cənnətdən uzaqlaşdıran bütün işlərdən (haram və günahlardan) çəkindirmişəm. (Yəni sizi cənnətə yaxınlaşdıran və cəhənnəmdən uzaqlaşdıran bütün şeylərə əməl etməyi və sizi cənnətdən uzaqlaşdıran və cəhənnəmə yaxınlaşdıran hər şeydən çəkinməyi sizə əmr etmişəm.) Bu sözləri Ruhul-əmin (Cəbrayıl) mənim ürəyimə salmışdır. Hər bir insanın (Allah tərəfindən təyin olunmuş) ruzisi qurtarmayınca ölməz. Belə isə Allahdan qorxun və rahat, halal ruzi ardınca gedin (Özünüzü bu

yolda çox da zəhmətə salmayın. Ruzinin gec gəldiyini görüb səbirsizlik edərək haram yollara əl atmayın.)[1]

عَنْ هِشَامِ بْنِ الْحَكَمِ عَنْ أَبِي عَبْدِ اللَّهِ(ع) قَالَ: إِذَا كَانَ يَوْمُ الْقِيَامَةِ يَقُومُ عُنُقٌ مِنَ النَّاسِ فَيَأْتُونَ بَابَ الْجَنَّةِ فَيَضْرِبُونَهُ فَيُقَالُ لَهُمْ مَنْ أَنْتُمْ فَيَقُولُونَ نَحْنُ أَهْلُ الصَّبْرِ فَيُقَالُ لَهُمْ عَلَى مَا صَبَرْتُمْ فَيَقُولُونَ كُنَّا نَصْبِرُ عَلَى طَاعَةِ اللَّهِ وَ نَصْبِرُ عَنْ مَعَاصِي اللَّهِ فَيَقُولُ اللَّهُ عَزَّ وَ جَلَّ صَدَقُوا أَدْخِلُوهُمُ الْجَنَّةَ وَ هُوَ قَوْلُ اللَّهِ عَزَّ وَ جَلَّ إِنَّمَا يُوَفَّى الصّابِرُونَ أَجْرَهُمْ بِغَيْرِ حِسابٍ

-Hüşam ibn Həkəm deyir: “İmam Sadiq(ə) buyurdu: Qiyamət günü baş verən zaman insanların arasından bir dəstə qalxıb cənnətin qapısını döyərlər. Onlardan soruşular: Siz kimsiniz? Cavab verərlər: Biz səbir əhliyik: Soruşarlar: Siz nəyin müqabilində səbir etmisiniz: Cavab verərlər: Allaha itaət etməkdə və günahların qarşılığında. Belə bir halda Allah xitab edərək buyurar: Onlar düz deyirlər. Onları cənnətə buraxın.”

Sonra İmam Sadiq(ə) buyurdu: “Bu, Allahın həmin sözüdür ki, (“Zumər” surəsinin 10-cu ayəsində buyurur:) “Şübhəsiz, səbrlilərin mükafatları hesabsız və kamil şəkildə veriləcəkdir.”[2]

Peyğəmbərin(s) Mədinəyə yenicə hicrət etdiyi zamanlar idi. Yəməndə cavan və yaraşıqlı bir oğlan yaşayırdı. Onların maddi imkanları çox yaxşı idi.

[1] Üsuli kafi,3-cü cild, səh.118.
[2] Üsuli kafi,3-cü cild, səh.119.

Yaşadığı yerdə onu bir qızla nişanlamışdılar. Həmin cavan tez-tez Mədinəyə gəlib ticarətlə məşğul olurdu. Günlərin birində atası ona dedi: “Oğlum, sən Mədinəyə gedəndə bir az ehtiyatlı ol. Eşitmişəm ki, orada bir peyğəmbər tapılıb. Məbada onun sözlərinə qulaq asasan. Yoxsa o, səni öz yolumuzdan çıxarar. Günlərin birində həmin cavan Mədinəyə yola düşür. Bir neçə gün orada işlərini qaydasına saldıqdan sonra təsadüfən Mədinə məscidinə yaxınlaşır. İçəridən səs gəldiyini görüb daxil olur. Baxıb görür ki, bir nəfər ayaq üstə dayanıb çıxış edir. Onun bu çıxışı tamamilə fərqli bir çıxış idi. Çox nurani camalı və ürəyəyatan danışığı var idi. Oğlan onun danışığına və camalına vurulur və dayanıb sona qədər ona qulaq asır.

Peyğəmbərin(s) nuru, əzəməti və kəlamları bu oğlanın qəlbinə təsir göstərir. Xütbədən sonra Peyğəmbərin(s) hüzuruna gəlib deyir: Mən sənin gətirdiyin dini qəbul etmək üçün nə etməliyəm. Peyğəmbər(s) buyurur: Kəlmeyi-şəhadətini de. Oğlan Allahın vəhdaniyyətinə və Peyğəmbərin(s) nübüvvətinə şəhadət verib müsəlman oldu. Peyğəmbərin(s) əzəməti onun qəlbinə təsir göstərdiyi üçün tamamilə dəyişmişdi. Evə qayıtdıqdan sonra atası görür ki, bu uşaq həmin uşaq deyil. Uşağın əxlaqı, hərəkəti, danışıq və tərbiyəsi tamamilə dəyişmişdi. Atası başa düşür ki, bu uşaq Peyğəmbərin(s) yanında olub. Ancaq onlar onun Peyğəmbərə(s) iman gətirməsini və müsəlman olmasını istəmirdilər. Buna görə də onu danlamağa və nəsihət etməyə başladılar. Nə qədər çalışdılarsa, oğlanı əqidəsindən döndərə bilmədilər.

Oğlanın iman və təqvası günü-gündən artırdı. Axırda atası onun nişanlısını çağırıb dedi: Sən onun çadırına gedib onu başa sal ki, Peyğəmbərdən(s) və İslamdan əl çəksin. Əks-təqdirdə onunla evlənməyəcəyini söylə. Bu kimi sözlərlə qızı öyrədib onun yanına göndərdilər. Qız nişanlısının çadırına gedir. Hamı səbirsizliklə bu işin nəticəsini gözləyir. Bir neçə saatdan sonra görürlər ki, ikisi də əl-ələ tutaraq çadırdan çıxıb "Əşhədu ənla ilahə illəllah və əşhədu ənnə Muhəmmədən Rəsulullah" deyə- deyə gəlirlər.

Əgər insan təqvalı olsa, Allahın vacib buyurduğu əməllərə riayət etsə, qadağan etdiyi işlərdən çəkinsə, onun ruhu böyük, hərəkət və danışığı isə təsirli olacaqdır.

Harun ər-Rəşid Abbasi xəlifələrinin altıncısı idi. Fəzl ibn Rəbi deyir: "Mən bir il Harunla Məkkədə olmuşam. Günlərin birində Harun mənə dedi: Ürəyim çox istərdi ki, təqvalı, təmiz və nəcib bir insanla oturub söhbət edim.

Fəzl deyir: Mən ona üç nəfərin adını çəkdim. Onlardan biri Əbdürrəzzaq, biri Süfyan ibn Ütbə, üçüncüsü isə Fəzl ibn Ütbə idi. Harın Əbdürrəzzaq və Süfyan ibn Ütbə ilə görüşdükdən sonra Fəzl ibn Ütbənin evinə getdik. Mən onun qapısını çaldım. Fəzl ibn Ütbə kim olduğumuzu və nə istədiyimizi soruşdu. Mən dedim: Əmir sənin görüşünə gəlib. O dedi: Harunun mənimlə nə işi ola bilər? Dedim: Sənin ziyarətinə gəlib. O, qapını açıb bizi evə dəvət etdi. Əyləşdikdən sonra Harun sözə başlayıb dedi: Ey Fəzl, sənin yanına ona görə gəlmişəm ki, mənə nəsihət verib moizə edəsən. Fəzl dedi: Ey əmir, sənin ulu baban (Abbas) bir gün Peyğəmbərdən(s) istədi ki, onu bir qəbilənin hakimi etsin. Peyğəmbər(s) ona

buyurdu: "Səni özünə hakim etdim. (Yəni sənin nəfsin həmişə Allahın itaətində olsun.) Camaata əmir və hakim olmağının qiyamət günü peşmançılıqdan savayı başqa bir faydası olmayacaq."

Harun bu sözləri eşidib ağlamağa başladı. Fəzlin sözləri onun ürəyinə ox kimi sancılmışdı. Sonra Fəzlə bir hədiyyə vermək məqsədilə dedi: Ey Fəzl, borcun varmı? Fəzl dedi: Camaata borcum yoxdur. Amma Allaha çox borcum var."

Harun ağlaya-ağlaya onun otağından çıxdı. Fəzlin əzəməti və bir neçə kəlmə sözü ona çox təsir göstərmişdi.

قَالَ الصَّادِقُ(ع): وَ كُونُوا دُعَاةً إِلَى أَنْفُسِكُمْ بِغَيْرِ أَلْسِنَتِكُمْ وَ كُونُوا زَيْناً وَ لَا تَكُونُوا شَيْناً

-İmam Sadiq(ə) buyurur: "İnsanları öz əməllərinizlə haqqa dəvət edin. Öz əməllərinizlə bizə zinət olun. Pis və günah iş görməklə abrımızı aparmayın."[1]

روي عن ابو زيد كُنْتُ عِنْدَ أَبِي عَبْدِ اللَّهِ(ع) فَدَخَلَ عِيسَى بْنُ عَبْدِ اللَّهِ الْقُمِّيُّ فَرَحَّبَ بِهِ وَ قَرَّبَ مِنْ مَجْلِسِهِ ثُمَّ قَالَ: يَا عِيسَى بْنَ عَبْدِ اللَّهِ لَيْسَ مِنَّا وَ لَا كَرَامَةَ مَنْ كَانَ فِي مِصْرٍ فِيهِ مِائَةُ أَلْفٍ أَوْ يَزِيدُونَ وَ كَانَ فِي ذَلِكَ الْمِصْرِ أَحَدٌ أَوْرَعَ مِنْهُ

-Əbu Zeyd deyir: "Günlərin birində İmam Sadiqin(ə) hüzurunda idik. Qum şəhərindən gəlmiş İsa ibn Abdullah adlı bir nəfər içəri daxil oldu. İmam Sadiq(ə) ona ehtiram göstərdi, hal-əhval tutduqdan sonra

[1] Üsuli-kafi, 3-cü cild, səh.123.

buyurdu: Ey Abdullahın oğlu İsa, əgər bizim dostlarımızdan biri yüz min və daha çox əhalisi olan bir şəhərə getsə və orada ondan yaxşı və təqvalı bir insan olmuş olsa, həmin şəxs (ora gedən dostumuz) bizdən deyil. (Yəni bizim şiələrimiz harada olursa-olsun, gərək təqvası hamıdan çox olmuş olsun).”[1]

Odur ki, təqvalı insanın xüsusiyyətlərindən biri Allahın buyurduqlarını dəqiqliklə yerinə yetirib, haram etdiyi işlərdən çəkinməkdir. Əlbəttə, bir daha qeyd edim ki, Allah-təala təqvanı insanların bacardığı qədər vacib etmişdir. Yəni təqva məsələsində hər bir mömin öz dərəcəsi ilə ölçülür. Yuxarıda bu haqda müəyyən qədər söhbət etmişik. Allah-təala “Təğabun” surəsinin 16-cı ayəsində buyurur:

فَاتَّقُوا اللَّهَ مَا اسْتَطَعْتُمْ

-Allahdan bacardığınız qədər qorxun (təqvalı olun).

Allah-təala bu ayədə təqvanı insanların istedad və bacarığı qədər vacib buyurur. Yəni hər bir insan onu öz istedadı qədər yerinə yetirməlidir. Həm Allah, həm də hər bir insanın özü istedadının nə qədər olduğunu yaxşı bilir. Belə də deyil ki, insan bu işdə çalışmasın və səy göstərməsin. Belə deyil ki, hər hansı bir əməl insan üçün çətin olduqda desin ki, mənim buna gücüm çatmır. Əgər insan əməl və hərəkətlərində dəqiq olmaq istəsə, ola bilər. Həmçinin insanlar istedad və bacarıq cəhətdən müxtəlif dərəcələrdə qərar tuturlar. Peyğəmbər(s) və məsum imamların öz dərəcələri, bizim də öz dərəcəmiz vardır. Bizə də öz dərəcəmiz qədər çalışıb əməl etmək

---

[1] Yenə orada,3-cü cild, səh.123.

vacibdir. Məsələn, hər bir insan istəsə haram yeməyə bilər. Amma bəzən başısoyuqluq və səhlənkarlıq edərək haram yeməklərə əl uzadır. Bizim işimiz şəriətin zahiri hökmlərinə riayət etməkdir və bunu hamı bacardığı qədər yerinə yetirə bilər. İmamların qeybdən xəbəri olduğu üçün onlar bu məsələlərdə bizdən daha dəqiqdirlər.

Mənsur Dəvaniqi İmam Baqiri(ə) bir müddət zindana saldı. İmam(ə) zindanda olarkən onu sevən və çox istəyən möminə bir xanım bazardan un alıb öz əlləri ilə xəmir yoğurdu. Həmin xəmirdən bir neçə çörək bişirib bir tabağa yığdı. Zindanın qapısına gəlib keşikçidən xahiş etdi ki, bu tabağı İmama(ə) çatdırsın və desin: "And içirəm ki, bu çörəyi halal pulum və əllərimin zəhməti ilə bişirib gətirmişəm." Keşikçi onun xahişini qəbul etdi. Tabağı götürüb İmama(ə) apardı və qadının sözlərini olduğu kimi ona çatdırdı. Bir az keçdikdən sonra keşikçi həmin tabağı geri qaytarıb qadına dedi: "İmam(ə) buyurdu ki, düzdür, bu çörəkləri halal pul və əllərinin zəhməti ilə bişirmişsən. Amma tabaq haram (qəsbi) olduğu üçün mən bunu qəbul edə bilmərəm."

Bu əhvalatı danışmaqda məqsədim odur ki, İmam Baqir(ə) qeybdən xəbərdar olduğu üçün tabağın haram olduğunu bilib geri qaytarır. Biz isə qeybi bilmədiyimiz üçün şəriət hökmlərinin zahirinə əməl edirik. Hər bir şeyin dərinliyindən xəbərdar deyilik. Şəriətin zahirinə əməl etməklə təqvalı ola bilərik, cənnəti qazana bilərik, amma İmam Baqir(ə) ola bilmərik. Buna görə də təqvada hər bir insanın öz dərəcəsi vardır ki, hərə öz bacarıq və istedadı qədər riayət etməyə çalışmalıdır.

## Gecə oyaq qalmaq (gecə namazı qılmaq) və Allahdan bağışlanma diləmək

Qeyd olundu ki, "Zariyat" surəsinin 16-19-cu ayələrində təqvalı insanların bir neçə xüsusiyyəti haqda söz açılmışdır. Yuxarıda həmin xüsusiyyətlərdən biri haqda söhbət etdik. Həmin ayələrdə müttəqilərin digər xüsusiyyətinə işarə edərək belə buyurulur:

كَانُوا قَلِيلًا مِّنَ اللَّيْلِ مَا يَهْجَعُونَ. وَبِالْأَسْحَارِ هُمْ يَسْتَغْفِرُونَ

-Onlar gecənin az bir hissəsini yatırdılar. Və səhərlər (Allahdan) bağışlanma diləyirdilər.

Ayədə işlənmiş "يَهْجَعُونَ" "Yəhcəun" kəlməsi "هُجُع" "Hücu" sözündən götürülüb və gecənin yuxusu mənasını ifadə edir. Sübh namazına yaxınlaşan vaxta isə səhər deyilir. Gecə yarıdan keçən kimi gecənin nafilə namazının vaxtı olur, yəni gecə yarıdan səhərə sübh namazına kimi bu namazı qılmaq olar.

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ آخِرَ اللَّيلِ فِي التَّهَجُّد أَحَبُّ إِلَيَّ مِن أَوَّلِهِ، لِأَنَّ اللهَ يَقُول: وَبِالأَسحَارِ هُم يَستَغفِرُون

-Həzrət Peyğəmbər(s) buyurur: "Gecənin axırında oyaq qalıb ibadət etmək, mənim üçün gecənin əvvəlindən daha yaxşıdır. Çünki Allah-təala buyurmuşdur: "Və səhərlər (Allahdan) bağışlanma diləyirdilər."[1]

Gecənin nafilə namazını qılan insanlar həmişə sübh namazından bir-iki saat öncə yuxudan oyanırlar. Mərhum Seyid Əli Qazi deyərdi ki, yayda gecə namazı üçün iki

---

[1]Təfsiri-nümunə,22-ci cild, səh.322.

saat vaxt ayırmağın eybi yoxdur. Amma qışda iki saat vaxt ayırmaq azdır. Çünki qışda gecələr uzun olur.

Gecə namazı əsasən on bir rükətdir. İki rükət, iki rükət sübh namazı kimi qılınır. Amma axırıncı bir rükət isə elə bir rükətdir. Axırıncı iki rükətin adı "Şəf", bir rükətin adı isə "Vətr" namazıdır.

قَالَ الصَّادِقُ(ع): مَن قَالَ فِي وَترِهِ إِذَا أَوتَر: اَستَغفِرُ اللهَ رَبِّي وَ أَتُوبُ إِلَيهِ سَبعِينَ مَرَّةً وَوَاظَبَ عَلى ذَلِكَ حَتيَّ تَمضَى سَنَةٌ كَتَبَهُ اللهُ عِندَهُ مِنَ الْمُستَغفِرِينَ بِالأَسحَار وَ وَجَبَت لَهُ الْمَغفِرَةُ مِن اللهِ عَزَّ وَجَلّ

-İmam Sadiq(ə) buyurur: "Hər kəs gecə namazını qılarkən "Vətr" namazında (qunutda) yetmiş dəfə "Əstəğfirullahə Rəbbi və ətubu iləyh" - desə və bu əməli bir il yerinə yetirsə, Allah-təala onu səhərlər istiğfar edən insanların sırasına daxil edər, Allahın məğfirət və bəxşişi həmin şəxsə vacib olar."[1]

Təqvalı insanın xüsusiyyətlərindən biri elə bu namazlardır ki, sonuncu rükətin qunutunu 300 dəfə "Əl-əfv" demək, 40 möminə dua etmək və s. zikrləri deməkdir. Yəni "Vətr" namazının qunutunu bacardığı qədər uzatmaqdır. Çünki hər kəs bu namazın qunutunu nə qədər uzatsa, bir o qədər Allahın xoşuna gələr.

قَالَ رَسُولُ اللهِ(ص): حَافِظُوا عَلَى صَلاةِ اللَّيلِ. فَإِنَّهَا حُرمَةُ الرَّبّ، تُدِرُّ الرِزق وَ تُحَسِّنُ الوَجه، وَتَضمِنُ رِزقَ النَّهار. وَطَوِّلُوا الوُقُوفَ

[1] Vəsail-ül şiə, 10-cu bab, hədis-4.

(القنوت) فِي الوَترِ. فَإِنَّهُ رُوي أَنَّ مَن طَوَّلَ الوُقُوفَهُ فِي الوَترِ، قَلَّ وُقُوفَهُ يَومَ القِيَامَة

-Həzrət Peyğəmbər(s) buyurur: “Gecə namazlarını qoruyun. Çünki gecə namazı qılmaq Allaha hörmət etməkdir. Gecə namazı ruzini artırar, üzü gözəlləşdirib nurani edər, günorta ruzisini zəmanətə götürər. Gecə (vətr) namazında dayanmağı (qunut tutmağı) uzadın. Çünki hər kəs bu namazda çox dayanarsa, qiyamət günü (hesab-kitab dayanacaqlarında) az dayanar.”[1]

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ رُزِقَ صَلاةَ اللَّيْلِ مِنْ عَبْدٍ اَو أَمَةٍ قَامَ لِلَّهِ عَزَّوَجَلّ مُخلِصاً، فَتَوَضَّأَ وُضُوءًا سَابِغًا، بِنِيَّةٍ صَادِقَةٍ وَ قَلبٍ سَلِيمٍ وَ بَدَنٍ خَاشِعٍ وَ عَينٍ دَامِعَةٍ جَعَلَ اللَّهُ تَعَالَى خَلْفَهُ تِسعَةَ صُفُوفٍ مِنَ الْمَلائِكَةِ، فِي كُلِّ صَفٍّ مَا لا يُحْصِي عَدَدَهُمْ إِلا اللَّهُ تَبَارَكَ وَ تَعَالَى، فَإِذَا فَرَغَ كَتَبَ لَهُ بِعَدَدِهِمْ دَرَجَاتٍ

-Həzrət Peyğəmbər(s) buyurur: “Allah bəndəsi olan kişi və yaxud qadın xalis niyyətlə gecə yarısı qalxıb mükəmməl və gözəl tərzdə dəstəmaz alaraq sidq niyyətlə, pak qəlblə, xüsusi halda və gözlərindən yaş axıdaraq gecə namazı qılsa, Allah-təala mələklərə əmr verər ki, doqquz sıra düzülüb ona iqtida etsinlər. Hər bir cərgədə dayanan mələklərin sayının nə qədər olduğunu Allahdan başqa heç kəs bilməz. O bəndə namazı qılıb qurtardıqdan sonra

[1] Biharül-ənvar,87-ci cild, səh.154.

Allah-təala ona həmin mələklərin sayı qədər məqam və dərəcə yazar."[1]

Allah-təala insanları Ona ibadət etmək üçün yaradıb. Hər kəs Allaha ibadət edirsə, Allahın ondan xoşu gəlir. Dünyada olan yeməklər, içməklər və istirahət vasitələrinin hamısı buna xidmət edir ki, insan Allaha ibadət və səcdə edə bilsin. Gecələr ibadət edən insan Allahın onu yaratmasında əsas hədəfinin nə olduğunu başa düşüb layiqincə ibadət etməyə çalışır. Belə olduqda Allah-təala mələklərə əmr verir ki, gedib ona iqtida etsinlər.Övlad, mal-dövlət insanın bu dünyadakı zinətidir. Allaha ibadət və səcdə etmək isə insanın axirət zinətidir. Xüsusilə gecə namazı qılmaq bəndəyə axirət bəzəyi verir.

قَالَ الصَّادِقُ(ع): إِنَّ اللهَ عَزَّوَجَلّ قَالَ: "الْمَالُ وَ الْبَنُونَ زِينَةُ الْحَيَاةِ الدُّنْيَا" إِنّ الثَّمَانِيَ رَكَعَاتٍ يُصَلِّيهَا العَبدُ آخِرَ اللَّيلِ زِينَةُ الآخِرَة

-İmam Sadiq(ə) buyurur: "Allah-təala buyurmuşdur: Mal-dövlət və övladlar dünya həyatının zinət və bəzəyidir. Bəndənin (gecənin axırında) qıldığı gecə namazının (əvvəldə olan) səkkiz rükəti isə axirətin zinətidir."[2]

قَالَ رَسُولُ اللهِ(ص): إِذَا قَامَ العَبدُ مِن لَذِيذِ مَضجَعِهِ وَالنُّعَاسُ فِي عَينَيهِ لِيُرضِيَ رَبَّهُ بِصَلاةِ لَيلِه، بَاهَى اللهُ تَعالَى بِهِ الْمَلائِكَته فَقَالَ: أَمَا تَرَونَ عَبدِي هَذَا قَد قَامَ مِن لَذِيذِ مَضجَعِهِ إِلَى صَلاةٍ لَم أَفرُضهَا عَلَيهِ، اَشهَدُوا أَنِّي قَد غَفَرتُ لَهُ

---

[1] Mizanül-hikmə,7-ci cild, hədis-10752.
[2] Yenə orada, hədis-10746.

-Həzrət Peyğəmbər(s) buyurur: “Bəndə gecə namazı qılmaq üçün öz şirin yatağından gözlərindən yuxu töküldüyü halda qalxıb Allahı razı salmaq üçün gecə namazı qılarsa, Allah-təala mələklər arasında fəxr edib buyurar: Mənim vacib buyurmadığım (gecə) namazı qılmaq üçün şirin yuxusundan oyanmış bəndəmi görmürsünüzmü? Siz şahid olun ki, Mən onu bağışladım.”[1]

## Üç əməlin savabının nə qədər olduğunu Allahdan başqa heç kəs bilmir

Gecə namazı elə bir əməldir ki, onun nə qədər savabı olduğunu Allahdan başqa heç bir kəs bilmir. Ümumiyyətlə, hədis və rəvayətlərə əsasən üç əməl vardır ki, onların savabının nə qədər olduğunu yalnız Allah bilir. Onlardan biri şəhidlik məqamıdır. Bu barədə bir çox hədis və rəvayətlər nəql olunmuşdur. İmam Rza(ə) buyurur: “Şəhid yerə yıxıldıqdan və canını tapşırdıqdan sonra yer ona belə deyər:

مَرحَباً بِالرُّوحِ الطَّيِّب، اَلَّذِي أُخرِجَ مِنَ البَدَنِ الطَّيِّب، أَبشِر. فَإِنَّ لَكَ مَا لا عَينٌ رَأَت، وَلا أُذُنٌ سَمِعَت، وَلا خَطَرَ عَلَى قَلبِ بَشَر

-Mərhəba, pak bədəndən çıxmış pak ruha! Müjdə olsun sənə! Sənə elə bir şey verəcəklər ki, heç bir göz onu görməyib, heç bir qulaq onun barəsində eşitməyib və heç bir qəlb onu hiss etməyib.”[2]

---

[1] Biharül-ənvar,82-ci cild, səh.222.
[2] Məcməül-bəyan,2-ci cild, səh.172.

Həmin əməllərdən biri oruc tutmaqdır. Yəni oruc tutan insanın nə qədər savab qazandığı Allahdan başqa heç kəsə bəlli deyil. Bu barədə də bir sıra hədislər nəql olunmuşdur.

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ لِلّهِ مائِدَةً عَلَيهَا مَا لا عَينٌ رَأَت، ولا أُذُنٌ سَمِعَت، ولا خَطَرَ عَلى قَلبِ بَشَرٍ، لا يَقعُدُ عَلَيهَا إلاَّ الصّائِمونَ

-Həzrət Peyğəmbər(s) buyurur: " Allahın elə bir süfrəsi vardır ki, heç bir göz onu görməmiş, heç bir qulaq onun haqqında eşitməmiş və heç bir qəlb onu dərk etməmişdir. Onun kənarında oruc tutanlardan başqa heç bir kəs əyləşməyəcək."[1]

Həmin əməllərdən üçüncüsü isə gecə namazıdır ki, Allah-təala "Səcdə" surəsinin 16-17-ci ayələrində buyurur:

تَتَجَافَى جُنُوبُهُمْ عَنِ الْمَضَاجِعِ يَدْعُونَ رَبَّهُمْ خَوْفًا وَطَمَعًا وَمِمَّا رَزَقْنَاهُمْ يُنفِقُونَ. فَلَا تَعْلَمُ نَفْسٌ مَّا أُخْفِيَ لَهُم مِّن قُرَّةِ أَعْيُنٍ جَزَاء بِمَا كَانُوا يَعْمَلُونَ

-(Gecənin qaranlığında) Yataqlarından qalxar, Rəbbini qorxu ilə və umaraq çağırarlar və ruzi olaraq onlara verdiklərimizdən sərf (infaq) edərlər. Etdikləri işlərin mükafatı olaraq onlar üçün gözlərə işıq gətirən nələrin gizlədildiyini heç kəs bilməz!

Deməli, təqvalı insanın əlamətlərindən biri gecələr Allaha ibadət (gecə namazı qılmaq) və səhərə yaxın istiğfar etməkdir. Hədislərdə nəql olunur ki, hər kəsin mühüm hacəti və istəyi varsa, gecəyarısı durub namaz

---

[1] Allahın ayı,1-ci cild, səh.110.

qılsın və Allahdan həmin istəyini diləsin. Nə qədər səhərə (sübh namazına) yaxın olsa, bir o qədər yaxşıdır. Bəzi hədislərdə rəvayət olunmuşdur ki, əgər bir qadının mühüm bir hacəti varsa, gecəyarısı oyanıb xəlvət (heç kəsin olmadığı) bir yerdə ibadət etsin, gecə namazı qılsın və öz istəyini dilədikdən sonra Allah üçün başını (hicabını) açsın. Belə olduqda Allah-təala həmin qadının hacətini inayət edər.

## Allaha, axirətə, mələklərə, səmavi kitablara və peyğəmbərlərə iman gətirmək

Qeyd olundu ki, Allah-təala Quran ayələrində möminlərə xitab edərkən həmin xitablardan biri təqva barəsindədir. Bu xitabda Allah-təala möminlərə təqvanı təkid edərək onun mühüm və əsas amil olduğunu bəyan edir. Qiyamət günündə də insanların məhkəməsi təqva əsasında qurulacaq. Buna görə də insana lazımdır ki, müttəqilərin əlamətlərini öyrənib tanısın və onlara əməl etsin. Yuxarıda təqvalı insanın bir neçə xüsusiyyət və əlamətləri barədə söhbət etdik. Bu bəhsimizdə də həmin əlamətlərdən bir neçəsi haqda söz açacağıq. Allah-təala "Bəqərə" surəsinin 177-ci ayəsində belə buyurur:

لَّيْسَ الْبِرَّ أَن تُوَلُّواْ وُجُوهَكُمْ قِبَلَ الْمَشْرِقِ وَالْمَغْرِبِ وَلَكِنَّ الْبِرَّ مَنْ آمَنَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ وَالْمَلآئِكَةِ وَالْكِتَابِ وَالنَّبِيِّينَ وَآتَى الْمَالَ عَلَى حُبِّهِ ذَوِي الْقُرْبَى وَالْيَتَامَى وَالْمَسَاكِينَ وَابْنَ السَّبِيلِ وَالسَّآئِلِينَ وَفِي الرِّقَابِ وَأَقَامَ الصَّلاةَ وَآتَى الزَّكَاةَ وَالْمُوفُونَ بِعَهْدِهِمْ إِذَا عَاهَدُواْ

وَالصَّابِرِينَ فِي الْبَأْسَاء والضَّرَّاء وَحِينَ الْبَأْسِ أُولَئِكَ الَّذِينَ صَدَقُوا وَأُولَئِكَ هُمُ الْمُتَّقُونَ

-Yaxşılıq yalnız üzlərinizi (ibadət üçün) şərq və qərbə tərəf çevirmək deyildir. Lakin həqiqi yaxşılıq Allaha, axirət gününə, mələklərə, (səmavi) kitaba və peyğəmbərlərə iman gətirən, eləcə də öz malını çox sevməsinə (və ona ehtiyacı olmasına) baxmayaraq, Allah eşqinə qohumlarına, yetimlərə, yoxsullara, yolda qalanlara, dilənçilərə və qullar(ın azad olunmasın)a verən, namaz qılan, zəkat verən, əhd-peyman bağlayan zaman öz əhdinə vəfalı olanlar, (məxsusən) maddi çətinlikdə, fiziki zərərlərdə və cihad zamanı səbirli olan kəs(in iman və əməli)dir. Onlardır doğru danışanlar və onlardır təqvalılar!

Bu ayənin əvvəllərində yəhudi və xristianların məsələləri barədə söz açılır. Çünki yəhudilər üzü qərbə, xristianlar isə üzü şərqə tərəf dayanıb ibadət edirdilər. Allah-təala onlara qibləni təyin edərək, ibadət zamanı üzlərini o tərəfə tutmağı vacib buyurdu. Ümumiyyətlə, dində qiblə məsələsi şəriət hökmlərinə aid bir məsələdir ki, müxtəlif ibadət və əməllərdə mühüm xarakter daşıyır. Namaz qılarkən, heyvan kəsərkən və s. əməlləri yerinə yetirərkən üzü qibləyə dayanmaq vacibdir. Həmçinin can verən insanı üzü qibləyə uzatmaq, dünyasını dəyişmiş insanı qəbirə qoyduqda (baş tərəfi məğribə, ayaq tərəfi məşriqə) sinəsi qibləyə qoymaq kimi vacib hökmlər vardır. Eyni zamanda insanın ayaqyolunda üzü qibləyə, yaxud arxası qibləyə əyləşməsi haramdır. Allah-təala Kəbə evini müsəlmanlar üçün qiblə təyin etdikdə yəhudilər və xristianlar ən böyük iftixarlarını əllərindən

verdilər. Yəhudilərin qərbə, xristianların şərqə tərəf dayanıb ibadət etmələri onların ən böyük iftixarı idi.

Qeyd etdiyimiz ayənin əvvəlində Allah-təala belə buyurur: "Yaxşılıq yalnız üzlərinizi (ibadət üçün) şərq və ya qərb tərəfə çevirmək deyildir." Bu cümlənin ardınca təqvalı insanın əlamət və sifətlərini saydıqdan sonra belə buyurur: "Onlardır doğru danışanlar və onlardır təqvalılar!" Bu ayədə Allah-təala təqvalı insanın həm əqidəsinə, həm də əməli sifətlərinə işarə edir. İlk növbədə əqidə ilə bağlı əlamətlərə işarə edərək belə buyurur: "Lakin həqiqi yaxşılıq Allaha, axirət gününə, mələklərə, (səmavi) kitaba və peyğəmbərlərə iman gətirməkdir."

Bu ayədə Allah-təala təqvalıların xüsusiyyətlərini sadalayarkən birincisi Allaha iman gətirmələrinə işarə edir. Yəni təqvalı o kəsdir ki, ilk növbədə Allahı tanıyıb Ona iman gətirsin. Ümumiyyətlə, insan bu dünyaya gəldikdən sonra unutmamalıdır ki, Allahı tanıyıb ona söz vermişdir. Bir zaman Allaha söz verib əhd-peyman bağladığını yaddan çıxarmamalıdır.

Sonra buyurur ki, təqvalılar axirət gününə inananlardır. İnsan bir gün dünyadan gedəcəyinə və qiyamət günü diriləcəyinə inanmalıdır. İnsanın dünyadan getməsini hamı görür və bilir. Şeytan bir cür hiylə işlədir ki, çox vaxt insanlar ölümün onlar üçün olmadığını güman edirlər. Belə yaşayırlar ki, guya ölüm başqalarına gəlir, amma bunlara gəlməyəcək. Faktiki olaraq hamı öləcəyini çox yaxşı bilir. Sadəcə şeytan öz hiylələri ilə bəzilərinə bunu unutdurur.

Ayədə üçüncü əlamət budur ki, təqvalı insanlar mələklərin varlığına inanırlar. Ola bilsin ki, gələcək

bəhslərimizdə mələklər haqqında söz açaq. Çox yaxşı olardı ki, onlar barəsində də məlumatımız olsun. Əlbəttə, hamının müəyyən qədər mələklər barədə məlumatı vardır. “Məlaikə” ərəb sözü olub “mələklər” deməkdir. “Məlaikə” mələk sözünün cəm formasıdır. Allah-təala mələkləri yaratmış və işləri onların arasında bölmüşdür. Heç bir mələk öz işində səhlənkarlıq etmir və Allahın göstərişi ilə vəzifələrini yerinə yetirirlər.

Təqvalı insanın ayədə göstərilən əlamətlərindən dördüncüsü Allahın nazil etdiyi kitaba iman gətirməkdir. Hər bir müsəlman buna inanmalıdır ki, əlində olan Quran kitabı Allahın nazil etdiyi müqəddəs bir kitabdır. Hər bir müsəlmana Allahın nazil etdiyi bu kitaba iman gətirməsi vacibdir.

Ayədə göstərilmiş təqvalı insanın əlamətlərindən beşincisi peyğəmbərlərə iman gətirməkdir.

Deməli, əgər hər bir insan Allaha iman gətirsə, axirət gününə inansa, mələklərə, Allahın nazil etdiyi kitaba və peyğəmbərlərə imanı olsa, bu, insan üçün həqiqi yaxşılıqdır. Yəni bu insanın əqidəsi düzgün formalaşmışdır. İnsanın qeyb aləminə inanması onun əqidəsi baxımından çox mühümdür. Ayədə sadalananların hamısı qeyb aləminə aid olan məsələlərdir. “Bəqərə” surəsinin əvvəllərində belə oxuyuruq:

بِسمِ اللّٰهِ الرّحمنِ الرَّحِيم. الم. ذَلِكَ الْكِتَابُ لاَ رَيْبَ فِيهِ هُدًى لِّلْمُتَّقِينَ. الَّذِينَ يُؤْمِنُونَ بِالْغَيْبِ

-Bağışlayan və mehriban Allahın adı ilə. Əlif, Lam, Mim. Barəsində heç bir şəkk-şübhə olmayan bu uca məqamlı kitab təqvalılar üçün hidayət mənbəyidir. O kəslər ki, qeybə inanır.

İnsan yaşadığı maddiyyat aləmindən əlavə, bəzi şeylərin olduğunu da bilməlidir. Yəni insan üçün çox mühüm və əsas məsələ budur ki, o, yaşadığı aləmdə pərdənin arxasında nələr olduğunu da bilməlidir. Bu aləm pərdənin arxasından hidayət olunur. Allahın Özü, qiyamətdə dirilmək, mələklər, peyğəmbərlərin göndərilməsi və kitabın nazil olması qeybə aid olan məsələlərdir. Əgər insan bunlara iman gətirirsə, deməli, qeybə də iman gətirir. Hər kəs bunlara inanırsa, təqva, həqiqi yaxşılıq və üstünlük də bundadır. İmanını axıra qədər qoruyub saxlayan və əqidəsi möhkəm olan insanlar o kəslərdir ki, əqidələri düz olmuş olsun. İnsan hər şeydən öncə öz əqidəsini düzəltməli və möhkəmlətməlidir.

Namaz, oruc, moizələr dinləmək, Quran oxumaq və s. kimi əməllərə riayət etmək bu baxımdan çox yaxşıdır. Bütün bunlarla yanaşı, insan kitablar oxumalı, maraqlanmalı və əqidə prinsiplərini öyrənib dəlil-sübutlarla öz əqidəsini daha da möhkəmləndirməlidir. İnsanın əqidəsi dəlil-sübutlarla və əqli yollarla hasil olmalıdır. Əqidə o deyil ki, insan kimdənsə peyğəmbərin mövcudluğunu və qiyamətin baş verəcəyini eşidib desin ki, peyğəmbər var və qiyamət günü insanlar diriləcək. Yəni insanın əqidə məsələləri təqlid məsələləri kimi deyil.

Dinin əsasları "Üsuliddin" adlanır. Bu, insanın əqidə prinsipləridir. Üsuliddində heç bir vəchlə təqlid etmək və fitva vermək olmaz. Yəni əqidə ilə bağlı məsələlər fitva və təqlidə aid olan məsələ deyil. Fitva vermək və təqlid etmək dinin hökmlərindəndir. Heç bir müctəhid deyə bilməz ki, mən Allahın tək olduğuna və yaxud qiyamətin baş verəcəyinə fitva verirəm. Çünki

üsuliddində nə fitva vermək olar, nə də təqlid etmək. Təkcə müctəhidlik məsələsində deyil, hər bir elmi sahə belədir. Məsələn, insanın ağlı bunu dərk edir ki, xəstələndikdə xəstəxanaya getmək lazımdır. Yaxud hər bir insan öz ağlı ilə xəstələrin yerləşməsi və onların müalicə olunmaları üçün xəstəxananın lazım olduğunu başa düşür. Amma xəstəni müalicə etmək həkimlərin, yaxud xəstəxana tikmək mühəndislərin işidir. Xəstənin xəstəliyini həkim müalicə etməlidir. Xəstəxananı tikmək isə mühəndisin işidir. Bu işlərdə həkimin və yaxud mühəndisin sözünə qulaq asarlar. Amma xəstəxananın və həkimin lazım olduğunu insan öz ağlı ilə başa düşür. Yəni xəstəxananın lazım olub-olmadığını insan özü düşünür, onun tikilməsi isə mühəndisin öhdəsinə düşür. Həmçinin müctəhid insana şəriət məsələlərində gərəkdir. Əqidə ilə bağlı məsələlərdə müctəhidi təqlid etmək olmaz. Müctəhid insana şəriət məsələlərini öyrədir, əqidə ilə bağlı məsələləri yox. Müctəhidin işi illərlə zəhmət çəkib şəriət hökmlərini araşdırmaq və onları bizə çatdırmaqdır. Məsələn, Quranda namaz vacib buyurulmuşdur, amma onun incəliklərini və hökmlərini araşdırmaq və camaata çatdırmaq müctəhidin işidir.

Odur ki, əqidə ilə bağlı məsələləri insan özü araşdırmalı və əqli dəlillərlə qənaətə gəlməlidir. İnsan oxumadan və elmin qanunlarını öyrənmədən əqidəsini möhkəmləndirə bilməz. İnsan əqidəsini möhkəmlətmək üçün vaxt sərf etməli, oxumalı, öyrənməli və nəticəyə gəlməlidir. Əqidəsini düzəltmək və onu möhkəmləndirmək insan üçün ən əhəmiyyətli və vacib bir işdir. Məsələn, insan evini təmir edərkən hər bir şeyə diqqət yetirir və azacıq uyğunsuzluq gördükdə onu tez

aradan qaldırmağa çalışır. Hər bir şeyin öz yerində olmasını istəyir. Eləcə də öz əqidəsində dəqiq olmalı və onu möhkəmləndirməlidir.

Çox yaxşı olardı ki, insan öz bilikli dostları ilə, alimlərlə həftə ərzində görüşüb tövhid, nübüvvət, imamət və məad barədə söhbətlər aparıb iman və əqidəsini möhkəmləndirsin. Cəmiyyətdə şahidi oluruq ki, cavan uşaqların beyninə boş-boş sözləri doldurub onları yoldan çıxarırlar. Bəs, nə üçün onlar yoldan çıxıb puç əqidələrə giriftar olurlar? Çünki onlar öz cahillik və nadanlıqlarının qurbanına çevrilirlər. Onların həqiqət yolunun düzlüyündən və nuraniyyətindən xəbərləri olmadığı, habelə başqalarının bəzəyib düzdükləri batil sözlərə aldandıqları üçün yoldan uzaqlaşırlar. Onları yoldan çıxaranları cəmiyyət arasında elmi mübahisə və mübarizəyə dəvət etdikdə boyun qaçırıb bu işdən yayınırlar. Amma xəbərsiz və məlumatsız cavanları və yeniyetmə uşaqları bəzi nadürüst sözlərlə yoldan çıxarmağa çalışırlar. İnsanın öz imanından və həqiqi yolundan uzaqlaşması onun cahillik və elmsizliyi ilə bağlıdır.

Beləliklə, əgər insanın imanı və əqidəsi möhkəm olmasa, qarşısına çıxan müxtəlif hadisələr zamanı tez çaşar və həqiqətdən uzaqlaşar. Həmçinin imanının kökü olmayan və qeybə inanmayan bir insanın dinə böyük ziyan vurması da qaçılmazdır. Tarixə diqqət yetirdikdə belə insanların şahidi oluruq.

### Əbu Cəfər Hüseyni və ona beyət edənlər

Əbu Cəfər Hüseyni imanlı, elmli, ağıllı, mömin və əqidəsi möhkəm olan bir insan idi. O, Abbasi xəlifələrindən olan Mötəsimə qarşı etiraz etdi və onun

əleyhinə qalxdı. İş bu yerə gəlib çatdı ki, Mötəsim onu sıxışdırmağa başladı və orada heç bir hərəkət edə bilməyəcəyini görən Əbu Cəfər İrana üz tutdu. Xorasan, Sərəxs, Mərv və Taliqan kimi şəhərlərdə olub möminlərlə görüşdü. Yavaş-yavaş camaat ona beyət etməyə başladı. Beləliklə, Mərvdə onun 40 min nəfər tərəfdarı və beyət edəni var idi. Onların hamısı Mötəsimə qarşı müharibə etməyə hazır olduqlarını bildirdilər. Gecələrin birində camaat döyüş üçün hazırlıq işləri görürdülər. Əbu Cəfər bir nəfərin ağladığını eşitdi. Oradakılardan soruşdu ki, o adam nə üçün ağlayır? Ona dedilər: “Bir kişinin nalçasını oğurlayıblar, buna görə də o ağlayır.” Əbu Cəfər ondan soruşdu: “Niyə ağlayırsan? Kişi dedi: Aman-zaman bircə nalçam var idi. Onu da oğurladılar. Əbu Cəfər soruşdu: Bilirsənmi kim oğurlayıb? Kişi dedi: Filankəs. Əbu Cəfər öz-özünə dedi: Biz elə bu işlərə görə Mötəsimə qarşı müharibəyə hazırlaşırıq. Bütün bu camaat mənə beyət edib. Necə ola bilir ki, kimsə belə bir iş görsün? Sonra nalçanı oğurlayanı çağırıb soruşur: Bu nə işdir tutmusan? Həmin oğru deyir: Biz sənə boş-boşuna beyət etməmişik. Ona görə beyət etmişik ki, ürəyimiz nə istəsə, onu da eləyək və camaatın malını aparaq. Əbu Cəfər nalçanı ondan alıb sahibinə qaytardıqdan sonra deyir: Belə bir camaatla Allahın dininə heç bir köməklik edə bilmərik. Bu iş üçün iman və möhkəm əqidə lazımdır. İman olmayandan sonra nalça oğrusu Allah yolunda nədən keçə bilər?”

Sonra camaata dağılışıb evlərinə getməyi göstəriş verir. Bütün ordunu dağıtdıqdan sonra bir neçə xüsusi

dostunu götürüb Taliqana yollanır və ömrünün sonuna qədər orada yaşayır.[1]

[1] Beş yüz dastan,1-ci cild, səh. 269.

## Müaviyənin hiyləsi və Səmurə ibn Cündəbin dinini satması

Səmurə ibn Cündəb Bəsrədən idi. Uşaq vaxtında atası öldükdən sonra anası onu götürüb Mədinəyə gəldilər. Anası orada İbn Şeyban adlı bir nəfərlə ailə qurdu. Səmurə orada böyüyüb boya başa çatdı. Zirək və bacarıqlı bir oğlan idi. Yaxşı ox atmağı da bacarırdı. Peyğəmbərin(s) əmri ilə Ühüd kimi döyüşlərdə də iştirak etmişdi. Həzrət Əlinin(ə) xilafəti dövründə Müaviyə onu qızıl-gümüşlə ələ ala bildi. Belə ki, bəzi səhabələr kimi, o da Müaviyədən pul alıb Peyğəmbərin(s) adından qondarma hədislər söyləyirdi. Müaviyə pul verərdi ki, onu tərifləsin və Həzrət Əlini(ə) pisləsin. Günlərin birində Müaviyə ona dedi: “Sənə yüz min dirhəm pul verirəm, Əxnəs ibn Şüreyq kimi münafiqlər barəsində nazil olmuş bu ayəni minbərlərdə Əlinin barəsində oxu:

وَمِنَ النَّاسِ مَن يُعْجِبُكَ قَوْلُهُ فِي الْحَيَاةِ الدُّنْيَا وَيُشْهِدُ اللّهَ عَلَى مَا فِي قَلْبِهِ وَهُوَ أَلَدُّ الْخِصَامِ. وَإِذَا تَوَلَّى سَعَى فِي الأَرْضِ لِيُفْسِدَ فِيِهَا وَيُهْلِكَ الْحَرْثَ وَالنَّسْلَ وَاللّهُ لاَ يُحِبُّ الفَسَادَ

-İnsanların eləsi var ki, onun dünya həyatındakı danışığı səni heyran edir və o, Allahı öz qəlbində olana şahid tutur, halbuki o, düşmənlərin ən qəddarıdır. Üz döndərən zaman isə yer üzündə fəsad törətmək, əkin sahələrini və insanları məhv etmək üçün yola düşər. Allah fəsadı sevmir.[1]

---

[1] Bəqərə surəsi, ayə 204-205.

Həmçinin Əli ilə bağlı nazil olmuş bu ayəni də İbn Mülcəmin barəsində oxu:

وَمِنَ النَّاسِ مَن يَشْرِي نَفْسَهُ ابْتِغَاء مَرْضَاتِ اللّهِ وَاللّهُ رَؤُوفٌ بِالْعِبَادِ

-İnsanlardan eləsi də var ki, Allahın razılığı üçün öz canını satır (hicrət gecəsi Peyğəmbərin - səlləllahu əleyhi və alihi və səlləm - yatağında yatmış Əli əleyhissalam kimi Allah yolunda canından keçir). Allah bəndələrə qarşı çox şəfqətli və mehribandır."[1]

Səmurə razılaşmayıb dedi: "Yüz min dirhəm çox azdır."

Uzun söhbətdən sonra dörd yüz min dirhəmə razılaşıb bu işi öz boynuna götürdü. Minbərlərə çıxıb münafiqlər barəsində nazil olmuş ayəni Əlinin, Əlinin barəsində nazil olmuş ayəni isə İbn Mülcəmin barəsində oxuyurdu.

Əgər insanın iman və əqidəsi möhkəm olmasa, dinə elə bir ziyan verər ki, heç bir dinsiz belə bir ziyan vura bilməz. Müaviyə şeytanın mücəssəməsi idi. Hər kəsin imanının zəif olduğunu gördükdə pul-para ilə onu öz yanına çəkər və dinə istədiyi zərbəni vurardı. Əqidəsi boş insanları elə ələ almışdı ki, erkək dəvəyə dişi desəydi, onlar da dişi deyəcəkdilər.

Odur ki, namaz, oruc və s. əməllərin olmasından asılı olmayaraq insanın əqidəsi möhkəm olmasa, imanı Allaha və Peyğəmbərə(s) möhkəm bağlanmasa, müxtəlif hadisələrin müqabilində dayana bilməyəcək. Belə

[1] Yenə orada, ayə 207.

olduqda qıldığı namazın, tutduğu orucun və s. yaxşı əməllərin də ona heç bir faydası dəyməyəcək. Çünki insanın əməlləri onun əqidə və imanının möhkəmliyi baxımından qəbul olunur. İmanı və əqidəsi zəif olan insanların bəzisini pulla, bəzisini təriflə, bəzisini qadınla və bəzisini isə digər müxtəlif yollarla yoldan çıxarmaq mümkündür. Amma imanı möhkəm, əqidəsi təmiz olan insanı heç bir kəs yoldan çıxara bilməz. Çünki əgər insanın imanı Allaha və Peyğəmbərə(s) sıx bağlı olsa, heç bir qüvvə onu ayıra bilməyəcək. Tarixə nəzər saldıqda görürük ki, belə insanlar kifayət qədərdir. Həzrət Əlinin(ə) tərbiyə etdiyi insanlara baxdıqda görürük ki, onlar da ibadət edərkən sanki Allahı görürmüş kimi qarşısında ibadət edirdilər.

Həmin şəxslərdən biri Səid ibn Cübeyr idi. O, İmam Səccadın(ə) şagirdlərindən biri və itaətkar insan idi. Onun Peyğəmbərə(s) və Əhli-beytə(ə) çox böyük məhəbbəti var idi. Həccac ibn Yusif onu qətlə yetirdi. Tarixçilər onun barəsində belə yazırlar: "Həccac ibn Yusif Səqəfi Bəni-Üməyyə tərəfindən 20 il İraqda və İranda hakimlik etmişdir. O, Həzrət Əliyə(ə) zərrə qədər məhəbbəti olan insanları belə qətlə yetirirdi. Həccac hər kəsdə Əlinin(ə) məhəbbətini hiss etsəydi, dərhal onu öldürərdi. Onun kefinin ən yaxşı vaxtı o vaxtlar olardı ki, Həzrət Əlinin(ə) şiələrindən birini qarşısında öldürsünlər və o da dayanıb onun can verməsinə tamaşa etsin. Həccac müharibələrdə ölənlərdən əlavə, 120 min nəfər şiəni qətlə yetirmişdir. Bəzən göstəriş verərdi ki, Əlinin(ə) tərəfdarlarından tutub onun qarşısına gətirsinlər. Gözü qabağında onun başını kəsib qanını qurutsunlar. Həmin qanı yeməyinə duz kimi səpib

yeyərdi. Həccac cəhənnəmə vasil olduqda onun zindanında 50 min nəfər kişi, 20 min nəfər qadın var idi. Həmin məhbuslardan 16 min nəfərini zindanda çılpaq halda saxlayırdılar. Dustaqların saxlandığı zindanın tavanı yox idi. Onlara arpa unu, duz və küldən hazırlanmış çörəkdən savayı başqa heç nə vermirdilər. Zindanın üstünü bağlamağa da icazə vermirdi. Zindanın divarlarının üstündə keşikçilər gəzişirdi. Dustaqlar günəşin şüaları altında əzab çəkirdilər. Günün istisindən zindanın divarının kənarında daldalanmaq istəyən hər bir kəsin başına yuxarıdan iri daş salıb öldürərdilər. Həccac ibn Yusif belə bir nanəcib, cəllad və qaniçən bir insan idi.”

Əhli-sünnə alimlərindən olan Şəbi deyir: “Əgər bütün ümmətlərin zalımlarını və pozğunlarını tərəzinin bir gözünə, Həccac ibn Yusifi də tərəzinin o biri gözünə qoysalar, zülm və cinayət törətməkdə Həccac onların hamısından ağır gələr. Kumeyl ibn Ziyad, Həzrət Əlinin(ə) qulamı Qənbər, Səid ibn Cübeyr kimi böyük şəxsiyyətləri də Həccac qətlə yetirmişdir.

Səid ibn Cübeyr İmam Səccadı(ə) çox istəyir, həmişə onun yanında olur və namazlarda Həzrətə(ə) iqtida edirdi. Həccac ibn Yusif göstəriş verdi ki, Səidi öldürsünlər. Səid ibn Cübeyr İsfahana hicrət etdi. İsfahanın hakiminə məktub yazıb göndərdilər ki, Səidi tutub Həccaca göndərsin. İsfahanın hakimi insaflı bir insan idi. O, Səidi çağırıb dedi: “Mənə belə bir məktub yazıblar ki, səni tutub Həccaca göndərim. Lakin mən bu işi görmək istəmirəm. Yaxşısı budur ki, İsfahandan çıxıb gedəsən və səni heç bir kəs görməsin. Belə olduqda mən

də onlara cavab olaraq yazaram ki, Səid İsfahanda yoxdur.”

Səid oradan çıxdıqdan sonra bir müddət Azərbaycanda yaşadı. Sonra İraqa qayıdıb Həccacın əleyhinə olan bir müharibədə iştirak etdi. Sonra Məkkəyə getdi. O zaman Xalid ibn Abdullah Əbdülməlik Mərvan tərəfindən Məkkənin hakimi təyin olunmuşdu. Xalid özünü gözə soxmaq üçün Məkkədə olan böyük İslam şəxsiyyətlərini tutub Həccacın yanına göndərirdi. O cümlədən Səid ibn Cübeyri də tutub Həccaca göndərdi. Həccac bir neçə nəfərlə sarayda əyləşmişdi. Səidi onun yanına gətirdilər.

Həccac soruşdu: Sənin adın nədir?

Səid dedi: Səid (xoşbəxt).

Həccac dedi: Sən səid yox, şəqisən (bədbəxtsən).

Səid dedi: Bunu ata-anam çox gözəl biliblər və adımı Səid qoyublar.

Həccac dedi: Sən və atan hər ikiniz bədbəxtsiniz.

Səid dedi: Onu yalnız Allah bilər. Çünki qeybi bilən yanlız Odur.

Həccac dedi: Sənin filankəslər barədə fikrin nədir?

Səid dedi: Sənin onlarla nə işin var? Sən onların vəkilisənmi?

Həccac dedi: Bilmək istəyirəm, Əlini çox istəyirsən, yoxsa onları?

Səid dedi: Hansı Allahın yanında sevimlidir, onu çox istəyirəm.

Həccac dedi: Hansı sevimlidir?

Səid dedi: Onların daxilini Allah hamıdan yaxşı bilir.

Həccac dedi: Nə üçün düzünü demək istəmirsən?

Səid dedi: Yalan danışmaq istəmirəm.

Həccac dedi: Onsuz da səni öldürəcəyəm.

Səid dedi: Elə isə mən səadətə (xoşbəxtliyə) çatacağam. Necə ki, ata-anam məni xoşbəxt adlandırmışdır. Sən də şəqi (bədbəxt) olacaqsan.

Həccac dedi: Səni necə öldürməyimi istəyirsən?

Səid dedi: Bu sənin işindir. Mən seçim qarşısında deyiləm. Sən seçim qarşısında qalmısan. Məni necə öldürsən qiyamət günündə səni də eləcə öldürəcəklər.

Həccac cəllada göstəriş verdi ki, onu öldürsün. Cəllad ona yaxınlaşarkən Səid üzünü qibləyə tutub bu ayəni oxudu:

إِنِّي وَجَّهْتُ وَجْهِيَ لِلَّذِي فَطَرَ السَّمَاوَاتِ وَالأَرْضَ حَنِيفًا وَمَا أَنَاْ مِنَ الْمُشْرِكِينَ

-Həqiqətən, mən səmimi qəlb və haqqa meylliliklə üzümü göyləri və yeri yaradana tutmuşam. Və mən müşriklərdən deyiləm.[1]

Həccac göstəriş verdi ki, onun üzünü qiblədən döndərsinlər. Səidin üzünü qiblədən döndərdikdə bu ayəni tilavət etdi:

فَأَيْنَمَا تُوَلُّواْ فَثَمَّ وَجْهُ اللّهِ

-Odur ki, hansı tərəfə üz tutsanız, Allahın üzü (səmti) oradır.[2]

Həccac göstəriş verdi ki, onu yerə yıxıb boynunu vursunlar. Onu yerə yıxanda bu ayəni oxudu:

[1] Ənam surəsi, ayə 79.
[2] Bəqərə surəsi, ayə 115.

مِنْهَا خَلَقْنَاكُمْ وَفِيهَا نُعِيدُكُمْ وَمِنْهَا نُخْرِجُكُمْ تَارَةً أُخْرَى

-Sizi ondan (torpaqdan) yaratdıq (öləndən sonra) ona qaytaracaq və bir daha (qiyamətdə) ondan çıxaracağıq.[1]

Elə həmin vəziyyətdə onun başını kəsmək istəyərkən Səid Allaha belə dua etdi: "Ey mənim Allahım, məndən sonra Həccaca kimisə öldürməyə möhlət vermə."

Həccac onun boynunu vurdurub şəhid etdi. Üstündən on beş gün keçdikdən sonra Həccac ölüm yatağına düşdü. Hərdən huşu özünə gəlib diksinir və öz-özünə deyirdi: Mənim Səid ibn Cübeyrlə nə işim var idi? Sonra özündən gedirdi. Yenidən diksinib həmin sözü deyirdi. Beləcə, Həccac Səid ibn Cübeyrdən sonra heç bir kəsi öldürə bilmədi və cəhənnəmə vasil oldu.

Səid ibn Cübeyr kimi insanlar heç bir vaxt ölümün qorxusundan, yaxud nəyinsə tamahına görə heç vaxt imanından dönməzlər. Çünki əqidəsi düz və daha möhkəm olan insanı yolundan döndərmək mümkün deyil. Hədislərdə belə nəql olunur ki, mömin möhkəm dağa bənzəyir. Hər qopan tufan, yağan yağış, möhkəm axan sellər onu yerindən tərpədə bilməz.

## İslamda infaq

Allah-təala Qurani-Kərimdə müxtəlif ayələrdə təqvanın insan taleyində mühüm rol oynadığını bəyan edir. Təqva elə bir şeydir ki, insan əməlləri ilə bu mərhələni kəsb edir. Ötən bəhslərimizdə təqvanın bir sıra

[1] Taha surəsi, ayə 55.

əlamətləri haqda lazımi qədər söz açdıq. Allah-təala “Bəqərə” surəsinin 177-ci ayəsində təqvalı insanların sifət və xüsusiyyətlərindən söz açmışdır. Ötən bəhsdə bu ayədə olan bəzi əlamətləri qeyd etdik. Burada həmin ayənin davamı olaraq təqvalıların digər xüsusiyyətləri haqda söhbətə başlayaq.

لَّيْسَ الْبِرَّ أَن تُوَلُّواْ وُجُوهَكُمْ قِبَلَ الْمَشْرِقِ وَالْمَغْرِبِ وَلَكِنَّ الْبِرَّ مَنْ آمَنَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ وَالْمَلآئِكَةِ وَالْكِتَابِ وَالنَّبِيِّينَ وَآتَى الْمَالَ عَلَى حُبِّهِ ذَوِي الْقُرْبَى وَالْيَتَامَى وَالْمَسَاكِينَ وَابْنَ السَّبِيلِ وَالسَّآئِلِينَ وَفِي الرِّقَابِ وَأَقَامَ الصَّلاةَ وَآتَى الزَّكَاةَ وَالْمُوفُونَ بِعَهْدِهِمْ إِذَا عَاهَدُواْ وَالصَّابِرِينَ فِي الْبَأْسَاء والضَّرَّاء وَحِينَ الْبَأْسِ أُولَئِكَ الَّذِينَ صَدَقُوا وَأُولَئِكَ هُمُ الْمُتَّقُونَ

-Yaxşılıq yalnız üzlərinizi (ibadət üçün) şərq və qərb tərəfə çevirmək deyildir. Lakin həqiqi yaxşılıq Allaha, axirət gününə, mələklərə, (səmavi) kitaba və peyğəmbərlərə iman gətirən, eləcə də öz malını çox sevməsinə (və ona ehtiyacı olmasına) baxmayaraq, Allah eşqinə qohumlarına, yetimlərə, yoxsullara, yolda qalanlara, dilənçilərə və qullar(ın azad olunmasın)a verən, namaz qılan, zəkat verən, əhd-peyman bağlayan zaman öz əhdinə vəfalı olanlar, (məxsusən) maddi çətinlikdə, fiziki zərərlərdə və cihad zamanı səbirli olan kəs(in iman və əməli)dir. Onlardır doğru danışanlar və onlardır təqvalılar!

Bu ayədə təqvalı insanın bir neçə xüsusiyyət və əlamətləri bəyan olunmuşdur. Həmin əlamətlərdən bir neçəsi insanın əqidə və etiqad məsələlərinə aiddir ki,

yuxarıda bu barədə lazımi qədər söz açdıq. Lakin əgər ümumi qaydalar və dinin əsas prinsipləri barədə bəhs edəsi olsaq, bunun üçün xüsusi bir mövzu ayırmaq lazımdır. Bizim əsas mövzumuz təqva və müttəqilərin əlamətləri olduğu üçün həmin qaydalar mövzusuna girişmək istəməzdim. Sadəcə olaraq ayədə göstərilən bir sıra əqidə ilə bağlı əlamətləri nəzərinizə çatdırdım. Həmin ayədə ilk olaraq bir neçə əqidə və etiqadla bağlı əlamətlər sadalandıqdan sonra əməli əlamətlərin bir neçəsinə də işarə edilir. Ayədə buyurulur:

وَآتَى الْمَالَ عَلَى حُبِّهِ ذَوِي الْقُرْبَى وَالْيَتَامَى وَالْمَسَاكِينَ وَابْنَ السَّبِيلِ وَالسَّآئِلِينَ وَفِي الرِّقَابِ

-(Təqvalılar) öz malını çox sevməsinə (və ona ehtiyacı olmasına) baxmayaraq Allah eşqinə qohumlarına, yetimlərə, yoxsullara, yolda qalanlara, dilənçilərə və qullar(ın azad olunmasın)a verən (kəslərdir).

Ayənin bu hissəsində təqvalı insanın bir əlamətinə işarə edilir. Bu əlamət həmin infaq məsələsidir. Yəni təqvası olan adam həmişə öz malını çox sevməsinə və ona ehtiyacı olmasına baxmayaraq, Allah yolunda onu infaq edər. Həmçinin ayədə həmin malın kimlərə infaq olunması da bəyan edilmişdir. İnfaq olunan kəslərdən birincisi insanın öz qohum-əqrəbasıdır. Həmçinin ehtiyacı olan yetimlərə infaq edərlər. Əlbəttə, burada söhbət ehtiyacı olan yetimlərdən gedir. Bəzən elə yetimlər vardır ki, ata-anasını itirməsinə baxmayaraq, onun yaxşı imkanı və şəraiti vardır. Kiminsə infaq və yardımına da ehtiyacı yoxdur.

Həmçinin infaq və yardıma ehtiyacı olan insanlar yoxsullar və fəqirlərdir. Fəqir o kəsdir ki, onun xərci gəlirindən çox olmuş olsun. Məsələn, bir insanın gündəlik dolanışığı (ailəsinin və özünün yeməyi, geyimi və s. kommunal xərcləri) iyirmi manatla təmin olunur. Amma onun gündəlik gəlir və qazancı on manatdır. Belə olduqda bu adam fəqir sayılır. Yolda qalmış ehtiyacı olan insanlara da infaq və yardım edilə bilər. Yəni ola bilsin ki, bir insanın yaşadığı şəhərdə imkanı yaxşıdır. Amma kənar ölkələrdə, səfərdə və yaxud elə bir yerdədir ki, pulu qurtarıb və yolda qalmışdır. Belə bir insana infaq etmək təbii ki, lazımdır. Əlbəttə, müasir dövrdə öz şəhərində imkanı olub səfərdə yolda qalan insanlar üçün bir çıxış yolu tapılmışdır. Banklar vasitəsilə əlaqə saxlayıb istədiyi məbləği onun hesabına köçürürlər. Amma nə qədər ki, pul onun əlinə gəlib çatmayıb, yolda qalan insan kimi hesab olunur.

Eyni zamanda imkanı olmayan bir dilənçiyə də infaq etmək lazımdır. Bir şərtlə ki, insan onun həqiqətən də imkanı olmadığına inansın. Bəziləri ola bilsin ki, ehtiyac üzündən deyil, başqa məqsədlə dilənçilik edirlər və beləleri artıq dilənçiliyi özlərinə peşə seçmiş sayılırlar. Onların əsl həqiqətdə imkanları olduğunu bildikdə daha infaq və yardım göstərmək lazım deyil. Bir sözlə, infaq elə dilənçilərə aiddir ki, onlar həqiqətən ehtiyac üzündən dilənçilik edirlər. Həmçinin vaxtilə qul alıb azad etmək də Allah yolunda ən böyük infaq və savab işlərdən biri hesab olunurdu. Keçmişdə insanlar qul alıb satardılar. Bəziləri öz evlərində işlətmək üçün qul alıb işlədərdilər. Hazırkı dövrdə artıq qul alqı-satqısı yoxdur.

Deməli, ayədə bəyan olunmuş müttəqilərin bu xüsusiyyəti, yəni öz sevdiyi və ehtiyacları olduğu maldan adları çəkilmiş yolda xərcləmələri bütövlükdə çox böyük əhəmiyyət kəsb edir. Bu və bu kimi xüsusiyyətlər insanın təqvasından xəbər verir. Allah yolunda bu işi görməyə infaq deyilir. İnfaq məsələsi Quranda çox yerdə bəyan olunmuşdur. O cümlədən Allah-təala "Bəqərə" surəsinin 254-cü ayəsində iman gətirənlərə xitab edərək belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَنفِقُواْ مِمَّا رَزَقْنَاكُم مِّن قَبْلِ أَن يَأْتِيَ يَوْمٌ لاَّ بَيْعٌ فِيهِ وَلاَ خُلَّةٌ وَلاَ شَفَاعَةٌ

-Ey iman gətirənlər, nə alış-verişin və nə də dostluq və (Allahın izni olmadan) şəfaətin olmayacağı gün gəlməmişdən qabaq sizə ruzi olaraq verdiklərimizdən (Allah yolunda) xərcləyin.

Əlbəttə, onu da qeyd edim ki, infaq təkcə maddi məsələlərlə bağlı deyil. Əgər bir insanın pula ehtiyacı varsa, onun ehtiyacının ödənilməsi infaqdır. Əgər bir kəndin işığı yoxdursa, həmin yerə işıq çəkdirmək də infaq sayılır. Suyu olmayan bir məhəlləyə su çəkdirmək infaq hesab olunur. Oğlunu evləndirməyə imkanı çatmayana köməklik göstərilməsi də infaqdır. Ehtiyac olan yerlərdə su quyusu, körpü, məktəb, xəstəxana və s. tikmək, yaxud bu kimi işlərdə yaxından iştirak etməyin özü də infaq sayılır. Bütün bunların savabı insanın əməl dəftərinə qeyd olunur. Hətta dünyasını dəyişdikdən sonra da etdiyi bu infaqlardan istifadə olunduqca onun savabı həmin şəxs üçün göndəriləcək. Bütün bunlar maddi infaqlardır. Amma bəzən insanlara mənəvi infaqlar və yardımlar da lazımdır. Məsələn, birinə Quran, şəriət

məsələlərini öyrətmək insan üçün infaq sayılır. Zalımın əlindən məzlumun canını qurtarmaq da infaqdır. Tarixə nəzər saldıqda görürük ki, İmam Hüseyn(ə) İslam ümmətinə böyük bir infaq etdi. Minlərlə insanı Yezid kimi canavarın əlindən qurtardı.

Deməli, maddi, mədəni, dini cəhətdən infaq etmək mümkündür. Quranın bəzi ayələrində infaqın maddi cəhətinə, bəzi ayələrdə isə ümumi cəhətinə işarə olunmuşdur. Yəni infaqın hər bir növü insan üçün yaxşıdır. Məsələn, birinin evdə köhnə paltarları var. Özü istifadə etmədiyi üçün Allah yolunda başqalarına bağışlayır. Düzdür, bu da infaq sayılır, amma bu sevdiyi şeylərdən etdiyi infaq deyil. Həzrət Əli(ə) Qənbərlə bazara getmişdi. Oradan iki köynək aldı. Həmin köynəklərdən biri daha yaxşı idi. Həzrət(ə) həmin köynəyi (yaxşısını) nökərinə verib, nisbətən aşağı keyfiyyətli olanını isə özünə götürdü.

Hər bir halda infaq etmək yaxşıdır, amma ən yaxşı və üstün infaq insanın özünün sevdiyi şeylərdən Allah-təala yolunda xərcləməsidir. "Ali-İmran" surəsinin 92-ci ayəsində oxuyuruq:

لَن تَنَالُواْ الْبِرَّ حَتَّى تُنفِقُواْ مِمَّا تُحِبُّونَ

-Sevdiyiniz şeylərdən (Allah yolunda) xərcləməyincə əsla (kamil) yaxşılığa nail ola bilməzsiniz.

Bu ayədə açıq-aşkar şəkildə bəyan olunur ki, ən kamil yaxşılığa çatmaq üçün insan sevdiyi şeylərdən Allah yolunda xərcləməlidir.

Harun ər-Rəşidin Zübeydə adlı bir həyat yoldaşı var idi. Əlbəttə, Harunla onun arasında yer-göy qədər fərq var idi. O, çox imanlı bir qadın idi. Onun bir Quran kitabı var idi. Həmin Quranı cəvahirlə bəzəmişdi və bu kitabla

möhkəm bağlılığı var idi. Həmişə onu götürüb oxuyardı. Günlərin birində bu ayəyə rast gəldi: “Sevdiyiniz şeylərdən (Allah yolunda) xərcləməyincə əsla (kamil) yaxşılığa nail ola bilməzsiniz.” Bir az fikirləşdikdən sonra öz-özünə dedi: “Mənim dünyada ən çox istədiyim şey bu Qurandır.” Sonra isə Quranın üzərinə qızıl və cəvahiratdan vurduğu bütün bəzəkləri çıxarıb Hicaz çöllərində camaatın istifadəsi üçün su quyusu qazdırdı. Bəzi kitablarda yazırlar ki, həmin quyular indi də onun adını daşıyır.

Ümumiyyətlə, insan elə fikirləşməməlidir ki, onun etdiyi infaqlar boş yerlərə sərf olunur. Xeyr, hər bir insanın etdiyi bütün infaqlar onun axirət hesabına yığılır. İnşallah, dünyadan getdikdən sonra ora göndərdiyi bütün yaxşılıqları mütləq görəcəkdir. “Bəqərə” surəsinin 272-ci ayəsində oxuyuruq:

وَمَا تُنفِقُواْ مِنْ خَيْرٍ فَلأنفُسِكُمْ وَمَا تُنفِقُونَ إِلاَّ ابْتِغَاء وَجْهِ اللّهِ وَمَا تُنفِقُواْ مِنْ خَيْرٍ يُوَفَّ إِلَيْكُمْ وَأَنتُمْ لاَ تُظْلَمُونَ

-(Allah yolunda) nə mal xərcləyirsinizsə, öz xeyrinizədir və Allahın razılığını qazanmaqdan savayı başqa bir şey üçün xərcləmirsiniz. (Allah yolunda) xərclədiyiniz hər bir mal (onun mükafatı və ya onun eynilə özü axirətdə) tam surətdə sizə veriləcək, sizə əsla zülm olunmayacaq, haqqınızdan kəsilməyəcəkdir.

Odur ki, insan onun əməllərinin cəza və mükafatsız qalacağını fikirləşməməlidir. Dünyadan getdikdən sonra gördüyü bütün işlərin, həmçinin özündən sonra qoyub getdiyi bütün yaxşı və pis əməlləri görəcəkdir. Bundan əlavə, zərrə qədər xeyir və yaxud şər iş edibsə, onların hamısını görəcək.

قَالَ رَسُولُ اللهِ(ص): كُلُّكُم يُكَلِّمُ رَبّه يَوم القَيامة، لَيسَ بَينَهُ وَبَينَه تَرجمانٌ، فَيَنظُرُ أَمَامَهُ فَلا يَجِدُ إِلّا مَا قَدَّمَ، فَيَنظُرُ عَن يَمِينِهِ فَلا يَجِدُ إِلّا مَا قَدَّمَ، ثُمَّ يَنظُرُ عَن يَسارِهِ فَإِذَا هُوَ بِالنَّار، فَاتَّقُوا النَّار وَلَو بِشَقِّ تَمرةٍ. فَإِن لَم يَجِدُ أَحَدُكُم فَبِكَلِمَةٍ طَيِّبَةٍ

-Həzrət Peyğəmbər(s) buyurur: "Qiyamət günü arada heç bir tərcüməçi olmadan hamınız Allahla danışacaqsınız. Sonra qarşınıza baxdıqda (dünyada yaşadığınız zaman özünüzdən qabaq) göndərdiklərinizi görəcəksiniz. Sonra sağ tərəfə baxdıqda etdiyiniz yaxşı əməlləri görəcəksiniz. Sol tərəfə baxdıqda isə cəhənnəmi görəcəksiniz. Bir xurma ilə olsa da belə (infaq və ehsan edərək) özünüzü cəhənnəm odundan qoruyun. Əgər buna da imkanınız olmasa, şirin dilinizlə (və camaatla gözəl danışıb, gözəl rəftar etməklə) özünüzü cəhənnəm odundan qoruyun."[1]

Bu hədisdən də açıq-aydın görürük ki, Allah yolunda infaq, ehsan edib sədəqə vermək insanın axirəti üçün çox faydalıdır. Bu əməl insanı cəhənnəm odundan qoruyar. Əgər kiminsə infaq etməyə gücü çatmırsa, ən azından şirin dil və gözəl əxlaqı ilə özünü oddan qorusun. Məsələn, əgər bir ehtiyacı olan insan sənin qapına gəlib ağız açsa, imkanın olmadığı təqdirdə onu şirin dil ilə yola sal. Çünki şirin dil və xoş danışıq insanın çox yerdə dərdinə dəyəcək. İnsan xoş rəftar və şirin danışığı ilə möminin qəlbini sevindirərsə, dünyadan gedən zaman onun da qəlbi işıqlı olar.

[1]Mizanül-hikmə,13-cü cild, hədis-20633.

Hədislərdə nəql olunur ki, hər kim bir möminin qəlbini şad edərsə, o şadlıq nura çevrilib onun qəbrini işıqlandırar. Bir möminin qəlbini sevindirən şəxs öldükdən sonra camaat onu qəbirə qoyub getdikdə orada bir nur görəcək. Həmin nurdan soruşacaq ki, sən kimsən və haradan gəlmisən? Nur deyəcək: "Filan vaxt bir möminin qəlbini şad etməyin yadındadırmı? Mən həmin şadlığam ki, Allah-təala məni nur surətində sənin qəbrini işıqlandırmaq üçün bura göndərib."

Alimlərdən biri yazır ki, bir möminin qəlbini sevindirmək qəbirdə insan üçün nura çevriləcəksə, bəs əgər bir şəxs Peyğəmbərin(s) qəlbini şad etsə, o zaman nə olar? Əgər bir şəxs Həzrət Əlinin(ə) qəlbini şad etsə, necə olar? Əgər bir şəxs Həzrət Fatimənin(s.ə) qəlbini şad etsə, necə olar? Əlbəttə ki, bir insan Həzrət Zəhranın(s.ə) balası Hüseynə(ə) əza saxlayıb səsini o xanımın səsinə qoşsa, onun da ürəyi şad olar.

## Tarixdə infaq edənlər barədə nümunələr

### Hatəm Tayi

Tarixə diqqət yetirdikdə həmişə infaq və ehsan edən insanlara rast gəlirik. Bu əməl təkcə İslama görə yox, bəzi insanların xislətlərində olmuşdur. Yəni Allaha xatir olmasa da belə, bəzi insanlar bu kimi əməlləri ilə öz insanlıqlarını göstərmişlər. Yaxşılıq etmək, yardım göstərmək, ümumiyyətlə, insani keyfiyyətlərə aid olan bir məsələdir və bunu yalnız İslamla əlaqələndirmək olmaz. İnfaq barədə tarixdə qəribə hadisələrin şahidi olmaq mümkündür. Bu cür insanlardan biri Hatəm Tayi idi. O, çox əliaçıq və yaxşılıq edən bir insan idi. Bir gün ondan soruşdular: "Sən özündən başqa əliaçıq və infaq

edən birini görmüsənmi? O dedi: Bəli, bir dəfə görmüşəm. Bir gün səfərə çıxmışdım. Bu səfərdə azıb yolu itirdim. Uzaqdan bir çadır gördüm. Çadıra yaxınlaşıb sahibini səslədim. Qoca bir qadın çıxıb kim olduğumu soruşdu. Dedim ki, yoldan keçənəm. Ac-susuz bu çöllərdə qalmışam. Qadın irəli gəlib mənə atdan düşmək üçün kömək etdi. Məni çadıra dəvət etdikdən sonra gördüm ki, oğlunu çağırıb qonaq üçün quzunu kəsməyi tapşırdı. Mən qadınla söhbət etdikdən sonra bildim ki, onların mal-dövlətdən yalnız bircə kiçik quzuları var imiş. Onu da mənim üçün kəsib bişirdilər. Yemək yedikdən sonra mən həmin qadından soruşdum: Məni tanıyırsanmı?

Qadın dedi: Xeyr, sadəcə olaraq səni Allah qonağı bilib çadıra dəvət etmişəm.

Soruşdum: Hatəm Tayinin adını eşitmisənmi?

Qadın dedi: Eşitmişəm.

Dedim: Mən o adamam.

Qadın bu sözləri eşidib dedi: Çox xoş gəlmisən.

Dedim: Mən çox istərdim ki, səni evimə dəvət edim və hədiyyə verim.

Qadın dedi: Biz verdiyimiz qonaqlığın əvəzini istəmərik.

Buna görə də həmin qadın məndən daha səxavətli idi. Çünki əgər mən infaq və yaxşılıq edirəmsə, malımın bir hissəsini paylayıram. Amma o qadın olan-qalan bircə qoyununu tanımadığı bir adam üçün kəsərək infaq etdi. Mən onu özümdən daha səxavətli gördüm.”[1]

---

[1] Beş yüz dastan,1-ci cild, səh.298.

## Məən ibn Zaidə

Məən ibn Zaidənin Bəni-Üməyyə ilə arası çox yaxşı idi. Hamı onun səxavətli olduğunu çox yaxşı bilirdi. Bəni-Üməyyə hakimiyyəti dağıldıqdan sonra Abbasilər xilafəti quruldu. Məən ibn Zaidə qaçıb güzləndi. Şəhərdən çıxmaq üçün heç bir kəsin onu tanımamasından ötrü bir neçə gün günəşin şüaları altında dayanıb rəngini qaraltdı. Sonra paltarlarını dəyişib şəhər darvazasına yaxınlaşdı. Qapıda dayanmış əskər ondan kim olduğunu və haradan gəlib, hara getdiyini soruşdu. Məən dedi: “Yoldan keçənəm və təsadüfən bu şəhərə gəlmişəm.” Əskər onu buraxdıqdan sonra bir az fikirləşib başa düşdü ki, bu adam Məəndir. Qaça-qaça özünü ona yetirib dedi: “Mən səni tanıyıram. Sən Məən ibn Zaidəsən. Məən dedi: Xeyr, səhv edirsən. Çox söz-söhbətdən sonra Məən dedi: Nə olsun ki, Məənəm? Əskər dedi: Sən Bəni-Abbasın əlindən qaçırsan. Mən səni tutub onlara təhvil verəcəyəm. Məən dedi: Sənə nə qədər maaş verirlər? Sonra kisəsindən dəyəri yüz min dinarlıq bir qızıl çıxarıb əskərə uzatdı və dedi: Al bunu sənə verim, məni burax. Bunu da bil ki, məni tutub onlara təhvil versən də belə sənə bu qədər pul verməyəcəklər. Əskər pulu alıb bir az fikirləşdi. Onun da Bəni-Abbasdan xoşu gəlmədiyi üçün fikirləşdikdən sonra Məənə dedi: Mən sənə bir şey təklif etmək istəyirəm. İstəyirəm ki, sənin pulunu da qaytararaq səni buraxım. Qoy biləsən ki, bu dünyada səndən də səxavətli insanlar var.

Məən utanıb dedi: Sən bu pulu məndən götürməsən xəcalət çəkərəm.

Əskər dedi: Əgər səxavətli adam belə bir şeyi alsa, ondan daha çox utanar. Mən heç bir vaxt səndən bu pulu götürmərəm."[1]

[1] Beş yüz dastan, 2-ci cild, səh.77.

## İslamda infaq və yaxşılıq

Belə hadisələrə tarixdə çox rast gəlmək mümkündür və istədiyiniz qədər bu cür insanların şahidi ola bilərik. Bizim burada əsas söhbətimiz İslam dininin infaq, ehsan və səxavət kimi əməlləri çox bəyəndiyini diqqətə çatdırmaqdır. Məsələn, tarixi mənbələrdə yazırlar ki, Yəməndən bir qrup insan Peyğəmbərlə(s) əqidə məsələsi ilə bağlı söhbət etməyə gəlmişdilər. Onların rəhbəri cavan bir oğlan idi. Onlar müsəlman olmadıqları üçün Peyğəmbərlə(s) mübahisə etməyə başladılar. İş o yerə gəlib çatdı ki, bu cavan ədəbsizlik edərək səsini ucaltmağa və ağlına gələn sözləri söyləməyə başladı. Peyğəmbər(s) onun bu ədəbsizliyindən əsəbiləşdi. Hətta qəzəbdən Peyğəmbərin(s) alnının damarları belə şişdi. Elə bu zaman Cəbrayıl(ə) nazil olub dedi: “Ya Rəsulallah, Allah xəbər verir ki, səninlə belə ədəbsiz danışan cavanın bir yaxşı xüsusiyyəti var. O, çox səxavətli bir insandır.” Peyğəmbər(s) bu sözləri eşitdikdə hirsi soyudu və sakitləşdi. Sonra həmin cavana buyurdu: Ədəbsiz danışığına görə səninlə başqa cür rəftar edib qovacaqdım. Amma Allahım mənə sənin səxavətli olduğunu buyurdu. Buna görə də səni bağışladım.

Cavan dedi: Məgər sizin dininiz səxavəti bəyənirmi?

Peyğəmbər(s) buyurdu: Bəli, İslamda səxavət və infaq çox bəyənilmiş əməllərdəndir.

Cavan soruşdu: Sənin Allahın da səxavət və yaxşılığı bəyənir?

Peyğəmbər(s) buyurdu: Bəli. Buna görə də sənin səxavətli olduğunu mənə xəbər verdi. Bununla da mənim sənə qarşı olan hirsim soyudu.

Cavan dedi: Əgər Allahınız və dininiz səxavəti bəyənirsə, o zaman mən sizin dininizi qəbul edirəm. Şəhadət verirəm ki, Allahdan başqa heç bir məbud yoxdur. Şəhadət verirəm ki, Məhəmməd(s) Onun rəsuludur."[1]

Quran ayələrindən, hədis və qeyd olunan rəvayətlərdən açıq-aydın görünür ki, kafir, yaxud müsəlman olmasından asılı olmayaraq infaq və səxavəti hamı bəyənir. Xüsusilə İslam tarixinə nəzər saldıqda başda Peyğəmbər(s) olmaqla Əhli-beyt(ə) və məsum imamlarımız bu əməlin bariz nümunələri olmuşlar. Belə ki, bəzən onların infaq və ehsan etmələrini oxuduqda insan çox təəccüblənir. İslam bu əmələ çox böyük əhəmiyyət verir və bəyənir. Amma İslamda bütün bu yaxşılıq, ehsan, səxavət kimi əməllərin hamısının əcri və mükafatı yoxdur. Bu cür əmələ görə insana qiyamət günü əcr və savab verilməsindən ötrü insan üç şərtə riayət etməlidir. Hər kəs bu əməlin üç şərtinə riayət etsə, qiyamət günü Allah-təala həmin şəxsə böyük mükafatlar inayət edər. Əgər bir insan bu şərtlərə riayət etmədən infaq edərək səxavətli olsa, dünyada camaat arasında yaxşı bir insan kimi tanınar və hamı ona "çox sağ ol" deyər. Amma axirətdə bu insana əcr və savab verilməz. Məsələn, bir insan bir məhəlləyə su çəkdirir. Hamı onun bu əməlini bəyənir və təşəkkür edir. Əgər həmin şəxs bu əməlin üç şərtinə riayət etsə, camaatın ona təşəkkür etməsindən əlavə, axirətdə də onun savabını qazanacaq. Yox, əgər həmin əməlin şərtlərinə riayət etməsə, camaatın ondan xoşu gələcək, hamı onu bir insan kimi tərifləyəcək, amma

[1] Beş yüz dastan, 1-ci cild, səh.299.

axirətdə onun bu əməlinə görə heç bir savab verilməyəcək.

## İnfaq etməyin şərtləri

**1. Niyyət (qürbətən iləllah)**

İnfaq və yaxşılıq edən insan axirət savabını əldə etmək istəyirsə, ilk növbədə birinci şərtə riayət etməlidir. Bu əməlin birinci şərti niyyətdir. Yəni insan yaxşılıq, infaq edərkən "qürbətən iləllah" niyyəti etməlidir. Bu işi gördükdə niyyətində Allahı tutmalıdır, yaxşılıq etdiyi kəsi və ya başqalarını yox. Belə olduqda Allah-təala bu əməli qəbul edər və axirətdə də həmin şəxsə böyük savab inayət edər. Əgər bir kəs Allahı niyyət etməyib sadəcə olaraq insani bir xüsusiyyət kimi cəmiyyətdə bu işi görürsə, ona bu dünyada camaatın təşəkkürü çatır və hamı onu xeyirxah bir insan kimi tanıyır. Amma bu işi Allaha görə yox, camaata görə etdiyi üçün ona axirət savabı verilməyəcək.

Ümumiyyətlə, hər bir yaxşı əməl insanın niyyətindən asılıdır. Hətta müharibədə iştirak etmək və şəhid olmaq da insanın niyyətindən asılıdır. Əgər bir insan Allaha xatir döyüş meydanına girib şəhid olarsa, Allah həmin şəxsə şəhidlərə düşən savab və mükafatı verər. Hədislərdə belə nəql olunur ki, iki nəfər vətənini, dinini qorumaq üçün müharibəyə gedir və şəhid olurlar. Onlardan birinin niyyəti sırf Allaha xatir, digərinin niyyəti isə camaat arasında qəhrəmanlıq adı qazanmaq olur. Allaha xatir şəhid olan insanı hesab-kitabsız cənnətə aparırlar. Amma o birini isə cənnətə buraxmırlar. O, etiraz edib deyir ki, İlahi, mən onunla birgə döyüş meydanına getmişəm və ikimiz də birgə şəhid olmuşuq. Nə üçün onu cənnətə apardılar, amma məni yox? Cavab gəlir ki, çünki o, yalnız Allaha xatir vuruşub şəhid oldu.

Sən isə camaat arasında qəhrəman adı qazanmaq üçün döyüşüb öldürüldün. Hər ikiniz arzunuza çatdınız. O, Allaha xatir döyüşüb şəhid oldu və cənnəti qazandı, sən isə qəhrəmanlıq naminə döyüşüb vətənini qorudun, camaat arasında qəhrəman kimi tanındın və sən də arzuna çatdın.

Odur ki, hər bir yaxşı əməlin və həmçinin də infaq etməyin birinci şərti "qürbətən iləllah" olmalıdır. Hər kəs riyakarlıqla və özünü camaata göstərmək məqsədilə infaq etsə, Allah onun əməlini qəbul etməz. Riyakar insan İslam dinində çox pis tənqid olunmuşdur. "Nisa" surəsinin 37-38-ci ayələrində oxuyuruq:

الَّذِينَ يَبْخَلُونَ وَيَأْمُرُونَ النَّاسَ بِالْبُخْلِ وَيَكْتُمُونَ مَا آتَاهُمُ اللّهُ مِن فَضْلِهِ وَأَعْتَدْنَا لِلْكَافِرِينَ عَذَابًا مُّهِينًا. وَالَّذِينَ يُنفِقُونَ أَمْوَالَهُمْ رِئَاء النَّاسِ وَلاَ يُؤْمِنُونَ بِاللّهِ وَلاَ بِالْيَوْمِ الآخِرِ وَمَن يَكُنِ الشَّيْطَانُ لَهُ قَرِينًا فَسَاء قِرِينًا

-Həmin o kəsləri ki, (mal və elmi sərf etməkdə özləri) xəsislik edir, camaatı da (söz və əməllə) xəsisliyə sövq edirlər və Allahın Öz fəzl və mərhəmətindən onlara verdiyini gizlədirlər. Biz kafirlər üçün alçaldıcı bir əzab hazırlamışıq. Həmin o kəslər ki, mallarını riya və camaata göstərmək xatirinə xərcləyirlər və Allaha, axirət gününə imanları yoxdur. Yoldaş və həmdəmi şeytan olan kəs (bilsin ki,) o, çox pis bir həmdəmdir.

Odur ki, əgər bir insan etdiyi əməllərin və yaxşılıqların axirət mükafatını qazanmaq istəyirsə, ilk növbədə niyyəti təmiz olmalıdır. Yəni əməllərində

Allaha xatir niyyət etməlidir. Belə olduqda Allah Özü bilir ki, hansı mükafatları və savabları verəcək.

قالت فاطمة الزهرا (س.ع): حُبِّبَ اِلَيَّ مِنْ دُنْياكُمْ ثَلاثٌ: تِلاوَةُ كِتابِ اللَّهِ، وَالنَّظَرُ في وَجْهِ رَسُولِ‌اللَّهِ، وَ الْاِنْفاقُ في سَبيلِ‌اللَّهِ

-Həzrət Fatimeyi Zəhra(s.ə) buyurur: "Sizin dünyanızda üç şey mənim üçün sevimli əməldir: 1. Allahın kitabı olan Quranı oxumaq; 2. Allahın Rəsulunun üzünə (camalına) baxmaq; 3. Allah yolunda infaq etmək."[1]

**2. Minnət qoymamaq**

İnfaq və ehsan etməyin ikinci şərti budur ki, insan bu işi gördükdən sonra minnət qoymasın. Əgər insan Allaha xatir etdiyi yaxşılığı dilinə gətirib minnət qoysa, yemək orucu batil etdiyi kimi, minnət də infaqı, sədəqəni və xeyirxah işləri batil edər. "Bəqərə" surəsinin 262-ci ayəsində belə buyurulur:

الَّذِينَ يُنفِقُونَ أَمْوَالَهُمْ فِي سَبِيلِ اللّهِ ثُمَّ لاَ يُتْبِعُونَ مَا أَنفَقُواُ مَنًّا وَلاَ أَذًى لَّهُمْ أَجْرُهُمْ عِندَ رَبِّهِمْ وَلاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ.

-Mallarını Allah yolunda xərcləyib sonra etdikləri xərcin arxasınca minnət qoymayan və əziyyət etməyənlərin (dilyarası vurmayanların) Rəbbi yanında özlərinə layiq mükafatları vardır. (O dünyada da) onlar üçün nə bir qorxu var və nə də onlar qəmgin olarlar.

Minnət qoymaq o qədər pis işdir ki, hətta minnətlə verilən su ilə dəstəmaz belə almaq olmaz. Şəriət

[1] Gəncineyi məarif, səh.154.

məsələlərində deyilir ki, əgər bir insan su tapa bilmədikdə torpaqla təyəmmüm etməlidir. Belə bir halda bir nəfər ona su versə, daha təyəmmüm etməməlidir. Çünki su olan yerdə təyəmmüm etmək olmaz. Əgər suyu verən şəxs minnət qoysa, o halda həmin su ilə dəstəmaz almaq olmaz.

قَالَ رَسُولُ اللهِ(ص): مَن اَسدَى اِلَى مُؤمِنٍ مَعرُوفًا ثُمَّ آذَاهُ بِالكَلامِ اَو مَنَّ عَلَيهِ فَقَد اَبطَلَ صَدَقَتَهُ

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kəs bir möminə yaxşılıq etsə, sonra onu sözləri ilə incitsə və ya minnət qoysa, etdiyi yaxşılığı batil etmişdir."[1]

قَالَ رَسُولُ اللهِ(ص): إِذَا سَأَلَ سَائِلٌ فَلَا تَقْطَعُوا عَلَيْهِ مَسْأَلَتَهُ حَتَّى يَفْرُغَ مِنْهَا، ثُمَّ رُدُّوا عَلَيْهِ بِوَقَارٍ وَلِينٍ اِمّا بِبَذْلِ يَسِيرٍ، أَوْ بِرَدٍّ جَمِيلٍ، فَإِنَّهُ قَدْ يَأْتِيكُمْ مَنْ لَيْسَ بِإِنْسٍ وَلَا جَانٍّ يَنْظُرُونَ كَيْفَ صَنِيعُكُمْ فِيمَا خَوَّلَكُمُ اللَّهُ

-Həzrət Peyğəmbər(s) buyurur: "İstək və hacəti olan bir insan sizdən öz istəyini xahiş etdiyi zaman, onun sözünü kəsməyin. Gözləyin ki, sözünü axıra qədər desin və məqsədini açıqlasın. Sonra vüqar, ədəb və yumşaqlıqla onun istəyinə cavab verin. İmkan varsa onun ehtiyacı olduğu şeyi ona verin. Əgər bu işi görməyə imkanınız yoxdursa, onu gözəl surətdə şirin dillə geri qaytarın. Ola bilsin ki, sizin qapınıza öz istəyi üçün gələn kəs Allahın sizə verdiyi nemətlərlə necə rəftar etdiyinizi

---

[1] Təfsiri nümunə, 2-ci cild, səh.319.

yoxlamaq üçün Onun tərəfindən göndərilmiş bir mələk olsun."[1]

**3. Həzrət Əlinin(ə) vilayətini qəbul etmək**

İnfaq, sədəqə, xeyirxahlıq və digər əməllərin qəbul olunmasının şərtlərindən biri Həzrət Əlinin(ə) vilayət və imamətini qəbul etməkdir. Hər kəs Həzrət Əlinin(ə) vilayətini qəbul etməsə, Allah həmin şəxsin heç bir əməlini qəbul etməz.

Bu barədə şiələrin və əhli-sunnənin mənbə sayılan kitablarında müxtəlif hədislər nəql olunmuşdur. Həmin hədislərdən biri belədir:

-İmam Sadiq(ə) buyurur: "Ömər ibn Xəttab xilafətə çatdıqdan sonra minbərə çıxdı. Həzrət Əli(ə) də orada əyləşmişdi. Ömər üzünü camaata tutub belə dedi: Hər kəs Məkkə və Mədinə kimi bir yerdə, doqquz yüz əlli il Nuh Peyğəmbər(ə) kimi ibadət etsə, etdiyi ibadətə görə Məkkənin istisinə və aclığına dözsə, Ühüd dağı qədər malı olsa və hamısını infaq etsə, Səfa və Mərvə dağı arasında Allah yolunda cihad etsə, amma ey Əli, qiyamət günü həmin şəxsdə sənin vilayətin olmasa, etdiyi bütün bu əməllər qəbul olunmayacaq."[2]

Bir çox kitablarda bu qəbil hədislərə çox rast gəlmək olur. Bir daha qeyd edim ki, bu hədislər təkcə şiə məzhəbinin kitablarında deyil, əhli-sünnə kitablarında da bununla bağlı olan müxtəlif hədislər nəql olunmuşdur.

"Saffat" surəsinin 23-cü ayəsində oxuyuruq:

---

[1] Yenə orada, 2-ci cild, səh.321.

[2] Gəncineyi məarif, səh.154.

وَقِفُوهُمْ إِنَّهُم مَّسْئُولُونَ

-Və onları (o yolda) saxlayın ki, onlar sorğu-sual olunmalıdırlar.

Hakim Həskani deyir: "Peyğəmbərdən(s) bu ayənin mənasını soruşduqda Həzrət(s) belə buyurdu: "Qiyamət günü mən və Əli(ə) sirat körpüsünün üstündə dayanacağıq. Hamıdan Əlinin(ə) vilayəti barədə sorğu-sual edəcəyik. Hər kimdə onun vilayəti olmasa, cəhənnəmə düşəcək.[1]

قَالَ الصَّادِقُ(ع): وِلايَتِي لِعَلِيٍّ ابنِ اَبِي طَالِب اَحَبُّ اِلَيَّ مِن وِلادَتِي مِنهُ, لأَنَّ وِلايَتِي لِعَلِي ابنِ اَبِي طَالِب فَرضٌ وَ وِلادَتِي مِنهُ فَضْلٌ.

-Həzrət İmam Sadiq(ə) buyurur: "Əli ibn Əbu Talibin vilayəti mənim üçün onun övladı olmağımdan daha sevimlidir. (Əqidə cəhətindən ona olan bağlılığım qohumluq cəhətindən mənim üçün daha sevimlidir.) Çünki Əli ibn Əbu Talibin vilayəti vacib, övladı olmaq isə şərafətdir."[2]

Digər bir hədisdə Həzrət(ə) belə buyurur: "Mənim Əliyə(ə) olan etiqadım mənim üçün onunla olan qohumluğumdan daha əzizdir. Çünki qohum olmadan etiqadın insana faydası var. Amma etiqad olmadıqda qohumluğun da heç bir faydası yoxdur."[3]

Belə rəvayət olunur ki, günlərin birində bir nəfər İmam Sadiqin(ə) hüzuruna gəlib ərz etdi: "Ey

---

[1] Şəvahidut-tənzil,2-ci cild, səh.107.
[2] İmam Əli, səh.173.
[3] İmam Əli. səh.173.

Peyğəmbər(s) övladı, dua et ki, Allah bizi cənnətə aparsın. İmam(ə) buyurdu: Məgər sənin qəlbində Əlinin(ə) vilayəti yoxdurmu? Bizi sevmirsənmi? Həmin şəxs dedi: Həzrət Əlinin(ə) vilayətini də qəbul edirəm, sizə qarşı məhəbbətim də var. İmam(ə) buyurdu: Elə isə belə de: Dua et ki, Allah bizi cənnətdən çıxarmasın."

## Namaz

Ötən bəhslərimizdə təqvalı insanın bir neçə sifət və xüsusiyyətləri barədə müəyyən qədər söhbət etdik. "Bəqərə" surəsinin 177-ci ayəsi də bir sıra əlamətləri sadaladıqdan sonra bunların təqvalı insanın xüsusiyyətləri olduğunu bəyan edir. Ayədə bəyan edilmiş həmin əlamət və xüsusiyyətlərdən biri namazdan ibarətdir. Yəni təqvalı insanlar həmişə namazlarını sübut olaraq gətirərlər. Keçmiş bəhslərimizdə namaz barədə kifayət qədər söhbət etdiyimiz üçün bu bəhsdə sadəcə namazla bağlı bir mətləbi diqqətinizə çatdırıram. Ondan sonra isə digər əlamət və xüsusiyyətlərə keçərik.

Namaz barədə olan həmin mətləb belədir. Şeytanın insan barədə Allahla bir əhdi olmuşdur. Quran ayələrində və hədis kitablarında Adəmin yaranması və mələklərin ona səcdə etməsi barədə hamının az-çox məlumatı vardır. Allah-təala Adəmi yaratdıqdan sonra bütün mələklərə əmr verdi ki, ona səcdə etsinlər. Bütün mələklər Adəmə səcdə etdilər, amma İblis səcdə etməkdən boyun qaçırtdı. Belə olduqda Allah- təala onu Öz dərgahından qovdu və qiyamət gününə qədər ona lənət etdi. İblis dedi: İlahi, belə olan halda mənim Sənə 6000 il ibadət etməyimin əvəzini ver. Allah-təala ondan nə istədiyini soruşduqda o,

qiyamət gününə qədər möhlət istədi. “Hicr” surəsinin 36-42-ci ayələrində oxuyuruq:

قَالَ رَبِّ فَأَنظِرْنِي إِلَى يَوْمِ يُبْعَثُونَ. قَالَ فَإِنَّكَ مِنَ الْمُنظَرِينَ. إِلَى يَوْمِ الْوَقْتِ الْمَعْلُومِ. قَالَ رَبِّ بِمَآ أَغْوَيْتَنِي لأُزَيِّنَنَّ لَهُمْ فِي الأَرْضِ وَلأُغْوِيَنَّهُمْ أَجْمَعِينَ. إِلاَّ عِبَادَكَ مِنْهُمُ الْمُخْلَصِينَ. قَالَ هَذَا صِرَاطٌ عَلَيَّ مُسْتَقِيمٌ. إِنَّ عِبَادِي لَيْسَ لَكَ عَلَيْهِمْ سُلْطَانٌ إِلاَّ مَنِ اتَّبَعَكَ مِنَ الْغَاوِينَ.

-Dedi: “Ey Rəbbim, elə isə mənə onların (Adəm övladlarının) dirildiləcəkləri günə kimi möhlət ver.” Allah buyurdu: “Sən möhlət verilənlərdənsən.” “(Lakin qiyamətədək deyil,) məlum vaxtın gününədək.” Dedi: “Ey Rəbbim, məni (Öz dərgahından uzaqlaşdırmaqla) azğınlığa atdığına görə, mən də yer üzündə (bütün pis işləri) onlar (insanlar) üçün zinətləndirəcək və onların hamısını azdıracağam.” “Sənin (rəhmətini şamil etməklə) onların arasından seçdiyin bəndələrin istisna olmaqla.” Allah buyurdu: “Bu, Mənim öhdəmdə olan düz yoldur (və hər bir qüdrətdən xaricdir).” “Və şübhəsiz, sənin Mənim bəndələrim üzərində heç bir hökmün yoxdur, (onlar yol seçməkdə həmişə ixtiyara malikdirlər), tamamilə sənə tabe olan azğınlardan başqa!”

Bu ayələrdən açıq-aydın görürük ki, şeytan insanları yoldan çıxarmaq üçün Allaha söz vermiş və bu yolda əlindən gələni etməyə çalışır. Sual oluna bilər ki, insan şeytanı hansı əməllərlə özündən uzaqlaşdıra və onun cürətini azalda bilər. Hədis və rəvayətlərə əsasən şeytanın insana olan nüfuz və cürətinin qarşısını alan bir

neçə əməl vardır. Həmin əməllərin ən mühümü namazdır. Buna görə də təqvanın əlamət və nişanələrindən biri namazdır. Namaz elə bir əməldir ki, şeytanın insana qarşı cəsarətini azaldır. Çünki şeytan səcdə vasitəsilə Allah dərgahından qovulmuşdur. Hər bir bəndəni namaz halında gördükdə ona yaxınlaşmağa cürət edə bilmir. Bu barədə olan bir neçə hədisə diqqət yetirək.

قَالَ رَسُولُ اللهِ(ص): لَايَزَالُ الشَّيْطَانُ يَرْعِبُ مِنْ بَنِي آدَمَ مَا حَافَظَ عَلَي الصَّلَواتِ الخَمْسِ فَإِذَا ضَيَّعَهُنَّ تَجَرَّءَ عَلَيهِ وَ اَوْقَعَهُ فِي الْعَظائِمِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Adəm övladı gündəlik vacib olan beş namazı möhkəm tutub yerinə yetirdikdə şeytan ondan qorxar. Əgər insan namazlarında boşluğa yol versə, şeytan həmin şəxsə qarşı cürətlənər və onu böyük günahlara sövq edər."[1]

Şeytan həmişə insanın boşluqlarından istifadə edərək onun qəlbinə nüfuz edir. İlk növbədə baxıb insanın zəif nöqtələrini axtarır. Əgər insanın namaz qıldığını görsə işlərinin çox çətin olduğunu başa düşür. Yox, əgər insan namaz qılmırsa, böyük cəsarətlə ona yaxınlaşa bilir və yoldan daha çox uzaqlaşdırır.

قَالَ رَسُولُ اللهِ(ص): اَلصَّلوةُ تُسَوِّدُ وَجهَ الشِّيطان

-Həzrət Peyğəmbər(s) buyurur: "Namaz şeytanın üzünü qara edər."[2]

Bu hədis barədə sual oluna bilər ki, insanın namaz qılması şeytanın üzünü necə qaralda bilər? Yəni namazın

[1] Mizanül-hikmə,13-cü cild, hədis-10702.
[2] Nəhcül-fəsahə, səh. 396.

ona nə aidiyyəti var? Cavab belədir ki, insan birinə söz verərkən o, sözünə əməl etməsə, üzüqara olur. Şeytan da Allaha Onun bəndələrini yoldan çıxaracağını vəd etmişdir. Şeytan namaz qılan insana yaxınlaşa bilmədiyi üçün vədinə və verdiyi sözə əməl edə bilmir. Belə olduqda üzü qaralır.

قَالَ الْمَهدِي(عج): مَا أَرغَمَ أَنفَ الشّيطَانِ بِشَيءٍ مِثلُ الصَّلاة،
فَصَلِّهَا وَأَرغِم أَنفِ الشّيطان

-Həzrət İmam Mehdi(ə.c) buyurur: “Şeytanın burnunu namaz kimi yerə sürtəcək bir şey yoxdur. Elə isə namaz qılıb şeytanın burnunu yerə sürtün.”[1]

Odur ki, təqvalı insanın əlamətlərindən biri namazdır. Namaz elə bir əməldir ki, şeytanı istədiyinə çatmağa qoymur. Əlbəttə, gərək insanın qıldığı namaz həqiqi namaz olsun. Namaz hər bir qayda-qanuna riayət edilməklə, tam səmimiyyətlə və saf niyyətlə qılınmalı, eləcə də Allah dərgahında qəbul olunmuş namazlardan olmalıdır. Sual oluna bilər ki, insan namazının qəbul olub-olmadığını necə öyrənə bilər? Bu sualı İmam Sadiqin(ə) bir hədisi ilə cavablandırmaq yerinə düşər:

قَالَ الْصَّادِقُ(ع): مَنْ اَحَبَ اَن يَعْلَم أَقُبِلَت صَلاتُهُ اَمْ لَمْ تُقْبَل؟ فَلْيَنْظُر هَل مَنَعَت صَلاتُهُ عَنِ الْفَحْشاءِ وَالْمُنْكَر؟ فَبِقَدْرِ مَا مَنَعَتْهُ قُبِلَت مِنْهُ

-İmam Sadiq(ə) buyurur: “Kim bilmək istəyir ki, namazı qəbul olunub, ya olmayıb? Baxsın görsün ki,

[1] Biharül-ənvar,53-cü cild, səh. 182.

qıldığı namaz onu çirkin işlərdən və pis əməllərdən çəkindirirmi? Nə qədər insanı çirkin işlərdən və pis əməllərdən saxlayırsa, bir o qədər də qəbul olunar.” [1]

İmam bu hədisdə bizə açıq şəkildə öyrədir ki, əgər namaz insanı çirkin işlərdən saxlaya bilirsə, bu namaz Allah dərgahında qəbul olunmuş ibadətlərdən sayılır. Məsələn, bir maşının mühərriki güclü olarsa, ağır yükləri çəkib özü ilə apara bilər. Yox, əgər mühərrik zəif olsa, ağır yükləri çəkməyə gücü çatmayacaq. Bu misalı çəkməkdə məqsədim odur ki, əgər insanın namazı möhkəm olsa, ibadətləri gözəl olsa, iman və təqvası güclü olsa yüksək zirvələrə çatacaq. Əgər insanın Allaha, Peyğəmbərə(s), qiyamətin baş verəcəyinə möhkəm imanı olsa və ibadətlərində möhkəm dayana bilsə, şeytan onu yoldan çıxara bilməyəcək.

## Zəkat

Qeyd etdiyimiz “Bəqərə” surəsinin 177-ci ayəsində Allah-təala təqvalıların bir neçə əlamət və xüsusiyyətini bəyan edir. Həmin əlamətlərdən biri zəkatdır. Yəni təqvalı insanlar həm də bu xüsusiyyəti ilə tanına bilir. Ümumiyyətlə, ibadət iki cürdür. Onlardan biri fiziki ibadət, digəri isə maddi ibadətdir. Maddi ibadət insanın öz mal və sərvəti ilə ibadət etməsidir. Namaz, oruc və bir sıra ibadətləri insan fiziki şəkildə öz bədəni ilə yerinə yetirir. Xüms, zəkat, sədəqə, infaq və bu kimi ibadətlər isə insanın öz şəxsi malı ilə etdiyi ibadətlərdir. “Bəqərə” surəsinin 110-cu ayəsində belə buyurulur:

---

[1] Biharül-ənvar, 82-ci cild, səh. 198.

وَأَقِيمُواْ الصَّلاَةَ وَآتُواْ الزَّكَاةَ وَمَا تُقَدِّمُواْ لأَنفُسِكُم مِّنْ خَيْرٍ تَجِدُوهُ عِندَ اللّهِ إِنَّ اللّهَ بِمَا تَعْمَلُونَ بَصِيرٌ

-Namaz qılın və zəkat verin. Özünüz üçün qabağa nə qədər yaxşı əməl göndərsəniz, onu(n hamısını) Allahın yanında tapacaqsınız. Həqiqətən, Allah etdiyiniz (bütün) əməlləri görəndir.

"Zəkat" lüğətdə "pak etmək", "təmizləmək" mənasını ifadə edir. Zəkat malın təmizlənməsidir. Quranda da bu məsələyə işarə olunmuşdur. "Tövbə" surəsinin 103-cü ayəsində buyurulur:

خُذْ مِنْ أَمْوَالِهِمْ صَدَقَةً تُطَهِّرُهُمْ وَتُزَكِّيهِم بِهَا وَصَلِّ عَلَيْهِمْ إِنَّ صَلاَتَكَ سَكَنٌ لَّهُمْ وَاللّهُ سَمِيعٌ عَلِيمٌ

-(Ey ümmətin işlərinin sahibi,) onların mallarından zəkat al ki, bununla onları(n can və mallarını) təmizləyir və paklaşdırır (və artırır)san. Və onlara dua et və salam göndər ki, həqiqətən, sənin duan və salamın onlar üçün rahatlıq və xatircəmlik amilidir. Allah eşidən və biləndir.

Xüms və zəkat məsələləri şəriət kitablarında geniş şəkildə izah olunmuşdur. Əgər bütün bunların hökmləri barədə söz açsaq əsas mövzumuzdan uzaqlaşacağıq. Buna görə də bəhsimizə uyğun olan bir neçə Quran ayəsi ilə kifayətlənirik. "Ənfal" surəsinin 41-ci ayəsində buyurulur:

وَاعْلَمُواْ أَنَّمَا غَنِمْتُم مِّن شَيْءٍ فَأَنَّ لِلّهِ خُمُسَهُ وَلِلرَّسُولِ...

-Bilin, əşya və mallardan nə qənimət əldə etsəniz, onda, şübhəsiz, onun beşdə biri Allahın, Onun Peyğəmbərinindir.

Əlbəttə, bir daha qeyd olunmalıdır ki, xüms və zəkat şəriətin vacib hökmləridir. Onların şərtləri və qaydaları risalələrdə geniş izah olunmuşdur. Hər kəsin boynuna xüms və zəkat gəlirsə, onu verməsi vacibdir. Hər kəs vacib olduğu halda qanuni vergisini verməsə, günah iş görmüşdür və qiyamət günü bunun cəzasını çəkəcəkdir. "Möminun" surəsinin 99-100-cü ayələrində belə oxuyuruq:

حَتَّى إِذَا جَاءَ أَحَدَهُمُ الْمَوْتُ قَالَ رَبِّ ارْجِعُونِ. لَعَلِّي أَعْمَلُ صَالِحًا فِيمَا تَرَكْتُ

-Onlardan birinin ölümü çatan zaman deyər: "Ey Rəbbim, məni (dünyaya) qaytar, bəlkə (dünyada) tərk etdiyim şey barəsində yaxşı bir iş gördüm."

İmam Sadiq(ə) buyurur: "Bu ayə o kəslərin barəsindədir ki, qanuni vergilərini (xüms və zəkatlarını) verməmişlər."[1]

Odur ki, insan gərək öz işlərini bu dünyada qaydasına salsın. Dünyadan getdikdən sonra yerinə yetirmədiyi əməllərə görə çox peşman olacaq. Sonrakı peşmançılığın isə heç bir faydası yoxdur. Buna görə də insan həyatda olarkən axirət tədarükündə olmalıdır. Əgər insanın boynunda xüms, zəkat kimi ibadətlər varsa, onları mütləq yerinə yetirməlidir. Bir sözlə desək, axirət azuqəsini hazırlamalıdır.

Zühəri İmam Səccadın(ə) dostlarından biri idi. O deyir: "Gecələrin birində İmam Səccadı(ə) gördüm ki, əlində ağır yüklə harasa gedirdi. Yaxınlaşıb dedim: Ey

---

[1] Mizanül-hikmə,13-cü cild, hədis-7578.

Allahın höccəti, gecəyarısı hara belə? Yükünüzü verin sizə kömək edim.

İmam(ə) buyurdu: Zühəri, müsafirəm. Bu da mənim səfər azuqəmdir.

Dedim: Ağa, yükünüzü verin sizə kömək edim.

İmam(ə) buyurdu: Xeyr, bu yükü mən özüm daşımalıyam.

Bir neçə gündən sonra İmamı(ə) küçədə gördüm. Öz-özümə dedim ki, filan gecə İmam(ə) mənə buyurdu ki, səfərə gedirəm. Bəs necə oldu ki, onu bu gün burada görürəm? Yaxınlaşıb dedim: Ey Peyğəmbər(s) balası, bəs siz səfərdə deyildiniz?

Buyurdu: Zühəri, o gecə dediyim sözləri başa düşmədinmi?

Dedim: Xeyr, ağa.

Buyurdu: Mən axirət səfərini nəzərdə tuturam. Həmin daşıdığım yük yoxsul və imkansızlara çatan paylar idi. Buna görə də həmin yükü onlara mən özüm aparıb verməliyəm."[1]

Peyğəmbərin(s) zamanında ənsarlardan bir nəfər cavan oğlan xəstələnib yatağa düşmüşdü. Onun yaxşı imkanı, bağları və çoxlu mal-qarası var idi. Peyğəmbər(s) bir neçə nəfərlə ona baş çəkməyə getdi. Hal-əhval tutduqdan sonra həmin xəstə dedi: "Vəsiyyət edirəm ki, mən öləndən sonra bütün mal-dövlətimi yoxsullara paylasınlar.

Orada əyləşənlərdən biri deyir: Ürəyimdə öz-özümə dedim ki, belə imkanlı insanların həm dünyası, həm də

---

[1] Ürəyə yatan qissələr, səh. 50.

axirəti vardır. Gör mal-dövləti ilə necə də axirətini düşünür?

Elə bu zaman Peyğəmbər(s) mənə baxıb bir xurma dənəsi götürdü. Mənə göstərib soruşdu: Bu nədir belə?

Dedim: Bir xurma dənəsi.

Buyurdu: And olsun Allaha, bu insanın öz həyatında bircə xurma dənəsini öz əli ilə yoxsula verməsi ölümündən sonra bütün mal-dövlətinin onun adından paylanmasından daha fəzilətli və üstündür."[1]

## Əhdə vəfa

Allah-təala "Bəqərə" surəsinin 177-ci ayəsində təqvalı insanların bir neçə əlamət və xüsusiyyətlərinə işarə edir. Ötən bəhslərdə həmin əlamətlərdən bir neçəsi haqda söz açdıq. Bu bəhsimizdə də onlardan birini nəzərinizə çatdırıram. Allah-təala buyurur:

...وَالْمُوفُونَ بِعَهْدِهِمْ

...əhd-peyman bağlayan zaman öz əhdinə vəfalı olanlar.

Təqvalı insanın əlamətlərindən biri verdiyi sözə əməl etmək və bağladığı əhdə vəfalı olmaqdır. Söz elə sözdür. Söz elə bir şeydir ki, min imzadan artıqdır. Çünki söz insanın etirafı və ağzından çıxan vəddir. Keçmiş bəhslərimizdə bu barədə söhbət etmişik. Yaxşı olar ki, bu bəhsimizi bir qədər də davam etdirək. Həmçinin gələcək bəhslərimizdə də bu haqda yetərincə bəhs edəcəyik.

Təqvalı insan heç bir vaxt verdiyi sözün əksini etməz. Yəni ağzından hər hansı bir söz çıxırsa və vəd

---

[1] Yenə orada, səh. 52.

verirsə, ona mütləq əməl etməlidir. Hətta belə insan uşağa da yalan söyləməz və ona verdiyi vədə əməl edər. Bunu da bilmək lazımdır ki, uşağa yalan deməyin və vəd verib yerinə yetirməməyin təsiri böyük adamlarla müqayisədə daha çoxdur.

Alimlərdən biri öz müəllimi barədə belə deyir: “Evdə onun uşağı dəcəllik etdikdə heç bir vaxt deməzdi ki, “şuluqluq etmə, yoxsa səni döyərəm.” Əgər uşağı vuracağını desəydi, ağzından söz çıxdığı üçün ya gərək onu vuraydı, ya da vurmayıb özü yalançı çıxaydı. Buna görə də gərək belə deyərdi: “dəcəllik etmə. Fərz et ki, səni vuraram.”

Tarixdə o qədər belə insanlara rast gəlirik ki, hətta incə məsələlərdə belə dedikləri sözlərdə son dərəcə diqqətli olurdular. Verdikləri hər bir sözə əməl etmiş, vədlərinə xilaf çıxmamışlar. Vədəxilaflıq əsasən münafiq insanlara xas əlamət olduğundan Qurani-Kərim münafiqlərin əlamətlərini sadaladıqda buna da işarə edirdilər. Münafiq insanların ən böyük əlamətlərindən biri verdikləri sözlərə əməl etməmələridir. Çünki münafiq insan Allaha ürəkdən iman gətirmir, sadəcə olaraq dildə müsəlman olduğunu etiraf edir. Belə olduqda ürəklə dil bir-biri ilə uyğun gəlmir və ikiüzlülük yaranır. Buna görə də münafiq insanlar söz verdikdə sözlərinə əməl etmirlər. “Səff” surəsinin 2-3-cü ayələrində oxuyuruq:

يَا أَيُّهَا الَّذِينَ آَمَنُوا لِمَ تَقُولُونَ مَا لَا تَفْعَلُونَ. كَبُرَ مَقْتًا عِندَ اللَّهِ أَن تَقُولُوا مَا لَا تَفْعَلُونَ

-Ey iman gətirənlər, etməyəcəyiniz bir şeyi niyə deyirsiniz? (Niyə əməl etməyəcəyinizi bilə-bilə vəd

verirsiniz?) Etməyəcəyiniz bir şeyi deməyiniz Allahın yanında nifrətlə qarşılanır.

قَالَ رَسُولُ اللّٰهِ(ص): ثَلَاثٌ مَنْ كُنَّ فِيهِ كَانَ مُنَافِقاً وَ إِنْ صَامَ وَ صَلَّى وَ زَعَمَ أَنَّهُ مُسْلِمٌ مَنْ إِذَا ائْتُمِنَ خَانَ وَ إِذَا حَدَّثَ كَذَبَ وَ إِذَا وَعَدَ أَخْلَف

-Həzrət Peyğəmbər(s) buyurur: "Oruc tutmasından, namaz qılmasından və özünü müsəlman hesab etməsindən asılı olmayaraq hər bir kəsdə bu üç xislət olsa münafiqdir: Əmanətə xəyanət etmək, yalan danışmaq və vədəxilaflıq."[1]

Həmçinin Quranda möminlərin əlamət və nişanələrini oxuduqda görürük ki, Allaha ürəkdən iman gətirən insanlar bağladıqları əhd-peymanlarına riayət edərlər, verdikləri sözə də əməl edərlər. "Möminun" surəsində möminlərin xüsusiyyətləri sadalanaraq 8-ci ayədə belə buyurulur:

وَالَّذِينَ هُمْ لِأَمَانَاتِهِمْ وَعَهْدِهِمْ رَاعُونَ

-Və o kəslər ki, özlərinin (xalqla və yaradanla) əmanətlərinə və (Allahın onlarla bağladığı, yaxud özləri öz aralarında bağladıqları və ya camaatla bağladıqları) əhd-peymanlarına riayət edirlər.

"Ali-İmran" surəsinin 76-cı ayələrində oxuyuruq:

بَلَى مَنْ أَوْفَى بِعَهْدِهِ وَاتَّقَى فَإِنَّ اللّهَ يُحِبُّ الْمُتَّقِينَ.

-Bəli, kim öz əhdinə vəfa etsə və təqvalı olsa, şübhəsiz, Allah da təqvalıları sevir.

---

[1] Mizanül-hikmə, hədis-20577.

Bəzi əməllər vardır ki, öncə təqva, sonra həmin əməlin adı çəkilir. Amma bu ayədə əhdə vəfalı olmağı önə çəkdikdən sonra təqvadan söz açılır. Bu onu bildirir ki, əgər insan təqvalı olmasa da belə verdiyi sözə əməl etməlidir. Hədislərdə belə nəql olunur ki, bir neçə əməl vardır ki, həmin əməllərə riayət etmək məsələsində kafirlə mömının fərqi yoxdur. Onlardan biri valideyndir. Ata-ana kafir olsalar da belə, övladın onların üzünə ağ olmağa ixtiyarı yoxdur. İkincisi əmanət məsələsidir ki, əgər kafir bir möminə əmanət tapşırsa, heç bir vəchlə həmin əmanətə xəyanət edə bilməz. Üçüncüsü isə əhd-peyman məsələsidir. Əgər bir insan kafirə də söz veribsə, mütləq sözünə əməl etməlidir.

Buna görə də ayədə buyurulur ki, kim öz əhdinə vəfa etsə və təqvalı olsa, şübhəsiz, Allah da təqvalıları sevir. Həmin ayədən sonrakı ayədə əhdinə vəfa etməyənlər şiddətli tənqid atəşinə məruz qoyularaq buyurulur:

إِنَّ الَّذِينَ يَشْتَرُونَ بِعَهْدِ اللّهِ وَأَيْمَانِهِمْ ثَمَنًا قَلِيلاً أُوْلَئِكَ لاَ خَلاَقَ لَهُمْ فِي الآخِرَةِ وَلاَ يُكَلِّمُهُمُ اللّهُ وَلاَ يَنظُرُ إِلَيْهِمْ يَوْمَ الْقِيَامَةِ وَلاَ يُزَكِّيهِمْ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ

-Həqiqətən, öz əhd-peymanları və andları(nı - dini qəbul etmək barəsində olan əhd-peymanlarını və haqqa kömək üçün olan andlarını pozmaq) müqabilində ucuz bir qazanc əldə edən kəslərin axirətdə bir payları yoxdur. Həmçinin Allah onlarla danışmayacaq, qiyamət günü onlara (rəhmət) nəzər(i) salmayacaq, onları paklaşdırmayacaq və onlar üçün ağrılı bir əzab olacaqdır.

Bu ayədə olan incəliklərdən biri budur ki, əgər insan Allahla bağladığı əhdi və verdikləri sözü dünyanın hamısına satsa belə yenə ucuz satmışdır. Belə insanların axirətdən heç bir payları olmayacaq. Əgər insana bircə yalan danışmasına görə bütün dünyanın hamısını versələr, yenə də ziyan etmişdir. O ki qaldı, 10 manata görə gündə yüzlərlə yalan danışanlara, ümumiyyətlə, insan özünü heç bir vaxt ucuz satmamalıdır. Əgər insan özünü ucuz satsa, ziyan etmişdir. Hədislərdə belə nəql olunur ki, özünüzü cənnətdən savayı başqa heç bir şeyə satmayın. Çünki sizin qiymətinizin ən aşağı həddi cənnətdir. Hər kəs özünü cənnətdən aşağı bir qiymətə satsa, çox ucuz satmışdır.

Günlərin birində iki nəfərin torpaq üstündə münaqişəsi oldu. Torpağın əsl sahibinin adı İmrə-ül Qeys idi. Onun torpağını mənimsəmək istəyən isə Həzrəmutdan gəlmiş bir kişi idi. Onların münaqişələri o qədər davam etdi ki, axırda bu məsələnin həlli üçün Peyğəmbərin(s) hüzuruna gəldilər. İmrə-ül Qeys dedi: “Ya Rəsulallah, bu kişi mənim torpağımı qəsb etmək istəyir.

Peyğəmbər(s) buyurdu: Həmin torpaq sənindirmi?

İmrə-ül Qeys dedi: Bəli.

Peyğəmbər(s) soruşdu: İki nəfər adil şahidin varmı?

İmrə-ül Qeys dedi: Xeyr.

Peyğəmbər(s) buyurdu: Əgər iki nəfər şahid gəlib həmin torpağın sənə məxsus olmasına və bu kişinin yalan dediyinə şəhadət verməsə, o zaman bu kişi torpağın onun olması ilə bağlı and içməlidir.

İmrə-ül Qeys dedi: Ya Rəsulallah, mənim şahidim yoxdur. Amma bu insan yalandan and içib torpağı götürsə, mənə zülm olunacaq.

Peyğəmbər(s) buyurdu: Hər kəs yalandan and içsə, o kəslərdən olacaq ki, Allah- təala onların barəsində belə buyurur:

وَلاَ يُكَلِّمُهُمُ اللّهُ وَلاَ يَنظُرُ إِلَيْهِمْ يَوْمَ الْقِيَامَةِ وَلاَ يُزَكِّيهِمْ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ

-Allah onlarla danışmayacaq, qiyamət günü onlara (rəhmət) nəzər(i) salmayacaq, onları paklaşdırmayacaq və onlar üçün ağrılı bir əzab olacaqdır.

Həzrəmutdan olan kişi Peyğəmbərin(s) dilindən bu sözləri eşidən kimi vəhşətə düşüb dedi: Ya Rəsulallah, həmin torpaq sahəsi İmrə-ül Qeysindir. Mən daha o torpağı istəmirəm."

Odur ki, təqvalı insanlar heç bir vaxt öz andlarını, bağladıqları əhd-peymanlarını sındırmaz və verdikləri sözə də əməl edərlər.

## Səbir

Allah-təala Quranın müxtəlif ayələrində yerlərdə təqvalı insanın əlamət və nişanələri barədə söz açır. Həmin ayələrdən biri "Bəqərə" surəsinin 177-ci ayəsidir ki, təqvalıların bir neçə xüsusiyyəti burada bəyan olunmuşdur. Həmin əlamətlərdən bir neçəsini oxuduq. Bəhsimizin davamı olaraq o ayədə olan digər bir əlaməti də diqqətinizə çatdırıram. Allah-təala bu mübarək ayədə buyurur:

وَالصَّابِرِينَ فِي الْبَأْسَاء والضَّرَّاء وَحِينَ الْبَأْسِ

-Maddi çətinliklər, cismi zərərlər və cihad zamanı səbirli olan kəsdir.

Bu ayədə üç yerdə səbirli olmaq tövsiyə olunur. Yəni təqvalı insan üç yerdə dözüb səbirli olmalıdır. Həmin yerlərə diqqət yetirək:

1.Yoxsulluq və fəqirlik müqabilində səbirli olmaq. Həqiqi mömin və təqvalı insan yoxsulluğun son həddi də olmuş olsa belə səbir edib bir qarın çörəyə görə özlərini haram yollara atmırlar;

2.Dərd və bəlaların qarşısında səbirli olmaq. Allah-təala bəzən insanı xəstəliklər, dərd və bəlalarla imtahana çəkir. Təqvalı insanların əlaməti budur ki, həmin bəlaların qarşısında dözüb səbirli olsunlar;

3. Cihad zamanı səbir etmək. Təqvalı insan döyüş meydanında səbirli olub son damla qanına qədər vuruşaraq dinini, namus və torpağını müdafiə edər. Hədislərdə nəql olunur ki, bir insan döyüş meydanında şəhid olub yerə yıxıldıqda Allah-təala onun vücudu ilə mələklər arasında fəxr edir.

Allah-təala bu mübarək ayədə təqvalı insanların xüsusiyyət və əlamətlərini saydıqdan sonra belə buyurur:

أُولَئِكَ الَّذِينَ صَدَقُوا وَأُولَئِكَ هُمُ الْمُتَّقُونَ

-Onlardır doğru danışanlar və onlardır təqvalılar!

Həyatda çox insanlar dindən, imandan, düzlükdən, Allahı və Peyğəmbəri(s) istəməsindən və təqvadan danışırlar. Çox insanlar vardır ki, danışdıqda böyük sözlər deyirlər, amma əgər onun əməli dedikləri sözləri təsdiqləməsə, həmin sözlərin heç bir dəyəri və etibarı yoxdur. Sözün dəyəri və qiyməti insanın əməlindən asılıdır. Ayədən açıq-aydın görürük ki, düz danışanlar və təqvalı insanlar orada bəyan olunmuş əlamətləri ilə

tanınarlar. Çünki onların sözləri ilə əməlləri uyğun gəlir. Onlar sözdə bir şey deyib, əməldə başqa iş görmürlər. “Kumeyl” duasında bu haqda belə bir ibarət vardır ki, Həzrət Əli(ə) minacat edərkən Allaha belə deyir:

حَتّى تَكُونَ اَعْمالي وَ اَوْرادى كُلُّها وِرْداً واحِداً

-(Ey mənim Rəbbim, məni inayət et ki,) mənim əməllərim və zikrlərim vahid bir vird (zikr) olsun.

Quranda təqribən 80-dən çox yerdə imanla saleh əməl etmək bir yerdə bəyan olunmuşdur. Yəni iman gətirib saleh işlər görənlər haqqında söz açılır. Bu qədər təkid onu göstərir ki, insanın əməli saleh olmasa, imanının faydası olmayacaq. “Ğafir” surəsinin 40-cı ayəsində oxuyuruq:

مَنْ عَمِلَ صَالِحًا مِّن ذَكَرٍ أَوْ أُنثَى وَهُوَ مُؤْمِنٌ فَأُوْلَئِكَ يَدْخُلُونَ الْجَنَّةَ يُرْزَقُونَ فِيهَا بِغَيْرِ حِسَابٍ

-Kişi və ya qadınlığından asılı olmayaraq kim mömin halda yaxşı iş görsə, belələri cənnətə daxil olacaq, orada onlara saysız-hesabsız ruzi veriləcəkdir.

“Kəhf” surəsinin 88-ci ayəsində buyurulur:

وَأَمَّا مَنْ آمَنَ وَعَمِلَ صَالِحًا فَلَهُ جَزَاء الْحُسْنَى وَسَنَقُولُ لَهُ مِنْ أَمْرِنَا يُسْرًا

-Və iman gətirən və yaxşı iş görən şəxsə gəldikdə isə onun üçün çox gözəl bir mükafat vardır və tezliklə öz əmrlərimizdən ona asan bir söz deyəcəyik.

Bu ayədə iman gətirib saleh əməli olan insanlara çox gözəl bir mükafatın veriləcəyini bəyan etdikdən sonra buyurur ki, öz əmrlərimizdən ona asan bir söz

deyəcəyik. Bu axırıncı sözün mənası belədir ki, qiyamət günü Allah-təala həmin şəxsin hesab-kitabının asan və yüngül çəkilməsinə göstəriş verəcək. Bu dünyada da insanlar arasında belə bir halın şahidi ola bilirik. Məsələn, bir nəfər yuxarı vəzifədə işləyən şəxsin qohumu hansısa bir idarəyə sənəd aparır. Həmin adam yuxarıdan tapşırıldığı üçün onun sənədlərini ötəri vərəqləyib imzalayır və işlərini qaydasına salırlar. Qorxulu, vəhşətli, hamının bir-birindən qaçdığı, uşaqların saçının ağardığı bir gündə də Allah-təala iman gətirən və saleh əməli olan bəndəsini tapşıracaqdır. Qiyamətin məmurları da onların kitabını yüngülcə vərəqləyib cənnətə yola salacaqlar. Bəzi əməllər də vardır ki, həmin əməllər insanın hesab-kitabsız cənnətə getməsinə səbəb olar. Yəni bu əməl sahiblərinin kitabını Allahın tapşırığına əsasən heç açıb baxmayacaqlar. Həmin şəxslərin əlamətlərindən bir də səbirli olmaqdır ki, bu hədisi ötən bəhslərimizdə oxumuşuq. Onlar hesab-kitabsız gəlib cənnətin qapısının zəngini çalacaqlar. Mələklər onlardan soruşar ki, siz özbaşına bura necə gəlmisiniz? Allahdan mələklərə xitab gələr ki, onları cənnətə buraxın. Onlardan hansı əməlin sahibi olduqlarını soruşduqda deyərlər: "Biz dünyada Allaha itaət edərkən, günahlarla qarşılaşarkən və bəla-müsibətlərlə üzləşərkən səbir edirdik."

Allaha itaət etmək elə də asan iş deyil. Əgər insanın səbri olmasa, Allahın itaətində dayana bilməz. Məsələn, oruc tutmağın bir neçə cür çətinliyi vardır. Onlardan biri aclıq, susuzluq, isti kimi təbii çətinliklərdir. Bir çətinliyi də budur ki, pozğunların və imansızların tənələrinə məruz qalırlar. Onların təhqirlərinə dözmək aclıq və sususluğa dözməkdən daha ağırdır. Ötən bəhslərdə bir

hədisdə qeyd etdik ki, şəhidlər cənnətə daxil olarkən orada bir qrup insanın olduğunu görüb təəccüblə deyəcəklər: "İlahi, bizdən qabaq cənnətə daxil olan bu insanlar kimlərdir belə? Allah- təala onların cavabında buyurar: Onlar Ali-Məhəmmədin fəqirləridir. Siz ömrünüzdə bircə qılınc zərbəsi görüb şəhid olmusunuz. Amma bunlar gündə yüz dəfə bəla və imtahan qılıncı ilə şəhid olublar. (Düşmənlərin təhqirləri, işgəncələri və acı sözləri ilə hər gün qarşılaşırdılar.) Buna görə də onların məqamı üstündür."

Odur ki, sədaqətli insanlar, imanları ilə əməlləri uyğun gələn insanlar, Allah yolunda səbir edən insanlara qiyamət günü Allah tərəfindən böyük mükafatlar inayət olunacaq. "Maidə" surəsinin 119-cu ayəsində qiyamət günü barədə belə oxuyuruq:

قَالَ اللّهُ هَذَا يَوْمُ يَنفَعُ الصَّادِقِينَ صِدْقُهُمْ لَهُمْ جَنَّاتٌ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا أَبَدًا رَّضِيَ اللّهُ عَنْهُمْ وَرَضُواْ عَنْهُ ذَلِكَ الْفَوْزُ الْعَظِيمُ

-Allah buyurur: "Bu, doğruçulara (əqidə, danışıq və əməldəki) düzlüklərinin fayda verdiyi bir gündür. Onlar üçün (ev və ağaclarının) altından çaylar axan cənnətlər vardır, orada əbədi qalacaqlar. Allah onlardan razıdır və onlar da Allahdan razıdırlar. Budur böyük uğur!"

Harisə ibn Malik Peyğəmbərin(s) zamanında yaşayan bir gənc idi. O, həmişə Peyğəmbərin(s) yanında olar, camaat namazlarında və moizələrdə iştirak edərdi. Cümə günlərinin birində Həzrət Peyğəmbər(s) namazdan sonra məsciddə səhabələrlə əyləşib söhbət edirdi. Bu zaman Həzrətin(s) gözü Harisəyə sataşdı. Onun rəngi

saralmış və gözləri çuxura düşmüşdü, həm də çox pərişan görünürdü. O, bu halı ilə Peyğəmbərin(s) diqqətini özünə cəlb etdi. Həzrət(s) ondan soruşdu: “Gecəni necə keçirmisən? Harisə dedi: Ya Rəsulallah, mən gecəni Allaha tam yəqinlik və imanla səhərə çatdırdım. Həzrət(s) buyurdu: Hər bir şeyin həqiqəti vardır. Bəs sənin bu imanının həqiqət və əlaməti nədir? Harisə dedi: Ya Rəsulallah, mənim yəqinliyimin əlaməti budur ki, yəqinlik məni qəmgin edib, gecələr yatmağa qoymur. Məni dünyaya rəğbətsiz və meyilsiz edib. Dünyanın ləzzətində, mal-dövlətində əsla gözüm yoxdur. Ya Rəsulallah, mənim qəlbimdə o qədər iman və yəqinlik yaranıb ki, elə bil Allahın ərşini gözlərimlə görürəm. Elə bil Allahın ərşini, qiyamət gününün qopduğunu, camaatın hesab-kitab çəkmək üçün məhşər ayağına gəldiyini və özümü də onların içərisində görürəm. Ya Rəsulallah, mənim qəlbimdə o qədər iman və yəqinlik yaranıb ki, elə bil cənnət əhlinin orada ləzzətli nemətlərlə ruziləndiklərini və çəkdikləri kefi gözlərimlə görürəm. Cəhənnəm əhlinin cəhənnəmdə necə əzaba düçar olub nalə etdiklərini də görürəm. Həzrət Peyğəmbər(s) buyurdu: Bu elə bir bəndədir ki, Allah onun qəlbini imanla nurlandırıb. Sonra üzünü ona tərəf tutub buyurdu: Ey Harisə, Allah sənin bəsirət gözünü açmışdır. Çalış, bu halı həmişə özündə saxla. Harisə dedi: Ya Rəsulallah, dua et, Allah mənə şəhadət nəsib etsin. Peyğəmbər(s) onun üçün belə dua etdi: İlahi, Harisəyə şəhadət nəsib et.”

Bu hadisədən az bir müddət keçdikdən sonra Peyğəmbər(s) bir qrup müsəlmanı döyüşə yola saldı. Harisə də onların içərisində meydana getdi. O döyüşdə

Harisə müşriklərdən doqquz nəfərini öldürdükdən sonra özü də şəhid oldu.[1]

Əlbəttə, burada qeyd olunmalıdır ki, imanın dərəcələri vardır ki, hər bir mömin çalışıb bu dərəcələri əldə edə bilər. Yəni bütün möminlər eyni dərəcədə olmurlar. Bəzisi yüksək, bəzisi orta, bəzisi də aşağı dərəcədə qərar tutur.

İmam Sadiq(ə) buyurur: "İmanın yeddi payı vardır ki, hər bir möminə bu paylardan düşür."[2]

Hədislərdə belə nəql olunur ki, imanın on dərəcəsi vardır. Salman Farsi onuncu dərəcəsində qərar tutmuşdu. O, elə bir insan idi ki, həyatda ikən Allah-təala onun da cənnət payını göndərərdi. Yəni o, bu dünyada cənnət nemətlərindən yemişdi. Həzrət Peyğəmbər(s) buyurur: "Cəbrayıl(ə) hər dəfə nazil olduqda deyirdi: Mənim salamımı Salmana çatdır."

Abuzər(r) deyir: "Bir gün Salmanın(r) evinə qonaq getmişdim. Salman yemək bişirmək üçün qazanı ocağın üstünə qoymuşdu. Qazanın içi dolu idi. Söhbət əsnasında qazan üç dəfə ocağın üstündən yerə düşdü, amma heç birində yerə yemək dağılmadı. Hər dəfə qazan yerə düşdükdə Salman onu götürüb ocağın üstünə qoyurdu. Üçüncü dəfə qazan yerə düşdükdə və yeməyin yerə dağılmadığını gördükdə təəccübümdən dözməyib oradan çıxdım. Bu əhvalatı Həzrət Əli(ə) üçün danışdım. Həzrət(ə) mənə buyurdu: "Ey Abuzər, əgər Salmanın barəsində sənə ətraflı danışsam, sən bu sözləri qəbul edə

---

[1] Üsuli-kafi,3-cü cild, səh. 90.
[2] Beş yüz dastan,1-ci cild, səh. 99.

bilməzsən. Çünki onun barəsində deyəcəyim sözləri götürməyə sənin tutumun çatmaz. Əgər onun barəsində hər şeyi açıb sənə desəm, sən deyərsən ki, Allah Salmanın qatilinə rəhmət etsin.”[1]

Peyğəmbərin(s) Salman, Abuzər, Miqdad kimi şərafətli və imanlı səhabələri var idi. Peyğəmbər(s) Əli(ə) və onlar barədə buyurmuşdur ki, cənnət bu dörd nəfərin arzusunu və həsrətini çəkir. Amma imanda onların hər birinin öz dərəcəsi var idi.

## Qəzəbi boğmaq

Quran ayələrinə əsasən təqvalı insanın bir neçə xüsusiyyət, əlamət və sifətləri vardır. Hər bir insan təqvalı olmaq üçün və yaxud təqvalı insanı tanımaq üçün bu əlamətlərə diqqət yetirilməlidir. Ötən bəhslərdə “Bəqərə” surəsinin 177-ci ayəsində olan həmin əlamətləri oxuduq. Bu bəhsimizdə isə digər əlamətlərlə tanış olacağıq. Qeyd edəcəyimiz ayəyə əsasən təqvalı insanın əlamətlərindən biri öz qəzəbini boğmasıdır. “Ali-İmran” surəsinin 133-134-cü ayələrində oxuyuruq:

وَسَارِعُواْ إِلَى مَغْفِرَةٍ مِّن رَّبِّكُمْ وَجَنَّةٍ عَرْضُهَا السَّمَاوَاتُ وَالأَرْضُ أُعِدَّتْ لِلْمُتَّقِينَ. الَّذِينَ يُنفِقُونَ فِي السَّرَّاء وَالضَّرَّاء وَالْكَاظِمِينَ الْغَيْظَ وَالْعَافِينَ عَنِ النَّاسِ وَاللّهُ يُحِبُّ الْمُحْسِنِينَ

-Rəbbiniz tərəfindən olan bağışlanmaya və genişliyi göylər və yer (qədər) olan (və) təqvalılar üçün hazırlanmış cənnətə doğru tələsin. (Təqvalılar) həmin o kəslər(dirlər) ki,

[1] Yenə orada,1-ci cild, səh. 102.

mallarını rifah və şadlıqda, mallarında və hallarında (maddi və mənəvi) yoxsulluqda xərcləyirlər, qəzəblərini udan və camaat(ın xətaların)dan keçənlərdirlər. Allah yaxşılıq edənləri sevir.

Bu mübarək ayədə təqvalıların üç əlamətindən söz açılır. Onlardan biri infaq barəsindədir ki, bu barədə ötən bəhslərimizdə lazımi qədər söhbət etdik. Ondan sonra buyurulur ki, təqvalı insanlar qəzəbləndikdə öz qəzəblərini udanlardır. Ayədə işlənmiş “kəzm” kəlməsi-nin lüğəti mənası su tuluğunun ağzını bağlamaq deməkdir. Yəni ərəb dilində su tuluğu doldurulduqdan sonra suyun yerə tökülməməsi üçün onun ağzının bağlanmasına “kəzm” deyilir. Ayədə işlənmiş “ğeyz” sözü isə hirslənmək və qəzəblənmək mənasını daşıyır. “Kəzmül-ğeyz” də odur ki, insan bədəni, ruhu və əsəbləri qəzəblə dolduqda onun ətrafa tökülməməsi üçün qəzəbinin ağzını bağlayır. Əgər insan qəzəbini boğmasa, bu qəzəb onun üçün çox böyük çətinliklər yaradacaq. Buna görə də qəzəbi udmaq insana təkidlə tövsiyə olunmuşdur. İnsan qəzəbli halda fikir söyləməməli və qərar qəbul etməməlidir. Qəzəbi yatana qədər gözlədikdən sonra söyləyəcəyi fikri və qəbul edəcəyi qərarı ağılla yerinə yetirməlidir. Qəzəb elə bir şeydir ki, insanın ağlını başından alır. Buna görə də qəzəbli halda heç bir qərar qəbul etmək düzgün deyil. Qəzəb barədə çoxlu hədis və rəvayətlər nəql olunmuşdur ki, bəzisini diqqətinizə çatdırıram.

قَالَ رَسُولُ اللهِ(ص): مَا تَجَرَّعَ عَبْدٌ جَرْعَةً أَفْضَلَ عِنْدَ اللَّهِ مِنْ جَرْعَةِ غَيْظٍ يَكْظِمُهَا لِلَّهِ ابْتِغَاءَ وَجْهِ اللَّهِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Allah yanında bəndə üçün qəzəbini Allaha xatir udmaqdan üstün və şərafətli bir qurtum yoxdur.”[1]

قَالَ الصَّادِقُ(ع): وَمَنْ كَظَمَ غَيْظاً وَلَوْ شَاءَ أَنْ يُمْضِيهِ أَمْضَاهُ مَلأَ اللَّهُ قَلْبَهُ يَوْمَ الْقِيَامَةِ رِضًاه

-İmam Sadiq(ə) buyurur: “Kim qəzəblənərkən hər bir qəbul etdiyi qərarı icra edəcəyi halda qəzəbini soyuda bilsə və onu udsa (qəzəbli halda qəbul etdiyi qərarları kənara qoysa), Allah qiyamət günündə onun qəlbini Öz rizayəti ilə doldurar.”[2]

قَالَ البَاقِرُ(ع): مَنْ كَظَمَ غَيْظاً وَ هُوَ يَقْدِرُ عَلَى إِمْضَائِهِ حَشَا اللَّهُ قَلْبَهُ أَمْناً وَ إِيمَاناً يَوْمَ الْقِيَامَةِ

-İmam Baqir(ə) buyurur: “Kim qəzəbini soyuda bilsə və onu udsa, Allah qiyamət günündə onun qəlbini rahatlıq (əmin-amanlıq və) imanla aşırıb-daşırar.”[3]

Qəzəb elə bir oddur ki, düşdüyü yeri yandırıb kül edir. Şeytan həmişə insanın qəzəbli hallarını özünə fürsət bilib onu aldatmağa can atır.

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ هَذَا الغَضَبَ جَمْرَةٌ مِنَ الشَّيْطَانِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Qəzəb şeytanın insanın qəlbində şölələndirdiyi bir parça alovdur.”

---

[1] Mizanül-hikmə,9-cu cild, hədis-15037.
[2] Yenə orada, hədis-15035.
[3] Yenə orada, hədis-15034.

تُوقَدُ فِي قَلْبِ ابْنِ آدَمَ وَإِنَّ أَحَدَكُمْ إِذَا غَضِبَ احْمَرَّتْ عَيْنَاهُ وَانْتَفَخَتْ أَوْدَاجُهُ وَدَخَلَ الشَّيْطَانُ فِيهِ.

Bu hədisin davamında İmam Baqir(ə) belə buyurur: "(Qəzəb odu) insanın qəlbində şölələnir. Sizlərdən biri qəzəbləndikdə gözləri qızarır, damarları şişir və şeytan onun qəlbinə daxil olur."[1]

İnsan qəzəbləndikdə şeytan üçün şərait və meydan hazırlanmış olur. Qəzəb şeytanın insanı hətta qətl kimi cinayətlərə sövq etməsi üçün bir imkandır. Tarixdə və gün ərzində qəzəblənən insanların törətdiyi cinayətləri az görürükmü? Hətta qəzəblənib dindən çıxanların da şahidi olmuşuq. Buna görə də insan qəzəbləndikdə öz qəzəbini udmaqla şeytanın imkanlarını kəsməlidir.

قَالَ عَلِيٌّ(ع): اَلْغَضَبُ نَارٌ مُوقَدَةٌ مَنْ كَظِمَهُ أَطْفَأَهَا وَ مَنْ اَطْلَقَهُ كَانَ أَوَّلَ مُحْتَرِقٍ بِهَا

İmam Əli(ə) buyurur: "Qəzəb yanar oddur. Qəzəbini sakitləşdirən şəxs həmin odu söndürən şəxsə bənzəyir. Və öz qəzəbinə yiyə durmayan kəs bu odun içinə daxil olan birinci şəxsdir."[2]

## Ən təhlükəli düşmən

İnsanın ən təhlükəli və böyük düşməni onun şəhvət və qəzəbidir. Bu iki şey insanın ağlını başdan çıxaran psixoloji hallardır. Şəhvət qızışdıqda insanın ağlını başından çıxarır.

---

[1] Yenə orada, hədis-15002.
[2] Mizanül-hikmə, 9-cu cild, hədis-15005.

Əgər insan onun qarşısını almasa, günahlar baş verəcək və heç bir şey onun gözünə görünməyəcəkdir. İş işdən keçdikdən sonra isə etdiyi əməllərin pisliyini başa düşəcək. Çünki insan o vaxt başa düşür ki, ağlı başında olmuş olsun. Şəhvət cuşa gəlib ağlı başdan apardıqan sonra insan nəyin yaxşı və nəyin pis olduğunu başa düşə bilərmi? Həmçinin qəzəb də eynilə belədir. Qəzəb də insanın ağlını başından çıxarır. İnsanın ən böyük düşməni bu iki xislətdir.

قَالَ عَلِيٌّ(ع): أَعْدَى عَدُوٍّ لِلْمَرْءِ غَضَبُهُ وَ شَهْوَتُهُ فَمَن مَلَكَهَا عَلَتْ دَرَجَتُهُ وَ بَلَغَ غَايَتَهُ

-Həzrət Əli(ə) buyurur: "İnsanın ən böyük düşməni onun şəhvət və qəzəbidir. Şəhvət və qəzəbinə qələbə çalan şəxs ucalar və hədəfinə yetişər." [1]

قَالَ عَلِيٌّ(ع): مَن غَلَبَ عَلَيهِ غَضَبُهُ وَ شَهوَتُهُ فَهُوَ فِي حَيِّزِ البَهَائِم

Digər bir hədisdə Həzrət Əli(ə) belə buyurur: "Qəzəb və şəhvəti ona qələbə çalan kəs heyvanların cərgəsindədir."[2]

## Ən güclü pəhləvan kimdir?

Günlərin birində Peyğəmbər(s) səhabələrdən soruşdu: "Sizcə kimə pəhləvan deyilir? Səhabələr dedilər: Pəhləvan o kəsdir ki, onun kürəyini heç kəs yerə vura bilməsin. Peyğəmbər(s) buyurdu:

[1] Yenə orada, hədis-15022.
[2] Yenə orada, hədis-15025.

بَلِ الصَّرْعَةُ حَقَّ الصَّرْعَةُ رَجُلٌ وَكَزَ الشَّيْطَانَ فِي قَلْبِهِ فَاشْتَدَّ غَضَبَهُ وَظَهَرَ دَمَهُ ثُمَّ ذَكَرَ اللهَ فَصَرَعَ بِحِلْمِهِ غَضَبَهُ.

-Həqiqi və ən güclü pəhləvan o kəsdir ki, şeytan onun qəlbinin qapısını döyüb bədəninin qanı cuşa gələnə qədər onu şiddətlə qəzəbləndirən zaman Allahı xatırlayıb (səbir və helmi ilə) öz qəzəbinə hakim kəsilərək ona qələbə çalsın."[1]

مَرَّ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيهِ وَآلِهِ بِقَومٍ يَربَعُون حَجَرًا. فَقَال: مَا هَذا؟ قَالُوا: نَعرِفُ بِذَلِكَ أَشَدّنا وَأَقوَانا. فَقَالَ(ص): أَلا أُخبِرُكُم بِأَشَدِّكُم وَأَقوَاكُم؟ قَالُوا: بَلَى يَا رَسُولَ اللهِ. قَالَ(ص): أَشَدُّكُم وَأَقوَاكُم اَلَّذي إِذَا رَضِيَ لَمْ يُدخِلهُ رِضَاهُ فِي إِثمٍ وَلا بَاطِلٍ وَ إِذَا سَخِطَ لَمْ يُخرِجهُ سَخَطُهُ مِن قَولِ الْحَقّ.

-Günlərin birində Həzrət Peyğəmbər(s) bir yerdən keçirdi. Gördü ki, bir qrup insan ora toplaşıb. Bir neçə nəfər isə ağır daşları qaldıraraq öz güclərini nümayiş etdirirlər.

Peyğəmbər(s) soruşdu: Bu nədir belə?

Dedilər: Biz bununla kimin güclü olduğunu sınayırıq.

Peyğəmbər(s) buyurdu: Sizə ən güclü insanın kim olduğunu xəbər verimmi?

Dedilər: Bəli, ya Rəsulallah.

---

[1] Mizanül-hikmə, 9-cu cild, hədis-15030.

Peyğəmbər(s) buyurdu: Sizlərdən ən güclü və qüvvətliniz o kəsdir ki, şad olub sevindiyi anlarında günaha və batil yola düşməsin. Həmçinin çətinliyə düşdükdə və qəzəbləndikdə haqdan və haqq sözü deməkdən üz çevirməsin.[1]

## Qəzəb haqqında maraqlı hekayət

Yəsə Peyğəmbər(ə) ömrünün son vaxtlarında camaatı başına toplayıb belə vəsiyyət etdi: "Hər kim üç əməli öhdəsinə götürsə, məndən sonra Allah onu peyğəmbər seçəcək. Həmin üç əməl bunlardır: Gündüzlər oruc tutmalı, gecələr oyaq qalıb ibadət etməli, heç vaxt qəzəblənməməlidir. Camaatın içindən bir cavan oğlan ayağa durub dedi: Mən bacararam.

Səhərisi gün Yəsə Peyğəmbər(ə) yenə də camaatı yığıb həmin sözləri təkrar etdi. Yenə də həmin cavan oğlan onun buyurduğu əməlləri yerinə yetirə biləcəyini söylədi. Yəsə Peyğəmbər(ə) dünyadan getdikdən sonra Allah-təala həmin cavanı peyğəmbər seçdi. Onun adı Zul-Kəfl idi. Quran ayələrində də bu peyğəmbərin adı ilə rastlaşırıq.

Zul-Kəfl həmin şərtləri qəbul edərək peyğəmbərliyə seçildikdən sonra şeytan onu yoldan çıxarmaq istəyirdi. Günlərin birində Zul-Kəfl bərk yorulmuşdu. Təzəcə uzanıb gözünü yummaq istəyirdi ki, şeytan bir insan surətində onun yanına gəlib dedi: "Mənə zülm ediblər, mənim haqqımı zalımdan al.

Zul-Kəfl dedi: Get, o zalımı mənim yanıma gətir.

---

[1] Yenə orada, hədis-15033.

Şeytan dedi: O, mənə inanmadığı üçün bura gəlməyəcək.

Zul-Kəfl barmağından üzüyü çıxarıb ona uzadaraq dedi: Bu üzüyü apar ona göstər və de ki, Allahın peyğəmbəri səni çağırır.

Şeytan üzüyü ondan alıb getdi. Səhərisi gün Zul-Kəfl istirahət etmək üçün mürgüləmək istəyirdi. Təzəcə gözünə yuxu gedirdi ki, şeytan yenə də gəlib onu yuxudan oyadaraq dedi: Mənə zülm edən adam bununla da razılaşmadı. Dur, birlikdə onun yanına gedək.

Zul-Kəfl dedi: Gəl, mən məktub yazım, sən də apar ver ona.

Zul-Kəfl məktub yazıb ona verdi. Şeytan çıxıb getdi və səhərisi gün Zul-Kəflin istirahət etdiyi vaxtda yenə də gəlib onu yuxudan oyatdı və dedi: O, bununla da razılaşmır. Dur, onun yanına gedək və mənim haqqımı ondan al.

Zul-Kəfl ayağa qalxıb onun əlindən tutur və yola düşür. İsti havada əziyyət çəkə- çəkə yol gedirlər. Şeytan onu qəzəbləndirə bilməyəcəyini gördükdə qaçıb gedir.”[1]

## Qəzəbi sakitləşdirməyin yolları

Peyğəmbər(s) və məsum imamlarımız təkidlə buyurmuşlar ki, qəzəbləndiyiniz zaman qəzəbi özünüzdən uzaqlaşdırın. Bununla yanaşı, qəzəbi sakitləşdirməyin yollarını da bizə öyrətmişlər. Həzrət Peyğəmbər(s) buyurur ki, insan qəzəblənərkən vəziyyətini dəyişməlidir. Məsələn, ayaq üstə qəzəbləndikdə əyləşməklə, danışarkən qəzəbləndikdə sakit

---

[1] Gəncineyi-məarif, səh.655.

qalmaqla, əyləşdiyi zaman qəzəbləndikdə uzanmaqla qəzəbini sakitləşdirə bilər.

قَال رَسُول اللهِ(ص): اِذَا غَضِبْتَ فَاجْلِسْ

-Həzrət Peyğəmbər(s) buyurur: "Qəzəbləndiyin zaman əyləş."

قَال رَسُول اللهِ(ص): اِذَا غَضِبَ اَحَدُكُمْ فَلْيَسْكُتْ

-Həzrət Peyğəmbər(s) buyurur: "Sizlərdən biriniz qəzəblənən zaman sakit qalmaqla qəzəbinizi boğun."

قَال رَسُول اللهِ(ص): اِذَا غَضِبَ الرَّجُلُ فَقَالَ: اَعُوذُ بِاللهِ سَكَنَ غَضَبُهُ

-Həzrət Peyğəmbər(s) buyurur: "Qəzəblənən zaman Allaha pənah aparan əuzu billah (pənah Allaha) deyənin qəzəbi sakitləşər."

كَانَ النَّبِي(ص) اِذَا غَضِبَ وَ هُوَ قَائِمٌ جَلَسَ وَ إِذَا غَضِبَ وَ هُوَ جَالِسٌ اِضْطَجَعَ فَيَذْهَبَ غَيْظُهُ

Həzrət Peyğəmbər(s) qəzəblənən zaman öz vəziyyətini dəyişməklə hirsini soyudardı. Hədislərdə Həzrətin(s) barəsində belə nəql edirlər: Həzrət Peyğəmbər(s) ayaq üstə qəzəbləndikdə əyləşər, əyləşdiyi zaman qəzəbləndikdə böyrü üstə uzanardı. Beləliklə, qəzəbi soyuyardı.

Əgər bir şəxs qəzəbləndiyi halda Allaha pənah apararsa, yavaş-yavaş onun qəzəbi sakitləşər.

قَال رَسُول اللهِ(ص): قَالَ اللهُ عَزَّوَجَلَّ: مَنْ ذَكَرَنِي حِينَ يَغْضِبُ ذَكَرْتُهُ حِيْنَ اَغْضِبُ وَلا اُمْحِقُهُ فِيمَنْ اُمْحِقُ

-Allah-təala Həzrət Peyğəmbərə(s) buyurur: “Hər kəs qəzəbləndiyi zaman Məni yada salıb xatırlasa, Mən də ona qəzəbləndiyim zaman onu xatırlayıb həlak etmərəm.”

Buna görə də insan qəzəbləndiyi zaman Allahı yad edib Ona zikr edərsə, yəni “sübhanallah”, “əlhəmdulillah” kimi zikrləri deyərsə, həmin şəxsin qəzəbi sakitləşər.

قَال رَسُول اللهِ(ص): فَإِذَا غَضِبَ اَحَدُكُمْ فَلْيَتَوَضَّأ

-Həzrət Peyğəmbər(s) buyurur: “Sizlərdən kimsə qəzəbləndikdə dəstəmaz alsın.”

## Maraqlı və ibrətamiz əhvalat

Öz qəbiləsində tanınmış bir nəfər Peyğəmbərin(s) hüzuruna gəlib ərz etdi: “Ya Rəsulallah, mənə nəsihət et. Həzrət Peyğəmbər(s) ona bir kəlmə ilə nəsihət edərək buyurdu: Qəzəblənmə.”

Həmin kişi öz qəbiləsinə qayıtdıqda gördü ki, onun adamlarından biri digər qəbilənin bir adamını vurub öldürüb. Həmin qəbilə də onun qəbiləsi ilə müharibəyə hazırlaşır. O da qəzəblənib qılınca əl atmaq istədikdə Peyğəmbərin(s) sözünü yadına salıb özünü sakitləşdirdi. Sakitləşdikdən sonra fikrinə bəzi sözlər gəldi. Sonra gəlib müharibəyə hazırlaşan iki qəbilənin ortasında dayanıb dedi: “Bizim qəbilənin adamlarından biri sizin birinizi öldürüb. Onun qanbahasını mən ödəyərəm. Onların arasında bir səhv və anlaşılmazlıq olub, biri digərini öldürmüşdür. Buna görə də iki tayfa bir-birini qırıb, uşaqlarını yetim qoymalıdırmı? Bir-birimizin

günahından keçməyimiz yaxşı olar, yoxsa müharibə edərək qadınları dul, uşaqları yetim qoymağımız?” [1]

Beləcə, həmin kişi belə məntiqli sözlərlə hər iki qəbiləni sakitləşdirib mehribanlaşdırdı. Əgər Peyğəmbərin(s) nəsihətinə qulaq asmasaydı və qəzəbinin cilovunu azad buraxsaydı, o da onlara qoşulub müharibə edəcəkdi.

## Allaha xatir qəzəblənmək

Burada bir mətləbi nəzərdən keçirməliyik ki, bəzi yerlərdə insana qəzəblənmək lazımdır. Bu qəzəb Allah yolunda və Ona xatir olan qəzəbdir.

Həzrət Musa(ə) Allaha belə ərz etdi: “Pərvərdigara! Sənin sayəndən qeyri bir kölgənin olmadığı bir vaxtda ərşində olan o bəndələrin kimlərdir?”

Allah ona belə bir vəhy buyurdu:

وَالَّذِينَ يَغضَبُونَ لِمَحارِمِي إِذا استُحِلَّت، مِثلَ النَّمِرِ إِذَا جُرِحَ

-Mənim haramlarım halal sayılanda yaralı pələng kimi qəzəblənən kimsələr.[2]

قَالَ عَلِيٌّ(ع): وَلَقَد كَانَ رَسُولُ اللهِ(ص) لا يَغضَب لِلدُّنيَا فَإِذَا أَغضَبَهُ الْحَقّ لَم يَعرِفهُ اَحَدٌ وَلَم يَقُم لِغَضَبِهِ شَيءٌ حَتّى يَنتَصِرَ لَه

-Həzrət Əli(ə) Peyğəmbər(s) barəsində belə buyurur: “İslam Peyğəmbəri(s) heç bir vaxt dünyaya görə qəzəblənməzdi. Amma haqqa (ilahi və dini məsələlərə) xatir qəzəbləndikdə isə (həmin haqqın intiqamını

[1] Gəncineyi-məarif, səh.657.
[2] Mizanül-hikmə,9-cu cild, hədis-15070.

almayınca) heç bir kəs onu tanımaz və heç bir şey onun qarşısını ala bilməzdi.” [1]

İslam Peyğəmbəri(s) çox mülayim, xoşrəftar və güzəşt etməyi xoşlayan bir şəxs idi. Heç bir vaxt dünya məsələlərinə görə əsəbiləşməzdi. Hətta onun yoluna tikan tökən, damın üstündən başına çör-çöp atan adamlara qarşı belə əsəbiləşmirdi. Həzrət Əli(ə) buyurur ki, həmin bu Peyğəmbər(s) haqqa xatir qəzəbləndikdə isə (həmin haqqın intiqamını almayınca) heç kəs onu tanımaz və heç bir şey onun qarşısını ala bilməzdi.

Həm Peyğəmbər(s), həm onun Əhli-beyti(ə), həm də Həzrətin(s) yaxın səhabələri də belə bir xüsusiyyətə malik idilər. Onlar öz qəzəblərini udmağı çox yaxşı bacarırdılar. Amma ilahi məsələlərin kimlər tərəfindənsə pozulduğunu gördükdə Allaha xatir qəzəblənirdilər.

Abuzər Qəffari Həzrət Əlinin(ə) ən yaxın dostlarından və Peyğəmbərin(s) səhabələrindən biri idi. Üçüncü xəlifənin zamanında Müaviyə onu Rəbəzəyə sürgün etdi. Həzrət Əli(ə) onunla vidalaşarkən buyurdu:

يَا أَبْاذَر, إِنَّكَ اِنَّمَا غَضِبتَ لِلّهِ عَزّوَجَلّ فَارْجُ مَنْ غَضِبْتَ لَهُ إِنَّ الْقَوْمَ خَافُوكَ عَلى دُنْيَاهُمْ وَ خِفْتُمْ عَلَى دِينِكَ... وَاللهِ لَوْ كَانَتِ السَّماواتُ وَالأرضُ عَلى عَبْد رَتْقاً ثُمَّ اتَّقَى اللهَ جَعَلَ لَهُ مَخْرَجاً، فَلا يُؤْنِسَنَّكَ إلاَّ الحَقُّ، وَلا يُوحِشَنَّكَ إلاَّ الباطِلُ

-Ey Abuzər, sən həqiqətən Allah rizası üçün qəzəblənmisən. Belə isə kimə xatir qəzəblənmisənsə, Ona da ümid bağla. Onlar öz dünyalarının əllərindən

[1] Yenə orada, hədis-15067.

çıxacağından qorxub səni sürgün edirlər. Sən də öz dininə zərər gəlməsindən qorxub onlara qəzəbləndin. Allaha and olsun ki, əgər bütün göylərin və yerin qapıları bir bəndənin üzünə bağlansa, həmin bəndə təqvalı insan olsa, Allah o bəndəsi üçün bir çıxış yolu açar. Beləliklə (ey Abuzər,) haqdan başqa heç bir şeylə ünsiyyətdə olma. Batil və nahaqdan başqa heç bir şey səni nigaran etməsin.[1]

## Güzəşt etmək və bağışlamaq

Qeyd olundu ki, Quran ayələrinə əsasən təqvalı insanın bir neçə əlamət və xüsusiyyətləri vardır. "Ali-İmran" surəsinin 134-cü ayəsində bu əlamətlərdən üçü haqda söhbət açılmışdı. Həmin əlamətlərdən biri infaq və yaxşılıqdır ki, ötən bəhslərdə söhbət etmişik. Onlardan biri qəzəbi udmaq, digər əlamət isə güzəşt edib bağışlamaqdır. Allah-təala buyurur:

وَسَارِعُواْ إِلَى مَغْفِرَةٍ مِّن رَّبِّكُمْ وَجَنَّةٍ عَرْضُهَا السَّمَاوَاتُ وَالأَرْضُ أُعِدَّتْ لِلْمُتَّقِينَ. الَّذِينَ يُنفِقُونَ فِي السَّرَّاء وَالضَّرَّاء وَالْكَاظِمِينَ الْغَيْظَ وَالْعَافِينَ عَنِ النَّاسِ وَاللّهُ يُحِبُّ الْمُحْسِنِينَ

-Rəbbiniz tərəfindən olan bağışlanmaya və genişliyi göylər və yer (qədər) olan (və) təqvalılar üçün hazırlanmış cənnətə doğru tələsin. (Təqvalılar) həmin o kəslər(dirlər) ki, mallarını rifah və şadlıqda, mallarında və hallarında (maddi və mənəvi) yoxsulluqda xərcləyirlər, qəzəblərini udan və camaat(ın xətaların)dan keçənlərdir. Allah yaxşılıq edənləri sevir.

---

[1] Mizanül-hikmə,9-cu cild, hədis-15071.

Bu ayə qəzəbi udmaq sifətindən sonra güzəştə gedib bağışlamaq sifətini bəyan edir. Bu iki sifət bir-birinə bağlı olduğu üçün ayədə ardıcıl gəlmişdir. Bir insan digərinə qarşı qəzəbləndikdə və qəzəbini udduqdan sonra bağışlamaq və əfv etməyi də bacarmalıdır. Çünki qəzəbi udduqdan sonra onun kökü insanın qəlbində iz kimi qalır. Yəni birinə qarşı qəzəbləndikdə qəzəbi boğub sakitləşdikdən sonra onun kin-küdurəti və ədavəti aradan getmir. Buna görə də təqvalı insan qəzəbini udduqdan sonra həmin şəxsi bağışladıqda qəzəb köklü surətdə, yəni kin-küdurət və düşmənçiliklə birgə onun ürəyindən çıxır.

قَالَ رَسُولُ اللهِ(ص): تَعَافَوا تَسقُطِ الضَّغائِنُ بَينَكُم

-Həzrət Peyğəmbər(s) buyurur: "Bir-birinizin səhv və xətalarını bağışlayın ki, aranızda olan kin-küdurət aradan getsin." [1]

قَالَ رَسُولُ اللهِ(ص): رَأَيتُ لَيلةَ أُسرىَ بِي قُصُورًا مُستَوِيَةً مُشرِفَةً عَلَى الْجَنَّةِ. فَقُلتُ: يَا جِبرِئيل لِمَن هَذا؟ فَقَالَ: لِلكَاظِمِينَ الغَيظ وَ العَافِينَ عَنِ النَّاس

Digər bir hədisdə Həzrət(s) belə buyurur: "Merac gecəsi cənnətdə hündür və şərafətli qəsrlər gördüm. Cəbrayıldan(ə) onların kimə məxsus olduğunu soruşduqda, o, belə bir cavab verdi: Qəzəbini udan və camaatın xatalarını bağışlayanlara məxsusdur." [2]

[1] Mizanül-hikmə,8-ci cild, hədis-13174.
[2] Yenə orada, hədis-13178.

Bağışlamaq elə bir xüsusiyyətdir ki, insanın ruhunu böyüdür. İnsan nə qədər çox güzəştə gedən və bağışlayan olsa, bir o qədər də böyüyüb övliyaların cərgəsində qərar tutar. Mərhum Seyid Əbülhəsən İsfahani Nəcəfdə ən tanınmış müctəhidlərdən biri idi. Ona iki namazın (şam və xiftən) arasında xəbər verdilər ki, filankəs oğlunu öldürdü. O dedi: "Xiftən namazını qılaq, ondan sonra görək neyləyirik." Namaz qurtardıqdan sonra ondan soruşdular: "Qatil barəsində fikriniz nədir? O dedi: Yəqin ki, o, oğlumu bilərəkdən öldürməyib. Ola bilsin ki, onun ağlı başında olmayıb. Ola bilsin ki, onun adam öldürməyin pis iş olduğundan xəbəri yoxdur."

Seyid Əbülhəsən o qədər təqvalı, böyük ruhlu bir insan idi ki, belə hadisələr onun üçün çox kiçik görünürdü. Əgər onun yerində təqvası olmayan başqa bir insan olsaydı, dərhal qəzəblənib həmin qatildən intiqam almağa qərar verərdi. Əgər insan bir cəmiyyətdə imanını qoruyub saxlamaq istəyirsə, hamı ilə dalaşıb hər kiçik bir məsələyə baş qoşmamalıdır.

Bağışlamaq, güzəşt etmək insanı təqvaya yaxın edən əməldir. Buna işarə olaraq "Bəqərə" surəsinin 237-ci ayəsində oxuyuruq:

وَإِن طَلَّقْتُمُوهُنَّ مِن قَبْلِ أَن تَمَسُّوهُنَّ وَقَدْ فَرَضْتُمْ لَهُنَّ فَرِيضَةً فَنِصْفُ مَا فَرَضْتُمْ إَلاَّ أَن يَعْفُونَ أَوْ يَعْفُوَ الَّذِي بِيَدِهِ عُقْدَةُ النِّكَاحِ وَأَن تَعْفُواْ أَقْرَبُ لِلتَّقْوَى وَلاَ تَنسَوُاْ الْفَضْلَ بَيْنَكُمْ إِنَّ اللّهَ بِمَا تَعْمَلُونَ بَصِيرٌ

-Əgər qadınları mehriyyə təyin etmiş olduğunuz halda, onlarla yaxınlıq etmədən boşasanız, (qadınların)

özləri və ya nikahlama (ixtiyarı) əlində olan kəs (onun başçısı və ya mütləq vəkili) güzəşt etməsə, onda təyin etdiyinizin yarısı (sizin öhdənizdədir). Sizin güzəşt etməyiniz (yəni mehriyyənin hamısını verməyiniz) təqvaya daha yaxındır. Öz aranızda ehsan və bəxşiş etməyi unutmayın ki, həqiqətən, Allah etdiklərinizi görəndir.

Bu ayə əsasən təlaq barəsindədir. Məsələn, bir oğlan bir qızla evlənmək qərarına gəldikdə şəriət hökmlərinə əsasən mehriyyə təyin olunur və onların kəbinləri kəsilir. Belə də olur ki, onların bu niyyəti baş tutmur və iş təlaq, yaxud boşanma ilə nəticələnir. Belə olduqda əgər onların arasında yaxınlıq olubsa, boşandıqda oğlan təyin olunmuş mehriyyənin hamısını verməlidir. Qadın (özü və onun başçısı) öz mehriyyəsini oğlana bağışlaya da bilər. Yox, əgər onların arasında əlaqə və yaxınlıq olmayıbsa, bu zaman mehriyyənin yarısını vermək oğlana vacibdir. Amma əgər oğlan mehriyyənin hamısını qıza versə və ya bağışlasa, bu əməl təqvaya daha yaxındır. Ayənin sonunda buyurulur ki, öz aranızda ehsan və bəxşiş etməyi unutmayın ki, həqiqətən, Allah etdiklərinizi görəndir.

Bundan başa düşürük ki, cəmiyyətin bir cəmiyyət kimi formalaşmasında bu kimi əməllərin böyük rolu vardır. Əgər bir cəmiyyətdə yaxşılıq və bəxşiş olmasa, həmin cəmiyyətin mənəviyyatı korlanıb aradan gedər. “Şura” surəsinin 39-43-cü ayələrində belə buyurulur:

وَالَّذِينَ إِذَا أَصَابَهُمُ الْبَغْيُ هُمْ يَنتَصِرُونَ. وَجَزَاء سَيِّئَةٍ سَيِّئَةٌ مِّثْلُهَا فَمَنْ عَفَا وَأَصْلَحَ فَأَجْرُهُ عَلَى اللَّهِ إِنَّهُ لَا يُحِبُّ الظَّالِمِينَ. وَلَمَنِ انتَصَرَ بَعْدَ ظُلْمِهِ فَأُوْلَئِكَ مَا عَلَيْهِم مِّن سَبِيلٍ. إِنَّمَا السَّبِيلُ عَلَى

الَّذِينَ يَظْلِمُونَ النَّاسَ وَيَبْغُونَ فِي الْأَرْضِ بِغَيْرِ الْحَقِّ أُوْلَئِكَ لَهُم عَذَابٌ أَلِيمٌ. وَلَمَن صَبَرَ وَغَفَرَ إِنَّ ذَلِكَ لَمِنْ عَزْمِ الْأُمُورِ

-Və onlara (cəmiyyətlərinə) zülm olunduqda bir-birilərindən kömək istəyən və bir-birilərinə kömək edən (və düşməndən intiqam alan) kəslər (üçün). Hər bir pisliyin cəzası onun kimi bir pislikdir (öldürmək, kəsmək və yaralamağın cəzası eyni ilə özü kimidir və malın tələf edilməsi müqabilində onun əvəzi və ya maddi dəyəridir). Bununla belə əgər kimsə əfv etsə və (Allahla öz arasını və özü ilə tərəf müqabilinin arasını) düzəltsə, onun mükafatı Allahın öhdəsinədir. Həqiqətən O, zalımları (pislikdə başlayan tərəf olanları və cəzalandırmaqda həddi aşanları) sevmir. Həqiqətən, zülmə məruz qaldıqdan sonra intiqam alan kəslərə qarşı (həddi aşmaq və təcavüz etməyə ağıl və şəriət baxımından) əsla bir yol yoxdur. (Cəza və tənbeh) yol(u) yalnız insanlara zülm edən və yer üzündə haqsız yerə hökmranlıq və fəsad axtaran kəslərə qarşıdır (belələrinə qarşı açıqdır). Onlar üçün ağrılı bir əzab vardır. Əlbəttə, kim (intiqam almaq qüdrəti ola-ola) səbir etsə və bağışlasa, bu, doğrudan da mühüm (və qiymətli) işlərdəndir.

Bu ayədən açıq-aydın görürük ki, birinə qarşı zülm olunduqda həmin şəxs intiqam ala da bilər, bağışlaya da bilər. Əgər intiqam alarsa, bir insan kimi öz haqqını tələb etmişdir. Yox, əgər intiqam almaq qüdrəti olduğu halda bağışlayıb əfv etsə, bu əməlin dəyəri çox yüksəkdir. Belə olduqda həmin şəxs insaniyyət və mənəvi cəhətdən peyğəmbərlərin cərgəsinə qoşulur.

قَالَ رَسُولُ اللهِ(ص): ألا اُخبِرُكُم بِخَيرِ الخَلائِقِ الدُّنيا وَالآخِرَةِ؟ العَفوَ عَمَّنْ ظَلَمَكَ وَتَصِلُ مَنْ قَطَعَكَ وَالإِحسانُ إِلى مَنْ أَساءَ إِلَيكَ، وَإِعطَاءُ مَنْ حَرَمَكَ

-Həzrət Peyğəmbər(s) buyurur: "Sizə dünya və axirətin ən xeyirli əxlaqlarından xəbər verimmi? Sənə zülm və pislik edəni bağışlamaq. Səndən küsüb uzaqlaşanla barışıb səmimiyyət göstərmək. Sənə pislik edənə yaxşılıq etmək və səni məhrum edəni (səndən bir şey istədikdə onu) məhrum etməmək."[1]

قَالَ عَلِيٌّ(ع): اَلعَفوُ تَاجُ الْمَكَارِمِ

-Həzrət Əli(ə) buyurur: "Əfv edib bağışlamaq kəramət və comərdliyin tacıdır."[2]

قَالَ رَسُولُ اللهِ(ص): إِذَا أَوقَفَ اللهُ العِبَاد نَادَى مُنَادٍ: لِيَقُم مَن أَجرُهُ عَلَى اللهِ وَليَدخُلِ الْجَنَّةَ. قِيلَ: مَن ذَا الَّذِي أَجرُهُ عَلَى اللهِ؟ قَالَ(ص): اَلعَافُونَ عَنِ النَّاس

-Həzrət Peyğəmbər(s) buyurur: "Bütün bəndələri məhşər səhnəsinə topladıqdan sonra carçı səslənib belə nida edəcək: Əcr və savabı Allah yanında olanlar ayağa qalxıb cənnətə daxil olsunlar.

Soruşdular: Ya Rəsulallah, əcr və savabı Allah yanında olanlar kimlərdir?

[1] Mizanül-hikmə,8-ci cild, hədis-13171.
[2] Mizanül-hikmə,8-ci cild, hədis-13170.

Peyğəmbər(s) buyurdu: Camaatın səhv və xatalarını bağışlayanlar.”[1]

Həzrət Peyğəmbərin(s) həyatını oxuduqda Onun(s) nə qədər bağışlayan və əfv edən olduğunu görürük. Hətta Həzrət(s) ona pislik edənlərə qarşı mehribanlıqla rəftar edirdi. Həmçinin Əhli-beyt(ə) də belə gözəl əxlaqın sahibi olmuşlar.

قَالَ الصَّادِقُ(ع): اِنَّا اَهلُ بَيتٍ مُرُوَّتُنَا العَفوُ عَمَّن ظَلَمَنَا

-İmam Sadiq(ə) buyurur: “Biz elə bir Əhli-beytik ki, mürüvvət və mərdliyimiz bundadır ki, hətta bizə zülm edənləri belə bağışlayırıq.”[2]

İmam Sadiq(ə) buyurur: “İmam Səccad(ə) heç bir vaxt kəniz və nökərlərini vurmazdı. Onlardan nalayiq bir hərəkət və xata iş gördükdə yazıb qeydə alardı. Mübarək ramazan ayının axırıncı gecəsi onların hamısını toplayıb buyurardı: Filankəs, yadındadırmı sən filan gün filan xatanı etmisən? Amma mən səni cəzalandırmadım. Həmin nökər deyərdi: Bəli, mənim ağam, yadımdadır. Sonra digərinin səhvini deyərdi. Beləliklə, axırıncı nökər və kənizi də dindirdikdən sonra belə buyurardı: Mən sizin hamınızı bağışladım. İndi isə dua edərək belə deyin:

يَا عَلِيّ بنَ الْحُسَين إِنَّ رَبَّكَ قَد أَحصَى عَليكَ كُلَّ مَا أَحصَيتَ عَلَينَا وَلَدَيهِ كِتَابٌ يَنطِقُ عَلَيكَ بِالْحَقّ لا يُغَادِر صَغيرَةً وَلا كَبِيرَةً مِمَّا اَتَيتَ وَ عَمِلتَ

---

[1] Yenə orada, hədis-13173.
[2] Yenə orada, hədis-13180.

اَللّٰهُمَّ اعفُ عَن عَلِيِّ بنِ الْحُسَين كَمَا عَفَا عَنَّا فَاعتِقهُ مِنَ النَّار كَمَا اَعتَقَ رِقَابَنَا مِنَ الرِّق

-Ey Hüseynin oğlu Əli, bizim bütün səhvlərimizi yazıb qeydə aldığın kimi, Allah da sənin kiçikli-böyüklü bütün əməllərini yazmışdır. Bizim əməllərimiz sənə açıq-aydın olduğu kimi, sənin də əməllərin Allaha açıq-aydındır. İlahi, Hüseynin oğlu Əlini əfv et, necə ki, o, bizi əfv edib bağışladı. Onu cəhənnəm atəşindən azad et, necə ki, o, bizi qul və kənizlikdən azad etdi.

İmam Səccad(ə) onların dualarına amin dedikdən sonra onlara bayramlıq hədiyyəsi verib azad edərdi."[1]

Peyğəmbər(s) və imamların camaata istənilən məsələdə güzəşt etmələri insanı heyrətə gətirir. Onlar hətta düşməndən pislik görsəydilər belə, onları bağışlamağı bacarırdılar.

Əbdülməlik ibn Mərvan İmam Səccadın(ə) düşmənlərindən biri idi. O, İmam Səccadın(ə) evinin damını uçurtmuşdu. Bir zaman gəldi ki, Mərvanı işdən qovdular və onun hər şeyini əlindən aldılar. Belə ki, hətta gecə yatmağa evi də qalmamışdı. Hər kəsə ağız açırdısa faydası olmurdu. Ona İmam Səccadın(ə) yanına gedib ondan kömək istəməsini tapşırdılar. O, utana-utana İmamın(ə) hüzuruna gəlib evsiz-eşiksiz qaldığını söylədi və ondan kömək istədi. İmam Səccad(ə) buyurdu: "Mənim iki evim var. Bu evdə qalmaq istəyirsənsə, mən köçüm o biri evə, sən də gəl burada qal. Burada qalmaq istəmirsənsə, get o biri evdə yaşa."

---

[1] Min bir əxlaqi hekayələr, səh.221.

Təkcə Peyğəmbər(s) və məsum imamlar deyil, onların əllərindən su içmiş və onların tərbiyəsini görmüş səhabələr də belə bir əxlaqın daşıyıcıları olmuşlar. Buna misal olaraq Malik Əştər kimi insanları nümunə kimi göstərmək olar.

Günlərin birində Malik Əştər bazardan keçərkən bir nəfər xurmanı yeyib təhqir mənasında tumunu ona atdı. Malik ona baxıb bir söz demədi və yoluna davam etdi. Malikə xurma tumu atan şəxsə dedilər: “Sən bilirsən o kimdir? Dedi: Yox. Dedilər: O, Malik Əştərdir.” Həmin şəxs Malik Əştərin güclü bir pəhləvan, sözükeçən və vəzifəli bir şəxs olduğunu bilirdi. Elə ona görə də qorxudan üzr istəmək üçün onun ardınca qaçdı. Gördü ki, Malik məscidə daxil oldu. Onun dalınca məscidə girəndə gördü ki, Malik namaza başladı. Oradaca əyləşib Malikin namazı qurtarmasını gözlədi. Malik namazı qurtaran kimi onun yanına gedib üzr istədi. Malik ona dedi: “Mənim məscidə gəlmək məqsədim yox idi. Sənin o hərəkətinə görə bu məscidə gəlib iki rükət namaz qıldım. Sonra isə Allahdan sənin hidayət olunmağını və günahlarının bağışlanmasını istədim.”[1]

Malik Əştər böyük ruhlu, alicənab və ləyaqətli bir şəxs idi. Həzrət Əli(ə) onu Misirə vali təyin etmişdi. Hər bir insanda Allahın höccəti tərəfindən hansısa məmləkətə vali təyin olunmaq üçün qabiliyyət və ləyaqət olmalıdır. Həzrət Əlinin(ə) onu vali təyin etməsindən Malik Əştərin ləyaqətli bir insan olduğu bəlli olur. Qolu güclü pəhləvan və döyüş meydanlarının qəhrəmanı olan Malik Əştər ona qarşı pislik edənləri bağışlamağı çox gözəl bacarırdı.

---

[1] Yenə orada, səh. 214.

## Əfv etməyin faydaları

Əfv etmək, bağışlayıb güzəşt etməyin həm insanın bu dünyası, həm də axirəti üçün bir sıra faydaları vardır. Bu barədə olan hədislərin bir neçəsini diqqətinizə çatdırıram.

قَالَ رَسُولُ اللهِ(ص): مَن كَثُرَ عَفوُه مُدَّ فِي عُمرِهِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Kim çox güzəşt etməyi bacarsa, ömrü uzun olar."[1]

قَالَ رَسُولُ اللهِ(ص): عَفوُ الْمُلُوك بَقاء الْمُلك

-Həzrət Peyğəmbər(s) buyurur: "Şahların bağışlamağı və güzəşt etməyi bacarmaları hakimiyyətlərinin davamlılığına səbəb olar."[2]

Burada bir incə məqamı da nəzərinizə çatdırım ki, yaxşı və pisliyindən asılı olmayaraq hər bir əməlin özünəməxsus təsir və xüsusiyyəti vardır. Pis əməllərin pis təsiri, yaxşı əməllərin də yaxşı təsiri vardır.

قَالَ رَسُولُ اللهِ(ص): تَجَاوَزُوا عَن عَثَرَاتِ الْخَاطِئِين يَقِكُمُ الله بِذَلِكَ سُوءَ الأَقدَار

-Həzrət Peyğəmbər(s) buyurur: "Xatakarların büdrəmələrindən keçin ki, bu səbəbə Allah sizi təyin etdiyi çətin hallardan qorusun."[3]

---

[1] Mizanül-hikmə, 8-ci cild, hədis-13174.
[2] Yenə orada, hədis-13178.
[3] Yenə orada, hədis-13191.

قَالَ رَسُولُ اللهِ(ص): عَلَيكُم بِالعَفوِ فَإِنَّ العَفوَ لا يَزِيد العَبد اِلّا عِزًّا فَتَعَافُوا يُعِزَّكُمُ الله

-Həzrət Peyğəmbər(s) buyurur: "Güzəşt və bağışlamaq sizinlə olsun. Çünki güzəşt yalnız bəndənin izzətini artırar. Belə isə bir-birinizə güzəşt edin ki, Allah sizə izzət bəxş etsin." [1]

قَالَ رَسُولُ اللهِ(ص): مَن عَفَا عَن مَظلَمَةٍ اَبدَلَهُ اللهُ بِهَا عِزًّا فِي الدُّنيَا وَ الآخِرَة

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kəs ona qarşı olan haqsızlığı və zülmkarı bağışlasa, Allah-təala onun əvəzində həmin şəxsə dünya və axirətin izzətini bəxş edər."[2]

قَالَ رَسُولُ اللهِ(ص): تَجَاوَزُوا عَنْ ذُنُوبِ النّاسِ يَدْفَعِ اللّهُ عَنْكُمْ بِذلِکَ عَذابَ النّارِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Camaatın xata və səhvlərindən keçin. Allah bu əməlinizə xatir cəhənnəm əzabını sizdən uzaqlaşdırar."[3]

Bu hədislərə əsasən görürük ki, əfv etmək və bağışlamaq hər bir insanın həm bu dünyası, həm də axirəti üçün faydalıdır. Əgər insan bu əməli sırf Allah xatirinə etsə, Allah həmin şəxsi cəhənnəm atəşindən

---

[1] Yenə orada, hədis-13182.
[2] Mizanül-hikmə,8-ci cild, hədis-13183.
[3] Yenə orada, hədis-13190.

qoruyar. Həmçinin bir insan hakimiyyət başındadırsa və güzəşt edən insandırsa, günahkar olmasına baxmayaraq, həmin əməlin dünyəvi xüsusiyyəti onun hakimiyyətinin uzunmüddətli olmasına səbəb olar. Əgər özünü camaata göstərmək üçün deyil, sırf Allaha xatir bağışlasa, həm hakimiyyət müddəti uzun olar, həm izzətli olar və həm də Allah bu insanı cəhənnəmdən qoruyar. Ümumiyyətlə, hər bir yaxşılığın axirət mənfəətini qazanmaq istəyən şəxsin niyyəti Allaha xatir olmalıdır. Əgər Allaha xatir olmasa, dünyəvi faydalarını görəcək, amma axirət faydasına çata bilməyəcək.

Günlərin birində səhabələrdən biri öz nökərini döyürdü. Nökər onu Allaha and verib döyməməsini istəyirdi. Ağası nökərin sözlərinə məhəl qoymayıb onu kötəkləməkdə davam edirdi. Bu xəbəri Həzrət Peyğəmbərə(s) çatdırdılar. Peyğəmbər(s) həmin yerə gəldi. Nökərin ağası Həzrəti(s) görən kimi əl saxladı və onu daha döymədi. Peyğəmbər(s) ona buyurdu: "O, səni Allaha and verib yalvarırdı ki, onu döyməyəsən. Sən isə onun andlarına məhəl qoymurdun. Amma məni görən kimi nə üçün əl saxladın? Axı o, səni Allahın özünə and verirdi. Həmin şəxs Peyğəmbərin(s) bu sözlərindən təsirlənib dedi: Ya Rəsulallah, elə bu andan etibarən Allaha xatir onu bağışlayıb azad etdim. Peyğəmbər(s) buyurdu: Əgər sən onu burada bağışlamasaydın, səni üzü üstə cəhənnəmə atacaqdılar."[1]

Şeyx Nəsrullah əhli-sünnənin böyük alimlərindən biri idi. O deyir: "Gecələrin birində Həzrət Əlini(ə) yuxuda gördüm. Onun hüzuruna gedib ərz etdim: Siz

---

[1] Min bir əxlaqi hekayələr, səh. 215.

Məkkəni fəth etdikdən sonra Peyğəmbər(s) bütün müsəlmanlara göstəriş verdi ki, Əbu Süfyanın evinə pənah aparan və evində gizlənənlərlə heç bir işiniz olmasın. Siz müşriklərə belə kəramətli rəftar göstərdiniz. Amma Kərbəla səhrasında Əbu Süfyanın adamları sənin oğlun Hüseynin(ə) körpə balalarına belə rəhm etmədilər. Hətta suyu da onların üzünə bağladılar.

Həzrət Əli(ə) mənə buyurdu: Sən İbn Seyfinin şeirlərini oxumusanmı?

Dedim: Xeyr, amma onu tanıyıram.

Həzrət(ə) buyurdu: Get, o şeirləri ondan al oxu."

Yuxudan oyanıb öz-özümə təəccübləndim. Səhər açıldıqdan sonra İbn Seyfinin qapısını döydüm. O, qapını açıb salamlaşdıqdan sonra məni evə dəvət etdi. Əyləşdikdən sonra yuxunu onun üçün danışdım. Danışıb qurtaran kimi o, hönkürtü ilə ağlamağa başladı. Ondan nə üçün ağladığını soruşduqda belə dedi: Mən Həzrət Əlinin(ə) barəsində o haqda olan şeri bu gecə yazıb qurtarmışam. Onun bircə kəlməsini belə heç kimə oxumamışam.

Həmin şerin bir hissəsi belədir:

ملكنَا فكان العفوُ منَّا سجيَّة    فلمّا ملكتُمْ سالَ بالدَّمِ أبطحُ

وحَلَّلْتُمُ قتلَ الأسارَى وطالَما    غَدوْنا عن الأسْرى نَعفُّ ونصفَحُ

فحسْبُكُمُ هذا التَّفاوتُ بيْنَنا    وكلُّ إناءٍ بالذي فيهِ يَنْضَحُ

-Biz hakimiyyətdə olanda adətimiz güzəşt etmək və bağışlamaq idi, ancaq siz hakimiyyətdə olanda qan axıdılırdı. Siz əsirləri öldürməyi rəva görür, biz isə əsirlərə qarşı xoş davranıb güzəştə gedirdik. Bizim

aramızdakı bu fərq kifayət edər. Hər bir qab öz içərisindəki ilə ölçülər."[1]

## Əfv etməyin qadağan olduğu yerlər

Yuxarıda əfv etmək və güzəşt etməyin özü, faydaları haqda söhbət etdik. Qeyd olundu ki, bu gözəl əməl təqvalı insanların əlamət və nişanələrindəndir. Amma burada bir mətləbə də diqqət yetirək ki, iki halda bu işi görməyə icazə verilmir. Həmin hallardan biri budur ki, əgər bir zalımı və ya təcavüzkarı əfv etmək İslama, Qurana və müsəlmanlara qarşı təhqir kimi qəbul olunacaqsa, bu yerdə güzəştə getmək olmaz. Yəni əgər bir insan şəxsən sənin özünə zülm etmiş olsa, onu bağışlamaq yaxşıdır. Çünki bu məsələ şəxsən sənə aid olan məsələdir. Amma əgər bir təcavüzkar və zalım insanı bağışlayıb əfv etməklə İslamın və Quranın haqqı pozulacaqsa, bu halda onu bağışlamaq olmaz. Əgər eyni vaxtda dinə, Qurana və Peyğəmbərə(s) qarşı cəsarət və həqarət olursa, o zaman heç bir kəsin onu bağışlamağa ixtiyarı yoxdur.

قَالَ عَلِيٌّ(ع): جازِ بِالحَسَنَةِ وتَجاوَزْ عَنِ السَّيِّئَةِ ما لَمْ يَكُن ثَلماً في الدِّينِ أو وَهناً في سُلطانِ الإسلامِ

-Həzrət Əli(ə) buyurur: "Yaxşıya mükafat ver və pisdən keç. Bu şərtlə ki, dinə ziyan vurmasın və ya İslamın qüdrətinə zəiflik gətirməsin."[2]

---

[1] Min bir əxlaqi hekayələr, səh. 215.
[2] Mizanül-hikmə,8-ci cild, hədis-13224.

İkinci hal budur ki, tutumu olmayan bir insana güzəşt etdikdə onun zülm və həqarət etməsi daha da artacaqsa, həmin şəxsə güzəşt edilməməlidir. Çünki belə bir şəxsi bağışlamaqla onun yoldan daha da çıxmasına, öz işlərində cəsarətlənməsinə və cəhənnəmə getməsinə imkan yaradılır.

قَالَ عَلِیٌّ(ع): اَلعَفوُ یُفسِدُ مِنَ اللَّئِیم بِقَدرِ اِصلاحِه مِنَ الکَرِیم

-Həzrət Əli(ə) buyurur: "Güzəşt alicənab insanı islah etdiyi kimi, alçaq insanı da bir o qədər korlayır." [1]

Şairlərdən biri bu barədə belə yazmışdır:

ترحّم بر پلنگ تیز دندان    خیانت می شود بر گوسفندان

-Iti dişli pələngə rəhm etmək, qoyunlara zülm etməkdir.

الإمامُ عليٌّ عَلَيهِ الّسَلامُ في وَصِيَّتِهِ لابنِهِ الحَسَنِ عَلَيهِ الّسَلامُ: إذا استَحَقَّ أحَدٌ مِنهُم ذَنباً فأحسِنِ العَذلَ؛ فإنَّ العَذلَ مَعَ العَفوِ أشَدُّ مِنَ الضَّربِ لِمَن كانَ لَهُ عَقلٌ.

-İmam Əli (ə) İmam Həsənə(ə) tövsiyələrinin birində belə buyurur: "Hərgah onlardan (işçi, nökər və qulluqçulardan) kimsə günahlarına görə cəzalanmaya layiq olsa, onu yaxşıca məzəmmət et. Çünki güzəştlə birgə məzəmmət etmə ağlı və dərrakəsi olan üçün döyməkdən daha ağırdır." [2]

Bu hədisdən başa düşülür ki, ağıllı insan səhv və xataya yol verdikdə həmin şəxsə güzəşt etməklə yanaşı,

---

[1] Yenə orada, hədis-13223.
[2] Yenə orada, hədis-13221.

şirin dillə məzəmmət olunması onun üçün cəza və kötəkdən daha yaxşıdır. Çünki bu işin nəticəsində həmin adam etdiyi xatalara görə xəcalət çəkəcək. Amma ağılsız və nadan insanın bağışlanması onun cəsarətinin daha da artmasına səbəb olacaqsa belə bir şəxsə qarşı güzəştə getmək olmaz.

Beləcə, təqvalı insanın əlamətlərindən biri güzəştə gedib bağışlamaqdır. Amma qeyd olunduğu kimi, burada iki hal istisna olunur. Bu iki haldan başqa digər hallarda, xüsusilə insan nə qədər çox bağışlayan və güzəştə gedən olsa, Allah-təala da onu bağışlayar, izzətini artırar və axirət günü cəhənnəm odundan qoruyar.

## TƏQVANIN FAYDA VƏ NƏTİCƏLƏRİ

### 1. Allah təqvalı insanı düşmənlərin şərindən qoruyar

Ötən bəhslərimizdə Qurani-Kərimdə Allahın iman gətirənlərə xitablarından üçüncü nümunə barədə danışdıq. Bu xitabda Allah-təala möminlərə təqvanın vacib olduğunu bəyan edir. Biz artıq təqvanın mənası və əlamətlərindən yetərincə bəhs etdik. Bu bəhsimizi də çox yaxşı olar ki, həmin mövzu ilə davam etdirib təqvanın nəticələrindən söz açaq. Quranın müxtəlif surə və ayələrində təqvanın maddi və mənəvi fayda və nəticələri bəyan olunmuşdur. Təqvanın faydalarından biri budur ki, Allah insanı düşmənlərin şərindən, hiylə və tələlərindən amanda saxlayır. Düşmən həmişə insanları aldatmağa, haqq yoldan uzaqlaşdırmağa, onların varlıq və imkanlarını əllərindən almağa, dünya və axirət izzətindən məhrum etməyə çalışır. Əgər bir insan Allahın buyurduğu kimi, təqvaya dəqiq riayət etsə, düşmənin hiyləsindən, tələsindən və şərindən nicat tapacaq. Allah-təala "Ali-İmran" surəsinin 120-ci ayəsində bu məsələni bəyan etmişdir. Bu ayə yəhudilərin barəsində nazil olmuşdur. Onlar İslam dini, İslam Peyğəmbəri(s), ona nazil olan Kitab və bu dini qəbul edən möminlərlə ciddi müxalifətçilik edirdilər. Onlar gecə-gündüz bir yerə toplaşaraq İslam əleyhinə planlar qurur, fikir irəli sürür və fikir mübadilələri aparırdılar. Onların İslam dininə dərin müxalifətçilikləri və düşmənçilikləri var idi. Möminlərə bir xeyir yetişdikdə onlar özlərini çox pis hiss edir, narahatçılıq üz gətirdikdə isə sevinirdilər. Təkcə o dövrdə deyil, yaşadığımız indiki dövrdə də Allahın düşmənləri belədirlər. Müsəlmanlarla bağlı pis bir hadisə

üz verdikdə onlar sevinərək bir-birini təbrik edirlər. Allah-təala ayədə onların bu xüsusiyyətlərinə işarə etdikdən sonra möminlərə onların hiylə və şərindən nicat tapmağın yolunu öyrədir. Ayə belədir:

إِن تَمْسَسْكُمْ حَسَنَةٌ تَسُؤْهُمْ وَإِن تُصِبْكُمْ سَيِّئَةٌ يَفْرَحُواْ بِهَا وَإِن
تَصْبِرُواْ وَتَتَّقُواْ لاَ يَضُرُّكُمْ كَيْدُهُمْ شَيْئًا إِنَّ اللّهَ بِمَا يَعْمَلُونَ مُحِيطٌ

-Sizə bir xeyir və yaxşılıq yetişdikdə, (bu) onların halını pisləşdirər, (sizə) pislik və narahatçılıq yetişdikdə isə ona şad olarlar. Əgər səbir etsəniz və təqvalı olsanız, onların hiylələri sizə heç bir ziyan yetirə bilməz. Həqiqətən, Allah onların etdiklərini (elm və qüdrəti ilə) əhatə etmişdir.

Allah-təala bu ayədə möminlərə düşmənlərin şərindən, hiylə və məkrlərindən nicat tapmağın yolunu öyrədərək iki məsələyə əməl etməyi vacib buyurur: Onlardan biri səbir etmək, digəri isə təqvalı olmaqdır. Səbir və təqva bir-birinin ayrılmaz hissəsidir. İnsanın təqvalı olub səbirli olmaması mümkün deyil. Həmçinin Allah yolunda səbirli olub təqvalı olmamaq da mümkün deyil. Buna görə də buyurulur ki, əgər səbir etsəniz və təqvalı olsanız onların hiylələri (hay-küylərinə, dağıdıb tökmələrinə, xaraba qoymalarına, tənə və rişxəndlərinə, incitmələrinə, döyüb öldürmələrinə baxmayaraq) sizə heç bir ziyan yetirə bilməz. Hər nə iş görsələr belə Allahın əhatəsindən heç bir yerə qaça bilməyəcəklər.

"Ali-İmran" surəsinin 186-cı ayəsində belə buyurulur:

لَتُبْلَوُنَّ فِي أَمْوَالِكُمْ وَأَنفُسِكُمْ وَلَتَسْمَعُنَّ مِنَ الَّذِينَ أُوتُواْ الْكِتَابَ مِن قَبْلِكُمْ وَمِنَ الَّذِينَ أَشْرَكُواْ أَذًى كَثِيرًا وَإِن تَصْبِرُواْ وَتَتَّقُواْ فَإِنَّ ذَلِكَ مِنْ عَزْمِ الأُمُورِ

-Mallarınız və canlarınız barədə mütləq imtahan ediləcəksiniz və mütləq sizdən əvvəl (səmavi) kitab verilmiş şəxslərdən və həmçinin müşriklərdən (dinin və Peyğəmbərin inkarı və istehza olunması, eləcə də insanların İslam əleyhinə təhrik olunmaları barəsində) çoxlu cansıxıcı sözlər eşidəcəksiniz. Əgər səbir və təqvaya yiyələnsəniz, bu (dözümlülük), həqiqətən, böyük və əhəmiyyətli işlərdəndir.

Bu ayənin nazilolma səbəbi belədir: Məkkədə müsəlmanlar üçün yaşamaq çətin oldu. Məkkədə müsəlmanları işgəncələrə məruz qoymuşdular. Hər bir kəs Peyğəmbərə(s) iman gətirsəydi, onun malını əlindən alıb özünə də işgəncə verirdilər. Orada qalmaq mümkün olmadığı üçün müsəlmanlar Peyğəmbərlə(s) birgə Mədinəyə hicrət etdilər. Müşriklər onların Məkkədəki evlərinə də tamah göstərdilər. Mədinəyə gələrkən onların əlində heç bir mal-dövlət qalmamışdı. Məkkədə müşriklər müsəlmanların əleyhinə pis sözlər danışmağa başladılar. Onlar təhqiramiz sözlərlə Mədinədə yaşayan müşrikləri müsəlmanlara qarşı qıcıqlandırırdılar. Hətta müsəlmanların əleyhinə şeirlər də oxuyurdular. Müsəlmanlar belə bir vəziyyətə düşdükdə Allah-təala "Ali-İmran" surəsinin 186-cı ayəsini nazil edərək müsəlmanlara təsəlli verərək bu vəziyyətdən çıxış yolunu göstərdi: "Mallarınız və canlarınız barədə mütləq imtahan ediləcəksiniz və mütləq sizdən əvvəl (səmavi)

kitab verilmiş şəxslərdən və həmçinin müşriklərdən (dinin və Peyğəmbərin inkarı və istehza olunması, eləcə də insanların İslam əleyhinə təhrik olunmaları barəsində) çoxlu cansıxıcı sözlər eşidəcəksiniz. Əgər səbir və təqvaya yiyələnsəniz, bu (dözümlülük), həqiqətən, böyük və əhəmiyyətli işlərdəndir."

Bu ayədə açıq-aydın şəkildə görürük ki, hər kəs səbirli olub təqvaya riayət etsə, düşmənlər etdikləri əməllərindən heç bir nəticəyə gələ bilməyəcəklər. Əsl nəticə müsəlmanlarındır ki, məqsədə doğru hərəkət edir və Allaha yaxınlaşırlar. Düşmənin əlindən isə bir neçə bağı yandırmaq, evləri xaraba qoymaqdan başqa bir şey gəlmir. Tutaq ki, onlar müsəlmanların evlərini əllərindən alıb özləri orada yaşayırlar. Amma onların bütün bu işlərinin sonu uğursuzluqla, yəni Allahın qəzəbi və cəhənnəm atəşi ilə nəticələnəcəkdir. Quranın ayələrinə əsasən onların özləri cəhənnəm atəşinin odunları olacaqlar. Möminlər səbir edib təqvalı olduqda isə onların şərindən amanda qalıb izzətə, şərafətə, xoşbəxtliyə və Allahın mərhəmətinə çatacaqlar.

İnsan təqvanın vasitəsilə kafirlərdən uzaqlaşır. Bir zamanlar başlarının ağası kafirlər olan insan təqvalı oduqdan sonra daha onun başının ağası kafirlər yox, Allah olacaq. Həmçinin insan qarşısına qoyduğu məqsədə təqvanın vasitəsilə çata bilər. Allah-təala "Əhzab" surəsinin 1-ci ayəsində Peyğəmbərə(s) xitab edərək bütün müsəlmanlara belə buyurur:

يَا أَيُّهَا النَّبِيُّ اتَّقِ اللَّهَ وَلَا تُطِعِ الْكَافِرِينَ وَالْمُنَافِقِينَ إِنَّ اللَّهَ كَانَ عَلِيمًا حَكِيمًا

-Ya Peyğəmbər, Allahdan qorx, kafirlərə və münafiqlərə itaət etmə, çünki Allah daim (işlərin məsləhətlərini) biləndir və (onların icrasında) hikmət (diqqət və möhkəmlik) sahibidir.

Bundan əlavə, Quran ayələrində təqvada bir-birinə kömək etməyi möminlərə vacib buyurulmuşdur. Allah-təala “Maidə” surəsinin 2-ci ayəsində belə buyurur:

وَتَعَاوَنُواْ عَلَى الْبرِّ وَالتَّقْوَى وَلاَ تَعَاوَنُواْ عَلَى الإِثْمِ وَالْعُدْوَانِ وَاتَّقُواْ اللّهَ إِنَّ اللّهَ شَدِيدُ الْعِقَابِ

-Bütün xeyir iş(lərdə) və təqvada bir-birinizə kömək edin, günah və həddi aşmaqda bir-birinizləköməkləşməyin. Allahdan qorxun ki, həqiqətən, Allah ağır cəzalandırandır.

Bu ayədə Allah-təala möminlərə təqva işlərində bir-birinə kömək etməyi vacib buyurur. Hər yerdə hər bir işin təməli təqva əsasında qurulursa ona uzaqdan və yaxundan, sözlə, mal ilə, canla və s. kömək olunmalıdır. Bu yolda insan əlindən gələni əsirgəməməlidir. Həmçinin günah işlərdə heç bir kəsə kömək etmək olmaz. Belə olduqda qoy günahkarlar və kafirlər müsəlmanlara arxalanıb cəsarətlənməsinlər. Heç bir müsəlman günah işlərə zərrə qədər də olsun kömək etməməlidir.

**2. Təqva qələbəyə və iki dünya xoşbəxtliyinə səbəbdir**

Təqvanın fayda və nəticələrindən biri budur ki, təqva insanın qələbəsinə və iki dünya xoşbəxtliyinə səbəb olur. Birinci nəticədə qeyd olundu ki, təqva insanı düşmənlərin şərindən saxlayır. İkinci nəticədə isə təqva insanın onlara olan qələbəsinə və xoşbəxtliyinə səbəb

olar. Dünyada elə bir insan yoxdur ki, xoşbəxtlik arzusunda olmasın. Hər bir insan xoşbəxtliyi bir şeydə görür. Adam var ki, xoşbəxtliyi övladlarında görür. Adam var ki, xoşbəxtliyi sevdiyi insanla ailə qurmaqda görür. Bəzi insanlar xoşbəxtliyi var-dövlətdə, vəzifədə, gününü xoş keçirməkdə görürlər. Həmçinin insanlar da vardır ki, hər biri xoşbəxtliyi bir şeydə görür. Amma insanların özləri üçün düşündükləri bu xoşbəxtliklərin heç birinin axırı yoxdur. Sayılan bu xoşbəxtliklərin hamısının axırı torpaqdır. İnsan bu dünyada öz istədiyi xoşbəxtliklərin hamısını görsə belə, axırda onu torpağa tapşıracaqlar. Yəni bu xoşbəxtliklərin hamısı nəticəsiz qalır. Amma insana pərdənin arxasında olan, dünyadan getdikdən sonra ona lazım olan xoşbəxtlik lazımdır. Xoşbəxtlik odur ki, insan bu dünyada yeyib içsin, amma qiyamət günü yedikləri  burnundan tökülməsin. Bir zaman adamın burnundan töküləcək yeyib-içmək xoşbəxtlik sayıla bilməz. Xoşbəxtlik odur ki, insanı əbədi yaşatsın. Xoşbəxtlik odur ki, insan əbədiyyətə qovuşsun və həmin əbədiyyətin içində səadətlə yaşasın. Əgər bu dünyada ürəyi istədiyi xoşbəxtliyə çatıbsa və dünyadan gedəndən sonra cəhənnəm odunda yanacaqsa, buna xoşbəxtlik demək olmaz. Buna görə də insan başına çarə qılmalı, əbədi xoşbəxtliyin yolunu tapmalıdır. Bu yolu da Allah-təala bəndələrinə öyrətmişdir. Əgər insan təqvalı olsa, bu təqva onu xoşbəxt edər. "Əhzab" surəsinin 70-71-ci ayələrində belə buyurulur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَقُولُوا قَوْلًا سَدِيدًا. يُصْلِحْ لَكُمْ أَعْمَالَكُمْ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ

-Ey iman gətirənlər, təqvalı olun, doğru və möhkəm söz danışın! (Əgər belə etsəniz) Allah sizin əməllərinizi islah edər və günahlarınızı bağışlayar.

Sual oluna bilər ki, nə üçün Allah-təala təqvadan sonra möminlərə möhkəm və məntiqli sözlər danışmağı əmr edir? Cavab olaraq deyə bilərik ki, bu ayə 69-cu ayədən sonra gəlir. Allah-təala buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَكُونُوا كَالَّذِينَ آذَوْا مُوسَى فَبَرَّأَهُ اللَّهُ مِمَّا قَالُوا وَكَانَ عِندَ اللَّهِ وَجِيهًا

-Ey iman gətirənlər, (Peyğəmbərin barəsində) Musanı incidənlər kimi olmayın! Allah onu (Musanı) onların dediklərindən təmizə çıxartdı və o, Allahın yanında çox abırlı idi.

Musanın ümməti onun adına hər gün bir söz düzüb qoşurdular. Günlərin birində Həzrət Musa qardaşı Harunla dağa getmişdi. Harunun əcəli orada çatdı və dünyasını dəyişdi. Hamı bu məsələdən agah olduqdan sonra bəzi münafiqlər belə şayiə yaymağa başladılar ki, Harun Musaya sərf etmədiyi üçün Musa onu dağa aparıb öldürdü.

Qarun Musanın(ə) qohumu idi. Allah-təala ona çoxlu mal-dövlət və xəzinələr vermişdi. Onunla Musanın(ə) heç bir münaqişəsi yox idi. Zəkat ayəsi nazil olduqdan sonra Musa(ə) onu başa saldı ki, Allah zəkatı vacib edib və sən də malının zəkatını verməlisən. O zamanın zəkatı indiki kimi deyildi. Müəyyən şeylərin mində bir hissəsini Allah yolunda zəkat verirdilər. Qarun əvvəl razılaşdı və evə gedib bu haqda fikirləşməyə başladı. Şeytan onun qəlbinə girib yolundan döndərdi və o, fikrindən daşındı. Səhər açıldıqda camaatı ətrafına

yığıb dedi: “Camaat, Musa(ə) bizi bütpərəstlikdən çəkindirdi, biz də çəkindik. Bizə namaz qılmağı əmr etdi, biz də qıldıq. Bir sözlə, o, bizə hər nə dedisə, biz onun sözünə qulaq asdıq. İndi də bizim malımızı əlimizdən almaq üçün plan qurub.”

Beləcə, Qarun camaatın Musaya(ə) olan münasibətini dəyişdirdi. Camaat dedi: “Bəs, onda biz nə edək? Qarun dedi: Siz gedib filan (əxlaqsız) qadını tapıb yanıma gətirin. Qalan işləri mən özüm qaydasına qoyacağam.” Onlar gedib həmin qadını gətirdilər. Qarun ona çoxlu pul verib dedi: Mənə sənin şahidliyin lazımdır. Lazım olan vaxt səni çağırıb Musanın səninlə zina etdiyini soruşduqda mənim sözümü təsdiqləyəcəksən. Qadın razılaşıb getdi.

Günlərin birində Musa(ə) camaata Allahın nazil etdiyi ayələri oxuyurdu. Oğurluğun və zinakarlığın hökmlərini oxuyarkən Qarun ayağa qalxıb dedi: “Ya Musa, sənin söylədiyin bu hökmlər yalnız camaata aiddir, yoxsa sənin özünə də şamil olmalıdır? Musa Peyğəmbər(ə) dedi: Allahın hökmü hamı üçündür. Onun hökmlərində ayrı-seçkilik olmaz. Qarun dedi: Camaat arasında söz gəzir ki, sən filan qadınla zina etmisən. Musa(ə) dedi: Pənah aparıram Allaha ki, mən heç bir vaxt zina etməmişəm. Qarun dedi: Həmin qadın özü də sənin onunla zina etdiyini iddia edir. Musa(ə) dedi: O qadını tapıb gətirin.”

Qadını gətirdikdən sonra Musa Peyğəmbər(ə) ondan soruşdu: “Mən səninlə nə vaxtsa zina etmişəmmi? Qadın bir az fikirləşib dedi: Ya Musa, mən bilirəm ki, sən təmiz bir insansan. Qarun məni çağırıb sənin üzünə dayanıb yalandan şahid olmağım üçün pul verib. Bu işi görmək

üçün məni öyrətmişdilər. Mən nə qədər pis insan olsam da, Allahın Peyğəmbərinə(ə) belə bir şər atmaram. Mən düzünü deyəcəyəm. Sən çox təmiz və nəcib insansan. Heç vaxt mənimlə zina etməmisən.” Musa Peyğəmbər(ə) bu sözlərdən sonra səcdəyə düşüb Allaha şükür etdi və dedi: “İlahi, çox şükürlər olsun sənə ki, Sən mənim abrımı qorudun. Bunlar məni bədnam etmək istəyirdilər. Sən buna imkan vermədin.”

Bundan əlavə, Həzrət Musaya(ə) sehrkar və cadugər da dedilər, amma Allah-təala ona möcüzə göndərməklə hamıya düzgün olduğunu sübut etdi. Bir sözlə desək, hər bir çətinlikdə Allah-təala Musanı(ə) onların dediklərindən təmizə çıxartdı. Həzrət Musa(ə) Allahın yanında çox abırlı idi. Bu ayədən sonra Allah-təala bir daha möminlərə xitab edərək buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَقُولُوا قَوْلًا سَدِيدًا. يُصْلِحْ لَكُمْ أَعْمَالَكُمْ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ

-Ey iman gətirənlər, təqvalı olun, doğru və möhkəm söz danışın! (Əgər belə etsəniz) Allah sizin əməllərinizi islah edər və günahlarınızı bağışlayar.

Bu ayədən başa düşürük ki, hər kəsin Allah yanında əzəmət və etibarı olsa, Allah-təala həmin şəxsi tək qoymaz və hər bir yerdə onu müdafiə edər. Necə ki, tarix boyu Allahın müdafiə etdiyi insanların şahidi olmuşuq. Həzrət Yusifin əhvalatına diqqət yetirdikdə görürük ki, Allah-təala onu da təmizə çıxarıb paklığını hamıya sübut etdi. Züleyxa onun üçün tələ qurmuşdu. Yusifi onun tələsindən qurtardı. Amma hamının bu hadisədən xəbəri oldu. Züleyxa işlərin bu yerdə olduğunu görüb özünü təmizə çıxarmaq üçün Yusifə şər atdı. Əgər Allah Yusifi

orada müdafiə etməsəydi, beşikdə körpə uşağın dilini açıb danışdırmasaydı, kim onun sözlərinə inanardı? Yusif o sarayda nökər, Züleyxa isə oranın xanımı idi. Əgər Allah Yusifin təmiz olduğunu ortaya çıxarmasaydı, kim Züleyxanın sözlərini kənara qoyub onun sözlərinə inanacaqdı?

Həmçinin camaat Həzrət Məryəm(s.ə) barəsində də nalayiq sözlər söylədilər. Onun bir gecənin içində hamilə olub uşaq dünyaya gətirməsinə heç bir kəs inanmadı və ona zinakarlıq ittihamı vurdular. Əgər Allah-təala Həzrət İsanı(ə) beşikdə dilə gətirməsəydi və Məryəmin(s.ə) paklığını sübut etməsəydi, kim Məryəmin(s.ə) sözlərinə inanacaqdı.

Görürük ki, heç bir vaxt Allah-təala mömin bəndələrini Onun yolunda çəkdikləri zəhmətlərinə görə düşmənlərin dedi-qoduları qarşısında özbaşına buraxmaz. Allah həmişə xalis və təqvalı bəndələrini müdafiə edir.

Abbasilərin xilafəti dövründə Əhməd ibn Abdullah Xaqani Qum şəhərinə vali təyin olmuşdu. Onun atası Bağdadın hakimi idi. İmam Həsən Əskəri(ə) şəhid olduqdan sonra Cəfər Kəzzab adlı bir nəfər özünü imam kimi camaata təqdim etmək istəyirdi. Bu işi görmək üçün müxtəlif yollara əl atırdı.

Bir gün Əhməd ibn Abdullahdan Cəfər Kəzzabla əlaqədar soruşdular. Əhməd dedi: “Atamdan onun barəsində bir söz eşitmişəm. Bir gün atam dedi ki, mən bu Cəfərdən axmaq adam görməmişəm. Səbəbini soruşduqda dedi: İmam Həsən Əskəri(ə) dünyadan gedəndən sonra Cəfər gəlib mənə dedi: Nə qədər pul istəsən sənə verərəm. Bircə kəlmə camaata məni imam kimi təqdim et. Mən ona dedim: Sən necə də axmaq

adamsan. Biz dünyanın pulunu xərcləməklə istədik ki, camaat İmam Həsən Əskəriyə(ə) imam deməsinlər. Amma camaat onu özlərinə imam bildilər. Sən isə pul verməklə özünü imam kimi göstərmək və camaatın sənə imam demələrini istəyirsən?”

Belə işləri pul, qüdrət, hay-küy, camaatı qorxu altında saxlamaqla beş-on gün görmək olar. Əvvəl-axır haqq-həqiqət üzə çıxacaq. Günəş heç vaxt bulud arxasında qalmır. Düşmənlər istəsələr də, istəməsələr də Allahın iradəsi baş verəcəkdir. Buna görə də hər kəs qələbə çalmasını və Allahın onu müdafiə etməsini istəyirsə, təqvalı olmalıdır. “Nəhl” surəsinin 128-ci ayəsində oxuyuruq:

إِنَّ اللّهَ مَعَ الَّذِينَ اتَّقَواْ وَّالَّذِينَ هُم مُّحْسِنُونَ

-Şübhəsiz, Allah təqvalı olanlarla və yaxşı işlər görən kəslərlədir.

Bu ayə bizə onu göstərir ki, hər bir fərdi və ictimai məsələlərdə, hətta müharibələrdə belə təqvaya riayət olunmalıdır. Sual oluna bilər ki, müharibədə təqvalı olmaq nə deməkdir? Yəni insan müharibədə hansı işləri görsə, təqva hesab olunar? Bu sualın cavabı belədir:

1. Əsir və tutulanlarla İslam qaydasında rəftar etmək;
2. Yolunu azanlara (düşmənə) qarşı insaf və ədəbli olmaq;
3. Töhmət vurmamaq;
4. Müdafiəsizlərə hücum etməmək;
5. Uşaqlara qarşı amansız olmamaq;
6. Qocaları öldürməmək;
7. Qadınlara hücum etməmək;
8. Heyvanları yaralamamaq və öldürməmək;

9. Əkin-biçin yerlərinə ziyan vurmamaq;

10. Xəstələrə hücum etməmək;

11. Xəstəxanalara, elmi mərkəzlərə hücum etməmək;

12. Suyu düşmənin üzünə bağlamamaq.

Müharibə zamanı bütün bunlara riayət etmək təqvadır. Düşmənin təqvası olmasa da, mömin təqvalı olmalıdır. Allah təqvalı bəndəsini həmişə müdafiə edir. Allahın insanı müdafiə etməsi onun təqvasına bağlıdır. Əgər müharibədə insan təqvaya riayət etməsə, onda düşmənlə onun nə fərqi vardır?

Odur ki, əgər insanlar hər bir halda təqvaya riayət etsələr və bu yolda dözümlü olsalar, o zaman qələbə onlarladır.

Həmmam adlı bir mömin Həzrət Əlinin(ə) hüzuruna gəlib ərz etdi: “Ya Əmirəlmöminin, mənə təqvalı insanın xüsusiyyətlərini söylə. Həzrət Əli(ə) bilirdi ki, əgər təqvalıların sifət və əlamətlərini onun üçün saysa, ürəyi tab gətirməyəcək. Buna görə də onun üçün bu ayəni oxudu: “Allahdan qorx və yaxşı işlər gör ki, Allah pəhrizkarlar və yaxşı işlər görənlərlədir.”

Bu ayə təqvalı insanın bütün əlamətlərinin mündəricatıdır.

Həmmam bununla kifayətlənməyib israr etdi ki, Həzrət(ə) onun üçün bütün əlamətləri saysın. Çox isrardan sonra Həzrət Əli(ə) həmin əlamətləri saymağa başladı. Təxminən yüzdən artıq əlamət saymışdı ki, Həmmamın ürəyi tab gətirməyib günyasını dəyişdi.

Təqva insan üçün çox mühüm amildir. Hər bir alimdən moizə eşitmək istədikdə onların ilk sözü təqva barəsində olmuşdur. Təqva elə bir kəlmədir ki, Allah-

təala bütün Peyğəmbərlərə(s) bu kəlməni tövsiyə etmişdir.

**3. Təqva insanın bəsirətliliyinə səbəb olur**

Təqvanın insana olan faydalarından biri budur ki, təqva insanı bəsirətli edir. Belə insanın seçim qüvvəsi yaxşılaşır. "Ənfal" surəsinin 29-cu ayəsində buyurulur:

يِا أَيُّهَا الَّذِينَ آمَنُواْ إَن تَتَّقُواْ اللّهَ يَجْعَل لَّكُمْ فُرْقَاناً وَيُكَفِّرْ عَنكُمْ سَيِّئَاتِكُمْ وَيَغْفِرْ لَكُمْ وَاللّهُ ذُو الْفَضْلِ الْعَظِيمِ

-Ey iman gətirənlər, əgər təqvalı olsanız, O, sizə (haqla batili bir-birindən) ayırd edən bir qüvvə verər, sizin (kiçik) günahlarınızı təmizləyər və sizi(n böyük günahlarınızı) bağışlayar. Allah böyük lütf və ehsan sahibidir.

Bu ayədən əvvəlki ayələrdə İslam dininin qayda-qanunları haqda söhbət edilir və həmin qaydalara, əmrlərə əməl olunması vacib bir şərt kimi irəli sürülür. Bu qanunları sadaladıqdan sonra isə təqvadan söz açılır. Bu onu göstərir ki, İslamın qanunlarına yalnız təqva sayəsində riayət etmək olar. Buna görə də bu ayədə təqvanın əhəmiyyətinə işarə edilir. Həmçinin bu mübarək ayədə təqvanın dörd nəticəsi bəyan edilir:

1. Təqva insanda seçim qüvvəsi yaradır

Birinci nəticə budur ki, hər bir kəs təqvalı olsa, Allah-təala həmin şəxsə haqqı batildən ayırd etmək üçün seçim qüvvəsi bəxş edər. Belə olduqda insanın bəsirəti çoxalar və haqqı batildən, pisi yaxşıdan ayıra bilər.

إَن تَتَّقُواْ اللّهَ يَجْعَل لَّكُمْ فُرْقَاناً

-Əgər təqvalı olsanız, O, sizə (haqla batili bir-birindən) ayırd edən bir qüvvə verər.

Ayədə işlənmiş "Furqan" kəlməsi haqqı batildən gözəl şəkildə ayırmaq mənasını ifadə edir.

Burada bir neçə mətləbi nəzərinizə çatdırıram. Həmin mətləblərdən biri budur ki, İnsanın haqqa doğru hərəkət etdiyi yolun üzərində uçurumlar vardır ki, əgər insan yolu yaxşı görməsə, həmin uçurumlara düşəcək. Buna görə də məqsədə və haqqa doğru hərəkət edən insana haqqı batildən, pisi yaxşıdan, dostu düşməndən, faydalını ziyanlıdan, xoşbəxtliyi bədbəxtlikdən ayırmaq üçün bir qüvvə lazımdır. Əgər insan bunları bir-birindən ayırd edib onları tanıya bilsə məqsədə və haqqa çatması da bir o qədər asan olar. İnsan üçün ən böyük çətinlik budur ki, bəzən insan elə bir xataya yol verir ki, batili haqqın, düşməni dostun, əyri yolu düz yolun yerinə seçir. Belə bir xataya düşməmək üçün insanda nuraniyyət və dərketmə o qədər güclü və düzgün olmalıdır ki, haqqı batildən ayırd edə bilsin. Belə bir nuraniyyət və düzgün seçim isə təqvanın bəhrəsidir. Yəni insan bu seçimi və bəsirəti yalnız təqva vasitəsilə əldə edə bilər. "Bəqərə" surəsinin 282-ci ayəsində buyurulur:

وَاتَّقُواْ اللّهَ وَيُعَلِّمُكُمُ اللّهُ

-Təqvalı olun! Allah sizi öyrədir (və məlumatlandırır).

Əgər insan təqvalı olsa, Allah-təala həmin şəxsin qəlbini nurani edər və belə olduqda insan hər bir şeyə Allahın bəxş etdiyi nur və bəsirətlə baxar. Hədislərdə bu barədə belə buyurulur:

اَلْمُؤْمِنُ يَنْظُرُ بِنُورِ اللَّهِ

-Mömin insan Allahın nuru ilə baxar.

اَلعِلمُ نُورٌ يَقذِفَهُ اللهُ فِى قَلب مَن يَشاء

-Elm bir nurdur ki, Allah onu istədiyi bəndəsinin qəlbinə salar.

İkinci mətləb təqvanın insanda nuraniyyət yaratmasıdır. Sual oluna bilər ki, təqva insanın ürəyində nuraniyyəti necə yaradır? Bu sualın cavabını bilmək üçün həmin mətləbə aid olan bir neçə incə məqama da diqqət yetirməliyik.

1) Birinci məqam budur ki, bütün həqiqətləri dərk etmək üçün insan ağlının hazırlıq və imkanları vardır. Amma hərislik, tamah, şəhvət, özünü bəyənmə, paxıllıq, mal-dövlətə, ailəyə, vəzifəyə məhəbbət kimi amillər insanın ağlının qarşısına pərdə çəkir. Məsələn, qatı tüstü və tozanaq insanın gözlərinin qarşısını aldığı kimi, insanda olan rəzil xüsusiyyətlər də qara tüstü kimi onun ağlının və gözünün qarşısını kəsir. Belə olduqda insan haqqın çöhrəsini görə bilmir. Şair demişkən:

حقیقت سرائی است آراسته    هوا و هوس گرد برخاسته

نبینی که جائی که برخاست گرد    نبیند نظر گر چه بینا است مرد

*-Bəzənmiş bir saraydır həqiqət,*
*Nəfsani hisslərsə toz-torpaq.*
*Görmürsənmi tozanaq baş verən yerdə,*
*Görən insanın gözlərinin qarşısı tutular.*

2) İkinci məqam budur ki, harada olmasından asılı olmayaraq, hər bir kəs kamalın haqqın nişanəsi olduğunu bilir. İnsan Allaha yaxınlaşdıqca ilahi kamalının nuru həmin şəxsdə əks olunur. Hər kəs ilahi kamala yaxınlaşdıqca bir o qədər də elm və mərifət əldə edir. Başqa sözlə desək, məsələn, insanın qəlbi güzgü, Allahın

vücudu isə günəşdir (nurdur). Güzgü pas atdıqda və üzərinə çirk yapışdıqda nur onun üzərində əks olunmur. Amma əgər güzgü tərtəmiz, şəffaf olsa, günəşin nurunu ətrafa yayaraq hər yeri işıqlandırar. Əgər güzgü günəşin nurunu ətrafa yaya bilmirsə, günəşdə problem yoxdur. Problem güzgüdədir ki, pas atdığına və ya çirkli olduğuna görə günün işığını özündə əks etdirə bilmir. Buna görə də əgər bir insanın qəlbi nurani olmursa, bu, onun qəlbinin problemidir. Çünki onun qəlbi günahlar və pis xüsusiyyətlər nəticəsində pas atmışdır.

3) Üçüncü məqam odur ki, təqva və həqiqətləri dərk etmək bir-birinə bağlı olan məsələlərdir. Məsələn, təqvası olmayan ailədə böyüyən uşaqlar mənəvi cəhətdən çirkli mühitə düşəcək, uşaqlıqdan fəsad işlərə adət edəcəklər. Belə olduqda gələcəkdə yaxşını pisdən, haqqı batildən ayırd etmək onlar üçün çətin olacaq.

Həmçinin təqvası olmayan bir cəmiyyətdə qəzetlər, radiolar, televiziyalar və jurnallar fəsad işlər yaymaqla məşğul olacaqlar. Belə olduqda cəmiyyətdə yaşayan insanlar üçün haqqı batildən ayırmaq müşkül bir məsələyə çevriləcək. Ona görə də bütün bu çətinliklərin kökü təqvasızlıqdan sərçeşmə alır. Odur ki, təqva insan və cəmiyyət üçün böyük əhəmiyyət kəsb edir. Bütün bu çaşqınlıq və çətinliklərin həllinin yolu təqvalı olmaqdadır.

Tarixdə elə böyük şəxsiyyətlərlə rastlaşırıq ki, təqva və nuraniyyət nəticəsində elə bir elm və mərifət əldə etmişlər ki, adi elmlərlə onları dərk etmək mümkün deyildir.

2-3. Təqva günahın örtülməsinə və insanın bağışlanmasına səbəb olur

Qeyd etdiyimiz ayədə Allah-təala iman gətirənlərə xitab edərək belə buyurur:

يِا أَيُّهَا الَّذِينَ آمَنُواْ إَن تَتَّقُواْ اللّهَ يَجْعَل لَّكُمْ فُرْقَاناً وَيُكَفِّرْ عَنكُمْ سَيِّئَاتِكُمْ وَيَغْفِرْ لَكُمْ وَاللّهُ ذُو الْفَضْلِ الْعَظِيمِ

-Ey iman gətirənlər, əgər təqvalı olsanız, O, sizə (haqla batili bir-birindən) ayırd edən bir qüvvə verər, sizin (kiçik) günahlarınızı təmizləyər və sizi(n böyük günahlarınızı) bağışlayar. Allah böyük lütf və ehsan sahibidir.

Bu ayəyə əsasən əgər insan təqvalı osa, Allah insana haqqı batildən ayırd etmək üçün seçim qüvvəsi verər. Yuxarıda bu barədə söhbət etdik. Ayədə olan ikinci nəticə budur ki, təqva günahların təmizlənməsinə və insanın bağışlanmasına səbəb olur. Bu ayədə “günahların təmizlənməsi” insanın dünyadakı günahlarının üzərinə pərdə salınmasına, “bağışlamaq” isə axirət cəzalarından azad olunmasına işarədir.

4.Təqva İlahi əcrin insana nəsib olmasına səbəbdir

Ayədə bəyan olunmuş təqvanın dördüncü nəticəsi Allahın lütf və yaxşılığının insana şamil olmasıdır. Yəni hər kəs təqvalı olsa, Allahın lütfünə qovuşacaq. “Təlaq” surəsinin 5-ci ayəsində oxuyuruq:

وَمَن يَتَّقِ اللَّهَ يُكَفِّرْ عَنْهُ سَيِّئَاتِهِ وَيُعْظِمْ لَهُ أَجْرًا

-Kim təqvalı olsa, Allah onun günahlarını örtər və mükafatını böyük edər.

Bu ayədə işlənmiş “günahlar” sözündə insanın kiçik günahlarına, “təqvalı olmaq” ifadəsində isə böyük günahlardan çəkinməyə işarə edilir. “Nisa” surəsinin 31-ci ayəsində belə buyurulur:

إِن تَجْتَنِبُواْ كَبَآئِرَ مَا تُنْهَوْنَ عَنْهُ نُكَفِّرْ عَنكُمْ سَيِّئَاتِكُمْ وَنُدْخِلْكُم مُّدْخَلاً كَرِيمًا

-Əgər siz qadağan olunmuş böyük günahlardan çəkinsəniz, Biz sizin kiçik günahlarınızı silər və sizi şərəfli bir yerə daxil edərik. (Günahların böyük və kiçik adlandırılmaları onların fərdi və ya ictimai fəsadlarına görədir. Amma əslində Allaha itaətsizlik olması baxımından götürüldükdə bütün günahlar böyükdür.)

Amma bizim barəsində söhbət etdiyimiz “Ənfal” surəsinin 29-cu ayəsində işlənmiş “سَيِّئَاتِ” -“günahlar” kəlməsi mütləq günahlara şamildir. Yəni istər böyük günahlar olsun, istərsə də kiçik günahlar. Necə ki, “Maidə” surəsinin 65-ci ayəsində oxuyuruq:

وَلَوْ أَنَّ أَهْلَ الْكِتَابِ آمَنُواْ وَاتَّقَوْاْ لَكَفَّرْنَا عَنْهُمْ سَيِّئَاتِهِمْ وَلأدْخَلْنَاهُمْ جَنَّاتِ النَّعِيمِ

-Əgər kitab əhli (İslama) iman gətirsəydi və təqvalı olsaydılar, şübhəsiz, onların günahlarını təmizləyər və onları neməti bol olan cənnətlərə daxil edərdik.

### 4.Allah təqvalı insanın işlərini asanlaşdırar

Təqvanın insana olan faydalarından biri işlərinin asanlaşmasıdır. Yəni hər kəs təqvalı olsa, Allah həmin

şəxsin işlərini asan edər. Necə ki, "Təlaq" surəsinin 4-cü ayəsində oxuyuruq:

وَمَن يَتَّقِ اللَّهَ يَجْعَل لَّهُ مِنْ أَمْرِهِ يُسْرًا

-Kim Allahdan qorxsa, Allah onun işlərini asan edər.

Ümumiyyətlə, təqvalı insan Allaha və məada olan etiqadına görə ağır və keçməkeşli işləri özünə çətin bilməz. Həyatın ən çətin və ağır işləri təqvalı insan üçün çox asan və sadə görünür. Bu əqidə insana bütün işlərində psixoloji və ruhi qüdrət bəxş edir. Həmçinin ruhani əlaqələrinə görə onun arxasında həmişə qeybdən gələn köməkliklər dayanır. Yəni təqvalı insan heç bir vaxt bu dünyanın çətinliklərini özünə dərd bilməz və Allahın daim ona yardımçı olduğunu görər.

Həzrət Peyğəmbər(s) şəban ayının axırında mübarək ramazan ayının gəlişi ilə əlaqədar olaraq bir xütbə oxudu. Xütbə sona çatdıqda Həzrət Əli(ə) ayağa qalxıb soruşdu:

فَقَالَ يَا عَلِيُّ أَبْكِي لِمَا يُسْتَحَلُّ مِنْكَ فِي هَذَا الشَّهْرِ كَأَنِّي بِكَ وَ أَنْتَ تُصَلِّي لِرَبِّكَ وَ قَدِ انْبَعَثَ أَشْقَى الْأَوَّلِينَ وَ الْآخِرِينَ شَقِيقُ عَاقِرِ نَاقَةِ ثَمُودَ فَضَرَبَكَ ضَرْبَةً عَلَى قَرْنِكَ فَخَضَبَ مِنْهَا لِحْيَتَكَ. قَالَ أَمِيرُ الْمُؤْمِنِينَ (سلام الله عليه) قُلْتُ يَا رَسُولَ اللَّهِ وَ ذَلِكَ فِي سَلَامَةٍ مِنْ دِينِي؟. فَقَالَ: فِي سَلَامَةٍ مِنْ دِينِكَ

-Ya Rəsulallah, bu ayda ən gözəl əməl hansıdır? Həzrət(s) cavabımda buyurdu: "Ey Əbulhəsən, bu ayda ən gözəl əməl Allah-təalanın haram buyurduğu işlərdən uzaq olmaqdır." Bunu buyurub ağlamağa başladı. Soruşdum ki, ya Rəsulallah, sizi ağladan nədir?

Peyğəmbər(s) buyurdu: "Ya Əli, sənin bu ayda Allaha ibadət edərkən qanının axıdılacağına ağlayıram. İnsanların ən bədbəxti, hətta Səmud qövmünün (Saleh peyğəmbərin) dəvəsini öldürəndən də bədbəxt bir şəxs sənin başına zərbə endirəcək və sənin sifətin qanına bulaşacaq." Soruşdum ki, ya Rəsulallah, belə olan halda dinim salamat qalacaqmı? Peyğəmbər(s) buyurdu: Bəli, dinin salamat qalacaq."[1]

Həzrət Əli(ə) üçün bu dünyada başına gələcək müsibətlər deyil, dininin salamat qalması mühüm idi. Buna görə də Peyğəmbər(s) ona qılıncla zərbə aldıqdan sonra saqqalının al qana boyanacağını söylədikdə Əli(ə) narahat olmadı. Onu narahat edən ən mühüm məsələ dininin salamat qalması idi. Çünki o, elə bir şəxsiyyət idi ki, bu dünyaya və onda olan müsibətlərin hamısına uzaqdan baxır və onun üçün hər şey çox asan və kiçik görünürdü.

Həzrət Əliəkbər İmam Hüseynin(ə) böyük oğlu idi. O, Kərbəlada Bəni-Haşimin ilk şəhidi olmuşdu. Onun təxminən 27 yaşı var idi. Kərbəlaya hərəkət edərkən İmam(ə) ona buyurdu: "Bizim bu karvan ölümə doğru hərəkət edir. Əliəkbər atasından soruşdu: Ata can, indiki gedirik, haqq bizimlədirmi? İmam(ə) buyurdu: Əlbəttə ki, haqq bizimlədir. Əliəkbər dedi: Ata, haqq bizimlədirsə, o zaman bizim ölümdən heç bir qorxu-qüssəmiz yoxdur."

---

[1] Üyuni əxbari-Riza,1-ci cild, səh.600.

**5. Təqva insanı şeytanın vəsvəsələrindən qoruyur**

Təqvanın faydalarından biri budur ki, həmişə insanı şeytanın vəsvəsələri qarşısında ayıq saxlayır. Şeytan bütün bəndələrin qəlbinə girərək və onları vəsvəsə edərək Allahın yolundan uzaqlaşdıracağını vəd etmişdir. Bu yolda həmişə çalışır və yorulmadan hər bir fürsətdən istifadə edib insanı yoldan çıxarmağa can atır. Amma əgər insan təqvalı olsa, şeytanın bu vəsvəsələrini başa düşər və ondan qorunar. "Əraf" surəsinin 201-ci ayəsində oxuyuruq:

إِنَّ الَّذِينَ اتَّقَواْ إِذَا مَسَّهُمْ طَائِفٌ مِّنَ الشَّيْطَانِ تَذَكَّرُواْ فَإِذَا هُم مُّبْصِرُونَ

-Şübhəsiz, təqvalı olanlara şeytandan bir vəsvəsə yetişsə, (ya qəlblərdə dolanan bir şeytan onların fikirlərinə zərər yetirsə, dərhal) (xatırlayıb) özlərinə gələr və onda gözüaçıq olarlar.

Ayədə işlənmiş "Taif" kəlməsinin mənası "təvaf edən" deməkdir. Deyirlər ki, şeytan təvaf edənlər kimi həmişə insanın qəlbinin və fikrinin ətrafına təvaf edib dolanaraq ona nüfuz etmək üçün bir yol axtarır. Kiçik bir boşluq görən kimi işə başlayır və insanı yoldan çıxarmağa çalışır. Şeytan çox hiyləgər olduğu üçün hər bir kəsin qəlbinə nüfuz edə bilir, amma yalnız təqvalılar onun vəsvəsələrindən nicat tapırlar.

"Əraf" surəsinin 199-cu ayəsində Allah-təala İslam Peyğəmbərinə(s) rəhbərliyin şərtlərini bəyan edərək buyurur:

خُذِ الْعَفْوَ وَأْمُرْ بِالْعُرْفِ وَأَعْرِضْ عَنِ الْجَاهِلِينَ

-Əfv və güzəşt yolunu tut, yaxşı işlər görməyi əmr et və nadanlardan üz döndər.

Bu ayədə Allah-təala üç mühüm məsələni, yəni güzəşt yolunu tutmağı, əmr be-məruf etməyi və nadanlardan üz döndərməyi Peyğəmbərə(s) təkid edir. Bunların hər birinin mənasına gəldikdə isə belədir: Camaatla güzəştli rəftar etmək odur ki, onlar bir xataya yol verdikdə üzrlərini qəbul etsin. Camaatı yaxşı işlərə dəvət etmək, yəni bu həmin əmr be mərufdur. Üçüncüsü isə nadan və cahil insanların cahilliklərinin, təhqirlərinin və s. qarşısında səbir etmək və onlara çox da baş qoşmamaq.

Bu ayə nazil olduqda Həzrət Peyğəmbər(s) cənab Cəbrayıldan(ə) soruşdu: “Camaatla güzəşt yolunu necə tutum?

Cəbrayıl(ə) ərz etdi: Bilmirəm. Bunu gərək biləndən (Allahdan) soruşaq. O, bu sualın cavabını Allahdan soruşduqdan sonra nazil olub ərz etdi:

يا مُحَمَّد إِنَّ اللهَ يَأْمُرُكَ أَنْ تَعفُوَ عَمَّنْ ظَلَمَكَ وَتُعطِي مَنْ حَرَمَكَ وَتَصِلَ مَنْ قَطَعَكَ

-Ey Məhəmməd(s), Allah sənə əmr verir ki, sənə zülm, əziyyət verəni bağışlamayasan. Səni məhrum edəni məhrum etməyəsən. (Yəni səni məhrum edən qapına bir şey üçün gəldikdə onu boş qaytarmayasan. Həmçinin səninlə əlaqəni kəsənə qarşı səmimiyyət göstərəsən.”[1]

Digər bir hədisdə isə belə nəql olunur ki, bu ayə nazil olduqdan sonra Peyğəmbər(s) Allaha ərz etdi:

[1] Təfsiri-nümunə,7-ci cild, səh.65.

“İlahi, cahil və nadanların qarşısında necə dözüm. Onlar Sənin dininə qarşı çox pis hərəkətlər edir və pis sözlər söyləyirlər. Buna görə də onların bu hərəkətləri məni qəzəbləndirir. Allah-təala “Əraf” surəsinin 200-cü ayəsini nazil etdi:

وَإِمَّا يَنزَغَنَّكَ مِنَ الشَّيْطَانِ نَزْغٌ فَاسْتَعِذْ بِاللّهِ إِنَّهُ سَمِيعٌ عَلِيمٌ

-Əgər şeytan tərəfindən təhrikedici bir vəsvəsə səni təhrik etsə, Allaha pənah apar, çünki O, eşidən və biləndir.

Yuxarıda qeyd etdiyimiz “Əraf” surəsinin 201-ci ayəsində şeytanın vəsvəsəsindən danışdıqdan sonra şeytanın vəsvəsələrinə qələbə çalmağın yolunu göstərərək buyurur ki, şübhəsiz, təqvalı olanlara şeytandan bir vəsvəsə yetişsə, (dərhal xatırlayıb yada salaraq) özlərinə gələr. Sual oluna bilər ki, şeytan təqvalı insanları vəsvəsə etdikdə onlar nəyi xatırlayıb bu vəsvəsələrdən qurtarırlar? Cavab belədir ki, şeytan təqvalı insanları vəsvəsə edib günaha sövq etdikdə, onlar dərhal Allahın nemətlərini, günahın acı nəticələrini və Allahın ağrılı əzabını yadlarına salarlar. Belə olduqda günahın qaranlıqları, şeytanın vəsvəsələri həmin şəxsin qəlbinin kənarından çəkilər.

Xəstəlik mikroblarının insan bədəninə hücum etdiyi kimi, şeytanın və nəfsin vəsvəsələri də eləcə insana hücum edir. Bədəni zəif olan insanlar həmin mikrobların qarşısında aciz qalır, müqaviməti güclü olan insanlar isə həmin mikrobları özlərindən uzaqlaşdırırlar. Eləcə də təqvalı insanlar Allahı daim yad edib xatırladıqları üçün şeytanı özlərindən uzaqlaşdıra və onun atdığı zəhərli oxlardan yayına bilirlər.

Ayənin axırında buyurulur ki, təqvalı insanlar Allahı xatırlayıb gözüaçıq olarlar. Yəni insan Allahı xatırladıqda gözləri açılar, ona həqiqətləri tanımaq qüdrəti verilər. Onlara elə bir gözüaçıqlıq verilər ki, bunun vasitəsilə şeytanın vəsvəsələrindən nicat taparlar.

İmam Hüseyn(ə) qarşısına qoyduğu məqsədi çox gözəl görürdü. Onun yolu çox aydın idi. Məkkədən hərəkət edərkən belə buyurdu:

كَأَنِّي بِأَوْصَالِي تَتَقَطَّعُهَا عُسْلاَنُ الْفَلَوَاتِ بَيْنَ النَّوَاوِيسِ وَكَرْبَلاَءَ؛ فَيَمْلاَنَ مِنِّي أَكْرَاشاً جُوفاً، وَأَجْرِبَةً سُغْباً

-Sanki baxıram və görürəm ki, Kərbəla və Nəvavis arasındakı səhranın ac qurdları mənim bədən üzvlərimin oynaqlarını tikə-tikə edir və öz ac qarınlarını mənim ətimlə doyuzdururlar.

Tarixə diqqət yetirdikdə bir çox insanların gözüaçıqlığının və uzaqgörənliyinin şahidi oluruq. Tarixdə təkcə Peyğəmbər(s) və məsum imamlar deyil, Rəcəb Əli Xəyyat kimi bəzi şəxsiyyətlər də təqva nəticəsində gözüaçıq və uzaqgörən olmuşlar. Nümunə üçün Rəcəb Əli Xəyyatın bir əhvalatına diqqət yetirək:

-Günlərin birində bir nəfər onun yanına gəlib uzun müddət övladı olmadığını söyləyir və ondan dua etməsini xahiş edir. Bir neçə gündən sonra Rəcəb Əli onu çağırıb deyir: İmam Rzadan istədim, o, qəbul etdi. Allah sənə iki oğlan övladı verəcək. Onların hər biri üçün bir inək qurban elə. Həmin kişi getdi və iki oğlu oldu. Onların biri üçün inək kəsdi, amma o biri üçün kəsmədi. İnək qurban etmədiyi oğlu sonradan dünyasını dəyişdi.

### 6. Təqva insanın Allaha yaxınlaşmasına səbəb olur

Təqvanın faydalarından biri odur ki, insanı Allaha yaxın edir. “Hucurat” surəsinin 13-cü ayəsində oxuyuruq:

إِنَّ أَكْرَمَكُمْ عِندَ اللَّهِ أَتْقَاكُمْ

-Həqiqətən, sizin Allah yanında ən hörmətliniz sizin ən pəhrizkarınızdır.

Burada çox yaxşı olar ki, bir mətləbi də əziz möminlərin diqqətinə çatdırım. Həmin mətləb budur ki, hər bir insan fitrətən dəyərli və hörmətli olmaq arzusundadır. Buna görə də düşündüyü dəyərlərə çatmaq üçün çalışır. Bəzi insanlar dəyər və qiyməti əsl-nəsəbdə və qəbilənin böyüklüyündə görürlər. Ona görə də öz qəbiləsini böyütmək üçün çalışır. Bəzi insanlar şərəfi, dəyər və qiyməti mal-dövlətdə görürlər. Ona görə də bu yolda əllərindən gələn qədər çalışırlar. Bəzi insanlar isə dəyər və qiyməti vəzifə və ictimai mənsəbdə axtarır, ona çatmaq üçün səy göstərirlər. Amma İslam dini insanın düzgün və həqiqi dəyərini zati sifətlərdə, yəni təqvada görür. Əgər insanda elm və mübarizə aparmaq kimi sifətlər varsa və bunlar Allaha xatirdirsə, o zaman qiyməti vardır. Məsələn, “Zumər” surəsinin 9-cu ayəsində oxuyuruq:

هَلْ يَسْتَوِي الَّذِينَ يَعْلَمُونَ وَالَّذِينَ لَا يَعْلَمُونَ

-Məgər bilənlərlə bilməyənlər birdirlər?

“Nisa” surəsinin 95-ci ayəsində belə buyurulur:

فَضَّلَ اللّهُ الْمُجَاهِدِينَ عَلَى الْقَاعِدِينَ أَجْرًا عَظِيمًا

-Allah cihad edənlərə (evdə) oturanlardan daha böyük mükafatla üstünlük əta etmişdir.

Bir daha qeyd edim ki, əgər insanda olan bu kimi xüsusiyyətlər Allaha xatir olsa, əcr və savabı vardır. İslam dini insanı qan, qəbilə, rəng, milliyyət, mal və məqamdan azad etmişdir. İslam dini insanı onun öz daxilinə həvalə etmiş, onun izzət və xoşbəxtliyini öz sifəti ilə hidayət etmişdir. Yəni insanın izzəti, şərafət və üstünlüyü onun qanında, qəbiləsində, rəng və mənsubiyyətində deyil, onun zati sifətlərindən asılıdır. Deməli, hər bir kəsin daxili gözəldirsə, təqvası çoxdursa, bu insanın şərafət və dəyəri də çoxdur. Əvvəl qeyd etdiyimiz ayənin nazilolma səbəbi belədir:

-Məkkəni fəth edəndən sonra Həzrət Peyğəmbər(s) Bilal Həbəşiyə azan vermək üçün Kəbənin üstünə çıxmaq göstərişi verdi. Bilal qaradərili bir zənci idi. Onun dilində qüsur var idi. O, "ş" hərfini tələffüz edə bilmirdi, əvəzində "s" hərfini deyirdi. O, Kəbənin üstünə çıxıb azan verəndən sonra bəzi müxalif insanlar pıçıldaşmağa başladılar. Onlar bir-birinə bildirirdilər ki, ağdərili adamlar qala-qala, səsi gözəl insanlar ola-ola, nədən Peyğəmbər(s) bunu azan verməkdən ötrü Kəbənin üstünə çıxardıb? Buna müxalif olanlardan biri də Əttab ibn Əsid idi. Onun imanı zəif idi və bunu görəndə öz-özünə danışmağa başladı və dedi: "Ş" hərfini düzgün tələffüz edənlər burada ola-ola  Peyğəmbər(s) nəyə görə pəltək zəncini azan vermək üçün Kəbə evinin üstünə çıxarıb? Şükür olsun ki, ata-babam öldü, amma bu günü görmədilər."

Etiraz edənlərdən biri də Haris ibn Hüşam idi. O da bu hadisəni görəndə hörmətsizlik edərək dedi: "Bu qara qarğadan savayı bir adam yox idi ki, Peyğəmbər(s) onu

Kəbənin üstünə çıxarsın?" O, bu sözləri ətrafında olan adamlara eşitdirirdi.

Allah-təala elə oradaca həmin bu ayəni nazil etdi:

يَا أَيُّهَا النَّاسُ إِنَّا خَلَقْنَاكُم مِّن ذَكَرٍ وَأُنثَى وَجَعَلْنَاكُمْ شُعُوبًا وَقَبَائِلَ لِتَعَارَفُوا إِنَّ أَكْرَمَكُمْ عِندَ اللَّهِ أَتْقَاكُمْ إِنَّ اللَّهَ عَلِيمٌ خَبِيرٌ

-Ey insanlar! Şübhəsiz, Biz sizin hamınızı bir kişi və qadından (Adəm ilə Həvvadan) yaratdıq (və ya sizin hər birinizi bir ata və anadan yaratdıq) və sizi bir-birinizi tanıyasınız deyə böyük və kiçik qəbilələr etdik. (Odur ki, sizin aranızda irqi üstünlük yoxdur.) Həqiqətən, sizin Allah yanında ən hörmətliniz sizin ən pərhizkarınızdır. Həqiqətən, Allah çox bilən və xəbərdardır.

Günlərin birində Həzrət Peyğəmbər(s) Məkkədə camaat üçün belə bir xütbə oxudu:

يَا أَيُّهَا النَّاسُ إِنَّ اللَّهَ قَدْ أَذْهَبَ عَنْكُمْ عُبِّيَّةَ الْجَاهِلِيَّةِ وَتَعَاظُمَهَا بِآبَائِهَا، فَالنَّاسُ رَجُلَانِ: بَرٌّ تَقِيٌّ كَرِيمٌ عَلَى اللَّهِ، وَفَاجِرٌ شَقِيٌّ هَيِّنٌ عَلَى اللَّهِ، وَالنَّاسُ بَنُو آدَمَ وَخَلَقَ اللَّهُ آدَمَ مِنْ تُرَابٍ. قَالَ اللَّهُ: "يَا أَيُّهَا النَّاسُ إِنَّا خَلَقْنَاكُمْ مِنْ ذَكَرٍ وَأُنْثَى وَجَعَلْنَاكُمْ شُعُوبًا وَقَبَائِلَ لِتَعَارَفُوا إِنَّ أَكْرَمَكُمْ عِنْدَ اللَّهِ أَتْقَاكُمْ إِنَّ اللَّهَ عَلِيمٌ خَبِيرٌ"

-Ey camaat! Allah-təala sizdən cahillik eyiblərinizi (ata-babalarınızla fəxr etməyi) uzaq edib. İnsanlar iki dəstədən ibarətdir. Birinci dəstə insanlar Allah yanında yaxşı, təqvalı və qiymətli insanlardır. İkinci dəstəsi isə Allah yanında pis, bədbəxt və alçaq insanlardır. Bütün insanlar Adəmin övladlarıdır və Allah onu torpaqdan yaratmışdır. Necə ki, Allah buyurur: "Ey insanlar!

Şübhəsiz, Biz sizin hamınızı bir kişi və qadından yaratdıq və sizi bir-birinizi tanıyasınız deyə böyük və kiçik qəbilələr etdik. (Odur ki, sizin aranızda irqi üstünlük yoxdur.) Həqiqətən, sizin Allah yanında ən hörmətliniz sizin ən pərhizkarınızdır. Həqiqətən, Allah çox bilən və xəbərdardır.”[1]

Həzrət Peyğəmbər(s) zilhiccə ayında Minada camaata xitab edərək belə bir xütbə oxudu:

أَيُّهَا النَّاسُ اَلا اِنّ رَبَّكُم واحِد وَ اِنَّ آباكُمْ وَاحِد اَلا لا فَضْلَ لِعَرَبِيٍّ عَلى عَجَمِيٍّ وَلا لِعَجَمِيٍّ عَلى عَرَبِيٍّ وَلا لِأَ سْوَدٍ عَلى أَحْمَرَ وَلا لِأَحْمَر عَلى أَسْوَد اِلاّ بِالتَّقْوى. إِنَّ أَكْرَمَكُمْ عِندَ اللَّهِ أَتْقَاكُمْ. اَلا هَلْ بَلَّغْتُ؟ قالو: نَعَم قال: فَلِيُبَلِّغ الشّاهِدُ الْغائِبَ

-Camaat! Diqqət edin! Həqiqətən, sizin Allahınız birdir. Və sizin atanız da birdir (Adəmdir.) Heç bir ərəbin əcəmdən (qeyri-ərəb) və heç bir əcəmin (qeyri-ərəb) də ərəbdən bir üstünlüyü yoxdur. Və qaradərili insanların qırmızıdərili, eləcə də qırmızıdərili insanların qaradərili insanlardan heç bir üstünlüyü yoxdur. Yalnız təqvadan başqa. Həqiqətən, sizin Allah yanında ən hörmətliniz sizin ən pərhizkarınızdır

Diqqət edin! Mənim bu sözlərim sizə çatdımı? Dedilər: Bəli, ya Rəsulallah. Sonra Həzrət(s) buyurdu: “Elə isə burada olanlar sözlərimi burada olmayanlara çatdırsınlar!” [2]

---

[1] Təfsiri-nümunə,22-ci cild, səh.200.
[2] Təfsiri-nümunə, 22-ci cild, səh.20١.

Başqa bir hədisdə Həzrət Peyğəmbər(s) buyurur:

إِنَّ اللهَ لا يَنظُرُ اِلى اَحْسابِكُم وَلا اِلى اَنْسابِكُم وَلا اِلى اَجْسادِكُم وَلا اِلى اَمْوالِكُم وَلكِن يَنْظُرُ اِلى قُلُوبِكُم فَمَن كانَ لَه قَلْبٌ صالِحٌ تَحَنَّنَ اللهُ عَلَيه وَ اِنَّما اَنْتُم بَنُو آدَم أَحَبُّكُم اِليهِ اَتْقاكُم

-Allah-təala sizin həsəbinizə, nəsəbinizə, bədəninizə və mal-dövlətinizə baxmır. Əksinə Allah sizin qəlblərinizə nəzər edir. Hər kimin qəlbi salehdirsə (imanı çoxdursa, nuraniyyəti və təqvası varsa) Allah həmin şəxsə mərhəmət göstərər. Sizin hamınız Adəmin övladlarısınız. Allah yanında ən sevimliniz təqvalı olanınızdır.[1]

Günlərin birində Salman Farsi Məscidün-nəbiyyə daxil oldu. Camaat onun ağ saqqalına və Peyğəmbərin(s) yanında olan şərafətinə xatir ehtiram göstərərək ona məclisin yuxarı başında yer verdilər. Ömər ibn Xəttab məscidə daxil olduqda onu görüb dedi: “Ərəblərin içərisində yuxarı başda oturan bu əcəm kimdir?”

Həzrət Peyğəmbər(s) minbərə qalxıb buyurdu:

إِنَّ النَّاسَ مِنْ عَهْدِ آدَمَ إِلى يَوْمِنَا هَذَا مَثَلُ أَسْنَانِ الْمُشْطِ لا فَضْلَ لِلْعَرَبِيِّ عَلى الْعَجَمِيِّ وَ لا للأَحْمَر عَلى الأَسْوَدِ إِلاَّ بِالتَّقْوى.

-Həqiqətən, Adəmin zamanından bu günə kimi bütün insanlar darağın dişləri kimi bərabərdir. Heç bir ərəbin əcəmdən (qeyri-ərəb) və heç bir qırmızıdərili

---

[1] Yenə orada, səh.20١

insanın qaradərili insandan üstünlüyü yoxdur. Yalnız təqvadan başqa.[1]

[1] Mizanül-hikmə,14-cü cild, hədis-22399.

## Təqvanın şərafəti

Həm Quran ayələrində, həm də hədislərdə təqvanın şərafətinə çox rast gəlmək olur. Təqva insan və cəmiyyət üçün ən mühüm yerdə dayanır. Təqvanın şərafət və fəziləti barədə olan ayə və hədislərdən bir neçəsini diqqətinizə çatdırıram.

قَالَ رَسُولُ اللهِ(ص): شَرَفُ الدُّنيَا اَلغِنَی وَ شَرَفُ الآخِرَةِ اَلتَّقوَی

-Həzrət Peyğəmbər(s) buyurur: "Dünyanın şərafəti mal-dövlət, axirətin şərafəti isə təqvadır."[1]

قَالَ عَلِیٌّ(ع): اَلتَّقوَی ظَاهِرُهُ شَرَفُ الدُّنيَا وَ بَاطِنُهُ شَرَفُ الآخِرَةِ

-Həzrət Əli(ə) buyurur: "Təqvanın zahiri bu dünyanın, batini isə axirətin şərafətidir."[2]

"Bəqərə" surəsinin 197-ci ayəsində belə buyurulur:

وَتَزَوَّدُواْ فَإِنَّ خَيْرَ الزَّادِ التَّقْوَى

-Özünüz üçün azuqə götürün ki, ən yaxşı azuqə təqvadır.

"Əraf" surəsinin 26-cı ayəsində oxuyuruq:

وَلِبَاسُ التَّقْوَىَ ذَلِكَ خَيْرٌ

-Əlbəttə, təqva libası daha yaxşıdır

"Muddəssir" surəsinin 56-cı ayəsində belə buyurulur:

هُوَ أَهْلُ التَّقْوَى وَأَهْلُ الْمَغْفِرَةِ

-O, təqva və məğfirət əhlidir.

---

[1] Yenə orada, hədis-22404.
[2] Yenə orada, hədis-22405.

## Allah-təala təqvanın yollarını insana öyrədir

Quran ayələrinə diqqət yetirdikdə görürük ki, Allah-təala təqvanın yollarını insanlara öyrədir. “Şəms” surəsində olan andlardan biri belədir:

فَأَلْهَمَهَا فُجُورَهَا وَتَقْوَاهَا

Sonra da ona günahlarını və təqvalı olmağı öyrədənə.

Bu ayədən açıq-aydın görürük ki, təqvalı olmağın yollarını Allah-təala bizə öyrədir. “Tövbə” surəsinin 108-ci ayəsində və onun nazilolma səbəbində də bu məsələnin şahidi oluruq. Bu ayənin nazilolma səbəbi belədir:

-Həzrət Peyğəmbər(s) Mədinə şəhərinə hicrət etdikdən sonra şəhərin girişində bir məscid tikdirdi. Onun adı Quba məscididir ki, həcc ziyarətinə gedənlər həmin məscidi də ziyarət edirlər. Həzrət Peyğəmbər(s) həmin məscidi möminlərlə köməkləşərək bir neçə günə tikib başa çatdırdılar. Məscid təqva əsasında tikilib hazır edildi. Lakin münafiqlər bu məscidi hörmətdən salmaq və özlərinə bir mərkəz yaratmaq üçün digə tərəfdə başqa bir məscid tikdilər. Münafiqlər həmişə bu cür hiylələrdən istifadə etməyə çalışmışlar. Odur ki, onlar həmin məscidi tikməklə oyun oynamaq istədilər. Xüsusilə Peyğəmbəri(s) həmin məscidə dəvət etməkdə məqsədləri camaatın başını aldatmaq və onları həqiqi məscidlərindən uzaqlaşdırmaq istəyi idi. Elə belə bir zamanda Allah-təala bu ayəni Peyğəmbərə(s) nazil etdi:

لاَ تَقُمْ فِيهِ أَبَدًا لَّمَسْجِدٌ أُسِّسَ عَلَى التَّقْوَى مِنْ أَوَّلِ يَوْمٍ أَحَقُّ أَن تَقُومَ فِيهِ فِيهِ رِجَالٌ يُحِبُّونَ أَن يَتَطَهَّرُواْ وَاللّهُ يُحِبُّ الْمُطَّهِّرِينَ

-Orada (həmin məsciddə) əsla (namaza) durma. Şübhəsiz, (bünövrəsi) ilk gündən təqva üzərində qurulmuş məscidlər (Quba məscidi, Mədinə məscidi və digərləri) sənin onda namaza durmağına daha layiqdir. Orada paklaşmağı sevən kişilər vardır. Allah pakları sevir.

Həzrət Əli(ə) "Nəhcül-bəlağə"də belə buyurur:

أَلاَ وَإِنَّ الْخَطَايَا خَيْلٌ شُمُسٌ حُمِلَ عَلَيْهَا أَهْلُها، وَخُلِعَتْ لُجُمُهَا فَتَقَحَّمَتْ بِهِمْ فِي النَّار. أَلاَ وَإِنَّ التَّقْوَى مَطَايَا ذُلُلٌ، حُمِلَ عَلَيْهَا أَهْلُهَا، وَأُعْطُوا أَزِمَّتَها، فَأَوْرَدَتْهُمُ الْجَنَّةَ.

-Agah olun ki, günahlar yüyəni qırmış azğın atlara bənzər ki, ona minən günahkarları od-alova atar. Təqva və günahdan çəkinmək isə yüyəni sahibinin əlində olan ram edilmiş dəvələrə bənzər. Onlara minənləri cənnətə daxil edərlər.[1]

**7. Təqva insanın Allahla dostluğuna səbəb olar**

Təqvanın faydalarından biri budur ki, insanı Allahla və Allahı insanla dostlaşdırır. Buna sübut olaraq "Ali-İmran" surəsinin 76-cı ayəsinə diqqət yetirək:

فَإِنَّ اللّهَ يُحِبُّ الْمُتَّقِينَ

-Allah da təqvalıları sevir.

Bu ayədən açıq-aydın şəkildə görürük ki, hər kəs təqvalı olsa, Allah-təala həmin şəxsi sevər. Əgər bir insan Allahla bağladığı əhd-peymana xəyanət etməsə,

[1] Nəhcül-bəlağə. Xütbə-16.

Allah onunla dost olar. “Ali-İmran” surəsinin 76-cı ayəsində buyurulur:

بَلَى مَنْ أَوْفَى بِعَهْدِهِ وَاتَّقَى فَإِنَّ اللّهَ يُحِبُّ الْمُتَّقِينَ

-Bəli, kim öz(ünün dinə sadiq qalmaq barəsindəki) əhdinə vəfa etsə və təqvalı olsa, şübhəsiz, Allah da təqvalıları sevir.

Abdullah ibn Həsən deyir: “Bir kənizim var idi və gecələrin birində onun səcdəyə gedib Allahla minacat etdiyini gördüm. O, səcdədə belə deyirdi: “İlahi, Sənə and verirəm Sənin mənimlə olan dostluğuna. Mənim günahlarımı bağışla.

Ona dedim: Elə demə. De ki, Səni and verirəm mənim Səninlə olan dostluğuma.

O dedi: Ey mənim ağam, Allah mənimlə olan dostluğuna görə məni şirkdən uzaqlaşdırıb və İslam dininə daxil edib. O, mənimlə olan dostluğuna görə gecəyarısı Ona ibadət etmək üçün məni yuxudan oyadıb. Halbuki çox insanlar hələ də yuxudadırlar.” [1]

Burada sual oluna bilər ki, Allahla necə dost ola bilərik? Bu sualın cavabını bir neçə hədislə diqqətinizə çatdırıram.

Günlərin birində Həzrət İsa(ə) öz tərəfdarlarına buyurdu: “Özünüzü Allahın dostu etmək üçün və Ona yaxın olmaq üçün cəhd göstərin. Soruşdular: Allahla necə dost olaq və özümüzü Ona necə yaxın edək? Buyurdu: Günahkar insanlardan acığınız gəlsin və onlarla oturub-durmayın. Soruşdular: Ey Allahın Peyğəmbəri(ə), elə isə biz kimlərlə oturub-duraq? Buyurdu:

---

[1] Ürəyə yatan qissələr, səh. 208.

مَنْ يُذَكِّرُكُمُ اللَّهَ رُؤْيَتُهُ وَ يَزِيدُ فِي عِلْمِكُمْ مَنْطِقُهُ وَ يُرَغِّبُكُمْ فِي الْآخِرَةِ عَمَلُه

-Elə insanla yoldaşlıq edin ki, onu görmək Allahı yadınıza salsın, söhbəti elminizi artırsın və əməli sizi axirətə həvəsləndirsin.”[1]

Bir gün İslam Peyğəmbəri(s) səhabələrə buyurdu: “Qiyamət günü ərşdə bir qrup insanın üzü ay kimi nur saçacaq. O gün qiyamətin dəhşətli səhnəsini gördükdə hamı nalə edib fəryad qoparacaq. Amma onlar qorxmayacaqlar. Onlar Allahın dostlarıdırlar.

Soruşdular: Ya Rəsulallah, onlar kimlərdir elə?

Peyğəmbər(s) buyurdu: Onlar o kəslərdir ki, bir-biri ilə olan dostluqları Allaha xatir olmuşdur.”

Sonra Həzrət(s) buyurdu: “Allah-təala buyurur: Mənim məhəbbətim o kəslərədir ki, Mənə xatir bir-birinin evinə gedib-gələr, Mənə xatir bir-birinə yardım vəköməklik göstərər və Mənə xatir bir-birinə bəxşiş verərlər.”

Hədislərdə belə nəql olunur ki, qiyamət günü Allah-təala buyurar: “Haradadır dünyada olarkən Mənə xatir bir-biri ilə dostluq edənlər? Heç bir kölgənin olmadığı bu gün mən onları Öz sayəmdə qərar verəcəyəm.”[2]

Beləliklə, görürük ki, Allahla insanın dostluğu insan üçün nə qədər mühümdür. Sual oluna bilər ki, insanın Allahla və Allahın insanla dostluğunun fərqi nədir? Cavab belədir ki, insanın Allahla dostluğu təqva və

[1] Yenə orada, səh. 78.
[2] Ürəyə yatan qissələr, səh. 79.

ibadət, Allahın insanla olan dostluğu hidayət və inayətdir.

İbrahim ibn Ədhəm deyir: "Günlərin birində bir çobanla rastlaşdım. Ondan içməyə su, yaxud süd istədim.

Dedi: Varımdır, hansından istəyirsən?

Dedim: Su.

Elə bu zaman əlindəki əsanı daşa vurdu. Daşdan elə bir su çıxmağa başladı ki, qardan soyuq, baldan şirin. Bunu gördükdə təəccüb və heyrət məni bürüdü.

Çoban mənim heyrət içində olduğumu görüb dedi: Heyrətlənmə, bəndə öz mövlasına itaət etsə, hər bir şey onun itaətində olar."[1]

Odur ki, Allahla dostluğun insana çox faydaları var. Amma bunu da unutmamalıyıq ki, Allahla dünyanın dostluğu bir yerə sığmaz. Yəni hər kəs Allahla özü arasında məhəbbət yaratmaq istəyirsə, gərək dünyanın məhəbbətini qəlbindən çıxarsın.

Günlərin birində tərəfdarları Həzrət Məsihdən(ə) soruşdular: "Necə ola bilir ki, sən suyun üzərində yeriyirsən, amma biz bunu bacarmırıq?

Həzrət(ə) buyurdu: Dinar və dirhəmin hansı sizin üçün dəyərlidir?

Dedilər: Dinar.

Məsih(ə) buyurdu: Amma mənim üçün onların hər ikisi gillə (torpaqla) eynidir."[2]

---

[1] Yenə orada, səh. 127.

[2] Mizanül-hikmə,5-ci cild, hədis-7755.

قَالَ رَسُولُ اللهِ(ص): خَصْلَةٌ مَنْ لَزِمَهَا أَطَاعَتْهُ الدُّنْيَا وَ الْآخِرَةُ، وَ رَبِحَ الْفَوْزَ با لْجَنَّةِ. قِيلَ: وَ مَا هِيَ يَا رَسُولَ اللَّهِ؟ قَالَ: التَّقْوَى

-Həzrət Peyğəmbər(s) buyurdu: "Bir xislət var ki, kim ona bağlı olsa, dünya və axirət onun əmrinə tabe olar və o, cənnəti qazanar. Dedilər: O nədir, ey Allahın Peyğəmbəri? Buyurdu: Təqva!"[1]

Əgər insan Allahla dostluq əlaqələrini qura bilsə, Allah-təala onun gecə namazına oyanması üçün mələkləri göndərər. Mələklər gəlib onun adını çəkərək oyadarlar.

Mərhum Şeyx Abbas Tehrani böyük şəxsiyyətlərdən biri idi. O deyərdi: "Mələklər gəlib insanı gecə namazına oyadarlar. Bəzən "cənab filankəs, oyan!", bəzən "filankəs, oyan!", bəzən də "hey, oyan" - deyə səsləyərlər. Belə müxtəlif çağırışların hər birinin səbəbi vardır. Onların insanı belə səsləmələri insanın gündüzlər etdiyi əməllərdən asılıdır. Əgər insan həmin gün yaxşı işlər görsə, onu gözəl tərzdə oyadarlar. Yox, əgər insan gündüzlər səhv və xətalara yol veribsə, onu kobud tərzdə səsləyib oyadarlar."[2]

**8.Təqva insanı çətinliklərdən çıxarır**

Təqvanın insana olan faydalarından biri budur ki, təqva insanı çətinliklərdən çıxarır. "Təlaq" surəsinin 2-3-cü ayələrində oxuyuruq:

---

[1] Yenə orada,14-cü cild, hədis-24425.
[2] Gəncineyi məarif,1-ci cild, səh.694.

وَمَن يَتَّقِ اللَّهَ يَجْعَل لَّهُ مَخْرَجًا. وَيَرْزُقْهُ مِنْ حَيْثُ لَا يَحْتَسِبُ

-Kim təqvalı olsa, (Allah) onun üçün (çətinliklərdən) çıxış yolu qoyar. Və ona güman etmədiyi bir yerdən ruzi verər.

عَنْ أَبِي ذَر رَحِمَهُ اللَّهُ، قَالَ: قَالَ النَّبِيُّ(ص): "إِنِّي لأَعْلَمُ آيَةً لَوْ أَخَذَ النَّاسُ بِهَا لَكَفَتْهُمْ، وَمَنْ يَتَّقِ اللَّهَ يَجْعَلْ لَهُ مَخْرَجًا"

-Abuzər Qəffari deyir: "Həzrət Peyğəmbər(s) buyurdu: Mən (Quranda) elə bir ayəni bilirəm ki, əgər bütün insanlar həmin ayəyə əl atsalar (ona əməl etsələr) bütün müşkül və çətinliklərinin aradan qalxmasına kifayət edər. Sonra bu ayəni oxudu və bir neçə dəfə təkrar etdi: Kim təqvalı olsa, (Allah) onun üçün (çətinliklərdən) çıxış yolu qoyar."[1]

Başqa bir hədisdə Həzrət(s) bu ayənin təfsiri haqda belə buyurur:

مِن شُبُهاتِ الدُّنيا، ومِن غَمَراتِ الموتِ، وشَدائِدِ يَومِ القِيامَةِ

-Hər kim təqvalı olsa, Allah həmin şəxsi dünyanın şübhələrindən, qəbrin çətin hallarından və qiyamət gününün çətinliklərindən çıxarar.[2]

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ أَكْثَرَ الاِسْتِغْفَارَ جعَلَ اللَّهُ لَهُ مِنْ كُلِّ هَمٍّ فَرَجاً ، وَ مِنْ كُلِّ ضِيقٍ مَخْرَجاً

-Həzrət(s) buyurur: "Hər kim çoxlu istiğfar etsə (qəlbində qalan günahların paslarını yuyub təmizləsə),

---

[1] Təfsiri-nümunə, 24-cü cild, səh.236.
[2] Yenə orada.

Allah-təala həmin şəxsin hər bir qəmini aradan qaldırar və onu bütün darlıq və çətiniklərdən çıxarar.”[1]

Bir qrup təfsirçi deyir ki, qeyd olunan ayə Ovf ibn Malik barəsində nazil olmuşdur. Ovf ibn Malik Peyğəmbərin(s) dostlarından biri idi. Düşmənlər onun oğlunu əsir götürmüşdülər. O, Peyğəmbərin(s) hüzuruna gəlib əhvalatı danışdı və maddi çətinliklərindən gileyləndi. Həzrət Peyğəmbər(s) ona üç göstəriş verərək buyurdu: “Əgər bunlara riayət etsən, Allah səni bütün çətinliklərdən çıxaracaq. Birinci: Təqvalı ol. İkinci: Səbirli ol. Üçüncüsü: Tez-tez “La hövlə vəla quvvətə illa billah” de.”

Ovf ibn Malik Peyğəmbərin(s) həmin üç göstərişinə əməl etməyə başladı. Günlərin birində öz evində əyləşmişdi. Birdən qapı açıldı və oğlu içəri daxil oldu. Sonradan məlum oldu ki, onun oğlu düşmənlərin kiçik bir ehtiyatsızlığından istifadə edərək onların əlindən qaçmışdır. Bununla yanaşı, hətta düşmənin bir dəvəsini belə özü ilə gətirmişdi. Bu hadisədən sonra Allah-təala həmin ayəni nazil etmişdir.

Abuzər Qəffarini Rəbəzəyə sürgün etmişdilər. Həzrət Əli(ə) onunla vidalaşdığı zaman belə buyurdu:

يَا أَبْاذَر, إِنَّكَ اِنَّمَا غَضِبتَ لِلّهِ عَزّوَجَلّ فَارْجُ مَنْ غَضِبْتَ لَهُ إِنَّ الْقَوْمَ خَافُوكَ عَلى دُنْيَاهُمْ وَ خِفْتُمْ عَلَى دِينِكَ... وَاللهِ لَوْ كَانَتِ السَّماواتُ وَالأرضُ عَلى عَبْد رَتْقاً ثُمَّ اتَّقَى اللهَ جَعَلَ لَهُ مَخْرَجاً، فَلا يُؤْنِسَنَّكَ إلاَّ الحَقُّ، وَلا يُوحِشَنَّكَ إلاَّ الباطِلُ

---

[1] Yenə orada, səh.237.

-Ey Abuzər, sən həqiqətən Allah rizası üçün qəzəblənmisən. Belə isə kimə xatir qəzəblənmisənsə, Ona da ümid bağla. Onlar öz dünyalarının əllərindən çıxacağından qorxub səni sürgün edirlər. Sən də öz dininə zərər gəlməsindən qorxub onlara qəzəbləndin. Allaha and olsun ki, əgər bütün göylərin və yerin qapıları bir bəndənin üzünə bağlansa və həmin bəndə təqvalı insan olsa, Allah o bəndəsi üçün bir çıxış yolu açar və onu oradan çıxarar. Beləliklə, haqdan başqa heç bir şeylə ünsiyyətdə olma. Batil və haqsızlıqdan başqa heç bir şey səni nigaran etməsin. [1]

الإمامُ الباقرُ (عَلَيهِ السّلامُ) . فيما كَتَبَ إلى سَعدِ الخَيرِ . إنّ اللّه عَزَّ وجلَّ يَقِي بِالتَّقوى عَنِ العَبدِ ما عَزُبَ عَنهُ عَقلُهُ، ويُجَلِّي بِالتَّقوى عَنهُ عَماهُ وجَهلَهُ، وبِالتَّقوى نَجا نُوحٌ ومَن مَعهُ فِي السَّفينَةِ، وصالِحٌ ومَن مَعهُ مِن الصّاعِقَةِ، وبِالتَّقوى فازَ الصّابِرونَ، ونَجَتْ تِلكَ العُصَبُ مِن المَهالِكِ

-İmam Baqir (ə) Sədulxeyrə məktubunda buyurmuşdur: “Allah-təala təqva vasitəsilə bəndədən onun ağlının çatmadığı şeyi uzaqlaşdırır və təqva vasitəsilə korluq və nadanlığı ondan dəf edir. Nuh və onunla birlikdə gəmidə olanlar təqvanın köməyi ilə nicat tapdılar. Saleh və onun davamçıları ildırımdan qurtuldular. Səbirlilər təqva ilə kama çatdılar və həmin dəstələr həlak olmaqdan nicat tapdılar.” [2]

---

[1] Nəhcül-bəlağə, 120-ci xütbə.
[2] Mizanül-hikmə,14-cü cild, hədis-22435.

قَالَ عَلِيّ(ع): وَاعْلَمُوا أَنّهُ "مَنْ يَتَّقِ اللهَ يَجْعَلْ لَهُ مَخْرَجاً" مِنَ الْفِتَنِ، وَنُوراً مِنَ الظُّلَمِ، وَيُخَلِّدْهُ فِيما اشْتَهَتْ نَفْسُهُ، وَيُنْزِلْهُ مَنْزِلَةَ الْكَرَامَةِ عِنْدَهُ، فِي دَار اصْطَنَعَهَا لِنَفْسِهِ; ظِلُّهَا عَرْشُهُ، وَنُورُهَا بَهْجَتُهُ، وَزُوَّارُهَا مَلائِكَتُهُ، وَرُفَقَاؤُهَا رُسُلُهُ

-Həzrət Əli(ə) buyurur: "Bilin ki, hər kim təqvalı olaraq Allahdan qorxsa, Allah-təala fitnə-fəsadlardan çıxmaq yolunu və zülmətlərdən *(nadanlıq və azğınlıq zülmətlərindən)* işıqlıq və aydınlığı ona göstərər, onu arzuladığı yerdə *(Cənnətdə)* əbədi olaraq saxlayar. Onu Öz yanındakı əziz mənzildə - Özü *(Öz dostları)* üçün seçdiyi evə daxil edər. Həmin evin kölgəsi Allahın ərşi, işığı isə Onun razılığıdır. Oranın zəvvarları mələklər, dostları isə Onun peyğəmbərləridir."[1]

### 9.Təqva nigarançılığı aradan qaldırır və insanı yaxşı gələcəyə ümidvar edir

Təqvanın faydalarından biri budur ki, hər kim təqvalı olsa, Allah-təala həmin şəxsin qəm-qüssəsini, nigarançılığını aradan qaldırar və onu yaxşı gələcəyə ümidvar edər. "Əraf" surəsinin 35-ci ayəsində oxuyuruq:

آيَاتِي فَمَنِ اتَّقَى وَأَصْلَحَ فَلاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ

-Təqvalı və yaxşı işlə məşğul olan (və öz əqidə və əməllərini islah edən) kəslərə nə bir qorxu var və nə də qəmgin olarlar.

---

[1] Nəhcül-bəlağə. Xütbə -182.

Təqva elə bir xüsusiyyətdir ki, insanın vücudunda gələcəyə qarşı olan narahatlığını və nigarançılığını aradan qaldırır. Demək olar ki, bütün alimlər demişlər: “İnsan dünyaya gəldiyi andan ölən anına qədər nigarandır. Bu nigarançılığı aradan qaldırmaq üçün hər bir şeyə əl atır və onunla rahat olacağını güman edir. Lakin zaman keçdikcə məlum olur ki, onun nigarançılığı aradan qalxmayıb.”

Nigarançılıq həmişə insanın ən böyük problemlərindən biri olmuşdur. Bəzi alimlər deyirlər ki, əgər insanların tarix boyu bu problemi aradan qaldırmaları üçün çalışıb tapdıqları düzgün və yaxud səhv yolları bir yerə yığsaq, həqiqətən də qalın bir kitab nəşr etmək olar.

Bəzi alimlər deyirlər ki, vəba kimi kütləvi yoluxucu xəstəliklərin baş verməsi nəticəsində ölənlərin az bir hissəsi məhz bu xəstəlik ucbatından baş verir, halbuki hər on nəfərdən biri isə ya qorxudan, ya da nigarançılıqdan vəfat edirlər.

Buna görə də bu problemi aradan qaldırmaq və çarə yollarını tapmaq üçün çoxlu sayda kitablar yazılmışdır. Amma insanda olan bu problemin çarəsi Quranda bir cümlə ilə bəyan olunmuşdur. “Rəd” surəsinin 28-ci ayəsində buyurulur:

أَلاَ بِذِكْرِ اللّهِ تَطْمَئِنُّ الْقُلُوبُ

-Bilin (və agah olun!) Qəlblər yalnız Allahı yada salmaqla rahatlıq tapır.

## Nigarançılığın səbəbləri və onun əlacı

Burada sual oluna bilər ki, insanda baş verən bu nigarançılığın səbəbi nədir? Cavab olaraq deyə bilərik ki,

bir neçə səbəbə görə insan daim nigarançılıq içində yaşayır. Burada həmin səbəblərə yığcam da olsa diqqət yetirək:

1.Gələcəyin qaranlığı

İnsanı həmişə nigaran qoyan səbəblərdən biri gələcəyinin onun üçün qaranlıq qalmasıdır. Nemətlərin əldən çıxması, düşmənin törədəcəyi çətinliklər, özünün xəstələnməsi və başqalarına möhtac olacağı ehtimalı olduğu üçün insan həmişə narahat və nigarandır. Allahın qadir, mehriban, ruzi verən olmasını düşünüb Ona iman gətirmək isə bu problemi həll edir. Əgər insan Allaha iman gətirsə və təqvalı olsa, gələcəyinin yaxşı olmasına ümidvar olar. "Həşr" surəsinin 23-cü ayəsində oxuyuruq:

هُوَ اللَّهُ الَّذِي لَا إِلَٰهَ إِلَّا هُوَ الْمَلِكُ الْقُدُّوسُ السَّلَامُ الْمُؤْمِنُ الْمُهَيْمِنُ الْعَزِيزُ الْجَبَّارُ الْمُتَكَبِّرُ سُبْحَانَ اللَّهِ عَمَّا يُشْرِكُونَ

-O, Ondan başqa heç bir tanrı olmayan Allahdır. O, Məlikdir (varlıq aləminin sultanı və hökmranıdır), Qüddüsdür (müqəddəsdir. Hər hansı bir eyibdən, nöqsandan, şərikdən və övladdan uzaq və pakdır), Salamdır (zatı eyibdən, sifətləri nöqsandan, işləri şərdən salamatdır), Mömindir (Öz tövhidini bəyan edəndir. Öz zatının və sifətlərinin həqiqətinə imanı olan, hər bir zülmdən və pislikdən amanda saxlayandır), Muhəymindir (əmindir, hər bir şeyə hakim və üstündür, bütün varlığı qoruyan və hər bir şeyə nəzarət edəndir), Əzizdir (oxşarsız və bənzərsizdir, məğlubedilməz qalib və izzət bəxş edəndir), Cabbardır (əzəmətli şan-şövkət sahibi, hər bir məğlubiyyəti və zərəri yoluna qoyan, mövcudatı islah edən, hər şey üzərində qəti iradəyə malik olandır).

Mütəkkəbirdir (təzim olunmağa layiq, batini və aşkar böyüklük sahibidir). Allah Ona şərik qoşduqlarından pakdır.

**2.Keçmişin qaranlığı**

İnsanı həmişə nigaran edən səbəblərdən biri keçmişdə etdiyi günahların qorxusudur. Amma insan etdiyi günahlardan tövbə etsə və bağışlayan, mərhəmətli Allahdan üzrxahlıq diləsə, bu nigarançılığı da aradan qaldıra bilər. “Şura” surəsinin 25-ci ayəsində buyurulur:

وَهُوَ الَّذِي يَقْبَلُ التَّوْبَةَ عَنْ عِبَادِهِ وَيَعْفُو عَنِ السَّيِّئَاتِ وَيَعْلَمُ مَا تَفْعَلُونَ

-Bəndələrindən tövbələri qəbul edən, günahlardan keçən və etdiklərinizi bilən Odur.

Həmçinin “Bəqərə” surəsinin 222-ci ayəsində oxuyuruq:

إِنَّ اللّهَ يُحِبُّ التَّوَّابِينَ

-Həqiqətən, Allah çox və tez tövbə edənləri sevir.

3. Zəiflik və gücsüzlük

İnsan həmişə daxili və xarici düşmənlərindən nigarandır. Amma Allahın qüdrətini xatırlayıb Ona arxalansa və bununla yanaşı, öhdəsinə düşən ilahi vəzifələrə əməl etsə, ürəyi rahatlaşar. Belə olduqda heç bir düşmənin təhlükəsindən qorxmaz. “Ənfal” surəsinin 65-ci ayəsində buyurulur:

إِن يَكُن مِّنكُمْ عِشْرُونَ صَابِرُونَ يَغْلِبُواْ مِئَتَيْنِ وَإِن يَكُن مِّنكُم مِّئَةٌ يَغْلِبُواْ أَلْفًا مِّنَ الَّذِينَ كَفَرُواْ بِأَنَّهُمْ قَوْمٌ لاَّ يَفْقَهُونَ

-Əgər sizdən iyirmi nəfər səbirli olsa, onlar iki yüz nəfərə qalib gələrlər. Əgər sizdən yüz nəfər olsa, onlar kafirlərin min nəfərinə qalib gələrlər. Çünki onlar anlamaz bir qövmdürlər (şücaət və bu kimi ruhi sifətlərin qüvvətlənməsinə səbəb olan tövhidi dərindən dərk etmirlər).

Tarix boyu elə mücahid insanlar olmuşdur ki, onların qəhrəmanlıqları insanı heyrətə salır. Belə insanları bəzən öz gözümüzlə görürük, bəzən də onların haqqında eşidirik.

Ağır döyüşlərdən birində bir zabit ciddi xəsarət almış və hətta gözlərini əlindən vermişdi. Onu yaralı halda xəstəxanaya yerləşdirmişdilər. Amma o elə rahat və aramla danışırdı ki, elə bil bədənində bir cızıq belə yoxdur.

4. Məqsədsizlik və yaşayışın puç olma ehtimalı

İnsanı nigaran edən səbəblərdən biri həyatda məqsədsiz yaşamaqdır. Amma təkamül yolunu qarşılarına məqsəd qoyan, həyatlarını proqramlaşdıran və hadisələri görərək Allahı hədəf bilən insanlar puçluq və hədəfsizlik hissi keçirmirlər. Belə insanlar həyatda hədəfsiz və sərgərdan deyillər. “Nəbə” surəsinin 31-ci ayəsində buyurulur:

إِنَّ لِلْمُتَّقِينَ مَفَازًا

-Həqiqətən, təqvalılar üçün qurtuluş, səadət və nicat yeri var.

“Tövbə” surəsinin 109-cu ayəsində buyurulur:

أَفَمَنْ أَسَّسَ بُنْيَانَهُ عَلَى تَقْوَى مِنَ اللّهِ وَرِضْوَانٍ خَيْرٌ أَم مَّنْ أَسَّسَ بُنْيَانَهُ عَلَىَ شَفَا جُرُفٍ هَارٍ

-Öz (dininin) təməlini ilahi təqva və Onun razılığı əsasında quran şəxs yaxşıdır, yoxsa öz təməlini süst və uçmaq ərəfəsində olan bir uçurumun kənarında qurmuş və o binanı cəhənnəm oduna yuvarlandıracaq şəxs?!

5. Zəhmətlərin hədər getmək ehtimalı

İnsanı həyatda həmişə nigaran saxlayan səbəblərdən biri ömrü boyu çəkdiyi zəhmətlərinin hədər olması ehtimalıdır. Hərdən insan hədəfə çatmaq üçün bir çox zəhmətlərə qatlaşır. Amma kiminsə onun çəkdiyi zəhmətlərə qiymət vermədiyini gördükdə nigarançılıq hissi baş qaldırır. Lakin onun bütün zəhmətlərindən kimsənin agah olduğunu və hətta çəkdiyi ən kiçik zəhmətə görə mükafatlanacağını bilsə həmin nigarançılığa heç bir əsas qalmaz. “Yusif” surəsinin 90-cı ayəsində oxuyuruq:

إِنَّهُ مَن يَتَّقِ وَيَصْبِرْ فَإِنَّ اللّهَ لاَ يُضِيعُ أَجْرَ الْمُحْسِنِينَ

-Çünki kim təqvalı olsa və səbir etsə (mükafatlandırılar). Həqiqətən, Allah yaxşı əməl sahiblərinin mükafatını zay etməz.

“Təlaq” surəsinin 5-ci ayəsində buyurulur:

وَمَن يَتَّقِ اللَّهَ يَجْعَل لَّهُ مِنْ أَمْرِهِ يُسْرًا

-Kim Allahdan qorxsa, Allah onun işlərini asan edər.

“Ali-İmran” surəsinin 133-cü ayəsində oxuyuruq:

وَسَارِعُواْ إِلَى مَغْفِرَةٍ مِّن رَّبِّكُمْ وَجَنَّةٍ عَرْضُهَا السَّمَاوَاتُ وَالأَرْضُ أُعِدَّتْ لِلْمُتَّقِينَ

-Rəbbiniz tərəfindən olan bağışlanmaya və genişliyi göylər və yer (qədər) olan (və) təqvalılar üçün hazırlanmış cənnətə doğru tələsin.

6. Dünyapərəstlik və maddi aləmə ürək bağlamaq

Bəzən insanda dünyapərəstlik elə bir həddə gəlib çatır ki, geyim, maşın, ev və minlərlə digər yaşayış vasitələri fikri saatlar, günlər və həftələrlə onun başını qataraq nigaran edir. Amma Allaha iman, zöhd və təqva bütün bunlara son qoyur. Belə olduqda iman günü-gündən artdıqca insan o həddə gəlib çatır ki, dünyanı və bütün maddi aləmi Həzrət Əli(ə) kimi görür.

قَالَ عَلِيٌّ(ع): اِنَّ دُنيَاكُم عِندِى لَأَهوَنُ مِن وَرَقَةٍ فِى فَمِ جَرَادَةٍ تَقْضِمُهَا

-İmam Əli(ə) başqa bir xütbədə buyurur: "Həqiqətən, sizin dünyanızın mənim nəzərimdə çəyirtkənin ağzında əzilən (çeynənilən) bir ağac yarpağı qədər dəyəri yoxdur."[1]

7. Ölüm qorxusu

Ölüm qorxusu həmişə insanın ruhunu sıxır və ona əziyyət verir. Xüsusən insan xəstələndikdə, döyüş meydanında və ölüm təhlükəsi olan bir çox hallarda ölüm arzuların və müvəffəqiyyətlərin sonu kimi insana çox qorxulu gəlir. Amma əgər ölümü zindan dalanından çıxış

---

[1] Nəhcül-bəlağə.

və azad bir fəzaya çatmaq üçün vasitə bilsək, bu ölüm insana nigarançılıq gətirməz. Əksinə ölüm insan üçün arzu edilən bir hala çevrilər.

İnsanda olan bütün bu narahatlıqların atəşini iman, təqva və zikr vasitəsilə söndürmək olar. İslam, Allahı yad etmə, şəxsən İslam Peyğəmbəri(s) zikrdir. İmam Sadiq(ə) "Bilin! Qəlblər yalnız Allahı yada salmaqla rahatlıq tapır." ayəsinin təfsirində buyurur: "Qəlblər Məhəmmədin(s) vasitəsilə rahatlıq tapır. Çünki o, Allahın zikridir." [1]

Aşura günü Həzrətin(ə) imaməti ilə sübh namazını camaatla qıldıqdan sonra əshabı üçün belə bir xütbə oxudu:

صَبْرًا يَا بَنِي الكِرام فَمَا الْمَوتُ اِلاّ قَنْطَرَة تّعبُّرٍ بِكُم عَنِ الْبُؤْسِ وَ الضَّراءِ اِلى الجِنانِ الْواسِعَة وَ النَّعِمِ الدّائِمَة فَأَيُّكُم يَكْرَه اَنْ يَنْتَقِلَ مِن سِجْنٍ اِلَى قَصْرٍ وَما هُوَ لِأَعْدائِكُم اِلاّ كَمَن يَنْتَقِلُ مِن قَصْرٍ اِلَى سِجْنٍ وَ عَذاب.

اِنَّ اَبِي حَدَّثَنِي عَنْ رَسُول الله(ص) اَنَّ الدُّنْيا سِجْنُ الْمُؤْمِن وَ جَنَّةُ الْكافِرِ وَالْمَوتُ جِسْرُ هؤلاءِ اِلى جِنَانِهِم وَ جِسْرُ هؤلاء اِلى جَحِيمِهِم مَا كُذِبتُ وَلا كَذِبتُ

-Ey kəramətli insanların övladları, səbir edin. Ölüm körpüdən başqa bir şey deyildir. İnsanlar bu körpüdən çətinliklə də olsa geniş və nemətləri tükənməyən bir

[1] Təfsiri-nümunə,10-cu cild, səh.217.

cənnətə daxil olurlar. Sizlərdən kim istəməz ki, zindandan cənnətə getsin? Sizin düşmənləriniz də bu körpüdən keçəcək. Lakin onlar cənnətdən zindana gedəcəklər.
Atam Allahın Rəsulundan(s) mənə belə hədis buyurdu: “Dünya möminin zindanı və kafirin cənnətidir. Ölüm möminləri cənnətə və kafirləri cəhənnəmə aparmaq üçün bir körpüdür. Mənə deyilənlər və mənim dediklərim yalan deyil.”

## 10. Təqva bərəkətin nazil olmasına səbəb olur

Ötən bəhslərimizdə təqvanın fayda və nəticələri haqda söz açdıq. Bu bəhsimizdə də təqvanın faydalarından birinə işarə edəcəyik. Həmin faydalardan biri də budur ki, təqva insan üçün ilahi bərəkətlərin nazil olmasına səbəb olur. “Əraf” surəsinin 96-cı ayəsində buyurulur:

وَلَوْ أَنَّ أَهْلَ الْقُرَى آمَنُواْ وَاتَّقَواْ لَفَتَحْنَا عَلَيْهِم بَرَكَاتٍ مِّنَ السَّمَاءِ وَالأَرْضِ وَلَكِن كَذَّبُواْ فَأَخَذْنَاهُم بِمَا كَانُواْ يَكْسِبُونَ

-Əgər şəhər və kəndlərin əhalisi iman gətirsəydilər və təqvalı olsaydılar, şübhəsiz, göydən və yerdən onların üzünə bərəkətlər(in qapılarını) açardıq. Lakin onlar (Bizim ayələrimizi) təkzib etdilər. Belə olduqda onları əldə etdiklərinin cəzası olaraq yaxaladıq.

Bu ayədə Allah-təala İslam Peyğəmbərinə(s) keçmiş peyğəmbərlərin qövmü barədə danışır. Əgər keçmiş peyğəmbərlərin olduqları şəhər və kəndlərin camaatı tüğyan edib günahlarda hədlərini aşmasaydılar, öz cəmiyyətlərində fitnə-fəsad törətməsəydilər, yaxud Allaha baş əyib peyğəmbərlərə itaət etsəydilər və təqvalı olsaydılar, Allah göydən və yerdən bərəkətlərin

qapılarını onların üzünə açardı. Amma onlar Allahın göndərdiyi peyğəmbərləri inkar edərək Onun nazil etdiyi kitablara məhəl qoymadılar. Şeytan onları öz istədiyi yola çəkib apardı. Allah-təala da onları öz əməllərinin cəzasına düçar etdi. Onlar bütün bu əməlləri ilə özlərindən başqa heç bir kəsə ziyan vurmadılar. Yəni hər nə etdilərsə, onun ziyanı özlərinə dəydi. Onlar əməllərinin cəzasını elə (axirət cəzası öz yerində olmaqla) bu dünyada da gördülər.

Deməli, bu ayədən açıq-aydın məlum olur ki, əgər cəmiyyətdə yaşayan insanlar təqvalı olsalar, Allah da öz bərəkətlərini onlara nazil edər.

## Bərəkət nədir?

Əlbəttə, keçmiş bəhslərimizdə orucluq barədə açdığımız mövzuda bərəkətin nə olduğu haqda bir qədər söhbət etmişik. Bu bəhsimizdə də bərəkət haqqında bir neçə mətləbə işarə etmək yaxşı olardı. Həmin mətləblərdən biri bərəkətin mənası haqdadır. Ayədə işlənmiş "Bərəkat" sözü ərəb dilində "bərəkət" kəlməsindən götürülüb və cəm halda işlənərək "bərəkətlər" mənasını verir. Onun mənasına gəldikdə isə davamlı, aradan getməyən və həmişəyaşar mənalarını kəsb edir. Hər hansı bir şeyin təsiri aradan getməsə və davamlı olsa bərəkətlidir.

Digər bir mənası isə belədir ki, feyzin nazil olmasına səbəb olan hər bir şeyə, həmçinin nazil olan feyzin özünə də bərəkət deyilir. Başqa bir mənası belədir: İnsana nazil olan hər bir nemət möhkəm və sabit olsa, ona da bərəkət deyilir.

Hədislərdə də bərəkətin mənası açıqlanmışdır. Həmin hədislərin qısa nəticəsi belədir: Az və yaxud çoxluğundan asılı olmayaraq insanın onun vasitəsilə cənnət qazana biləcəyi hər bir nemət bərəkətlidir. İnsan hər hansı bir şeyin vasitəsilə cənnət qazana bilmirsə, deməli həmin şeyin bərəkəti də yoxdur.

Günlərin birində Həzrət Peyğəmbər(s) səhabələrlə səfərə çıxmışdı. Yolda bir çobana rast gəldilər. Yorulduqları üçün Peyğəmbər(s) çobandan bir az süd istədi. Çoban isə Həzrətə(s) süd verməkdən imtina etdi. Peyğəmbər(s) buyurdu: "Allah malını çox eləsin."

Onlar çobandan ayrılıb yola düşdülər. Yol əsnasında digər bir çobana rast gəldilər. Peyğəmbər(s) ona yaxınlaşıb içməyə bir az süd istədi. Çoban yoldan

gələnlərə ehtiram göstərib qabları südlə doldurdu. Peyğəmbər(s) və səhabələr südü içdikdən sonra Həzrət(s) həmin çobana buyurdu: "Allah malına bərəkət versin."

Səhabələr Peyğəmbərdən(s) soruşdular: "Ya Rəsulallah, sən bizə süd verən və verməyən hər iki çobana dua etdin. Amma bu dualar fərqli idi. Birinə "Allah malını çox eləsin", digərinə isə "Allah malına bərəkət versin" - deyə dua etdin. Bu duaların mənası nədir?"

Peyğəmbər(s) buyurdu: "Bəzən insanın malının çox olmasına baxmayaraq, yiyəsi üçün o malın heç bir xeyir və bərəkəti olmaz. Amma bəzən insanın malının az olmasına baxmayaraq, onun üçün xeyir-bərəkəti vardır."

Bəzən insan halallığa riayət edərək həm pul qazandıqda, həm də o pulu xərclədikdə cənnət qazanır. Yəni elə insanlar vardır ki, həm pul qazanarkən, həm də o pulu xərcləyərkən halallığa və Allahın razılığına riayət edib cənnəti əldə edir. Amma elə adamlar da vardır ki, əlində milyonlarla pul olmasına baxmayaraq, həmin pulların heç bir kəsə bir xeyri olmur. Odur ki, hədislərdə bəyan olunur ki, insanın cənnəti qazandığı hər bir şey (istər kitab olsun, istər mal-dövlət olsun, istər elm olsun) bərəkətlidir. Amma bu kimi şeylərlə insan cənnəti qazana bilmirsə bərəkəti yoxdur. Allah-təala Quranda bu mövzuda bir çox məsəllər çəkmişdir. Həmin məsəllərdən bir neçəsinə diqqət yetirək.

Quranın məsəl çəkdiyi adamlardan biri Qarundur. Qarun Musanın(ə) qohumu idi. Allah-təala ona çoxlu mal-dövlət və xəzinələr vermişdi. Onun malının miqdarı yazılmayıb. Amma Quran onun sərvətinin nə qədər olduğunu "Qəsəs" surəsinin 76-77-ci ayəsində belə bəyan edir:

إِنَّ قَارُونَ كَانَ مِن قَوْمِ مُوسَى فَبَغَى عَلَيْهِمْ وَآتَيْنَاهُ مِنَ الْكُنُوزِ مَا إِنَّ مَفَاتِحَهُ لَتَنُوءُ بِالْعُصْبَةِ أُولِي الْقُوَّةِ إِذْ قَالَ لَهُ قَوْمُهُ لَا تَفْرَحْ إِنَّ اللَّهَ لَا يُحِبُّ الْفَرِحِينَ. وَابْتَغِ فِيمَا آتَاكَ اللَّهُ الدَّارَ الْآخِرَةَ وَلَا تَنسَ نَصِيبَكَ مِنَ الدُّنْيَا وَأَحْسِن كَمَا أَحْسَنَ اللَّهُ إِلَيْكَ وَلَا تَبْغِ الْفَسَادَ فِي الْأَرْضِ إِنَّ اللَّهَ لَا يُحِبُّ الْمُفْسِدِينَ

-Həqiqətən, Qarun Musanın qövmündən idi. (O) onlara qarşı həddini aşdı və zülm etdi. Ona o qədər xəzinələr vermişdik ki, onların açarları güclü bir dəstəyə ağırlıq edirdi. (Yada sal,) o zamanı ki, qövmü ona dedi: “(Malına qürrələnib) sevinmə. Çünki Allah (malına qürrələnib) sevinənləri sevməz.” “Və Allahın sənə vermiş olduğundan axirət evini qazan, dünyadakı (ömür və maldan olan) nəsibini də unutma. Allah sənə yaxşılıq etdiyi kimi sən də (başqalarına) yaxşılıq et və yer üzündə fəsad dalınca düşmə. Çünki Allah fəsad törədənləri sevməz.”

Bu ayədən başa düşülür ki, mal-dövlətin azlığı və yaxud çoxluğu insana o vaxt fayda verər ki, onun bərəkəti olmuş olsun. Mal-dövlət hər nə qədər çox olsa, amma onun bərəkəti olmasa, insana heç bir faydası olmayacaq.

Elm də belədir. Əgər bir insanın elmi çoxdursa və o elmlə cənnəti qazana bilmirsə, deməli onun da bərəkəti yoxdur. Bəzən elə insanların şahidi oluruq ki, illər boyu elmlə məşğul olmalarına baxmayaraq, əldə etdikləri elmdən heç bir nəticə ala bilməmişlər. Bəzən də bunun əksinin şahidi oluruq. Yəni elə insanlar da vardır ki,

onların elmi yüksək dərəcədə olmamasına baxmayaraq, onun vasitəsilə cənnəti əldə edə bilmişlər.

Əmr ibn Hüşam ibn Müğeyrə çox elmli bir insan idi. Onun elmi o qədər çox idi ki, ona "Əbül-hikəm" (Hikmətlər atası) ləqəbi vermişdilər. Amma o, bu qədər elmi ilə cənnəti qazana bilmədi. Peyğəmbər(s) zühur etdikdən sonra o, gedib düşmənlərə qoşuldu və İslam dini ilə müxalifətçilik etməyə başladı. Əlindən gələn qədər dinin əleyhinə iş gördü. Axırda belə bir elmin sahibi "Əbu Cəhl" (Nadanlığın atası) adı ilə məşhurlaşdı. Onun elmi nə qədər çox olsa da belə cahil kimi tanındı. Əldə etdiyi bu elm isə ona cənnət qazandıra, ona nuraniyyət, izzət və xoşbəxtlik verə bilmədiyi üçün nadanlıqla bərabərləşdi. Ona hər nəyi məntiqlə başa salırdılarsa, nadanlıq edib onun əksini danışırdı. Buna görə də onun adını Əbu Cəhl qoymuşdular.

Vəlid ibn Müğeyrə Əbu Cəhlin əmisi idi. Vəlid Məkkədə tanınmış fəsahət və bəlağətli bir şəxs idi. O, Qüreyş tayfasının arasında ərəb ədəbiyyatını hamıdan çox bilirdi. Belə ki, camaat onu "Reyhanətül-ədəb" - "Ədəbiyyatın gülü" deyə çağırırdılar. Vəlid ibn Müğeyrə elə bir insan idi ki, onun qələmindən və dilindən ədəbi nümunələr yaranırdı. Hər kəs bir şeir yazdıqda onun yanına gəlib oxuyardı. Hər kəsin elmi bir məsələdə çətinliyi olsaydı, ondan soruşardı.

Məscidül-həramda "Səcdə" surəsi nazil olarkən Həzrət Peyğəmbər(s) həmin surəni camaata oxudu. Vəlid ədəbiyyatşünas olduğundan bu surəni eşitdikdə ondan çox böyük zövq aldı. Gördü ki, öz bildiyi elmlə Quran ayələri tamamilə başqadır. Quran ayələri onun çox

xoşuna gəlmişdi. Odur ki, Darün-nədvəyə - öz qövmünün yanına gəlib dedi:

وَاللّٰهِ لَقَدْ سَمِعْتُ مِنْ مُحَمَّدٍ كَلامًا ما هُوَ مِنْ كَلامِ الْإِنْسِ، وَلا مِنْ كَلامِ الْجِنِّ! وَإِنَّ لَه لَحَلاوَةً، وَإِنَّ عَلَيْهِ لَطَلاوَةً ، وَإِنَّ أَعْلاهُ لَمُثْمِرٌ، وَإِنَّ أَسْفَلَه لَمُغْدِقٌ، وَإِنَّه يَعْلو وَما يُعْلى

-And olsun Allaha ki, Məhəmməddən(s) eşitdiyim sözlər nə insanların, nə də cinlərin sözünə oxşamır. İndiyə qədər belə sözlər eşitməmişdim. Onun sözlərinin xüsusi şirinliyi və ürəyəyatan gözəlliyi vardır. Onun sözlərinin meyvəli budaqları və möhkəm kökləri var. Onun sözləri bütün insanların sözlərindən üstün və dəyərlidir. O sözlər bütün sözlərdən üstündür. Heç bir söz bu sözlərdən üstün ola bilməz.

Vəlid bu sözləri deyəndən sonra öz evinə qayıtdı. Onun tayfasındakı adamlar bir-birinin üzünə baxıb dedilər: “Deyəsən, Məhəmmədin sözləri Vəlidin qəlbinə təsir göstərib. Əgər Vəlid ona tabe olarsa, biz məğlub olacağıq.” Əbu Cəhl Vəlidi yola gətirməyi öhdəsinə götürüb dedi: “Mən buna bir əlac edərəm.” Bu sözləri deyib Vəlidin evinə gəldi və özünü ona çox narahat göstərdi. Vəlid onun nə üçün belə narahat olduğunu soruşduqda Əbu Cəhl dedi: “Mənim narahatlığım bununla bağlıdır ki, camaat sənin barəndə bəzi sözlər deyirlər. Biz də camaatın sənin barəndə dediyi sözlərdən çox narahat oluruq.” Vəlid soruşdu: “Camaat mənim barəmdə hansı sözləri danışır?” Əbu Cəhl dedi: “Camaat arasında söz gəzir ki, Vəlid qoca bir adamdır və Abdullahın oğlu ona bir vəzifə, şan-şöhrət versin deyə İslamı qəbul etmək istəyir.” Əbu Cəhl bu kimi sözlərlə

Vəlidə təsir göstərmək istəyirdi. O, bu sözləri dedikdən sonra Vəlidin daxilindəki nəfsani qüvvələr baş qaldırıb tüğyan etdi. Onda belə bir hal yarandıqda öz yolundan və fikrindən dönərək gəlib öz adamlarına qəzəblə dedi: “Siz Məhəmmədin dəli olduğunu güman edirsiniz?! Dedilər: Xeyr. Vəlid dedi: Siz güman edirsiniz ki, Məhəmməd kahindir?! Dedilər: Xeyr. Vəlid dedi: Siz Məhəmmədin şair olduğunu güman edirsiniz?! Dedilər: Xeyr. Vəlid dedi: Siz elə bilirsiniz ki, Məhəmməd yalançıdır?! Dedilər: Xeyr. Əgər belədirsə, onda sən özün onun barəsində nə fikirləşirsən? Vəlid bir az fikirləşdikdən sonra üzünü turşudaraq qəzəblə dedi: Mənə belə gəlir ki, Məhəmməd yalnız bir cadugərdir. Çünki o, bütün ailələr arasında ayrılıq salıb.”

O böyüklükdə alim özünü elə bir günə saldı ki, Allah-təala Quranda bir-birinin ardınca iki ayədə buyurur: “Ölüm olsun ona.” “Müddəssir” surəsinin 11-26-cı ayələrində onun barəsində oxuyuruq:

إِنَّهُ فَكَّرَ وَقَدَّرَ. فَقُتِلَ كَيْفَ قَدَّرَ. ثُمَّ قُتِلَ كَيْفَ قَدَّرَ. ثُمَّ نَظَرَ. ثُمَّ عَبَسَ وَبَسَرَ. ثُمَّ أَدْبَرَ وَاسْتَكْبَرَ. فَقَالَ إِنْ هَذَا إِلَّا سِحْرٌ يُؤْثَرُ. إِنْ هَذَا إِلَّا قَوْلُ الْبَشَرِ. سَأُصْلِيهِ سَقَرَ.

-O (Quran barəsində) fikirləşdi və (orada deyilənləri öz fikrində) ölçdü-biçdi. Ölüm olsun ona! Necə ölçdü-biçdi? Bir də ölüm olsun! Necə ölçdü-biçdi? Sonra (qövmünün üzünə) baxdı. Sonra üz-gözünü turşutdu, qaş-qabağını tökdü. Sonra da üz çevirdi. (Peyğəmbərə tabe olmağa) təkəbbür göstərdi. Və dedi: Bu (sehrbazlardan) öyrənilən sehrdən başqa bir şey deyildir! Bu, yalnız bəşər sözüdür! Biz onu Səqərə atacağıq. (Orada yandıracağıq).

Bu ayələrdən də açıq-aydın görürük ki, əgər bir elm insana cənnət qazandıra bilməsə, həmin elmin heç bir faydası yoxdur. Vəlid o qədər elmi ilə cəhənnəmdən başqa bir şey qazana bilmədi. Əlbəttə, qeyd olunduğu kimi, insan hər hansı bir şeyin vasitəsilə cənnəti qazana bilmirsə, həmin şeyin faydası və bərəkəti olmaz. Həmçinin ağıl da onlardan biridir.

İmam Sadiqdən(ə) "Ağıl nədir?" – deyə soruşduqda İmam(ə) həmin bu sualın cavabında belə buyurdu:

الْعَقْلُ قَالَ مَا عُبِدَ بِهِ الرَّحْمَنُ وَ اكْتُسِبَ بِهِ الْجِنَانُ. قَالَ: قُلْتُ فَالَّذِي كَانَ فِي مُعَاوِيَةَ؟ فَقَالَ تِلْكَ النَّكْرَاءُ تِلْكَ الشَّيْطَنَةُ وَ هِيَ شَبِيهَةٌ بِالْعَقْلِ وَ لَيْسَتْ بِالْعَقْلِ

-Ağıl odur ki, onun vasitəsilə Rəhman olan Allaha ibadət olunsun və cənnət qazanılsın.

Rəvayətçi deyir: "Soruşdum ki, bəs Müaviyədə olan nə idi?"

Həzrət(ə) buyurdu: "O, hiylə idi, şeytanlıq idi. O, ağıla oxşayır, ancaq ağıl deyil."[1]

قال علي(ع): اِنَّ العاقلَ مَن نَظَرَ فِي يَومِهِ لِغَدِهِ و سَعى فِي فَكاكِ نَفسهِ و عَمِلَ لِما لابُدَّ لَه و لا مَحِيصَ لَهُ عَنه

-Həzrət Əli(ə) buyurur: "Həqiqətən, ağıllı insan o kəsdir ki, sabahının fikrində olsun. Özünü (dünyaya

[1] Mizanül-hikmə,8-ci cild, hədis-13466.

bağlayan şeylərdən) azad edib, qarşıda labüd olan şeylərdən (cəhənnəm odundan) qorunmaq üçün çalışsın.”[1]

Bəzən insan özünə qarşı təhlükə ehtimalı hiss edir, bəzən isə həmin təhlükənin baş verəcəyini yəqin bilir. Belə olduqda insan həmin təhlükənin qarşısını almaq üçün çalışmazmı? Ölüm hamı üçün vardır və heç bir kəs bu ölümdən qaça bilməyəcək. Bəziləri bu məsələyə çox sadə yanaşaraq deyirlər ki, insan bir gün yaranıb, bir gün də öləcəkdir. Amma öləndən sonra insanın başına nələr gələcəyini yəqin bilsə, indidən tədarükünü görər və qarşıda onu gözləyən təhlükədən özünü qoruyar. İnsan başa düşməlidir ki, öldükdən sonra onu təhlükəli anlar gözləyir. Əgər insan o təhlükənin nə olduğunu başa düşsəydi, boğazından bir qurtum su da keçməzdi. Buna görə də insan dünyada onu qarşıda gözləyən həmin təhlükələrdən (cəhənnəm odundan) qorunmaq üçün çalışmalıdır. Hər bir kəs özünü onun üçün labüd olan təhlükədən qurtara bilirsə, deməli, ağıllı adamdır. “Mülk” surəsinin 8-11-ci ayələrində belə buyurulur:

...كُلَّمَا أُلْقِيَ فِيهَا فَوْجٌ سَأَلَهُمْ خَزَنَتُهَا أَلَمْ يَأْتِكُمْ نَذِيرٌ. قَالُوا بَلَى قَدْ جَاءنَا نَذِيرٌ فَكَذَّبْنَا وَقُلْنَا مَا نَزَّلَ اللَّهُ مِن شَيْءٍ إِنْ أَنتُمْ إِلَّا فِي ضَلَالٍ كَبِيرٍ. وَقَالُوا لَوْ كُنَّا نَسْمَعُ أَوْ نَعْقِلُ مَا كُنَّا فِي أَصْحَابِ السَّعِيرِ. فَاعْتَرَفُوا بِذَنبِهِمْ فَسُحْقًا لِّأَصْحَابِ السَّعِيرِ

-Hər hansı bir dəstə oraya atıldıqları zaman gözətçilər onlardan soruşarlar: “Məgər (dünyada) sizə bir qorxudan (peyğəmbər) gəlməmişdimi?”

[1] Yenə orada, hədis-13460.

Deyərlər: “Bəli, şübhəsiz, bizə (Allah tərəfindən) bir qorxudan gəlmişdi, lakin biz onu təkzib etdik və dedik: Allah heç bir şey nazil etməmişdir. Siz ancaq böyük bir azğınlıq içindəsiniz.”

Və deyərlər: “Əgər Biz (həqiqətən,) eşitsəydik, ya ağıllı (düşünən) olsaydıq, əsla yanar cəhənnəm odunun əhli zümrəsində olmazdıq.”

-“Maidə” surəsinin 58-ci ayəsində oxuyuruq:

وَإِذَا نَادَيْتُمْ إِلَى الصَّلاَةِ اتَّخَذُوهَا هُزُوًا وَلَعِبًا ذَلِكَ بِأَنَّهُمْ قَوْمٌ لاَّ يَعْقِلُونَ

-(İnsanları) namaza çağırdığınız zaman onlar onu lağa qoyar və ələ salarlar. Bu ona görədir ki, onlar ağılsız bir tayfadırlar.

Bu ayələrdən də açıq-aydın görürük ki, cəhənnəm əhli ağılsız insanlardan ibarətdir. Çünki ağıllı insan öz ağlı ilə cənnəti qazanmalıdır. Namaz qılmaq Allaha ibadət və səcdə etməkdir. Hər kəs namaz qılırsa, Allaha ibadət edirsə, deməli, cənnəti qazanır. Ağıl insan üçün çox mühüm amillərdən biridir və insan onun vasitəsilə cənnəti əldə edə bilir.

أَثْنَى قَوْمٌ عَلَى رَجُلٍ عِنْدَ رَسُولِ اللَّهِ (ص) حَتَّى أَبْلَغُوا فِي الثَنَاءِ فِي خِلالِ الْخَيْرِ قَالَ رَسُولُ اللَّهِ (ص): كَيْفَ عَقْلُ الرَّجُلِ؟

قَالُوا: يَا رَسُولَ اللَّهِ، نُخْبِرُكَ عَنِ اجْتِهَادِهِ فِي الْعِبَادَةِ وَأَصْنَافِ الْخَيْرِ وَتَسْأَلُنَا عَنْ عَقْلِهِ.

قَالَ رَسُولُ اللَّهِ(ص): إِنَّ الأَحْمَقَ يُصِيبُ بِحُمْقِهِ أَعْظَمَ مِنْ فُجُورِ الْفَاجِرِ, وَإِنَّمَا يُرْفَعُ الْعِبَادُ غَدًا فِي الدَّرَجَاتِ وَيَنَالُونَ الزُّلْفَى مِنْ رَبِّهِمْ عَلَى قَدْرِ عُقُولِهِمْ

-Ənəs ibn Malik deyir: “Günlərin birində bir qrup mömin Həzrət Peyğəmbərin(s) yanında bir nəfərin haqqında söhbət edirdilər. Hamı onun yaxşı xüsusiyyətlərindən söz açdı.

Peyğəmbər(s) soruşdu: Onun ağlı necədir?

Dedilər: Ya Rəsulallah, biz onun ibadətə ciddi yanaşmasından və digər yaxşı xüsusiyyətlərindən söhbət edirik. Amma siz onun ağlı barədə soruşursunuz?

Peyğəmbər(s) buyurdu: Axmaq və nadan insan öz axmaqlığı ilə günahkar (fasiq, facir) insanın vurduğu ziyandan daha böyük ziyan vurar. Bəndələr sabah (yəqin ki qiyamətdə) dərəcələrinə görə yüksələcək və tanrıdan öz ağıl səviyyələrinə görə mükafat alacaqlar.”[1]

İnsanın onu qarşıda gözləyən təhlükədən nicat tapmasının yeganə çıxış yolu Allahı tanıyıb Ona səcdə etməsidir. İnsan bu dünyaya öz ixtiyarı ilə gəlməyib. Dünyaya gəlmiş insanın yenidən ana bətninə qayıtması mümkün deyil. Məcburi olaraq ölümə doğru gedir. Əgər öz ağlı ilə bu gedişdə düzgün yolu tapa bilsə, ağlının nəticə və bəhrəsini görəcəkdir. Əgər insan həqiqət yolunu tapa bilməsə, cəhənnəm oduna düşəcək. Buna görə də insanın Allaha ibadət etməsi və cənnətə doğru hərəkət etməsi üçün ona sağlam və bərəkətli ağıl lazımdır.

[1] Təfsiri-nümunə,24-cü cild, səh.329.

## Bərəkətin bariz nümunələri və onun səbəbləri

Yuxarıda bərəkətin nə olduğu və insan üçün hansı şeylərin bərəkətli olması haqda söz açdıq. Burada yaxşı olar ki, nələrin bərəkətli olduğundan da söhbət açaq. Ayə və hədislərdə kimlərin və nələrin bərəkətli olması açıqlanmışdır. Nümunə üçün onların haqqında qısaca məlumatlanmağımız yaxşı olar.

### 1. Allahın zatı və onun mübarək adları

Bərəkətin mənbəyi Allahdır. Allahın zatı, müqəddəs adları bərəkətdir. "Möminun" surəsinin 14-cü ayəsində oxuyuruq:

فَتَبَارَكَ اللَّهُ أَحْسَنُ الْخَالِقِينَ

-Yaradanların ən yaxşısı olan Allah çox xeyir-bərəkətlidir!

"Ər-Rəhman" surəsinin 78-ci ayəsində belə buyurulur:

تَبَارَكَ اسْمُ رَبِّكَ ذِي الْجَلَالِ وَالْإِكْرَامِ

-Cəlal, əzəmət, üstünlük, kərəm, camal və mərhəmət sahibi olan Rəbbinin adı xeyir-bərəkətlidir.

Qeyd olunan ayələrdə görürük ki, həm Allahın özü, həm də Onun müqəddəs adları bərəkətlidir. Bununla yanaşı, bütün varlıq aləmi üçün bərəkətə səbəb olur. Bu ayədə işlənən "İsm" (ad) sözü Allahın Rəhman, Rəhim, Hikmət, Elm, Ədl kimi sifətlərinə işarədir. Allahın adları onun sifətlərinə işarədir. Allahın sifətləri də onun Zatıdır.

Ayədə işlənmiş "Zil-cəlali vəl-İkram" (Cəlal və Kərəm sahibi) ifadəsi Allahın bütün cəlal və camal

sifətlərinə işarə edir. “Cəlal” Onun səlbiyyə, “Zil-ikram” isə Onun sübuti sifətlərinə işarədir.

## Sübuti və səlbi sifətlər

Qeyd olundu ki, Allahın iki cür sifəti vardır. Onlardan biri sübutidir ki, buna “Sifati cəmaliyyə” (Allahın camal sifətləri) deyilir. Yəni Allahda olan sifətlər. Hər kəsdə bu sifətlər olmuş olsa, onun kamalına, şövkətinə və əzəmətinə dəlildir. Digər sifət isə səlbidir ki, “Sifati cəlaliyyə” (Allahda olmayan sifətlər) adlanır. Yəni hər kəsdə bu sifət olarsa, həmin şəxsin nöqsanlılığına dəlalət edər. Allahın zatında nöqsanlılıq olmadığı üçün səlbi sifətlər də Onda yoxdur.

Sübuti sifətlər Allahda olan sifətlərdir. Məsələn, elm, qüdrət, həyat və bu kimi sifətləri sadalamaq olar. Bu sifətlər kamal, camal sifətləridir. Səlbi sifətlər isə Allahda olmayan sifətlərdir. Məsələn, cisim olmaq kimi sifətlər. Cisim olmağı Allaha aid etmək (Allahı cisim bilmək) haramdır. Çünki Allah cisim deyildir. Əgər cisim olsa, məkana ehtiyacı olacaq. Belə olduqda Allahın ehtiyacı olmuş olar. Halbuki biz Quranda “Allahus-Səməd” - oxuyuruq. Yəni Allahda heç bir ehtiyac təsəvvür olunmur. Heç kim təsəvvür edə bilməz ki, Allahın kiməsə və yaxud nəyəsə ehtiyacı vardır. Amma əgər cisim olarsa, onun məkana ehtiyacı olacaq. Cisim istər yerdə olsun, istər göydə, mütləq məkana ehtiyacı vardır. Məsələn, quş bir cisimdir. O, göydə də olsa, yerdə də olsa, həmişə məkana ehtiyacı vardır. Buna görə də səlbi sifətlər o sifətlərdir ki, Allahda yoxdur. Bu sifəti Allahda təsəvvür belə etmək olmaz.

## Sübuti sifətlərin qisimləri

Deməli, bildik ki, sübuti sifətlər Allahda olan, səlbi sifətlər isə Allahda olmayan sifətlərdir. Lakin Allahda olan sübuti sifətlər iki qisimdir. Onlardan biri Allahın zati sifəti, digəri isə feli (iş) sifətidir. Burada yaxşı olar ki, hər ikisini başa düşmək üçün izah verək.

## Allahın zati sifətləri

Sübuti sifətlərin bir hissəsi Allahın zatına aid olan sifətlərdir. Yəni o sifətlər Allahın zatında vardır. Onları Allahdan ayırmaq heç cür mümkün deyil. Yəni Allahın zatını o sifətlər təşkil edir. Məsələn, dirilik Allahın zati sifətlərindən biridir. Diriliyi Ondan ayırmaq mümkün deyil. Elm, qüdrət kimi sifətləri Allahdan ayırmaq qeyri-mümkündür. Çünki bütün zati sifətlərin hamısı Allahın zatındadır. Heç bir vaxt Allahı elmsiz, qüdrətsiz təsəvvür etmək olmaz.

## Allahın feli (iş) sifətləri

Allahın sübuti sifətinin ikinci qisminə gəldikdə isə onlar Allahın felinin (işinin) sifətləridir. Yəni bu sifətlər Allahın gördüyü işlərin sifətidir. Məsələn, Rəzzaq (Ruzi verən), Xaliq (Yaradan) Allahın feli sifətləridir. Əgər Allah bir şey yaratmasaydı, Onun xaliq olduğunu heç kəs bilməyəcəkdi. Əgər Allah ruzi verməsəydi, Onun Rəzzaq olduğunu heç kəs bilməyəcəkdi. Deməli, Allahın feli sifətlərini onun işlərindən başa düşmək olur ki, Allah bu sifətlərin sahibidir. Amma zati sifətlər bunun kimi deyil. Allah ruzi versə də, verməsə də, yaratsa da, yaratmasa da diriliyi ondan ayırmaq olmaz. Çünki dirilik, qüdrət kimi sifətlər Onun zati sifətləridir. Yaratmaq, ruzi vermək

kimi sifətlər isə Onun feli sifətləridir. Məsələn, bir şəxsə baxdıqda insanın fikrinə sürücülük və yaxud dərzilik düşməz. Onu görməyin sürücülüyə və yaxud dərziliyə heç bir dəxli yoxdur. Amma əgər həmin şəxsin bir dəfə paltar tikdiyini, yaxud sürücülük etdiyini görərsə, onu gördükdə sürücülük, yaxud dərzilik yada düşəcək. Amma dirilik elə deyil. Hər bir insanı gördükdə diriliyi başa düşmək olur. Allahın zatında dirilik sifəti vardır. Allah üçün ölüm sifəti yoxdur. Çünki onun zatında ölüm yoxdur. İnsanlar bir zaman yox idilər. Bir zaman onlara həyat verildi, bir zaman da həmin həyat onlardan alınacaq. Amma Allah həmişə diridir və diri də olacaqdır. Çünki onda ölmək sifəti yoxdur. Dirilik Allahın zatının sifətidir. Amma ruzi vermək, yaratmaq isə Onun işinin sifətləridir. Onun ruzi verməsindən başa düşürük ki, Allah ruzi verəndir. Onun yaratmasından başa düşürük ki, Allah yaradandır. Əgər Allahın ruzi verməsindən xəbərimiz olmasaydı, Onun bu sifətindən də xəbərimiz olmayacaqdı.

## Allahın adları və sifətləri bərəkətə və duaların qəbul olunmasına səbəb olur

Allahın mübarək adları həm bərəkətin nazil olmasına, həm də duaların müstəcab olmasına səbəb olur. Günlərin birində bir nəfər Peyğəmbərin(s) yanında dua etməyə başlayarkən belə dedi:

يَا ذَا الْجَلَالِ وَالْإِكْرَامِ

-Ey cəlal və kərəm sahibi.

Peyğəmbər(s) buyurdu: "Duaların qəbul olunacaq. Elə isə (Allahdan) nə diləyirsən dilə."[1]

Səhabələrdən biri deyir: "Günlərin birində Həzrət Peyğəmbər(s) namazdan sonra belə dua etdi:

اَللَّهُمَّ إِنِّي أَسْأَلُكَ بِأَنَّ لَكَ الْحَمْدَ لاَ إِلَهَ إِلاَّ أَنْتَ وَحْدَكَ لاَ شَرِيكَ لَكَ، الْمَنَّانُ بَدِيعَ السَّمَاوَاتِ وَالْأَرْضِ يَا ذَا الْجَلاَلِ وَالْإِكْرَامِ، يَا حَيُّ يَا قَيُّومُ إِنِّي أَسْأَلُكَ...

-İlahi, Səndən istəyirəm. Həqiqətən, bütün həmdlər sənə məxsusdur. Səndən başqa heç bir məbud yoxdur. Təksən və Sənin heç bir şərikin yoxdur. Ey göyləri və yeri yaradan minnət sahibi. Ey cəlal və kərəm sahibi.( Öz zatı ilə var olan) diri və (varlıq aləmini) bərqərar saxlayan qadir Allah. Səndən istəyirəm ki...

لَقَدْ دَعَا اللهَ بِاسْمِهِ الْعَظِيمِ، الَّذِي إِذَا دُعِيَ بِهِ أَجَابَ، وَإِذَا سُئِلَ بِهِ أَعْطَى

Həzrət(s) sonra buyurdu:

-Allaha dua edərkən Onun böyük olan adlarını çəkin. Çünki Allahı adları ilə çağırdıqda dualar qəbul olar və Ondan bir şey istədikdə əta edər."[2]

Həqiqətən də əgər insan saf niyyətlə, pak qəlblə, tam yəqinliklə Allahın adını çəksə, Allah həmin şəxsin istəklərini verər və çətinlikləri ona asan edər.

---

[1] Təfsiri-nümunə,23-cü cild, səh.188.
[2] Təfsiri-nümunə,23-cü cild, səh.188.

Nəmrudun Rəzə adlı bir qızı vardı. İbrahim Peyğəmbəri(ə) mancanağa qoyub odun içinə atarkən o qız eyvanda durub İbrahimin(ə) aqibətini gözləyir və bu hadisəyə tamaşa edirdi. Lakin gördü ki, atəş İbrahimi(ə) yandırmır. Eyvandan Həzrət İbrahimi(ə) səslədi və dedi: "Ya İbrahim! Sən nə dedin ki, od səni yandırmadı?"

Həzrət İbrahim(ə) buyurdu: "Hər kim qəlbən Allaha iman gətirərək "Bismillahir-Rəhmanir-Rəhim" - desə od onu yandırmaz."

Qız eyvandan düşüb "Bismillahir-Rəhmanir-Rəhim" - deyərək tonqalın içinə daxil oldu və gedib Həzrət İbrahimin(ə) yanında əyləşdi. Hədislərdə belə nəql olunur ki, sonra Həzrət İbrahim(ə) o qızı öz oğlanlarının biri ilə evləndirdi, həmin ailədən bir neçə peyğəmbər dünyaya gəldi.

Alimlərdən biri öz moizəsində qeyd edir ki, hər bir kəs sidq ürəklə "Bismillahir-Rəhmanir-Rəhim" - deyib suyun üzünə ayağını qoysa batmaz. Bu zaman bir cavan oğlan onun sözlərinə diqqətlə qulaq asırmış. Alimin söhbəti başa çatdıqdan sonra həmin oğlan evlərinə yollanır. Yolun üstündə bir çay axırdı. Çayın kənarına çatdıqda yolu kəsə getmək üçün "Bismillahir-Rəhmanir-Rəhim" - deyib suyun üzü ilə çayın digər tərəfinə keçir. Bundan sonra həmişə bu yolu belə gedib-gəlirmiş. Günlərin birində həmin alimi öz evlərinə qonaq çağırır. Alim də onun dəvətini qəbul edib yola düşür. Çayın kənarına çatdıqda alim həmin oğlandan soruşur: "Burada körpü yoxdurmu? Oğlan deyir: Körpü bir az uzaqdadır. Bura kəsə yoldur. Alim soruşur: Bəs sən çayın o biri tərəfinə necə keçirsən? Oğlan deyir: Səndən eşitdim ki, hər kəs sidq ürəklə "Bismillahir-Rəhmanir-Rəhim" -

deyib suyun üzünə ayağını qoysa batmaz. Həmin gündən bəri mən bu yolla evə gedib-gəlirəm. Alim onun üzünə baxıb deyir: Sən bu sözü imanla eşidib, imanla da əməl etdiyin üçün həmin sözün həqiqətinə qəti şəkildə inanmısan. Buna görə də Allah sənə suyun üzərində yeriməyə icazə vermişdir. Sən təmiz ürəklə eşidib əməl etmisən. Mən isə oxuduqlarımı sənə danışmışam. Lakin mən suyun üzərində yol gedə bilmərəm. Mənə körpü lazımdır.”

## İsmi Əzəm
## (Allahın uca və əzəmətli adları)

İsmi Əzəm ona deyilir ki, “Allah” kəlməsi ilə başlayıb “Huvə” kəlməsi ilə qurtarsın. Quranda beş ayə və beş surədə bu vardır.

Birincisi “Bəqərə” surəsinin 255-ci ayəsindədir ki, “Ayətəl-kürsü” adlanır. Bu ayədə oxuyuruq:

اللّهُ لاَ إِلَـهَ إِلاَّ هُوَ الْحَيُّ الْقَيُّومُ لاَ تَأْخُذُهُ سِنَةٌ وَلاَ نَوْمٌ لَّهُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ مَن ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ إِلاَّ بِإِذْنِهِ يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ وَلاَ يُحِيطُونَ بِشَيْءٍ مِّنْ عِلْمِهِ إِلاَّ بِمَا شَاء وَسِعَ كُرْسِيُّهُ السَّمَاوَاتِ وَالأَرْضَ وَلاَ يَؤُودُهُ حِفْظُهُمَا وَهُوَ الْعَلِيُّ الْعَظِيمُ

-Tək olan Allahdır ki, Ondan başqa bir məbud yoxdur! (Öz zatı ilə var olan) diri və (varlıq aləmini) bərqərar saxlayan qadir və əbədidir. Onu əsla nə mürgü tutar, nə də yuxu! (Yaradılış, qorumaq, idarə etmək və yox etmək Onun istəyindən asılı olduğu üçün) göylərdə

və yerdə olanların hamısı (göylər və yer də daxil olmaqla) Ona məxsusdur. İzni olmadan Onun hüzurunda kim vasitəçilik və şəfaət edə bilər?! İnsanların qarşısında olanı da, arxalarında olanı da (dünyanın keçmiş və gələcək hadisələrini) bilir və onlar Onun elmindən Onun istədiyindən başqa heç bir şeyi bilə bilməzlər. Onun (səltənət və rübubiyyət) kürsüsü göyləri və yeri əhatə etmişdir. Onları (göyləri və yeri) qoruyub saxlamaq Onun üçün çətin və yorucu deyildir. O, çox uca və böyükdür.

İkincisi "Ali-İmran" surəsinin 2-4-cü ayələrindədir ki, oxuyuruq:

اللّهُ لا إِلَهَ إِلاَّ هُوَ الْحَيُّ الْقَيُّومُ. نَزَّلَ عَلَيْكَ الْكِتَابَ بِالْحَقِّ مُصَدِّقاً لِّمَا بَيْنَ يَدَيْهِ وَأَنزَلَ التَّوْرَاةَ وَالإِنجِيلَ. مِن قَبْلُ هُدًى لِّلنَّاسِ وَأَنزَلَ الْفُرْقَانَ

-Tək olan Allah ki, Ondan başqa bir məbud yoxdur! O diri və Öz zatı üzərində dayanan, (varlıq aləmini) öz yerində saxlayan qüdrət sahibi və əbədidir. Özündən qabaqkıları (peyğəmbərləri, şəriətləri və səmavi kitabları) təsdiq edən bu kitabı haqq olaraq (və ali və əqlani bir məqsədlə) sənə tədricən nazil etdi. Tövrat və İncili (onların hər birini isə) birdəfəlik və məcmu halında nazil etdi, bundan öncə insanları hidayət etmək üçün! Və Furqanı (haqq ilə batili bir-birindən ayıran digər səma kitablarını) nazil etdi.

Üçüncüsü "Nisa" surəsinin 87-ci ayəsindədir. Burada oxuyuruq:

اللّهُ لا إِلَهَ إِلاَّ هُوَ لَيَجْمَعَنَّكُمْ إِلَى يَوْمِ الْقِيَامَةِ لاَ رَيْبَ فِيهِ وَمَنْ أَصْدَقُ مِنَ اللّهِ حَدِيثًا

-Tək olan Allah ki, Ondan başqa bir məbud yoxdur. Sizi mütləq (qəbirlərinizdən) barəsində heç bir şəkk-şübhə olmayan qiyamət gününə (hesaba) toplayacaqdır. Sözdə kim Allahdan daha doğruçu ola bilər?!

Dördüncüsü "Taha" surəsinin 8-ci ayəsidir ki, burada oxuyuruq:

اللَّهُ لَا إِلَهَ إِلَّا هُوَ لَهُ الْأَسْمَاء الْحُسْنَى

-Tək olan Allah ki, Ondan başqa bir məbud yoxdur! Ən gözəl adlar Ona məxsusdur.

Beşincisi isə "Təğabun" surəsinin 13-cü ayəsidir. Burada oxuyuruq:

اللَّهُ لَا إِلَهَ إِلَّا هُوَ وَعَلَى اللَّهِ فَلْيَتَوَكَّلِ الْمُؤْمِنُونَ

-Tək olan Allah ki, Ondan başqa bir məbud yoxdur və möminlər yalnız Allaha təvəkkül etməlidirlər (iradə və istəkdən başqa özlərinə aid olan bütün işlərin baş verməsini yalnız Ondan bilməli və Onun öhdəsinə qoymalıdırlar).

## İsmi Əzəmin fəziləti

İmam Sadiq(ə) buyurur: "İsmi Əzəm yetmiş üç hərfdir. Onun iki hərfi Həzrət İsaya(ə), dörd hərfi Həzrət Musaya(ə), iyirmi beş hərfi Adəmə(ə) verilmişdir. Amma Allah-təala Həzrət Məhəmmədə(s) onların hamısını öyrətmişdir. Yəni yetmiş iki hərfi ona vermiş, birini isə Özünə məxsus etmişdir."

İmam Hadi (ə) buyurur: “Allahın İsmi Əzəmi yetmiş üç hərfdir, Asəf (Bərxiya) onun bir hərfini bilirdi. Asəf o hərfi dilinə gətirdi, onunla Bilqeysin taxtı arasında nə var idisə, hamısı yerin bətninə batdı və Asəf əlini uzadıb taxtı götürdü. Sonra yer öz əvvəlki halına qayıtdı və bunların hamısı bir göz qırpımında baş verdi. İsmi Əzəmin yetmiş iki hərfi biz (Əhli-beytin) yanındadır və bir hərfi Allah-təalanın yanındadır. Onu Özünün qeyb elminə məxsus edibdir.”

**2. Quran ( Allahın kəlamı)**

Ötən bəhsdə aləmdə olan bərəkətin bariz nümunələrindən söz açmışdıq. Onlardan biri Allahın sifət və adlarıdır ki, bu haqda qısaca da olsa söhbət etdik. Allahın nazil etdiyi Qurani-Kərim bərəkətlidir. Quran həm özü bərəkətdir, həm də bərəkətlidir. “Ənam” surəsinin 155-ci ayəsində oxuyuruq:

وَهَـذَا كِتَابٌ أَنزَلْنَاهُ مُبَارَكٌ فَاتَّبِعُوهُ وَاتَّقُواْ لَعَلَّكُمْ تُرْحَمُونَ

-Bu, Bizim nazil etdiyimiz mübarək bir kitabdır. Buna görə də ona tabe olun və təqvalı olun, bəlkə rəhm olundunuz.

Allah-təala bu ayədə nazil etdiyi kitabın əvvəldən axıra qədər mübarək və bərəkətli olmasına işarə edir və hamını ona tabe olmağa dəvət edir.

“Ənbiya” surəsinin 50-ci ayəsində buyurulur:

وَهَذَا ذِكْرٌ مُّبَارَكٌ أَنزَلْنَاهُ أَفَأَنتُمْ لَهُ مُنكِرُونَ

-Nazil etdiyimiz bu çox bərəkətli bir zikrdir. Belə olan halda siz onu inkar edirsiniz?!

Həzrət Əli(ə) xilafətin əvvəllərində camaata belə buyurdu: “Allah-təala Kitabı (Qurani-Kərimi bəndələr

üçün) bələdçi olaraq göndərdi və onda yaxşı və pisi bəyan etdi. Buna görə də yaxşılıq yolunu tutun ki, (Allah və Peyğəmbərə tərəf) hidayət olunub (məqsədə) çatasınız. Həmçinin pislik tərəfdən uzaq olun ki, doğru yol ilə hərəkət edəsiniz."[1]

قَالَ رَسُولُ اللهِ(ص): الْقُرآنُ مأدُبةُ الله فَتَعَلَّمُوا مَأدُبَتَهُ مَا اسْتَطَعتُم

-İslam Peyğəmbəri(s) bu barədə belə buyurur: "Quran Allahın insanlar üçün yer üzündə açdığı ən gözəl və dolu bir süfrəsidir. Bacardığınız qədər bu süfrədən istifadə edin (öyrənin)."[2]

"İsra" surəsinin 82-ci ayəsində oxuyuruq:

وَنُنَزِّلُ مِنَ الْقُرْآنِ مَا هُوَ شِفَاء وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ

-Biz Qurandan möminlər üçün (mənəvi və ictimai xəstəliklərə) şəfa və rəhmət olan şeyi nazil edirik.

قَالَ عَلِي(ع): وَتَعَلَّمُوا كِتَابَ اللهِ تَعَالى فَإِنَّهُ أَحْسَنُ الْحَدِيثِ وَتَفَقَّهُوا فِيهِ فَإِنَّهُ رَبِيعُ الْقُلُوبِ، وَاسْتَشْفُوا بِنُورِهِ فَإِنَّهُ شِفَاءٌ لما فى الصُّدُورِ، وَأَحْسِنُوا تِلاَوَتَهُ فَإِنَّهُ أَحْسَنُ الْقَصَصِ

-Həzrət Əli(ə) buyurur: "Allah-təalanın kitabını öyrənin. Çünki o sözlərin ən yaxşısı, öyüd-nəsihətlərin ən aydınıdır. Quranı başa düşün (Onda bilikli və fəqih olun). Çünki o, qəlblərin baharıdır. Onun nurunda şəfa axtarın.

[1] Mizanül-hikmə,10-cu cild, səh.4812.
[2] Nəhcül-bəlağə. Xütbə-166.

Çünki o, sinələrdəki xəstəliklərə şəfa verəndir. Onu yaxşı oxuyun, çünki o, ən yaxşı əhvalatdır.”[1]

[1] Mizanül-hikmə,10-cu cild, hədis-16430.

**Quranın bərəkətindən necə istifadə edək?**

Ayə və hədislərdə Quranın nə qədər bərəkətli olduğunu görürük. Burada sual oluna bilər ki, Quranın bərəkətlərindən necə istifadə edək? İnsan Quranın bərəkətindən üç formada istifadə edərək bəhrələnə bilər: oxumaqla, eşitməklə və onun ayələrinə əməl etməklə.

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ أَهْلَ الْقُرْآنِ فِي أَعْلَى دَرَجَةٍ مِنَ الْآدَمِيِّينَ مَا خَلَا النَّبِيِّينَ وَ الْمُرْسَلِينَ فَلَا تَسْتَضْعِفُوا أَهْلَ الْقُرْآنِ حُقُوقَهُمْ

-Həzrət Peyğəmbər(s) buyurur: "Həqiqətən, Quran əhli insanların içində peyğəmbərlərdən sonra ən yüksək dərəcədə qərar tuturlar. Elə isə Quran əhlinin hüquqlarını az və kiçik sanmayın." [1]

Mərhum İmam Xomeyninin(r) həyat yoldaşı deyir: "İmam(r) hər gün namazdan əvvəl Quran oxuyar, ay ərzində bir dəfə Quranı xətm edərdi. Biz Nəcəf şəhərində olarkən onun gözləri ağrıyırdı. Həkim gəlib onu müayinə etdikdən sonra dərman yazdı. Sonra dedi: Bir neçə gün Quran oxumayın. Qoyun gözləriniz istirahət edib sağalsın.

İmam(r) gülümsəyərək buyurdu: Mənə gözlərim Quran oxumaq üçün lazımdır. Əgər Quran oxuya bilməyəcəyəmsə, bu gözlərin mənə nə faydası var? Elə bir iş görün ki, mən Quran oxuya bilim."[2]

Quran dinləməyin də insana böyük savabı var. İnsan Quran ayələrini dinləməklə onun bərəkətindən istifadə edə bilir. Ümumiyyətlə, Quranın öz ayələrində də onu

---

[1] Gəncineyi məaref,1-ci cild, səh.675.

[2] Yenə orada, səh.676.

dinləmək təkid olunmuşdur. “Əraf” surəsinin 204-cü ayəsində buyurulur:

وَإِذَا قُرِىءَ الْقُرْآنُ فَاسْتَمِعُواْ لَهُ وَأَنصِتُواْ لَعَلَّكُمْ تُرْحَمُونَ

-Quran oxunan zaman ona qulaq asın və susun ki, bəlkə rəhm olundunuz.

Quranın bərəkətindən ən çox o insan bəhrə aparar ki, ayələrini oxuyub eşitməklə yanaşı, həm də ona əməl etmiş olsun. Quran Allahın əmanətidir. Allah-təala onu insanların hidayət olunması üçün nazil etmişdir. Hər bir kəs hidayət olmaq, səadətə çatmaq istəyirsə, Qurana əməl etməlidir.

قَالَ رَسُولُ اللهِ(ص): أَنَا أَوَّلُ وَافِدٍ عَلَى الْعَزِيزِ الْجَبَّارِ يَوْمَ الْقِيَامَةِ وَ كِتَابُهُ وَ أَهْلُ بَيْتِي ثُمَّ أُمَّتِي ثُمَّ أَسْأَلُهُمْ مَا فَعَلْتُمْ بِكِتَابِ اللَّهِ وَ بِأَهْلِ بَيْتِي

-Həzrət Peyğəmbər(s) buyurur: “Qiyamət günü Əziz və Cabbar olan Allahın hüzuruna ilk daxil olan şəxs mən olacağam. Onun Kitabı və Əhli-beytimlə birgə səhnəyə gələcəyəm. Sonra isə ümmətim daxil olacaq. Sonra mən ümmətimdən (dünyada) Allahın kitabı və Əhli-beytimlə necə rəftar etdikləri barədə soruşacağam.”[1]

### 3. Bərəkətli məkanlar

Yer üzündə Allahın bərəkətli qərar verdiyi məkanlar vardır. Bu məkanlar Allaha mənsub olan məkanlar

[1] Gəncineyi məaref,1-ci cild, səh.675.

olduğu üçün müqəddəs və bərəkətlidir. Nümunə üçün onların barəsində qısaca söz açaq.

1.Qüds məscidi

Allah-təala Beytül-müqəddəsi bərəkətli qərar vermişdir. Həm Qüds məscidi, həm də onun ətrafını mübarək qərar vermişdir. Necə ki, "İsra" surəsinin 1-ci ayəsində oxuyuruq:

سُبْحَانَ الَّذِي أَسْرَى بِعَبْدِهِ لَيْلاً مِّنَ الْمَسْجِدِ الْحَرَامِ إِلَى الْمَسْجِدِ الأَقْصَى الَّذِي بَارَكْنَا حَوْلَهُ لِنُرِيَهُ مِنْ آيَاتِنَا

-Öz bəndəsini (Muhəmmədi–səlləllahu əleyhi və alihi və səlləm) Özümüzün bəzi nişanələrimizi ona göstərmək üçün bir gecə Məscidül-Həramdan ətrafını (nazil olmuş mələklərin və oradan çıxmış peyğəmbərlərin mənəviyyatı, çoxlu ağacların yaşıllığı və çaylar ilə) mübarək (bərəkətli) etdiyimiz Məscidül-Əqsaya aparan Allah (hər bir eyibdən) pak və nöqsansızdır.

قَالَ عَلِي(ع): اَربَعَةٌ مِن قُصُورِ الْجَنَّة فِی الدُّنیا: مَسجِدُ الْحَرام وَ مَسجِدُ الرَّسُول وَ مَسجِدُ بیتِ الْمُقَدَّس وَ مَسجِد الکُوفَة

-Həzrət Əli(ə) buyurur: "Cənnət qəsrlərindən dördü dünyada vardır. Məscidül-Həram (Kəbə), Peyğəmbər(s) məscidi, Beytül-müqəddəs məscidi (Qüds) və Kufə məscidi."

2) Kəbə

Kəbə Allahın yer üzündə qərar verdiyi məkanlardandır. "Ali-İmran" surəsinin 96-cı ayəsində buyurulur:

إِنَّ أَوَّلَ بَيْتٍ وُضِعَ لِلنَّاسِ لَلَّذِي بِبَكَّةَ مُبَارَكًا وَهُدًى لِّلْعَالَمِينَ

-Şübhəsiz, insanlar(ın ibadəti) üçün (təməli) qoyulmuş ilk ev həmin Bəkkədəkidir (müqəddəs Məkkə şəhərindəkidir) ki, (o,) xeyir və bərəkət dolu və aləmdəkilər üçün hidayət vasitəsidir.

Kəbə evi o qədər müqəddəs və bərəkətlidir ki, hətta ona baxmağın nə qədər savab olduğu hədislərdə bəyan olunmuşdur.

قَالَ رَسُولُ اللهِ(ص): تُفْتَحُ أَبْوَابُ السَّمَاءِ وَيُسْتَجَابُ الدُّعَاءُ فِي أَرْبَعَةِ مَوَاطِنَ: عِنْدَ الْتِقَاءِ الصُّفُوفِ، وَعِنْدَ نُزُولِ الْغَيْثِ، وَعِنْدَ إِقَامَةِ الصَّلَاةَ، وَعِنْدَ رُؤْيَةِ الْكَعْبَةِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Dörd halda göyün qapıları açılar və dualar müstəcab olar:

1. Qılınclar Allah yolunda mübarizəyə qalxdığı zaman;
2. Yağış yağan zaman;
3. Namaz qılınan zaman;
4. Kəbəyə baxan zaman." [1]

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ نَظَرَ إِلَى الْكَعْبَةِ لَمْ يَزَلْ تُكْتَبُ لَهُ حَسَنَةٌ وَ تُمْحَى عَنْهُ سَيِّئَةٌ حَتَّى يَنْصَرِفَ بِبَصَرِهِ عَنْهَا

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kim Kəbəyə baxsa, gözünü ondan çəkənə qədər həmin şəxs üçün yaxşılıq yazılar və günahları silinər.(Yəni hər kəs Kəbə

[1] Nəhcül-fəsahə, hədis-1168.

evinə baxdıqca onun üçün savab yazılar və günahları təmizlənər.)” [1]

Kəbəni təvaf etməyin də çox savabı vardır. Həmin hədisləri oxuduqda doğrudan da insan Kəbənin bərəkətinə heyran qalır. Nümunə üçün həmin hədislərdən bir neçəsinə diqqət yetirək.

قَالَ الصَّادِقُ(ع): كان ابى يقول: مَنْ طَافَ بِهذا الْبَيْتِ أُسْبُوعاً وَ صَلّى رَكعَتَين (فِى اىّ جَوانِب الْمَسجِد شَاء) كَتَبَ اللَّهُ لَهُ سِتَّةَ آلَافِ حَسَنَةٍ وَ مَحَا عَنْهُ سِتَّةَ آلَافِ سَيِّئَةٍ وَ رَفَعَ لَهُ سِتَّةَ آلَافِ دَرَجَةٍ وَ قَضَى لَهُ سِتَّةَ آلَافِ حَاجَةٍ فَمَا عجَّل مِنهَا فَبِرحمَةِ الله وَمَا أَخَّرَ مِنهَا فَشَوقاً اِلَى دُعائِه

-İmam Sadiq(ə) buyurur: “Atam buyurdu: Hər kim bu evi (Kəbəni) yeddi dəfə təvaf etsə və (məscidin hər hansı tərəfində) iki rükət namaz qılsa, Allah-təala həmin şəxsə altı min savab yazar, altı min günahını silər, onun dərəcəsini altı min dərəcə yüksəldər və altı min istəyini rəva edər. Bu istəklərin hər birinin tez rəva olması Allahın rəhmətinə xatirdir. Əgər istəklər təxirə düşürsə, bu, Allahın bəndəsinə olan şövqünə görədir. (Yəni Allah həmin bəndənin yenə də dua etməsini istəyir.)”[2]

Həzrət Peyğəmbər(s) buyurur: “Kim zaval vaxtı (zöhr vaxtı) başı açıq, ayaqyalın, piyada yeriyərək, addımlarını qısa ataraq, gözlərini yerə dikmiş halda, hər

[1] Həcci məqbul, səh. 112.
[2] Kitab və sünnədə həcc əməlləri, səh. 284.

dövrədə həcərül-əsvədə əl sürtərək dilində Allah zikri olan halda və kiməsə əziyyət vermədən (Kəbəni) təvaf etsə, atdığı hər bir addıma görə 70 savab və yaxşılıq yazılar. Onun 70 günahı bağışlanar, 70 dərəcə yuxarı qalxar, 70 qul azad etməyin savabı verilər. İstər bu dünya və istərsə də axirət istəklərindən 70 min hacəti qəbul olunar. (Qiyamət günü) 70 nəfərə öz qohum-əqrəbasına şəfaət etmək imkanı verilər."[1]

قَالَ رَسُولُ اللهِ(ص): اِنَّ اللَّهَ يُبَاهِي بِالطَّائِفِينَ.

-Həzrət Peyğəmbər(s) buyurur: "Allah (Kəbəni) təvaf edənlərlə fəxr edir."[2]

Sual oluna bilər ki, nə üçün təvaf yeddi dövrə vurmaqdan ibarətdir?

Əbu Həmzə Sümali deyir: "Mən bu sualı İmam Səccaddan(ə) soruşdum. Həzrət(ə) buyurdu: Allah-təala Adəmi xəlq etməzdən öncə mələklərə buyurdu:

إِنِّي جَاعِلٌ فِي الأَرْضِ خَلِيفَةً

-Həqiqətən, Mən yer üzündə bir xəlifə (canişin) qoyacağam.

قَالُواْ أَتَجْعَلُ فِيهَا مَن يُفْسِدُ فِيهَا وَيَسْفِكُ الدِّمَاء وَنَحْنُ نُسَبِّحُ بِحَمْدِكَ وَنُقَدِّسُ لَكَ

-(Mələklər) Dedilər: "Orada fəsad törədəcək və qanlar tökəcək bir kəsi (canişin) qoyursan?! Halbuki biz

---

[1] İslam baxımından həcc, səh. 115.
[2] Kitab və sünnədə həcc əməlləri, səh. 282.

Səni kamilliklərlə vəsf edərək zikr oxuyur və (bütün eyib və nöqsanlardan) pak bilirik.”

قَالَ إِنِّي أَعْلَمُ مَا لاَ تَعْلَمُونَ

-Allah buyurdu: “Şübhəsiz, Mən sizin bilmədiyiniz bir şeyi bilirəm.”

Sonra Allah-təala mələkləri dedikləri sözlərinə görə cəzalandıraraq 7 min il Öz nurunu onlardan örtülü saxladı. Mələklər dedikləri sözlərdən peşman olub tövbə etmək üçün Allaha yalvardılar və Onun ərşinə pənah apardılar. Allah-təala onlara əmr verdi ki, yeddi il Beytül-məmuru təvaf etsinlər. Beytül-məmur göyün yeddinci təbəqəsində yerləşir. Mələklər yeddi il onun ətrafına təvaf edib tövbə etdilər. Allah- təala mələklərin tövbəsini qəbul edərək onları bağışladı. Ondan sonra Allah-təala yer üzündə Beytül-məmurun altında Kəbə evini tikdi. Bəndələrinə də onun ətrafına yeddi dövrə təvaf etməyi vacib buyurdu. [1]

Əzrəqi deyir: “Allah yer üzünə göndərdiyi hər bir mələyə əmr edir ki, ilk növbədə ərşin kənarında ehram bağlasınlar, ləbbeyk deyərək gəlib həcərül-əsvədə ləms etsinlər. Kəbənin ətrafını yeddi dövrə təvaf edərək onun içinə daxil olmalı, iki rükət namaz qıldıqdan sonra tapşırılan işləri yerinə yetirər və sonra öz yerlərinə qayıdarlar.”[2]

İmam Baqir(ə) buyurur: “Hər kim Kəbənin ətrafına 7 dövrə təvaf etsə, onunla Allahın arasında əhd-peyman

---

[1] Müstədrəkül-vəsail,6-cı cild, səh. 372.
[2] İslam baxımından həcc, səh. 89.

bağlanmış olur. Bu əhd-peymandan sonra Allah-təala həmin şəxsə əzab verməyə utanar.”[1]

[1] Yenə orada, səh. 112.

## Mültəzəm

Mültəzəm həcərül-əsvədin yerləşdiyi küncdən Kəbənin qapısına qədər olan məsafəyə deyilir. Mültəzəm elə bir yerdir ki, Peyğəmbər(s) onun barəsində buyurur: “Orada dualar qəbul olunar.”

قَالَ الصَّادِقُ(ع): لَمّا طَافَ آدمُ بِالبيتِ وَ انتَهي إِلَي الْمُلتَزَم ، قَالَ لَهُ جِبرَئِيل: أَقِرَّ لِرَبِّكَ بِذُنُوبِك فِي هَذَا الْمَكَان... فَأَوحَى الله عَزّوَجَلّ إِلَيهِ: يَا آدَم، قَد غَفَرتُ ذنبك، قَال: يَا رَبّ وَلِوَلَدِي، فَأَوحَى اللهُ عَزّوجلّ إِلَيه: يَا آدَم، مَن جَاءَ مِن ذرّيتك إِلى هَذا الْمَكَان وَ أَقَرَّ بِذُنُوبِه وَ تَابَ كَمَا تُبتَ ثُمَّ استَغفَرَ غَفَرتُ لَه

-İmam Sadiq(ə) buyurur: “Adəm(ə) (Kəbəni) təvaf edərkən mültəzəmə yetişdikdə Cəbrayıl(ə) ona dedi: Burada öz günahlarını etiraf et və Allahdan məğfirət dilə. Adəm günahını etiraf etdikdən sonra Allah tərəfindən ona belə nida olundu: Ey Adəm, günahını bağışladım. Adəm(ə) ərz etdi: İlahi, mənim övladlarımı da bağışla. Allah-təala buyurdu: Sənin övladlarından hər kim bu məkana gəlib öz günahını etiraf edərsə və sənin (etdiyin) kimi məndən bağışlanmaq diləyərsə, onu bağışlayaram.”[1]

Bundan əlavə, Kəbənin yəmani küncü və həcərül-əsvəd də müqəddəsdir. Hər kəs Kəbənin yəmani küncünü və həcərül-əsvədi ziyarət edib ora toxunsa, cənab Cəbrayıl(ə) həmin şəxs üçün dua edər və Allahdan məğfirət diləyər.

---

[1] Kitab və sünnədə həcc əməlləri, səh. 214.

Ətaə deyir: “Həzrət Peyğəmbərə(s) dedilər: Kəbənin yəmani küncünü tez-tez ləms etdiyinizi görürük. Peyğəmbər(s) buyurdu:

ماأَتَيْتُ عَلَيْهِ قَطُّ اِلاّ و جَبْرَئيلُ قائِمٌ عِنْدَهُ يَسْتَغْفِرُ لِمَنْ اسْتَلَمَهُ

-Nə vaxt yəmani küncün yanına gəlirəmsə, cənab Cəbrayılın(ə) orada dayanıb (oranı ləms edənlər üçün) dua etdiyini və Allahdan onlar üçün məğfirət dilədiyini görürəm.” [1]

قَالَ عَطَاءٌ: حَدَّثَنِي أَبُو هُرَيْرَةَ أَنَّ النَّبِيَّ(ص) قَالَ: وُكِّلَ بِهِ سَبْعُونَ مَلَكًا فَمَنْ قَالَ اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْعَفْوَ وَالْعَافِيَةَ فِي الدُّنْيَا وَالْآخِرَةِ رَبَّنَا آتِنَا فِي الدُّنْيَا حَسَنَةً وَفِي الْآخِرَةِ حَسَنَةً وَقِنَا عَذَابَ النَّارِ قَالُوا آمِينَ

-Ətaə deyir: “Əbu Hüreyrə Həzrət Peyğəmbərdən(s) belə bir hədis nəql edir: Orada yetmiş mələk vəkil olunmuşdur. Hər kim “Ey mənim Allahım, Səndən əfv və afiyət diləyirəm. Ey Rəbbimiz, bizə dünyada da yaxşılıq əta et, axirətdə də yaxşılıq əta et və bizi (cəhənnəm) odun(un) əzabından qoru” - desə həmin mələklər onun bu duasına amin deyərlər.”[2]

### 4. Bərəkətli zamanlar

[1] Yenə orada, səh. 226.

[2] Yenə orada, səh. 230.

Allah-təala bəzi zaman və vaxtları da bərəkətli qərar vermişdir. Burada çox yaxşı olar ki, həmin zamanlarla tanış olaq və onların bərəkətinin səbəbini bilək.

1) Sübh çağı

Allah-təala sübh çağına elə bir bərəkət qoymuşdur ki, bu vaxt hər kim elm və ruzi dalınca getsə, bir nəticə əldə edəcək.

قَالَ رَسُولُ اللهِ(ص): مَن غَدا في طَلَبِ العِلمِ أظَلَّت عَلَيهِ المِلائِكَةُ، وبُورِكَ لَهُ في مَعِيشَتِهِ، ولَم يَنقُص مِن رِزقِهِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kim sübh çağı elm öyrənməyə gedərsə, mələklər onun üzərinə kölgə salar, yaşayış və dolanışığı bərəkətli olar və ruzisi kasad olmaz."[1]

قَالَ رَسُولُ اللهِ(ص): أُغدوا في طَلَبِ العِلمِ ؛ فَإِنَّ الغُدُوَّ بَرَكَةٌ ونَجاحٌ .

-Həzrət Peyğəmbər(s) buyurur: "Sübh çağlarında elm ardınca gedin. Çünki günün əvvəlində (elm yiyələnməyə) getmək bərəkət və qələbəyə səbəb olur."[2]

قَالَ رَسُولُ اللهِ(ص): البُكورُ مُبارَكٌ ، يَزيدُ في جَميعِ النِّعَمِ ، خُصوصا فِي الرِّزقِ.

-Həzrət Peyğəmbər(s) buyurur: "Sübh tezdən durmaq bərəkətlidir. Çünki bütün nemətlər, xüsusilə ruzi sübh çağı çoxalır."[1]

---

[1] Hikmətnameyi Peyğəmbər,6-cı cild, səh. 306.

[2] Yenə orada.

قَالَ رَسُولُ اللهِ(ص): إذا أرادَ أحَدُكُمُ الحاجَةَ فَليُبَكِّر إلَيها؛ فَإِنّي سَأَلتُ رَبّي عَزّ وَ جَلّ أَن يُبارِكَ لِأُمَّتي فِي بُكورِها

-Həzrət Peyğəmbər(s) buyurur: “Sizlərdən biri hansısa işi görmək istədikdə həmin işin ardınca sübh çağı gedin. Çünki mən ümmətim üçün Allahdan sübh çağına bərəkət verməsini istəmişəm.”[2]

قَالَ رَسُولُ اللهِ(ص): يا عَلِيُّ، اغدُ بِسمِ اللّهِ؛ فَإِنَّ اللّهَ تَعالى بارَكَ لِأُمَّتي في بُكورِها

-Həzrət Peyğəmbər(s) Həzrət Əliyə(ə) vəsiyyət edərkən buyurmuşdur: “Ya Əli, sübh çağı Allahın adı ilə işə başla. Çünki Allah-təala mənim ümmətim üçün sübh çağında (çalışanlara) bərəkət qərar vermişdir.”[3]

2) Cümə günü

Cümə günü Allahın bərəkətli qərar verdiyi bir gündür. Peyğəmbərin(s) hədisinə əsasən Allah yanında ən əziz gün cümə günüdür. Allah-təala cümə günü insanın günahlarını təmizləyir və yaxşılıqların savabını çoxaldır.

قَالَ رَسُولُ اللهِ(ص): يَومُ الجُمُعةِ سَيّدُ الأيّامِ، وأعظَمُ عِند اللّهِ عَزَّ وَ جَلّ مِن يَومِ الأَضْحى ويَومِ الفِطْرِ

---

[1] Yenə orada.
[2] Yenə orada.
[3] Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 306.

-Həzrət Peyğəmbər(s) buyurur: “Cümə günü günlərin ağası və sərvəridir. O, Allah yanında qurban və fitr günlərindən daha əzəmətlidir.”[1]

قَالَ رَسُولُ اللهِ(ص): إنَّ يَومَ الجُمُعَةِ سَيِّدُ الأَيّامِ ؛ يُضاعِفُ اللّهُ فيهِ الحَسَناتِ ، ويَمحو فيهِ السَّيِّئاتِ، ويَرفَعُ فيهِ الدَّرَجاتِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Həqiqətən, cümə günü günlərin ağasıdır. Allah- təala həmin gün yaxşılıqları çoxaldır, günahları təmizləyir və dərəcələri (məqamları) yüksəldir.”[2]

قَالَ رَسُولُ اللهِ(ص): أكثِروا مِنَ الصَّلاةِ عَلَيَ يَومَ الجُمُعَةِ؛ فَإِنَّهُ يَومٌ تُضاعَفُ فيهِ الأَعمالُ

-Həzrət Peyğəmbər(s) buyurur: “Cümə günü mənə çoxlu salavat göndərin. Çünki cümə günündə xeyir işlərin savabı və qiyməti bir neçə dəfə artır.”[3]

3) Rəcəb ayı

Allahın bərəkətli etdiyi zamanlardan biri rəcəb ayıdır. Bu ayın fəzilət və şərafəti haqda çoxlu hədis və rəvayətlər nəql olunmuşdur.

عن اين عباس: كانَ رَسولُ اللّهِ صَلّى اللّهُ عَلَيه وَ آلِه إذَا جاءَ شَهرُ رَجَبٍ جَمَعَ المسلِمِينَ حَولَهُ وقامَ فِيهِم خَطيبا، فَحَمِدَ اللّهَ

[1] Yenə orada.
[2] Yenə orada.
[3] Yenə orada.

وأثنى عَلَيهِ، وذَكَرَ مَن كانَ قَبلَهُ مِنَ الأَنبِياءِ عليهم السلام فَصَلّى عَلَيهِم.

ثُمَّ قالَ: أيُّهَا المسلِمونَ، قَد أظَلَّكُم شَهرٌ عَظيمٌ مُبارَكٌ، وهُوَ شَهرُ الأَصَبِّ، يُصَبُّ فيهِ الرَّحمَةُ عَلى مَن عَبَدَهُ إلّا عَبدا مُشرِكا، أو مُظهِرَ بِدعَةٍ فِي الإِسلامِ

-İbn Abbas deyir: “Rəcəb ayı gəldikdə Peyğəmbər(s) müsəlmanları ətrafına toplayıb xütbə oxumağa başladı. Allaha həmd-səna edib keçmiş peyğəmbərləri salamladıqdan sonra belə buyurdu: Ey müsəlmanlar! Böyük və bərəkətli olan bir ay sizin üzərinizə rəhmət sayəsi salmışdır. Bu ayda Allahın rəhməti o kəslərə nəsib olur ki, Ona həqiqi bəndəlik etmiş olsunlar. Müşrik və bidətçil insanlara bu ayın rəhməti nəsib olmayacaq.”[1]

قَالَ رَسُولُ اللهِ(ص): خِيَرَةُ اللّهِ مِنَ الشُّهورِ شَهرُ رَجَبٍ، وهُوَ شَهرُ اللّهِ، مَن عَظَّمَ شَهرَ رَجَبٍ فَقَد عَظَّمَ أمرَ اللّهِ، ومَن عَظَّمَ أمرَ اللّهِ أدخَلَهُ جَنّاتِ النَّعيمِ، وأوجَبَ لَهُ رِضوانَهُ الأَكبَرَ

-Həzrət Peyğəmbər(s) buyurur: “Rəcəb ayı ayların içində Allahın seçilmiş ayıdır. O, Allahın ayıdır. Hər kəs rəcəb ayını böyük saysa, Allahın əmrini böyük saymış olar. Hər kəs Allahın əmrini böyük sayarsa, Allah-təala

[1] Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 302.

həmin şəxsi nemətlə dolu olan cənnətə daxil edər və razılığını ona vacib buyurar.” [1]

4) Şəban ayı

Allahın müqəddəs və bərəkətli etdiyi zamanlardan biri şəban ayıdır. Bu ayın da fəziləti barədə bir çox hədis və rəvayətlər vardır.

قَالَ رَسُولُ اللهِ(ص): إنَّما سُمِّيَ شَعبانَ لِأنَّهُ يَتَشَعَّبُ فيهِ خَيرٌ كَثيرٌ لِلصّائِمِ فيهِ حَتّى يَدخُلَ الجَنَّةَ

-Həzrət Peyğəmbər(s) buyurur: “Şəban ayı ona görə şəban adlandırılmışdır ki, həmin ay oruc tutanlara cənnətə daxil olanadək çoxlu xeyir bəxş edilər.”[2]

قَالَ رَسُولُ اللهِ(ص): إنَّما سُمِّيَ شَعبانَ لِأَنَّهُ تَتَشَعَّبُ فيهِ أرزاقُ المؤمِنينَ (لِرَمَضانَ) وهُوَ شَهرُ العَمَلِ، فيهِ تُضاعَفُ الحَسَنَةُ سَبعينَ، وَالسَّيِّئَةُ مَحطوطَةٌ ، وَالذَّنبُ مَغفورٌ، وَالحَسَنَةُ مَقبولَةٌ

-Həzrət Peyğəmbər(s) buyurur: “Şəban ayı ona görə şəban adlandırılmışdır ki, bu ay insanların ruzisi ramazan ayına qədər bölüşdürülür. Bu ay əməl ayıdır. Bu ayda görülən yaxşı işin savab və mükafatı onun yetmiş bərabərində artır, günahlar tökülərək bağışlanır və yaxşılıqlar qəbul olunur.”[3]

---

[1] Yenə orada.
[2] Yenə orada, 6-cı cild, səh. 304.
[3] Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 304.

5) Ramazan ayı

Mübarək ramazan ayı Allahın bərəkətli təsbit etdiyi zamanlardandır. Demək olar ki, hamı ramazan ayı barəsində az-çox xəbərdardır. Ötən bəhslərimizdə də bu mübarək ay barəsində lazımi qədər söhbət etmişik. Ramazan ayı barədə istənilən qədər hədis və rəvayətlərə də rast gələ bilirik.

قَالَ رَسُولُ اللهِ(ص): شَهرُ رَمَضانَ شَهرُ اللّهِ عز و جل، وهُوَ شَهرٌ يُضاعِفُ اللّهُ فيهِ الحَسَناتِ، ويَمحو فيهِ السَّيِّئاتِ، وهُوَ شَهرُ البَرَكَةِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Ramazan ayı Allahın ayıdır. Elə bir aydır ki, Allah-təala bu ayda yaxşılıqları çoxaldır, günahları bağışlayır. Bu ay çox bərəkətli aydır.”[1]

قَالَ رَسُولُ اللهِ(ص): أتاكُم شَهرُ رَمَضانَ؛ شَهرُ خَيرٍ وبَرَكَةٍ.

-Həzrət Peyğəmbər(s) ramazan ayının gəlişi ilə əlaqədar olaraq söylədiyi xütbədə ramazan ayının bərəkətli bir ay olduğuna işarə edərək buyurur: “Yaxşılıq və bərəkət dolu olan ramazan ayı sizə üz gətirmişdir.”[2]

قَالَ رَسُولُ اللهِ(ص): قَد جاءَكُم شَهرُ رَمَضانَ؛ شَهرٌ مُبارَكٌ

Digər bir hədisdə Həzrət(s) belə buyurur: “Ramazan ayı gəlmişdir. O, bərəkətli bir aydır.”

6) Qədr gecəsi

---

[1] Yenə orada, səh. 298.

[2] Yenə orada.

Allahın bərəkətli təsbit etdiyi zamanlardan biri də Qədr gecəsidir. Bu gecənin şərafət və fəziləti barədə həm Quran ayələrində, həm də bir çox hədislərdə yetərincə bəhs olunmuşdur. Nümunə üçün bir ayə və bir hədisi diqqətinizə çatdırıram. “Duxan” surəsinin 3-cü ayəsində buyurulur: [1]

إِنّا أَنْزَلْناهُ فِي لَيلَةٍ مُبارَكَةٍ

-Biz Quranı mübarək bir gecədə (Qədr gecəsində) nazil etdik.

Bu ayədə iki əsas məsələyə işarə olunur. Biri mübarək bir kitabın nazil olması, digər məsələ isə həmin kitabın mübarək bir gecədə nazil olmasıdır. Yəni Allahın nazil etdiyi mübarək Quran mübarək bir gecədə nazil olmuşdur. Onların hər ikisi bərəkətlidir.

قَالَ رَسُولُ اللهِ(ص): فَإِذا كانَت لَيلَةُ القَدرِ أمَرَ اللّهُ عَزّ وَ جَلّ جَبرَئيلَ عَلَيهِ السّلام، فَهَبَطَ في كَتيبَةٍ مِنَ المَلائِكَةِ إلَى الأَرضِ... فَيُجاوِزانِ المَشرِقَ وَالمَغرِبَ، ويَبُثُّ جَبرَئيلُ عَلَيهِ السَّلام المَلائِكَةَ فِي هَذِهِ اللَّيلَةِ، فَيُسَلِّمونَ عَلى كُلِّ قائِمٍ وقاعِدٍ، ومُصَلٍّ و ذاكِرٍ ويُصافِحونَهُم ويُؤَمِّنونَ عَلى دُعائِهِم حَتّى يَطلُعَ الفَجرُ، فَإذا طَلَعَ الفَجرُ نادى جَبرَئيلُ عَلَيهِ السّلام: يا مَعشَرَ المَلائِكَةِ، الرَّحيلَ الرَّحيلَ، فَيَقولونَ: يا جَبرَئيلُ، فَمَاذا صَنَعَ اللّهُ تَعالى فِي حَوائِجِ المؤمِنينَ مِن اُمَّةِ مُحَمَّدٍ؟ فَيَقولُ: إِنَّ اللّهَ تَعالى نَظَرَ إلَيهِم في هذِهِ

[1] Hikmətnameyi Peyğəmbər, 6-cı cild,səh. 298.

اللَّيلَةِ فَعَفا عَنهُم وغَفَرَ لَهُم إلاّ أربَعَةً : ... مُدمِنَ الخَمرِ، وَالعاقَّ لِوالِدَيهِ، وَالقاطِعَ الرَّحِمِ، وَالمشاحِنَ

-Həzrət Peyğəmbər(s) buyurur: "Qədr gecəsində Allah-təala Cəbrayıla(ə) əmr verər ki, mələklərdən bir qrupunu götürüb yerə ensinlər. Cəbrayıl(ə) Allahın buyurduğu kimi bir qrup mələklə yerə enər, şərqdən qərbə qədər gedərlər. Həmin gecə Cəbrayıl(ə) mələkləri yer üzərinə səpər. Mələklər yer üzündə əyləşənləri, ayaq üstə duranları, namaz qılanları, zikr edənləri salamlayar, onlarla görüşər, sübh çağına qədər dua edənlərin dualarına amin deyərlər. Sübh açılarkən Cəbrayıl(ə) onları səsləyib deyir: Ey mələklər! Qayıdın! Qayıdın! Mələklər ondan soruşarlar: Ey Cəbrayıl, Allah-təala bu gecə Məhəmməd(s) ümmətinin möminləri ilə necə rəftar edəcək? Cəbrayıl(ə) deyər: Allah-təala bu gecə möminlərə nəzər(i-lütf) edər, onları əfv edib bağışlayar. Bu dörd dəstə insan istisna olmaqla: içki içənlər, valideyninin üzünə ağ olanlar, qohumlarla əlaqəni kəsənlər və kin saxlayanlar."[1]

7) Səhər çağı

Allahın bərəkətli müəyyən etdiyi zamanlardan biri də səhər çağıdır. Burada bir daha qeyd edim ki, səhər çağı gecənin yarısından sübh namazına qədər olan vaxta deyilir. Hər kəs bu vaxtlar namaz qılıb dua etsə, duaları qəbul olunar.

[1] Allahın ayı,1-ci cild, səh. 72.

قَالَ البَاقِرُ(ع): فَعَلَيْكُمْ بِالدُّعَاءِ فِي السَّحَرِ إِلَى طُلُوعِ الشَّمْسِ فَإِنَّهَا سَاعَةٌ تُفَتَّحُ فِيهَا أَبْوَابُ السَّمَاءِ وَ تُقَسَّمُ فِيهَا الْأَرْزَاقُ وَ تُقْضَى فِيهَا الْحَوَائِجُ الْعِظَامُ

-İmam Baqir(ə) buyurur: "Səhərlər gün çıxana qədər sizə dua etməyi tövsiyə edirəm. Çünki bu vaxtlar göyün qapıları açılır, ruzilər paylanır və böyük hacətlər yerinə yetirilir."[1]

قَالَ الصّادِقُ(ع): إِنَّ فِي اللَّيْلِ لَسَاعَةً مَا يُوَافِقُهَا عَبْدٌ مُسْلِمٌ ثُمَّ يُصَلِّي وَ يَدْعُو اللَّهَ عَزَّ وَ جَلَّ فِيهَا إِلَّا اسْتَجَابَ لَهُ فِي كُلِّ لَيْلَةٍ قُلْتُ أَصْلَحَكَ اللَّهُ وَ أَيُّ سَاعَةٍ هِيَ مِنَ اللَّيْلِ قَالَ إِذَا مَضَى نِصْفُ اللَّيْلِ

-İmam Sadiq(ə) buyurur: "Həqiqətən, gecənin elə bir anı vardır ki, müsəlman bəndə o vaxt namaz qılsa və Allaha dua etsə, duaları müstəcab olar. Soruşdular: Həmin vaxt gecənin hansı vaxtıdır? İmam(ə) buyurdu: Gecə yarıdan keçən zaman."[2]

8-11) Külək əsən, yağış yağan zaman, zöhr vaxtı, mömininin qanı yerə tökülən zaman

Adı çəkilən bu anlar Allahın bərəkətli müəyyən etdiyi zamanlardır. Belə bir zamanlarda Allah-təala insanın duasını qəbul edər. Bu barədə olan hədis belədir:

[1] Üsuli-Kafi,4-cü cild, səh. 228.
[2] Yenə orada.

قَالَ الصَّادِقُ(ع): اطْلُبُوا الدُّعَاءَ فِي أَرْبَعِ سَاعَاتٍ عِنْدَ هُبُوبِ الرِّيَاحِ وَ زَوَالِ الْأَفْيَاءِ وَ نُزُولِ الْقَطْرِ وَ أَوَّلِ قَطْرَةٍ مِنْ دَمِ الْقَتِيلِ الْمُؤْمِنِ فَإِنَّ أَبْوَابَ السَّمَاءِ تُفَتَّحُ عِنْدَ هَذِهِ الْأَشْيَاءِ

-İmam Sadiq(ə) buyurur: "Dörd vaxtda dua etməyi fürsət bilin: külək əsən zaman, zöhr vaxtı, yağış yağan zaman, müharibədə möminin ilk damla qanının yerə tökülən vaxtı. Çünki bu dörd halda göyün qapıları bəndələrin üzünə açılır."[1]

Həmçinin bəzi zamanlar da vardır ki, Allah-təala onlarda bərəkət qoymuşdur. Müxtəlif hədislərdə o zamanların adı çəkilmiş və bu vaxtlarda duaların qəbul olunması bəyan olunmuşdur. Həmin hədislər belədir:

قَالَ الصَّادِقُ(ع): يُسْتَجَابُ الدُّعَاءُ فِي أَرْبَعَةِ مَوَاطِنَ فِي الْوَتْرِ وَ بَعْدَ الْفَجْرِ وَ بَعْدَ الظُّهْرِ وَ بَعْدَ الْمَغْرِبِ

İmam Sadiq(ə) buyurur: "Dörd şəraitdə dualar müstəcab olur: vitr namazında, gün çıxandan sonra, zöhrdən sonra və məğribdən (gün batdıqdan) sonra."[2]

قَالَ عَلِيٌّ(ع): اغْتَنِمُوا الدُّعَاءَ عِنْدَ أَرْبَعٍ. عِنْدَ قِرَاءَةِ الْقُرْآنِ وَ عِنْدَ الْأَذَانِ وَ عِنْدَ نُزُولِ الْغَيْثِ وَ عِنْدَ الْتِقَاءِ الصَّفَّيْنِ لِلشَّهَادَةِ

İmam Əli(ə) buyurur: "Dörd yerdə dua etməyi qənimət bilin. Quran oxunan yerdə; Azan deyilən zaman;

---

[1] Yenə orada, səh. 226.
[2] Üsuli-Kafi, 4-cü cild, səh. 226.

Yağış yağan zaman; möminlərin kafirlərlə üz-üzə (döyüşə hazır) dayandığı zaman.”[1]

**Bərəkətli insanlar**

Yuxarıda bərəkət haqqında müəyyən qədər bəhs etdik. Həmçinin hansı adların, hansı məkan və zamanların bərəkətli olduğu haqda danışdıq. Burada yaxşı olar ki, ayə və hədislərə əsasən hansı insanların bərəkətli olduğuna da işarə edək. Bəzi insanların vücudu harada olmalarından asılı olmayaraq bərəkətlidir. Yəni Allahın zatı və sifətləri, bəzi məkanlar, bəzi zamanlar bərəkətli olduğu kimi Allah-təala bəzi insanların vücudunu da bərəkətli etmişdir. Camaat onların vücudundan, məsləhətlərindən, sözlərindən istifadə edib bəhrələnə bilər.

1) Peyğəmbərlər

Ayə və hədislərə əsasən Allahın aləmdə insanlar üçün müəyyən etdiyi bərəkətli insanlardan birincisi peyğəmbərlərdir. Peyğəmbərlərin bərəkətli olmaları haqda Quranda bəyan olunmuşdur. Allah-təala “Hud” surəsinin 48-ci ayəsində belə buyurur:

قِيلَ يَا نُوحُ اهْبِطْ بِسَلاَمٍ مِّنَّا وَبَرَكَاتٍ عَلَيْكَ وَعَلَى أُمَمٍ مِّمَّن مَّعَكَ وَأُمَمٌ سَنُمَتِّعُهُمْ ثُمَّ يَمَسُّهُم مِّنَّا عَذَابٌ أَلِيمٌ

-(Allah tərəfindən) deyildi: “Ey Nuh, sənə və səninlə birgə olan dəstələrə Bizim tərəfimizdən olan salamatlıq, salam və bərəkətlərlə aşağı en. Və (tarix boyu

[1] Yenə orada, səh. 227.

onların övladlarından) tezliklə (dünya nemətlərindən) bəhrələndirəcəyimiz ümmətlər gələcəkdir. Sonra isə onlara (azğınlıqlarına və küfrlərinə görə) Bizim tərəfimizdən ağrılı bir əzab yetişəcəkdir.”

Bu ayədə incə bir məqama da işarə olunur ki, o da Nuhun tərəfdarlarının Allahın bərəkətinə nail olması ilə bağlıdır. Amma belə də düşünmək lazım deyil ki, onlar və onlardan törənən övladlar həmişə bu salamatlıq və bərəkətin içində qalacaqlar. Bərəkət və salamatlıq içində yaşamaq üçün özlərini imanla sığortalamalıdırlar. Belə də düşünmək lazım deyil ki, onlar Nuhun(ə) övladları olmaqla, yaxud Nuhun yanında yaşamaqla həmişə bərəkət içində yaşayacaqlar. Yəni əgər onlar Peyğəmbərin(ə) gətirdiklərinə iman gətirib Allaha itaət etsələr, Allah-təala yenə də Öz bərəkətini onlara nazil edəcək. Yox, əgər yollarını azıb haqqa itaət etməkdən boyun qaçırsalar, Allahın əzabına düçar olacaqlar. Hər kəsin əməli özünə aid olduğu üçün nəticəsi də özünə qayıdır. İnsan deyə bilməz ki, mənim ata-babam şərafətli olduqları üçün mən də şərafətliyəm. Hər bir kəsin şərafəti öz əməllərindən asılıdır. “Saffat” surəsinin 113-cü ayəsində Həzrət İbrahim(ə), İshaq və onların övladları haqda belə buyurulur:

وَبَارَكْنَا عَلَيْهِ وَعَلَى إِسْحَقَ وَمِن ذُرِّيَّتِهِمَا مُحْسِنٌ وَظَالِمٌ لِّنَفْسِهِ مُبِينٌ

-Ona (İbrahimə) və İshaqa bərəkət verdik. O ikisinin övladlarından bəziləri yaxşı əməl sahibi, bəziləri özlərinə aşkar zülm edənlərdir.

Bu ayədə də görürük ki, Allah peyğəmbərləri insanların arasında bərəkətli qərar vermişdir. Amma onların sonrakı övladları arasında ola bilsin ki, yaxşı əməl edənlər də olsun, zülm edənlər də. Yəni babaları

İbrahim və İshaqın vücudları ilə fəxr etməməlidirlər ki, Allah onların babalarını bərəkətli təsbit etmişdir. Onların hər biri öz əməllərindən asılıdır. Hər bir kəs yaxşı və pis əməllərinin nəticəsini görəcəkdir. Əgər Allah Həzrət İbrahimi(ə) insanlar üçün bərəkətli qərar veribsə, ondan istifadə edib bəhrələnənlər üçün də bərəkətdir. Həmçinin Allah-təala İsa Peyğəmbəri(ə) də bərəkətli qərar vermişdir. "Məryəm" surəsinin 31-ci ayəsində buyurulur:

وَجَعَلَنِي مُبَارَكًا أَيْنَ مَا كُنتُ

-(İsa dedi)Və məni harada olsam bərəkətli bir vücud edib.

Görürük ki, işıq qaranlıq yerləri nurlandırdığı kimi, peyğəmbərlərin vücudu da harada olsa oranı işıqlandırar. Yəni peyğəmbərlər harada olsalar, oranın insanları üçün xeyir-bərəkətlidir.

قَالَ رَسُولُ اللهِ(ص):جَعَلَنِي نَفّاعا أينَ اتَّجَهتُ

-İslam Peyğəmbəri(s) bu ayə barəsində belə buyurur: "Hara üz tutsam (getsəm), Allah mənim vücudumda xeyir-bərəkət qoymuşdur."

قَالَ رَسُولُ اللهِ(ص): مُبَارَكاً يَعنِي مُعَلِّما ومُؤَدِّبا

Həmin ayə barədə digər bir hədisdə Həzrət(s) belə buyurur: "Bərəkətli, yəni müəllim və tərbiyəçi qərar vermişdir." [1]

Deməli, peyğəmbərlərin bərəkətli olmalarının səbəblərindən biri insanlara ədəb, tərbiyə və elm öyrətmələridir. Hər bir cəmiyyətdə insanlara elm

[1] Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 276.

öyrədən, tərbiyə verən bir insan olarsa, onun da vücudu bərəkətli hesab olunur. Bir şərtlə ki, həmin insan Allaha bağlı olmuş olsun və Ona itaət edən bəndə olsun.

2) İslam Peyğəmbəri(s)

Allahın insanlar üçün bərəkətli qərar verdiyi insanlardan biri şəxsən İslam Peyğəmbəridir(s). İslam Peyğəmbərini(s) xüsusi qeyd etməkdə məqsədim budur ki, Allah-təala onun vücudunda elə bir bərəkət qoymuşdur ki, bu bərəkət qiyamətə qədər davam edəcək. Heç bir peyğəmbərin bərəkəti onun kimi bərəkətli deyil. Çünki İslam Peyğəmbəri(s) həm bütün insanların peyğəmbəridir, həm də onun peyğəmbərliyi qiyamətə qədər davam edəcək. Həmçinin gətirdiyi möcüzəli kitab da qiyamətə qədər insanların səmavi kitabı olacaqdır. Odur ki, Allah-təala İslam Peyğəmbərinin(s) vücudunda xüsusi bir bərəkət qərar vermişdir.

قَالَ رَسُولُ اللهِ(ص): جُعِلَ فِيَ النُّبُوَّةُ وَالبَرَكَةُ.

-Həzrət Peyğəmbər(s) buyurur: "Məndə peyğəmbərlik və bərəkət qərar verilmişdir."[1]

İslam Peyğəmbəri(s) insanlarla Allah arasında olan feyzin vasitəçisidir. Allahın feyz və mərhəməti onun mübarək vücudu ilə insanlara çatır. Buna görə də onun vücuduna bərəkət deyilir. Bəzi hədislərdə İslam Peyğəmbəri (s) bütün bərəkətlərin açarı kimi təqdim olunmuşdur. İmam Səccad(ə) duaların birində İslam Peyğəmbərini(s) yad edərkən bu məsələyə belə işarə edir:

[1] Yenə orada.

إِمَامِ الرَّحْمَةِ، وَ قَائِدِ الْخَيْرِ، وَ مِفْتَاحِ الْبَرَكَةِ

-İslam Peyğəmbəri(s) mərhəmət imamı, xeyirlərin daşıyıcısı və bərəkət xəzinələrinin açarıdır.[1]

قَالَ البَاقِرُ(ع): كانَ بَرَكَةً؛ لا يَكادُ يُكَلِّمُ أحَدا إلّا أجابَهُ

İmam Baqir(ə) İslam Peyğəmbərinin(s) vəsfində belə buyurmuşdur: "O (böyük) bərəkət idi. Kim onunla söhbət edirdisə, həzrətin bərəkətindən əliboş qayıtmırdı."[2]

3) Əhli-beyt

İslam Peyğəmbərinin(s) buyurduğuna əsasən Allahın insanlar içərisində bərəkətli qərar verdiyi insanlardan bir Əhli-beytdir(ə). Qeyd olundu ki, Allahla insanlar arasında feyzin vasitəçisi Həzrət Peyğəmbərdir(s). Həzrətdən(s) sonra bu feyzin insanlara çatdırılmasını Əhli-beyt(ə) davam etdirir və qiyamətə qədər də onlar bu işi davam etdirəcəklər. Onların sonuncusu (İmam Zaman) dünyadan getdikdən sonra qiyamət baş verəcək. Yəni elə bir zaman olmayacaq ki, yer üzündə Allahın höccəti olmasın. Sonuncu höccət dünyadan getdikdə isə qiyamət başlanacaq.

قَالَ رَسُولُ اللهِ(ص): بِهِم يَعمُرُ بِلادَهُ، وبِهِم يَرزُقُ عِبادَهُ، وبِهِم نَزَّلَ القَطرَ مِنَ السَّماءِ، وبِهِم يُخرِجُ بَرَكاتِ الأَرضِ

-Həzrət Peyğəmbər(s) Əhli-beyt(ə) barədə belə buyurur: "Allah onların vasitəsilə şəhərləri abad edir,

---

[1] Səhifeyi Səccadiyyə, 2-ci dua.
[2] Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 278.

bəndələrinə ruzi verir, göydən yağış yağdırır və yerin bərəkətlərini üzə çıxarır.”[1]

قَالَ رَسُولُ اللهِ(ص): الرَّوحُ وَالرّاحَةُ، وَالفَلَحُ وَالفَلاحُ وَالنَّجاحُ، وَالبَرَكَةُ، وَالعَفوُ وَالعافِيَةُ وَالمعافاةُ، وَالبُشرى وَالنَّضرَةُ وَالرِّضا، وَالقُربُ وَالقَرابَةُ، وَالنَّصرُ وَالظَّفَرُ وَالتَّمكينُ، وَالسُّرورُ وَالمحَبَّةُ، مِنَ اللّهِ . تَبارَكَ وتَعالى . عَلى مَن أحَبَّ عَلِيَ بنَ أبي طالِبٍ عليه السلام ووالاهُ ، وَائتَمَّ بِهِ ، وأقَرَّ بِفَضلِهِ ، وتَوَلَّى الأَوصِياءَ مِن بَعدِهِ .

-Həzrət Peyğəmbər(s) buyurur: “Asayiş, rahatlıq, xoşbəxtlik, qələbə, bərəkət, əfv, afiyət, müjdə, şadlıq və məhəbbət Allah tərəfindən Əli ibn Əbu Talibi və ondan sonra gələn imamları sevənlərə və onların vilayətini (imamlığını) qəbul edərək onların yolunu gedənlərədir.”[2]

Sual oluna bilər ki, əgər belədirsə, bəs nə üçün Əhli-beyti(ə) sevməyənlər də bu nemətlərin çoxundan istifadə edirlər? Cavab budur ki, Allah-təala bütün bu nemətləri Əhli-beyt(ə) və onların tərəfdarlarına bəxş etmişdir. Əgər başqaları da bu nemətlərdən bəhrələnirlərsə, özlərinin xəbərləri olmadan onların sayəsində bəhrələnirlər. Məsələn, bağban güllərə və meyvə ağaclarına su verdikdə yabanı və s. bitkilər də həmin sudan içirlər. Bağbanın məqsədi yabanı bitkilərə deyil, güllərə və bəhrəli ağaclara su verməkdir. Allahın sifətlərindən və

[1] Yenə orada, səh. 280.
[2] Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 280.

adlarından biri “Rəhman”dır. Bunun mənası odur ki, Allah-təala dünyada istədiyi insanlara görə bərəkət nazil edir, amma kafirlər də bunlardan istifadə edirlər. Bu elə başa düşülməməlidir ki, Allah onlara da qiymət verir. Əgər onlar dünyanın naz-nemətlərindən istifadə edirlərsə, möminlərin sayəsində istifadə edirlər. Hədislərdə belə nəql olunur ki, əgər dünyanın Allah yanında bir qiyməti olsaydı, ondan kafirlərə bir içim də olsun su verməzdi. Buna görə də dünyanın bütün naz-nemətlərini qiyamətə qədər hamının istifadəsinə vermişdir. Qiyamət baş verdikdə isə həmin gün güllərin meydanı olacaq. Orada alaq və ya yabanı bitkilərə yer yoxdur. Qiyamət günü xoşbəxtlik, səadət, cənnətin nemətləri yalnız Əhli-beyt(ə) və onların tərəfdarlarına məxsus olacaq.

4) Camaat

Allahın bərəkət verdiyi insanlardan bir qrupu da camaatdır. Hədislərdə belə nəql olunur ki, hər kəs insanları bir-birindən ayırmağa çalışsa, Allah həmin şəxsdən bərəkətini kəsər. Allah-təala Onun razılığına əsasən bir yerə toplaşan camaata bərəkət vermişdir.

قَالَ رَسُولُ اللهِ(ص):الجَماعَةُ بَرَكَةٌ، وَالفُرقَةُ عَذابٌ.

-Həzrət Peyğəmbər(s) buyurur: “Camaat bərəkətdir. Ayrılıq salanlar isə əzab.”[1]

Yəni bir cəmiyyətdə insanların bir yerə toplaşması həmin cəmiyyət üçün bərəkət, ayrılıq salanlar isə həmin cəmiyyət üçün əzabdır.

[1] Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 280.

قَالَ رَسُولُ اللهِ(ص): كُلوا جَميعا ولا تَفَرَّقوا؛ فَإِنَّ البَرَكَةَ مَعَ الجَماعَةِ.

-Həzrət Peyğəmbər(s) buyurur: “Birlikdə yemək yeyin və pərakəndə yaşamayın. Çünki bərəkət camaatladır.”[1]

5) Mömin

Allahın bərəkətli etdiyi insanlardan biri də möminlərdir. Harda təmiz, xalis niyyətli və sözü ilə əməli düz olan bir mömin olsa, onun vücudu insanlar (möminlər) üçün bərəkətdir.

قَالَ رَسُولُ اللهِ(ص): اِنَّ الْمُؤمِن بَرَكَةٌ عَلَى الْمُؤمِن

-Həzrət Peyğəmbər(s) buyurur: “Mömin mömin üçün bərəkətdir.”[2]

قَالَ رَسُولُ اللهِ(ص): إنَّ اللّهَ لَيَدفَعُ بِالمؤمِنِ الصّالِحِ عَن مِائَةِ أهلِ بَيتٍ مِن جيرانِهِ البَلاءَ

-Həzrət Peyğəmbər(s) buyurur: “Allah-təala saleh bir möminə xatir onun yüz qonşusunun ailəsinin üzərindən bəlanı uzaqlaşdırar.”[3]

قَالَ رَسُولُ اللهِ(ص): إنَّ اللّهَ عَزَّ وَ جَلّ إذا رَأى أهلَ قَريَةٍ قَد أسرَفوا فِي المِعاصي وفيها ثَلاثُ نَفَرٍ مِنَ المؤمِنينَ ، ناداهُم . جَلَّ جَلالُهُ وتَقَدَّسَت أسماؤُهُ . : يا أهلَ مَعصِيَتي ، لَولا فيكُم مِنَ

---

[1] Yenə orada.
[2] Ədəbe fənayi müqərriban, 2-ci cild, səh. 151.
[3] Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 282.

المؤمنينَ المتَحابّينَ بِجَلالي ، العامِرينَ بِصَلاتِهِم أرضي ومَساجِدي ، وَالمستَغفِرينَ بِالأَسحارِ خَوفا مِنّي ، لَأَنزَلتُ بِكُم عَذابي ثُمَّ لا اُبالي

-Həzrət Peyğəmbər(s) buyurur: "Allah-təala bir kənddə (qəsəbədə, məhəllədə) camaatın günah etməklə hədlərini aşdığını və həmin yerdə (ən azı) üç nəfər xalis möminin olduğunu gördükdə o kəndin camaatına belə buyurar: Ey Mənə qarşı itaətsizlik edib və günah etməklə həddini aşanlar. Əgər sizin aranızda bir-birini yalnız mənə görə sevən, öz namazları ilə məscidləri və yeri zinətləndirən və səhərlər (sübh namazına yaxın) Mənim qorxumdan istiğfar edən bu möminlər olmasaydı, Öz əzabımı sizə nazil edərdim."[1]

6) Qocalar (Ağsaqqallar və ağbirçəklər)

İnsanlar içərisində Allahın bərəkətli etdiyi insanlardan bir qismi də böyüklərdir, yəni yaşlı insanlardır. Əlbəttə, burada qeyd etmək lazımdır ki, Allahın bərəkətli etdiyi insanların özlərinə məxsus dərəcələri vardır. Mömin bərəkətlidir, amma dərəcəsi Əhli-beytin(ə) dərəcəsi ilə bərabər deyil. Peyğəmbərlə(s) digər bərəkətli insanlar da eyni dərəcədə deyil. Yəni hərəsinin öz həddi və dərəcəsi vardır. Həmçinin ağsaqqalların da dərəcələri fərqlidir. Odur ki, Allah hər bir cəmiyyətdə yaşayan ağsaqqal və ağbirçək insanların vücudunu bərəkətli etmişdir. Buna görə də yeniyetmələr və cavanlar cəmiyyətdə onlara hörmət bəsləməli və onların təcrübələrindən faydalanmalıdırlar.

---

[1] Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 282.

قَالَ رَسُولُ اللهِ(ص): البَرَكَةُ مَعَ أَكابِرِكُم

-Həzrət Peyğəmbər(s) buyurur: "Bərəkət böyüklərinizlədir."[1]

قَالَ رَسُولُ اللهِ(ص): البَرَكَةُ مَعَ أَكابِرِكُم أهلِ العِلمِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Bərəkət sizin yaşlı alimlərinizlədir." [2]

7) Xeyirxah insanlar

İnsanlar içərisində Allahın bərəkətli qərar verdiyi insanlardan bir qismi isə xeyirxah insanlardır.

قَالَ رَسُولُ اللهِ(ص): أَحِبُّوا المَعروفَ وأهلَهُ ؛ فَوَالَّذي نَفسي بِيَدِهِ إنَّ البَرَكَةَ وَالعافِيَةَ مَعَهُما

-Həzrət Peyğəmbər(s) buyurur: "Yaxşı və yaxşı işlər görənləri sevin. And olsun Allaha ki, bərəkət və afiyət onlarladır."[3]

8) Qız övladı

İnsanların içərisində Allahın bərəkətli etdiyi bir qrup isə qız övladlarıdır. Allah qız övladlarının vücudunda xüsusi bir bərəkət qoymuşdur.

قَالَ رَسُولُ اللهِ(ص): مَن كانَ لَهُ ابنَةٌ فَاللّهُ فِي عَونِهِ ونُصرَتِهِ، وبَرَكَتِهِ ومَغفِرَتِهِ

---

[1] Yenə orada, səh. 284.

[2] Yenə orada, səh. 284.

[3] Yenə orada, səh. 284.

-Həzrət Peyğəmbər(s) buyurur: “Hər kəsin qız övladı olsa, Allah-təala həmin şəxsə kömək, bərəkət və məğfirətini inayət edər.”[1]

Əlbəttə, burada bir daha qeyd etməliyəm ki, insan öz əməlləri ilə özünü Allahın ona inayət etdiyi bərəkətlərdən məhrum etməməlidir. Yəni insan Allah istəyən bəndə olsa, bütün bu bərəkətlərin ona xeyri olacaq.

قَالَ رَسُولُ اللهِ(ص): رَحِمَ اللّهُ أبَا البَناتِ، البَناتُ مُبارَكاتٌ مُحَبَّباتٌ

Digər bir hədisdə Həzrət(s) belə buyurur: “Allahın rəhməti olsun üç və yaxud üçdən çox qızı olan ataya. Qız övladları bərəkətli və sevilməli olurlar.”[2]

عن ابن عبّاس: إنَّ رَجُلاً دَعا عَلى بَناتِهِ بِالموتِ، فَقالَ (ص): لا تَدعُ؛ فَإِنَّ البَرَكَةَ فِي البَناتِ

İbn Abbas deyir: “Bir kişi öz qızına qarğış edib ölməsini istəyirdi. Peyğəmbər(s) ona buyurdu: Qarğış etmə, Allahın bərəkəti qız övladları ilədir.”[3]

9. Kəmxərc qadın

Allahın bərəkətli etdiyi insanlardan biri də kəmxərc qadındır.

قَالَ رَسُولُ اللهِ(ص): أعظَمُ النِّساءِ بَرَكَةً أيسَرُهُنَّ مَؤونَةً

[1] Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 282.
[2] Yenə orada.
[3] Yenə orada.

-Həzrət Peyğəmbər(s) buyurur: "Ən bərəkətli qadın kəmxərc qadındır."[1]

Əgər ailədə qadının xərci azdırsa, Allah o qadının vücudunda bərəkət qərar vermişdir. Kəmxərc qadın o kəsə deyilir ki, kişini çox zəhmətə salmayıb az miqdar pul və yaxud mal ilə özünü idarə etsin. Yəni gündəlik tələbatları üçün kişini çox sıxıb incitməsin. Belə olduqda Allah-təala həmin qadının vücudunu bərəkətli edər.

Həzrət Əli(ə) Xanım Fatimeyi Zəhra(s.ə) ilə ailə həyatı qurduqda Peyğəmbər(s) qızına vəsiyyət etdi ki, Əlidən(ə) heç nə istəməsin. Çünki ondan bir şey istədikdə həmin şeyi imkanı olmadığından ala bilmədiyi üçün xəcalətli qalmasın.

Tarix kitablarında yazmışlar ki, peyğəmbərlərin birinin zamanında bir kişi bir qadınla ailə qurmuşdu. Arvad ərinə çox yaxşı qulluq edir və həmişə onun xidmətində dayanırdı. Kişi həyat yoldaşının ona belə çox qulluq etdiyini görüb təəccüblənirdi. Günlərin birində kişi dedi: "Səndən bir söz soruşmaq istəyirəm. Qadın onun nə sual verəcəyini başa düşüb dedi: Yaxşısı budur ki, soruşmayasan.

Kişi çox israr etdikdən sonra qadın dedi: Yaxşı sualını ver.

Kişi dedi: Sənin mənə belə qulluq etməyindən elə başa düşürəm ki, məni çox sevirsən.[2]

Qadın dedi: Sənə qarşı ürəyimdə zərrə qədər də olsun məhəbbət yoxdur.

---

[1] Yenə orada, səh. 286.

[2] Beş yüz dastan, 2-ci cild, səh. 292.

Kişi dedi: Bəs mənə belə qulluq etməyin və xidmətimdə dayanmağının səbəbi nədir?

Qadın dedi: Əgər ölənə qədər məndən bu sözü soruşmasaydın bunun səbəbini sənə deməyəcəkdim. İndi ki soruşdun, sənə yalan deyə bilmərəm. Sən mənim ərimsən. Mən Allahın razılığını qazanmağa çalışıram. Evdə ərimə qarşı qulluq etməyi Allah mənə buyurmuşdur. Mən də bu işləri Allahın bərəkətinin nazil olmasına, axirətimin abad olmasına və Allahın buyurduğuna əsasən görürəm.

Qadının bu sözlərindən onun çox zəhmət və əziyyət içində olduğunu başa düşdü. Buna görə də dedi: Mən səni bu əziyyətdən azad etmək istəyirəm.

Sonra kişi onun mehriyyəsini verib təlağını oxudu. O gündən sonra qadın (ev işlərindən) azad və rahat oldu. O dövrün peyğəmbərinə vəhy oldu ki, Allah onların hər ikisini bağışladı. Qadını ona görə bağışladı ki, ailədə Allahın razılığını ayaq altına atmadı. Kişini də ona görə bağışladı ki, kişi onun əzab-əziyyət içində olduğunu bildikdən sonra onu azad edib çətinlikdən qurtardı.

Odur ki, əgər bir ailədə kişi və qadın öhdələrinə düşən vəzifələrini başa düşüb ona dəqiqliklə əməl etsələr, Allahın mərhəmət və bərəkəti də həmin evə nazil olar.

## Bərəkətə səbəb olan əməllər

Ötən bəhslərimizdə bərəkət və bərəkətli adlar, əşyalar, zaman və məkanlar haqqında söhbət etdik. Həmçinin bərəkətli insanlar barəsində də müəyyən qədər danışdıq. Bu bəhsimizdə çox yaxşı olar ki, bərəkətin nazil olmasına səbəb olan amillərlə də tanış olaq. Bir

neçə əməl vardır ki, insan onlara riayət etməklə Allahın bərəkətinin nazil olmasına səbəb olur.

1) İnfaq və sədəqə

İnsana bərəkət gətirən əməllərdən biri Allah yolunda infaq və sədəqə verməkdir. İnfaq etmək və sədəqə vermək insanın həm ruzisini çoxaldar, həm də ruzisinə bərəkət verər. "Səbə" surəsinin 39-cu ayəsində belə buyurulur:

قُلْ إِنَّ رَبِّي يَبْسُطُ الرِّزْقَ لِمَن يَشَاء مِنْ عِبَادِهِ وَيَقْدِرُ لَهُ وَمَا أَنفَقْتُم مِّن شَيْءٍ فَهُوَ يُخْلِفُهُ وَهُوَ خَيْرُ الرَّازِقِينَ

-De: "Həqiqətən, mənim Rəbbim bəndələrindən istədiyinin ruzisini bol edər və azaldar və (Allah yolunda) səhv etdiyiniz hər bir şeyin əvəzini verər. O, ruzi verənlərin ən yaxşısıdır."

قَالَ رَسُولُ اللهِ(ص): إذا أَردتَ أن يُثرِيَ اللّهُ مالَكَ فزَكِّهِ

-Həzrət Peyğəmbər(s) buyurur: "İstəyirsənsə Allah mal-dövlətini çoxaltsın, onun zəkatını ver."[1]

قَالَ رَسُولُ اللهِ(ص): تَصَدَّقوا مِمّا رَزَقَكُمُ اللّه ؛ فَإِنَّ الصَّدَقَةَ لا تَنقُصُ المالَ ولكِن تَزيدُ فيهِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Allahın sizə verdiyi ruzidən sədəqə verin. Çünki sədəqə malı azaltmır, çoxaldır."[2]

---

[1] Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 246.

[2] Yenə orada.

Günlərin birində bir qrup tacir İmam Sadiqlə(ə) birgə səfərə çıxmışdılar. Tacirlər yolkəsənlərin hücumuna məruz qalmaqdan çox narahat idilər. İmam(ə) onlara buyurdu: "Malınızın üçdə bir hissəsini sədəqə verəcəyinizə dair niyyət edin. Belə olduqda malınızın qalan hissəsi qorunacaq. Onlar İmamın(ə) bu sözlərinə qulaq asıb niyyət etdilər ki, mallarının üçdə bir hissəsini sədəqə versinlər. Bir az yol getdikdən sonra yolkəsənlərin onlara tərəf gəldiklərini görüb qorxdular. İmam(ə) buyurdu: Qorxmayın. Onlar sizə toxunmayacaqlar. Yolkəsənlər gəlib İmamın(ə) əlini öpüb dedilər: Yuxuda Peyğəmbəri(s) gördük. Həzrət(s) bizə sənin xidmətində olmağımıza dair göstəriş verdi. Nə əmrin varsa, biz sənin qulluğunda hazırıq. İmam(ə) buyurdu: Sizə heç bir ehtiyacım yoxdur. Sizin şərinizi bizdən uzaqlaşdıran başqalarının şərindən də uzaqlaşdırar."

Hər kəs öz şəhərinə sağ-salamat çatdıqdan sonra niyət etdikləri kimi, mallarının üçdə birini sədəqə verdilər. Onlar bu ticarətdə hər dirhəmdən on dirhəm xeyir götürdülər. Onlardan biri dedi: "İmamın(ə) bərəkətini gördünüzmü?"

İmam(ə) buyurdu: "Bu, sizin Allahla etdiyiniz ticarətin bərəkətidir. İndi ki, Allahla alver etməyin bərəkətini gördünüz, bu işdə davamlı olun."[1]

2) Yemək yedirtmək (acları doyurmaq)

[1] Biharül-ənvar, 93-cü cild, səh. 120.

Bərəkətin nazil olmasına səbəb olan əməllərdən biri də ac bir insanın qarnını doyurmaqdır. Hər kəs bu işi görsə, Allah həmin şəxsə Öz bərəkətini nazil edər.

قَالَ رَسُولُ اللهِ(ص): أيُّما مُؤمِنٍ أطعَمَ مُؤمنا عَلى جوعٍ أطعَمَهُ اللّهُ يَومَ القِيامَةِ مِن ثِمارِ الجَنَّةِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər bir mömin ac mömininin qarnını doyursa, Allah qiyamət günündə həmin şəxsi cənnət meyvələri ilə doyurar." [1]

قَالَ رَسُولُ اللهِ(ص): مَن لَقَّمَ أخاهُ لُقمَةَ حَلواءَ ولَم يَكُن ذلِكَ مَخافَةً مِن شَرِّهِ ، ولا رَجاءً لِخَيرِهِ صَرَفَ اللّهُ عَنهُ سَبعينَ بَلوى فِي القِيامَةِ .

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kəs fikrində nəyinsə qorxusundan, yaxud nəyinsə tamahına görə olmadan şirin bir tikəni qardaşına yedirtsə, Allah qiyamət günü həmin şəxsin yetmiş çətinliyini aradan götürər."[2]

3) Qohum-əqrəbaya baş çəkmə

Bərəkət gətirən əməllərdən biri qohum-əqrəbaya baş çəkməkdir. Bu əməl haqqında çox hədislər nəql olunmuşdur.

---

[1] Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 248.
[2] Yenə orada.

قَالَ رَسُولُ اللّٰهِ(ص): مَن ضَمِنَ لِي واحِدَةً ضَمِنتُ لَهُ أربَعَةً: يَصِلُ رَحِمَهُ فَيُحِبُّهُ اللّٰهُ، ويُوَسِّعُ عَلَيهِ فِي رِزقِهِ، ويَزِيدُ فِي عُمُرِهِ، ويُدخِلُهُ الجَنَّةَ الَّتِي وَعَدَهُ

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kəs bir əmələ görə mənə zamin dayansa, dörd şeyi ona zəmanət verərəm. Kim öz qohum-əqrəbasına baş çəksə, Allah onu sevər, ruzisini çoxaldar, ömrünü uzadar və vəd etdiyi cənnətə daxil edər."[1]

Burada bir mətləbi də diqqətinizə çatdırım ki, sədəqə və qohum-əqrəbaya baş çəkməyin həm bu dünyada, həm də axirətdə müsbət nəticəsi və faydası vardır. Hər kəs bu əməlləri yerinə yetirsə, hərçənd Allaha xatir etməsə belə, həmin şəxsin ruzisi çoxalar, ömrü uzanar. Amma Allaha xatir bu işi yerinə yetirsə, Allah-təala onu bu əməlin axirət faydaları ilə də bəhrələndirəcəkdir. Bir daha qeyd edim ki, hər bir insanın axirət mükafatı onun xalis niyyətindən asılıdır. Yəni bu işi yalnız Allaha xatir görmüş olsun.

4) Qonşu ilə xoş davranmaq

İnsana bərəkət gətirən amillərdən biri də qonşu ilə xoşrəftar olmaqdır. Hədislərdə möminlərə qonşu ilə xoş davranmaq təkid olunmuşdur. Qonşunun qonşu boynunda müxtəlif haqları vardır ki, hədislərdə nəql olunmuşdur.

---

[1] Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 250.

قَالَ رَسُولُ اللهِ(ص): البِرُّ وحُسنُ الجِوارِ زِيادَةٌ فِي الرِّزقِ، وعِمارَةٌ فِي الدُّنيا

-Həzrət Peyğəmbər(s) buyurur: "Qonşu ilə xoş davranmaq insanın ruzisinin çoxalmasına və dünyasının abad olmasına səbəb olar."[1]

5) Yaxşı işlər görmək

İnsana bərəkət gətirən amillərdən biri yaxşı və savab əməllərdir.

قَالَ رَسُولُ اللهِ(ص): لَيسَ عَبدٌ يَفتَحُ بابَ عَطِيَّةٍ يَبتَغي وَجهَ اللّهِ أوصِلَةٍ إلّا زادَهُ اللّهُ بِها كَثرَةً

-Həzrət Peyğəmbər(s) buyurur: "Elə bir bəndə yoxdur ki, Allaha xatir bəxşiş qapılarını açsın və yaxud qohum-əqrəbaya baş çəksin, amma Allah onun ruzisinin bərəkətini artırmasın."[2]

6) Həyatda orta həddi gözləmək

İnsana bərəkət gətirən əməllərdən biri həyatda orta həddi gözləməkdir. Yəni insan həyatında israfa və bədxərcliyə yol verməməlidir.

قَالَ رَسُولُ اللهِ(ص): مَنِ اقتَصَدَ فِي مَعيشَتِهِ رَزَقَهُ اللّه، ومَن بَذَّرَ حَرَمَهُ اللّهُ

---

[1] Yenə orada.

[2] Yenə orada.

-Həzrət Peyğəmbər(s) buyurur: “Hər kəs dolanışığında orta həddi gözləsə, Allah həmin şəxsin ruzisini yetirər. Hər kəs bədxərclik etsə, ruzisinin çoxalmasından və bərəkətindən məhrum olar.”[1]

Allah-təala “Furqan” surəsinin 67-ci ayəsində buyurur:

وَالَّذِينَ إِذَا أَنفَقُوا لَمْ يُسْرِفُوا وَلَمْ يَقْتُرُوا وَكَانَ بَيْنَ ذَلِكَ قَوَامًا

-Və o kəslər ki, (Allah yolunda) xərcləyən zaman nə israf edərək həddi aşar, nə də simiclik göstərərək həddən aşağı enərlər, (onların əməli) bu iki yolun arasında orta həddə və ədalətli olar.

Bu əməl elə bir şeydir ki, hər kəs buna həmişə riayət etsə, həyatda heç bir vaxt yoxsulluq görməz.

قَالَ عَلِيٌّ(ع): مَا عَالَ امْرُؤٌ اقْتَصَدَ

-Həzrət Əli(ə) buyurur: “(Həyatda) mötədilliyi (orta həddi gözləməyi) öz peşəsi edən kəs yoxsul olmayıb.”[2]

7) Təmizlik

İnsana bərəkət gətirən amillərdən biri təmizlik və ona riayət etməkdir. Təmizlik barədə Peyğəmbər(s) və məsum imamlardan bir çox hədislər nəql olunmuşdur. Mövzumuza uyğun olan hədislərdən bir neçəsinə diqqət yetirək.

قَالَ رَسُولُ اللهِ(ص): حَيَ عَلَى الطَّهورِ المبارَكِ، وَالبَرَكَةُ مِنَ اللّهِ

[1] Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 252.
[2] Nəhcül-bəlağə,134-cü hikmət.

-Həzrət Peyğəmbər(s) buyurur: “Paklığa və pakedici şeylərə tərəf tələsin. Çünki Allah onlara bərəkət vermişdir.” [1]

قَالَ رَسُولُ اللهِ(ص): تُرفَعُ البَرَكَةُ مِنَ البَيتِ إذا كانَت فيهِ الكُناسَةُ

-Həzrət Peyğəmbər(s) buyurur: “Zibilli evdən bərəkət götürülər.”[2]

8) Alqı-satqıya asan yanaşma

Ticarətdə həm satıcı, həm də alıcının bir-biri üçün güzəştə getməsi və işə asan yanaşması bərəkətə səbəb olar.

قَالَ رَسُولُ اللهِ(ص): البَرَكَةُ فِي المماسَحَةِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Bərəkət (ticarətə) asan yanaşmaqdadır.”[3]

قَالَ رَسُولُ اللهِ(ص): بارَكَ اللّهُ عَلى سَهلِ البَيعِ ، سَهلِ الشِّراءِ ، سَهلِ القَضاءِ ، سَهلِ الاِقتِضاءِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Allahın bərəkəti olsun o kəsə ki, asan satır, asan alır, asan ödəyir və asanca tələb edir.”[4]

9) Borc və ya nisyə mal vermək

---

[1] Hikmətnameyi Peyğəmbər,6-cı cild, səh. 252.
[2] Yenə orada.
[3] Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 254.
[4] Yenə orada.

Bərəkətin nazil olmasına səbəb olan əməllərdən biri borc və ya nisyə mal verməkdir.

قَالَ رَسُولُ اللهِ(ص): ثَلَاثٌ فِيهِنَّ الْبَرَكَةُ: اَلْبَيْعُ إِلَى أَجَلٍ، وَالْمُقَارَضَةُ، وَخَلْطُ الْبُرِّ بِالشَّعِيرِ لِلْبَيْتِ لَا لِلْبَيْعِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Üç şey insanın yaşayışında bərəkətə səbəb olar. Nisyə mal satmaq, borc vermək və satmaq üçün deyil, evdə istifadə etmək üçün buğdanı arpaya qatmaq (yəni sadə yaşamaq)." [1]

قَالَ رَسُولُ اللهِ(ص): دَخَلْتُ الْجَنَّةَ فَرَأَيْتُ عَلى بابِها: اَلصَّدَقَةُ بِعَشَرَةٍ وَالْقَرْضُ بِثَمانيَةَ عَشَرَ فَقُلْتُ يا جَبْرَئيلُ كَيْفَ صارَتِ الصَّدَقَةُ بِعَشَرَةٍ وَالْقَرْضُ بِثَمانيَةَ عَشَرَ؟ قالَ: لأَنَّ الصَّدَقَةَ تَقَعُ عَلى يَدِ الْغَنىِّ وَالْفَقيرِ وَالْقَرْضُ لايَقَعُ إِلاّ فى يَدِ مَنْ يَحْتاجُ إِلَيْهِ؛

-Həzrət Peyğəmbər(s) buyurur: "(Merac gecəsi) Cənnətə daxil olduqda onun qapısının üzərində belə yazılmışdı: Sədəqənin savabı on dəfə, borcun savabı isə on yeddi dəfə artıqdır.

Cəbrayıldan(ə) soruşdum: Nə üçün sədəqənin savabı on dəfə, amma borcun savabı isə on yeddi dəfə artıqdır?

Cəbrayıl(ə) dedi: Çünki sədəqə həm ehtiyaclının, həm də ehtiyacı olmayanın əlinə çatır. Amma borc isə ehtiyaclı insanın əlinə çatır."[2]

---

[1] Mizanül-hikmə,1-ci cild, hədis-72.
[2] Mizanül-hikmə,10-cu cild, səh. Hədis-16675.

Keçmiş bəhslərimizdə borc haqqında lazımi qədər söhbət etmişik. Burada bəzi məsələləri də bilməyimiz yaxşı olardı. Həmin məsələlərdən biri borclu insana möhlət verməkdir.

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ أَنْظَرَ مُعْسِراً كَانَ لَهُ عَلَى اللَّهِ عَزَّ وَ جَلَّ فِي كُلِّ يَوْمٍ صَدَقَةٌ بِمِثْلِ مَالِهِ عَلَيه

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kəs borcluya (borcu qaytara bilmədiyini görüb) möhlət verərsə, Allah-təala həmin şəxsə verdiyi hər bir gün möhlətə görə həmin borc miqdarında sədəqə (savabı) verər."[1]

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ أَنْظَرَ مُعْسِراً أَظَلَّهُ اللَّهُ بِظِلِّهِ يَوْمَ لَا ظِلَّ إِلَّا ظِلُّهُ

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kəs borcluya (borcu qaytara bilmədiyini görüb) möhlət verərsə, Allah ərşinin kölgəsindən başqa bir kölgənin olmadığı gündə (qiyamət günündə) Allah-təala həmin şəxsi Öz kölgəsində daldalandırar."[2]

---

[1] Yenə orada, 10-cu cild, hədis-86.
[2] Yenə orada, 10-cu cild, hədis-87.

10) Birlikdə süfrə kənarında əyləşmək

Süfrə kənarında birlikdə əyləşib yemək yemək insana bərəkət verər.

قَالَ رَسُولُ اللهِ(ص): اِجتَمِعوا عَلى طَعامِكُم، وَاذكُرُوا اسمَ اللّهِ عَلَيهِ، يُبارِك لَكُم فيهِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Birlikdə yemək yeyin, yeyərkən Allahın adını zikr edin ki, Allah ona (yeməyə) bərəkət versin."[1]

قَالَ رَسُولُ اللهِ(ص):ما مِن مائِدَةٍ أعظَمُ بَرَكَةً مِن مائِدَةٍ جَلَسَ عَلَيها يَتيمٌ

-Həzrət Peyğəmbər(s) buyurur: "Kənarında yetim əyləşən süfrədən daha bərəkətli süfrə ola bilməz."[2]

11) Ağıllı insanlarla oturub-durmaq

İnsana bərəkət gətirən amillərdən biri də ağıllı insanlarla oturub-durmaqdır.

قَالَ الصَّادِقُ(ع): مُجالَسَةُ أَهْلِ الدّينِ شَرَفُ الدُّنْيا وَ الآْخِرَةِ، وَ مُشاوَرَةُ الْعاقِلِ النّاصِحِ يُمْنٌ وَ بَرَكَةٌ وَ رُشْدٌ وَ تَوْفيقٌ مِنَ اللّهِ، فَإِذا أَشارَ عَلَيْكَ الْعاقِلُ النّاصِحُ فَإِيّاكَ وَ الْخِلافَ...

-İmam Sadiq(ə) buyurur: "Ey Hüşam, din əhli ilə (din alimlərilə) oturub-durmaq insanın dünya və axirətinin şərəfidir. Ağıllı və öyüdverici insanlarla məşvərət etmək

[1] Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 256.
[2] Yenə orada, səh. 254.

nəsihət alan insanlar üçün Allahın bərəkəti və müvəffəqiyyətidir. Buna görə də ağıllı insanın nəsihətlərinə və məsləhətlərinə qulaq asıb əməl et.”[1]

12) İzdivac (ailə qurmaq)

İnsana bərəkət verən amillərdən biri də ailə qurmaqdır.  Ailə qurmaq insana bərəkət gətirər və ruzisini artırar. Bu barədə olan bir neçə hədisi də diqqətinizə çatdırıram.

قَالَ رَسُولُ اللهِ(ص): اِلتَمِسُوا الرِّزقَ بِالنِّكاحِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Ruzini evlənməkdə axtarın.”[2]

قَالَ الصَادِقُ(ع): جاءَ رَجُلٌ إلَى النَّبِيِ صلى الله عليه و آله فَشَكا إلَيهِ الحاجَةَ ، فَقالَ : تَزَوَّج . فَتَزَوَّجَ فَوُسِّعَ عَلَيهِ .

-İmam Sadiq(ə) buyurur: “Bir kişi Peyğəmbərin(s) hüzuruna gəlib kasıblığından şikayət etdi. Peyğəmbər(s) ona buyurdu: Ailə qur.

Həmin kişi ailə qurduqdan sonra ruzisi artdı.”[3]

“Nur” surəsinin 32-ci ayəsində oxuyuruq:

وَأَنكِحُوا الْأَيَامَى مِنكُمْ وَالصَّالِحِينَ مِنْ عِبَادِكُمْ وَإِمَائِكُمْ إِن يَكُونُوا فُقَرَاء يُغْنِهِمُ اللَّهُ مِن فَضْلِهِ وَاللَّهُ وَاسِعٌ عَلِيمٌ

---

[1] Tühəfül-üqul, səh. 420.
[2] Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 252.
[3] Yenə orada, 6-cı cild, səh. 254.

-(Ey gənclərin ixtiyar sahibləri,) subay kişilərinizi və ərsiz qadınlarınızı, eləcə də qul və kənizlərinizdən evlənmək qabiliyyəti olanları evləndirin. Əgər yoxsul olsalar, Allah onları Öz lütfü ilə dövlətli edər. Allah sonsuz genişlik sahibi və biləndir.

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ تزّوجَ اَحرزَ نِصفَ دِينهِ فليتَّقِ اللهَ في النِّصفِ الآخرِ.

-Həzrət Peyğəmbər(s) buyurur: “Evlənən şəxs dinini (imanının) yarısını qorumuş olur. Qalan yarısını isə təqvalı olmaqla əldə edə bilər.”[1]

Deyirlər Nuh ibn Məryəm Mərv şəhərinin qazisi idi. Öz qızını ərə vermək istəyirdi. Lakin qızı hansı elçiyə verəcəyinin daha məsləhətli olduğunu bilmirdi. Onun yaşlı və təcrübəli bir qonşusu var idi. O, müsəlman yox, atəşpərəst idi. Yəni Zərdüştün dininə inanan bir insan idi. Nuh ibn Məryəm onun yanına gedib qızını necə bir insana ərə verməsi haqda məsləhət istədi. Həmin kişi dedi: “Bütün camaat gəlib səninlə məsləhətləşdiyi halda sənsə məndən məsləhət istəyirsən? Əgər belədirsə, o zaman sözlərimə qulaq as: Bizim padşahımız Kəsra qızını ərə verməkdə mal-dövlətə üstünlük verərək, qızını varlı bir insana ərə verdi. Rum padşahı Qeysər öz qızını ərə verərkən həsəb-nəsəbə, məqam və şöhrətə üstünlük vermişdir. Sizin rəhbəriniz olan Həzrət Məhəmməd(s) isə dinə üstünlük verərək, qızını imanlı bir insana ərə verdi. Elə isə bax gör sənin rəhbərin kimdir?”[2]

---

[1] Beş yüz dastan, 2-ci cild, səh. 46.
[2] Yenə orada, 2-ci cild, səh. 46.

13) Xəstəyə baş çəkmək

Bərəkətin nazil olmasına səbəb olan gözəl əməllərdən biri xəstəyə baş çəkməkdir.

قَالَ رَسُولُ اللهِ(ص): عائِدُ المريضِ يَخوضُ فِي البَرَكَةِ ، فَإِذا جَلَسَ انغَمَسَ فيها

-Həzrət Peyğəmbər(s) buyurur: "Xəstəyə baş çəkən insan bərəkətin qapısından keçir. Xəstənin yanında əyləşdikdə artıq bərəkətin içinə daxil olur."[1]

قَالَ رَسُولُ اللهِ(ص): خُطى عائِدِ السَّقيمِ فيما بَينَهُ وبَينَ السَّقيمِ في رِياضِ الجَنَّةِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Xəstəyə baş çəkmək üçün yol gedən şəxsin addımları xəstənin yanına qədər olan məsafə cənnətin çəmənlikləridir[2]

انس ابن مالك: سَمِعتُ رَسول اللّهِ صلى الله عليه و آله يَقولُ: أيُّما رَجُلٍ يَعودُ مَريضا فَإِنَّما يَخوضُ فِي الرَّحمَةِ ، فَإِذا قَعَدَ عِندَ المريضِ غَمَرَتهُ الرَّحمَةُ . فَقُلتُ : يا رَسول اللّهِ ، هذا لِلصَّحيحِ الَّذي يَعودُ المريضَ فَالمريضُ ما لَهُ؟ قالَ : تُحَطُّ عَنهُ ذُنوبُهُ

-Ənəs ibn Malik deyir: "Həzrət Peyğəmbər(s) buyurur: Hər kəs xəstəyə baş çəksə, rəhmət qapısından

[1] Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 254.
[2] Yenə orada.

içəri keçir. Xəstənin yanında əyləşdikdə Allahın rəhməti onu əhatə edər.

Soruşdum: Ya Rəsulallah, bu savab xəstənin yanına gedən sağlam adama aiddir. Bəs xəstənin savabı nədir?

Peyğəmbər(s) buyurdu: Günahları bağışlanar."[1]

Odur ki, xəstəyə baş çəkməyin bu qədər savabı vardır. Çox yaxşı əməllərdəndir ki, insan xəstəyə baş çəksin, onun yanına əliboş getməsin.

İmam Sadiqin(ə) dostlarından biri xəstələnmişdi. Səhabələr yığışıb ona baş çəkməyə hazırlaşdılar.

İmam(ə) soruşdu: "Özünüzlə nə aparırsınız?

Dedilər: Əliboş gedirik.

İmam(ə) buyurdu: Məgər bilmirsiniz ki, xəstənin yanına əliboş getməzlər? Xəstənin yanına gedərkən hədiyyə apararlar. O da sevinib dua edər. Xəstənin duası isə müstəcab olar."[2]

14) Təqva və Allaha itaət

Allahın bərəkətinin insana nazil olmasına səbəb olan amillərdən biri də təqva və Allaha itaət etməkdir. "Əraf" surəsinin 97-ci ayəsində buyurulur:

وَلَوْ أَنَّ أَهْلَ الْقُرَى آمَنُواْ وَاتَّقَواْ لَفَتَحْنَا عَلَيْهِم بَرَكَاتٍ مِّنَ السَّمَاءِ وَالأَرْضِ

-Əgər şəhər və kəndlərin əhalisi iman gətirsəydilər və təqvalı olsaydılar, şübhəsiz, göydən və yerdən onların üzünə bərəkətlər(in qapılarını) açardıq.

---

[1] Hikmətnameyi Peyğəmbər,6-cı cild, səh. 254.

[2] Əbədi kəlamlar, səh. 127.

قَالَ عَلِيٌّ(ع): فَأُوصِيكُمْ بِتَقْوَى اللَّهِ الَّذِي ابْتَدَأَ خَلْقَكُمْ وَ إِلَيْهِ يَكُونُ مَعَادُكُمْ وَ بِهِ نَجَاحُ طَلِبَتِكُمْ... فَإِنَّ تَقْوَى اللَّهِ دَوَاءُ دَاءِ قُلُوبِكُمْ وَ بَصَرُ عَمَى أَفْئِدَتِكُمْ وَ شِفَاءُ مَرَضِ أَجْسَادِكُمْ وَ صَلَاحُ فَسَادِ صُدُورِكُمْ...

فَمَنْ أَخَذَ بِالتَّقْوَى عَزَبَتْ عَنْهُ الشَّدَائِدُ بَعْدَ دُنُوِّهَا وَ احْلَوْلَتْ لَهُ الْأُمُورُ بَعْدَ مَرَارَتِهَا... وَ وَبَلَتْ عَلَيْهِ الْبَرَكَةُ بَعْدَ إِرْذَاذِهَا

-Həzrət Əli(ə) buyurur: “Sizə təqvaya və yaradılışınızın başlanğıcı Ondan olan, qayıdış və dönüş yeriniz Ona tərəf olacaq, ehtiyac və istəklərinizin həyata keçməsi Ondan asılı olan, arzu və diləyinizin sonu O olan, doğru yolunuz Ona tərəf olan və pənah və sığınacağınız O olan Allahdan qorxmağı tövsiyə edirəm. Çünki təqva və Allahdan qorxmaq ürəklərinizin dərdlərinin dərmanı, qəlblərinizin korluğunun görməsi, cisimlərinizin xəstəliyinin şəfası, sinələrinizin fəsadının düzəlməsi, nəfslərinizin çirkinin təmizlənməsi, gözlərinizin örtüklərinin aydınlığı, qəlblərinizin qorxusunun əmin-amanlığı (nadanlıq) və zülmətlərinizin qaranlıqlarının nurudur...

Buna görə də kim təqva və pəhrizkarlığı öz peşəsi etsə, çətinliklər ona yaxınlaşandan və üz tutandan sonra ondan uzaqlaşar; işlər acılıqdan sonra onun üçün şirinləşər; dalğalar *(fitnə-fəsad)* ardıcıl gəldikdən sonra ondan uzaqlaşar, çətinliklər incidərək əziyyətə saldıqdan sonra ona asanlaşar;... nemətlər azalandan sonra ona artar

və bərəkət az yağışdan sonra yağan dolu kimi ona çatar."[1]

İmam Rza(ə) buyurur: "Allah-təala peyğəmbərlərindən birinə buyurmuşdur:

إِذَا أُطِعْتُ رَضِيتُ ، وَإِذَا رَضِيتُ بَارَكْتُ، وَلَيْسَ لِبَرَكَتِي نِهَايَةٌ

-Mənə itaət olduqda razı qalıram. Razı qaldıqda bərəkətli edirəm (bərəkətimi nazil edirəm). Mənim bərəkətimin isə sonu (həddi-hüdudu) yoxdur. [2]

قَالَ عَلِيٌّ(ع): بِالعَدلِ تَتَضَاعَفُ البَرَكَات

-Həzrət Əli(ə) buyurur: "Ədalətlə bərəkətlər qat-qat artır." [3]

## Bərəkətə gətirən zikrlər

Yuxarıda qeyd etdik ki, bir sıra əməllər vardır ki, bərəkətin nazil olmasına səbəb olur. Bu bəhsimizdə yaxşı olar ki, insana bərəkət gətirən zikrlər haqda da söhbət edək. Bir neçə zikr vardır ki, onlar insana bərəkət verər.

1) "Bismillah" demək

Hər bir işdə "Bismillah", "Allahın adı ilə", yaxud "Bismillahir-Rəhmanir-Rəhim", "Bağışlayan və mehriban Allahın adı ilə" demək insanın işinə bərəkət verər.

---

[1] Nəhcül-bəlağə. Xütbə-189.
[2] Mizanül-hikmə,1-ci cild, hədis-1700.
[3] Yenə orada, 1-ci cild, hədis-1702.

Dünyada insanlar arasında adət belədir ki, hər bir işi bir böyüyün adı ilə başlayarlar. İnsan başladığı işin əbədi olması üçün əbədi bir varlığın adı ilə başlamalıdır. Belə olduqda Allahdan başqa əbədi varlıq yoxdur. Əgər peyğəmbərlərin adı həmişə diridirsə, bu onların Allaha bağlı olmalarından irəli gəlir. Əbədi olan yalnız Allahın pak zatıdır.

Həzrət Əli(ə) buyurmuşdur: "Ondan əvvəl bir varlıq yoxdur və axırdır. Ondan sonra bir şey yoxdur."

Odur ki, insan hər bir işi Allahın adı ilə başladıqda Allah həmin insana bərəkət verər, işlərini asanlaşdırar və tamamlayar. Bu barədə olan hədis və rəvayətlərdən bir neçəsinə diqqət yetirək.

قَالَ رَسُولُ اللهِ(ص): إذا قالَ العَبدُ : «بِسمِ اللّهِ الرَّحمنِ الرَّحيمِ» قالَ اللّهُ . جَلَّ جَلالُهُ . : بَدَأَ عَبدي بِاسمي ، وحَقٌّ عَلَيَّ أن اُتَمِّمَ لَهُ اُمورَهُ ، وأُبارِكَ لَهُ في أحوالِهِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Bəndə (bir işə başlarkən) "Bismillahir-Rəhmanir-Rəhim" desə, Allah-təala buyurar: Bəndəm Mənim adımla başladı. Onun işlərini tamamlamaq və hər bir halda ona bərəkət vermək Mənim öhdəmdədir."[1]

Həzrət Əli(ə) buyurur: "Allahın adı ilə başlanılan hər bir iş mübarəkdir." [2]

Hətta Quranın ilk ayəsi nazil olduqda görürük ki, Allahın adı ilə başlamağı göstəriş verir. Bundan əlavə,

---

[1] Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 240.
[2] Təfsiri-nümunə,1-ci cild, səh. 14.

bir surə istisna olmaqla hər bir surənin əvvəlində "Bismillahir-Rəhmanir-Rəhim" gəlmişdir.

Bu kəlamın kökü Qurandadır. Yəni hər bir işin başlanğıcı və o işin tamamlanması Allahın adı ilə başlamaqdan asılıdır. Nuh Peyğəmbərin(s) əhvalatını oxuduqda görürük ki, gəmi hazır olduqdan sonra iman gətirənlərə göstəriş verdi ki, həm gəmiyə minərkən, həm də ondan enərkən "Bismillah" desinlər. "Hud" surəsinin 41-ci ayəsində oxuyuruq:

وَقَالَ ارْكَبُواْ فِيهَا بِسْمِ اللّهِ مَجْرَاهَا وَمُرْسَاهَا

-Və (Nuh) dedi: "Onun hərəkət və sükunət halında "Bismillah" deyərək ona (gəmiyə) minin və "Bismillah" onun hərəkət və sükunətidir."

"Hud" surəsinin 48-ci ayəsində buyurulur:

قِيلَ يَا نُوحُ اهْبِطْ بِسَلاَمٍ مِّنَّا وَبَرَكَاتٍ عَلَيْكَ وَعَلَى أُمَمٍ مِّمَّن مَّعَكَ وَأُمَمٌ سَنُمَتِّعُهُمْ ثُمَّ يَمَسُّهُم مِّنَّا عَذَابٌ أَلِيمٌ

-(Allah tərəfindən) deyildi: "Ey Nuh, sənə və səninlə birgə olan dəstələrə Bizim tərəfimizdən olan salamatlıq, salam və bərəkətlərlə aşağı en. Və (tarix boyu onların övladlarından) tezliklə (dünya nemətlərindən) bəhrələndirəcəyimiz ümmətlər gələcəklər. Sonra isə onlara (azğınlıqlarına və küfrlərinə görə) Bizim tərəfimizdən ağrılı bir əzab yetişəcəkdir."

Tarixə diqqət yetirdikdə görürük ki, bütün peyğəmbərlər Quranın bu göstərişinə əməl edərək yazdıqları məktubların əvvəlində "Bismillahir-Rəhmanir-Rəhim" yazmışlar. "Nəml" surəsinin 30-cu ayəsində Həzrət Süleymanın(ə) Səba mələyinə yazdığı məktub barədə oxuyuruq:

إِنَّهُ مِن سُلَيْمَانَ وَإِنَّهُ بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ

-Bu məktub Süleymandan gəlmişdir və (o) “Bağışlayan və mehriban Allahın adı ilə” (başlayır).

İslam Peyğəmbərinin(s) tarixinə baxdıqda orada da görürük ki, Həzrət(s) şahlara məktub yazarkən Allahın adi ilə başladığını yazmışdır. Peyğəmbərin(s) Kəsra padşaha yazdığı məktub belədir:

بِسْمِ اللهِ الرَّحْمَنِ الرَّحِيمِ. مِنْ مُحَمَّدٍ رَسُولِ اللهِ إِلَى كِسْرَى عَظِيمِ فَارِسِ، سَلامٌ عَلَى مَنِ اتَّبَعَ الْهُدَى، وَآمَنَ بِاللهِ وَرَسُولِهِ، وَشَهِدَ أَنْ لا إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لا شَرِيكَ لَهُ، وَأَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ، أَدْعُوكَ بِدِعَايَةِ اللهِ؛ فَإِنِّي أَنَا رَسُولُ اللهِ إِلَى النَّاسِ كَافَّةً، لِيُنْذِرَ مَنْ كَانَ حَيًّا وَيَحِقَّ الْقَوْلُ عَلَى الْكَافِرِينَ، أَسْلِمْ تَسْلَمْ، فَإِنْ أَبَيْتَ فَعَلَيْكَ إِثْمُ الْمَجُوسِ

-Bağışlayan və mehriban Allahın adı ilə. Allahın Rəsulu Məhəmməddən iranlıların böyüyü olan Kəsraya. Salam olsun həqiqət yolunu tutub Allaha və Onun Rəsuluna iman gətirənlərə və Allahdan başqa heç bir məbudun olmadığına və Onun heç bir şəriki olmadığına, Məhəmmədin Onun rəsulu olmasına şəhadət verənlərə. Səni Allahın dini olan İslama dəvət edirəm. Çünki mən Allahın Qəlbləri diri (və vicdanları haqqı qəbul etməyə hazır) olan kəsləri xəbərdar etmək və İlahi kəlamın kafirlərə qarşı hökmünü tamamlaması üçün insanlara göndərdiyi elçisiyəm. İslama təslim ol ki, rahatlıq içində olasan. Amma bu dəvəti rədd etsən, o zaman atəşpərəstlərin günahları da sənin üzərində olacaq.

Həzrət Peyğəmbərin(s) Bizans imperatoru Herakla, Nəcran əhlinə, Xeybər yəhudilərinə və digərlərinə yazıb göndərdiyi bütün məktublara diqqət yetirdikdə hər bir məktubu Allahın adı ilə başlamışdır.[1]

Odur ki, əgər insan hər bir işdə bu zikri desə, Allah həmin şəxsin işlərini tamamlayar.

قَالَ رَسُولُ اللهِ(ص): كُلّ أَمرٍ ذِي بَالٍ لَا يُبْدَأ فِيهِ بِسمِ اللهِ الرَّحمنِ الرَّحِيم فَهُوَ أَبتَر

-Həzrət Peyğəmbər(s) buyurur: "Bismillahsız başlayan hər mühüm bir iş naqisdir."[2]

Abdullah ibn Yəhya Həzrət Əlinin(ə) dostlarından biri idi. Günlərin birində Həzrət Əlinin(ə) yanına gəldi. "Bismillah" demədən orada bir oturacağın üstündə əyləşmək istədi. Bədəni sürüşüb yerə yıxıldı və başı yarıldı. Həzrət Əli(ə) mehribanlıqla onun başına əl çəkib buyurdu: "Məgər Peyğəmbərdən(s) eşitməmisənmi ki, "Bismillah"sız başlayan hər hansı bir iş nəticəsiz qalar?

Abdullah dedi: Atam-anam sənə fəda olsun ya Əmirəlmöminin, bundan sonra bu zikri heç bir vaxt unutmaram.

Həzrət(ə) buyurdu: "Belə olduqda hər bir işdə xeyir tapar və xoşbəxt olarsan."[3]

---

[1] Məkatibül-rəsul, 2-ci cild, səh. 390.
[2] Təfsiri-nümunə, 1-ci cild, səh. 16.
[3] Yenə orada.

Ayə və hədislərdə bəyan olunur ki, şeytan bəzi insanların evində, malında və övladında şərik olur. “İsra” surəsinin 63-cü ayəsində buyurulur:

وَشَارِكْهُمْ فِي الأَمْوَالِ وَالأَوْلادِ

-(Bacarırsansa) onların mallarına və övladlarına şərik ol.

Hədislərdə belə nəql olunur ki, har hansı bir evdə Allahın adı olmasa (deyilməsə), şeytan da həmin evdə şərikdir.

قَالَ رَسُولُ اللهِ(ص): إذا دَخَلَ أحَدُكُم بيتَهُ فَليُسَلِّم ؛ فَإِنَّهُ يَنزِلُهُ البَرَكَةُ وتَأنَسُهُ المَلائِكَةُ

-Həzrət Peyğəmbər(s) buyurur: “Sizlərdən biri evə daxil olarkən salam verin. Çünki salam vermək (Allahın adı olduğu üçün) evə bərəkət gətirər və mələklərin get-gəlinə səbəb olar.”[1]

Həmçinin hədislərdə gəlmişdir ki, insan yeməyə başladıqda Allahın adını çəkməsə, şeytan da həmin şəxsə şərik olar.

قَالَ رَسُولُ اللهِ(ص): كُلُّ طَعامٍ لا يُذكَرُ اسمُ اللّهِ عَلَيهِ فَإِنَّما هُوَ داءٌ ولا بَرَكَةَ فيهِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Allahın adı çəkilməyən hər bir yeməyi yedikdə həmin yemək bərəkət yox, dərddir.”[2]

---

[1] Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 230.
[2] Yenə orada, səh. 350.

قَالَ رَسُولُ اللهِ(ص): إذا وُضِعَتِ المائِدَةُ حَفَّتها أربَعَةُ آلافِ مَلَكٍ، فَإِذا قالَ العَبدُ : «بِسمِ اللّهِ » قالَتِ المِلائِكَةُ : بارَكَ اللّهُ عَلَيكُم في طَعامِكُم، ثُمَّ يَقولونَ لِلشَّيطانِ : أُخرُج يا فاسِقُ، لا سُلطانَ لَكَ عَلَيهِم

-Həzrət Peyğəmbər(s) buyurur: "Süfrə açılarkən dörd min mələk Allahın əmri ilə həmin süfrənin kənarına toplaşar. İnsan süfrəyə əyləşdikdə Allahın adı ilə yeməyə başlasa, mələklər deyərlər. Allah yeməyinizə bərəkət versin. Sonra şeytana deyərlər: ey fəsadkar, evdən çölə çıx. Sənin onlara yolun yoxdur."[1]

Həmçinin əgər bir ailənin təməli (nütfənin təməli) Allahın adı olmadan qoyulsa, şeytan onların övladına da şərik olar.

Beləliklə, insan hər bir işin bərəkətli olmasını istəyirsə, mütləq həmin işə Allahın adı ilə başlamalıdır. Allahın adı insanı hətta oddan belə qoruyar.

Həzrət İbrahimi(ə) odun içinə atdılar, Nəmrudun Rəzə adlı qızı eyvanda durub İbrahimin(ə) aqibətini gözləyir və bu hadisəyə tamaşa edirdi. Lakin gördü ki, atəş İbrahimi(ə) yandırmır. Eyvandan Həzrət İbrahimi(ə) səslədi və dedi: "Ya İbrahim! Sən nə dedin ki, od səni yandırmadı?"

Həzrət İbrahim(ə) buyurdu: "Hər kim qəlbən Allaha iman gətirərək "Bismillahir-Rəhmanir-Rəhim" - desə, od onu yandırmaz."

---

[1] Yenə orada.

Qız eyvandan düşüb "Bismillahir-Rəhmanir-Rəhim" - deyərək tonqalın içinə daxil oldu və gedib Həzrət İbrahimin(ə) yanında əyləşdi. Hədislərdə belə nəql olunur ki, sonra Həzrət İbrahim(ə) o qızı öz oğlanlarının biri ilə evləndirdi, həmin ailədən bir neçə peyğəmbər dünyaya gəldi.

İmam Sadiq(ə) buyurur: "Mələklər Həzrət İbrahimə(ə) İshaqın(ə) müjdəsini gətirmişdilər. Onlar İbrahimin(ə) yanına insan surətində gəlmişdilər. Həzrət İbrahim(ə) onların qonaq olduqlarını zənn edib bir buzov kəsdi. Onlar soruşdular: Bu qonaqlığının qiyməti nədir? İbrahim(ə) buyurdu: Yeməyə başladıqda "Bismillahir-Rəhmanir-Rəhim" deyəcəksiniz. Mələklər dedilər: Ey İbrahim, həqiqətən də sən Allahın dostu olmağa layiqsən. Biz Allahın mələkləriyik və sənə İshaqın müjdəsi ilə gəlmişik."

"Bismillahir-Rəhmanir-Rəhim" (ərəb dilində) 19 hərf və 4 kəlmədir. Cəhənnəmin 19 qapısı var. Bəndə bu zikri etdikdə cəhənnəmin həmin qapıları onun üzünə bağlanar. "Bismillahir-Rəhmanir-Rəhim" (ərəb dilində) 4 kəlmədən ibarətdir. Günah da 4 növdən ibarətdir: gecə, gündüz, gizli və aşkarda olan günahlar. İnsan bu zikri etdikdə hər dörd növ günah bağışlanar.

2) İstiğfar

Bərəkət yaradan və insanı bərəkətli edən zikrlərdən biri istiğfar (Əstəğfirullahə Rəbbi və ətubu ileyh) zikridir. İstiğfar - insanın Allahdan günahlarının bağışlanmasını diləməsidir. Allahdan məğfirət istəmək elə bir zikrdir ki, dünya və axirətdə insanın həyatını

bərəkətli edər. “Hud” surəsinin 3-cü ayəsində belə buyurulur:

وَأَنِ اسْتَغْفِرُواْ رَبَّكُمْ ثُمَّ تُوبُواْ إِلَيْهِ يُمَتِّعْكُم مَّتَاعًا حَسَنًا إِلَى أَجَلٍ مُّسَمًّى وَيُؤْتِ كُلَّ ذِي فَضْلٍ فَضْلَهُ وَإِن تَوَلَّوْاْ فَإِنِّيَ أَخَافُ عَلَيْكُمْ عَذَابَ يَوْمٍ كَبِيرٍ

-Və öz Rəbbinizdən bağışlanmaq istəyəsəniz. Sonra (tövbə edərək) Ona tərəf qayıdın ki, sizi müəyyən müddətədək (dünya həyatının) gözəl bəhrələrindən bəhrələndirsin və hər bir fəzilət sahibinə öz dəyərini əta etsin. Və əgər üz döndərsəniz, şübhəsiz, mən sizin üçün böyük günün əzabından qorxuram.

Bu ayədən öncəki ayədə etiqad məsələsi ilə bağlı iki mətləb bəyan olunur. Onlardan biri tövhid, yəni Allahın vəhdaniyyəti, ikincisi isə nübüvvət, yəni peyğəmbərlik barədədir.

أَلاَّ تَعْبُدُواْ إِلاَّ اللّهَ إِنَّنِي لَكُم مِّنْهُ نَذِيرٌ وَبَشِيرٌ

-(Mənim dəvətim bundan ibarətdir) ki: “Allahdan başqasına ibadət etməyəsiniz. Həqiqətən, mən Onun tərəfindən sizin üçün bir qorxudan və müjdə verənəm.”

Sonrakı ayədə, yəni əvvəldə qeyd olunan ayədə iki əsas məsələ önə çəkilir. Onlardan biri istiğfardır (Allahdan bağışlanma diləməkdir) ki, insan özünü bunun vasitəsilə mənəvi çirkinliklərdən təmizləyir. Digər məsələ isə tövbədir ki, bu da Allaha tərəf qayıtmaq və Onun sifətlərini özündə icad etməyə deyilir.

Ayədən belə bəlli olur ki, əgər insan istiğfar etməklə özünü çirkinliklərdən təmizləyib, tövbə etməklə Allaha tərəf qayıtsa nəticəsi bu olar ki, Allah-təala həmin işi

görən hər bir kəsi öz ölçü və dəyəri qədər rəhmət, mərhəmət və bərəkəti ilə bəhrələndirər. Amma hər kəs istiğfar etməsə və tövbə edərək Allaha tərəf qayıtmasa, həmin şəxs qiyamət gününün əzabına tuş gələcək.

İstiğfar məsələsi barədə "Nuh" surəsinin 10-12-ci ayələrində oxuyuruq:

فَقُلْتُ اسْتَغْفِرُوا رَبَّكُمْ إِنَّهُ كَانَ غَفَّارًا. يُرْسِلِ السَّمَاء عَلَيْكُم مِّدْرَارًا. وَيُمْدِدْكُمْ بِأَمْوَالٍ وَبَنِينَ وَيَجْعَل لَّكُمْ جَنَّاتٍ وَيَجْعَل لَّكُمْ أَنْهَارًا

-Və dedim ki, "Öz Rəbbinizdən bağışlanmaq diləyin. Çünki O, çox bağışlayandır. Göydən (buluddan ardıcıl olaraq) sizə bol yağış göndərsin. Və sizə mal-dövlət və oğullar (əta etməklə) yardım etsin, sizin üçün bağlar yaratsın və sizin üçün çaylar axıtsın."

"Hud" surəsinin 52-ci ayəsində oxuyuruq:

وَيَا قَوْمِ اسْتَغْفِرُواْ رَبَّكُمْ ثُمَّ تُوبُواْ إِلَيْهِ يُرْسِلِ السَّمَاء عَلَيْكُم مِّدْرَارًا وَيَزِدْكُمْ قُوَّةً إِلَى قُوَّتِكُمْ وَلاَ تَتَوَلَّوْاْ مُجْرِمِينَ

-Və ey mənim qövmüm, Rəbbinizdən bağışlanmaq diləyin, sonra Ona tərəf qayıdın (tövbə edin) ki, sizə bollu bulud və yağış göndərsin, sizin (cismani və maddi) gücünüzə bir güc də artırsın və (Ondan) günahkar kimi üz çevirməyin.

Qeyd olunan ayələrdə istiğfarın bu dünyada insana verdiyi faydalarını öyrəndik. Quran ayələrindən əlavə, bu zikrin bərəkət və faydaları barədə nəql olunmuş hədislər də vardır. Onlardan bir neçəsinə diqqət yetirək.

قَالَ رَسُولُ اللهِ(ص): مَن لَزِمَ الِاستِغفارَ جَعَلَ اللّهُ لَهُ مِن كُلِّ ضيقٍ مَخرَجا، ومِن كُلِّ هَمٍّ فَرَجا، ورَزَقَهُ مِن حَيثُ لا يَحتَسِبُ

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kim ardıcıl olaraq Allahdan bağışlanma diləsə (İstiğfar etsə), Allah-təala həmin şəxsi bütün çətinliklərdən çıxarar, bütün qəm-qüssələrini aradan aparar və ağlına gəlmədiyi yerdən ona ruzi yetirər."[1]

قَالَ رَسُولُ اللهِ(ص): أكثِرُوا الِاستِغفارَ تَجلِبُوا الرِّزقَ

-Həzrət Peyğəmbər(s) buyurur: "Çoxlu istiğfar etmək ruzini artırar."[2]

Burada bir mətləbi də qeyd etmək lazımdır ki, insan günün istənilən vaxtında bu zikri etsə, qeyd olunan fəzilətlərə nail olar. Amma elə bir vaxt vardır ki, həmin vaxtda istiğfar etməyin fəzilət və üstünlüyü tamamilə başqadır. Həmin vaxt səhərlərdir. Səhər - gecə yarıdan sonra sübh azanına qədər olan vaxta deyilir. Allah-təala "Ali-İmran" surəsinin 17-ci ayəsində təqvalı və mömin bəndələrin xüsusiyyətlərini bəyan edir. Həmin xüsusiyyətlərdən biri də səhərlər istiğfar etməkdir.

الصَّابِرِينَ وَالصَّادِقِينَ وَالْقَانِتِينَ وَالْمُنفِقِينَ وَالْمُسْتَغْفِرِينَ بِالأَسْحَارِ

[1] Hikmətnameyi Peyğəmbər,6-cı cild, səh. 246.
[2] Yenə orada.

-Həmin səbirlilər etiqad, danışıq və əməldə düz olanlar, itaət edənlər, (mallarını) Allah yolunda xərcləyənlər və səhərlər bağışlanma diləyənlərdirlər.

İmam Sadiq(ə) bu ayə barəsində belə buyurmuşdur: “Səhərlər bağışlanma diləyərlər”, yəni səhərlər (sübh namazından qabaq gecənin nafilə) namazını qılarlar.”[1]

مَن قالَ في وَترِهِ إذا أوتَرَ: «أستَغفِرُ اللّهَ و أتوبُ إلَيهِ» سَبعينَ مَرَّةً و هُو قائمٌ، فَواظَبَ على ذلكَ حتّى يَمضِيَ لَهُ سَنَةٌ، كَتَبَهُ اللّهُ عِندَهُ مِن المستَغفِرينَ بالأسحارِ، و وَجَبَت لَهُ المغفِرَةُ مِنَ اللّهِ عَزَّ و جلَّ

-Həzrət(ə) başqa bir hədisdə belə buyurur: “Hər kim Vitr namazında ayaq üstə dayandığı halda yetmiş dəfə “əstəğfirullahə və ətubu ileyh” - desə və bu işi bir il davam etdirə bilsə, Allah-təala onun adını “səhərlər bağışlanma diləyənlər”in cərgəsinə yazar və həmin şəxsi bağışlamağı Öz öhdəsinə götürər.”[2]

عَلِيٌّ عليه السلام – في وصيَّتِهِ لابنِهِ–: يا بُنَيَّ، لا يكونُ الدِّيكُ أكيَسَ مِنكَ، يقومُ في وَقتِ السَّحَرِ ويَستَغفِرُ، وأنتَ نائمٌ

-Həzrət Əli(ə) oğlu İmam Həsənə(ə) vəsiyyət edərkən buyurdu: “Övladım! Məbada xoruz səndən zirək olsun və sən yuxuda olarkən səhər erkən oyansın və bağışlanmasını diləsin!”[3]

---

[1] Mizanül-hikmə, 9-cu cild, hədis-14106.
[2] Yenə orada, hədis-15109.
[3] Yenə orada, hədis-15111.

Günlərin birində Davud Peyğəmbər(ə) cənab Cəbrayıldan(ə) soruşdu: "Gün ərzində ən fəzilətli vaxt hansı vaxtdır?

Cəbrayıl(ə) dedi: Deyə bilmərəm. Amma bunu deyim ki, Allahın ərşi səhərlər (sübh namazından öncəki vaxt) lərzəyə gəlir."[1]

قَالَ عَلِيٌّ(ع): إِنَّ اللَّهَ تَبَارَكَ وَتَعَالَى إِذَا أَرَادَ أَنْ يُصِيبَ أَهْلَ الْأَرْضِ بِعَذَابٍ قَالَ لَوْ لَا الَّذِينَ يَتَحَابُّونَ بِجَلَالِي وَيَعْمُرُونَ مَسَاجِدِي وَيَسْتَغْفِرُونَ بِالْأَسْحَارِ لَوْ لَا هُمْ لَأَنْزَلْتُ عَذَابِي

-Həzrət Əli(ə) buyurur: "Allah-təala yer əhlinə bəla nazil etmək istədikdə buyurar: Əgər yer üzündə Mənə xatir bir-birilərini sevən, məscidlərin hörmətini saxlayaraq onları abad edən və səhərlər istiğfar edərək məndən günahlarının bağışlanmasını diləyən bəndələr olmasaydı, mütləq əzabımı (yer əhlinə) nazil edərdim."[2]

Deməli, ayə və hədislərdən görürük ki, istiğfar etməyin fəziləti çoxdur. Xüsusilə səhərlər istiğfar etmək daha fəzilətlidir. Görəsən istiğfar etmək üçün bundan daha da fəzilətli vaxt varmı? Cavab belədir ki, istiğfar etmək üçün cümə axşamı səhər vaxtı ən fəzilətli vaxtdır.

Həzrət Yaqub Peyğəmbərin(ə) oğlanları Yusifi quyuya atmaqla və onu didərgin salmaqla öz atalarına xəyanət etdilər. Bu hadisənin üstündən illər ötdükdən sonra onların cinayətlərinin üstü açıldı. Bütün bu hadisələrdən sonra onlar atalarının yanına gəlib Allahdan

---

[1] Yenə orada, hədis-15113.
[2] Yenə orada, hədis-15117.

onlar üçün bağışlanma diləməyi xahiş etdilər. “Yusif” surəsinin 97-98-ci ayələrində oxuyuruq:

قَالُواْ يَا أَبَانَا اسْتَغْفِرْ لَنَا ذُنُوبَنَا إِنَّا كُنَّا خَاطِئِينَ. قَالَ سَوْفَ أَسْتَغْفِرُ لَكُمْ رَبِّيَ إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ

-(Yaqubun oğlanları) dedilər: “Ey ata, (Allahdan) bizim günahlarımızın bağışlanmasını istə ki, həqiqətən, biz səhv etmişik.” Dedi: “Tezliklə sizin üçün öz Rəbbimdən bağışlanmaq istəyərəm. Şübhəsiz, O, çox bağışlayan və mehribandır.”

İslam Peyğəmbərindən(s) bu ayənin izahında buyurulur: “Yaqub “Tezliklə sizin üçün öz Rəbbimdən bağışlanmaq istəyərəm” - dedikdə səhəri nəzərdə tuturdu.”[1]

İmam Sadiq(ə) buyurur: “Həzrət Yaqub oğlanları üçün Allahdan bağışlanmaq diləməyi cümə axşamının səhərinə saxladı.”[2]

Bütün bu ayə və hədislərdən görürük ki, Allah-təala çoxlu istiğfar edən insanın bərəkətini çoxaldar, günahları bağışlanar, ruzisini artırar və onu nemətlərə qərq edər. İstiğfar etmək istər səhər olsun, istər axşam, istər cümə günü olsun, istərsə də başqa günlərdə, əgər insanın əməli düzgün olmasa, bu istiğfarın ona heç bir faydası olmayacaq. Yəni insan dildə “Əstəğfirullahə Rəbbi və ətubu ileyh” deyirsə, bunu əməldə də göstərməlidir. Alimlərdən biri buna dair belə bir misal çəkmişdir: “Məsələn, bir nəfər çöldə yolu azır və canavarın

---

[1] Mizanül-hikmə,9-cu cild, hədis-15114.

[2] Yenə orada, hədis-15115.

hücumuna məruz qaldığı üçün bir mağaraya pənah aparır. Mağaraya girib özünü canavarın çəngindən qurtarır. Əgər həmin şəxs canavarın onun üstünə gəldiyini görüb dildə "bu mağaraya pənah aparıram" deməklə canavarın əlindən qurtara bilərmi? Əlbəttə ki, xeyr. Dildə deməklə yanaşı, əməldə də bunu etməlidir. Əks təqdirdə canavar onu parçalaya bilər.

İstiğfarın da əməldə mənası belədir. İnsan dilində "Allah, səndən bağışlanmağımı diləyirəm" deməklə yanaşı, bir daha etdiyi günahlara qayıtmamalıdır.

Həzrət Əli(ə) Cəməl müharibəsində Təlhəni düşmənlərin cərgəsindən çağırıb ona buyurdu: "Səndən bir sual soruşmaq istəyirəm.

Təlhə dedi: Nə sualdır elə?

Həzrət(ə) buyurdu: Ey Təlhə, sən Peyğəmbərin(s) dilindən öz qulaqlarınla eşitdinmi mənim barəmdə belə buyurmuşdur: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, onu sevəni sev, onunla düşmən olana düşmən ol."

Təlhə dedi: Bəli, eşitmişəm.

Həzrət(ə) buyurdu: Bu sözü eşitdikdən sonra məni təbrik edərək beyət etməyin yadına gəlirmi?

Təlhə dedi: Bəli, yadımdadır.

Həzrət Əli(ə) "Fəth" surəsinin 10-cu ayəsini onun üçün oxudu:

فَمَن نَّكَثَ فَإِنَّمَا يَنكُثُ عَلَى نَفْسِهِ

-Buna görə də kim əhdi pozsa, yalnız öz ziyanına pozur.

Təlhə bu ayəni eşitdikdə dedi: “Əstəğfirullahə Rəbbi və ətubu ileyh” və tövbə etdikdən sonra yenə də gedib düşmənlərə qoşuldu.[1]

Təlhənin etdiyi bu istiğfar o istiğfarlardandır ki, insan milyon il ibadət etsə də heç bir faydası yoxdur. Həzrət Əlinin(ə) vilayəti Allahın möhkəm qalasıdır. Hər kəs bu qalaya daxil olsa, Allahın əzabından amanda qalar. Təlhə dildə onun vilayətini qəbul etdi, amma əməldə gedib düşmənlərə qoşularaq bədbəxt oldu.

Amma tarixdə çox insanların şahidi də olmuşuq ki, bircə kəlmə istiğfar etmiş və ömrünün axırına qədər bu sözün üstündə dayanaraq xoşbəxtlərin cərgəsinə qoşulmuşdur. Nümunə üçün həmin insanlardan birinin əhvalatına diqqət yetirək.

İmam Sadiqin(ə) dostlarından biri uzaq bir yerdən Həzrətin(ə) ziyarətinə gəlmişdi. O, Bəlx əyalətindəki Carudiyyə tayfasından idi. O özü İmam Sadiqin(ə) imamətini qəbul edirdi, amma onun qardaşı zeydiyyə məzhəbini seçmişdi. İmam Sadiqi(ə) qəbul etmirdi.

İmam Sadiq(ə) ondan hal-əhval tutduqdan sonra buyurdu: “Sənin qardaşın necədir?

Həmin şəxs İmamın(ə) onun qardaşını tanıdığını görüb təəccübləndi. Sonra dedi:  Çox yaxşı adamdır. Amma bircə eybi budur ki, sənin imamətini qəbul etmir.

İmam(ə) soruşdu: Nə üçün?

O dedi: Vərə[2] və təqvasının daha çox olduğuna görə.

---

[1] Min bir əxlaqi hekayət, səh. 645.
[2] Min bir əxlaqi hekayət, səh. 644.

İmam(ə) buyurdu: Gedib ona deyərsən ki, Bəlxdə çayın kənarında həmin təqva necə oldu?

Həmin şəxs İmamla(ə) sağollaşdıqdan sonra öz əyalətinə qayıtdı. Qardaşı ilə əyləşib söhbət etdi, İmamın(ə) yanında olduğunu və Həzrətin(ə) onun barəsində soruşduğunu söylədi.

Qardaşı dedi: İmam(ə) mənim barəmdə soruşduqda sən nə dedin?

O dedi: Dedim ki, qardaşım təqvasının çox olduğuna görə sənin imamətini qəbul etmir.

Qardaşı dedi: Bəs o nə dedi?

O dedi: İmam(ə) buyurdu ki, qardaşına deyərsən: Bəlxdə, çayın kənarında onun təqvası necə oldu?

Qardaşı bu sözləri eşidən kimi ağlaya-ağlaya dedi: And olsun Allaha ki, mənim orada gördüyüm işdən heç kəsin xəbəri yoxdur. Amma İmam Sadiqin(ə) bundan xəbərdar olduğunu indi başa düşdüm.

Orada baş verən hadisə belədir: Mən dostumla səfərə çıxmışdım. Onun gözəl bir kənizi var idi. Çayın kənarında istirahət etmək üçün dayandıq. Dostum mənə dedi ki, siz əşyaların yanında qalın, mən də gedib ərzaq alım. O getdikdən sonra mənim gözüm o kənizə düşdü. Şeytan məni yoldan çıxardı və mən ona təcavüz etdim. İş işdən keçdikdən sonra onunla sövdələşdim ki, ölənə qədər bu sirri heç kəs bilməsin.

Amma indi görürəm ki, Cəfər ibn Məhəmməd bütün bunlardan xəbərdar imiş. Elə buradaca Allahdan bağışlanmağımı diləyirəm.

O, həmin andan etibarən istiğfar etdikdən sonra haqq yola qayıtdı və ömrünün axırına qədər də imamət əqidəsi ilə təqvalı şəkildə ömür sürdü.”[1]

Odur ki, bir insan günündən və saatından asılı olmayaraq istiğfar etsə və bu sözün üstündə dayanıb əməlləri də düzgün olsa, həmin şəxsə fəzilət, şərafət, bərəkət və məğfirət nəsib olacaq. Yox, əgər dildə istiğfar edib əməldə heç bir iş görməmək insana fayda verməyəcək və etdiyi istiğfar sadəcə bir söz olaraq qalacaqdır.

3) Salavat

İnsanın həyatına, ömrünə və ruzisinə bərəkət gətirən zikrlərdən biri də Peyğəmbər(s) və onun pak Əhli-beytinə(ə) salavat göndərməkdir.

قَالَ رَسُولُ اللهِ(ص): كُلُّ أمرٍ ذي بالٍ لا يُبدَأُ فيهِ بِحَمدِ اللّهِ وَالصَّلاةِ عَلَيَّ فَهُوَ أقطَعُ أبتَرُ ، مَمحوقٌ مِن كُلِّ بَرَكَةٍ

-Həzrət Peyğəmbər(s) buyurur: “Hər mühüm bir iş Allaha həmdü-səna olmadan və mənə salavat göndərilmədən başlasa, başa çatmaz və hər cür bərəkətdən boş qalar.”[2]

Deməli, insan mühüm bir işi “Bismillah”la başladığı kimi, Peyğəmbər və ali Peyğəmbərə salam və salavat göndərməklə həmin işin asan olması və tamamlanması üçün şərait yaradır. Əks təqdirdə görülən o işdən bərəkət gözləmək olmaz.

---

[1] Bərə- insanla günah arasında olan pərdəyə deyilir.

[2] Hikmətnameyi Peyğəmbər,6-cı cild, səh. 350.

Peyğəmbər(s) və məsum imamlarımızın kəlamlarının kökü Qurana bağlanır. Bəzən bir məsələni bəyan edərkən həmin məsələ haqda Quran ayələrini zikr edirlər. Bəzən də Quran ayəsini qeyd etmirlərsə, yenə də həmin məsələnin əsli Qurana bağlanır. Eləcə də salavat məsələsinin kökü Qurandadır. Salavat barədə Quranda bir neçə ayə bəyan olunmuşdur. O cümlədən "Əhzab" surəsinin 56-cı ayəsində oxuyuruq:

إِنَّ اللَّهَ وَمَلَائِكَتَهُ يُصَلُّونَ عَلَى النَّبِيِّ يَا أَيُّهَا الَّذِينَ آمَنُوا صَلُّوا عَلَيْهِ وَسَلِّمُوا تَسْلِيمًا

-Həqiqətən, Allah və Onun mələkləri daim Peyğəmbərə salam (salavat) göndərirlər. Ey iman gətirənlər, ona salam (salavat) göndərin və tamamilə (onun əmrinə) təslim olun.

Bu ayədə açıq-aydın Peyğəmbərə(s) salavat göndərmək barədə söhbət olunur, Allahın və mələklərin ona daim salam-salavat göndərdiyi bəyan edilir və möminlərə də salavat göndərməyi vacib buyurur. Əlbəttə, burada qeyd olunmalıdır ki, Allahın salavat göndərməsi ilə mələk və insanların salavat deməsi fərqlidir. Allahın ona salavatı Onun rəhmətidir. Yəni Allah Öz rəhmətini Peyğəmbərə(s) nazil edir. Mələklərin və möminlərin salavat göndərməsi isə Allahdan Peyğəmbərə(s) rəhmət istəmələridir.

Ayədə işlənmiş "Səllu" kəlməsi Allahdan rəhmət diləmək mənasında gəlmişdir. "Səllimu" kəlməsinin isə iki mənası vardır. Həmin mənalardan biri Allahın əmrləri qarşısında təslim olmaq, digər mənası isə salam göndərməkdir.

Burada qarşıya belə bir sual çıxır: Görəsən, Peyğəmbərə(s) necə salam-salavat göndərməliyik? Öz bildiyimiz kimi, yoxsa İslamın bizə buyurduğu kimi? Bu sualın cavabı hədislərdə nəql olunmuşdur. Əlbəttə ki, Peyğəmbərə(s) salam-salavat göndərən və bizə də ona salavat göndərməyi əmr verən Allah Peyğəmbərin(s) vasitəsilə bizə salavatın qaydasını öyrətmişdir. Şiə və əhli-sünnə firqələrinin kitablarında bu barədə müxtəlif hədislər nəql olunmuşdur. Həmin hədislərdən biri belədir:

لا تُصَلُّوا عَلَيَّ الصَّلاةَ الْبَتْراءَ.

فَقَالُوا: وَمَا الصّلاةُ البَتَراءِ؟ قَالَ(ص): تَقُولُونَ اَللّهُمَّ صَلِّ عَلي مُحَمَّدٍ وَ تُمسِكُون

بَل قُولُوا: اَللّهُمَّ صَلِّ عَلي مُحَمَّدٍ وَعَلي آلِ مُحَمَّدٍ

-Həzrət Peyğəmbər(s) buyurur: “Mənə yarımçıq salavat göndərməyin. Soruşdular: Ya Rəsulallah, yarımçıq salavat nədir? Həzrət(s) buyurdu: Yarımçıq salavat odur ki, “Allahummə səlli əla Muhəmməd” deyib dayanasız. Belə deyin: “Allahummə səlli əla Muhəmmədin və ali Muhəmməd.”[1]

Odur ki, Quranda oxuyuruq:

إِنَّ اللَّهَ وَمَلَائِكَتَهُ يُصَلُّونَ عَلَى النَّبِيِّ يَا أَيُّهَا الَّذِينَ آمَنُوا صَلُّوا عَلَيْهِ وَسَلِّمُوا تَسْلِيمًا

---

[1] Təfsiri-nümunə,17-ci cild, səh. 420; Səvaiq ibn Həcər, səh. 144.

-Həqiqətən, Allah və Onun mələkləri daim Peyğəmbərə salam (salavat) göndərirlər. Ey iman gətirənlər, ona salam (salavat) göndərin və tamamilə (onun əmrinə) təslim olun.

Müqəddəs Ərdəbili yazdığı "Zibdətül-bəyan" kitabında belə bir hədis nəql edir: "Həzrət Peyğəmbərdən(s) bu ayə barəsində soruşdular. Həzrət(s) buyurdu: Bu ayədə bir sirr vardır ki, əgər soruşmasaydınız heç bir vaxt bu sirri açmayacaqdım. Həmin sirr odur ki, Allah mənə iki mələyi müvəkkil etmişdir. Yanında mənim adım çəkildikdə, mənə salavat göndərən hər bir müsəlmana deyərlər: "Allah səni bağışlasın." Mələklərin bu duasından sonra həm Allah, həm də digər mələklər onların etdiyi duaya "amin" deyərlər. Yox, əgər mənim adımı eşidib mənə salam-salavat göndərməsə, həmin mələklər ona deyərlər: "Allah səni bağışlamasın." Bu qarğışdan sonra yenə də Allah və bütün mələklər "amin" deyərlər."[1]

## Salavat deməyin fəziləti

Yuxarıda salavat barədə ayə və hədisləri oxuduq. Həmçinin Peyğəmbərə(s) salam və salavat göndərməyin qaydasını da oxuduq. Salavatın o qədər çox savabı vardır ki, kitablarda qeyd olunmuşdur ki, "La ilahə illəllah" zikrindən başqa heç bir zikrin savabı salavat qədər çox ola bilməz. Bunun da səbəbini belə açıqlamışlar ki, "La ilahə illəllah" zikri elə bir zikrdir ki, onu deyərkən dodaqlar bir-birinə dəymir. Uzaqdan baxan kiminsə bu zikri etməsini müəyyən edə bilmir. Belə olduqda bu

[1] Zibdətül-bəyan, səh. 85. Biharül-ənvar, 85-ci cild, səh. 279.

zikrdə riyakarlıq etmək olmur. Amma salavat zikrində dodaqlar bir-birinə toxunduğu üçün kimsə riya məqsədilə özünü camaata göstərmək üçün oxuya bilir. Burada çox yaxşı olar ki, salavatın fəzilət və savabları barədə bir neçə hədisə diqqət yetirək.

قَالَ الصَّادِقُ(ع): مَن صَلَّى عَلَى النَّبِيّ مَرَّةً وَاحِدَةً بِنِيَّةٍ وَ إِخلاصٍ مِن قَلبِهِ، قَضَى اللهُ لَهُ مِئَةَ حَاجَةٍ، مِنها ثَلاثُون لِلدُّنيَا وَسبعُونَ لِلآخِرَة

-İmam Sadiq(ə) buyurur: “Hər kim saf niyyət və ixlasla Peyğəmbərə(s) bircə dəfə salavat göndərsə, Allah-təala həmin şəxsin yüz (dünya və axirət) hacətini inayət edər.”[1]

قَالَ رَسُولُ اللهِ(ص): مَن صَلّى عَلَيَّ كُلَّ يَومٍ ثَلاث مَرَّاة حُبّاً وَ شَوقاً كَانَ حَقًّا عَلَى اللهِ عَزَّوَجَلّ اَن يَغفِرَ لَهُ ذُنُوبَهُ تِلكَ اليَلَةَ وَ ذَلِكَ الْيَوم

-Həzrət Peyğəmbər(s) buyurur: “Hər kim məni sevərək gündə üç dəfə mənə salavat göndərsə, Allahın haqqıdır ki, həmin şəxsin o gecə və gündüz etdiyi günahını bağışlasın.”[2]

قَالَ الصَّادِقُ(ع): مَنْ صَلَّى عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ عَشْراً صَلَّى اللَّهُ عَلَيْهِ وَمَلَائِكَتُهُ مِائَةَ مَرَّةٍ

---

[1] Əl-qətrə,1-ci cild, səh. 156.

[2] Yenə orada, səh. 157.

-İmam Sadiq(ə) buyurur: “Hər kim Məhəmməd və ali Məhəmmədə yüz dəfə salam və salavat göndərsə, Allah və mələkləri həmin şəxsə yüz dəfə salam və salavat göndərər.”[1]

قَالَ الصّادقُ عليه السلام لصباحِ بنِ سَيّابِةِ:

ألا أعَلِّمُكَ شَيْئاً يَقِي اللّهُ بِهِ وَجْهَكَ مِن حَرِّ جَهَنَّمَ؟

قَالَ، قلتُ: بَلي

قالَ: قُلْ بَعدَ الفَجْرِ:"أَللّهُمَّ صَلِّ عَلي مُحمَّدٍ وآلِ مُحَمَّدٍ" مائةَ مَرَّةٍ يقَي اللّهُ به وَجْهَكَ مِنْ حَرِّ جَهَنَّمَ.

-İmam Sadiq(ə) Səbah ibn Siyabəyə buyurdu: “İstərdinmi sənə elə bir şey öyrədim ki, Allah-təala onun vasitəsilə sənin üzünü cəhənnəm odundan qorusun?

Siyabə dedi: Bəli, istəyirəm.

Həzrət(ə) buyurdu: Fəcrdən sonra (sübh namazı vaxtı) yüz dəfə de: “Allahummə səlli əla Muhəmmədin və ali Muhəmməd.” Allah-təala bu zikrin bərəkətinə xatir səni cəhənnəm odundan qoruyar.”[2]

قَالَ رَسُولُ اللهِ(ص): مَن صَلَّى عَلَيَّ فِي يَومٍ أَلف صَلاة لَم يَمُت حَتّى يبشِر بِالجَنَّة

-Həzrət Peyğəmbər(s) buyurur: “Hər kim gündə min dəfə mənə salavat göndərsə, cənnətdəki yerini görmədən ölməz.”

---

[1] Yenə orada, səh. 156.

[2] Səfinətül-bihar,5-ci cild, səh. 171.

Buna oxşar digər hədisdə də nəql olunur ki, hər kim gündə min dəfə salavat desə, dünyadan gedən zaman Peyğəmbəri(s) görər.

İbn Məsud Peyğəmbərdən(s) belə bir hədis nəql edir:

قَالَ رَسُولُ اللهِ(ص): أَوْلَى النَّاسِ بِي يَوْمَ الْقِيَامَةِ أَكْثَرُهُمْ عَلَيَّ صَلاَةً فِي دَارِ الدُّنيا

-Peyğəmbər(s) buyurmuşdur: "Qiyamət günü mənə ən yaxın kəs o kəs olacaq ki, dünyada mənə çox salam və salavat göndərmişdir."[1]

Hədislərdə belə nəql olunur ki, hər kəs Peyğəmbər(s) və ali Peyğəmbərə çoxlu salavat göndərsə, bu salavatlar üç yerdə onun dərdinə dəyəcək: 1. Peyğəmbərə yaxın olacaq; 2. Ölən zaman asan can verəcək; 3. Qəbrin ilk gecəsində sual-cavabı asanlaşdıracaq.

Mərhum Ayətullah Molla Əli Həmədani Nəcəf şəhərində böyük ariflərdən biri idi. O, çox əzəmətli bir şəxsiyyət idi. Əllamə Təbatəbayi kimi böyük şəxsiyyətlərin ustadı olmuşdur. O deyir: "Günlərin birində yaşlı nurani bir kişi xüms gətirmişdi. O kişi otağa daxil olanda gördüm ki, ondan çox gözəl ətir iyi gəlir. Mənim burnuma heç bir vaxt belə ətir qoxusu dəyməmişdi. Xüms məsələsini həll etdikdən sonra hansı ətirdən istifadə etdiyini soruşdum.

O dedi: Mən ətir vurmamışam. Bunun bir əhvalatı var.

Dedim: O, nə əhvalatdır elə? Mənə danışa bilərsənmi?

---

[1] Əl-qətrə,1-ci cild, səh. 156.

Dedi: Mən indiyə qədər onu heç bir kəsə danışmamışam. Amma sənə deyə bilərəm. Gecələrin birində yuxuda gördüm ki, təxminən iyirmi nəfər Həzrət Peyğəmbərin(s) hüzurunda əyləşmişik. Peyğəmbər(s) bizə baxıb buyurdu: Hamıdan çox kim mənə salavat göndərir? Heç kəsdən səs çıxmadı. Mən həmişə Peyğəmbərə(s) çoxlu salavat göndərirdim. Mən dillənmədim ki, ola bilsin həmin məclisdə məndən də çox salavat zikr edən olmuş olsun. Peyğəmbər(s) üç dəfə o sualı təkrar etdi. Yenə heç bir kəs dillənmədi. Sonra üzünü mənə tutub buyurdu: Nə üçün dillənmirsən? Sən hamıdan çox mənə salavat göndərirsən.

Sonra Həzrət(s) mənim dodaqlarımdan öpdü. Yuxudan ayıldıqdan sonra bu gözəl qoxunu özümdə hiss etdim. Bu ətir qoxusu həmin gündən mənim bədənimdən gəlir.

Həzrət Peyğəmbər(s) buyurur: Hər kim çox salavat göndərsə, can verməyin acılığından amanda qalar."[1]

İnsanın ən çətin anlarından biri can verən zamanıdır. Lakin hər kəs Peyğəmbərə(s) çox salavat göndərsə, can verməyin bu acılığını hiss etməyəcək.

Həmçinin salavatın xüsusiyyətlərindən biri qəbrin ilk gecəsində insana nicat verməsidir. Qəbrin əvvəl gecəsi də insanın çətin vaxtlarından biridir. İnsan dünyasını dəyişdikdən və dəfn olunduqdan sonra mələklər gəlib ondan sorğu- sual edirlər. Qəbirdə insana elə bir qorxu gəlir ki, qorxunun şiddətindən dili tutulur. Buna görə də ölən insanı qəbrə qoyan zaman orada təlqin oxumaq müstəhəbdir.

---

[1] Camiul-əxbar,səh. 68.

Alimlərdən biri təzəcə rəhmətə getmiş bir nəfəri yuxuda görür. Ondan qəbir gecəsi haqda soruşduqda həmin şəxs deyir: “Mənim üçün çox çətin oldu. Camaat məni qəbrə qoyub getdikdən sonra mələklər gəlib məndən sorğu-sual etməyə başladılar. Qorxudan dilim tutulmuşdu. Onlara heç bir cavab verə bilmirdim. Elə bu zaman gördüm ki, gözəl bir cavan oğlan gəlib başımın üstündə dayandı. O, mənim adımdan mələklərin bütün suallarına cavab verdi. Mələklər getdikdən sonra həmin cavan oğlandan soruşdum: Burda mənə nicat verdin. Sən kimsən? O dedi: Mən özbaşına gəlməmişəm. Məni bura göndəriblər. Dünyada Peyğəmbərə(s) göndərdiyin salavatların surətiyəm. Bu andan sonra cənnətin qapısına qədər səndən soruşulan bütün suallara sənin yerinə mən cavab verəcəyəm.”

Bundan əlavə, salavat qiyamət günündə də insanın dərdinə dəyəcək. Yəni qiyamət günü əməllər ölçülən zaman dünyada insanın Peyğəmbərə(s) göndərdiyi salavatlar onun yaxşı əməllərini ağırlaşdıracaq.

قَالَ الصّادقُ(ع): مَا فِي الْمِيزَانِ شَيْءٌ أَثْقَلَ مِنَ الصَّلَاةِ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ وَإِنَّ الرَّجُلَ لَتُوضَعُ أَعْمَالُهُ فِي الْمِيزَانِ فَتَمِيلُ بِهِ فَيُخْرِجُ (صلى الله عليه وآله) الصَّلَاةَ عَلَيْهِ فَيَضَعُهَا فِي مِيزَانِهِ فَيَرْجَحُ بِهِ

-İmam Sadiq(ə) buyurur: “Əməl tərəzisini heç bir şey Məhəmməd və ali  Məhəmmədə salavat qədər ağırlaşdırmaz. Qiyamət günü insanın əməllərini mizanda ölçdükdə yaxşı əməlləri az gələrkən Peyğəmbər(s) həmin şəxsin ona göndərdiyi salavatları tərəzinin gözünə qoyar.

Beləliklə, tərəzidə onun yaxşı əməlləri olan gözü ağırlaşar."[1]

Salavat elə bir zikrdir ki, bütün acılıqların hamısını şirinləşdirir. Hətta bal arısının barəsində yazırlar ki, balın şirinliyi Peyğəmbərə(s) göndərilən salavatın nəticəsindən əmələ gəlir.

Rəvayət olunur ki, bir gün Həzrət Peyğəmbər(s) Həzrət Əli(ə) ilə bir yerdə əyləşmişdi. Elə bu zaman bir arı gəlib onların başı üzərində vızıldayır. Peyğəmbər(s) Həzrət Əliyə(ə) buyurur: "Bilirsənmi bu arı nə deyir?

Həzrət Əli(ə) ərz etdi: Xeyr.

Peyğəmbər(s) buyurdu: Bu arı deyir ki, ya Rəsulallah, yaxın bir yerdə çox yaxşı bal düzəltmişəm. Mən onu sənin üçün gətirə bilmirəm. Əlini(ə) mənimlə göndər, həmin balı ona verim.

Həzrət Əli(ə) arı ilə birgə gedib həmin balı gətirdikdən sonra Peyğəmbər(s) arıdan soruşdu: Siz ağ güllərdən belə şirin balı necə düzəldirsiniz? Arı dedi: Biz acı gülləri yeyərkən sənə üç dəfə salavat göndərdikdə Allahın əmri ilə həmin acılıq şirin bala çevrilir."

Qiyamət günündə də bütün acı hadisələr insanın dünyada olarkən Peyğəmbərə(s) göndərdiyi salavatlar nəticəsində şirin olacaq. Allah-təala salavat zikrini möminlərə fəzilət, mərhəmət və izzət olaraq inayət etmişdir.

Həzrət Adəmdən(ə) tutmuş İslam Peyğəmbərinə(s) qədər olan bütün peyğəmbərlər Həzrətə(s) salam və salavat göndərmişlər. Allah-təala yer üzündə ilk insan olaraq Adəmi(ə) yaratdı. Həzrət Adəm(ə) yarandıqdan

[1] Əl-qətrə,1-ci cild, səh. 154.

sonra ətrafına baxarkən bir insanın olduğunu gördü. Cəbrayıldan(ə) soruşdu: “Ey Cəbrayıl, mənim kənarımda bənzərim olan ikinci şəxs kimdir? Cəbrayıl(ə) dedi: Ey Adəm, bu Həvvadır. Allah-təala onu sənin üçün yoldaş və munis yaratdı. Həzrət Adəm(ə) Həvva ilə tanış olmaq məqsədilə irəli gəlib görüşmək üçün əlini uzatdı. Cəbrayıl(ə) onun əlindən tutub dedi: Belə olmaz. İlk növbədə sizin kəbininiz oxunmalıdır. Kəbin oxunmazdan əvvəl mehriyyə müəyyən edilməlidir. Həzrət Adəm(ə) soruşdu: Onun mehriyyəsi nədir? Cəbrayıl(ə) dedi: Onun mehriyyəsi Məhəmməd(s) və onun Əhli-beytinə(ə) salavat göndərməkdir. Adəm(ə) üç dəfə “Allahummə səlli əla Muhəmmədin və ali Muhəmməd” - dedikdən sonra Allah tərəfindən onların kəbinləri kəsildi. Adəmlə Həvva bir-birinə məhrəm və ər-arvad oldular.”

Hədislərdə Peyğəmbər(s) və Onun Əhli-beytinə(ə) salavat göndərməyin bu qədər üstünlüyə, şərafətə, savab və bərəkətə malik olduğunu görürük. Xüsusilə şaban ayında, cümə günündə, gündəlik namazlardan sonra dəstəmazlı halda salavat göndərmək onun şərafət və fəzilətinin daha da çox olduğuna sübutdur.

Allahdan istəyim budur ki, dilimizi Peyğəmbər(s) və ali Peyğəmbərin(s) zikri ilə, qəbimizi də onların məhəbbəti ilə nurani eləsin!

## Bərəkət gətirən ibadətlər

Ötən bəhslərdə qeyd olundu ki, təqvanın insanlara verdiyi nəticələrdən biri də bərəkətdir. Lakin bunu da bilmək lazımdır ki, bərəkəti əldə etmək insanın öz əməllərindən asılıdır. Deyildi ki, bəzi zikrlər insanın həyatında bərəkət yaradır. Onların bir neçəsi haqda söz açdıq. Bunu da bilmək lazımdır ki, bəzi ibadətlər də insanın ömründə, dünyasında və maddi həyatında bərəkət yaradır. Yaxşı olar ki, həmin ibadətlərdən bir neçəsinə diqqət yetirək.

1) Namaz

İnsanın həyatında bərəkət yaradan ibadətlərdən biri namazdır. Demək olar ki, çox insanın namaz haqqında məlumatı vardır. Keçmiş bəhslərimizdə müəyyən qədər namaz barədə müxtəlif hədisləri qeyd etmişik. Namazın insan üçün bir çox fəzilət, üstünlük, şərafət və faydaları vardır. Həmin faydalardan biri də onun insanda bərəkət yaratmasıdır. Bu barədə olan hədislərdən bir neçəsinə diqqət yetirək.

قَالَ رَسولُ اللّهِ(ص): اَلصَّلاةُ مِن شَرائِعِ الدّينِ وَ فيها مَرضاةُ الرَّبِّ عَزَّوَجَلَّ وَ هِیَ مِنهاجُ النبياءِ وَ لِلمُصَلّی حُبُّ المِلائِكَةِ وَ هُدیً و ايمانٌ وَ نورُ المِعرفَةِ وَ بَرَكَةٌ فِی الرِّزقِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Namaz dini ayinlərdən biridir. Allah-təalanın razılığı ondadır. Namaz peyğəmbərlərin yoludur. Namaz qılanlar üçün mələklərin

məhəbbəti, hidayət, iman, mərifət nuru və ruzisində bərəkət vardır.” [1]

Günlərin birində İslam Peyğəmbəri(s) səhabələrlə bir ağacın altında əyləşib söhbət edirdi. Peyğəmbər(s) həmin ağacın bir budağından tutub silkələdi. Həmin budağın yarpaqları tökülməyə başladı. Sonra gördüyü bu işin izahını belə açıqladı:

إنّ العَبدَ المسلِمَ إذا قامَ إلى الصَّلاةِ تَحاتَّتْ عَنهُ خَطاياهُ كما تَحاتَت وَرَقُ هذهِ الشَّجرَةِ

-Həqiqətən, müsəlman bəndə namaza qalxdığı zaman bu ağacın yarpaqları töküldüyü kimi, onun günahları da eləcə tökülür. [2]

قَالَ عَلِيٌّ(ع): إنّ الإنسانَ إِذَا كَانَ فِي الصَّلاة، فَإِنَّ جَسَدَهُ وَثِيابَهُ وَكُلَّ شَيءٍ حَولَهُ يُسَبِّح

-Həzrət Əli(ə) buyurur: “İnsan namaz qıldığı zaman bədəni, paltarı və ətrafında olan bütün əşyalar (Allaha) təsbih (zikr) deyir.”[3]

قَالَ عَلِيٌّ(ع): لَو يَعلَم الْمُصَلِّي مَا يَغشاهُ مِن جَلالِ الله، مَا سَرَّهُ اَن يَرفَعَ رَأسَهُ مِن سُجُودِهِ

---

[1] Xisal, səh.522.
[2] Mizanül-hikmə,7-ci cild, hədis-10558.
[3] Yenə orada,7-ci cild, hədis-10585.

-Həzrət Əli(ə) buyurur: “Əgər namaz qılan, Allahın cəlalından hansı tacın onu əhatə etdiyini bilsəydi, başını səcdədən qaldırmaq istəməzdi.”[1]

Ayətullah Şeyx Həsənəli “Əsrarus-səlat” adlı kitabında belə bir rəvayət nəql edir: “Günlərin birində İmam Sadiq(ə) namaz qılarkən “İyyakə nəbudu və iyyakə nəstəin” ayəsinə yetişdi. Bu ayəni o qədər təkrar etdi ki, qəşş edib yerə yıxıldı. Halı özünə gəldikdən sonra nə üçün qəşş etdiyinin səbəbini soruşdular. İmam(ə) buyurdu: Namazda “İyyakə nəbudu və iyyakə nəstəin” ayəsini o qədər təkrar etdim ki, axırda onun sahibindən həmin cümləni eşitdim. Buna görə də dözə bilməyib haldan getdim.”

## Namazın şərtləri

Qeyd etdik ki, namaz insana bərəkət verən ibadətlərdən biridir. Sual oluna bilər ki, hər bir namaz qılan bu bərəkətdən bəhrələnə bilirmi? Cavab olaraq deyə bilərik ki, namazın bir neçə əsas şərti vardır. Əgər insan o şərtlərə riayət etsə, həm namazı Allah dərgahında qəbul olunar, həm də onun bərəkətindən bəhrə aparar. Həmin şərtlərə diqqət yetirək.

**Birinci şərt:** Namazın şərtlərindən biri budur ki, insan daxilindəki günahla mübarizə aparsın.

قَالَ رَسولُ اللّهِ(ص): إِذَا قَامَ العَبدُ إِلَى الصَّلاةِ فَكَانَ هَواهُ وَقلبُهُ إِلَى اللهِ تَعَالَى اِنصَرَفَ كَيَومٍ وَلَدَتهُ أُمُّه

[1] Mizanül-hikmə,7-ci cild, hədis-10578.

-Həzrət Peyğəmbər(s) buyurur: “Bəndənin fikir və qəlbi Allahla olduğu halda namaza dursa, namazı qılıb qurtardıqdan sonra anadan yenicə dünyaya gəlmiş insan kimi günahdan pak olar.”[1]

İnsan belə (səmimiyyətlə və təmiz ürəklə) namaz qılmaq üçün nə etməlidir? Cavab belədir ki, insan günahlarla mübarizə aparmalıdır. Çünki insanın günah etməkdə davamlı və israrlı olduğu halda təmiz namaz qılması mümkün deyil. Buna görə də insan özünü təmiz qəlblə namaz qılmağa öyrəşdirməlidir.

Ayətullah Şeyx Həsənəli İsfahani deyir ki, xəttatlar günlərlə məşq edib çalışdıqdan sonra xəttat olmuşlar. İnsan da eləcə məşq etməli və namazlarını gözəlləşdirməlidir.

Buna görə də insan günah etməkdə israrlı olmamalıdır. Əgər belə olsa, nə təmiz qəlblə namaz qıla biləcək, nə də bu namaz onu paklaşdıra biləcək. Buna misal olaraq xəstə ilə həkimi misal çəkmək olar. Həkim xəstəni müayinə etdikdən sonra onun üçün dərmanlar yazır. Deyir ki, qətiyyən filan şeyləri sənə yemək olmaz. Əgər sənə ziyanlı olan saydığım yeməkləri yesən, yazdığım dərmanların heç bir faydası olmayacaq.

قَالَ الصَّادِقُ(ع): إِنَّمَا مَثَلُ الصَّلاة مَثَلُ النَّهرُ الَّذي يُنقِي، كُلَّمَا صَلَّى صَلاةً كَانَ كَفَّارَةً لِذُنُوبِه، إِلّا ذَنبٌ أَخرَجَهُ مِنَ الإِيمان مُقِيمٌ عَلَيهِ

[1] Mizanül-hikmə,7-ci cild, hədis-10565.

İmam Sadiq(ə) buyurur: “Namaz paklaşdıran, təmizləyən su arxına bənzəyir. İnsan namaz qılanda namaz yalnız onu imandan çıxardan və israrla əməl etdiyi günahdan başqa, bütün günahlarını təmizləyər.”[1]

**İkinci şərt:** Namazın ikinci şərti budur ki, əgər insan qıldığı namazdan ləzzət almaq və onun bərəkətindən istifadə etmək istəyirsə, namazın vaxtına riayət etməlidir.

قَالَ البَاقِرُ(ع): إِنَّ الصَّلَاةَ إِذَا ارْتَفَعَتْ فِي أَوَّلِ وَقْتِهَا رَجَعَتْ إِلَى صَاحِبِهَا وَ هِيَ بَيْضَاءُ مُشْرِقَةٌ تَقُولُ حَفِظْتَنِي حَفِظَكَ اللَّهُ وَ إِذَا ارْتَفَعَتْ فِي غَيْرِ وَقْتِهَا بِغَيْرِ حُدُودِهَا رَجَعَتْ إِلَى صَاحِبِهَا وَ هِيَ سَوْدَاءُ مُظْلِمَةٌ تَقُولُ ضَيَّعْتَنِي ضَيَّعَكَ اللَّه

İmam Baqir(ə) buyurur: “Əgər namaz öz vaxtında səmaya qalxsa, ağ və nurani şəkildə sahibinə tərəf qayıdıb deyər: Sən mənimlə yaxşı davrandın, Allah da səninlə yaxşı davransın! Vaxtında qılınmadan və qaydalarına riayət olunmadan yuxarı qalxsa, qaralmış halda qayıdıb sahibinə deyər: “Sən məni zay etdin, Allah da səni zay etsin!” [2]

İnsan şəfaətinə ümid bəslədiyi bu namaz bəzən ona qarğış edir. Qeyd olunan hədisdən sonra həmin alim belə yazır:

وَيلٌ لِمَن شُفَعَاؤُه خُصَمَاؤُه

---

[1] Yenə orada, hədis-10564.
[2] Əsrarus-səlat. Şeyx Həsənəli, səh.72.

-Vay olsun o kəsə ki, şəfaətini gözlədiyi ona qarğış edir.[1]

Allah-təala “Möminun” surəsində möminlərin bir sıra xüsusiyyət və sifətlərini sadaladıqdan sonra 9-cu ayədə buyurur:

وَالَّذِينَ هُمْ عَلَى صَلَوَاتِهِمْ يُحَافِظُونَ

-Və o kəslər ki, namazlarını (tam və kamil olması baxımından) qoruyurlar.

İmam Baqirdən(ə) bu ayənin mənasını soruşduqda Həzrət(ə) buyurdu ki, namazlarını vaxtlı-vaxtında qılmaqla onu qoruyarlar.

Hədisdə belə nəql olunmuşdur ki, azan verilərkən cənab Əzrayıl(ə) kimin namazı vaxtlı-vaxtında qılıb-qılmamasını yoxlayır. Çünki ona əmr olunmuşdur ki, hər kim namazı öz vaxtında qılırsa, onun canını alan zaman əgər dili tutularsa, dilini aç ki, “La ilahə illəllah” zikrini etsin.

İmam Həsən Əskəri(ə) məktub yazırdı. Azan səsini eşidən kimi qələm- kağızı bir kənara qoyaraq namazla məşğul olmağa başladı. Məktubu yenicə yazmağa başlamasına baxmayaraq, İmam(ə) namaza hər şeydən çox əhəmiyyət verdiyi üçün əlində nə qədər mühüm iş olsaydı belə bir kənara qoyub namazını qılardı.

Hədislərdə belə nəql olunur ki, azan zamanı şeytan gəlib insana baxır. Əgər azan vaxtı durub namaz qılarsa, şeytan ondan ümidini kəsir. Amma namazını gecikdirən adama ümid bəsləyir. Bilir ki, belə insanı yoldan çıxarma ehtimalı çoxdur.

---

[1] Əsrarus-səlaт. Şeyx Həsənəli, səh.73.

Mərhum İmam Xomeyni(r) Fransada sürgündə olanda dünyanın müxtəlif ölkələrindən müxbirlər gəlib ondan müsahibə alırdılar. Belə bir halda insan öz hədəfi barədə danışıb səsini dünyaya çatdırmağı nə qədər mühüm iş hesab edər? Lakin İmam Xomeyni onlara müsahibə verərkən namaz vaxtının daxil olduğunu görüb onlarla söhbəti kəsdi və namaza hazırlaşdı.

İran-İraq müharibəsi səkkizillik ağır müharibə oldu. O vaxt İranın prezidenti Haşimi Rəfsəncani idi. O deyir: "Şiddətli döyüş gedirdi. İmam Xomeyni müharibənin vəziyyəti ilə maraqlanmaq üçün komandirlərə bir saat vaxt ayırmışdı. İclasda söhbət əsnasında birdən-birə ayağa qalxıb otağı tərk etdi. Komandirlərdən heç biri onun nə üçün otaqdan çıxdığını soruşmağa cürət edə bilmədiklərindən mənə dedilər: İmamın bizim hansısa sözümüzdən xoşu gəlmədimi? Nə üçün otağı birdən-birə tərk etdi? Mən İmama yaxınlaşıb soruşdum: Ağa, nəsə baş verib? İmam buyurdu: Namazın vaxtıdır. Namaz qılaq, ondan sonra söhbətimizə davam edərik."

Elə bu işə görə də ölkəsinin bir qarış torpağını da vermədi. Bəziləri elə düşünməsinlər ki, namazla məşğul olduğundan ölkə əlindən çıxa bilərdi. Xeyr, əgər namaz olmasaydı, alınan torpaqları geri qaytarmaq da mümkün olmazdı. Allah-təala insanların öhdəsinə müəyyən vəzifələr qoyub. İnsan bu öhdəlikləri yerinə yetirməlidir. Nəticənin nə olacağı bizim əlimizdə deyil. Çünki bu aləmi idarə edən var. O, nəyi məsləhət bilsə, elə də olacaq. Görürük ki, namaz hər bir işdə mühümdür. Buna görə də onun vaxtına dəqiq riayət olunmalıdır.

**Üçüncü şərt:** Namazın üçüncü şərti onun səmimi qəlblə qılınmasıdır. Yəni hər kəs namazın bərəkətindən

bəhrələnmək istəyirsə, namaz zamanı fikri ancaq namazda olmalıdır.

قَالَ رَسُولُ اللهِ(ص): إنَّ مِنَ الصلاةِ لَما يُقبَلُ نِصفُها و ثُلثُها و رُبعُها و خُمسُها إلى العُشرِ، و إنّ مِنها لَما يُلَفُّ كما يُلَفُّ الثَّوبُ الخَلَقُ فيُضرَبُ بها وَجهُ صاحِبِها، و إنّما لكَ مِن صلاتِكَ ما أقبَلتَ علَيهِ بقَلبِكَ

-Həzrət Peyğəmbər(s) buyurur: "Üçdə biri, dörddə biri, beşdə biri və nəhayət, onda biri qəbul olunan namazlar var. Bəzi namazlar isə köhnə və büzüşmüş paltar kimi namaz qılanın üzünə vurular. Həqiqətən də yalnız qəlbən diqqət yetirdiyin qədər namazdan sənə xeyir çatır." [1]

قَالَ الصَّادِقُ(ع): الصَّلَاةُ وُكِّلَ بِهَا مَلَكٌ لَيْسَ لَهُ عَمَلٌ غَيْرُهَا فَإِذَا فُرِغَ مِنْهَا قَبَضَهَا ثُمَّ صَعِدَ بِهَا فَإِنْ كَانَتْ مِمَّا تُقْبَلُ قُبِلَتْ وَ إِنْ كَانَتْ مِمَّا لَا تُقْبَلُ قِيلَ لَهُ رُدَّهَا عَلَى عَبْدِي فَيَنْزِلُ بِهَا حَتَّى يَضْرِبَ بِهَا وَجْهَهُ ثُمَّ يَقُولُ أُفٍّ لَكَ مَا يَزَالُ لَكَ عَمَلٌ يَعْنِينِي

-İmam Sadiq(ə) buyurur: "Namaz üçün elə bir mələk təyin olunmuşdur ki, ondan başqa heç bir iş görmür. Namaz qılan şəxs namazı qılıb qurtardıqdan sonra həmin mələk o namazı götürüb göyə aparır. Əgər o namaz qəbul olunmuş namazlardan hesab olunsa, onu bəyənib saxlayırlar. Yox, əgər həmin namaz qəbul olunan namazlardan sayılmasa, o namazın geri

[1] Mizanül-hikmə,7-ci cild, hədis-10654.

qaytarılması barədə göstəriş verirlər. Mələk yenidən o namazı götürüb yerə enər və namazı onun üzünə vurub deyər: “Ayıb olsun sənə, məni zəhmətə salmaqdan savayı əlindən başqa fərli bir əməl çıxmır.”[1]

Buna görə də namaz qılan şəxs fikrinin başqa yerlərə yayınmasına imkan verməməlidir. Əlbəttə, bunu etmək elə də asan iş deyil. Sual oluna bilər ki, insan hansı işləri görməlidir ki, namazda fikri yayınmasın. Namazda fikrin yayınmaması üçün bir sıra yollar göstərilmişdir. Həmin yolları diqqətinizə çatdırıram.

## Namazı səmimi qəlblə (və namazda fikri toplamağın) qılmağın yolları

1. O yollardan biri budur ki, namaz camaat namazında camaatla, tək olduqda isə xəlvət yerdə qılınmalıdır. Yəni namaz qılınan yerdə səs-küy olmamalı, divara şəkil asılmamalı və həmin yerdə insanın fikrini yayındıran bir şey olmamalıdır. Mömin səcdə etdiyi yerə baxmalı, yaxud gözlərini yummalıdır. Əgər insan gözlərini yumduqda fikri yayınırsa, o zaman gözlərini açmalı, yox, əgər gözləri açıq namaz qıldıqda fikri yayınırsa, deməli gözlərini yummalıdır.

2. İkinci yol budur ki, namaz zamanı fikrin yayınmaması üçün insan maneələri aradan qaldırmalıdır.Yəni ayaqyoluna getməlidirsə getsin, əgər acdırsa (çox olmamaq şərtilə, azandan öncə) bir şey yesin, yorğundursa namaz vaxtından əvvəl yatıb (namaza qədər) dincəlsin.

---

[1] Yenə orada, hədis-10658.

3. Namazda fikrin yayınmaması üçün deyilən yollardan üçüncüsü budur ki, fikri namazın mənasında olsun. Yəni sözləri dedikcə onun mənasını da bilsin. Belə olduqda insanın fikri başqa yerlərə yayınmaz.

قَالَ الصَّادِقُ(ع): مَنْ صَلّى رَكْعَتَيْنِ يَعْلَمُ مَا يقولُ فِيهِما، انْصَرَفَ وَلَيْسَ بَيْنَهُ وَبَيْنَ اللهِ ذَنْبٌ إلاّ غَفَرَ لَهُ

-İmam Sadiq(ə) buyurur: "Hər kim iki rükət namaz qılsa və namazda nə dediyini bilsə (sözlərin mənasını düşünsə), namazı qılıb qurtardıqdan sonra onunla Allahın arasında heç bir günah qalmaz. Allah onun günahlarını bağışlayar.[1]

4. Namazı tam diqqətlə və qəlbən qılmağın dördüncü yolu odur ki, insan kimin qarşısında dayandığını başa düşməlidir. Əlbəttə, bu həmin iman və mərifətdir ki, onu əldə etmək üçün insan zəhmət çəkməlidir.

قَالَ رَسُولَ اللهِ(ص): أُعْبُدُاللهَ كَأَنَّكَ تَرَاهُ فَإِنْ كُنتَ لَا تَراهُ فَإِنَّهُ يَراكَ

-Həzrət Peyğəmbər(s) Abuzərə buyurdu: "Allaha elə ibadət et ki, elə bil Onu görürsən. Əgər sən Onu görməsən də (bil ki,) O, səni görür."[2]

Əban ibn Təğlib adlı bir nəfər deyir: "İmam Sadiqə(ə) ərz etdim ki, Əli ibn Hüseyni(ə) namaz

[1] Mizanül-hikmə,7-ci cild, hədis-10666.
[2] Nəhcül-fəsahə, səh.65.

qılarkən rəngi qaçmış halda gördüm. Nə üçün namaz qılarkən onun halı dəyişib bu vəziyyətə düşürdü?

İmam Sadiq(ə) buyurdu: And olsun Allaha ki, Əli ibn Hüseyn(ə) namaz halında kimin qarşısında dayandığını çox yaxşı bilirdi." [1]

Əlbəttə, bu dörd yoldan başqa yollar da qeyd olunmuşdur. Amma biz ən əsası bu dörd yoldan istifadə edərək namazlarımızı gözəlləşdirə bilərik. Yəni bunlara riayət etməklə fikrimizi namazdan başqa yerə yönəltməyə imkan verməri.

[1] Бiharul-ənвar, 84-cü cild, səh.236.

2) Orucluq

İnsanda bərəkət yaradan ibadətlərdən biri orucluqdur. İstər vacib orucluq olsun, istərsə də müstəhəb orucluq, heç bir fərqi yoxdur. İmam Baqir(ə) bir hədisdə çox açıq-aydın surətdə orucluğun bərəkət olduğunu və insanı bərəkətli etdiyini bəyan edir.

قَالَ البَاقِرُ(ع): إنَّ للّهِ تعالى مَلائِكَةً مُوَكَّلينَ بِالصّائِمينَ، يَستَغفِرونَ لَهُم في كُلِّ يَومٍ مِن شَهرِ رَمَضانَ إلى آخِرِهِ، ويُنادونَ الصّائِمينَ كُلَّ لَيلَةٍ عِندَ إفطارِهِم: أبشِرُوا عِبادَ اللّهِ! فَقَد جُعتُم قَليلاً وسَتَشبَعونَ كَثيرا، بورِكتُم وبورِكَ فيكُم...

-İmam Baqir(ə) buyurur: "Allah-təala bir qrup mələyi oruc tutanlara müvəkkil etmişdir. O mələklər ramazan ayının axırına qədər hər gün həmin oruc tutan insanlar üçün Allahdan bağışlanma diləyərlər. Həmçinin hər axşam iftar vaxtı oruc tutanlara xitab edərək deyərlər: Müjdə olsun sizə ey Allah bəndələri! Az müddət ac qaldınız, amma uzun müddət tox qalacaqsız. Həm özünüz bərəkətli oldunuz, həm də bərəkətə səbəb oldunuz..."[1]

Bu hədisdə İmam(ə) oruc tutanların öz oruclarının vasitəsilə bərəkət əldə etdiklərini və həm də onların özləri başqaları üçün bərəkətli olmasını bəyan edir.

---

[1] Allahın ayı, 1-ci cild, səh.116.

قَالَ رَسُولُ اللهِ(ص): إنَّ للّهِ مائِدَةً عَلَيها مَا لا عَينٌ رَأَت، ولا أُذُنٌ سَمِعَت، ولا خَطَرَ عَلى قَلبِ بَشَرٍ، لا يَقعُدُ عَلَيهَا إلاَّ الصّائِمونَ

Həzrət Peyğəmbər(s) buyurur: "Allahn elə bir süfrəsi vardır ki, (onun üzərində olan nemətləri) heç bir göz onu görməmiş, heç bir qulaq onun barəsində eşitməmiş və heç bir bəşərin qəlbi onu hiss etməmişdir. Bu süfrədə oruc tutanlardan başqa heç kəs əyləşməyəcək."[1]

İslam Peyğəmbərinin(s) buyurduğu bu hədisdə görürük ki, oruc insanda elə bərəkət yaradır ki, Allah-təala həmin insanı heç kəsin təsəvvür edə bilmədiyi süfrə kənarında əyləşdirəcək. Bunu da qeyd edək ki, oruc həmişə mühümdür və oruc tutmaq həmişə fəzilətlidir. Orucun savabı və fəziləti haqda deyilən rəvayətlərin hamısı bütün oruclara aiddir. Amma isti havada oruc tutmaq xüsusi qeyd olunmuşdur. Görünür ki, isti havada oruc tutmaq digər vaxtların orucu kimi deyil. Yəni əziyyətinin çox olması ilə əlaqədar savabı da fərqlidir.

قَالَ الصَّادِقُ(ع): مَن صامَ لِلّهِ عَزَّ وَ جَلّ يومًا فِي شِدَّةِ الحَرِّ فَأَصابَهُ ظَمَأٌ، وَكَّلَ اللّهُ بِهِ ألفَ مَلَكٍ يَمسَحُونَ وَجهَهُ ويُبَشِّرُونَهُ، حَتّى إِذَا أَفطَرَ. قَالَ اللّهُ تَعَالَى لَهُ: مَا أَطيَبَ رِيحَكَ وَرَوحَكَ! مَلائِكَتِي، اِشهَدوا أَنّي قَد غَفَرتُ لَهُ

---

[1] Allahın ayı, 1-ci cild, səh.110.

-İmam Sadiq(ə) buyurur: “Hər kim isti günlərdə Allaha xatir bircə gün oruc tutsa və istinin şiddətindən ona susuzluq gəlsə, Allah min mələyi həmin şəxsə müvəkkil edər. Mələklər gəlib onun üzünə iftara qədər əl çəkər və onu müjdələyərlər. (İftar olduqda şəxsən) Allah Özü həmin şəxsə buyurar: Səndən necə də gözəl qoxu gəlir. Ey mənim mələklərim! Şahid olun ki, mən onu bağışladım.”[1]

Qeyd etdiyimiz bu hədisdə isti havada oruc tutan şəxsin şərafəti haqda söz açılır. Bəzi oruclar da vardır ki, digər oruclardan fərqlidir. Yəni insan elə bir yerdə oruc tutur ki, başqaları onun yanında yemək yeyir, su içirlər. Belə bir oruc da savab cəhətdən digər oruclardan müəyyən imtiyazlara malik olur.

قَالَ الصَّادِقُ(ع): إذا رَأَى الصّائِمُ قَوما يَأكُلونَ أو رَجُلاً يَأكُلُ، سَبَّحَت كُلُّ شَعرَةٍ مِنهُ

-İmam Sadiq(ə) buyurur: “Oruc tutan insan başqalarının və ya birinin yemək yediyini gördükdə (yemək yeyənlərin arasında oruc tutarsa) həmin şəxsin bədəninin hər bir tükü Allaha təsbih deyər və zikr edər.”[2]

قَالَ رَسُولُ اللهِ(ص): ما مِن صائِمٍ يَحضُرُ قَوما يَطعَمونَ إلاّ سَبَّحَت لَهُ أعضاؤُهُ، وكانَت صَلاةُ المَلائِكَةِ عَلَيهِ، وكانَت صَلاتُهُم استِغفارا

-Yemək yeyənlərin arasında orucunu tutan şəxs üçün bədən üzvləri Allahı zikr edər və mələklər də ona

[1] Allahın ayı, 1-ci cild, səh.116.
[2] Allahın ayı, 1-ci cild, səh.118.

salavat deyərlər. Mələklərin salavatı onun bağışlanmasını diləməkdir.[1]

Büreydə deyir: "Günlərin birində Həzrət Peyğəmbər(s) səhabələrlə əyləşib səhər yeməyi yeyirdi. Elə bu zaman Bilal içəri daxil oldu. Peyğəmbər(s) ona buyurdu: Gəl səhər yeməyi ye. Bilal dedi: Ya Rəsulallah, mən oruc tutmuşam. Həzrət Peyğəmbər(s) buyurdu:

نَأكُلُ أرزاقَنا وفَضلُ رِزقِ بِلالٍ فِي الجَنَّةِ. أشَعَرتَ يا بِلالُ أنَّ الصّائِمَ تُسَبِّحُ عِظامُهُ وتَستَغفِرُ لَهُ المِلائِكَةُ ما أُكِلَ عِندَهُ

-Biz öz ruzimizi yeyirik, Bilalın ruzisi isə cənnətdədir. Ey Bilal, bilirsənmi? Yemək yeyənlərin içində olub oruc tutan şəxsin hətta sümükləri belə Allaha təsbih deyir və mələklər onun üçün Allahdan bağışlanma diləyirlər."[2]

## Orucluq şeytanla mübarizədir

Orucluq elə bir əməldir ki, şeytanla mübarizədə də onun böyük təsiri və faydası vardır. Yəni oruc tutmaq şeytanı insandan çox uzaqlaşdırır.

قَالَ الصَّادِقُ(ع): إنَّ النَّبِيَّ صلى الله عليه و آله قالَ لِأَصحابِهِ : «ألا أُخبِرُكُم بِشَيءٍ إن أنتُم فَعَلتُموهُ تَباعَدَ الشَّيطانُ مِنكُم كَما تَباعَدَ المَشرِقُ مِنَ المَغرِبِ؟

قالوا: بَلى

---

[1] Allahın ayı, 1-ci cild, səh.118.

[2] Allahın ayı, 1-ci cild, səh.120.

قالَ: الصَّومُ

-İmam Sadiq(ə) buyurur: “Günlərin birində Peyğəmbər(s) səhabələrə buyurdu: İstəyirsiz sizə elə bir əməl öyrədim ki, əgər ona əməl etməklə gün doğanla gün batanın bir-birindən uzaq olduğu kimi şeytan da sizdən uzaqlaşsın?

Dedilər: Bəli.

Həzrət(s) buyurdu: Orucluq.”

**Orucluq şəhvəti zəiflədir**

Şəhvət insanın daxilində olan keyfiyyətlərdən biridir. Bəzi insanlar gənc vaxtlarında bu keyfiyyətləri ilə dərindən mübarizə aparmaq istəyirlər. Orucluq şəhvətlə mübarizə aparmaq üçün ən gözəl vasitələrdəndir.

قالَ رَسولُ اللّهِ(ص): يا مَعشَرَ الشَّبابِ، عَلَيكُم بِالباهِ، فَإِن لَم تَستَطيعوهُ فَعَلَيكُم بِالصِّيامِ؛ فَإِنَّهُ وِجاؤُهُ

-Həzrət Peyğəmbər(s) buyurur: “Ey gənclər, sizə evlənməyi tövsiyə edirəm. Əgər evlənməyə imkanınız yoxdursa, oruc tutun. Çünki oruc tutmaq cinsi tələbatı azaldar.”[1]

Qüddamə ibn Məzun və Osman ibn Məzun iki qardaş idilər. Osman ibn Məzun həmişə Peyğəmbərlə(s) bir yerdə müharibələrdə iştirak edərdi. Həzrət Əli(ə) onun barəsində belə buyurur: “Mən Osman ibn Məzunu çox sevdiyimə görə oğlanlarımdan birinin adını Osman qoydum ki, onu mənə xatırlatsın.”

---

[1] Allahın ayı, 1-ci cild, səh.130.

Qüddamə deyir: “Qardaşım Osman Peyğəmbərin(s) hüzuruna gəlib dedi: Ya Rəsulallah, mən elə bir adamam ki, çox vaxt döyüşlərdə və səfərlərdə oluram. Qadınım (həyat yoldaşım) olmadığına görə şəhvətin mənə qələbə çalmasından qorxuram. İcazə verirsənmi elə bir iş görüm ki, məndə bir daha şəhvət olmasın?

Peyğəmbər(s) buyurdu: Xeyr. Amma, ey Məzunun oğlu, oruc tutmağı sənə tövsiyə edirəm. Çünki oruc tutmaq insanın cinsi tələbatını zəiflədir.”[1]

## Orucluq insanı Allaha yaxınlaşdırır

Qeyd olundu ki, orucluq şeytanı insandan uzaqlaşdırır və şəhvəti zəiflədir. Belə olduqda insan Allaha yaxınlaşır.

رَسُولُ اللّهِ صلى الله عليه و آله . لاِسامَةَ بنِيا اُسامَةُ ، عَلَيكَ بِالصَّومِ ؛ فَإِنَّهُ يُقَرِّبُ إلَى اللّهِ . إنَّهُ لَيسَ شَيءٌ أحَبَّ إلَى اللّهِ مِن ريحِ فَمِ الصّائِمِ تَرَكَ الطَّعامَ وَالشَّرابَ للّهِ عز و جل ، فَإِنِ استَطَعتَ أن يَأتِيَكَ الموتُ وبَطنُكَ جائِعٌ وكَبِدُكَ ظَمآنُ فَافعَل ؛ فَإِنَّكَ تُدرِكُ شَرَفَ المَنازِلِ فِي الآخِرَةِ ، وتَحِلُّ مَعَ النَّبِيّينَ

-Həzrət Peyğəmbər(s) Üsamə ibn Zeydə buyurdu: “Ey Üsamə, sənə oruc tutmağı tövsiyə edirəm. Çünki oruc tutmaq insanı Allaha yaxın edir. Allah yanında oruc tutanın ağzından gələn iy qədər sevimli bir şey yoxdur. Çünki bu insan Ona xatir yeməyi və içməyi tərk edib oruc tutmuşdur. Əgər bacarırsansa ölüm səni yaxaladıqda

---

[1] Allahın ayı, 1-ci cild, səh.128.

ac və susuz (oruc) görsün. Belə olduqda axirətin şərafət mənzillərini görərsən və peyğəmbərlərlə birgə olarsan.”[1]

Burada sual oluna bilər ki, Allaha bu yaxınlaşmağın və ona səbəb olan bu orucun faydası nədir? Bu sualın cavabı belədir ki, Allahın razılığını qazanmaq və Ona yaxın olmaq üçün oruc tutmağın bir neçə böyük faydası vardır.

1. Alllaha yaxın olmaq və Onun razılığını əldə etmək üçün oruc tutmağın faydalarından biri budur ki, Allah-təala qiyamət günü həmin şəxsi əmin- amanlıq və rahatlıq içində saxlayar. Hədis belədir:

قَالَ البَاقِرُ(ع): لَمّا كَلَّمَ اللّهُ موسَى بنَ عِمرانَ عليه السلام قالَ موسى: ... إلهي، فَما جَزاءُ مَن صامَ فِي بَياضِ النَّهارِ يَلتَمِسُ بِذلِكَ رِضاكَ؟

قالَ: يا موسى، لَهُ جَنَّتي، ولَهُ الأَمانُ مِن كُلِّ هَولٍ يَومَ القِيامَةِ، وَالعِتقُ مِنَ النّارِ

-İmam Baqir (ə) buyurur: “Həzrət Musa (ə) bir gün Allahla minacat edərkən soruşdu: İlahi! Sənin razılığını qazanmaq üçün oruc tutanların mükafatı nədir? Allah onun cavabında buyurdu: Ey Musa, Mənim cənnətim onundur. Qiyamət günü onu bütün qorxulardan amanda saxlayar və cəhənnəm odundan uzaqlaşdıraram.”[2]

[1] Allahın ayı, 1-ci cild, səh.136.
[2] Allahın ayı, 1-ci cild, səh.138.

Allahın razılığını əldə etmək və Ona yaxın olmaq üçün oruc tutmağın ikinci faydası budur ki, həmin oruc qiyamət günü onu (o orucu) tutana şəfaətçi olacaq.

قَالَ رَسولُ اللّهِ(ص): الصِّيامُ وَالقُرآنُ يَشفَعانِ لِلعَبدِ يَومَ القِيامَةِ؛ يَقولُ الصِّيامُ: أي رَبِّ، مَنَعتُهُ الطَّعامَ وَالشَّهَواتِ بِالنَّهارِ؛ فَشَفِّعني فيهِ ، وَيقولُ القُرآنُ : مَنَعتُهُ النَّومَ بِاللَّيلِ ؛ فَشَفِّعني فيهِ . قالَ . : فَيُشَفَّعانِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Qiyamət günü oruc və Quran bəndəyə şəfaətçi olacaqlar. Oruc deyəcək: İlahi, mən bu bəndəni yeməklərdən və ürəyinin istəklərindən saxladım. Mənim şəfaətimi onun barəsində qəbul et.

Quran deyəcək: İlahi, mən onu gecə yuxusundan saxladım. Mənim şəfaətimi onun barəsində qəbul et.

Belə isə onların hər ikisinin şəfaəti qəbul olunacaq."[1]

Allaha yaxın olmaq üçün oruc tutmağın faydalarından üçüncüsü isə budur ki, Allah-təala həmin şəxsə "Əla-illiyyində" yer verər. Ora peyğəmbərlərin məqamı olan yerdir.

قَالَ البَاقِرُ(ع): إنَّ المؤمِنَ إذا قامَ لَيلَهُ ثُمَّ أصبَحَ صائِما نَهارَهُ لَم يُكتَب عَلَيهِ ذَنبٌ، ولَم يَخطُ خُطوَةً إلاّ كَتَبَ اللّهُ لَهُ بِها حَسَنَةً، ولَم يَتَكَلَّم بِكَلِمَةِ

[1] Yenə orada, səh.140.

خَيرٍ إلاّ كَتَبَ اللّهُ لَهُ بِها حَسَنَةً، وإن ماتَ في نَهارِهِ صُعِدَ بِروحِهِ إلى عِلِّيِّينَ، وإن عاشَ حَتّى يُفطِرَ كَتَبَهُ اللّهُ مِنَ الأَوّابينَ

-İmam Baqir(ə) buyurur: "Mömin bəndə gecələr ibadət etsə və gündüzlər oruc tutsa, onun üçün günah yazılmaz. Atdığı hər addıma görə Allah ona savab yazar. Əgər oruc ağızla dünyasını dəyişsə, Allah onun ruhunu "Əla-illiyyində" yüksək dərəcələrə aparar. Əgər iftara qədər sağ qalsa, Allah-təala onun adını tövbəkarların sırasına yazar."[1]

## Bərəkətə səbəb olan gözəl xüsusiyyətlər

Təqvanın insana olan fayda və nəticələrindən biri də bərəkətdir. Ötən bəhslərdə bərəkətə səbəb olan əməllər, zikr və ibadətlər haqda müəyyən qədər söhbət etdik. Bərəkətə səbəb olan amillərdən biri də insanda olan gözəl xüsusiyyətlərdir. Bəzi gözəl və müsbət xüsusiyyətlər Allahın insana bərəkət nazil etməsinə səbəb olur. Hər bir əməlin özünəməxsus xüsusiyyəti və təsiri vardır, istər Allaha xatir olsun, istərsə də olmasın. Amma öz təsirini insanda büruzə verəcəkdir. Məsələn, əgər bir nəfər əlini yüksək gərginlikli üstüaçıq elektrik naqilinə vursa, onda olan cərəyan həmin şəxsi öldürəcək. Əgər insan bu işi bilərəkdən etsə, böyük günah etmişdir. Çünki həmin şəxs intihar edərək özünü öldürmüş sayılır. İntiharda da tövbə mümkün olmadığı üçün həmin şəxsə cəhənnəm vəd edilir. Amma insan əlini bilməyərəkdən həmin naqilə vursa və cərəyan onu öldürsə, günah iş görməyib. Çünki

---

[1] Yenə orada, səh.116.

o, həmin əməli bilmədən etmişdir. Amma bu əməlin təsiri nəticəsində insan ölür.

Başqa bir misal çəkək: Məsələn, əgər bir nəfər bilərəkdən haram içkilər içsə, deməli haram iş görmüşdür və onun üçün günah yazılır. Amma əgər bilmədən meyvə şirəsinin yerinə məstedici haram içkilərdən içsə və sonradan başa düşsə ki, bu haram və məstedici bir maye imiş, belə olduqda ona günah yazılmaz. Amma hər iki halda bu maye öz təsir və xüsusiyyətini o şəxsdə göstərəcəkdir. Yəni hər iki halda bilərəkdən və ya bilməyərəkdən içilsə belə həmin şəxsdə məstliyin təsiri özünü göstərəcəkdir. İslamda əməllər də belədir. Məsələn, ataya xidmət göstərmək Allahın buyurduğu bir iş və insanın borcudur. Bu əməlin xüsusiyyəti odur ki, insanın ömrünü uzadır. Həmçinin valideynə qulluq etməyin xüsusiyyətlərindən biri insana dünya xoşbəxtliyi gətirməsidir. Qohum-əqrəbaya baş çəkmək çox gözəl əməllərdəndir. Bu əməlin savabı öz yerində olmaqla yanaşı, xüsusiyyəti də odur ki, insanın ömrü uzanır. Aşağıda qeyd edəcəyimiz gözəl xüsusiyyətlərin əsas təsiri Allahın insana bərəkət nazil etməsidir. Yəni gözəl xüsusiyyətlər insanın ömrünə, ruzisinə, dünyasına və mənəviyyatına bərəkət gətirir.

1) Xoşəxlaq

İnsanda bərəkət yaradan xüsusiyyətlərdən biri xoşəxlaqlı olmaqdır. İnsanın öz ailəsində, məktəbdə, işlədiyi yerdə, bir sözlə decək cəmiyyətdə insanlarla gözəl münasibət və ünsiyyət yaratmasına xoşəxlaqlılıq deyilir.

قَالَ رَسُولُ اللهِ(ص): حُسنُ الخُلُقِ وكَفُّ الأَذى يَزيدانِ فِي الرِّزقِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Gözəl, xoşəxlaq olmaq və başqalarını incitməmək insanın ruzisini çoxaldar.”[1]

Peyğəmbər(s) və onun Əhli-beyti(ə) hər bir cəhətdən bizə örnək və nümunədir. Həm Peyğəmbər(s) həm də imamlarımız çox xoşəxlaq insanlar olmuşlar.

Günlərin birində bir kişi Şamdan Mədinə şəhərinə gəlib İmam Həsəni(ə) soraq etdi. İmam Həsəni(ə) o kişiyə göstərdilər. Həmin şəxs gəlib İmamın(ə) qarşısında dayandı və dişinin dibindən çıxan söyüşləri Həzrətə(ə) ünvanladı. İmamın(ə) yanında olanlar onun cavabını vermək istədikdə Həzrət(ə) onları bu işdən çəkindirdi. Həzrət(ə) bilirdi ki, həmin kişi onu tanımır. Müaviyə onu Şamda aldadıb pul verərək bura göndərmişdir. Həzrət(ə) onun üzünə baxıb buyurdu: “Sən məni tanımırdın. Birinci dəfədir ki, məni görürsən. Nə üçün hirsli halda gəlib mənə belə sözlər deyirsən? Əgər bir çətinliyin varsa, de həll edək. Əgər evin yoxdursa, sənə ev verərəm. Evlənmək istəyirsənsə, səni evləndirərəm. Pulun yoxdursa, sənə pul verərəm.”

İmam Həsən(ə) belə sözlərlə onu yumşaltdı. Həmin kişi İmamın(ə) belə gözəl rəftarını görüb xəcalətindən başını aşağı saldı və üzr istəyib dedi: “Allah yer üzündə insanlara kimi höccət qərar verdiyini çox gözəl bilir.” Sonra isə İmamın(ə) ayaqlarına düşüb bir daha ondan üzr dilədi.

2) Doğru danışmaq

[1] Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 232.

İnsanda bərəkətin yaranmasına səbəb olan gözəl xüsusiyyətlərdən biri də doğru danışmaqdır. Bəzən insanlar yalan danışmaqla öz vəziyyətlərini daha da xarab edirlər. Elə güman edirlər ki, öz bildikləri kimi yalan danışmaqla, onu-bunu aldatmaqla bir nəticəyə gəlib çatacaqlar.

قَالَ رَسُولُ اللهِ(ص): اِعلَم أنَّ الصِّدقَ مُبارَكٌ، وَالكِذبَ مَشؤومٌ

-Həzrət Peyğəmbər(s) Həzrət Əliyə(ə) buyurdu: "Bil ki, düzgünlük və doğruçuluq bərəkət, yalan isə bədlik və nəhslikdir."[1]

Allah ticarətə bərəkət qoymuşdur. Bəzən insan həmin bərəkətin kəsilməsinə səbəb olur.

قَالَ رَسُولُ اللهِ(ص): البَيِّعانِ... فَإِن صَدَقا وبَيَّنا بورِكَ لَهُما في بَيعِهِما، وإن كَتَما وكَذِبا مُحِقَت بَرَكَةُ بَيعِهِما

-Həzrət Peyğəmbər(s) buyurur: "İki alverçi (alıcı və satıcı) etdikləri alverdə düzgün olsalar və malın eybini desələr, alverləri bərəkətli olacaq. Yox əgər yalan deyib malın eyiblərini gizlətsələr, onların alverinin bərəkəti gizlənib əllərindən çıxar."[2]

3) Səxavət

İnsanda bərəkət yaradan xüsusiyyətlərdən biri səxavətdir. Amma bəzən insan bunun əksini düşünərək elə bilir ki, əliaçıq və səxavətli olsa, mal-dövləti əlindən çıxar. Amma əsl həqiqətdə belə deyil.

---

[1] Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 232.
[2] Yenə orada.

قَالَ رَسُولُ اللهِ(ص): إنَّ مَفاتيحَ الرِّزقِ مُتَوَجِّهَةٌ نَحوَ العَرشِ، ويُنَزِّلُ اللّهُ عَلَى النّاسِ أرزاقَهُم عَلى قَدرِ نَفَقاتِهِم ، فَمَن كَثَّرَ كُثِّرَ لَهُ ، ومَن قَلَّلَ قُلِّلَ لَهُ

-Həzrət Peyğəmbər(s) buyurur: "Ruzinin açarları ərşə sarı üz tutur. Allah- təala insanların ruzisini onların (etdikləri yardım, yaxşılıq və) infaqları qədər yetirir. Hər kəs nə qədər çox infaq etsə, ruzisi artar. Hər kim az infaq etsə, bir o qədər də ruzisi azalar."[1]

Bəzən Allah insanı onun səxavətinə görə hidayət edir. Rəvayət olunur ki, Yəməndən bir qrup insan Peyğəmbərlə(s) əqidə məsələləri ilə bağlı söhbət etməyə gəlmişdilər. Onların rəhbəri cavan bir oğlan idi. Müsəlman olmadıqları üçün Peyğəmbərlə(s) mübahisə etməyə başladılar. İş o yerə gəlib çatdı ki, bu cavan ədəbsizlik edərək səsini ucaltmağa və ağlına gələn sözləri söyləməyə başladı. Peyğəmbər(s) onun bu ədəbsizliyindən əsəbiləşdi. İş o yerə gəlib çatdı ki, qəzəbdən Peyğəmbərin(s) alnının damarları şişdi. Elə bu zaman Cəbrayıl(ə) nazil olub dedi: "Ya Rəsulallah, Allah xəbər verir ki, səninlə belə ədəbsiz danışan bu cavanın bir yaxşı xüsusiyyəti var. O, çox səxavətli bir insandır. Peyğəmbər(s) bu sözləri eşitdikdə hirsi soyudu və sakitləşdi. Sonra həmin cavana buyurdu: Ədəbsiz danışığına görə səninlə başqa cür rəftar edib qovacaqdım. Amma Allahım mənə sənin səxavətli olduğunu buyurdu. Buna görə də səni bağışladım.

---

[1] Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 234.

Cavan dedi: Məgər sizin dininiz səxavəti bəyənir?

Peyğəmbər(s) buyurdu: Bəli, İslamda səxavət və infaq çox bəyənilmiş əməllərdəndir.

Cavan soruşdu: Sənin Allahın da səxavət və yaxşılığı bəyənir?

Peyğəmbər(s) buyurdu: Bəli. Buna görə də sənin səxavətli olduğunu mənə xəbər verdi. Bununla da mənim sənə qarşı olan hirsim soyudu.

Cavan dedi: Əgər Allahınız və dininiz səxavəti bəyənirsə, o zaman mən də sizin dininizi qəbul edirəm. Şəhadət verirəm ki, Allahdan başqa heç bir məbud yoxdur. Şəhadət verirəm ki, Məhəmməd(s) Onun Rəsuludur."[1]

Bəzən Allah-təala insanı bir sıra əxlaqi xüsusiyyət və ədəbli olmasına görə hidayət edir. Tarixdə belə insanlardan biri Hürr ibn Riyahi idi. Kərbəla hadisəsində o, İmam Hüseynin(ə) yolunu kəsib onu Kufəyə getməyə qoymadı. Günorta vaxtı azan deyildikdən sonra İmam(ə) öz dəstəsi ilə camaat namazı qılmağa başladı. Hürrün qoşunu da onu gözləyirdilər ki, ona iqtida etsinlər. Hürr dedi: "Hüseyn ibn Əli olan yerdə mən heç vaxt özümə ayrıca camaat namazı təşkil etmərəm. Hamımız bir yerdə İmam Hüseynə(ə) iqtida edəcəyik." Sonra dəstəsi ilə birgə gəlib İmam Hüseynə(ə) iqtida elədi. İmam Hüseyn(ə) namazdan sonra öz dəstəsinə Kufəyə doğru hərəkət etmək əmrini verdi. Hürr də öz qoşunu ilə gəlib Həzrətin(ə) qarşısını kəsdi. Çox söz-söhbətdən sonra İmam Hüseyn(ə) ona buyurdu: "Anan sənin matəmində otursun. Nə istəyirsən bizdən. Hürr İmamın(ə) bu

---

[1] Beş yüz dastan, 1-ci cild, səh.299.

sözlərini eşidib dedi: Bu sözləri səndən başqa mənə deyən hər bir kəsin cavabını verərdim. Amma mən sənə cavab qaytara bilmərəm. Çünki sənin anan xanım Fatimeyi Zəhradır(s.ə)”.

Hürr bir neçə yerdə İmama(ə) qarşı öz ədəbini göstərdi.

4) Əmanətdarlıq

İnsanda bərəkət yaradan əxlaqi xüsusiyyətlərdən biri əmanətdar olmasıdır. Hər kim əmanətə xəyanət edərsə, Allah onun bərəkətini kəsər və hər kim əmanətdar olarsa, Allah ona bərəkət və mərhəmət edər.

قَالَ رَسُولُ اللهِ(ص): الأَمانَةُ تَجلِبُ الرِّزقَ .

-Peyğəmbər(s) buyurur: “Əmanət ruzini cəlb edər.”

Abdullah ibn Sənan deyir: “Günlərin birində İmam Sadiqə(ə) ərz etdim. Ey Peyğəmbər(s) övladı, mən elə bir yerdə oluram ki, bəzi əmirlər və vəzifəlilər hərdən gətirib mənə əmanət tapşırırlar. Amma onlar çox pozğun insanlardır. Onların mənə tapşırdıqları malları mənimsəyə və ya başqa yerlərdə xərcləyə bilərəmmi? İmam Sadiq(ə) mənə baxıb üç dəfə buyurdu: And olsun Allaha, cəddim Əlinin(ə) qatili ibn Mülcəm belə mənə əmanət tapşırsa, mən onun əmanətinə xəyanət etmərəm. İstədiyi vaxt onun əmanətini qaytararam.”

İslam dini heç bir vəchlə əmanətə xəyanət etməyə icazə vermir. Müsəlman hara, əmanətə xəyanət etmək hara?

İslam tarixində hicrətin yeddinci ilində xeybər döyüşü baş verdi. Peyğəmbər(s) 1300 nəfər əskərlə Mədinədən çıxıb Xeybəri fəth etmək üçün yola düşdülər. Bir neçə gün Xeybər qalasını fəth etmək mümkün

olmadı. Müsəlmanların ərzağı tamamilə qurtarmışdı. Elə bu ərəfələrdə bir nəfər qaradərili çoban heyvanları otara-otara müsəlmanlara tərəf yaxınlaşdı. Peyğəmbərlə(s) bir az söhbət etdikdən sonra dedi: "Ya Rəsulallah, mən İslamı qəbul edirəm və sizə qoşuluram. Əlimdə olan bu mal-qara yəhudilərindir. Mən isə onlara çobanlıq edirəm. İndi ki, müsəlman olmuşam, bu heyvanları da sizə verirəm. Peyğəmbər(s) buyurdu: Bu heyvanlar bizim düşmənlərimizin olsa da belə sənin əlində əmanətdir. Apar onları sahiblərinə qaytar, sonra gəl."

İslam qılınc gücünə yox, bu kimi əxlaqi dəyərlərin sayəsində inkişaf etmişdir. İslam dini bu gün insanların əlinə əxlaq, iman, sədaqət, düzgünlük və əxlaqi dəyərlərin sayəsində gəlib çatmışdır. Heç bir kəs elə düşünməsin ki, İslam qılınc gücünə inkişaf edib.

5) Qənaət

İnsanda bərəkət yaradan əxlaqi xüsusiyyətlərdən biri də qənaətdir. Qənaət odur ki, insan Allahın ona mərhəmət etdiyi hər bir şeyə razı olub ondan artığı üçün harama düşməsin və əlində olanı dəqiq istifadə edərək hədər getməyə qoymasın.

قَالَ رَسُولُ اللهِ(ص): القَناعَةُ بَرَكَةٌ

-Peyğəmbər (s) buyurur: "Qənaət bərəkətdir."

Qənaət elə bir bərəkətdir ki, Allah onu hər bir kəsə nəsib etməz. Bəzi insanlar bu xüsusiyyətə nail ola bilirlər. Hər kəsdə bu gözəl xüsusiyyət olsa, heç kəsə ehtiyacı olmaz. Əgər insan öz ruzisinə qənaət etsə, əlində olana razı olub barışsa, həyatını onunla tənzimləyə bilər. Yaxud başqalarının əlində olanlara tamah salmasa, əlində

olan həmin az malla öz yaşayışını təmin edər və kiməsə möhtac qalmaz.

İskəndərin zamanında bir böyük alim yaşayırdı. İskəndər onunla söhbət etmək üçün onun evinə adam göndərdi. Həmin adam gəlib o alimə dedi ki, İskəndər səni çağırır. Alim dedi: "İskəndərin mənimlə nə işi ola bilər? Əgər mənimlə işi varsa nə üçün özü gəlmir? Get, ona belə de: Sənin bura gəlməyinə mane olan şey, mənim də sənin yanına gəlməyinə mane olur."

Əgər insan Allahın ona verdiyi aza qane olsa, dili uzun olar və kiminsə yanında başı aşağı olmaz. Amma hər kəs əlində olan aza qane olmasa, dili qısalar.

Belə nəql edirlər ki, günlərin birində Salmanın evinə qonaq gəlmişdi. Salman qonaq üçün süfrə açdı. Evdə nəyi var idisə, gətirib süfrəyə qoydu. Hamı bilirdi ki, o, bu dünyanın ən azına qane olan bir insan idi. Buna görə də evində yeməyə bir o qədər də ərzağı olmazdı. Qonaq üçün süfrə açıb duz-çörək qoyduqdan sonra dedi: "Əgər Peyğəmbər(s) qonaq üçün evinizdə olanla kifayətlənin və çox zəhmətə düşməyin" - buyurmasaydı, sizin üçün bir az da geniş tədarük görərdim. Qonaqlardan biri dedi: Hər şey yaxşıdır, lakin bir az göyərti də olsaydı, daha yaxşı olardı. Salman bu sözü eşitdikdə evdən çıxıb aftafasını götürdü və bazara getdi. Göyərti satanla danışıb aftafanı onun yanında girov qoydu və bir az göyərti aldı. Göyərtini gətirib yuduqdan sonra süfrəyə qoydu. Qonaqlar yeməklərini yeyib qurtardıqdan sonra həmin şəxs dedi: Allaha şükürlər olsun ki, bizi göndərdiyi ruziyə qane olanlardan qərar verib. Salman bunu eşidən kimi zarafatyana dedi: Əgər qane olsaydın, mənim aftafam girov qoyulmazdı."

6) Rizayət

Bərəkət yaradan əxlaqi xüsusiyyətlərdən biri də rizayətdir. Bu, insanda olan ən yüksək əxlaqi xüsusiyyətdir ki, hər bir adam bunu başa düşə bilmir. Yuxarıda qeyd etdiyimiz xüsusiyyətləri əldə etmək mümkündür. Amma rizayət və razılıq çox zəhmət tələb edir. İnsan Allaha aşiq olmasa, rizayət hasil olmaz. Eşqsiz bu əxlaqi xüsusiyyəti əldə etmək heç mümkün deyil. Rizayət odur ki, Allah insana hər nə verirsə, ürəyində ona razı olsun. Rizayət odur ki, insan Allahın onun müqəddəratına yazdığı heç bir şeyə ürəyində etiraz etməsin. Bu sözləri danışmaq və eşitmək çox asandır. Amma bu xüsusiyyəti əldə etmək heç də asan iş deyil.

قَالَ رَسُولُ اللهِ(ص): إنَّ اللّهَ ـ تَبارَكَ وتَعالى ـ يَبتَلي عَبدَهُ بِما أعطاهُ ، فَمَن رَضِيَ بِما قَسَمَ اللّهُ عز و جللَهُ بارَكَ اللّهُ لَهُ فيهِ ووَسِعَهُ ، ومَن لَم يَرضَ لَم يُبارِك لَهُ

-Peyğəmbər(s) buyurur: “Allah insana hər nə verirsə onu imtahana çəkir. Hər kim öz ruzisinə ürəkdən razı qalsa, Allah ona bərəkət verər və malını da genişləndirər. Amma əgər razı qalmasa, bərəkət verməz.”

Hədislərə əsasən hər bir kəsdə bu xüsusiyyət olsa, qiyamət günü Allah-təala həmin şəxsi hesab-kitabsız cənnətə aparar. Cənnətdə onlardan soruşarlar ki, siz hansı əməl və xüsusiyyətinizə görə bura gəlmisiniz? Onlar deyərlər: Xəlvətdə Allahdan həya edib günahdan çəkinməyimiz və Allahın bizə verdiyi hər bir şeyə razı

olduğumuza (harama əl atmadığımıza) və ürəyimizdə Allaha qarşı heç bir etiraz etmədiyimizə görə.

## Bərəkətin qarşısını alan maneələr

Ötən bəhslərimizdə bərəkətin nazil olmasına səbəb olan əməllər, zikrlər, ibadətlər və yaxşı xüsusiyyətlər haqda ayə və hədislərə istinad edərək bir qədər söhbət etdik. Bu bəhsimizdə də çox yaxşı olar ki, bərəkətin qarşısını kəsən amillərlə də tanış olaq. Görək ki, Allahın bərəkətinin insandan kəsilməsinə səbəb olan hansı əməllərdir. Bir daha qeyd etmək lazımdır ki, insanın bundan xəbəri olmasa da belə hər bir müsbət və yaxud mənfi hərəkəti onun ruhuna təsir göstərir. Hər bir əməl insanın maddi və mənəvi həyatında ya onun inkişafına, ya da onun geriliyinə səbəb olur. Ola bilsin ki, bəzi insanlar onlara dəyən xeyir və ziyanın hansı səbəbdən olduğunu bilirlər, bəzisinin isə bundan heç xəbəri də olmur. Məsələn, bir idarə elan edir ki, müəyyən şərtlər əsasında işçiləri qəbul edir. Həmin idarədə işləmək istəyənlər öz adlarını yazdırırlar. Qeydə alınanların içindən bir neçəsini də həmin idarədə işə götürürlər. İşə götürdükdən sonra onlara deyirlər ki, siz burada sınaq müddəti olaraq altı ay qeyri-rəsmi işləyəcəksiniz. Sınaq müddəti başa çatdıqdan sonra sizin üçün işçi kitabı açıb rəsmiləşdirəcəyik.

Həmin idarəyə işə qəbul olunan şəxs altı ay müddətində onu yoxladıqlarından xəbərdar olduğu üçün bəzi pis adətlərini bir kənara qoyur, canfəşanlıq göstərir, yerini möhkəmlətmək üçün hər nə lazımdırsa edir. Beləcə altı ayı başa vurub qurtardıqdan sonra onu rəsmi şəkildə işə qəbul edirlər. Bununla yanaşı, həmin şəxs o idarənin işçisi olduğu üçün həmişə onun üzərində nəzarət qoyulur. Bəzən o idarənin müdirinin həmin şəxsin bir sıra işlərindən xoşu da gəlir. Ona mükafat belə verəcəyini

qərara alır. Nəzərdə tutur ki, ayın axırında bu işçiyə filan məbləğdə pul mükafatı versin. Bir neçə gündən sonra həmin işçi elə nalayiq bir iş görür ki, müdirin ondan acığı gəlir və onun üçün nəzərdə tutduğu mükafatdan vaz keçir. Müdirin onun üçün hansı mükafatı nəzərdə tutmasından və ondan vaz keçməsindən həmin işçinin qətiyyən xəbəri olmur. Amma əgər həmin işçi nalayiq hərəkət etməsəydi, mükafat da ona çatacaqdı. Deməli, özünün xəbəri olmasa da belə həmin mükafatdan məhrum olması onun öz əməllərinin nəticəsidir.

Bu misalı ona görə çəkdim ki, insanın əməlləri də belədir. Bəzən hansısa yaxşı əməlinə görə Allah-təala insana mükafat verməyi nəzərdə tutur. Bəzən də insanın elə bir hərəkəti olur ki, nəzərdə tutulan mükafatdan məhrum olur. Bütün bunlardan isə onun heç bir xəbəri olmur. Buna görə də insanın bütün hərəkətləri onun həyatında, taleyində, gələcəyində, mənəviyyatında, cənnət və cəhənnəmində rol oynayır. İndi burada baxaq görək, hansı əməllər insanın bərəkətinin kəsilməsinə səbəb olur? Əlbəttə, onlardan bir neçəsini diqqətinizə çatdırıram.

1) Günah

İnsandan bərəkətin kəsilməsinə səbəb olan amillərdən ən birincisi günahdır. İnsan bunu bilsə də, bilməsə də günah onun hər bir xoşbəxtliyinin qarşısını alır. "Əraf" surəsinin 96-cı ayəsində Allah buyurur:

وَلَوْ أَنَّ أَهْلَ الْقُرَى آمَنُواْ وَاتَّقَواْ لَفَتَحْنَا عَلَيْهِم بَرَكَاتٍ مِّنَ السَّمَاءِ وَالأَرْضِ وَلَـكِن كَذَّبُواْ فَأَخَذْنَاهُم بِمَا كَانُواْ يَكْسِبُونَ

-Əgər şəhər və kəndlərin əhalisi iman gətirsəydilər və təqvalı olsaydılar, şübhəsiz göydən və yerdən onların üzünə bərəkətlər(in qapılarını) açardıq. Lakin onlar (Bizim ayələrimizi) inkar etdilər. Belə olduqda onları əldə etdiklərinin cəzası olaraq yaxaladıq.

"Ənfal" surəsinin 52-ci ayəsində belə buyurulur:

كَدَأْبِ آلِ فِرْعَوْنَ وَالَّذِينَ مِن قَبْلِهِمْ كَفَرُواْ بِآيَاتِ اللّهِ فَأَخَذَهُمُ اللّهُ بِذُنُوبِهِمْ إِنَّ اللّهَ قَوِيٌّ شَدِيدُ الْعِقَابِ

-(Bu müşriklərin hərəkətləri) Firon ailəsinin və onlardan qabaqkıların rəftarı kimidir ki, onlar Allahın ayə və nişanələrinə kafir oldular, Allah da onları günahlarına görə cəzalandırdı. Həqiqətən, Allah çox qüvvətli və şiddətli cəza verəndir.

Sonrakı ayədə bunun səbəbi bəyan edilərək buyurulur:

ذَلِكَ بِأَنَّ اللّهَ لَمْ يَكُ مُغَيِّرًا نِّعْمَةً أَنْعَمَهَا عَلَى قَوْمٍ حَتَّى يُغَيِّرُواْ مَا بِأَنفُسِهِمْ وَأَنَّ اللّهَ سَمِيعٌ عَلِيمٌ

-Bu (əzablar) ona görədir ki, Allah bir qövmə verdiyi neməti onlar özlərində olanı (saleh halları) dəyişməyincə dəyişdirmir (onlardan almır). Şübhəsiz, Allah eşidən və biləndir.

قَالَ الصَّادِقُ(ع): مَا أَنعَمَ اللهُ عَلَى عَبدٍ نِعمَةً فَسَلَبَها إِيَّاهُ حَتّى يُذنِبَ ذَنبًا يَستَحِقُّ بِذَلِكَ السَّلب

-İmam Sadiq(ə) buyurur: “Allah-təala bəndəyə verdiyi hər bir neməti yalnız həmin neməti ondan məhrum etməyə layiq olan günaha görə geri almışdır.”[1]

Bu ayə və hədislərdən çox aydın şəkildə başa düşülür ki, hər bir nemətin kəsilməsinin səbəbi insanın öz əməlləridir. Göz Allahın insana verdiyi böyük nemətlərdən biridir. Əgər insan bıçağı salıb öz gözünü çıxarsa, bunun təqsirkarı kimdir? Hər hansı bir nemətin əldən çıxmasının səbəbkarı insan özüdür. Hər bir əsrdə edilən günahların cəzası da həmin əsrə aid olur. Yəni insanlar inkişaf etdikcə və bu inkişafda yeni-yeni günahlar edirlərsə, yeni və misli görünməyən bəlaların gəlməsinə də səbəb olurlar.

قَالَ الرِّضَا(ع): كُلَّمَا أَحدَثَ العِبَادُ مِنَ الذُّنُوب مَا لَمَ يَكُونُوا يَعمَلُون اَحدَثَ اللهُ لَهُم مِنَ البَلاءِ مَا لَمَ يَكُونُوا يَعرِفُون

-İmam Rza(ə) buyurur: “İnsanlar əvvəllər etmədikləri (keçmişi olmayan) yeni günahları etdikdə Allah onlara elə bəla göndərər ki, insanlar (o vaxta qədər) eləsini görməmişlər.”[2]

Fərdi günahlar fərdi bəlaya, ictimai günahlar isə ictimai bəlaya səbəb olur. Bütün bu bəlalar insanın öz əməllərinin nəticəsidir. Əgər insan özünü çox istəyirsə, gərək bəlaya nazil olan səbəblərə əl atmasın. Yəni insan günah etdikdə ən azından özünə zülm etmişdir.

Abuzər sürgündə olarkən bir nəfər ona məktub yazmışdı. Həmin məktubda ona nəsihət etməsini xahiş

---

[1] Mizanül-hikmə,4-cü cild, hədis-6630.
[2] Mizanül-hikmə,4-cü cild, hədis-6641.

etmişdi. Abuzər məktubu oxuduqdan sonra ona belə cavab yazdı: “Hamıdan çox sevdiyinə zülm etmə.”

Həmin şəxs məktubu oxuduqdan sonra bu sözlərdən bir şey anlamadı. Sonra qələm götürüb Abuzərə yenidən məktub yazaraq o sözlərin açıqlamasını xahiş etdi. Abuzər ona yazdığı sözləri açıqlayaraq yazdı: “Sənin üçün hamıdan əziz, möhtərəm və sevimli sən özünsən. Heç vaxt özünə zülm etmə.”

İnsan günah etdikdə ən azından özünə zülm etmiş olur. Günah insanı bərəkətsiz edir. Məgər bərəkətsiz olmaq insan üçün bəla deyilmi? Buna görə də insan Allahın bərəkətinin nazil olmasını istəyirsə, fərdi və ictimai günahlardan çəkinməlidir.

2) Namaza laqeyd yanaşma

İnsanın bərəkətinin kəsilməsinə səbəb olan əməllərdən biri namaza laqeyd yanaşmadır. Odur ki, namaz qılmamaq başqa, namaza laqeyd yanaşmaq isə tam başqa bir şeydir. Namaz qılmayan insanın hesabı qiyamətə qalacaq. Hədislərdə belə nəql olunur ki, əgər insan Əbu Qubeys dağı qədər qızılı Allah yolunda paylasa, amma namaz qılmasa, onun həmin xeyirxahlığı da qəbul olunmayacaq. Lakin bir insan namaz qılan olsa və namaza laqeyd yanaşsa, həmin şəxsdən bərəkət götürülər. Namaz insan üçün çox mühüm məsələdir. Hər kəs namaza əhəmiyyət vermirsə, deməli ona laqeyd yanaşır. Namaza laqeyd yanaşmaq həm insanın dünyasına, həm də axirətinə ziyan vurar.

قَالَ رسُولُ اللّهِ صَلّى اللهُ عَلَيهِ وَ آلِهِ ( . فِي بَيانِ ما يُصيبُ المتَهاوِنَ بِصَلاتِهِ .): أمّا اللّواتي تُصيبُهُ في دارِ الدُّنيا : فَالأُولى: يَرفَعُ اللّهُ

الْبَرَكَةَ عَن عُمُرِهِ، ويَرفَعُ اللّهُ الْبَرَكَةَ مِن رِزقِهِ، ويَمحُو اللّهُ عَزَّ وَ جَلّ سِيماءَ الصَّالِحِينَ مِن وَجهِهِ، وكُلُّ عَمَلٍ يَعمَلُهُ لا يُؤجَرُ عَلَيهِ، ولا يَرتَفِعُ دُعاؤُهُ إلَى السَّماءِ، وَالسّادِسَةُ: لَيسَ لَهُ حَظٌّ في دُعاءِ الصّالِحِينَ.

-Həzrət Peyğəmbər(s) buyurur: "Namaza laqeyd yanaşmağın insana dünyəvi ziyanı bunlardır: 1.Allah həmin insanın ömrünün bərəkətini götürər; 2. Allah həmin şəxsin ruzisinin bərəkətini götürər; 3.Allah onun üzündən möminlik simasını götürər; 4. Hər hansı bir əməlinə əcr və savab verilməz; 5. Duaları göyə ucalmaz; 6. Saleh bəndələrin onun barəsində etdiyi dualardan fayda götürməz."[1]

3) Cümə namazını əhəmiyyətsiz saymaq

İnsanın bərəkətinin kəsilməsinə səbəb olan amillərdən biri cümə namazını əhəmiyyətsiz saymaqdır. Cümə namazı insanlarda vəhdət, birlik və bərəkət yaradır. Cümə namazı haqda həm Quran ayələri, həm də bir çox hədis və rəvayətlər nəql olunmuşdur. Cümə namazının savabı adi günlərin camaat namazının savabından qat-qat çoxdur. Amma hər kim bu namaza da əhəmiyyət verməsə, həmin insanın bərəkəti kəsilər.

[1] Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 340.

قَالَ رَسُولُ اللهِ(ص): اِعلَموا أنَّ اللّهَ قَد فَرَضَ عَلَيكُمُ الجُمُعَةَ، فَمَن تَرَكَها في حَياتي وبَعدَ مَماتي ولَهُم إمامٌ عادِلٌ؛ اِستِخفافا بِها وجُحودا لَها، فَلا جَمَعَ اللّهُ شَملَهُ، ولا بارَكَ لَهُ في أمرِهِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Bilin ki, Allah-təala cümə namazını sizə vacib buyurmuşdur. Elə isə hər kəs mənim həyatımda, yaxud mən dünyadan getdikdən sonra ədalətli bir imamın olduğu (məsum imamın, yaxud ədalətli imam cümənin olduğu zaman) halda cümə namazını bilərəkdən tərk etsə və onu əhəmiyyətsiz saysa, həmin şəxsin işlərində bərəkət olmaz.” [1]

4) Nankorluq

İnsanın bərəkətinin kəsilməsinə səbəb olan amillərdən biri nankorluqdur. Yəni əgər insan Allahın mərhəmət etdiyi nemətlərin müqabilində şükür etməsə və haqqını yerinə yetirməsə bərəkət qapıları həmin şəxsin üzünə bağlanar. “Nəhl” surəsinin 112-ci ayəsində Allah belə buyurur:

وَضَرَبَ اللّهُ مَثَلاً قَرْيَةً كَانَتْ آمِنَةً مُّطْمَئِنَّةً يَأْتِيهَا رِزْقُهَا رَغَدًا مِّن كُلِّ مَكَانٍ فَكَفَرَتْ بِأَنْعُمِ اللّهِ فَأَذَاقَهَا اللّهُ لِبَاسَ الْجُوعِ وَالْخَوْفِ بِمَا كَانُواْ يَصْنَعُونَ

-Allah (itaətsizlik və nemətə nankorluğun aqibəti barəsində düşməndən və pis hadisələrdən) amanda və xatircəm olan, ruziləri hər tərəfdən bol-bol gələn

[1]Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 340.

cəmiyyəti misal çəkib. Belə olan halda onlar Allahın nemətlərinə nankorluq etdilər, Allah da etdiklərinin cəzası olaraq onlara aclıq və qorxu libası geyindirdi və onlara onun tamını dadızdırdı.

Bu ayədə mətləb belədir ki, bəziləri bu hadisənin tarixdə keçmiş peyğəmbərlərin ümmətləri barədə olduğunu, bəziləri isə Allahın bunu bir misal kimi bəyan etdiyini söyləyirlər. Amma bu mətləbin bizim üçün heç bir fərqi yoxdur. İstər bu mətləb tarixdə olan hadisə kimi bəyan olunsun, istərsə də Allah bunu bizə misal çəkmiş olsun. Hər iki halda bu, Allahın kəlamıdır və İslam Peyğəmbərinin(s) ümmətinə hidayət etmək məqsədilə olan nəsihətidir.

İmam Sadiqdən(ə) belə rəvayət olunmuşdur ki, Bəni-İsrail tayfasının içərisində olan bir qrup insan əmin-amanlıq, rifah və hər cür nemət içində yaşayırdılar. Yəni Allah-təala onlar üçün hər bir neməti nazil etmişdi. Onlara nazil olan nemətlər o qədər bol idi ki, artıq qalan nemətlərdən heykəl və bütlər düzəldirdilər. Onlar bütün bu nemətlərin qarşısında nankorluq etdilər. Allah- təala onları bu naşükürlük və küfrlərinə görə elə bir vəziyyətə saldı ki, nemətlərdən düzəltdikləri və artıq zibilə dönmüş həmin heykəllərin tikələri ilə dolanmalı oldular. Allah-təala qeyd etdiyimiz ayədə belə buyurur: “Allah (itaətsizlik və nemətə nankorluğun aqibəti barəsində düşməndən və pis hadisələrdən) amanda və xatircəm olan, ruziləri hər tərəfdən bol-bol gələn cəmiyyəti misal çəkib. Belə olan halda onlar Allahın nemətlərinə nankorluq etdilər, Allah da etdiklərinin cəzası olaraq

onlara aclıq və qorxu libası geyindirdi və onlara onun tamını dadızdırdı.”[1]

Ayənin axırında bəyan olunur ki, Allah onların etdiyi əməllərin cəzası olaraq onlara aclıq və qorxu libası geyindirdi. Yəni öz əməlləri buna səbəb oldu. Əks-halda Allah heç bir vaxt verdiyi neməti insanın əlindən almaz. Bərəkətin qapılarının insanın üzünə bağlanmasının səbəbi öz əməlləridir. Allahın verdiyi hər ibir nemətin qarşısında şükür etmək insana vacibdir. Əlbəttə, Allahın nemətləri sonsuzdur və insan onların hamısının şükrünü yerinə yetirməyə gücü çatmaz. Amma heç olmasa insan hər bir nemətin müqabilində şükür etməyin lazım olduğunu bilməlidir. Əgər insan Allahın nemətləri qarşısında nankorluq etsə, aqibəti acınacaqlı olar. “İbrahim” surəsinin 7-ci ayəsində buyurulur:

وَإِذْ تَأَذَّنَ رَبُّكُمْ لَئِن شَكَرْتُمْ لأَزِيدَنَّكُمْ وَلَئِن كَفَرْتُمْ إِنَّ عَذَابِي لَشَدِيدٌ

-Və (yada salın) o zaman(ı) ki, Rəbbiniz (belə) elan etdi: “Əgər şükür etsəniz, sizə (olan nemətləri) mütləq artıraram və əgər kafir olsanız, ya naşükürlük etsəniz, Mənim əzabım, əlbəttə çox şiddətlidir.”

Qeyd etməliyəm ki, şükür barəsində danışmalı olsaq, ayrıca bir mövzuya başlamaq lazım gələcək. Burada şükür etməyin barəsində bir mətləbi diqqətinizə çatdırıram.

## Şükrün mərhələləri

---

[1]Təfsiri-nümunə,11-ci cild, səh. 431.

Şükür etməyin üç mərhələsi olduğunu bəyan etmişlər. Şükür etmək təkcə o demək deyil ki, insan dildə "Şükür Allaha" - desin.

Şükür etməyin birinci mərhələsi budur ki, insan nemət verəni tanımalıdır. Yəni ixtiyarında olan nemətin kim tərəfindən gəldiyini bilməlidir. İnsan elə düşünməsin ki, ixtiyarında olan nemətləri özü əldə etmişdir. İnsanın aldığı və buraxdığı hər bir nəfəs Allahın ona verdiyi nemətidir. Buna görə də heç bir vaxt nankor olmamalıdır. Hədislərdə belə nəql olunur ki, bir gün Allah Həzrət Musaya(ə) xitab edərək buyurdu: "Ey Musa, Mənim nemətlərimin qarşısında həqiqi şükür edənlərdən ol.

Musa(ə) ərz etdi: İlahi, mən Sənin nemətlərinin qarşısında necə şükür edə bilərəm ki, hər bir şükür etməyin də bir neçə neməti vardır. Gərək onların hər biri üçün də bir şükür edim.

يَا مُوسَى اَلآنَ شَكَرتَنِي حِينَ عَلِمتَ أَنَّ ذَلِكَ مِنّي

Allah-təala buyurdu: Ey Musa, bütün nemətlərin Mənim tərəfimdən olduğunu başa düşdüyün üçün artıq Mənə olan təşəkkürünü bildirdin."[1]

Şükür etməyin ikinci mərhələsi budur ki, insan dildə şükür etmiş olsun. Hədislərdə belə nəql olunur ki, İslam Peyğəmbəri(s) hər bir məsələ barədə şad olanda deyərdi.

اَلْحَمدُ اللهِ عَلَى هَذِهِ النِّعمَة

-Bu nemətə görə Allaha şükürlər olsun.

Amma hər hansı bir hadisədən narahat olanda belə deyərdi:

---

[1] Təfsiri-nümunə. c. 10. Səh. 281.

اَلْحَمدُ اللهِ عَلَى كُلِّ حَالٍ

-Hər bir halda şükürlər olsun Allaha. [1]

Nemətə şükür etməyin üçüncü məhələsi odur ki, Allahın insana verdiyi neməti nəyə görə verdiyini insan başa düşməli və həmin neməti yerində istifadə etməlidir. Yəni hər neməti özünəməxsus tərzdə işlətməlidir. Əxlaq alimləri, arif insanlar şükür etməyin tərifində müxtəlif ibarələrdən istifadə etmişlər. Həmin ibarələrdən biri belədir.

اَلشُّكرُ صَرفُ العَبد جَمِيعَ مَا أَنعَمَهُ اللهُ تَعَالَى فيما خَلَقَ لأَجلِه

-Allaha şükür etmək odur ki, Allahın bəndəyə verdiyi hər bir neməti öz yerində sərf etsin (işlətsin).[2]

Yəni insana göz verilibsə, baxması lazım olan şeylərə baxsın. Qulaq insana verilmiş bir nemətdir ki, onunla lazım olan səsləri eşitsin. Həmçinin bütün digər nemətlər də belədir.

قَالَ الصَّادِقُ(ع): شُكرُ النِّعمَة اِجتِنَابُ الْمَحَارِمِ

-İmam Sadiq(ə) buyurur: "Nemətlərə şükür etmək haramlardan çəkinməkdir."[3]

Əta ibn Riyah deyir: "Gunlərin birində Ayişəyə dedim: Peyğəmbərdən(s) mənə bir xatirə danış. Ayişə dedi: Peyğəmbər(s) gecələrin birində həmişə olduğu kimi, məsciddə ibadət edirdi. Mən də kənardan ona

[1] Mizanul-hikmə. c. 6. hədis 2824.
[2] Təfsiri-nümunə, 10-cu cild, səh. 278.
[3] Yenə orada.

tamaşa edirdim. Həmin gecə Peyğəmbər(s) səhərə qədər belə ibadət etdi ki, hər kəs onun qədər ibadət etsə, ayaqları ağrıyardı. Onun rəngi dəyişmiş və gözlərindən yaş tökülürdü. Səhərə yaxın Bilal da gəlib çıxdı. O da Peyğəmbərin(s) ibadət etməsinə tamaşa edirdi. Həzrətin(s) rənginin saraldığını və ağladığını görürdü. Peyğəmbər(s) ibadətlə məşğul olub qartardıqdan sonra Bilal ona yaxınlaşıb dedi: Ya Rəsulallah, Allah Quranda səni bağışladığını və sənə heç bir günahın bulaşmadığını bəyan etmişdir. Belə olduğu halda nə üçün özünü bu qədər əziyyətə salırsan? Peyğəmbər(s) buyurdu: Bilirəm ki, Allah məni bağışlayıb. Bəs Allahın mənə verdiyi nemətlərin qarşısında şükür etməyim?”[1]

Deməli, insan ona verilən nemətlərin kim tərəfindən olduğunu başa düşməli, dilində onu verənə şükür etməli və hər bir nemətin ona nə üçün verildiyini bilməlidir. Allah-təala insana bədən üzvlərini ona görə vermişdir ki, insan onların vasitəsilə Allaha bəndəlik və ibadət etsin.

Bu bəhsin nəticəsi belədir ki, insanın bərəkətinin kəsilməsinə səbəb olan əməllərdən biri naşükürlükdür. Nankorluq bərəkət qapılarını insanın üzünə bağlayır.

5) Əmr be məruf və nəhy əz münkər etməmək

Bərəkətin kəsilməsinə səbəb olan amillərdən biri əmr be məruf və nəhy əz münkər etməməkdir. Yəni əgər bir cəmiyyətdə insanlar bir-birini yaxşı işlərə dəvət edib, pis işlərdən çəkindirməsələr, Allah həmin cəmiyyətə bərəkət verməyəcək.

---

[1] Ürəyəyatan qissələr, səh. 110.

قَالَ رَسُولُ اللهِ(ص): لا يَزالُ النّاسُ بِخَيرٍ ما أمَروا بِالمعروفِ ونَهَوا عَنِ المنكَرِ وتَعاوَنوا عَلَى البِرِّ وَالتَّقوى ، فَإِذا لَم يَفعَلوا ذلِكَ نُزِعَت مِنهُمُ البَرَكاتُ ، وسَلَّطَ بَعضُهُم عَلى بَعضٍ ، ولَم يَكُن لَهُم ناصِرٌ فِي الأَرضِ ولا فِي السَّماءِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Camaat bir-birini yaxşı işlərə dəvət edib, pis işlərdən çəkindirdikdə və yaxşı işlərdə, təqvada bir-birinə yardımçı olduqda ardıcıl olaraq xeyir içindədirlər. Əgər insanlar bu işləri görməsələr, bərəkət onlardan uzaqlaşar və biri digərinə hakim olar. Belə olduqda həmin camaata heç bir kəs kömək etməyəcək."[1]

قَالَ رَسُولُ اللهِ(ص): أيُّهَا النّاسُ، إنَّ اللّهَ يَقولُ : لَتَأمُرُنَّ بِالمعروفِ ولَتَنهَوُنَّ عَنِ المنكَرِ قَبلَ أن تُجدِبوا؛ فَتَستَسقونَ فَلا تُسقَونَ. أيُّهَا النّاسُ، إنَّ اللّهَ يَقولُ: لَتَأمُرُنَّ بِالمعروفِ ولَتَنهَوُنَّ عَنِ المنكَرِ قَبلَ أن تَدعوا فَلا يُستَجابَ لَكُم

Digər bir hədisdə Peyğəmbər(s) Allahın dilindən camaata xitab edərək belə buyurur: "Camaat! Allah-təala belə buyurur: Quraqlıq və susuzluğa düçar olmazdan öncə bir-birinizi yaxşı işlərə dəvət edin. Camaat! Allah buyurmuşdur: Bir-birinizi yaxşı işlərə dəvət edin. Əks təqdirdə dualarınız qəbul olunmayacaq.[2]

---

[1] Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 338.
[2] Yenə orada.

قَالَ رَسُولُ اللهُ(ص): إذا تَرَكُوا الأَمرَ بِالمعروفِ وَالنَّهيَ عَنِ المنكَرِ حُرِمَت بَرَكَةَ الوَحيِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Əgər yaxşılığa dəvəti və pislikdən çəkindirməyi tərk etsəniz, vəhyin bərəkətindən məhrum olacaqsınız."[1]

Şeytanın hər bir yerə getmək icazəsi var idi. Gecələrin birində ərşə çıxarkən onu oraya qoymadılar. Buna görə də öz-özünə təəccübləndi və yer üzünə qayıdıb Məkkəyə gəldi. Kəbənin ətrafına, Məscidül-Harama daxil olmaq istədi. Lakin onu ora da buraxmadılar. Mələklərdən bunun sirrini soruşdu, lakin heç bir kəs ona cavab vermədi. Axırda bütün bunların səbəbini Cəbrayıldan(ə) soruşdu. Cəbrayıl(ə) dedi: "Bu gecə sonuncu Peyğəmbər(s) dünyaya gəlib. Ona görə də sənə bir çox yerlərə getməyə icazə yoxdur." Şeytan soruşdu: "Mənim onda payım varmı? Mən onu yoldan çıxara biləcəyəmmi?" Cəbrayıl(ə) dedi: "Xeyr." Şeytan soruşdu: "Bəs ümmətinin qəlbinə girə biləcəyəmmi?" Cəbrayıl(ə) dedi: "Bəli." Şeytan dedi: "Elə isə bu mənə bəs edər."

Sonra şeytan öz nəslinin nümayəndələrini ətrafına yığıb məsləhətləşməyə başladılar. Şeytan axırda bir qərara gəlib dedi: "Bu Peyğəmbərin(s) ümməti digər peyğəmbərlərin ümmətindən fərqlidir. Fərqi budur ki, keçmiş peyğəmbərlərin ümmətlərinin içərisində əmr be məruf və nəhy əz münkər məsələsi yox idi. Buna görə də siz onları tez yoldan çıxara bilirdiniz. Amma bu

[1] Hikmətnameyi Peyğəmbər, 6-cı cild, səh. 338.

Peyğəmbərin(s) ümmətində əmr be məruf olduğu üçün siz onlara təsir göstərə bilməzsiniz. Bunun üçün də onların qəlbinə girib vəsvəsə etmək lazımdır ki, bir-birilərini yaxşı işlərə dəvət etməsinlər. Belə olduqda onları yoldan çıxarmaq çox asan olacaq.”[1]

Buna görə də insanlar yaşadığı cəmiyyətdə “filan işin mənə nə dəxli var?” - deyib bir-birinə münasibətdə soyuqluq göstərməməlidirlər. Çünki hər bir işin insanlara dəxli və təsiri vardır. Əgər bir cəmiyyətdə insanlar bir-birini yaxşı işə dəvət etməsələr və pis işlərdən çəkindirməsələr, Allah-təala Öz bərəkətini həmin cəmiyyətdən götürər.

[1] Parlaq ulduzlar,1-ci cild, səh. 16.

**11. Təqva əməllərin qəbul olunmasına səbəb olur**

Ötən bəhslərdə deyildi ki, təqvanın insana həm bu dünyada, həm də axirətdə xeyri və mənfəəti vardır. Eləcə də qeyd olundu ki, təqvalı insana Allah öz bərəkətini nazil edər. Təqvanın nəticə və faydalarından biri budur ki, təqva insanın əməllərinin qəbul olunmasına səbəb olur. Təqvasız insanın ibadətlərinin heç bir faydası yoxdur. “Maidə” surəsinin 27-ci ayəsində Allah-təala İslam Peyğəmbərinə(s) Adəmin(ə) iki oğlu barəsində olan mühüm bir hadisəni öz ümmətinə danışmağı göstəriş verir.

وَاتْلُ عَلَيْهِمْ نَبَأَ ابْنَيْ آدَمَ بِالْحَقِّ إِذْ قَرَّبَا قُرْبَانًا فَتُقُبِّلَ مِن أَحَدِهِمَا وَلَمْ يُتَقَبَّلْ مِنَ الآخَرِ قَالَ لَأَقْتُلَنَّكَ قَالَ إِنَّمَا يَتَقَبَّلُ اللّهُ مِنَ الْمُتَّقِينَ

-Adəmin iki oğlunun (Habil ilə Qabilin) qurbanlıq zamanı olmuş əhvalatını həqiqi və düzgün şəkildə onlara oxu. Beləliklə, birindən qəbul olundu və digərindən qəbul olunmadı. (Qabil) dedi: “Səni mütləq öldürəcəyəm.” (Habil) dedi: “Həqiqətən, Allah yalnız təqvalılardan qəbul edir.”

Bəni-İsrail İslam Peyğəmbəri(s) ilə müxalifətçilik edir və Həzrətin(s) buyurduqlarından boyun qaçırır, ona qarşı itaətsizlik edirdilər. Onları bu işə vadar edən onların paxıllıqları idi. Habillə Qabilin əhvalatının da ümdə səbəbi paxıllıq idi. Yer üzündə qan tökülməsinə səbəb olan bu paxıllıq ilk dəfə Habilin qanının tökülməsinə səbəb oldu. Buna görə Allah-təala Peyğəmbərə(s) göstəriş verir ki, onların hadisəsini öz ümməti üçün danışsın. Qoy onlar da bilsinlər ki, paxıllığın axırı nə ilə nəticələnəcək.

Habillə Qabilin bu hadisəsinin xülasəsi belədir: “Allah-təala Adəmə(ə) göstəriş verdi ki, Habili çağırıb nübüvvət sirlərini ona öyrətsin. Adəm(ə) Allahın buyurduğu kimi, Habili çağırıb Allahın ona öyrətdiyi elmləri və nübüvvət sirrini öyrətdi. Habilin Adəmdən(ə) sonra peyğəmbər olacağından digər övladlar da xəbər tutdular. Amma Qabilə bu məsələ çox ağır gəldi. Atasının yanına gəlib dedi: Mən Habildən böyüyəm. Əgər səndən sonra övladlarından kimsə peyğəmbər təyin olunacaqsa, bu zaman mən bu işə hamıdan layiqəm. Adəm(ə) dedi: Bu iş məndən asılı deyil. Allah hər kimi məsləhət bilirsə, onu da təyin edir. Bu məsələdə yaşın çox və yaxud az olması, həmçinin digər işlərin dəxli yoxdur. Bu, Allahın əmridir və yer üzündə kimi höccət təyin edəcəyini də Özü bilir.

Adəm(ə) Qabilin bu məsələni həzm edə bilmədiyini görüb dedi: Əgər yəqin bilmək istəyirsənsə, Habili də çağıraq və hər biriniz bir qurbanlıq aparıb dağın üstünə qoyun. Kimin qurbanlığı qəbul olsa, deməli Allah da məndən sonra onu peyğəmbər seçmişdir.

Adəm(ə) bunu da Allahın əmri ilə onlara göstəriş verdi. Qurbanlıq təkcə qoyun, dəvə kəsməkdən ibarət deyil. İnsanı Allaha yaxın edən hər bir əmələ qurban deyilir. O zamanlar qurbanlığın qəbul olunmasının əlaməti var idi. Qurbanlığı aparıb dağın üstünə qoyardılar. Hər kəsin qurbanlığı qəbul olsaydı, küləklə od gəlib onu dağın üstündən aparardı. Kimin qurbanlığı qəbul olunmasaydı, elə oradaca qalardı.

Habil heyvandarlıqla, Qabil isə əkin-biçinlə məşğul olurdu. Habil gedib sürünün içindən ən yaxşı və kök heyvanı seçdi. Qabil isə düşündü ki, onsuz da bu

qurbanlığı külək aparacaq. Buna görə də buğda və yaxud arpanın pislərini kisəyə doldurub dağın üstünə apardı. Beləliklə külək Habilin qurbanlığını apardı və qəbul olundu. Amma Qabilin qurbanlığı isə dağın başında qaldı. Belə olduqda şeytan Qabili vəsvəsə etməyə başladı. Nə üçün onun qurbanlığı qəbul olundu və səninki qəbul olunmadı? Əgər sən qardaşını öldürsən, atanın çarəsi kəsilər və məcburiyyət qarşısında səni özünə canişin seçər. Əgər sən bu işi görməsən, səndən sonra onun nəsli sənin nəslinə baxıb öz babalarının qurbanlığının qəbul olunması ilə fəxr edəcəklər. Sənin nəslin isə həmişə başı aşağı və üzükölgəli olacaqlar. Şeytan bu sözlərlə Qabilin başını o qədər yağladı ki, axırda Qabil Habili öldürdü."

Bundan sonra uzun hadisələr baş verdi ki, onları bu bəhsdə qeyd etmək istəməzdim. Yuxarıda qeyd etdiyimiz ayədə Allah-təala belə buyurur: "Adəmin iki oğlunun (Habil ilə Qabilin) qurbanlıq zamanı olmuş əhvalatını həqiqi və düzgün şəkildə onlara oxu."[1] Beləliklə birindən qəbul olundu və digərindən qəbul olunmadı. (Qabil) dedi: "Səni mütləq öldürəcəyəm." (Habil) dedi: "Həqiqətən, Allah yalnız təqvalılardan qəbul edir."

Bu ayədə əsas məsələ budur ki, Allah-təala təqvalı insanların əməlini qəbul edir. Buna görə də əgər insan təqvalı olmasa, heç bir əməli də qəbul olunmayacaq. Deməli, insanın əməllərinin qəbul olunmasında ən əsas

---

[1] Bu hadisə Tövrat və İncildə də bəyan olmuşdur. Lakin onu sonradan təhrif etdilər. Buna görə də Allah- təala Peyğəmbərə(s) bu əhvalatı olduğu kimi danışmağı əmr edir.

rolu oynayan təqvadır. Haram yeyən insan səhərə qədər ibadətlə məşğul olsa belə ibadəti qəbul olunmayacaq.

قَالَ عَلِيٌّ(ع): صِفَتان لا يَقبَلُ اللهُ سُبحَانَهُ الأَعمَال اِلّا بِهِمَا: اَلتُّقَى وَ الإِخلاص

-Həzrət Əli(ə) buyurur: "İnsanda iki sifət və xüsusiyyət olmasa, Allah həmin şəxsin əməllərini qəbul etməz. Təqvalı və ixlaslı olmaq."[1]

Deməli, bu iki sifət insanın əməllərinin qəbul olunmasının mehvəridir. Hər kəs təqvalı və xalis niyyətli olmasa, Allah onun heç bir əməlini qəbul etmir.

راوى: كُنتُ عِندَ عَلِيّ بنِ الْحُسَين عَلَيهِمَا السَّلام فَجَاءَهُ رَجُلٌ فَقَالَ: يَا أَبَا مُحَمَّد إِنِّي مُبتَلَىً بِالنِّساءِ فَأَزنِي يَومًا وَأَصُومُ يَومًا أَفَيَكُونُ ذَا كَفَّارَةً لِذا؟ فَقَالَ لَهُ عَلَيهِ السِّلام: إِنَّهُ لَيسَ شَيئٌ أَحَبَّ إِلَى اللهِ عَزَّ وَجَلّ مِن أَن يُطَاعَ وَ لا يُعصَى فَلا تَزنِ وَلا تَصُم، فَاجتَذَبَهُ أَبُو جعفَر عَليهِ السَّلام إِلَيهِ فَأَخَذَهُ بِيَدِه وَ قَالَ لَهُ: تَعمَلُ عَمَلَ أَهلِ النَّار، وَتَرجُو أَن تَدخُلَ الْجَنَّة

-Rəvayətçi deyir: "Bir gün İmam Əli ibn Hüseynin(ə) hüzurunda idim. Bir kişi gəlib İmama(ə) ərz etdi: Ey Əba Muhəmməd, mən qadınlara mübtəla olmuşam. Bir gün zina edirəm, onun kəffarəsi olaraq bir gün də oruc tuturam. İmam(ə) onun çox nadan olduğunu görüb buyurdu: Allah yanında Ona itaət etməkdən və günahlardan çəkinməkdən sevimli bir şey yoxdur. Nə

[1] Mizanül-hikmə,14-cü cild, hədis-22422.

zina et, nə də (kəffarə olaraq) oruc tut. Sonra İmam(ə) onu özünə tərəf çəkərək əlindən tutub buyurdu: Cəhənnəmə səbəb olan işləri görməklə cənnətə getməyi arzulayırsan?”[1]

قَالَ البّاقِرُ(ع): جِدُّوا وَاجتَهِدُوا، وَ إِن لَمَ تَعلَمُوا فَلا تَعصَوا، فَإِنَّ مِن يَبنِي وَلا يَهدمُ يَرتَفعُ بِنَاؤُه وَ إِن كَانَ يَسِيراً، وَ أَنَّ مَن يَبنِي وَ يَهدمُ يُوشكُ أَن لا يَرتَفعُ بِنَاؤُه

-İmam Baqir(ə) buyurur: “Çalışın və səy göstərin, əgər (xeyir) əməl etmirsinizsə, (heç olmasa) günah da etməyin. Çünki ev tikən və onu uçurmayanın evi hərçənd kiçik olsa da ucalar. Amma evi tikən və bir tərəfdən də onu uçuran şəxsin evi ucalmaz.”[2]

Bir nəfər Peyğəmbərin(s) hüzuruna gəlib ərz etdi: “Ya Rəsulallah, çox nigaranam. Həzrət(s) soruşdu: Nə üçün nigaransan? Həmin şəxs dedi: Çünki qiyamətdə mənim işlərimin necə olacağını bilmirəm. Peyğəmbər(s) buyurdu: vacib əməlləri yerinə yetirib, haramlardan çəkinə bilsən, cənnətdə mənimlə birlikdə olacaqsan.”

Təqva odur ki, insan vacib əməllərini yerinə yetirsin və günahlardan çəkinsin. İnsan elə başa düşməsin ki, təkcə müstəhəb əməlləri yerinə yetirməklə cənnətə gedəcək. Müstəhəb əməllər o vaxt insanın dərdinə dəyər ki, insan təqvalı olmuş olsun.

İmam Sadiqin(ə) dövründə bir nəfərin çox təqvalı və elmli olduğu barədə Həzrətə(ə) danışdılar. Bu söhbətin

---

[1] Mizanül-hikmə,14-cü cild, hədis-22423.

[2] Yenə orada, hədis-22424.

üstündən bir müddət keçəndən sonra İmam(ə) həmin şəxslə bazarda rastlaşdı. Gördü ki, o, bazardan iki nar və iki çörək oğurladı. Çörəkləri və narları götürüb apardı və iki yoxsul şəxsə payladı. İmam(ə) onu çağırıb buyurdu: "Niyə belə edirsən? O soruşdu: Sən kimsən? İmam(ə) buyurdu: Mən Peyğəmbərin(s) övladı və Allahın höccətiyəm.

Həmin şəxs dedi: Sən Allahın höccəti ola-ola bilmirsən ki, Allah Quranda buyurur, bir günah edən şəxsə bir cəza və bir savab əməl edənə on savab verilər?

مَن جَاء بِالْحَسَنَةِ فَلَهُ عَشْرُ أَمْثَالِهَا وَمَن جَاء بِالسَّيِّئَةِ فَلاَ يُجْزَى إِلاَّ مِثْلَهَا

-Mən dörd dəfə oğurluq etdim və 4 günah qazandım. Onun əvəzində oğurladığım 4 şeyi kasıblara paylamaqla 40 savab qazandım.

İmam Sadiq(ə) buyurdu: Sən səhv düşünürsən. Sən 40 savab qazanmamısan. Əksinə olaraq 8 günah iş görmüsən. Dörd günah şeyləri oğurladığına görə, dördü isə o malların sahiblərinin icazəsi olmadan onların mallarını payladığına görə. Başqasının malını oğurlayıb yetim-yesirə ehsan etməyə sənə kim ixtiyar verib?"

قَالَ رَسُولُ اللهِ(ص): يا أَبَاذَر كُنْ بِالْعَمَلِ بِالتَّقْوَى أَشَدَّ اهْتِمَاماً مِنْكَ بِالْعَمَلِ فَإِنَّهُ لَا يَقِلُّ عَمَلٌ بِالتَّقْوَى وَ كَيْفَ يَقِلُّ عَمَلٌ يُتَقَبَّل. لقول الله عزوجل: اِنَّمَا يَتقَبَّلُ اللهُ مِنَ الْمُتَّقِين

-Allahın Peyğəmbəri(s) buyurur: "Ey Abuzər, təqva ilə olan əmələ təqvasız əməldən daha çox çalış. Çünki təqva ilə birlikdə olan heç bir əməl az deyil. Qəbul edilən

əməl necə az ola bilər? Çünki Allah-təala buyurmuşdur: “Allah yalnız təqvalılardan qəbul edir.”

**12. Təqvalı insanlara müjdə verilər**

Təqvanın insana verdiyi fayda və nəticələrdən biri də Allahın müjdəsidir. Yəni təqvalı insan həm bu dünyada, həm də dünyadan getdikdən sonra mələklər Allah tərəfindən onu müjdələyirlər. Allahın Quranda barəsində çox söhbət açdığı bu təqvanın insanın dünya və axirətində böyük faydası və nəticələri vardır. Təqvanın insana bu dünyada olan faydalarından on biri haqda söhbət etmişik. On ikinci faydası da qeyd olunduğu kimi, təqvalı insanın son anlarında mələklərin ona müjdə verməsidir. Allah-təala “Yunus” surəsinin 62-64-cü ayələrində buyurur:

أَلا إِنَّ أَوْلِيَاء اللّهِ لاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ. الَّذِينَ آمَنُواْ وَكَانُواْ يَتَّقُونَ. لَهُمُ الْبُشْرَى فِي الْحَيَاةِ الدُّنْيَا وَفِي الآخِرَةِ لاَ تَبْدِيلَ لِكَلِمَاتِ اللّهِ ذَلِكَ هُوَ الْفَوْزُ الْعَظِيمُ

-Bilin ki, şübhəsiz, Allahın dostları və yaxınları üçün (axirət aləmində) nə bir qorxu var və (onlar) nə də qəmgin olarlar. O kəslər ki, iman gətirib həmişə (günahlardan) çəkinirdilər (təqvasını gücləndirirlər). Onlar üçün dünya həyatında və axirətdə müjdə vardır (dünyada peyğəmbərlərin dili və qeybdən edilən ilhamlarla, ölüm zamanı mələklərlə və axirətdə Allahın xitabı, mələklərlə görüş və həqiqətlərin aşkar olması ilə). Allahın kəlamlarında (Onun vədlərində) heç bir dəyişkənlik yoxdur. Budur böyük uğur və qurtuluş!

Burada çox yaxşı olar ki, Allahın dostlarının barəsində bir mətləbi diqqətinizə çatdırım. “Övliya” sözünün kökü “Vəli” kəlməsidir. Hər bir şey digərinə məkan, zaman, nisbət, yaxud məqam cəhətindən yaxın olsa, ona “vəli” deyilir. Buna görə də hər bir cəmiyyəti idarə edən rəhbəri “vəli” adlandırırlar. Ona görədir ki, hər bir dosta “vəli” deyilir. Allahın dostlarının Onunla öz aralarında uzaqlıq olmadığı üçün onlara övliyaullah deyilir. Buna görə də böyük şəxsiyyətlər, ariflər dua edərkən ən çox Allahdan bir şeyi diləmişlər. Həmin dua və istək budur ki, onlar Allahla öz aralarından pərdənin götürülməsini istəmirlər. Onlar həmişə qəlblərinin pərdələnməsini dilə gətirib ağlayar və göz yaşı tökərlər. Onların xüsusiyyətlərindən biri də odur ki, Allahın əzəmətindən başqa hər bir şeyi kiçik görələr. Yəni Allahın əzəmətini başa düşdükləri üçün hər bir şey onların gözündə kiçik görünür.

Həzrət Əli(ə) “Nəhcül-bəlağə”nin 184-cü xütbəsində təqvalı insanların sifətlərini sayır. Həmin sifətlərdən biri də belədir: “Onların nəzərində Allah böyük, Ondan başqası isə (hər nə olmasından asılı olmayaraq) kiçikdir.”

İmam Hüseyn(ə) xütbələrinin birində Allahın dostları barəsində belə buyurur:

اِنَّ جَمِيعَ مَا طَلَعَتْ عَلَيْهِ الشَّمْسُ (فِي مَشارِقِ الْأَرْض وَ مَغارِبِها, بَحْرِها وِ بَرِّها...) عِنْدَ وَلِيٍّ مِنْ اَوْلِياءِ اللهِ وَ اَهْلِ الْمَعْرِفَةِ بِحَقِّ اللهِ كَفَيْئِ الظِّلال

-Həqiqətən, günəş şüalarının məşriqdən məğribə düşdüyü, dənizlər və səhralığın, yaxud gün işığının

üzərinə düşdüyü hər bir şey Allahın dostlarının nəzərində ötüb keçəri olan bir kölgə kimidir.

Bundan əlavə, Allahın dostlarının xüsusiyyətlərindən biri də budur ki, əllərindən çıxan bir şeyə görə təəssüflənməz və əllərinə gələn bir şey üçün sevinməzlər. “Hədid” surəsinin 23-cü ayəsində oxuyuruq:

لِكَيْ لَا تَأْسَوْا عَلَى مَا فَاتَكُمْ وَلَا تَفْرَحُوا بِمَا آتَاكُمْ

-(Bu,) əlinizdən çıxan şey üçün təəssüflənməməyiniz və sizə verilən şey üçün (yersiz) sevinməməyiniz üçün(dür)!

Odur ki, Allaha arxalanmış insanlar hər bir müsibət və çətinliklərlə yerlərindən tərpənməzlər. Allahın dostlarını heç bir şey yerindən tərpədə bilməz.

Digər mətləb isə budur ki, oxuduğumuz ayədə övliyaların kim olduğu bizə bəyan edilərək belə buyurulur:

الَّذِينَ آمَنُواْ وَكَانُواْ يَتَّقُونَ. لَهُمُ الْبُشْرَى فِي الْحَيَاةِ الدُّنْيَا وَفِي الآخِرَةِ لاَ تَبْدِيلَ لِكَلِمَاتِ اللّهِ ذَلِكَ هُوَ الْفَوْزُ الْعَظِيمُ

-O kəslər ki, iman gətirib həmişə (günahlardan) çəkinirdilər (təqvasını gücləndirirlər). Onlar üçün dünya həyatında və axirətdə müjdə vardır (dünyada peyğəmbərlərin dili və qeybdən edilən ilhamlarla, ölüm zamanı mələklərlə və axirətdə Allahın xitabı, mələklərlə görüş və həqiqətlərin aşkar olması ilə). Allahın kəlamlarında (Onun vədlərində) heç bir dəyişkənlik yoxdur. Budur böyük uğur və qurtuluş!

Deməli, bu ayədən açıq-aydın görürük ki, Allahın dostları iman gətirməklə yanaşı, günbəgün təqvalarını

artıran insanlardır. Təqvaları çoxaldıqca bir o qədər də Allaha yaxınlaşırlar. Allaha yaxınlaşdıqca bir o qədər də hadisələrin qarşısında dözümləri çoxalır. Odur ki, hədislərdə möminin xüsusiyyəti haqda danışdıqda buyurulur: Mömin (günahların, narahatedici hadisələrin qarşısında) möhkəm dağ kimidir. Onu hər əsən külək, qopan tufan, yağan yağış yerindən oynada bilməz.

قَالَ اَمِيرَ الْمُؤمنين عَلياً(ع) أَلا إِنَّ أَوْلِيَاء اللّهِ لاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ ثُمَّ قَال: تَدرُونَ مَن اَولِيَاءِ الله؟ قَالُوا: مَن هُم يَا أَمِيرَ الْمُؤمِنِين؟ قَالَ: هُم نَحنُ وَ اَتباعُنَا، فَمَن تَبَعنَا مِن بَعدِنَا طُوبَى لَنَا، وَطُوبَى لَهُم اَفضَل مِن طُوبَى لَنا، قَالُوا: يَا اَمِيرَ الْمُؤمِنِين مَا شَأن طُوبَى لَهُم اَفضَل مِن طُوبَى لَنَا؟ اَلَسنَا نَحُن وَهُم عَلى امر؟ قال: لا لأنهم حملوا ما لم تحملوا عليه، واطاقوا ما لم تطيقوا.

-Həzrət Əli(ə) “Həqiqətən, Allahın dostları üçün (axirət aləmində) nə bir qorxu var və (onlar) nə də qəmgin olarlar.” ayəsini oxuduqdan sonra buyurdu: Bilirsinizmi Allahın dostları kimlərdir? Səhabələr soruşdular: Ya Əmirəlmöminin onlar kimlərdir? Həzrət(ə) buyurdu: Onlar biz və bizə tabe olanlardır. (Yəni bizim yolumuzu gedənlərdir). Hər kim bizdən sonra bizim yolumuzu tutub gedərsə, xoş bizim və onların halına. Onlar üçün bizə xoş olduğumuzdan daha çox xoş olacaq. Soruşdular: Bu necə ola bilər ya Əmirəl-möminin? (Əgər sizin vilayətiniz məsələsidirsə, biz də onu qəbul edirik. Bizimlə onların fərqi nədir?) Həzrət(ə)

buyurdu: Onlar elə bir şeyə dözəcəklər ki, sizin ona dözməyə taqətiniz çatmaz.”[1]

Həmçinin İmam Zamanın(ə.c) qeybi dövründə yaşayan və çətinliklərə dözən şiələr barəsində də belə bir hədis nəql olunmuşdur.

قَالَ الصَّادِقُ(ع): طُوبَى لِشِيعَةِ قَائِمِنَا الْمُنْتَظِرِينَ لِظُهُورِهِ فِي غَيْبَتِهِ، وَ الْمُطِيعِينَ لَهُ فِي ظُهُورِهِ، أُولَئِكَ أَوْلِيَاءُ اللَّهِ الَّذِينَ لا خَوْفٌ عَلَيْهِمْ وَ لا هُمْ يَحْزَنُونَ

-İmam Sadiq(ə) buyurur: “Xoş o şiələrin halına ki, bizim Qaimimiz (Həzrət Mehdinin) qeybdə olduğu zaman onun zühurunu gözləyər, zühur etdikdən sonra ona itaət edərlər. Onlardır Allahın dostları. Onar üçün nə bir qorxu, nə də bir qəmginlik var.”[2]

Odur ki, dünyada təqvalı insanlara müjdə verilər. İnsan bir ömür yaşadıqdan sonra həyatının nəticəsi nə olsa, onunla da dünyadan gedər. Əgər imanlıdırsa imanla, yox, əgər pozğun və münafiqdirsə, nifaq və günahla dünyadan gedər. Bəziləri pozğun insanlara uzaqdan baxdıqda onların kef içində olduqlarını güman edirlər. Amma əsl həqiqətdə daxillərində olan narahatlıqları onlara əzab verir. Qatil və cinayətkar insanlar özlərini heç bir şey olmamış kimi aparırlar, camaata kef içində olduqdlarını göstərirlər. Amma öz vicdanlarının yanında həmişə narahatdırlar. Əvvəl-axır onların cinayətlərinin üstü açılmalıdır. Ən azından can

---

1 Təfsiri-nümunə, 8-ci cild, səh. 336.
2 Biharül-ənvar, 52-ci cild, səh. 145.

verən halda özləri bu işləri etiraf edəcəklər. Ölən zaman onların çəkdikləri ləzzətin sonu çatacaq və əzabları başlayacaq.

Həccac ibn Yusif kimi pozğun, qaniçən bir insan ömrünün sonunda öldürdüyü adamlara və törətdiyi cinayətlərə görə əzab çəkdiyini dilinə gətirirdi. Səid ibn Cübeyr İmam Səccadın(ə) yaxın dostlarından biri idi. Həccac ibn Yusifi qətlə yetirdi. Həccac onu öldürməzdən əvvəl Səid Allaha dua edərək belə dedi: “Ey mənim Allahım, məndən sonra Həccaca kimisə öldürməyə möhlət vermə.”

Həccac onun boynunu vurdurub şəhid etdi. Üstündən on beş gün keçdikdən sonra Həccac ölüm yatağına düşdü. Hərdən huşu özünə gəlib diksinir və öz-özünə deyirdi: “Mənim Səid ibn Cübeyrlə nə işim var idi?” Sonra özündən gedirdi. Yenidən diksinib həmin sözü deyirdi. Beləliklə, Həccac Səid ibn Cübeyrdən sonra heç bir kəsi öldürə bilmədi və cəhənnəmə vasil oldu.

Səid ibn Cübeyr mömin bir insan idi. Allaha bütün qəlbilə iman gətirmişdi. Orucluq vaxtında və adi günlərdə Quran ayələrini oxuyub əməl etdiyi kimi, cəlladın xəncəri altında da Allahı yad edib imanından dönmədi. Buna görə də hər bir kəs belə bir imanın sahibi olsa, harada olduğundan asılı olmayaraq Quran ayələri onun dilinin əzbəri olacaq və heç bir şey onu imanından döndərə bilməz.

Odur ki, insan bir ömür yaşamasına baxmayaraq, onun həyatının nətisəci nədirsə, elə onunla da dünyadan gedəcək. Əgər pis və cinayətkar insan olubsa, ona da etdiklərinin acı nəticələrini göstərəcəklər. Həmçinin

Allahın mömin və təqvalı dostları dünyadan gedərkən onlara gözəl müjdələr veriləcək.

Rəvayətçilərin biri belə nəql edir: “Bir gün İmam Sadiqin(ə) hüzurunda idik. İmam(ə) bizə buyurdu: “Əhli-beyti(ə) sevən şəxslər ölən zaman görürlər.” Soruşdum: “Ey Peyğəmbərin(s) övladı, onlar kimi görürlər?” Həzrət(ə) yenə həmin sözü təkrar edərək buyurdu: “Onlar görürlər.” Yenə soruşdum: “Ey ağam, onlar kimi görürlər?” Mən beləcə on dəfə İmamdan(ə) xahiş etdikdən sonra Həzrət(ə) buyurdu: “Biz Əhli-beyti(ə) sevən şəxslər dünyasını dəyişdikləri zaman o iki nəfəri görürlər.” Soruşdum: “Ey Peyğəmbərin(s) övladı, o iki nəfər kimlərdir?” İmam(ə) buyurdu: “Peyğəmbər(s) və Əli(ə).”

Belə olduqda mömin insan dünyada çəkdiyi bütün əzabları, qəm-qüssələri, acılıqları yaddan çıxaracaq və şirinlik başlanacaq. Bütün bunlar mömin üçün həyatının son anlarında Peyğəmbər(s) və Əlinin(ə) mübarək camalını gördükdən sonra olacaq. Bu, Allahın öz dostlarına verəcəyi müjdədir. “Fussilət” surəsinin 30-cu ayəsində oxuyuruq:

تَتَنَزَّلُ عَلَيْهِمُ الْمَلَائِكَةُ أَلَّا تَخَافُوا وَلَا تَحْزَنُوا وَأَبْشِرُوا بِالْجَنَّةِ الَّتِي كُنتُمْ تُوعَدُون

-Mələklər nazil olarlar (və deyərlər): “Əsla qorxmayın və qəmgin olmayın; Əsla qorxmayın və qəmgin olmayın; (dünyada) sizə vəd olunmuş cənnət müjdə olsun sizə!”

## Təqvanın üxrəvi faydaları

Qeyd olundu ki, təqva insana dünyəvi faydalarını bəxş etdiyi kimi, üxrəvi faydalarını da bəxş edir. Burada çox yaxşı olar ki, həmin faydalardan bir neçəsinə diqqət yetirək.

**1. Böyük mükafat**

Həmin faydalardan biri budur ki, Allah-təala həmin şəxsə böyük bir mükafatdan ibarətdir. "Ali-İmran" surəsinin 172-173-cü ayələrində oxuyuruq:

الَّذِينَ اسْتَجَابُواْ لِلّهِ وَالرَّسُولِ مِن بَعْدِ مَآ أَصَابَهُمُ الْقَرْحُ لِلَّذِينَ أَحْسَنُواْ مِنْهُمْ وَاتَّقَواْ أَجْرٌ عَظِيمٌ. الَّذِينَ قَالَ لَهُمُ النَّاسُ إِنَّ النَّاسَ قَدْ جَمَعُواْ لَكُمْ فَاخْشَوْهُمْ فَزَادَهُمْ إِيمَاناً وَقَالُواْ حَسْبُنَا اللّهُ وَنِعْمَ الْوَكِيلُ

-Yaralandıqdan sonra Allahın və Onun Peyğəmbərinin çağırışını qəbul etmiş kəslər - onların yaxşılıq edib təqvalı olanları üçün böyük bir mükafat vardır. Həmin o kəslər (üçün) ki, camaat onlara "(Məkkə) camaat(ı) sizin(lə vuruşmaq) üçün toplaşıb, onlardan qorxun" dedi, amma (bu xəbər) onların imanını artırdı və dedilər: "Bizə Allah kifayətdir və O, gözəl vəkildir."

Bu ayə Ühüd müharibəsində nazil olmuşdur. Həmin müharibə İslam tarixində ən ağır döyüşlərindən biri idi. Bu döyüşdə müsəlmanlar azacıq məğlub oldular. Müşriklər sayca müsəlmanlardan daha çox idilər. Onlar qələbə ruhiyyəsində idilər. Düşmənlər bu müharibədə qələbə çaldıqdan sonra Əbu Süfyan Məkkəyə qayıtmaq fikrinə düşdü. Onlar hərəkət edib yola düzəldilər. Ruha

adlı bir məntəqəyə çatdıqdan sonra fikirləşdilər ki, nə üçün geri qayıdırlar? Buna görə də qərara aldılar ki, yenidən Mədinəyə gedib Peyğəmbər(s) başda olmaqla onun ətrafında olan müsəlmanları da öldürüb İslamın işini birdəfəlik bitirsinlər.

Onların bu niyyətlərindən Peyğəmbərə(s) xəbər yetişdi. Müsəlmanlardan bir qrupu qaçmış, bir qrupu şəhid olmuş, çox az bir dəstəsi Həzrətin(s) kənarında sədaqətlə qalmışdı. Həzrət Peyğəmbər(s) bu xəbəri eşidən kimi müsəlmanlara döyüşə hazırlaşmağı əmr verdi. Müsəlmanların sayı az olduğu üçün Həzrət(s) yaralılara da döyüşdə iştirak etmək göstərişi verdi. Peyğəmbərin(s) yanında olan iki mömin qardaş da yaralanmışdı. Həmin qardaşlardan biri deyir: "Mən də yaralı idim, amma qardaşımın vəziyyəti məndən daha ağır idi. Müsəlmanlar müdafiə olunmaq üçün hərəkətə başladıqda mən qardaşımın əlindən tutub onların ardınca hərəkət etdim. Qardaşımın getməyə taqəti olmadıqda isə onu çiynimə atıb qaça-qaça Peyğəmbərin(s) dəstəsinə çatırdım."

Peyğəmbər(s) Mədinə kənarında yerləşən Həmraul-əsəd adlı bir məntəqədə döyüşə hazırlaşırdı. Məbəd Xəzayi adlı bir müşrik yoldan keçərkən müsəlmanların döyüşə hazırlaşdığını görüb bu xəbəri Əbu Süfyana çatdırdı. Dedi ki, yolda müsəlmanların böyükl bir dəstəsinin döyüşə hazırlaşdığını gördüm. Mənə elə gəlir ki, onlar sizin üstünüzə hücuma gəlirlər. Əbu Süfyan dedi: "Sən nə danışırsan, biz müsəlmanları məğlub etmişik. Onların qoşununu dağıdıb çoxunu öldürmüşük." Məbəd Xəzayi dedi: "Mən sizin döyüşünüzü görməmişəm və bilmirəm ki, kim kimi öldürüb. Amma

onu deyə bilərəm ki, müsəlmanlar böyük bir dəstə ilə döyüşə hazırlaşırlar. Məndən sizə deməkdir, özünüz nə bilirsinizsə, onu da edin.”

Müşriklər bu xəbəri eşitdikdən sonra ruhdan düşdülər və buna görə də Məkkəyə qayıtmağı qərara aldılar. Geri qayıdarkən yolda Mədinəyə gedən Əbdül-Qeysin qəbiləsindən olan bir qrup insanla rastlaşdılar. Onlara dedilər ki, Mədinə yolunun üstündə müsəlmanları görsəniz belə deyin: “Əbu Süfyan öz ordusu ilə sizin üstünüzə gəlir.”

Onların özlərinə belə bir xəbər gəldikdə zəifləyib ruhdan düşdükləri üçün elə düşünürdülər ki, müsəlmanlara da belə bir xəbər çatsa, onlar da zəifləyəcəklər. Bunu ona görə edirdilər ki, həmin xəbər müsəlmanlara çatdıqda dayansınlar və onlar da Məkkəyə qayıdıb yenidən qüvvə toplasınlar.

Bu xəbəri Peyğəmbərə(s) çatdırdıqdan sonra Həzrət(s) orada üç gün gözlədi. Üç gündən sonra müşriklərin gəlmədiklərini görüb Mədinəyə qayıtdılar. Elə bu halda Allah-təala “Ali-İmran” surəsinin 172-173-cü ayələrini nazil etdi:

الَّذِينَ اسْتَجَابُواْ لِلّهِ وَالرَّسُولِ مِن بَعْدِ مَآ أَصَابَهُمُ الْقَرْحُ لِلَّذِينَ أَحْسَنُواْ مِنْهُمْ وَاتَّقَواْ أَجْرٌ عَظِيمٌ. الَّذِينَ قَالَ لَهُمُ النَّاسُ إِنَّ النَّاسَ قَدْ جَمَعُواْ لَكُمْ فَاخْشَوْهُمْ فَزَادَهُمْ إِيمَاناً وَقَالُواْ حَسْبُنَا اللّهُ وَنِعْمَ الْوَكِيلُ

-Yaralandıqdan sonra Allahın və Onun Peyğəmbərinin(s) çağırışını qəbul etmiş kəslər-onların yaxşılıq edib təqvalı olanları üçün böyük bir mükafat

vardır. Həmin o kəslər (üçün) ki, camaat onlara “(Məkkə) camaat(ı) sizin(lə vuruşmaq) üçün toplaşıb, onlardan qorxun” dedi, amma (bu xəbər) onların imanını artırdı və dedilər: “Bizə Allah kifayətdir və O, gözəl vəkildir”.

Bu ayədə incə bir mətləb vardır. Həmin mətləb budur: “Allahın və Onun Peyğəmbərinin(s) çağırışını qəbul etmiş kəslər-onların yaxşılıq edib təqvalı olanları üçün böyük bir mükafat vardır.”

Yəni yaralı olmalarına baxmayaraq, Peyğəmbərin(s) çağırışını qəbul edənlərin hamısına yox, onların içində özlərini yaxşı aparıb təqvalı olanlar üçün böyük mükafat vardır. Sonra ayədə onların bir xüsusiyyətinə də işarə edərək buyurulur: “Həmin o kəslər (üçün) ki, camaat onlara “(Məkkə) camaat(ı) sizin(lə vuruşmaq) üçün toplaşıb, onlardan qorxun” dedi, amma (bu xəbər) onların imanını artırdı və dedilər: “Bizə Allah kifayətdir və O, gözəl vəkildir.”

Onlar elə insanlardır ki, yaralı, məğlub olmalarına baxmayaraq, onlara düşmənin gəlməsi xəbərini verdikdə heç bir şeydən qorxmadılar. Əksinə olaraq imanları daha da çoxaldı və dedilər: “Allah bizə kifayət edər. O, ən yaxşı vəkildir (Təvəkkül olunasıdır).”

Allah-təala bu insanlara böyük mükafat verəcəyini vəd verir. Çünki onlar Allaha ürəkdən iman gətirmiş, yollarının düz olduğunu bilirdilər. Əgər insan öz yolunda tərəddüd etməsə, getdiyi hədəfin dəqiq olduğunu bilsə, heç bir şey onu yolundan döndərə bilməyəcək. Əgər insanın imanı güclü olsa, öldükdən sonra diriləcəyini yəqin bilsə, dirildikdən sonra dünyada gördüyü işlərə görə cavab verəcəyini dərindən başa düşsə, cənnətin, cəhənnəmin, siratın, hesab-kitabın olmasına sidq ürəkdən

inansa, həmin şəxsə heç bir hədə-qorxu təsir etməz. Əksinə olaraq imanı daha da möhkəmləşər.

**2. Günahların örtülməsi və səhvlərin təmizlənməsi**

Təqvanın insana olan üxrəvi faydalarından biri günahlarının örtülməsi və xətalarının təmizlənməsidir. Yəni əgər təqvalı insan dünyada kiçik xətalara, səhvlərə yol vermişsə, hətta nə vaxtsa böyük günahlar etmişsə, Allah-təala qiyamət günü onun bütün səhvlərinin, xəta və günahlarının üstünə pərdə çəkib gizlədəcək. Heç kəsin onun etdiyi səhvlərdən xəbəri olmayacaq. Hədislərdə nəql olunur ki, Peyğəmbər(s) Allahla minacat edərkən ümməti barəsində belə ərz etdi: “İlahi, qiyamət günü mənim ümmətimin əməllərinin hesabını mənə tapşır. Qoy başqa ümmətlər və peyğəmbərlər onların səhv və xətalarını görməsinlər.” Allah-təala buyurdu: “Sən öz ümmətini sevdiyin kimi, Mən də öz bəndələrimi sevirəm. Onlarla elə rəftar edəcəyəm ki, onların bəzilərinin səhv və xətalarından heç sənin də xəbərin olmayacaq.”

Odur ki, ömürlərini təqva ilə başa vuran insanların qiyamət günü bütün eyib və günahlarının üzərinə pərdə çəkiləcək. Əgər insan dünyada çətin də olsa, hər bir halda təqvaya riayət etsə, bu təqvanın ona belə bir xeyri dəyəcək. “Maidə” surəsinin 65-ci ayəsində buyurulur:

وَلَوْ أَنَّ أَهْلَ الْكِتَابِ آمَنُواْ وَاتَّقَوْاْ لَكَفَّرْنَا عَنْهُمْ سَيِّئَاتِهِمْ وَلأدْخَلْنَاهُمْ جَنَّاتِ النَّعِيمِ

-Əgər kitab əhli (İslama) iman gətirsəydi və təqvalı olsaydılar, şübhəsiz, onların günahlarını təmizləyər və onları neməti bol olan cənnətlərə daxil edərdik.

“Təlaq” surəsinin 5-ci ayəsində bir sıra qanunları sadaladıqdan sonra buyurulur:

ذَلِكَ أَمْرُ اللَّهِ أَنزَلَهُ إِلَيْكُمْ وَمَن يَتَّقِ اللَّهَ يُكَفِّرْ عَنْهُ سَيِّئَاتِهِ وَيُعْظِمْ لَهُ أَجْرًا

-Bu (hökmlərin hamısı) Allahın sizə nazil etdiyi hökmdür. Kim Allahdan qorxsa, Allah onun günahlarını örtər və onun mükafatını böyük edər.

### 3. Cənnətə daxil olmaq izni

Təqvanın insan axirətinə verdiyi faydalardan biri insanın cənnətə daxil olma şansıdır. İnsan cənnətə daxil olduqdan sonra çox rahat olacaq. Ümumiyyətlə, bunu da qeyd etməliyəm ki, insan yaranan gündən nigaran və narahatdır. Bu nigarançılığın səbəbi onun aqibətinin necə olmasıdır. Yəni insan ağlı kəsəndən ölənə qədər axırının nə ilə nəticələnəcəyindən nigarandır. Amma cənnətə daxil olduqdan sonra uzun müddət nigarançılıq çəkdiyi halı yadına salıb deyəcək: “Rahat oldum.” İnsanın ən yaxşı halı o zaman olacaq. “Maidə” surəsinin 65-ci ayəsində buyurulur:

لأدْخَلْنَاهُمْ جَنَّاتِ النَّعِيمِ

-Onları neməti bol olan cənnətlərə daxil edərdik.

Çünki təqvalı insanlar ömür boyu cənnətə getməyə səbəb olan bütün əməlləri yerinə yetirmək üçün əllərindən gələni əsirgəməmişlər. Cənnət isə bu dünya ilə heç müqayisə ediləsi deyil. Cənnət dünyanın naz-nemətləri ilə ölçülə bilməz. Allah-təala “Ali-İmran” surəsinin 196-198-ci ayələrində buyurur:

لاَ يَغُرَّنَّكَ تَقَلُّبُ الَّذِينَ كَفَرُواْ فِي الْبِلاَدِ. مَتَاعٌ قَلِيلٌ ثُمَّ مَأْوَاهُمْ جَهَنَّمُ وَبِئْسَ الْمِهَادُ. لَكِنِ الَّذِينَ اتَّقَوْاْ رَبَّهُمْ لَهُمْ جَنَّاتٌ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا نُزُلاً مِّنْ عِندِ اللّهِ وَمَا عِندَ اللّهِ خَيْرٌ لِّلأَبْرَارِ

-Küfr edənlərin şəhərlərdə (imkanla, mənfəəttələbcəsinə və qalib halda) hərəkət və get-gəlləri səni aldatmasın! (Bu, dünyadan) azacıq bir bəhrələnməkdir, sonra isə onların yerləri cəhənnəm olacaqdır. Ora pis bir qalacaq yerdir. Lakin öz Rəbbindən qorxan kəslər üçün (evlərinin və ağaclarının) altından çaylar axan cənnətlər vardır. Allah tərəfindən ilk ziyafət olaraq onlar orada əbədidirlər. Yaxşı əməl sahibləri üçün Allah yanında olan şey daha yaxşıdır.

**4. Qarşılama mərasimi və cənnət gözətçilərinin salamı**

Təqvanın insana verdiyi axirət faydalarından biri budur ki, cənnətdə onun (təqvalı insan) üçün qarşılama mərasimi təşkil edəcəklər. Yəni belə də deyil ki, cənnətin qapısını açıb onları içəri buraxsınlar. Mömin və təqvalı insan qiyamət səhnəsindən, hesab-kitabdan qurtardıqdan sonra onu cənnətə aparıb qarşılama mərasimi təşkil edəcəklər. “Zumər” surəsinin 73-74-cü ayələrində belə buyurulur:

وَسِيقَ الَّذِينَ اتَّقَوْا رَبَّهُمْ إِلَى الْجَنَّةِ زُمَرًا حَتَّى إِذَا جَاؤُوهَا وَفُتِحَتْ أَبْوَابُهَا وَقَالَ لَهُمْ خَزَنَتُهَا سَلَامٌ عَلَيْكُمْ طِبْتُمْ فَادْخُلُوهَا خَالِدِينَ.

وَقَالُوا الْحَمْدُ لِلَّهِ الَّذِي صَدَقَنَا وَعْدَهُ وَأَوْرَثَنَا الْأَرْضَ نَتَبَوَّأُ مِنَ الْجَنَّةِ حَيْثُ نَشَاء فَنِعْمَ أَجْرُ الْعَامِلِينَ

-Rəbblərindən qorxanlar (təqvalılar) (isə) dəstə-dəstə cənnətə tərəf aparılarlar. Nəhayət, ora çatanda onun qapıları (daxil olmaq üçün onların üzünə) açılar. Onun gözətçiləri onlara deyərlər: "Salam olsun sizə! Nuş olsun sizə! (pak oldunuz!). Buna görə də əbədi məskunlaşmaq üçün ora daxil olun!"

(Cənnət əhli orada məskunlaşdıqdan sonra) deyərlər: "Şükür bizim barəmizdəki vədini gerçəkləşdirən və cənnət yerini irsi olaraq bizə verən Allaha məxsusdur ki, cənnətin istədiyimiz yerində məskən seçirik. Əməl edənlərin mükafatı gözəldir!"

Ümumiyyətlə, insan çox ağır səfərlərdən sonra məqsədə çatdıqda dərindən ah çəkib istədiyi yerə çatdığı üçün Allaha şükür edir. Odur ki, təqvalı insan bu dünyanın bütün əzab-əziyyətlərinə dözərək Allahın itaətindən kənara çıxmadıqlarına, qəbrin müxtəlif hallarını və qiyamətin ağır səhnələrini keçdikdən sonra cənnətə daxil olduqda Allaha şükür edərək deyəcəklər: "Şükür bizim barəmizdəki vədini gerçəkləşdirən və cənnət yerini irsi olaraq bizə verən Allaha məxsusdur ki, cənnətin istədiyimiz yerində məskən seçirik. Əməl edənlərin mükafatı gözəldir!"

Bu dünyanın çətinlikləi bizə çox gəlsə də, amma əsl həqiqətdə azdır. İnsanın yanında 70 yaş dedikdə elə başa düşür ki, bu, çox uzun müddətdir. Amma 70 yaşlı bir insandan ömrü barədə soruşduqda çevrilib arxaya baxıb deyir: "Elə bil dünən balaca uşaq idim." Dünyanın müddəti az olduğu üçün əziyyəti də azdır. Möminlər

cənnətə gedərkən cəhənnəmin qapısının kənarından keçib gedəcəklər. Qoy görsünlər ki, cəhənnəmin əzabı və orada əzaba düçar olanlar da var imiş. Hər bir mömin oranı gördükdə deyəcək: "Əgər dünyada əziyyətim min il də olsaydı belə, ona dözərdim. Çünki min il dünyanın əzabına dözmək cəhənnəmin əzabının bircə anına dözməkdən yaxşıdır."

Hədislərdə belə nəql olunur ki, insanın ən ucuz qiyməti cənnətdir. Əgər insan özünü cənnətdən ucuz satsa, ziyan etmişdir. Buna görə də insan öz qiymətini bilməli, milyonlarla pul versələr belə özünü ucuz satmamalıdır.

Peyğəmbər(s) zühur etdikdən sonra bir qrup insan onun gətirdiyi dini qəbul etdilər. Məkkəyə hər il olduğu kimi həcc mərasimini ənənəvi olaraq qeyri-müsəlmanlar ziyarət edərdilər. Məkkəyə gələn qonaqlar da eşitmişdilər ki, bir nəfər zühur edib peyğəmbərlik iddiası edir və camaatı Allaha tərəf dəvət edir. Onlar Peyğəmbərin(s) haqqında eşitdikləri üçün hər dəfə Məkkəyə gəldikdə vəziyyətlə maraqlanırdılar. İman gətirən və gətirməyənləri söhbətə tutub vəziyyəti öyrənirdilər. Müşriklərdən xəbər aldıqda onlar deyərdilər: Vəziyyət elə köhnə vəziyyətdir. Təzə bir şey yoxdur. Möminlərdən soruşduqda onlar hər şeyin yaxşı olduğunu deyərdilər: "Nəhl" surəsinin 30-32-ci ayələrində bu barədə oxuyuruq:

وَقِيلَ لِلَّذِينَ اتَّقَوْاْ مَاذَا أَنزَلَ رَبُّكُمْ قَالُواْ خَيْرًا لِّلَّذِينَ أَحْسَنُواْ فِي هَذِهِ الدُّنْيَا حَسَنَةٌ وَلَدَارُ الآخِرَةِ خَيْرٌ وَلَنِعْمَ دَارُ الْمُتَّقِينَ. جَنَّاتُ عَدْنٍ يَدْخُلُونَهَا تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ لَهُمْ فِيهَا مَا يَشَآؤُونَ كَذَلِكَ

يَجْزِي اللّهُ الْمُتَّقِينَ. الَّذِينَ تَتَوَفَّاهُمُ الْمَلآئِكَةُ طَيِّبِينَ يَقُولُونَ سَلامٌ عَلَيْكُمُ ادْخُلُواْ الْجَنَّةَ بِمَا كُنتُمْ تَعْمَلُونَ

-Və (kafirlərin casusları tərəfindən) təqvalılara deyilər: "Rəbbiniz nə nazil etmişdir?" Deyərlər: "(Başdan-başa) xeyir və yaxşılıq (gözəl hökmlər və gözəl savablar)"! (Bəli) yaxşılıq edənlər üçün bu dünyada gözəl mükafat (pak və gözəl həyat) vardır və şübhəsiz, (onlar üçün) axirət evi daha yaxşıdır. Təqvalıların evi necə də gözəldir! Onların daxil olacaqları əbədi bağların (ağaclarının) altından çaylar axır. Orada onlar üçün istədikləri hər bir şey vardır. Allah təqvalıları belə mükafatlandırır. O kəslər ki, mələklər, canlarını onlar (küfr və itaətsizlik çirkinliyindən) pak olan halda alarkən (onlara) "salam olsun sizə, etdiklərinizin mükafatı olaraq cənnətə daxil olun" deyərlər.

"Rəd" surəsində təqvalı insanların bir sıra xüsusiyyətlərini sadaladıqdan sonra həm özlərinə, həm də (onların cənnətə daxil olan) ailələrinə mələklərin salam verməsi haqda oxuyuruq:

وَالَّذِينَ صَبَرُواْ ابْتِغَاء وَجْهِ رَبِّهِمْ وَأَقَامُواْ الصَّلاَةَ وَأَنفَقُواْ مِمَّا رَزَقْنَاهُمْ سِرًّا وَعَلاَنِيَةً وَيَدْرَؤُونَ بِالْحَسَنَةِ السَّيِّئَةَ أُوْلَئِكَ لَهُمْ عُقْبَى الدَّار. جَنَّاتُ عَدْنٍ يَدْخُلُونَهَا وَمَنْ صَلَحَ مِنْ آبَائِهِمْ وَأَزْوَاجِهِمْ وَذُرِّيَّاتِهِمْ وَالمَلاَئِكَةُ يَدْخُلُونَ عَلَيْهِم مِّن كُلِّ بَابٍ. سَلاَمٌ عَلَيْكُم بِمَا صَبَرْتُمْ فَنِعْمَ عُقْبَى الدَّارِ

-Və o kəslər ki, özlərinin Rəbbinin razılığını cəlb etmək üçün (çətinliklərdə və öz vəzifələrini yerinə

yetirməkdə) səbir etdilər, namaz qıldılar, onlara ruzi olaraq verdiklərimizdən (mal-dövlətdən) gizlində və aşkarda Allah yolunda xərclədilər və özlərinin yaxşı əməlləri ilə günahları (ya öz yaxşı davranışları ilə başqalarının pis rəftarını) uzaqlaşdırırlar. Bu dünyanın (gözəl) sonu (onun sona çatması ilə cənnətə daxil olmaq) onlar üçündür.

(Həmin o) əbədi cənnətlər ki, onların özləri və atalarından, zövcələrindən və övladlarından (əqidə baxımından) layiq olanlar ora daxil olarlar. Və mələklər hər bir qapıdan onların yanına daxil olarlar.

(Və deyərlər:) "Səbir və dözümlülüyünüzün müqabilində salam olsun sizə! O dünyanın sonu (olaraq bura) nə gözəldir!"

Bundan əlavə olaraq təqvalı insanları cənnətdə qarşılayarkən onlara Allah tərəfindən salam veriləcək. "Yasin" surəsinin 55-58-ci ayələrində oxuyuruq:

إِنَّ أَصْحَابَ الْجَنَّةِ الْيَوْمَ فِي شُغُلٍ فَاكِهُونَ. هُمْ وَأَزْوَاجُهُمْ فِي ظِلَالٍ عَلَى الْأَرَائِكِ مُتَّكِؤُونَ. لَهُمْ فِيهَا فَاكِهَةٌ وَلَهُم مَّا يَدَّعُونَ. سَلَامٌ قَوْلًا مِن رَّبٍّ رَّحِيمٍ

-Həqiqətən, cənnət əhli o gün xoş bir əhval-ruhiyyədə, şadlıq və ləzzət içərisindədirlər. Onlar və zövcələri (ağacların və qəsrlərin) kölgələr(i) altında öz bəzənmiş taxtlarına söykənərlər. Orada onlar üçün (hər cür) meyvələr, istədikləri və arzu etdikləri hər şey vardır. (Onlara) salam vardır. (Bu salam) rəhimli Rəbbdən (gələn) bir sözdür.

Həzrət Peyğəmbər(s) bu barədə belə buyurur: "Allahın feyz və rizayətini axtaran bəndələr cənnətə daxil

olduqda qulaqlarına bir səs gələcək. Həmçinin başlarının üzərində nur əmələ gəldiyini görüb təəccüblə ətrafa baxarlar. Səsin haradan gəldiyini axtardıqda onlara deyiləcək: “(Bu salam) rəhimli Rəbbdən (gələn) bir sözdür.”

Bu Allahın müttəqilərə olan feyz və mərhəmətidir. Cənnətə daxil olduqdan sonra möminlər bu feyzin onların halına nəsib olduğunu görəcəklər. Həmçinin ondan sonra bu səs onlardan heç vaxt kəsilməyəcək (daim Allahın salamı onlara olacaq). Əlbəttə, bu salam o kəslərə aiddir ki, dünyada Allahın eşqinə görə ibadət etmişlər və cənnətdə də bu səsi eşidəcəklər. Amma Peyğəmbər(s) və məsum imamlarımız bu dünyada da o feyzin bəhrəsində olmuş və daim Allahın salamını eşitmişlər.

قَالَ عَلِيٌّ(ع): لَو حَجبتُ عَنهُ سَاعةً لمتُّ

-Həzrət Əli(ə) buyurur: “Əgər Allahın feyzi bir an məndən kəsilsə, canım bədənimdən çıxar.”

Əlbəttə, bunu qeyd etməliyəm ki, Allahın feyzinin nə olduğunu bilmək üçün insana ürfanın yksək mərhələləri lazımdır. Bunun nə olduğunu hər adam başa düşməz. Əlifba oxuyan uşağın universitet dərslərindən başı çıxmadığı kimi, bizim də elə şeylərdən bir o qədər də anlayışımız yoxdur. Biz o feyzin nə oluğunu və onun insanın qulağına necə çatdığını bilmirik.

Cənnətin dərəcələrinin içində elə dərəcələr vardır ki, bəziləri həmin dərəcədə olanlara yerdən göyə baxdıqları kimi baxacaqlar. Amma heç kəs elə düşünməsin ki, oranın yüksək dərəcələrində yalnız böyük ariflər və alimlər olacaqlar. Xeyr, bəzən orada elə insanları görə biləcəklər ki, dünyada şəhərdə və bazarda gəzən insanlar

imiş. Onlar camaat arasında gəzib dolandıqları üçün hamı onları adi bir camaat kimi tanıyardı. Amma güclü iman və möhkəm təqvasına görə Allah ona cənnətin yüksək mərhələlərini nəsib edəcək.

**5. Allahın rizvanı**

Təqvanın insan üçün axirətdə olan faydalarından biri də Allahın rizvanıdır. Bu məqam və mərhələ ötən bəhsdə sadaladığımız bütün faydalardan ən üstünüdür. Allah-təala "Ali-İmran" surəsinin 15-ci ayəsində buyurur:

قُلْ أَؤُنَبِّئُكُم بِخَيْرٍ مِّن ذَلِكُمْ لِلَّذِينَ اتَّقَوْا عِندَ رَبِّهِمْ جَنَّاتٌ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا وَأَزْوَاجٌ مُّطَهَّرَةٌ وَرِضْوَانٌ مِّنَ اللّهِ وَاللّهُ بَصِيرٌ بِالْعِبَادِ

-De: "Sizə bunlardan da xeyirlisini xəbər verimmi? Təqvalılar üçün Rəbbi yanında (evlərinin və ağaclarının) altından çaylar axan cənnətlər vardır ki, orada əbədidirlər. Həmçinin pak olan zövcələrə Allah tərəfindən razılıq vardır. Allah Öz bəndələrini görəndir".

Bu ayədə bundan əvvəlki ayəyə işarə edilir. Bundan öncəki ayədə oxuyuruq:

زُيِّنَ لِلنَّاسِ حُبُّ الشَّهَوَاتِ مِنَ النِّسَاء وَالْبَنِينَ وَالْقَنَاطِيرِ الْمُقَنطَرَةِ مِنَ الذَّهَبِ وَالْفِضَّةِ وَالْخَيْلِ الْمُسَوَّمَةِ وَالأَنْعَامِ وَالْحَرْثِ ذَلِكَ مَتَاعُ الْحَيَاةِ الدُّنْيَا وَاللّهُ عِندَهُ حُسْنُ الْمَآبِ

-Qadınlar və övladlar, qızıl və gümüş kimi toplanılan çoxlu mallar, nişan qoyulmuş atlar, dördayaqlılar və əkin yerləri kimi istənilən və arzu edilən

şeylərin (dünya mallarının) məhəbbəti insanlar üçün zinətləndirilmişdir. Halbuki bunlar dünya həyatından faydalanmaq vasitəsidir. Gözəl qayıdış yeri isə Allahın yanındadır.

Bu ayədə sadalanan amillərin heç biri insan üçün hədəf qoyulmayıb. Bütün bunlar insanın hədəfə çatması üçün bir vasitədir. Bunları sadaladıqdan sonra Peyğəmbər(s) belə buyurur: "De: "Sizə bunlardan da xeyirlisini xəbər verimmi? Təqvalılar üçün Rəbbi yanında (evlərinin və ağaclarının) altından çaylar axan cənnətlər vardır ki, orada əbədidirlər. Həmçinin pak olan zövcələr və Allah tərəfindən razılıq vardır. Allah Öz bəndələrini görəndir".

Bu dünyanın həm müddəti azdır, həm də nemətləri əldən çıxasıdır. Kimliyindən asılı olmayaraq hər kəs bu dünyada əldə etdiyi nemətlərin hamısını tərk etməyə məhkumdur. Amma cənnətin nemətləri isə əbədidir. Bunu bilmək insan üçün çox mühümdür. İnsan bilməlidir ki, onu əbədi bir həyat gözləyir. Həmin ayələrdə Allah-təala dünya nemətlərini sadaladıqdan sonra onların gəldi-gedər olmasını bəyan edir. Sonra cənnətin nemətləri haqda söz açır və daha böyük bir nemətə işarə edərək buyurur ki, həmin təqvalı insanlara Allahın rizvanı vardır. Bundan başa düşürük ki, cənnətin ən böyük neməti Allahın rizvan və rizayətidir. "Tövbə" surəsinin 72-ci ayəsində buyurulur:

وَعَدَ اللّهُ الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ
خَالِدِينَ فِيهَا وَمَسَاكِنَ طَيِّبَةً فِي جَنَّاتِ عَدْنٍ وَرِضْوَانٌ مِّنَ اللّهِ أَكْبَرُ
ذَلِكَ هُوَ الْفَوْزُ الْعَظِيمُ

-Allah mömin kişilərə və möminə qadınlara (ev və ağaclarının) altından çaylar axan, əbədi qalacaqları cənnətlər vəd etmişdir. Həmçinin əbədi cənnətlərdə pak məskənlər! Allah tərəfindən olan razılıq (isə bütün nemətlərdən) böyükdür. Budur böyük uğur və qurtuluş!

Həzrət Peyğəmbərdən(s) ədn cənnəti haqqında soruşduqda belə buyurdu:

عَدن دَارُ اللهِ الَّتِى لَم تَرَهَا عَينٌ وَلَم يَخطُر عَلَى قَلبِ بَشَرٍ لا يَسكُنُهَا غَيرُ ثَلاثَةٍ: اَلنَّبِيِّين وَالصِّدِيقِين وَالشُّهَداء

-Ədn cənnəti heç bir gözün görmədiyi və heç kəsin təsəvvür etmədiyi Allahın bir evidir. Orada üç qrup insanlardan başqa heç kəs məskunlaşmayacaq. Peyğəmbərlər, sadiq insanlar (sədaqətlə iman gətirənlər) və şəhidlər.[1]

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ سَرَّهُ اَنْ يَحْيا حَياتِى و يَمُوتُ مَمَاتِى ويَسكنَ جَنَّتِى الَّتِى وَعَدَنِىَ اللهُ رَبِّى جَنَّاتِ عَدنٍ...فَلِيُوالِ عَلِيَّ بنَ اَبِى طَالِب وَ ذُرِّيَتَهُ مِنْ بَعْدِى

Digər bir hədisdə Həzrət(s) belə buyurur: “Hər kəs mənim kimi yaşamaq, mənim kimi dünyadan getmək və Allahın mənə vəd verdiyi ədn cənnətində mənimlə sakin olmaq istəyirsə, məndən sonra Əli ibn Əbu Talibi və onun övladlarını (imamları) sevərək vilayətlərini qəbul etməlidir.”[2]

---

[1] Təfsiri-nümunə, 8-ci cild, səh.38.
[2] Yenə orada

Deməli, bu hədis bizə yol göstərir ki, ədn cənnətlərinə çatmaq istəyən şəxs Peyğəmbərdən(s) sonra Əli(ə) və onun övladlarından olan imamların vilayətini qəbul etməlidir. Həzrət Peyğəmbər(s) bu hədisdə cənnət bağlarının ünvanını bizə göstərir. Deməli, cənnət bağlarında peyğəmbərlər, siddiqlər və şəhidlər məskunlaşacaq. Həzrət Peyğəmbəri(s) orada ziyarət etməyin ünvanı isə Əlinin(ə) və onun övladlarından olan imamların məhəbbət və vilayətidir.

قَالَ رَسُولُ اللهِ(ص): عَلِيٌّ مِنِّي كَنَفْسِي طَاعَتُهُ طَاعَتِي وَ مَعصِيَتُهُ مَعصِيَتِي

-Həzrət Peyğəmbər(s) buyurur: "Əli mənə özüm kimidir. Ona itaət etmək mənə itaət etmək, ona qarşı üsyan etmək mənə qarşı üsyan etməkdir."[1]

عَن عُمر بن الخْطّاب، قال: أَشهد عَلى رَسُولِ اللَّه صَلّى اللَّه عَلَيه وَآلِه وَسَلّم سَمِعتُهُ وَهُو يَقُول: لَو أَنَّ السَّمَواتِ السَّبع وَالأَرَضِينَ السَّبع وُضِعَت فِي كَفَّةِ مِيزانٍ وَ وُضِعَ اِيمَانُ عَليٍّ بنِ أَبِي طَالِب فِي كَفَّةِ مِيزانٍ، لَرَجَّحَ اِيمانُ عَلِيّ عَلَيهِ السَّلام

-Ömər ibn Xəttab deyir: "Həzrət Peyğəmbərdən(s) eşitdim ki, belə buyurdu: Yeddi qat göyləri və yerləri tərəzinin bir gözünə, Əli ibn Əbu Talibin imanını isə digər gözünə qoysalar, Əlinin imanı ağır gələr." [2]

---

[1] Camiül-əxbar, 5-ci fəsil, səh. 13.
[2] Kənzül-ümmal, 11-ci cild, səh. 617. Camiül-əxbar, 5-ci fəsil, səh. 14.

عَن عُمر بن الخْطّاب، قال: عَجَزَتِ النِّسَاء أَن تَلِدنَ مِثلَ عَليَّ بنَ اَبِي طَالِب

Yenə də ikinci xəlifə Həzrət Əlinin(ə) barəsində söhbət edərkən dedi: “Bütün dünyanın qadınları Əli(ə) kimi ikinci bir şəxsiyyəti dünyaya gətirməkdə acizdirlər.”[1]

قَالَ رَسُولُ اللهِ(ص): يا عَلِيّ حَربُكَ حَربِي وَ سِلمُكَ سِلمِي وَ أَنتَ العَلَمُ بَينِي وَ بَينِ أُمَّتِي

-Həzrət Peyğəmbər(s) buyurur: “Ya Əli, səninlə müharibə edən mənimlə müharibə etmişdir. Səninlə sülh və barış içində olan mənimlə sülh etmişdir. Çünki mənimlə ümmətim arasında olan əlamət və nişan sənsən.”[2]

Deməli, ayədən açıq-aydın görürük ki, Allah-təala cənnətin nemətlərini sadaladıqdan sonra Allahın rizayətinin bunlardan daha üstün olduğunu bəyan edir. İnsan üçün də ən böyük xoşbəxtlik Allahın rizvanıdır. Bunu da bilməliyik ki, Allahın rizayətini hər adam əldə edə bilmir. Hətta cənnətə gedənlərin çoxu da buna nail ola bilmirlər.

İmam Sadiq(ə) buyurur: “Günlərin birində Kəbənin yanında avam bir kişi Allahla minacat edir. Onun bu minacatından xoşum gəldi. O, Kəbənin pərdəsindən tutub yalvararaq Allaha belə deyirdi: “İlahi, ola bilsin ki, Sən

---

[1] Əl-Ğədir, 6-ci cild, səh. 11. Mənaqibi-Xarəzmi, səh. 88.
[2] Yənabiül-məvəddə. Əl-mənaqib, səh.50, hədis -73.

məndən razı olmayasan, amma məni bağışlamağını diləyirəm.”

Bu o demək deyil ki, Allahın bağışladığı və cənnətə apardığı insanların hamısı Allahın rizayətini əldə etmişlər. İnsan cənnətə gedə bilər, cənnətin yüksək dərəcələrində qərar tuta bilər, amma Allahın rizayətini qazanmaq hər insanın işi deyil.

## Allahın rizvanı və təcəllası

Bəzi hədislərdə deyilir ki, cənnətdə elə bir məqam vardır ki, Allah Özünü bəndələrə təcəlla etdirəcək. Yəni Allah-təala hüsnünü, qüdrətini, əzəmət və nurunu təzahür etdirəcək. Allahın təcəllası elə bir şeydir ki, bu dünyada çox az insan onun nişanəsini görmüşdür. Allah-təala cənnətdə möminlərə təcəlla etdikdən sonra belə buyuracaq: “İndi isə Məndən hər nə istəyə bilərsiniz. Möminlər deyəcəklər: İlahi, Sənin rizvan və razılığını istəyirik.”

Deməli, belə bir nəticəyə gəlirik ki, Allahın rizayət və razılığı insan üçün Onun təcəllasından daha üstün və şərafətlidir. Bu məqam və razılıq təqvalı insanlara bəxş olunacaq. “Qaf” surəsinin 33-35-ci ayələrində oxuyuruq:

مَنْ خَشِيَ الرَّحْمَن بِالْغَيْبِ وَجَاء بِقَلْبٍ مُّنِيبٍ. ادْخُلُوهَا بِسَلَامٍ ذَلِكَ يَوْمُ الْخُلُودِ. لَهُم مَّا يَشَاؤُونَ فِيهَا وَلَدَيْنَا مَزِيدٌ

-Rəhman olan Allahdan gizlində (heç kəsin onu, onun isə axirəti görmədiyi halda) qorxan və tövbəkar və sızıltılı qəlblə (Allahın görüşünə) gələn kəs (üçün)! (Onlara deyiləcək:) “(Allah və mələklər tərəfindən) salamla (və əbədi salamatlıqla) ora daxil olun. (Müjdə olsun sizə ki,) bu gün əbədiyyət günüdür. Orada onlar

üçün istədikləri (hər bir) şey vardır. Bizim yanımızda (onların təsəvvür və istəklərindən xaric) daha artıq (nemətlər) mövcuddur.

Bu ayənin axırında buyurulur ki, “bizim yanımızda daha artıq nemətlər də mövcuddur.” Bu nemətləri Allah-təala xüsusi bəndələrə inayət edəcək. Təfsir kitablarında Allah yanında daha artıq olan neməti belə şərh etmişlər. “Daha artıq” üç mənəvi nemətdir ki, hamıya şamil olunmayacaq. Bu üç nemət əlaçı və birinci yeri tutanlara bəxş ediləcək. Həmin üç nemətin biri Allahın xüsusi hədiyyəsidir. Bu hədiyyənin nə olduğunu Allahdan başqa heç kəs bilmir. “Səcdə” surəsinin 17-ci ayəsində buna işarə edilərək buyurulur:

فَلَا تَعْلَمُ نَفْسٌ مَّا أُخْفِيَ لَهُم مِّن قُرَّةِ أَعْيُنٍ جَزَاء بِمَا كَانُوا يَعْمَلُونَ

-Etdikləri işlərin mükafatı olaraq onlar üçün gözlərə işıq gətirənlərin gizlədildiyini heç kəs bilməz!

Allahın bu hədiyyəsi heç bir kəsin görmədiyi elə bir xüsusi hədiyyədir ki, bəxş edildiyi insanın gözlərini aydınlaşdıracaq. Həmin üç nemətin ikincisi birincisindən daha mühümdür. Bu xüsusi nemət Allah tərəfindən onlara göndərilən salamdır. Bu elə bir salamdır ki, həmin hədiyyədən daha üstün tutulacaq. “Yasin” surəsinin 58-ci ayəsində buyurulur:

سَلَامٌ قَوْلًا مِن رَّبٍّ رَّحِيمٍ

-(Onlara) salam vardır. (Bu salam) rəhimli Rəbbdən (gələn) bir sözdür.

Üçüncü mənəvi nemət isə Allahın onlardan razılığıdır. Bu mənəvi nemət qeyd olunan iki nemətdən daha mühümdür. Allah-təala “Tövbə” surəsinin 72-ci ayəsində buyurur:

وَرِضْوَانٌ مِّنَ اللَّهِ أَكْبَرُ

-Allah tərəfindən olan razılıq *(isə bütün nemətlərdən)* böyükdür.

Allahın razılığı insana verilən ən böyük nemət və axırıncı dərəcədir. Ola bilsin ki, insana cənnət versin, ola bilsin ki, insana təcəlla etsin, ola bilsin ki, insana salam versin, amma Onun razılığını əldə etmək asan məsələ deyil.

Oxuduğumuz ayə və hədislərdən sadəcə bizə aydın olur ki, Allahın müqəddəratına razı olmaq çox mühüm məsələdir. Lakin həmin razılığı insan özü əldə etmədən oxumaqla və eşitməklə bunu başa düşməz. Əgər insan ömrü boyu bu haqda oxuyub öyrənsə, lakin özündə Allaha qarşı razılıq olmasa, rizayətin mənasını başa düşməsi qeyri-mümkündür. Çünki demək, eşitmək, oxumaq başqa və başa düşüb dərk etmək tamamilə başqa şeydir. Razılıq məsələsi eşq kimidir. Eşqin mənasını yalnız aşiqlər bilərlər. Ədəbiyyat və şeirlə, yaxud danışmaq və eşitməklə insan aşiq olmur. Aşiq odur ki, özü bu eşqi yaşasın. Allah eşqinə çatmaq istəyən insan bir ömür ibadət etməli və öz sədaqətini bildirməlidir. İnsan özündə riza amilini yaratmayınca və bunu yaşamayınca onun nə olduğunu başa düşməyəcək.

قَالَ رَسُولُ اللهِ(ص): اِنَّ اللهَ تَبَارَكَ وَ تَعَالى يَغْضِبُ لِغَضَبِ فَاطِمَة وَ يَرضَى لِرِضَاهَا

-Həzrət Peyğəmbər(s) buyurur: “Həqiqətən, Allah-təala Öz qəzəbini Fatimənin qəzəbi, Öz razılığını onun razılığı kimi əsaslandırıb. (Fatimənin qəzəbləndiyi kəsə

Allah qəzəblənmiş, onun razı olduğu kəsdən Allah da razı olmuşdur.)”[1]

Bu hədis elə bir hədisdir ki, bir çox kitablarda nəql olunmuşdur. Görün, Fatimə(s.ə) hansı məqam və dərəcədədir ki, Allah Öz razılığını onun razılığında qoymuşdur. Həzrət Fatimə(s.ə) kimin barəsində razılığını bildirsə, Allah da həmin şəxsə Öz rizayətini nəsib edəcək. Fatimə(s.ə) Allahın yer rizayətinin qapısıdır.

Allah-təala Öz rizayətini hamımıza nəsib etsin. İnşallah!

---

[1] Kənzül-ümmal, 13-cü cild, səh.174.

# MÜNDƏRİCAT


**QURANDA İMAN GƏTİRƏNLƏRƏ XİTABLAR**
**İkinci nümunə**

**ORUC TUTMAĞIN VACİBLİYİ** ....................................
**Ramazanın mənası**..........................................................
**Mübarək ramazanın adları**...............................................
Allahın ayı...................................................................................
Allahın böyük ayı ......................................................................
İlahi ziyafət ................................................................................
Quranın nazil olduğu ay .............................................................
Quran oxunan ay ........................................................................
Müvasat (həmdərdlik və köməklik) ayı ...................................
Orucluq ayı..................................................................................
Müsəlmançılıq ayı .......................................................................
Saflıq ayı .....................................................................................
Paklıq ayı (paklaşdırıcı ay) .....................................................
Məğfirət ayı..................................................................................
Rəhmət və mərhəmət ayı ...........................................................
Tövbə ayı......................................................................................
Qayıdış ayı ...................................................................................
İstiğfar ayı ...................................................................................
Dua ayı.........................................................................................
İbadət və itaət ayı .......................................................................
Allah dostlarının bayramı .........................................................
Səbir ayı ......................................................................................
Bərəkət ayı ..................................................................................
Bərəkətli ay .................................................................................
Namaz ayı....................................................................................
Ayların sultanı.............................................................................
Quranın baharı.............................................................................
Fəqirlərin baharı .........................................................................
**Mübarək Ramazan ayının fəzilətləri**.................................

**QURANDA İMAN GƏTİRƏNLƏRƏ XİTABLAR**
**Üçüncü nümunə**

**TƏQVA** ........................................................................
Təqvanın mənası........................................................................
Təqvanın mərhələləri........................................................................
Təqvanın haqqı nədir? ........................................................................
**Təqvanın faydaları** ........................................................................
**Təqva insanın kamilliyinə səbəb olur** ..................................
**Təqva ilə səbir bir-birinə bağlıdır** ....................................
**TƏQVALI İNSANIN SİFƏT VƏ XÜSUSİYYƏTLƏRİ** ........
Düz söz danışmaq və sözün düzünü qəbul etmək ..................
İlahi əmrləri dəqiqliklə yerinə etmək....................................
Gecə oyaq qalmaq (gecə namazı qılmaq) və Allahdan bağışlanma diləmək........................................................
Allaha, axirətə, mələklərə, səmavi kitablara və peyğəmbərlərə iman gətirmək........................................................................
İslamda infaq........................................................................
Namaz ........................................................................
Zəkat ........................................................................
Əhdə vəfa etmə........................................................................
Səbir........................................................................
Qəzəbi boğmaq........................................................................
Güzəşt etmək və bağışlamaq ..............................................
**TƏQVANIN FAYDA VƏ NƏTİCƏLƏRİ** .........................
Allah təqvalı insanı düşmənlərin şərindən qoruyar................
Təqva qələbəyə və iki dünya xoşbəxtliyinə səbəbdir............
Təqva insanın bəsirətliliyinə səbəb olur ................................
Allah təqvalı insanın işlərini asanlaşdırar ..............................
Təqva insanı şeytanın vəsvəsələrindən qoruyur.....................
Təqva insanın Allaha yaxınlaşmasına səbəb olur ..................
Təqva insanın Allahla dostluğuna səbəb olar.........................
Təqva insanı çətinliklərdən çıxarır .......................................

Təqva nigarançılığı aradan qaldırır və insanı yaxşı gələcəyə ümidvar edir ........................................................................
Təqva bərəkətin nazil olmasına səbəb olur ..........................
**Bərəkətin bariz nümunələri və onun səbəbləri ..................**
**Allahın zatı və onun mübarək adları.................................**
**Quran ( Allahın kəlamı) .....................................................**
**Bərəkətli məkanlar ...........................................................**
Qüds məscidi........................................................................
Kəbə .....................................................................................
Mültəzəm..............................................................................
**Bərəkətli zamanlar ...........................................................**
Sübh çağı..............................................................................
Cümə günü ...........................................................................
Rəcəb ayı..............................................................................
Şəban ayı ..............................................................................
Ramazan ayı .........................................................................
Qədr gecəsi...........................................................................
Səhər çağı .............................................................................
Külək əsən, yağış yağan zaman, zöhr vaxtı, möminin qanı yerə tökülən zaman...............................................................
**Bərəkətli insanlar .............................................................**
Peyğəmbərlər.......................................................................
İslam Peyğəmbəri(s) ...........................................................
Əhli-beyt ..............................................................................
Camaat .................................................................................
Mömin..................................................................................
Qocalar (Ağsaqqallar və ağbirçəklər) ..................................
Xeyirxah insanlar ................................................................
Qız övladı.............................................................................
Kəmxərc qadın ....................................................................
**Bərəkətə səbəb olan əməllər..............................................**
İnfaq və sədəqə.....................................................................
Yemək yedirtmək (acları doyurmaq) ...................................

Qohum-əqrəbaya baş çəkmə................................................
Qonşu ilə xoş davranmaq ....................................................
Yaxşı işlər görmək.............................................................
Həyatda orta həddi gözləmək ..............................................
Təmizlik ............................................................................
Alqı-satqıya asan yanaşma ..................................................
Borc və ya nisyə mal vermək...............................................
Birlikdə süfrə kənarında əyləşmək .......................................
Ağıllı insanlarla oturub-durmaq ...........................................
İzdivac (ailə qurmaq)..........................................................
Xəstəyə baş çəkmək ...........................................................
Təqva və Allaha itaət..........................................................
**Bərəkətə gətirən zikrlər........................................................**
"Bismillah" demək .............................................................
İstiğfar ...............................................................................
Salavat...............................................................................
**Bərəkət gətirən ibadətlər.....................................................**
Namaz ...............................................................................
Orucluq..............................................................................
**Bərəkətə səbəb olan gözəl xüsusiyyətlər...............................**
Xoşəxlaq............................................................................
Doğru danışmaq ..................................................................
Səxavət .............................................................................
Əmanətdarlıq......................................................................
Qənaət ...............................................................................
Rizayət ..............................................................................
**Bərəkətin qarşısını alan maneələr ........................................**
Günah.................................................................................
Namaza laqeyd yanaşma .....................................................
Cümə namazını əhəmiyyətsiz saymaq .................................
Nankorluq ..........................................................................
Əmr be məruf və nəhy əz münkər etməmək .........................
**Təqva əməllərin qəbul olunmasına səbəb olur ..................**
**Təqvalı insanlara müjdə verilər .........................................**

**TƏQVANIN ÜXRƏVİ FAYDALARI ................................**
Böyük mükafat ...........................................................................
Günahların örtülməsi və səhvlərin təmizlənməsi ...................
Cənnətə daxil olmaq izni .......................................................
Qarşılama mərasimi və cənnət gözətçilərinin salamı .............
Allahın rizvanı.........................................................................